İSSN 2708-955X

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF EDUCATION OF AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS
MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ

CONFERENCE PROCEEDINGS

2020 № 8

SDU
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

SUMQAYIT - 2020

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF EDUCATION OF AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS
MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ

CONFERENCE PROCEEDINGS

2020 № 8

SUMQAYIT – 2020
СУМГАИТ – 2020
SUMGAYIT – 2020

Sumqayıt Dövlət Universiteti
Konfrans materialları

REDAKSİYA HEYƏTİ

ELXAN HÜSEYNOV *prof., rektor (baş redaktor)*
RAMAZAN MƏMMƏDOV *prof., elm və innovasiyalar üzrə prorektor, (baş redaktor müavini)*
ƏKBƏR AĞAYEV *prof. (təbiət və texniki elmlər bölməsi üzrə məsul katib)*
NİGAR İSGƏNDƏROVA *prof., (sosial və humanitar elmlər bölməsi üzrə məsul katib)*

Сумгаитский государственный университет
Материалы конференций

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

ЭЛЬХАН ГУСЕЙНОВ *проф., ректор (главный редактор)*
РАМАЗАН МАМЕДОВ *проф., проректор по науке и инновациям (заместитель главного редактора)*
АКПЕР АГАЕВ *проф. (ответственный секретарь раздела естественных и технических наук)*
НИГЯР ИСКЕНДЕРОВА *проф., (ответственный секретарь раздела социальных и гуманитарных наук)*

Sumgayit State University
Conference proceedings

EDITORIAL BOARD

ELKHAN HUSEYNOV *prof., rector (chief editor)*
RAMAZAN MAMMADOV *prof., vice-rector for science and innovations, (deputy chief editor)*
AKBAR AGAYEV *prof. (executive secretary of the department of natural and technical sciences)*
NIGAR ISGANDAROVA *prof., (executive secretary of the department of social and humanitarian sciences)*

CƏMİYYƏTƏ İNTEQRASİYA VƏ SOSİAL ADAPTASİYA: NƏZƏRİ VƏ PRAKTİK ASPEKTLƏR

RESPUBLİKA ELMİ KONFRANS

(26-27 noyabr 2020-ci il)

ИНТЕГРАЦИЯ В ОБЩЕСТВО И СОЦИАЛЬНАЯ АДАПТАЦИЯ: ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ АСПЕКТЫ

РЕСПУБЛИКАНСКАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ

(26-27 ноября 2020-го года)

INTEGRATION INTO SOCIETY AND SOCIAL ADAPTATION: THEORETICAL AND PRACTICAL ASPECTS

REPUBLICAN SCIENTIFIC CONFERENCE

(26-27 November 2020)

PLENAR İCLAS

DAĞLIQ QARABAĞ MÜHARİBƏSİ VƏ ONUN SOSİAL- PSİXOLOJİ TƏHLİLİ

Əliyev R.İ.
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Millət yoludur, haqq yoludur tutduğumuz yol,
Ey haqq, yaşa! Ey sevgili millət, yaşa, var ol!
Tofiq Fikrət

***Xülasə*:** Hər bir xalqın öz xarakteri, öz taleyi var. Azərbaycan xalqının da taleyinə çox təəssüf ki, erməni kimi mənfur, yalançı, şərəfsiz millətlə qonşu olmaq və illərlə onların dənizdən-dənizə böyük Ermənistan xülyasını gerçəkləşdirmək uğrunda apardıqları ədalətsiz "Dağlıq Qarabağ müharibəsi"nin ağrı-acısını, faciəsini yaşamaq yazıldı. Erməni tarixi yalan, süni vay-şüvən üzərində qurulub. Doğrudur, müəyyən vaxtlarda belə yalançı xislətləri ilə uğur qazana biliblər. Onların tarixi olmayan "soyqırım" və yalandan quraşdırılmış milli miflərdən ibarətdir. Amma ermənilər unutdu ki, bu müharibə onların məhvidir. Çünki ekstremal şəraitdə bir tərəfdən ağılın gücü azalır, digər tərəfdən isə qələbəyə can atan instinkt güclənir.

Müharibədə qalib gəlməyin isə ən vacib şərtlərindən biri qələbəyə inamdır. Xalqımız ölkə başçısına, Ali Baş Komandanına, ordumuza inanırdı. Ordunun ardıcıl şəkildə qazandığı qələbələr xalqı ruhlandırırdı. Prezidentimizin ardıcıl, əsaslandırılmış, qətiyyətli siyasəti qalib gələcəyimizə qətiyyən şübhə yeri qoymurdu.

Açar sözlər: Qələbə, müharibə, Dağlıq Qarabağ, Azərbaycan xalqı, inam, Ali Baş Komandan, sosial-psixoloji təhlil

"Dənizdən dənizə Böyük Ermənistan" yaratmaq xülyası uzun illərdir ki, ermənilərin məqsədi olmuş və aramsız şəkildə bu yolda çalışmışlar. Özlərinin heç vaxt müstəqil dövləti olmayan, lakin yaşadıqları ərazidə başağrısına çevrilən ermənilər daim fürsət gözləmiş, onlar üçün əlverişli şərait yarandıqda ondan maksimum istifadə etməyə çalışmışlar.

Bir çox hallarda onların istəyi ilə müəyyən dövlətlərin istəyi üst- üstə düşmüşdür. Belə bir vəziyyət Çar Rusiyası ilə (1813-1825) İran dövləti arasında gedən müharibədə yarandı. Nəticədə müxtəlif yerlərdən Dağlıq Qarabağa ermənilərin köçü başladı. Vahid bir ərazidə, sıx şəkildə yaşamaq, süni şəkildə say artımı ermənilərin bu ərazidə öz istəklərini reallaşdırmaq imkanı yaratdı.

Əvvəlcə, Ermənistan Respublikası, daha sonra Dağlıq Qarabağ Vilayəti yaradıldı. Daha sonra azərbaycanlılar Ermənistandan- əzəli torpaqların Azərbaycana köçürüldülər.

Nəhayət, 1988-ci ildə müstəqillik istəyi ilə ermənilər Dağlıq Qarabağda mitinqlərə başladılar. Bunun üçün bəhanə lazım idi. Təbii ki, mobil hazırlıqlı olan erməni diasporu, SSRİ rəhbərlərinin, xüsusən M.S.Qorbaçovun xəyanətkar mövqeyi ermənilərə həvəsləndirdi. Sumqayıt hadisələri, 20 yanvar qırğını və bunların dünyaya yayılması, azərbaycanlıların "Vəhşi obrazının" yaradılması ermənilərin tərəfdarlarını, havadarlarını çoxaltdı. Hərtərəfli təzyiqlər, Azərbaycandakı qeyri-sabitlik Dağlıq Qarabağın və ətraf rayonların itirilməsi ilə nəticələndi.

Cəzasızlıq, mənfur ermənilərin xeyrinə birtərəfli mövqe onları daha da azğınlaşdırır, Azərbaycan ərazilərini zəbt etmək istəyini gücləndirirdi. Azərbaycan xalqı sanki ikili hiss yaşayırdı: torpaq itkisi, torpaq həsrəti, ümidsizlik, qürurun tapdalanması və eyni zamanda düşdüyü vəziyyətlə

barışmamaq, vəziyyətdən çıxış yollarının axtarılması... Münbit şəraitin yaranmasını gözləmək lazım gəlirdi.

Lakin taleyin də öz qəribə qaydaları var. Başqa sözlə, hər bir insanın öz xarakteri, taleyi olduğu kimi, hər bir xalqın da öz xarakteri, taleyi var. 1993-cü ildə siyasi uzaqgörənliyi, diplomatik gedişləri, zəngin təcrübəsi ilə tanınmış dünya liderlərini mat qoyan Heydər Əliyev hakimiyyətə gəldi və həm daxili, həm beynəlxalq vəziyyəti, həm də ölkəmizin iqtisadi və digər imkanlarını nəzərə alaraq 1994-cü ilin may ayında "Atəşkəs"ə nail oldu. Qaçqın və köçkünləri yerləşdirmək, ölkədə sabitlik yaratmaq, dağılmış iqtisadiyyatı bərpa etmək lazım idi.

Həm ölkənin iqtisadiyyatını dirçəltmək, həm də müstəqilliyini gücləndirmək baxımından "Əsrin müqaviləsi"nin imzalanması çox böyük əhəmiyyətə malik hadisə idi. Danılmaz həqiqətdir ki, həmin vaxt Azərbaycan adlı ölkəni tanıyan yox dərəcəsində idi. Dağlıq Qarabağın tanınmasından söhbət belə gedə bilməzdi. Ulu Öndər həmin vaxtlar səfər etdiyi ölkələrə özü ilə Azərbaycanın xəritəsini aparır, Dağlıq Qarabağın harada, hansı ərazidə yerləşdiyini dünyaya göstərirdi. Lakin dünya Dağlıq Qarabağın kimin olmasının, ədalətin kimin tərəfində olmasının fərqində deyildi. Müxtəlif adlarla mobil şəkildə birləşmiş erməni diasporu lazım olan bütün vasitələrdən istifadə edir, hətta nüfuzlu adamların ailəsinə soxulmaqdan belə çəkinmirdi. Məsələn, Nobel mükafatı laureatı, beynəlxalq aləmdə yüksək nüfuza malik akademik Dimitri Saxarovla ailə qurmuş milliyyətcə erməni Boner Əlixanyanın vasitəsilə ermənilər öz xeyirlərinə Saxarovdan maksimum istifadə edirdilər.

Ruhu sındırılmış Azərbaycan xalqına ölkə xaricində digər millətlər məğlub, məzlum xalq kimi baxırdılar. Ermənilər özlərinin məğlubedilməzliyinə həm başqalarını inandırmış, həm də özləri inanmışdılar.

Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Minsk qrupu yaradılanda Rusiya və Fransanın həmsədrliyi təsdiq olunmuşdu. Siyasət ustadı Heydər Əliyev bu həmsədrliyin yaxşı nəticə verməyəcəyini bilirdi. Lakin həmin dövrdə həmsədrlərin dəyişdirilməsi mümkün deyildi. Fransa prezidenti ilə görüş zamanı Jak Şirak Heydər Əliyevi inandırmağa çalışır ki, o, ədalətli, bitərəf mövqe tutacaq. Heydər Əliyevin cavabı belə olur: " Bəs sonra?.."

Heydər Əliyevin təkidi ilə Minsk qrupu həmsədrliyinə ABŞ da daxil edilir. Heydər Əliyevin nə qədər haqlı olduğunu zaman göstərdi. Bölgədə heç vaxt Rusiya ilə ABŞ-ın maraqları üst-üstə düşə bilməz. Fransanın hazırkı Prezidenti Emmanuel Makronun mövqeyi isə hər kəsə məlumdur.

2003-cü ildə Azərbaycanın prezidenti seçilən İlham Əliyev haqqında ən səlis və dəqiq fikri Heydər Əliyev söyləmişdi: "Mən İlhama özüm qədər inanıram".

Xalqın bəxti yenə gətirmişdi. Gənc, yüksək səviyyəli təhsil almış, gənc vaxtlarından Avropanın nüfuzlu təşkilatlarında Azərbaycanı şərəflə təmsil edən İlham Əliyevin torpaq, xalq sevgisi ona güc, qüvvət və inam verirdi. İlham Əliyev həm dünya güclərinə, ermənilərin himayədarlarına, eləcə də Azərbaycan xalqına bəyan edirdi ki, münaqişə bitməyib, sadəcə onun birinci mərhələsi başa çatıb.

Əgər XX əsrin sonlarında müstəqil Azərbaycan Respublikasını tanıyanlar barmaqla sayılırdısa, XXI əsrin əvvəllərində Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının üzvü olaraq beynəlxalq məsələlərin həllində söz sahibinə çevrilmişdi.

Ermənilərin başında məğlubedilməzlik, təkəbbürlük havası getdikcə güclənir, onlar təxribatlar törədir, azərbaycanlıları aramsız atəşə tutur, hətta Azərbaycanın dövlət sərhəddini pozmağa cəhd göstərirdilər.

Cari ilin iyul ayındakı Tovuz döyüşləri hadisələrin pik nöqtəsini yaxınlaşdırırdı. 2016-cı il aprel döyüşləri və ermənilərin məğlubiyyəti, Tovuz döyüşlərindəki uğursuzluq ermənilərin

“məğlubedilməz ordusu”, “Ohanyan səddi”, istehkamlar və s. barədəki təsəvvürləri ilə üst-üstə düşmürdü. Özlərinin ruh yüksəkliyini, qalib gəldiklərini sübut etmək üçün erməni baş nazirinin arvadının Azərbaycan tərəfə silah tuşlaması və nəhayət, N.Paşinyanın Şuşada sərxoş vəziyyətdə rəqs etməsi bir tərəfdən özündən razılıq, saymazlıq idisə, digər tərəfdən azərbaycanlıların milli qürurunun tapdalanması idi. N.Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” deməsi danışıqların artıq boş və mənasız olmasını göstərirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Qarabağ Azərbaycandır və Nida” söyləməsi, dünya güclərinə səslənməsi və bu çağrışların susqunluqla qarşılanması müharibədən başqa bir yol qoymurdu. Beynəlxalq təşkilatların, böyük dövlətlərin kompromis istəyi öz mənasını itirirdi. İki fərqli fikir, iki barışmaz mövqe qarşı-qarşıya dayandıqda kompromis yalnız müvəqqəti xarakter daşıyır. Kompromis heç vaxt məsələnin tam, qəti həlli ola bilməz. Qarşıdurma zamanı barışdırıcı mövqe tutanlar özləri də bu sahədə uğursuzluğa düçar olurlar. Tarix sübut edir ki, belə məsələlər tam və qəti, həm də ədalətlə, obyektiv şəkildə həll olunmadıqda dərinləşdirilmiş şəkildə sonrakı mərhələyə daxil olur. Müharibə artıq qaçılmaz idi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi, yüksək diplomatik, siyasi qabiliyyəti onu bir gün ərzində dövlət başçısı ilə yanaşı, həm də xalqın Liderinə çevirdi. Dövlət və vətəndaş həmrəyliyi yarandı. Müharibənin elə ilk günü yeddi kəndin işğaldan azad olunması xəbəri xalqda, orduda böyük bir ruh yüksəkliyi yaratdı və onu əzəmətli gücə çevirdi. Hətta bizə bizə xoş münasibət bəsləməyən dövlətlər belə heyrətə gəldilər. Rusiya televiziya kanallarında İlham Əliyev böyük siyasətçi, diplomat, sərkərdə kimi xarakterizə olunmağa başladı. Hətta bir qədər də qürur hissi keçirərək İlham Əliyevin vaxtilə onların Universitetində təhsil aldığını xüsusi vurğulamağa başladılar.

Erməni hərbiçiləri şok içərisində söyləyirlər ki, Azərbaycan əsgərləri ölümdən qorxmur. Onların üstünə elə gedirlər ki, sanki robotdurlar. Bu vəziyyət isə onlarda təlaş yaradır.

Ermənilər Dağlıq Qarabağ münaqişəsini müharibəyə çevirərkən nəyə ümid edirdilər? Özlərinin məğlubedilməz ordu olduğuna, Rusiyanın, Fransanın onları müdafiə edəcəyinə, erməni lobbisinə və s. Hesab edirdilər ki, onların əvəzinə Qarabağda rus əsgərləri vuruşacaq.

Unudurdular ki, 2020-ci il ilə 1990-cı il arasında kəskin fərq var: Azərbaycan Respublikasının Prezidenti, dünyanın güclü ordularından biri, azərbaycanlıların doğma torpaqlarına qayıtmaq arzusu, Türkiyə, Pakistan, Ukrayna, ümumiyyətlə, ədalətli dövlətlərin Azərbaycanın haqq işini hərtərəfli dəstəkləməsi.

Ermənilərin bütün işi, fəaliyyəti, düşüncəsi tarixi miflər üzərində qurulub. Onlar ən azı tarixin aludəçisinə çevriliblər. Keçmiş, həm də saxta tarix erməni xalqının özünü aldatmasından başqa bir şey deyildir.

Ermənilərdə milli identifikasiya son dərəcə güclüdür: dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq sən ermənisən və sən “böyük ermənistan dövlətinin” yaranmasına xidmət etməlisən.

Ermənilər təxəyyüllərində yaratdıqları mifin nəşəsini yaşayırdılar. Şuşada rəqs edir, toplantı keçirir, azərbaycanlıları Qarabağa qonaq dəvət edirdilər.

Unudurdular ki, azərbaycanlıların milli ləyaqəti, milli hissləri ilə oynamaq olmaz. Bu millət bəlkə nəyisə güzəşt edə bilər, lakin ləyaqət hissi ilə oynamağa imkan verməz. Gözləmirdilər ki, təsəvvür etdikləri kiçik münaqişə Vətən müharibəsinə çevrilər. Unudurdular ki, xalqların arxasında uzun və şərəfli tarix durduqda onlar nə qədər çalışsalar da, bu keçmişdən ayrıla bilməyəcəklər. Onlar hətta bu keçmişi məhv etməyə çalışdıqları zaman belə onun təsiri altında olacaqlar. Türkün qədim, əzəmətli və şərəfli tarixi var...

Erməni tarixi isə yalan, süni vay-şüvən üzərində qurulub. Doğrudur, müəyyən vaxtlarda belə yalançı xislətləri ilə uğur qazana biliblər. Onların tarixi olmayan "soyqırım" və yalandan quraşdırılmış milli miflərdən ibarətdir.

Milli mif özünün qədim tarixi, mədəniyyəti, digər xalqlardan üstün olması üzərində qurulur. Bu, ilk növbədə miflərdə, əfsanələrdə, rəvayətlərdə, arxetiplərdə, ƏDƏBİYYAT və incəsənətdə öz əksini tapır. Filosofların belə bir deyimi var ki, inqilabi yeniliklər nə qədər qorxuludursa, köhnəlikdən yapışıb yerində saymaq da o qədər zərərlidir. Ermənilərin ən böyük bədbəxtliyi ondadır ki, yüz ildən çoxdur "erməni soyqırımı" deyib zarıyırlar. Daha yaxşısı isə dünyada, ətrafda baş verənləri istədiyin kimi yox, olduğu kimi qəbul etməkdir. Ən böyük bədbəxtlik təxəyyüldə yaradılan bədbəxtlikdir. Ermənilərin bədbəxtliyi ondadır ki, Ermənistanda ermənilərdən başqa heç bir millətin nümayəndəsi yaşamır.

Milli mifin əsasını obyektivizm və subyektivizm təşkil edir. Subyektiv olan yaddaşdan silinmir, daimi xarakter daşıyır. Obyektiv olan isə onu reallaşdırmağa çalışır. "Böyük Ermənistan" xülyası neçə yüzilliklərdir ki, ermənilərin şüuruna hakim kəsilib və bu gün də davam edir. Məşhur psixoloq, sosioloq, antropoloq və tarixçi milliyyətcə fransız filosofu Qustav Lebon (1841-1931) göstərir ki, hər bir xalqın əhalisinin böyük əksəriyyətinin psixi quruluşunun çox sadə fizioloji əsası var. Hər bir fərdin damarlarında yalnız valideynlərinin deyil, bir neçə nəsil əcdadlarının qanı axır. Baş verən hadisələrə görə dirilər yox, ölmüş nəsillər cavabdehdirlər.

D.J.Cekson isə yazır: "Biz öz əcdadlarımızın qarşısında borcluyuq. Xalqın topladığı təcrübənin nəticəsi olaraq instinkt beyin və sinir hüceyrələrində istifadə üçün hazır dayanmışdır" [6, s.37].

Bax, ermənilər bunu unudurlar. Ermənilər unutdu ki, bu müharibə onların məhvidir. Çünki ekstremal şəraitdə bir tərəfdən ağılın gücü azalır, digər tərəfdən isə qələbəyə can atan instinkt güclənir. Cəmiyyətin bütün səhnələrini əhatə edən belə vəziyyətdə insanlara ilk növbədə dəhşətli qorxu hissi hakim kəsilir. Bu isə hadisələri qarşısı alınmayan məcraya yönəldir.

Yüzillərdir ki, Azərbaycan xalqında özünəinamsızlıq təlqin edilirdi. Hətta digər xalqlara bizi vəhşi, nadan xalq kimi təqdim edir, haqqımızda mənfi fikir formalaşdırırdılar. Təbii ki, burada ermənilər xüsusi canfəşanlıq göstərirdilər. Əlbəttə, belə təqdimat xaricilərdə bizim haqqımızda səhv fikir formalaşdırırdı.

Qafqaza səyahət edən məşhur fransız yazıçısı Aleksandr Düma (1802-1870) Azərbaycana gələrkən elə zənn edirmiş ki, qorxulu, gözlənilməz hadisələrlə dolu bir torpağa ayaq basır. Azərbaycanlılar haqqında eşitdikləri və onda yaranan, yaradılan təsəvvürlər, kəskin ənənə fərqləri yazıçının bu xalqla yaxından tanışlığı nəticəsində dəyişir. Qarşısında cəngəlliklər qəhrəmanı, insanlığın ən aşağı pilləsində olan, sivilzasiyadan kənar adamlarla rastlaşacağını fikirləşən Düma qarşısında 30-35 yaşlarında olan yaraşıqlı, ciddi, parislilər kimi fransızca danışan azərbaycanlını görəndə təəccübünü gizlədə bilmir: "Boynuma almalıyam ki, onun çox təmiz və çox savadlı bir dillə fransızca danışığını eşidəndə diksindim" [3, s.162].

A.Düma Bakı əhalisinin əsasən tatarlardan (azərbaycanlılardan), farslardan, ermənilərdən ibarət olduğunu bildirir və bu üç xalq, onun xüsusiyyətləri barədə fikrini belə ifadə edir: "Farslarla həmişə ehtiyatlı olun: onun tək imzası sizə inam yox, ehtimal verə bilər. Erməni biləndə ki, doğru söz demək ehtiyatsızlıqdır, bu ehtiyatsızlıq onu iflas edə bilər, dilsizə və saxtakara çevrilib dünənki himayədarı bu gün bərk ayaqdadırsa, ona nankorluq edər. Tatarın (azərbaycanlının) imzasına ehtiyac yoxdur, bircə sözü bəs edər [3, s.169-170].

Müharibədə qalib gəlməyin ən vacib şərtlərindən biri qələbəyə inamdır. Xalqımız ölkə başçısına, Ali Baş Komandanına, ordumuza inanır. Ordunun ardıcıl şəkildə qazandığı qələbələr

xalqı ruhlandırır. Hətta evlərin dağılması, mülki əhaliyə atılan qrad, raket zərbələri nəinki onları sarsıdır, əksinə, daha da mətinləşdirir.

Müharibə bizim tərəfimizdən ədalətlidir, haqq işidir. Ermənilərin ən vəhşi, alçaq hərəkətlərinə baxmayaraq Azərbaycan ordusu beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qaydaları pozmur, mülki əhaliyə qarşı silah işlətmir. Prezidentin dediyi kimi, biz qisasımızı döyüş meydanında alırıq.

Müharibə başlayandan keçən bir ay ərzində İlham Əliyev dünyanın müxtəlif nüfuzlu televiziya və qəzetlərinin müxbirlərinə 20 dəfədən artıq müsahibə verib. Aydındır ki, onların münasibətlərinin heç də hamısı xoş niyyətli deyil. Lakin ölkə Prezidentinin cavabları, şərhləri dünya ictimaiyyətinə bizim mövqeyimizin çatdırılması baxımından son dərəcə əhəmiyyətidir. Daha maraqlısı, əhəmiyyətlisi, həm də qürurlusu isə İlham Əliyevin qərəzli suallara qətiyyətli və faktlara əsaslanan inandırıcı cavablarıdır.

Prezidentimizin ardıcıl, əsaslandırılmış, qətiyyətli siyasəti qalib gələcəyimizə şübhə yeri qoymur. Müharibə təkcə döyüş meydanında yox, həm də informasiya cəbhəsində gedir. Cənab Prezident deyir: "Status-kvo, təmas xətti qurtardı, onu mən dəyişdirdim".

Quduzlaşmış itin beli sındırılanda daha qorxulu olur. Bu halda məsələnin həllinin daha düzgün yolu onun başının əzilməsidir. İnşallah belə də olar.

Qarabağ Azərbaycandır!

ƏDƏBİYYAT

1. Əliyev R.İ. Mentalitet. Bakı: Elm və təhsil, 2009
2. Əliyev R.İ. Etnopsixologiya: qloballaşma və millilik. Bakı: Nurlan, 2007
3. Hamlet Q. Fransızlar yurdum haqqında. Bakı: Yazıçı, 272 s.
4. Алиев Б.Г. Начало новой эпохи: феномен помйигеского медера // Psixologiya, 2013, s.3-24
5. Zamanov A.D., Əliyeva H.İ. Sosial işin əsasları. Bakı: Təhsil işçisi mətbəəsi, 2015, 452 s.
6. Ионин Л.Г. Социология культуры: путь в новое тысячелетие. М.: Логос, 2000
7. Джексон Д.Ж. Как бороться с нашими нервами. М., 1926
8. Лебон Г. Психология народов и масс. М.: Изд-во Павлинкова. 1896

РЕЗЮМЕ
НАГОРНО-КАРАБАХСКАЯ ВОЙНА И ЕЕ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ

Алиев Р.И.

У каждого народа свой характер, своя судьба. К сожалению, судьба азербайджанского народа была написана так, чтобы жить по соседству с ненавистной, лживой, бесчестной нацией, такой как армяне, и испытать боль и трагедию несправедливой "войны в Нагорном Карабахе", которую они вели на протяжении многих лет, чтобы осуществить мечту о великой Армении. История Армении основана на лжи и искусственных слухах. Верно, что временами они добивались успеха с такими ложными качествами. Они состоят из неисторического «геноцида» и ложно установленных национальных мифов. Но армяне забыли, что эта война - их гибель. Потому что в экстремальных условиях, с одной стороны, сила разума уменьшается, а с другой - усиливается инстинкт к победе.

Одно из важнейших условий победы в войне - уверенность в победе. Наш народ верил в Президента, Верховного Главнокомандующего и нашу армию. Последовательные победы армии воодушевляли народ. Последовательная, обоснованная и решительная политика нашего Президента не оставляла сомнений в нашей победе.

Ключевые слова: Победа, война, Нагорный Карабах, Азербайджанский народ, доверие, Верховный главнокомандующий, социально-психологический анализ

SUMMARY

NAGORNO- KARABAKH WAR AND ITS SOCIO-PSYCHOLOGICAL ANALYSIS

Aliev R.I.

Every nation has its own character, its own destiny. Unfortunately, the fate of the Azerbaijani people was written to live next door to the hated, lying, dishonorable nation like the Armenians and to experience the pain and tragedy of the unjust "Nagorno-Karabakh war" that they fought for years to realize the dream of a great Armenia. Armenian history is based on lies and artificial rumors. It is true that at times they have succeeded with such false traits. They consist of non-historical "genocide" and falsely established national myths. But the Armenians forgot that this war is their destruction. Because in extreme conditions, on the one hand, the power of the mind decreases, and on the other hand, the instinct to win increases.

One of the most important conditions for winning a war is confidence in victory. Our people believed in the President, the Supreme Commander-in-Chief and our army. The successive victories of the army inspired the people. The consistent, well-founded and decisive policy of our President left no doubt that we will win.

Key words: Victory, war, Nagorno-Karabakh, Azerbaijani people, trust, Supreme Commander-in-Chief, socio-psychological analysis

ŞAGİRDLƏRDƏ ÖYRƏNMƏ FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASI

Rüstəmov F.A.

Azərbaycan Dövlət Pedaqoji Universiteti

farrukhrustamov@gmail.com

Xülasə: Ümumtəhsil məktəblərində şagirdlərin təlim prosesində uğur qazanmasında daxili motiv Xülasə: Ümumtəhsil məktəblərində şagirdlərin təlim prosesisində uğur qazanmasında daxili notiv mühüm rol oynayır. Tələbatlar, motivlər, stimullar bir-birilə bağlıdır. Stimullar tələbatlara və motivlərə söykənir, onlardan ayrılmazdır. Stimulun seçilməsi hətta böyük adam üçün də çox çətin prosesdir. Şagird üçün bu, xüsusilə çətindir. Burada işi düzgün seçilmiş və tətbiq edilmiş stimullar həll edir. Ona görə də müəllimlər bu işi düzgün təşkil etməli, şagirdləri öyrənmə fəaliyyətini stimullaşdırmalıdırlar.

Açar sözlər: təlim, stimullaşdırma, müəllim, motiv, təhsil

1.Azərbaycan təhsilində aparılan köklü məzmun islahatların əsas hədəfi mükəmməl şəxsiyyət formalaşdırmaqdan ibarətdir. İnsanın əqlinin ruhunun və cisminin ahəngdar inkişafı onun mükəmməlliyinin və kamilliyinin mühüm şərt kimi xarakterizə olunur. Burada insanın tələbatlarına, motivlərinə və onun fəaliyyətinin stimullaşdırılmasına xüsusi diqqət yetirilməlidir. Stimul, tələbat və motiv bir-biri ilə sıx bağlıdır. Sadəcə məqaman asılı olaraq yerlərini dəyişə bilir.

Bütün hallarda stimul seçim etməyə, qərar çıxarmağa və düzgün hərəkət etməyi asanlaşdırır. Məktəblilərin nailiyyət qazanmasında motivasiya mühüm rol oynayır. Fəaliyyət və davranışın hər birinin öz xüsusiyyəti vardır. Təhsil-tərbiyə prosesində şagirdlərin davranış motivləri nəzərə alınmalıdır. Bunun üçün müəllim şagirdlərinin yaş, fərdi xüsusiyyətlərini öyrənməli, stimullardan yerində istifadə etməlidir.

2.Rəğbətləndimə və tərifə hər kəs ehtiyac hiss edir. Xoş söz və etimad insanları ruhlandırır, daha yaxşı işlər görməyə onlarda həvəs yaradır. Müəllimlər təlim prosesində uğur qazanmaq üçün şagirdləri olduğu kimi qəbul edə bilmədiklərindən çox zaman problemlə qarşılaşmalı olur. Ustad müəllim uşaqda real mövcud olana istinad etməklə uğur qazana bilər. Uşağın təbiətini zorla dəyişdirmək mümkün deyil. Bu gün ailədə valideynlər, məktəbdə müəllimlər uşağın təbiətini dəyişdirməklə öz istədikləri kimi görmək istəyirlər. İstəyirlər ki, onların uşaqları ağlı, dərrakəsi, təfəkkür imkanları ilə hamıdan seçilsin, əlaçı olsun, qəbul imtahanında ən yüksək bal toplasın. Təbii ki, bu, mümkün deyil. Müəllimlər şagirdlərin mahiyyətində olan imkanları inkişaf etdirməklə nəyəsə nail ola bilərlər. Bu zaman yaxşı olar ki, müəllim uşağa güclü təsir edən bir stimulu tətbiq etməkdənsə, bir neçə zəif stimulu tətbiq etsin. Ola bilər ki, əsas hesab etdiyimiz həmin güclü stimul heç təsir göstərməsin, əksinə, zəif stimullardan biri həlledici olsun.

3. Təlim prosesində müəllimlərin uğur qazanması üçün aşağıdakılara əməl etməsi tövsiyə olunur:

1) Uşaqların heysiyyətinə müraciət etmək;

2) Şagirdlərə öz uğurlarını göstərmək;

3) Sinifdə rəqabəti mühit yaratmaq və onu ehtiyatla himayə etmək;

4) Şagirdləri rəğbətləndirmək, onları tərifləmək.

5) Şagirdləri onların halına acıyaraq tənqid etmək. Bu zaman ruhlandırıcı tənqiddən, tənqid-iraddan, tənqid-analogiyadan, tənqid-ümiddən, tənqid-tərifdən, şəxssiz tənqiddən, tənqid-narahatlıqdan, tənqid-halına yanmadan, tənqid-təəssüfdən, tənqid-təəccübdən, tənqid-yumşaltmadan, tənqid-nöqsandan, tənqid-tələbdən, konstruktiv tənqiddən istifadə etmək olar.

6) Müəllim istənilən pedaqoji problemin həllinin qeyri-standart yollunu axtarıb tapmağı bacarmalıdır;

7) Müəllim şagirdlərinə öz nüfuzunu saxlamağa, yaxşı reputasiya qazanmalarına imkan yaratmalıdır. Şagirdlər sinifdə nüfuzlu olmağa həmişə can atırlar. Yəhudi tərbiyə sisteminin əsas sirri elə bununla bağlıdır.

ƏDƏBIYYAT

1.Paşayev Ə., Rüstəmov F. Pedaqogika.Bakı: Elm və təhsil, 2017, 464 s.

2. Rüstəmov F. İlahi missiya. “Azərbaycan müəllimi” qəzeti, 19 oktyabr 2018-ci il

РЕЗЮМЕ
СТИМУЛИРОВАНИЕ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ УЧАЩИХСЯ

Рустамов Ф.А.

Внутреннее уведомление играет важную роль в успехе учащихся в процессе обучения в средних школах. Потребности, мотивы, стимулы взаимосвязаны, стимулы основаны на потребностях и мотивах и неотделимы от них. Выбор стимула - очень сложный процесс даже для взрослого человека. Это особенно сложно для учащихся. Здесь дело решается правильно

подобранными и применяемыми раздражителями. Поэтому учителя должны правильно организовать эту работу и стимулировать учебную деятельность учащихся.

Ключевые слова: обучение, стимуляция, учитель, мотив, образование.

SUMMARY

STIMULATION OF EDUCATIONAL ACTIVITY OF STUDENTS

Rustamov F.A.

Internal notification plays an important role in the success of students in the process of training in secondary schools. Consumption, motives, incentives are interrelated, incentives are based on needs and motives and are inseparable from them. The choice of stimulus is a very difficult process even for an adult. This is especially difficult for students. Here the case is decided by properly selected and used irritants. Therefore, the teacher should properly organize this work and stimulate the educational activity of students.

Keywords: training, stimulation, teacher, motive, education.

AZƏRBAYCANDA İBTİDAİ TƏHSİL SAHƏSİNDƏ ELMİ-PEDAQOJİ TƏDQİQATLARIN ƏSAS İSTİQAMƏTLƏRİ

Məmmədova A. T.

Sumqayıt Dövlət Universiteti

telmanaytekin_82@mail.ru

Xülasə: 50-ci illərdə Azərbaycanda ibtidai təhsil sahəsində aparılan araşdırmalar əsasən metodik göstəriş və tövsiyələrdən ibarət idi. Araşdırmalarda ibtidai məktəblərdə savadsızlığın ləğvi, ibtidai təhsilin məzmunu, tədris plan, proqram və dərsliklərin təkmilləşdirilməsi, qabaqcıl ibtidai sinif müəllimlərinin təcrübəsinin öyrənilməsi və təbliği mühüm yer tuturdu. Aparılan araşdırmalar kompleks xarakter daşımırdı, ibtidai təhsilin nəzəri-metodoloji problemlərini əhatə etmirdi. 60-cı illərdən başlayaraq bu tendensiya dəyişdi. Həmin illərdə ibtidai siniflərdə təhsilin məzmununun dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, yeni proqram və dərsliklərin hazırlanması, təlimin prinsip və üsullarının, təşkili formalarının, şagird nailiyyətlərinin qiymətləndirilməsi ilə bağlı aparılan araşdırmalar və qabaqcıl təcrübənin öyrənilməsi sonrakı illərdə təhsil-tərbiyə nəzəriyyəsinin inkişafına və təhsil quruculuğuna güclü təsir göstərdi.

Açar sözlər: Azərbaycan, ibtidai təhsil, elmi kadr, dissertasiya, məqalə,dərslik

50-ci illərdə Azərbaycanda ibtidai təhsil sahəsində aparılan araşdırmalar əsasən metodik göstəriş və tövsiyələrdən ibarət idi. Araşdırmalarda ibtidai məktəblərdə savadsızlığın ləğvi, ibtidai təhsilin məzmunu, tədris plan, proqram və dərsliklərin təkmilləşdirilməsi, qabaqcıl ibtidai sinif müəllimlərinin təcrübəsinin öyrənilməsi və təbliği mühüm yer tuturdu. Ayrı-ayrı fənlərin (ana dili, riyaziyyat, rus dili və s.) tədrisi ilə bağlı metodik yazılar müəllimlərin ehtiyaclarını ödəməyə istiqamətlənmişdi. Aparılan araşdırmalar kompleks xarakter daşımırdı, ibtidai təhsil nəzəri-metodoloji problemlərini əhatə etmirdi. İbtidai təhsillə bağlı yazıların elmi-nəzəri səviyyəsi dövrün tələblərinə cavab vermirdi. İbtidai təhsilin köklü məzmun problemləri deyil, dar mövzular öyrənilirdi. Tədqiqatlarda empirik metodlar üstünlük təşkil edir, uzunmüddətli pedaqoji eksperimentlərdən istifadə olunmurdu.İbtidai təlim sahəsində tədqiqatları daha sistemli təşkil etmək və elmi əsaslar üzərində qurmaq üçün 1955-ci ildə ilk dəfə Azərbaycan ETPEİ-də ibtidai təhsilin

nəzəri və praktik problemlərini namizədlik (fəlsəfə doktoru) səviyyəsində araşdırmaq məqsədilə aspirantlar qəbul edildi.

1961-ci ildə Azərbaycan ETPEİ-də ibtidai təlim bölməsi yaradıldı.3 nəfərdən ibarət olan bölmə az bir müddətdə inkişaf edərək müstəqil şöbəyə çevrildi. İlk aspirant Yəhya Kərimov 1962-ci ildə "İbtidai sinif şagirdlərinin nitqindəki yerli şivə xüsusiyyətləri və onların aradan qaldırılması" yolları mövzusunda namizədlik dissertasiyası müdafiə etdi.O, dövrdə İbtidai təhsil sahəsində doktorluq dissertasiyası müdafiə etmiş tədqiqatçı yox idi. ADPİ-də təşkil edilən İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasında pedaqoji fənləri tədris edənlərdən M. Muradxanovun və İ.Vəlixanlının elmi dərəcəsi və elmi adı var idi. İbtidai təhsilin məzmunundakı ciddi dəyişikliklər, ibtidai təhsilin müddətinin 4 ildən 3 ilə endirilməsi, ali təhsilli ibtidai sinif müəllimi hazırlığı bu sahədə sistemli tədqiqatların aparılmasına təsir etdi. İldən-ilə ibtidai təhsil sahəsində dissertasiya müdafiə edənlərin sayı artdı. Dissertasiyalar ibtidai siniflərdə pedaqoji prosesin təşkili xüsusiyyətləri ilə bərabər, həm də kiçikyaşlı məktəblilərin tərbiyəsinin nəzəri və praktik problemlərini əhatə edirdi.

60-cı illərdə Hüseyn Əhmədov "İbtidai sinif şagirdlərinin kommunist əxlaqı tərbiyəsində nümunənin rolu və ondan istifadənin yolları" (1958), Həmzə Əliyev "Uşaqların kommunist tərbiyəsində məktəb ənənələrinin rolu" (1968), Abbas İsmayılov "Günüuzadılmış qrup tərbiyəçisinin I-IV sinif şagirdləri ilə işinin məzmunu və formaları" (1963), Məmməd Məmmədov "İbtidai sinif şagirdlərində düzlük və doğruçuluq tərbiyəsi" (1965), Məcid İsmixanov "Eyni vaxtda iki sinifdə dərsin xüsusiyyətləri və səmərəliləşdirilməsi yolları" (1968) mövzusunda namizədlik dissertasiyası müdafiə etdilər.

On il müdətində ibtidai sinif şagirdləri ilə bağlı müdafiə olunan 5 dissertasiyadan 3-ü tərbiyə probleminə, 2-si isə təhsil probleminə həsr olunmuşdu. Həmzə Əliyev dissertasiyasında, ümumiyyətlə, məktəblilərin tərbiyəsində məktəb ənənələrinin rolunu araşdırmışdı. Qısa şəkildə olsa da kiçikyaşlı məktəblilərin əxlaqi-mənəvi tərbiyəsində məktəb ənənələrindən bəhs etmişdir. 1967-ci ildə Azərbaycan ETPEİ-də ibtidai siniflərdə riyaziyyatın tədrisi metodikası ixtisası üzrə ilk aspirant (Ziyad Osmanov) qəbul edildi. Cəmo Cəbrayəlbəylinin, M.İsaxovun, M.Axundovun ibtidai siniflərdə təbiətşünaslığın tədrisi ilə bağlı metodiki xarakterli əsərləri nəşr edildi.

1965-1973-cü illərdə Azərbaycan ETPEİ-də Yəhya Kərimovun rəhbərliyi ilə üçillik ibtidai təlim sisteminə keçilməsi ilə əlaqədar olaraq tədqiqatlar aparılmışdır.İbtidai siniflərdə ayrı-ayrı fənlərin üçillik ibtidai təlim sisteminə uyğunlaşdırılmasında Ə.Şükürovun, Z.Osmanovun, M.Cabbarovanın,V.Xəlilovun, M.Məmmədovun, H.Ələkbərovun mühüm xidmətləri oldu. Onlar ibtidai siniflərdə təlimin məzmununu və metodlarını yaxşılaşdırmaq, ibtidai təlim sistemini yenidən qurmaq üçün ciddi tədqiqatlar apardılar. Azərbaycanda kiçikyaşlı məktəblilərin imkanlarının müəyyənləşdirilməsi ilə bağlı aparılan araşdırmaların və pedaqoji eksperimentin uğurlu alınmasında rus psixoloqlarından L.V.Zankovun, A.A.Lyublinskayanın, D.B.Elkonin, milli psixoloqlardan S.Hacıyevin, F.İbrahimbəyovun, M.Məhərrəmovun, M.Hacıyevin, M.Abbasovun, Ə.Bayramovun, Ə.Əlizadənin, M.Həmzəyevin, Z.Mehdizadənin, İ.Fərəcovun tədqiqatları mühüm rol oynadı. Bununla bağlı Azərbaycan ETPEİ-nin Psixologiya və defektologiya bölməsinin nəzdində yaş psixologiyası və pedaqoji psixologiya laboratoriyasında (F.İbrahimov, M.Hacıyev, Z.Mehdizadə) sistemli araşdırmalar aparıldı.1959-1962-ci illərdə laboratoriyaya Z.Mehdizadə,1962-1974-cü illərdə M.Həmzəyev rəhbərlik etdilər. Laboratoriya əməkdaşlarının sistemli araşdırmalarının nəticəsi kimi 1965-ci ildə "Təlim psixologiyasının bəzi məsələləri" kitabı nəşr edildi. Tədqiqatların əsas istiqamətlərindən birini Azərbaycan dilinin mənimsənilməsi psixologiyası (M.Həmzəyev), riyaziyyatın mənimsənilməsi psixologiyası (Z.Mehdizadə) təşkil edirdi. İbtidai siniflərdə tədris

edilən əsas fənlər - Azərbaycan dili və riyaziyyat olduğundan 60-cı illərdə yeni proqramların tələbinə uyğun olaraq onların mənimsənilməsinə xüsusi diqqət yetirilirdi. 1960-1969-cu illərdə I-IV siniflər üçün nəzərdə tutulan tədris planında həftəlik tədris yükünün 47%-i Azərbaycan diinə, 22-i %-i riyaziyyat fənninə ayrılmışdı. Rus dili, tarix, təbiətşünaslıq, rəsm, nəğmə, bədən tərbiyəsi, əmək təlimi və ictimai faydalı əməyin tədrisinə isə həftəlik tədris yükünün 31%-i nəzərdə tutulmuşdu. Üçillik tədris planında isə I-III sinifdə həftəlik tədris yükünün 38 %-i Azərbaycan dilinə, 23-i riyaziyyyata, 39%-i rus dili və ƏDƏBİYYATı, təsviri incəsənət, nəğmə və musiqi, bədən tərbiyəsi, əmək tərbiyəsi dərslərinə ayrılmışdı. Tədris planının tələblərinə görə də, ibtidai siniflərdə Azərbaycan dili və riyaziyyatın mənimsənilməsi səviyyəsinin yüksəldilməsi vacib hesab edilirdi. Azərbaycan dilinin orfoqrafiyası və durğu işarələrinin ənimsənilməsi psixologiyası M.Həmzəyev tərəfindən sistemli şəkildə araşdırıldı. O, 1968-ci ildə ”Azərbaycan dilinin orfoqrafiyası və durğu işarələrinin mənimsənilməsi psixologiyası” (3) mövzusunda dissertasiya müdafiə edərək psixologiya elmləri doktoru elmi dərəcəsi aldı. “İbtidai məktəb şagirdlərində düzgün yazı vərdişlərinin yaradılmasıvə inkişafı haqqında”, “Orfoqrafiyanın tədrisi prosesində şagirdlərin təfəkkürünün formalaşdırılmasına dair”, “Yazı vərdişlərinin yaranmasında korrektura üsulunun rolu”, “Kiçik yaşlı uşaqların psixoloji xüsusiyyətləri” (1968), “Ailə tərbiyəsində uşaqların fərdi xüsusiyyətlərinin nıəzərə alınması” (1966), “Orfoqrafik qaydaları anlamaq və mənimsəməkdə vurğu və intonasiyanın rolu” (1962) əsərləri ibtidai sinif müəllimlərinin peşəkarlığının yüksəldilməsində əhəmiyyətli rol oynadı.

60-cı illərdə ibtidai təhsil sahəsində aparılan araşdırmaların bir hissəsi “İbtidai sinif müəllimlərinə kömək” (1) adı ilə nəşr olundu. Kitabı nəşrə prof.M.Muradxanov hazırlamış, pedaqoji elmlər namizədi Y.Kərimov tərəfindən “Bir neçə söz” adlı ön söz yazılmışdı. Prof.M.Muradxanovun kitabda verilən məqaləsində ibtidai siniflərdə təlim prosesində geridəqalma ilə mübarizə yolları araşdırılır, geridə qalmanın şagird şəxsiyyətinə mənfi təsiri üzə çıxarılır.

Müəllifin fikrincə, 1) geridəqalma nəticəsində ölkəyə lazım olan kadrlar bir il geçikir; 2) uşaqlarda təlimə həvəs sönür, maraq azalır; 3)şagird fəal çalışa bilmir, bəzi şeyləri bildiyinə görə dərsləri dinləmir və beləliklə də yoldaşlarına mane olur; 4) şagird sinifdə intizamsızlıq yaratmaqla müəllimin işini çətinləşdirir; 5) ikinci ilə qalma dövlətə xeyli maddi ziyan vurur. Məqalədə şagirdlərin ikinci ilə qalmasının səbəbləri araşdırıır və onun aradan qaldırılması məqsədilə məktəb rəhbərliyinə, müəllimlərə və valideynlərə tövsiyələr verilir. Pedaqoji elmlər namizədi Y.Talıbovun “İbtidai siniflərdə əxlaq tərbiyəsinin məzmun və vasitələri” (s.19-35) adlı mqaləsində şagirdərə əxlaqi keyfiyyətlərin aşılanmasında əmək tərbiyəsinin, təlim prosesinin, oyunun, müəllimin şəxsi nümunəsinin rolu araşdırılır. Pedaqoji elmlər namizədi S.Axundov müəllimin oktyabryatlarla işinin məzmununu (s.36-55), pedaqoji elmlər namizədləri Ə.Bayramov və Ə.Əlizadə kiçik məktəblilərin psixoloji xüsusiyyətlərini (s.56-82) araşdırmış, fəaliyyət növünün dəyişdirilməsi ilə əlaqədar olaraq kiçik məktəblilərdə idrak proseslərinin (qavrayış, diqqət, hafizə, təfəkkür, təxəyyül və s.) inkişaf tempini izləmiş, temperament (sanqvinik, fleqmatik, xolerik, melanxolik) xüsusiyyətlərinə aydınlıq gətirmişlər. Pedaqoji elmlər namizədləri İ.Vəlixanlının və M.İsmixanovun araşdırmaları iki komplektli məktəbdə dərsin təşkilinə, pedaqoji elmlər namizədi Y.Kərimovun araşdırmaları ibtidai siniflərdə savad təliminin təşkilinə (s.105-117) və şagirdlərin nitqinin inkişafına (s.118-145), filologiya elmləri namizədi Ə.Əfəndizadənin araşdırmaları ibtidai siniflərdə Azərbaycan dilinin səmərəli təşkilinə (s.146-168), baş müəllim M.Əzizovun araşdırmaları ibtidai siniflərdə çoxrəqəmli ədədlərin nömrələnməsinə (s.169-173) və “Hesab” fənnində sinifdənkənar məşğələlərin təşkilinə (s.174-184), baş müəllim S.Sadıqovun araşdırmaları ibtidai siniflərdə şifahi hesablama

üsullarına (s.185-197) və şifahi hesablama vərdişlərinin yaranmasında "Maraqlı kvadratlar"ın roluna (s.198-208), baş müəllim H.Abdullayevin araşdırmaları IV sinifdə texniki modelləşdirməyə (s.209-221), M.İsazadənin araşdırmaları ibtidai siniflərdə naturadan rəsm şəkməyin tədrisi üsuluna (s.222-233), S.Quliyevin araşdırmaları ibtidai siniflərdə musiqi oxuma vərdişlərinin inkişafında xorun əhəmiyyətinə (s.234-246) həsr olunub. Nəzərə alsaq ki, həmin dövrdə hələ "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsi nəşr edilmirdi, onda bu elmi-pedaqoji və metodiki yazıların əhəmiyyəti aydın olar.

İbtidai siniflərdə tədrisin təşkilndə müəyyən çətinliklərin olduğunu Azərbaycan SSR Maarif naziri M.Mehdizadə də etiraf edirdi. O, 1 avqust 1969-cu ildə Azərbaycan KP MK-ya ünvanladığı məktubda yazırdı: "Respublikamızın ibtidai siniflərində 631218 şagird təhsil alır ki, onların da təhsil-tərbiyəsi ilə 30 mindən artıq müəllim məşğul olur. Xalq təhsil sisteminin vacib həlqəsi olan ibtidai məktəb xüsusi diqqət tələb edir. Orada çalışan müəllimlərin əksəriyyəti təcrübəsi az olan gənclərdir. Hər il onların sırasına yüzlərlə müəllim qoşulur. İbtidai siniflərdə çalışan yaşlı müəllimlər də mütəmadi olaraq elmi və metodiki köməyə ehtiyac hiss edir. Maarif Nazirliyinin Kollegiyasının təsdiq etdiyi qrafikə görə, cari tədris ilindən respublika məktəblərinin birinci sinifləri yeni proqrama keçəcək, növbəti tədris illərində isə ardıcıllıqla 2-ci və 3-cü siniflər də yeni proqramlara keçəcəkdir. Bütün bunlar ibtidai siniflərdə metodik köməyi gücləndirməyi, qabaqcıl təcrübəni dərindən ümumiləşdirməyi, geniş şəkildə yaymağı, zəruri təlimat və göstərişləri bütün müəllimlərə çatdırmağı, pedaqoji elmin nailiyyətləri ilə onları silahlandırmağı tələb edir. Respublikada məktəbəqədər tərbiyə müəssisələrinin böyük şəbəkəsi və minlərlə tərbiyəçi fəaliyyət göstərir. Onların da metodik köməyə ciddi ehtiyacı var. Bütün bunlar "Azərbaycan məktəbi" jurnalına əlavə kimi "İbtidai məktəb və məktəbəqədər tərbiyə" metodik məcmuəsinin nəşrini zəruri edir. Məcmuənin nəşri ibtidai məktəb müəllimlərinə və məktəbəqədər tərbiyə müəssisələrinin tərbiyəçilərinə metodik köməyin yaxşılaşdırılmasına kömək edəcəkdir. Belə bir metodik məcmuənin (iki ayda 1 dəfə, 6 çap vərəqi, 10 min tiraj, 60X84 formatda) nəşrinə əlavə ştat və dotasiya tələb olunmur".

Maarif naziri M.Mehdizadənin bu təklifi Azərbaycan KP MK 9 sentyabr 1969-cu ildə keçirilən büro iclasında müzakirə olunaraq xüsusi qərar qəbul edilmişdir.

Azərbaycan KP MK-nın həmin tarixdə keçirilən iclasının 109 saylı protokolunda 31 –ci məsələ "İbtidai məktəb və məktəbəqədər tərbiyə" metodik məcmuəsinin nəşri ilə bağlıdır. Azərbaycan KP MK-nın I katibi H.Əliyevin imzaladığı qərarda deyilir: "Respublika Maarif Nazirliyinin "Azərbaycan məktəbi" jurnalına əlavə kimi "İbtidai məktəb və məktəbəqədər tərbiyə" (Azərbaycan dilində) metodik məcmuəsinin iki ayda 1 dəfə, 6 çap vərəqi həcmində , 10 min tirajla nəşr edilməsi təklifi qəbul edilsin.

1970-ci ildə "İbtidai məktəb və məktəbəqədər tərbiyə" metodik məcmuəsinin nəşrinə başlanıldı. İlk redaksiya heyəti aşağıdakı kimi təsdiq edilmişdi: Y.Kərimov (redaktor), M.Həmzəyev, Ə.Qədimbəyova, M.İsmixanov, N.İsmayılzadə (redaktor müavini), P.Hacıyev, Z.Osmanov, H.Həsənov, S.Abbasova.

Məcmuənin nəşrə beş yeni proqramların təbliği və tətbiqi xeyli sürətləndi. Müxtəlif fənlər üzrə proqramlar, dərsliklər, təlimin təşkili xüsusiyyətləri və qabaqcıl təcrübə müzakirə predmetinə çevrildi. Ayrı-ayrı rayonlarda ibtidai təhslin təşkili ilə bağlı keçirilən elmi-praktik konfransların, respublika müşavirəsinin yekunları (ibtidai təhsillə bağlı) məcmuənin səhifələrində əks olundu. Jurnalın ilk sayının rurikaları bunlar idi:1)V.İ.Leninin anadan olmasının 100 illiyi; 2) təlim və tərbiyə məsələləri; 3)azkomplektli məktəblər; 4)psixoloji məsələlər; 5) Bizim tribunamız; 6)məktəbəqədər tərbiyə; 7)bizin iş yoldaşlarımız. Məcmuənin sonrakı saylarında sinifdənxaric işlər,

təlimdə texniki vəsait, müəllimlərin şəxsi təhsili, məsləhət, fənlərin tədrisi, qabaqcıl təcrübə, baş məqalələr, proqram materialının planlaşdırılması və s. rubrikalar yaradıldı. Məcmuənin ilk sayında J.Kərimovun (I sinifdə ana dili dərslərinin təşkili), X.Köçərlinin (V.İ.Lenin dünyada ilk sosialist dövlətinin banisi və rəhbəridir), M.Moronun (100 dairəsində nömrələmə, toplama və çıxmanın öyrədilməsi), Ə.Şükürovun (Əmək təlimi yeni mərhələdə), Ə.Bayramovun (Şagirdlərin idrak prosesinin inkişaf etdirilməsi haqqında), M.Həmzəyevin (Bağçayaşlı uşaqların psixoloji xüsusiyyətləri haqqında), M.Seyidovun (Tarix dərslərində müstəqil işin təşkili), M.Pirimovanın (Sinifdənxaric qiraətin təşkili təcrübəsindən), B.Paşayevanın (Rabitəli mitqin inkişafında bədii ƏDƏBİYYATın rolu), X.Məmmədova və S.Əhmədovanın (XVII Respublika "Pedaqoji mühazirələri"nin ibtidai təlim bölməsində), M.Əliyevin (Uşaqlara həsr olunmuş həyat) məqalələri nəşr olunmuşdu.

İbtidai təhsilin məzmununun təkmilləşdirilməsi, üç illik təlimə keçid, ali təhsilli ibtidai sinif müəllimi hazırlığı, "İbtidai məktəb və məktəbəqədər tərbiyə" metodik məcmuəsinin pedaqoq və metodistlərin, ibtidai sinif müəllimlərinin tribunasına çevrilməsi bu sahədə ciddi elmi tədqiqat işlərinin aparılmasını zəruri etdi. İbtidai təhsilin təşkilinin ayrı-ayrı rpoblemləri tədqiqat predmetinə çevrildi.

Hacı Abdullayev "İbtidai məktəbin əmək təlimi dərslərində Azərbaycan SSR-in yerli materiallarından istifadə edilməsi yolları" (1970), Rüstəm Hüseynov "İbtidai sinif şagirdlərinin vətənpərvərlik tərbiyəsi" (1970), Sədrəddin Nəbiyev "İbtidai siniflərdə şifahi sorğu zamanı qiymətləndirmənin səmərəliliyinin yüksəldilməsi yolları" (1971), Əlağa Şükürov "İbtidai siniflərdə əmək təlimi ilə bağlı fənlərin tədrisi arasında qarçılıqlı əlaqə" (1971), Məcid Babayev "Təlim prosesində ibtidai sinif şagirdlərini fəallaşdırmaqda müsahibə üsulunun rolu" (1972), Xəlil Fətəliyev "Kiçik və orta yaşlı pionerlərin əxlaq tərbiyəsində hərbi-idman oyunlarının rolu" (1973), Miri Həsənov "Azərbaycan məktəblərinin ibtidai siniflərində ekran vasitələrinin tətbiqinin didaktik əsasları" (1973), Vidadi Xəlilov "İbtidai siniflərdə Azərbaycan xalq yaradıcılığı nümunələrinin öyrənilməsi estetik tərbiyə vasitəsi kimi" (1974), Hidayət Ələkbərov "İbtidai siniflərdə mövzu üzrə rəsm və şagirdlərin estetik tərbiyəsinə onun təsri" (1975) namizədlik, Yəhya Kərimov "İbtidai siniflərdə Azərbaycan dilinin tədrisində lüğət işinin əsasları" (1970) mövzusunda doktorluq dissertasiyası müdafiə etdi. On il müddətində ibtidai təhsilin pedaqogikası ilə bağlı illər üzrə dissertasiyalar aşağədakı ardıcıllıqla müdafiə olunmuşdu. İbtidai təhsilin nəzəri məsələləri ilə bağlı müfafiə olunan 9 dissertsiya işindən 55,5 %-i təlim nəzəriyyəsinə, 44,5%-i tərbiyə nəzəriyyəsinə həsr olunmuşdu.

Təlim nəzəriyyəsi ilə bağlı dissertasiyalarda müsahibə üsulu vasitəsi ilə təlim prosesində ibtidai sinif şagirdlərini fəallaşdırılmasının, əmək təlimi dərslərində yerli materiallarından istifadə edilməsinin, şifahi sorğu zamanı qiymətləndirmənin səmərəliliyinin yüksəldilməsinin yolları və ibtidai siniflərində ekran vasitələrinin tətbiqinin didaktik əsasları müəyyənləşdirilmiş, əmək təliminin digər fənlərlə əlaqəli şəkildə tədrisinin təlimin keyfiyyətinə təsiri üzə çıxarılmışdır.

Tərbiyə nəzəriyyəsi ilə dissertasiyalarda təlim prosesində və sinifdənxaric tədbirlərdə ibtidai sinif şagirdlərinin vətənpərvərlik tərbiyəsinin imkan və yolları tədqiq edilmiş, kiçik və orta yaşlı pionerlərin əxlaq tərbiyəsində hərbi-idman oyunlarının rolu müəyyənləşdirilmiş, Azərbaycan xalq yaradıcılığı nümunələrinin və mövzu üzrə rəsmlərin şagirdlərin estetik tərbiyəsinə təsiri araşdırılmışdır.

70-ci illərin əvvəllərində (1973) yeni proqram və dərsliklərlə iş respublikanın bütün məktəblərində tətbiq edildi.Yeni təlim sistemi üzrə nəticələr 1979-cu ilə kimi ardıcıl olaraq izlənildi, nəticələr müzakirə olundu. 70-ci illərin ikinci yarısında (1977) respublikanın 10

məktəbinin hər birində altıyaşlılardan ibarət 1 sinif təşkil olundu. Həmin siniflərdətədris prosesi 7 yaşlılardan ibarət I siniflər üçün proqram və dərsliklərlə təşkil edildi. Sonrakı dərs ilində siniflərin sayı 20-yə çatdı. Altıyaşlılarla bağlı aparılan tədqiqatların nəticələri onların imkanlarını və onun əsasında 6 yaşdan təlimə başlayan ibtidai məktəblərdə təlimin məzmunu və metodlarını müəyyənləşdirməyə imkan verdi.

80-ci illərin əvvəllərində ibtidai təhsilin metodoloji problemlərinin araşdırılması ilə yanaşı, beşgünlük iş həftəsinə keçilməsinin real imkanlarının öyrənilməsi, I-III siniflərdə təhsilin məzmunun təkmilləşdirilməsi, təbiətşünaslıq və əmək təlimi üzrə tədris komplekslərinin hazırlanması texnologiyası, təlimdə fənlərarası və fəndaxili əlaqəli, kiçikyaşlı məktəblilərin tərbiyəsinə kompleks yanaşma mühüm yer tutdu. İbtidai siniflərdə orfoqrafiq səhvlərin baş vermə səbəbləri (Ş.Qaralov), izahlı qiraət prosesində təkrar (Z.Əliyeva), qiraət dərslərində texniki vasitələrin əhəmiyyəti (R.Mehdiyeva), riyaziyyat dərslərində sadə sillogizm formasında sübutetmə (Ş.Tağıyev), Azkomplektli məktəblərdə müxtəliffənli dərslərin təşkili (S.Məmmədov),əlifaba təlimi dövründə ətraf aləmlə tanışlıq (R.İbadova), ana dili dərslərinin optimallaşdırılmasında fəndaxili əlaqənin rolu (H.Ağayev),riyaziyyat dərslərində şagirdlərin yaradıcılıq fəaliyyətinin təşkili (A.Nuruşov) problemləri ətraflı araşdırıldı. "Ümumtəhsil və peşəməktəbi islahatının əsas istiqamətləri"nin (1984) tələblərinə uyğun olaraq 6 yaşlıların təlimə hazırlığının pedaqoji-psixoloji əsaslarının öyrənilməsi, mövcud təçrübənin ümumiləşdirilməsi önə çəkildi. Altıyaşlıların məktəbə hazırlanması və onlarıa təlimin təşkili sahəsində axtarışlar Y. Kərimov tərəfindən ümumiləşdirildi. Ramiz Əliyev, K.Tağıyeva altıyaşlıların məktəbə hazırlığının psixoloji məsələlərini, F.Sadıqov , altıyaşlıların musiqi məşğələlərinin məzmununu, H.Məmmədov altıyaşlıların əqli inkişafında bədən tərbiyəsi dərslərinin rolunu, K.Mansurov və M.Hacıyev altıyaşlılarla aparılan riyazi oyunlar öyrənildi. Ayrı-ayrı fənlər (Azərbaycan dili, riyaziyyat, təbiətşünaslıq, əmək təlimi və s.) üzrə təlimin məzmunu və metodlarının təkmilləşdirilməsi ilə bağlı metodiki araşdırmalar meydana gəldi. Zərifə Əliyeva "İbtidai siniflərdə dərs prosesində mövzunun öyrənilməsində təkrarın təşkili" (1983), Xurşud Məmmədov "Müəllimin şərh prosesində şagirdlərin mənimsmə fəaliyyətinə nəzarət" (1988), İsmayıl Əliyev "İbtidai siniflərdə dərs prosesində şagirdlərin müstəqil işlərinin səmərəliliyinin artırılması şərtləri" (1988) mövzusunda namizədlik dissertasiyası müdafiə etdilər. İ.Əliyev təlim prosesində ibtidai sinif şagirdlərinin mövcud bacarıq və vərdişlərinin nəzərə alınmasının əhəmiyyətini araşdırmış, yeni mövzunun şüurlu mənimsənilməsində şagirdlərin müstəqil işi üçün bilikləri düzgün seçməyi, öyrənilmiş biliklərə istinad edərək yeni biliklərin mənimsənilməsini təmin edən tapşırıqlar üzərində işin təşkili xüsusiyyətlərini bilməyi, şagirdlərin müstəqil işlərinin səmərəliliyinə təlimat xarakterinin təsirini üzə çıxarmağı vacib hesab etmiş, ibtidai siniflərdə dərs zamanı şağirdlərimizin müstəqil işlərinin səmərəlilik şərtlərini müəyyənləşdirmişdir. 80-ci illərdə aparılan bu araşdırmaları İ.Əliyev sonralar monoqrafiya şəklində nəşr etdirmişdir.

Altıyaşlıların məktəbə hazırlanması problemi sistemli şəkildə prof.Y.Kərimov tərəfindən araşdırılmışdır.Respublikada altıyaşlılarla bağlı eksperiment onun rəhbərliyi və iştirakı ilə təşkil olumuş, nəticələr ümumiləşdirilmişdir. O,altıyaşlıların məktəbə hazırlanmaları üçün o, bir sıra tədbirlirin kompleks şəkildə həyata keçirilməsini zəruri hesab edirdi:1) şagirdlərin fiziki inkişafının və sağlamlığının proqram materialına uyğunluğu;2) hazırlıq siniflər zəruri avadanlıqlarla təchizi; 3) hazırlıq sinifləri üçün tədris resurslarının hazırlanması; 4) altıyaşlıların məktəbə hazırlanmasında vahid rəhbərliyin təmin edilməsi; 5) hazırlıq sinflərində işləyə biləcək müəllim kadrlarının hazırlanması və s. Bu şərtləri reallaşmadan altıyaşlıların təlimində uğur qazanmaq real görünmürdü.

60-70-ci illərdə ibtidai siniflərdə təhsilin məzmununun dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, yeni proqram və dərsliklərin hazırlanması, təlimin prinsip və üsullarının, təşkili formalarının, şagird nailiyyətlərinin qiymətləndirilməsi ilə bağlı aparılan araşdırmalar və qabaqcıl təcrübənin öyrənilməsi sonrakı illərdə təhsil-tərbiyə nəzəriyyəsinin inkişafına və təhsil quruculuğuna güclü təsir göstərdi.

ƏDƏBİYYAT

1.İbtidai sinif müəllimlərinə kömək /tərtib edən prof.M.Muradxanov. Bakı, Maarif, 1966, 248 s.
2. Kərimov, Y. Seçilmiş əsərləri: II cild. Bakı: Pedaqogika, 2007, 432 s.

РЕЗЮМЕ
ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ НАУЧНО-ПЕДАГОГИЧЕСКИХ ИССЛЕДОВАНИЙ В ОБЛАСТИ НАЧАЛЬНОГО ОБРАЗОВАНЯ В АЗЕРБАЙДЖАНЕ

Мамедова А.Т.

Исследования в области начального образования в Азербайджане в 1950-е годы состояли в основном из методических указаний и рекомендаций. Исследование было сосредоточено на искоренении неграмотности в начальных школах, содержании начального образования, улучшении учебных планов, программ и учебников, изучении и популяризации опыта опытных учителей начальной школы. Исследование не было комплексным и не затрагивало теоретико-методологические проблемы начального образования. Эта тенденция изменилась с 1960-х годов. Совершенствование содержания начального образования в соответствии с требованиями времени, разработка новых программ и учебников, исследования принципов и методов обучения, форм организации, оценка успеваемости учащихся и изучение передового опыта тех лет оказали сильное влияние на теорию образования и образование.

Ключевые слова: Азербайджан, начальное образование, научные кадры, диссертация, статья, учебник

SUMMARY
THE MAIN DIRECTIONS OF SCIENTIFIC AND PEDAGOGICAL RESEARCH IN THE FIELD OF PRIMARY EDUCATION IN AZERBAIJAN

Mammadova A.T.

Research in the field of primary education in Azerbaijan in the 1950s was mainly based on methodological guidelines and recommendations. The study was focused on the eradication of illiteracy in primary schools, the content of primary education, the improvement of curricula, programs and textbooks, the study and popularization of the experience of primary school teachers. The study was not comprehensive and did not affect the theoretical and methodological problems of primary education. This trend has changed since the 1960s. Improvement of the content of primary education in accordance with the requirements of the time, development of new programs and textbooks, research of principles and methods of training, form of organization, assessment of the progress of students and the study of the previous course. Had a strong impact on development of education theory.

Key words: Azerbaijan, primary education, scientific staff, dissertation, article, textbook

MÜƏLLİM-TƏLƏBƏ MÜNASIBƏTLƏRİNİN FORMALAŞMASINDA TEMPERAMENTİN ROLU

Məmmədov C.H.
Sumqayıt Dövlət Universiteti
j.mamedov@gmail.com

Xülasə: Müəllim-tələbə qarşılıqlı münasibətləri ali təhsil müəssisəsində təlim-tərbiyə işinin müvəffəqiyyətini təmin edən amillər arasında xüsusi yer tutur. Bu münasibətlərin formalaşmasında tərəf-müqabillərin (müəllimin və tələbənin və ya tələbə qrupunun) psixoloji xüsusiyyətləri danılmaz əhəmiyyət kəsb edir.

Təqdim olunan məqalənin ana xəttini müəllim-tələbə münasibətlərinin formalaşmasında dominant tərəfin (müəllimin) bu münasibətlərdə əks olunan fərdi-psixoloji (temperamental) xüsusiyyətlərinin dinamikasının nəzərdən keçirilməsi təşkil edir.

Nəticə olaraq, bu prosesdə, bir neçə diqqət çəkən məqam vardır:

- Əvvəla, pedaqoji fəaliyyətin (ünsiyyətin) psixoloji amili kimi temperamental xüsusiyyətlər nəzərə alınmalı, pedaqoji ünsiyyət məhz bu baxımdan formalaşmalıdır;
- Müəllim-tələbə münasibətlərində temperamental xüsusiyyətlərin dinamik xarakterinin nəzərə alınması zəruridir;
- Göstərilən amilin nəzərə alınması pedaqoji fəaliyyətin qarşısında duran ən mühüm vəzifələrdən birinin – təlim-tərbiyə prosesində insan amilinin fəallaşdırılmasının həllinə dəstək verəcəkdir.

Açar sözlər: pedaqoji fəaliyyət, fərdi temperamental xüsusiyyətlər, "müəllim-tələbə" münasibətləri, formalaşdırıcı amil

Müasir dövrdə rəvac almış ali məktəb islahatlarının leytmotivlərindən biri – pedaqoji fəaliyyətin başlıca ünsürlərindən biri kimi bərqərar olan müəllim-tələbə münasibətlərinin təkmilləşdirilməsi, onların inkişafının lazımi istiqamətdə yönəldilməsidir.

Bu mürəkkəb, müxtəlif çalarlara malik olan prosesdə müəllimlərin, ali təhsil müəssisəsinin rəhbərliyinin fəaliyyəti, onların tutduğu mövqe danılmaz əhəmiyyət daşıyır.

Adı çəkilən müəllim-tələbə münasibətlərinin formalaşması və sonrakı inkişafı bilavasitə müəllimin pedaqoji fəaliyyəti ilə, onun həyata keçirilməsi xüsusiyyətləri ilə bağlıdır.

Belə bir məqamın da qeyd edilməsi yerinə düşər ki, istənilən halda, müəllim bu münasibətlərdə dominantlıq edir.

Buna görə də, müəllim-tələbə münasibətlərinin xarakteri, yönümü, məzmunu, ilk növbədə, müəllim şəxsiyyətinin fərdi-psixoloji xüsusiyyətlərindən, əhəmiyyətli dərəcədə asılıdır desək, zənnimcə, səhv etmərik.

Təqdim olunan məqalənin ana xəttini müəllim-tələbə münasibətlərinin formalaşmasında, müəllifin fikrincə, dominant rol oynayan tərəfin (müəllimin) bu münasibətlərdə əks olunan fərdi-psixoloji xüsusiyyətlərinin (konkret olaraq, temperamental xüsusiyyətlərin) dinamikasının nəzərdən keçirilməsi təşkil edir decək, zənnimcə, yanılmarıq.

Beləliklə, yazının müəllifinin iddiasına görə, müəllim-tələbə münasibətlərində bu münasibətin tərəflərinin (ələlxüsus, bu münasibətlərin formalaşmasının daha fəal tərəfi olan müəllimin) fərdi temperamental xüsusiyyətlərinin nəzərə alınması – bu münasibətlərin nəinki normal müstəvidə formalaşmasının, həm də sonrakı pedaqoji prosesin gedişində qarşılıqlı səmərəliliyin təmin olunmasının başlıca şərtidir.

Qeyd olunan xüsusiyyətlər, şəxsiyyətin fəaliyyətinin (davranışının) başlıca sistem xarakterli, formalaşdırıcı amillərindən olmaq etibarilə, pedaqoji fəaliyyətin subyektlərinin davranışında öz əksini tapır.

Lakin burada belə bir inkarolunmaz faktın da açıqlanması yerinə düşər: haqqında söhbətin getdiyi fərdi temperamental xüsusiyyətlərin formalaşmasına və təzahürünə pedaqoji ünsiyyətin tərəflərinin (istər müəllimin, istərsə də tələbənin (və ya tələbə qrupunun)) həmin qarşılıqlı münasibətlərə gətirdiyi bir sıra məqamlar (bu fəaliyyətin motivləri, məqsədi və s.) da bilavasitə təsir göstərir.

Digər tərəfdən, yenə də müəllifin fikrincə, belə bir labüd (obyektiv) halı da qətiyyən nəzərdən qaçırmaq olmaz: fərdi temperamental xüsusiyyətlərin (aydındır ki, təqdim edilən məqalənin məcrasında söhbət müəllimin şəxsiyyətindən gedir) təzahürü, konkret temperamenti bir fərdi-psixoloji keyfiyyət kimi səciyyələndirən ümumi danılmaz cizgilərə (ələlxüsus, beyində gedən psixofizioloji proseslərin iki əsas xarakteristikasına (qıcıqlanmaya və ləngiməyə)) malik olan proseslərin təzahürü sırf fərdi xarakter daşıyır və, deməli, həmin fərdin rastlaşdığı hər hansı digər fəal motivlə "ört-basdır" oluna bilər.

Məsələn, ciddi ictimai maraqlara sahib olan və öz pedaqoji fəaliyyətində ilk növbədə emosiyalara deyil, onlara söykənən müəllimlərdə xolerik temperament öz ifadəsini enerjili, təşəbbüskar addımlarda tapa bilər. Bu növ maraqların dominant olmadığı hallarda isə həmin temperamental xüsusiyyət fərdi davranışda affektiv yaşantılar, əsəbilik halları kimi özünü büruzə verə bilər.

Eləcə də, sanqvinik temperamentə malik olan müəllimin fəaliyyətində temperamental xüsusiyyətlər onun fəaliyyətinin (pedaqoji fəaliyyətinin) yönümündən asılı olaraq təzahür edirlər. Burada "qütblərin" birini yüngül davranış, səthilik təşkil edirsə, digər "qütbdə" onlara öyrənmək həvəsi, əhatəsindəkilərə fayda gətirmək meyli qarşı dururlar.

(Bu minvalla, digər iki temperamental xüsusiyyətlərin daşıyıcıları olan müəllim kadrların da oxşar "təsvirini" vermək mümkündür).

Eyni bir qrupdan olan temperamental xüsusiyyətlər, təlim və tərbiyə prosesində tərəflərin bir-birinə münasibətində (ələlxüsus da, müəllimin tələbəyə münasibətində), eyni zamanda müəllimin özünün pedaqoji fəaliyyətinə münasibətində, formalaşmış (formalaşmaqda olan) yönümündən asılı olaraq, nəinki fərqlənirlər, hətta bir-birinə zidd mövqe tuta bilirlər.

Məsələn müəllim, xolerik təbiətli olmasına baxmayaraq, əgər o öz dinləyicilərini sevirsə, öz peşəsinə aludədirsə, çox az halda münasibətlərdə kobudluq, əsəbilik nümayiş etdirir. Bu sevgi, bu aludəçilik psixikada qıcıqlanma və ləngimə prosesləri arasında qeyri-tarazlığın təzahürünün qarşısını alır, onu pozitiv istiqamətdə yönəldir.

Temperamental xüsusiyyətlərin təzahürü həm də konkret fərdin (nəzərdən keçirilən halda bu cür fərd qismində müəllim çıxış edir) ümumi mədəni səviyyəsindən, bu səviyyəni formalaşdıran konkret vəziyyətlərdən asılıdır. Məhz buna görə, məsələn, müəllimin "səbrli olmasını, dözümlü" davranmasını, tərəf-müqabilinə (dinləyicisinə) və onun tutduğu mövqeyə münasibətdə loyal (bəzi hallarda isə hətta liberal) mövqe tutmasını ancaq onun (yəni, müəllimin) əsəb sisteminin tipoloji xüsusiyyətləri ilə izah etmək – yanlış, konservativ mövqe tutmaq deməkdir.

Qeyd edək ki, müasir dünyəvi təhsilin başlıca xüsusiyyətlərindın biri kimi irəli sürülən fərdiləşdirilmə prosesinin həyata keçirilməsində, onun müsbət istiqamətlənməsində təhsildə ıdarəetmə funksiyasını həyata keçirən şəxslərin və qurumların rolu danılmazdır. Hər bir müəllimə fərdiləşmiş yanaşma onların müxtəlif temperamental xüsusiyyətlərə malik olan konkret fərdlər kimi qəbul edilməsini, onların müxtəlif obyektiv fərdi-psixoloji mövqedən çıxış etməsinin

müvəffəqiyyətli pedaqoji fəaliyyətin formalaşması ilə korrelyasiyası üçün metodik tədbirlərin işlənib hazırlanmasını şərtləndirir.

Müəllim-tələbə qarşılıqlı münasibətləri ali təhsil müəssisəsində təlim-tərbiyə işinin müvəffəqiyyətini təmin edən amillər arasında xüsusi, əvəzolunmaz bir yer tutur. Bu münasibətlərin formalaşmasında müxtəlif pedaqoji, psixoloji amillərin rolunu və əhəmiyyətini qəbul etməklə yanaşı, qeyd etmək yerinə düşər ki, onların sırasında tərəf-müqabillərin (müəllimin və tələbənin və ya tələbə qrupunun) psixoloji xüsusiyyətləri danılmaz əhəmiyyət kəsb edir. Nəhayət, tərəflərin hər birinin fərdi-psixoloji xüsusiyyətlərinin təzahürü kimi çıxış edən temperamentin bu münasibətlərin istər formalaşmasında, istərsə də təkamükündə oynadığı rol danılmazdır.

Temperamentin təzahürünün konkret həyat və fəaliyyət şəraitindən asılı olduğu faktını vurğulamaqla yanaşı, onu da yaddan çıxarmaq olmaz ki, insanın əsəb siteminin tipoloji göstəriciləri istər müəllimlərin, istərsə də tələbələrin xarici təsirlərə bir fərd kimi reaksiyasında öz izini qoyur.

Bu, ələlxüsus, müəllimin fəaliyyətinin nəticələrində, onun istifadə etdiyi metodlarda, onun tərəfindən təlim-tərbiə prosesinin gedişinə nəzarət olunmasının xüsusiyyətlərində özünü daha parlaq büruzə verir.

Ümumiyyətlə, müəllim-tələbə qarşılıqlı münasibətlərində temperamental xüsusiyyətlərdən söz açanda, adətən, tərəflərdən birinin xüsusiyyətləri qabardılır, ön plana çəkilir, digərinin xüsusiyyətləri isə bir o qədər də əhəmiyyət verilmir.

Bir qisim psixoloqlar belə hesab edirlər ki, kütləvi peşələrlə bağlı fəaliyyətdə (buraya müəllim peşəsi də daxildir) temperament, prosesə, onun metodlarına təsir göstərsə də, fəaliyyətin nəticələrinə təsir göstərmir. Müəllif bu mövqe ilə qəti razılaşmır, onun natamam və qeyri-dəqiq (və, deməli, qeyri-elmi) xarakterini vurğulayır.

Müəllifin fikrincə, əvvəla, prosesə və onun həyata keçirilməsi metodlarına göstərilən təsirin özü artıq adı çəkilən metodlarla həyata keçirilən prosesin nəticəsində labüd şəkildə özünü göstərir. İkincisi, yuxarıda qeyd edilən münasibətlərə temperament, əksinə, həlledici təsir göstərir və bu münasibətlərin başlıca keyfiyyət göstəricilərini formalaşdırır. Özü də bu zaman söhbət təkcə bir tərəfin (tələbənin) temperamentindən, onun müəllimin peşə fəaliyyətində nəzərə alınmasından getməməlidir (adətən, tədqiqatçılar bu mövqedən çıxış edirlər). Bu prosesdə, zənnimizcə, bir neçə diqqət çəkən məqam vardır ki, onların adı çəkilən fəaliyyətdə (onun formalaşmasından başlamış nəticələrin təhlilinə qədər) yeri və rolu danılmazdır.

Bunların sırasında aşağıdakıları qeyd etmək vacibdir:

1. Əvvəla belə bir labüd halı qeyd etmək yerinə düşər ki, pedaqoji fəaliyyətə (ünsiyyətə) təsir göstərən psixoloji amil kimi fərdi temperamental xüsusiyyətlərin nəzərə alınması özünə istər konkret tələbənin (ali məktəbdə pedaqoji fəaliyyətin başlıca obyekti kimi) temperamental xüsusiyyətlərini, istərsə də tələbə qrupunun bu baxımdan ümumiləşmiş reytinqini daxil etməlidir;

2. Pedaqoji fəaliyyətdə nəinki tələbənin (tələbə qrupunun), eləcə də müəllimin temperamental xüsusiyyətləri nəzərə alınmalı, onlardan birə digərinin qarşısında üstünlük verilməməli, pedaqoji ünsiyyət və qarşılıqlı münasibətlər məhz bu baxımdan (tərəf-müqabillərin temperamental xüsusiyyətlərinin qarşılıqlı dinamik vəhdəti baxımından) formalaşmalıdırlar;

3. Müəllim-tələbə qarşılıqlı münasibətləri təkcə pedaqoji (təlim-tərbiyə), yəni "ictimai rollar" müstəvisində yox, həm də fərdi-psixoloji, yəni "şəxsi" müstəvidə formalaşırlar. Buna görə də, onların (qeyd olunan münasibətlərin) nəzərdən keçirilməsi hər iki müstəvidə formalaşan xüsusiyyətləri nəzərə almadan həyata keçirilə bilməz və, habelə, onların (adı çəkilən müstəvilərin) istər ayrılıqda, istərsə də vəhdətdə vurğulanmalıdır;

4. Müəllim-tələbə qarşılıqlı münasibətləri baxımından əlverişli qarşılıqlı ünsiyyət mühitinin formalaşması, tərəf-müqabillərin temperamental xüsusiyyətlərinin təkcə müsbət məqamlarına əsaslanmamalı, həm də ilk baxışdan neqativ qiymətləndirilə biləcək məqamları da nəzərdən qaçırmamalıdır;

5. Müəllim-tələbə münasibətlərində labüd şəkildə özünə yer alan temperamental xüsusiyyətlərin nəzərə alınması istər müəllimə, istərsə də tələbəyə (tələbə qrupuna) münasibətdə heç vəhclə mənfi hallara (məsələn, qrupdaxili "elitar" və "aşağı" təbəqələrin formalaşmasına, qrup tərəfindən müəllimlərin peşə hazırlığı baxımından deyil, temperamental müstəvidə fərqləndirilməsinə, müəllimlərin tələbələri "yaxşı" və ya "pis" tələbələr kimi qiymətləndirməsinə və s.) səbəb olmamalı, onların formalaşmasına rəvac verməməlidir;

6. Ən əsası, belə bir məqamı da əsla yaddan çıxarmaq olmaz ki, nəinki temperamental xüsusiyyətlərin qaşılıqlı münasibətlərə təsiri, həm də "əks-istiqamət" - bu münasibətlərin digər amillərin təsiri altında formalaşan xüsusiyyətlərinin temperamental "güzgüdə" əksi də qarşılıqlı davranışda (ələlxüsus, pedaqoji ünsiyyət kimi mürəkkəb və eyni zamanda zəruri olan bir ictimai-tarixi prosesdə) böyük əhəmiyyət kəsb edir;

7. Nəhayət, temperamental xüsusiyyətlərin dinamik xarakterinin, təlim prosesinin müxtəlif pillələrində (məktəbəqədər təhsildə, orta təhsil prosesində, eləcə də ali təhsilin bakalavriat pilləsinin müxtəlif kurslarında, magistratura səviyyəsində) bu dinamikanın nəzərə alınması zəruridir;

8. Göstərilən amilin nəzərə alınması pedaqoji fəaliyyətin qarşısında duran ən mühüm vəzifələrin birinin – təlim-tərbiyə fəaliyyəti prosesində insan amilinin fəallaşdırılmasının həllinə dəstək verəcəkdir.

Bir sözlə, yuxarıda verilən tezislərdən belə nəticə çıxarmaq olar ki, temperamental xüsusiyyətlər ali məktəbdə müəllim-tələbə qarşılıqlı əlaqələrinin formalaşmasında mütləq nəzərə alınmalı, bu zaman müsbət xüsusiyyətlərə əsaslanılmalı, neqativ xüsusiyyətləri isə qabardılmamalı, onlar müsbət yüklənməyə yönəldilməlidirlər.

РЕЗЮМЕ
РОЛЬ ТЕМПЕРАМЕНТА В ФОРМИРОВАНИИ ВЗАИМООТНОШЕНИЙ ПРЕПОДАВАТЕЛЬ-СТУДЕНТ

Мамедов Дж. Г.

Взаимоотношения «преподаватель-студент» занимают особое место среди обеспечивающих успешность учебно-воспитательной работы в вузе факторов. Несомненное значение в формировании упомянутых взаимоотношений имеют психологические особенности сторон-партнеров (преподавателя и студента либо студенческой группы).

Основную линию представленной статьи составляет рассмотрение динамики индивидуально-психологических особенностей доминирующей стороны (преподавателя) в формировании взаимоотношений «преподаватель-студент».

В конечном итоге, в данном процессе выделяются несколько моментов, а именно:

- Во-первых, темпераментальные особенности должны рассматриваться в качестве психологического фактора педагогической деятельности, педагогическое общение должно формироваться именно с этой позиции;

- Во взаимоотношениях «преподаватель-студент» необходимо учитывать динамический характер темпераментальных особенностей субъектов данных отношений;

- Учет указанного фактора поддержит решение одного из основных, стоящих перед педагогической деятельностью вопросов – активизации человеческого фактора в учебно-воспитательном процессе.

Ключевые слова: педагогическая деятельность, индивидуальные темпераментальные особенности, отношения «преподаватель-студент», формирующий фактор.

SUMMARY

THE ROLE OF TEMPERAMENT IN FORMATION OF RELATIONS BETWEEN TEACHER AND STUDENT

Mammadov J. H.

Relations between teacher and student play a significant role among the factors providing successfulness of teaching work in higher education institutions. The undoubted significance in formation of the mentioned relations belongs to psychological features of the partner sides (teacher and student or a group of students).

The main line of the presented article is consideration of the dynamics of individual psychological features of the dominating side, there are some moments in this process, exactly:

- First, the features of temperemant should be considered as an psychological factor of the pedagogical activity, pedagogical communication should be composed exactly from this point of view;
- İn the “teacher – students” relations the dynamic character of the temperament features of these relations subjects should be taken into account;
- Taking into account the above-mentioned factor will support solution of one of the main issues of the pedagogical activity – activation of the human factor in the teaching process.

Key words*:* pedagogical activity, individual features of temperament, relations between teacher and student, forming factor.

ФОНЕТИЧЕСКИЕ ПОЗИЦИИ КАК ВОСПИТАТЕЛИ УЧАЩИХСЯ

Мамедов Р.С.

Сумгаитский государственный университет

ramedov44@gmail.com

Резюме. В статье обосновывается идея о том, что в процессе обучения все имеет воспитывающее значение. Это следует учитывать при изучении любого предмета и любой темы. Для полноценного нравственного воспитания обучение должно быть основано на принципе научности. В качестве примера рассматривается возможное негативное воздействие на нравственное воспитание учеников при традиционном изучении темы «Правописание безударных непроверяемых гласных корня» и предлагается научно обоснованное изучение фонетических позиций и фонетических чередований, что позволит осуществить воспитывающий характер обучения.

Ключевые слова. *воспитывающее обучение, умственное воспитание, нравственное воспитание, звук, фонема, буква, фонетические позиции.*

Как известно, связь обучения и воспитания, т.е. формирования и развития личности является одной из центральных проблем педагогической науки и практики. [1] То, что

обучение оказывает воздействие не только на ум, но и на чувства, волю, характер ученика, является, пожалуй, аксиомой. Умственное воспитание (познание себя и окружающего мира) и нравственное воспитание (управление собой) – двуединая задача учебного процесса.

Следует всячески подчеркнуть, что обучение во всех случаях неизбежно оказывает нравственное воздействие на обучаемых: и в случае, когда оно специально и продуманно организовано и направлено на формирование положительных (нужных) нравственных качеств у обучаемого, и, что крайне важно учитывать, даже в том случае, когда, казалось бы, и не поставлены какие-то конкретные задачи привития обучаемому тех или иных нравственных качеств. Иными словами, обучение всегда носит воспитывающий характер.

В процессе обучения у учащихся формируются определенные (позитивные или негативные) отношения ко всему, что их окружает в школе: друг к другу, к учителям, учебному процессу и изучаемому предмету, к школе, к самому себе и шире – к обществу, природе и в конечном итоге – к жизни в целом.

Для того чтобы обучение было целенаправленно воспитывающим, оно должно быть организовано прежде всего в соответствии с принципом научности. Все, что изучается, должно быть научно обоснованным с точки зрения причинно-следственных связей. Механическое зазубривание учебного материала (выучить слова наизусть) не имеет ничего общего с принципом научности в обучении. Ведь голова не сосуд, который надо наполнять, а факел, который нужно зажечь. Принцип научности должен ответить на вопрос «почему так, а не иначе?», т. е. раскрыть причинно-следственные связи между тем, «как пишется» (следствие) и тем, почему так пишется?» (причина). В данной статье сделана попытка проиллюстрировать воспитывающее значение принципа научности в обучении на примере изучения темы «Правописание непроверяемых гласных в корне слов» – такой, казалось бы, далекой от воспитания, непосредственно никак не связанной с нравственностью темы.

Вспоминаю в этой связи один очень показательный случай из школьной практики 60-х годов прошлого столетия, о котором рассказывал студентам-первокурсникам замечательный лингвист и уникальный лектор проф. М. В. Панов, приступая к изложению вопросов графики и орфографии на лекциях по курсу «Фонетика современного русского языка» на филологическом факультете МГУ. Вот примерное краткое содержание этого педагогического случая.

«*В одной из сельских школ учительница русского языка М. Ф. задала ученикам 5-го класса задание на дом выучить наизусть список слов для подготовки к словарному диктанту по теме «Правописание непроверяемых гласных в корне слов». Двое из учеников класса – Вася и Петя – после занятий в школе пошли играть в футбол. За игрой они не заметили, как пролетел день, и у них не осталось никаких сил, чтобы подготовиться к завтрашним урокам. Утром в школе на уроке русского языка весь класс писал словарный диктант. Васе и Пете не оставалось ничего кроме как списать слова у своих соседей по парте.*

Ребята с волнением ждали результатов «своего труда». И каково же было их удивление, когда на следующем уроке учительница объявила оценки по диктанту: Саша получил «отлично» за свое списание, а Петя за свое списание – «двойку». Результаты «одинакового труда» - списания у соседа – оказались совершенно противоположными из-за того, что один из них списал у соседа-отличника, а другой – у соседа-двоечника. А учительница не заметила, что они оба списывали».

Несложно понять, что нравственные результаты диктанта оказались диаметрально противоположными для наших героев. Саша, конечно же, радуется: без особых усилий он получил отличную оценку. Однако такая «радость» может вести к возникновению, формированию и развитию у него таких негативных нравственных свойств, как ложь, неискренность, лицемерие, отклонение от принятых норм общественного поведения и т. п., что может привести его в конечном итоге к ложному выводу, якобы можно жить припеваючи, и не тратя особых усилий. Петя же, наоборот, оказывается обиженным. Он столкнулся с несправедливостью: его друг за списание получил пятерку, а ему за такой же труд поставили двойку!? В результате такой несправедливости, необоснованной оценки знаний учеников со стороны учительницы Петя оказывается на пороге пути, ведущего к формированию у него таких негативных нравственных свойств и черт характера, как скептицизм, недоверие, пессимизм по поводу наличия и функционирования в обществе таких положительных качеств, как честность, искренность, порядочность, справедливость и т.п.

Возникает естественный вопрос: А нельзя ли избежать возникновения описанных негативных и ложных позитивных результатов? Думаем, что не только можно, но и нужно! Ниже предлагается возможное научное решение проблемы.

Русское письмо, хоть и называется звуко-буквенным, является, тем не менее, по сути не просто таковым. [2] Отношения между звуком и буквой являются, если можно так выразиться, не прямыми, не однозначными: «один звук – всегда одна и та же буква» и «одна буква – всегда один и тот же звук». [3] Между понятиями звук и буква стоит понятие фонема в трактовке Московской фонологической школы [4]: ***«фонема – это ряд позиционно чередующихся звуков».*** Поэтому, точнее будет, если звуко-буквенные соотношения русского письма определить через понятие фонема и сказать: ***«Русское письмо фонемно-буквенное».*** Буквы русского алфавита обозначают фонемы. Учитывая то обстоятельство, что *«фонема – это не один звук, а ряд позиционно чередующихся звуков»,* мысль *«буква обозначает фонему»* можно выразить и так: *«буква обозначает ряд позиционно чередующихся звуков».* Рассмотрим два примера.

Пример 1. Буква ***а*** обозначает на письме фонему <**а**>. Фонема <**а**>, в свою очередь, представлена, или реализуется в речи разными звуками: ударным гласным [**á**] *(с**á**д),* безударным гласным [**а**] *(с**а**ды),* безударным редуцированным гласным непереднего ряда [**ъ**] *(с**а**довод)* и т.д.

<а> = [**á**] / [**а**] / [**ъ**] *(с**а**д, с**а**ды, с**а**довод)*

Необходимо также учесть, что каждый из этих гласных звуков представляет (=реализует) фонему <**а**> в конкретной фонетической позиции:

1. гласный [**á**] – в позиции *«под ударением после твердого согласного» (с**а**д),*
2. гласный [**а**] – в позиции *«первый предударный слог после твердого согласного» (с**а**ды),*
3. гласный [**ъ**] – в позиции *«второй предударный слог после твердого согласного» (с**а**довод),*

Пример 2. Буква ***о*** обозначает на письме фонему <**о**>.

Фонема <**о**>, в свою очередь, представлена, или реализуется в речи разными звуками: ударным гласным [**ó**] *(в**ó**ды),* безударным гласным [**а**] *(в**о**да),* безударным редуцированным гласным непереднего ряда [**ъ**] *(в**о**довоз)* и т. д.

<**о**> = [**ó**] / [**а**] / [**ъ**] *(в**ó**ды, в**о**да, в**о**довоз).*

Необходимо учесть, что каждый из этих гласных звуков представляет (=реализует) фонему <**о**> тоже в конкретной фонетической позиции:

1. гласный [**ó**] – в позиции *«под ударением после твердого согласного» (в**ó**ды),*
2. гласный [**а**] – в позиции *«первый предударный слог после твердого согласного» (вода),*
3. гласный [**ъ**] – в позиции *«второй предударный слог после твердого согласного» (водовоз),*

В связи с тем, что некоторые звуки входят в разные ряды позиционных чередований, один и тот же звук может реализовать в разных фонетических позициях то одну фонему, то другую. В результате этого между звуками и фонемами устанавливаются двоякого рода соотношения: с одной стороны «фонема одна – звуков много», а с другой – «звук один – фонем много». Так, в *Примере 1* фонема одна – **<а>**, звуков три – [**á**] / [**а**] / [**ъ**]; в *Примере 2* тоже фонема одна – <**о**>, звуков три – [**ó**] / [**а**] / [**ъ**].

Буква для обозначения фонемы берется в соответствии с тем звуком из ряда позиционно чередующихся звуков, который представляет фонему в позиции наибольшего различения звуков данного класса. Такая позиция называется сильной позицией (в наших примерах – 1-я позиция *«под ударением после твердого согласного»*) в отличие от всех остальных позиций, которые называются слабыми позициями (в наших примерах – 2-я и 3-я позиции). Таким образом, обозначение фонемы в слабой позиции не соответствует ее звучанию в данной позиции. Для того чтобы обеспечить единообразие обозначения фонемы на письме, звуки из слабой позиции приходится «перевести» в сильную позицию. В методике обучения языка это называется «проверяемые написания». В тех случаях, когда перевод звука из слабой позиции в сильную (в методическом выражении – «непроверяемые написания») невозможно, то ученикам предлагается выучить наизусть слова с такими звуко-буквенными составами. К каким результатам может привести механическое зазубривание, мы уже описали выше.

Вывод, кажется, напрашивается сам: необходимо обучать учеников фонетическим позициям и позиционным чередованиям. При этом выстраивается логическая, т.е. научная методическая цепочка, состоящая из трех звеньев: *1) научись определять позиции 2) если звук в сильной позиции – пиши как слышишь 3) если звук в слабой позиции: а) переведи звук в сильную позицию – что слышно, то и пиши; б) не получается перевести звук в сильную позицию – ставь прочерк.*

Добавим к этому, что отличную оценку следует ставить ученику не только за правильное выполнение первых двух звеньев, и пункта а) третьего звена цепочки, но также и за правильные прочерки. А тем, кто считает обучение фонологической теории слишком сложным, непосильным делом для учеников, ответим словами героя произведения Апулея «Метаморфозы, или Золотой осел»: *«Клянусь Геркулесом, ты даже понятия не имеешь, что только предвзятые мнения заставляют нас считать ложным то, что ново слуху, или зрению непривычно, или кажется превышающим наше понимание; если же посмотреть повнимательнее, то обнаружишь, что это все не только для соображения очевидно, но и для исполнения легко.»*

ЛИТЕРАТУРА

1. Российская педагогическая энциклопедия : в 2 т. / гл. ред. В.В. Давыдов. – М.: Большая рос. Энцикл., 1993-1999.
2. Панов М.В. И все-таки она хорошая!: Рассказ о русской орфографии, ее достоинствах и недостатках.– М.: Наука, 1964. – 164 с.; Занимательная орфография: Книга для внеклассного чтения учащихся 7—8-х классов. М.: Просвещение, 1984.
3. Реформатский А.А. Из истории отечественной фонологии (очерк). **Реформатский А.А. Из истории отечественной фонологии: Очерк; Хрестоматия.** – М.: Наука, 1970, с.9-120.
4. Мамедов Р.С. Вокально-консонантная синтагматика в русском и азербайджанском языках. (контрастивно-типологическое системное исследование). – Баку: Мутарджим, 2006, §4 (Звук и буква: системно-функциональный лингвистический анализ).

XÜLASƏ

FONETİK MÖVQELƏR ŞAGİRDLƏRİN TƏRBİYƏÇİSİ KİMİ

Məmmədov R.S.

Sumqayıt Dövlət Universiteti

Tədris prosesinin hər bir tərkib hissəsi tərbiyəvi xarakterə malikdir. İstənilən fənni və istənilən mövzunu tədris edərkən bu, nəzərə alınmalıdır. Hərtərəfli təhsil elmi prinsipə əsaslanmalıdır. Nümunə olaraq, məqalədə “yoxlanılmayan vurğusuz saitlərin yazılışı" mövzusunun ənənəvi tədrisində şagirdlərin əxlaqi tərbiyəsinə mümkün mənfi təsirlər nəzərdən keçirilir, mövzunun tədrisi prosesində əxlaqi tərbiyəni elmi əsasda təmin etmək üçün fonetik mövqelərin və fonetik əvəzlənmələrin tədris olunması əsaslandırılır.

SUMMARY

PHONETIC POSITIONS AS A TUTOR OF STUDENTS

Mammadov R.S.

Sumgait State University

The article substantiates the idea that in the learning process everything has an educational value. This should be taken into account when studying any subject and any topic. For a full-fledged moral education, education must be based on the principle of science. As an example, a possible negative impact on the moral education of students is considered in the traditional study of the topic "Spelling of unstressed unchecked vowels of the root" and a scientifically based study of phonetic positions and phonetic alternations is proposed, which will allow for the educational nature of teaching.

I BÖLMƏ. KORREKSİON PEDAQOGİKA VƏ PSİXOLOGİYANIN AKTUAL PROBLEMLƏRİ

KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN ƏQLİ FƏALİYYƏTİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Məmmədova M. İ.
Azərbaycan Dövlət Pedaqoji Universiteti
sehran61@mail.ru

Xülasə: Məqalədə göstərilir ki, kiçik yaşlı məktəblilərin təlim işlərində təfəkkürün bir əqli fəaliyyət prosesi kimi cərəyan etməsində cisim və hadisələrin oxşar və fərqli əlamətlərinin müqayisə edilməsi mühüm məna kəsb edir. Müəllif qeyd edir ki, kiçik məktəb yaş dövründə şagirdlərin əqli fəaliyyətinin təzahüründə və istiqamətləndirilməsində təhlil prosesi ilə yanaşı, tərkib prosesi də mühüm əhəmiyyətə malikdir. Tərkib fəaliyyəti öyrənilən cisim və hadisələrin müxtəlif hissələri, xassə və xüsusiyyətləri arasında mövcud olan əlaqə və münasibətlərin araşdırılmasına yönələn bir əqli fəaliyyət prosesidir.

Açar sözlər: *əqli fəaliyyət, təhlil, tərkib, müqayisə, refleksiya*

Kiçik yaşlı məktəblilərin əqli fəaliyyəti müxtəlif obrazlı fikri tapşırıqların, onların məzmun və mahiyyətinin açılmasına yönəlmiş həllini təşkil edir. Əqli fəaliyyətdə əsas tərkib elementlərinin fikri əməliyyatlarını müəyyən etmək olar. Sistemli-əməliyyatlı şəraitdə kiçik yaşlı məktəblilərin fikri əməliyyatlarının inkişafına yanaşmada özünəməxsus xüsusiyyətlər vardır.

Təhlilə yiyələnmə şagirdin əşyaları müxtəlif əlamət və xassələrinə görə müəyyən etmək bacarığından başlayır. İstənilən əşyaya müxtəlif nöqteyi-nəzərdən baxmaq olar. Bundan asılı olaraq birinci yerdə əşyanın bu və ya digər cəhətləri, xassələri durur. Əşyaları cəhətlərinə və xassələrinə ayırmaqda şagirdlər çətinlik çəkirlər. Sonsuz sayda cisimlərin xassələrindən I sinif şagirdləri yalnız bir neçəsini ayıra bilirlər. Şagirdlərin inkişafı, onların əhatə dairəsinin genişliyi,gerçəkliyin müxtəlif aspektləri ilə tanışlıq sözsüz olaraq təkmilləşir. Lakin bu kiçik yaşlı məktəblilərin əşya və hadisələrin müxtəlif tərəflərini öyrənməyin zəruriliyini və bir çox cəhətlərini müəyyən etməyi istisna etmir [5, s.9].

Paralel olaraq müxtəlif əşyaları müqayisə etmək yolu ilə onların xassələrini müəyyən etmək üsuluna yiyələnmə, ümumi və fərqli anlayışları mövcud və qeyri-mövcud əlamətləri zəruri olaraq aşkara çıxarır. Bunun üçün təhlil, tərkib, müqayisə və ümumiləşdirmədən istifadə edilir. Ümumi və mövcud olanları müəyyən etmək bacarığının olmaması təlim prosesini çətinləşdirə bilər. Mövcud olanı müəyyən etmək bacarığı başqa bir bacarığın formalaşmasını şərtləndirir. Bu fəaliyyət kiçik yaşlı məktəblilərə heç də asan olmur. Təlim tapşırıqları prosesi daha mürəkkəb xarakter daşıyır, nəticədə bir neçə əşyanın ümumi və fərqli əlamətlərinin müəyyən edilməsi baş verir ki, uşaqlar onları qruplara ayırmağa çalışırlar. Burada təfəkkürün təsnifat əməliyyatı mühüm rol oynayır.

İbtidai məktəbdə təsnifat əməliyyatlarından dərslərin əksəriyyətində yeni anlayışların tətbiqində və onların möhkəmləndirilməsində istifadə edilir. Təsnifat prosesində uşaqlar situasiya ilə bağlı təhlil aparır, təhlil və tərkib əməliyyatlarından istifadə etməklə mövcud komponentləri ayırırlar. Sinfə daxil olan hər bir əşyalar qrupunu ümumiləşdirirlər. Nəticədə mövcud əlamətlərlə əşyaların təsnifatı aparılır. Göründüyü kimi, təfəkkürün bütün əməliyyatları bir-biri ilə sıx bağlıdır və onların tamlıqda formalaşması yalnız kompleks halında mümkündür. Onların bir-biri ilə

qarşılıqlı əlaqəsi əqli əməliyyatların tamlıqda inkişafını şərtləndirir. Təhlil, tərkib, müqayisə, ümumiləşdirmə və təsnifat I sinif şagirdləri üçün zəruridir, onlara yiyələnmədən təlim materialının mənimsənilməsi baş vermir. Kiçik məktəb yaşında uşaqlara fikri əməliyyatların əsas üsulları üzrə təlimi məqsədyönlü şəkildə aparılmalıdır. Buna müxtəlif psixoloji-pedaqoji tapşırıqlar kömək göstərə bilər [6, s.80].

Kiçik yaşlı məktəblilərin təlim işlərində təfəkkürün bir əqli fəaliyyət prosesi kimi cərəyan etməsində cisim və hadisələrin oxşar və fərqli əlamətlərinin müqayisə edilməsi mühüm məna kəsb edir. Müşahidələr göstərir ki, ilkin olaraq müqayisədə şagirdlərin qavrayış və hafizə fəaliyyəti, müqayisənin təzahürü şagirdlərin təfəkkür fəaliyyətinin inkişafının başlıca mərhələsini təşkil edir.

Müqayisə prosesində şagirdlər qarşılaşdırılan əşyaların və hadisələrin əlamət və xüsusiyyət-lərini ön plana çəkərək dərk edirlər. Təlim şəraitindən asılı olaraq öyrənilən cisim və hadisələrin bu və ya digər xassəsi şagirdlərin təhlil fəaliyyətinin obyektinə çevrilə bilər. Belə şəraitdə öyrənilən və müqayisə edilən cisim və hadisələrin, onların ayrı-ayrı əlamət və xüsusiyyətlərinin daha dərindən başa düşülməsi üçün real imkan yaranır.

Təlim prosesində müqayisənin bir idrak üsulu kimi tətbiqi cisim və hadisələrin əsas və ikincili əlamət və xassələrinin tam, dəqiq surətdə öyrənilməsini şərtləndirir. Belə olduqda kiçik yaşlı məktəblilərin mənimsədikləri məlumatlarda əsas xüsusiyyətləri ayırd etmək bacarığının inkişafı daha səmərəli xarakter daşıya bilər.

Apardığımız psixoloji müşahidələr göstərir ki, cisim və hadisələri müqayisə edərkən müəyyən intellektual çətinliklərlə qarşılaşan şagirdlər tədricən fikirlərini dərk etmək bacarığına yiyələnirlər. Bu təlim materiallarının mənimsənilməsi prosesində müqayisənin səmərəli tətbiqi üçün əlverişli şərait yaradır. Kiçik məktəb yaşı dövründə müqayisə prosesinin funksional imkanları tədricən təşəkkül tapıb formalaşır. Əqli fəaliyyət üsullarının inkişafı kiçik yaşlı məktəblilərin şəxsiyyətinin inkişafının mühüm tərəfini, xüsusilə də onun idraki sferasını təşkil edir. Əqli fəaliyyətin əsas elementlərinin inkişafı (təhlil, tərkib, müqayisə, ümumiləşdirmə) nitqin, yaddaşın inkişafını şərtləndirir və təlimdə sistemli-fəaliyyətli yanaşmaya istinad edir [1, s.68].

Prinsipial olaraq vacibdir ki, hər bir dərsdə şagird sevinc hissini keçirtsin ki, onun idrak maraqları, inam və gücü formalaşsın. Təlimə maraq və uğur əsas parametrlərdir. Onlar uşağın intellektual və fizioloji inkişafını, müəllimin işinin keyfiyyətini müəyyən edir [3].

Kiçik məktəb yaşı dövründə şagirdlərdə çoxlu pozitiv dəyişikliklər baş verir. Bu senzitiv mərhələ ətraf aləmə idraki münasibətlərin formalaşması, həmçinin təlim fəaliyyətinin təşkili və özünütənzimetmənin vasitəsidir. Bu yaşda psixoloji törəmələr təzahür edir. Kiçik məktəb yaşı dövründə şagirdlərin təlim fəaliyyətinin tam strukturunun mənimsənilməsi gedişində nəzəri dərketmə qabiliyyəti və təfəkkür-planlaşdırma və refleksiya təşəkkül edir.

İbtidai məktəbin sonunda şagirdlər tədricən fəaliyyəti əqli planda yerinə yetirməyi bacarırlar. Bu o deməkdir ki, onların intellektual inkişafı yeni səviyyəyə qalxır, fəaliyyətin daxili planı formalaşır. Planlaşdırma təlim tapşırıqlarının həllində, əqli və praktik fəaliyyət sistemində qarşılıqlı əlaqələrin qurulmasını təmin edir. Refleksiya şagirdlərə öz hərəkətlərinin və deyimlərinin düzgünlüyünü əsaslandırmağa təkan verir [2, s.82].

Təlim fəaliyyəti prosesində formalaşan, onun yerinə yetirilməsinin zəruri vasitəsi olan refleksiya və planlaşdırma ətraf gerçəkliyin bilavasitə əksi kimi uşağın əqli fəaliyyətini təşkil edir. Kiçik yaşlı məktəblilərdə əqli fəaliyyətin təşəkkülü nəticəsində əsas idrak prosesləri: təfəkkür, qavrayış, hafizə, diqqət prinsipial olaraq bu və ya digər şəkildə inkişaf edir. Həmçinin məktəbəqədər yaş dövrü ilə müqayisədə bu proseslərin məzmunu və formaları keyfiyyətcə dəyişir [4, s.91].

İbtidai məktəbi qurtarmaqla şagirdin əqli fəaliyyəti psixoloji törəmələrlə, ixtiyari-refleksiv, fəaliyyətin daxili planı ilə xarakterizə olunur. Bu mərhələdə əyani-obrazlı təfəkkürdən sözlü-məntiqi təfəkkürə keçid başa çatır. Şagirdlərdə düzgün məntiqi mühakimələr təzahür edir. Yəni şagird mühakimə etməklə əməliyyatdan istifadə edir. Lakin bu hələ formal-məntiqi əməliyyat deyil, çünki kiçik yaşlı məktəbli hipotetik planda mühakimə yürüdə bilmir. Bu yaşda şagirdlər üçün xarakterik olan əməliyyatları J.Pyaje "konkret" adlandırmış və qeyd etmişdir ki, şagirdlər yalnız konkret, əyani materialları tətbiq edirlər.

Təlim prosesində elmi anlayışlar sisteminə yiyələnmə təfəkkürün əsası kimi kiçik yaşlı məktəblilərin inkişafı haqqında danışmaq imkanı verir ki, bu da şagirdə tapşırıqları həll etməyə zəmin yaradır. Kiçik məktəb yaşı dövrünün əvvəlində qavrayış kifayət qədər differensiallaş-mamışdır. Bu baxımdan şagirdlər bəzən oxşarlıqlarına görə hərf və rəqəmləri unudurlar. Baxmayaraq ki, onlar əşya və rəsmləri məqsədəuyğun şəkildə nəzərdən keçirə bilərlər. Bunlarla yanaşı şagirdlər parlaq rənglərinə, formalarına və xassələrinə görə əşyaları ayırmaq qabiliyyətinə malikdirlər.

Əgər məktəbəqədər yaşlı uşaqlar üçün təhliledici qavrayış xarakterikdirsə, kiçik məktəb yaşının sonunda təlimdə müvafiq olaraq tərkibedici qavrayış təzahür edir. İnkişafetdirici intellekt qəbul edilən elementlər arasında əlaqə qurulmasına imkan yaranır. Kiçik məktəb yaşı dövründə diqqət getdikcə inkişaf edir. Təlim prosesində şagirdlərin təhlil fəaliyyətinin təşkilinə və məzmunlu istiqamətə yönəldilməsinə xüsusi diqqət yetirilməlidir.Bu yaş dövründə şagirdlərin əqli fəaliyyətinin təzahüründə və istiqamətləndirilməsində təhlil prosesi ilə yanaşı, tərkib və ya sintez prosesi də mühüm əhəmiyyətə malikdir. Tərkib fəaliyyəti öyrənilən cisim və hadisələrin müxtəlif hissələri, xassə və xüsusiyyətləri arasında mövcud olan əlaqə və münasibətlərin araşdırılmasına yönələn bir əqli fəaliyyət prosesidir. Tərkib prosesinə istinad etmək yolu ilə şagird təlim şəraitində öyrəndiyi materialları sistemə salır, onların məna ardıcıllığını müəyyənləşdirir, həmçinin mənimsədiyi məlu-matların bütöv şəkildə qavranılaraq dərk edilməsinə nail olmağa çalışır.

Təlim prosesində ümumiləşdirmə bacarığı şagirdin fikri fəaliyyətinin inkişafına əsaslı təsir göstərir. Şagird mənimsədiyi məlumatlar silsiləsini təhlil edir, qavradığı cisim və hadisələrin oxşar və fərqli cəhətlərini araşdırır, bu əsasda çıxarılan ümumi nəticələri, qaydaları dərk etməyə çalışır. Burada mənimsəmə prosesinin təşkili səviyyəsi ilə yanaşı, müəllimin istiqamətləndirici təhlil aparmaq nümunəsinin də mühüm rolu vardır. Kiçik yaşlı məktəblilərdə ümumiləşdirmə və mücərrədləşdirmə prosesləri tədricən inkişaf edir. Onlarda qeyri-mühüm əlamətləri əvvəlcə göstər-mək, yaxud mühüm əlamətləri səthi surətdə əks etdirmək hallarına təsadüf edilir. Ümumiləşdirmə və konkretləşdirmə arasında funksional əlaqə və asılılıq mövcuddur. Əks təqdirdə isə nəzəri biliklərin mənimsənilməsi prosesində formalizm elementləri dərin iz buraxa bilər.

Biliklərin mənimsənilməsinin intellektual təhlil və axtarışlarla müşayiət edilməsi şəraitində şagird konkret təlim şəraitində ümumiləşmiş nəticələri, qayda və qanunları dərk etməyə müvəffəqiyyətlə nail ola bilir. Təlim prosesinin ümumi gedişində mənimsənilən biliklərin xarak-terindən asılı olaraq onlar ümumiləşdirmə sayəsində yiyələndikləri qayda və nəticələri konkret biliklərin öyrənilməsi prosesinə tətbiq edirlər. Konkret təlim materialının qavranılaraq dərk edilməsində ümumiləşmiş biliklərin mühüm rolu vardır. Təlim prosesi psixi proseslərin kifayət qədər formalaşmasını zəruri edir. Məktəbəqədər yaşlı uşaqlarla müqayisədə kiçik yaşlı məktəblilər daha diqqətlidirlər. Şagirdlər artıq öz diqqətlərini onlar üçün maraqlı olmayan fəaliyyətdə də mərkəzləşdirmək qabiliyyətinə malikdirlər. Lakin onlarda qeyri-ixtiyari diqqət üstünlük təşkil edir.

Təlim fəaliyyətində uşağın ixtiyari diqqəti inkişaf edir. İlk günlər şagirdlər müəllimin göstərişi ilə tapşırıqları müstəqil yerinə yetirmək bacarığı əldə edirlər. Şagirdlər öz fəaliyyətində

qarşılarına məqsəd qoyur və öz hərəkətlərinə nəzarət edirlər. Bu yaş dövründə təlimin məzmununa diqqətin mərkəzləşməsi qabiliyyəti formalaşır. Diqqət ixtiyari və məqsədyönlü olur, onun həcmi artır, bir neçə obyekt arasında diqqətin paylanması qabiliyyəti yüksəlir [7,səh.72].

Kiçik yaşlı məktəblilərdə yaddaş intellektual xarakter daşıyır. Şagird nəinki yada salır, həm də xüsusi mnemik vəzifələri həll etməyə başlayır. Eləcə də şagird qarşısına xüsusi, ixtiyari vəzifələr qoyur və ya tələb olunan materialı yada salır. Kiçik məktəb yaşının sonunda yaddasaxlama üsullarının intensiv şəkildə formalaşması baş verir. Təkrarlar yolu ilə sadə yaddasaxlama üsullarından qruplaşmaya keçid özünü göstərir. Yaddasaxlama üçün sxem və modellərdən istifadə edilir. Bu yaşda hafizə ixtiyari olaraq iki istiqamətdə inkişaf edir. Məktəbəqədər yaşlı uşaqlardan fərqli olaraq kiçik yaşlı məktəblilərə məqsədyönlü şəkildə ixtiyari olaraq materialı yadda saxlamaq o qədər də maraqlı deyil. İldən-ilə öyrənmə ixtiyari hafizəyə istinad edir [8,səh.76].

Beləliklə, şagirdlər müstəqil şəkildə qarşıya təlim məqsədi qoyur, onların reallaşması yolunu proyektləşdirir, öz nailiyyətlərini qiymətləndirirlər. Odur ki, sistemli-fəaliyyətli yanaşma ibtidai ümumi təhsilin əsas təhsil proqramının mənimsənilməsinin nəticələrini təmin edir və təhsilalanların yeni bilik, bacarıq, sərişta və fəaliyyət üsullarını müstəqil şəkildə mənimsəmələrinə zəmin yaradır.

ƏDƏBİYYAT

1. Асмолов А.Т. Как проектировать универсальные учебные действия в школе: от действия к мысли / А.Т. Асмолов. – М.: Просвещение, 2008. – 98 с.
2. Безручко Л.В. Развитие и изучение мыслительной деятельности учащихся на уроках математики / Л.В. Безручко // Начальная школа. – 2007. №8 . – С.50-56.
3. Кабанова-Меллер Е.Н. Формирование приемов умственной деятельности и умственное развитие учащихся / Е.Н. Кабанова-Меллер. 60 – М.: Просвещение, 2008. – 213 с.
4. Зак А.З. Развитие теоретического мышления у младших школьников / А.З. Зак. – М.: Педагогика, 2010. – 324 с.
5. Пастушкова М.А. Формирование познавательных интересов при организации учебной деятельности младших школьников / М.А. Пастушкова // Научный журнал. – Спб., 2007 – № 18(44). – С. 41- 43.
6. Пентегова Г.А. Развитие логического мышления на уроках математики / Г.А. Пентегова // Начальная школа. – 2000. – № 11. – С. 74-82.
7. Раев А.И. Управление умственной деятельностью младшего школьника / А.И. Реев – Спб., 1996. – 123 с.
8. Шаповаленко И. В. Возрастная психология /И.В. Шаповаленко. – М.: Просвещение, 2005. – 349 с.

РЕЗЮМЕ
ОСОБЕННОСТИ РАЗВИТИЯ УМСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТИ МЛАДШИХ ШКОЛЬНИКОВ

Мамедова М. И.

В тезисе показано, что важно сравнивать общие и отличительные свойства предметов и событий в обучении мышления как процесса умственной деятельности младших школьников. Автор отмечает что, в младшем школьном возрасте наряду с процессом анализа важен и процесс синтеза в проявлении и направлении умственной деятельности. Синтез деятельности - это процесс умственной деятельности, направленный на исследование связей

и отношений, существующих между различными частями, свойствами и характеристиками изучаемого объекта и событий.

Ключевые слова: умственная деятельность, анализ, синтез, сравнение, рефлексия

SUMMARY

FEATURES OF THE DEVELOPMENT OF MENTAL ACTIVITY OF YOUNGER SCHOOL CHILDREN

Mammadova M. I.

The thesis shows that it is important to compare similar and different properties of objects and events in teaching thinking as a process of mental activity of younger schoolchildren. The author notes that in primary school age, along with the analysis process, the synthesis process in the manifestation and direction of mental activity is also important. The synthesis of activity is a process of mental activity aimed at exploring the connections and relationships that exist between the various parts, properties and characteristics of the studied object and events.

Key words: mental activity, analysis, composition, comparison, reflection

TƏLƏBƏLƏRİN ADAPTASİYASINA TƏLİM VƏ İMTAHAN STRESSİNİN PSİXOLOJİ TƏSİRİ

Məmmədova N.M.

Azərbaycan Dövlət Pedaqoji Universiteti

nigar.memmedova.1962@gmail.com

Xülasə: Tezisdə müəllif qeyd edir ki, stress orqanizmin və psixikanın funksional vəziyyəti olub biokimyəvi və fizioloji pozuntularını, habelə insanın psixoloji statusunun və sosial davranışının, psixogen təbiətli ekstremal amillərinin təsirinin nəticəsidir. Tezisdə təlim və imtahan stressinin yaranma səbəbləri, onların tələbə şəxsiyyətinə göstərdiri təsir ardıcıllıqla şərh olunmuşdur. Tələbə oğlan və qızlarda təlim və imtahan stressinin nəticələrinin göstəriciləri müqayisəli şəkildə aparılan müşahidələr əsasında ümumiləşdirilmişdir.

Açar sözlər: təlimə adaptasiya, imtahan stressi, emosional gərginlik, yorğunluq, təlim motivasiyası

Son dövrlərdə təhsildə stress problemi aktuallaşıb. Təhsilin başlıca vəzifəsi tələbələrdə stressə dözümlülüyü inkişaf etdirmək, imtahan müddətində qismən də olsa onun qarşısını almaqdır. Psixologi tədqiqatlar göstərir ki, seminar dərslərində "aşağı" qiymət almaq və ya tələbəni yüksək dəyərləndirmə, eləcə də müəllimin ciddi baxışları, onun emosiyaları tələbələrdə stress halları yaradır.

Stress dedikdə, orqanizmin və psixikanın funksional vəziyyətini başa düşürük ki, o da biokimyəvi, fizioloji pozuntularla, insanın psixoloji statusu, o cümlədən onun davranışı psixogen təbiətli ekstremal amillərin təsirinin nəticəsi ilə xarakterizə olunur. Hər bir təsir stress yaratmır. Belə ki, zəif təsirlər stressə aparıb çıxarmır. Stress o hallarda yaranır ki, xarici situasiya fərd tərəfindən tələblər, o cümlədən onun qabiliyyət və resurslarının həddindən artıq olması kimi hədələrlə qəbul edilir.

Aparılan sorğular göstərmişdir ki, sessiya müddətində stress halları daha çoxdur. Qızlar oğlanlara nisbətən stressə iki dəfə artıq meyllidirlər. Oğlanların 33,7%-i, qızların isə 8,3%-i stressə meylli olmadıqları aşkar edilmişdir. Tələbələrin əksəriyyətində stress, əhval-ruhiyyənin aşağı düşməsi (20%), nifrət və aqressiya (16,4%) halları təzahür etmişdir. Stressin təzahürü təlim prosesində tələbəyə diqqətini mərkəzləşdirməkdə, fikirlərini cəmləşdirməkdə maneələr yaradır.

Stressin əsas səbəblərinə tələbənin təlim prosesindəki uğursuz nəticələri də aid edilir. Təlimə yüksək tələblər, həyat tempinin yüksək olması, yuxusuzluq stressə səbəb ola bilər. Dərslərdə tələbələrin müvəffəqiyyətinin aşağı düşməsi (53,2%), dəvamiyyətinin zəif olması (34%) halları tez-tez müşahidə edilir.Əgər tələbə biliklərə yiyələnə bilmirsə, o zaman onda məşğələlərə maraq azalır, dərslərə qarşı biganəlik yaranır, bunlar onun davranışına öz təsirini göstərir. Stress tələblərin əmək qabiliyyətində, emosional sahəsində də fəsadlar yaradır. Təlim prosesində tələbələrdə əhval-ruhiyyənin aşağı düşməsi, əsəbilik, diqqətini dərsə yönəldə bilməmək halları tez-tez müşahidə edilir.

İmtahan stressi heç də həmişə zərərli xarakter daşımır. O, disstress xassəsi kimi orqanizmin formalaşmasında təhrikedici vasitəyə çevrilir. Psixoloji situasiyalarda gərginlik stimullaşdırıcı əhəmiyyətə malik olduğundan tələbələri öz biliklərini, potensiallarını aşkar etməyə imkan verir. Odur ki,belə stressin qarşısını almağa deyil, əksinə onun optimallaşdırılmasına köməklik göstərilməlidir. Yüksək həyəcanlı tələbələrdə onun səviyyəsini aşağı salmaq, labil psixikaya malik, inert, az motivasiya olunmuş tələbələrdə bu səviyyəni artırmaq vacibdir. Buradan belə nəticə çıxır ki, heç də stressin bütünlüklə korreksiyası deyil, (bir sıra situasiyalarda bu mümkün deyil) onun məqsədəuyğun idarə olunmasına çalışmaq lazımdır [1,s.196].

Ali pedaqoji məktəblərdə təlimə adaptasiya prosesi mürəkkəb, çoxsahəli olub III kursun sonunda başa çatır. Tələbələrin əksəriyyəti üçün xüsusilə də I kurslar üçün adaptasiya ağrılı bir proses olduğundan tələbələrə vaxtında kömək göstərmək, neqativ psixoloji-pedaqoji vəziyyətin baş verməsinin qarşısını almaq mühüm vəzifələrdəndir.

Məktəbdə məzun imtanlarının verilməsi, ali məktəbə hazırlıq və daxil olma az bir vaxtda böyük əqli gərginlik və mərkəzi sinir sisteminin yüklənməsi ilə baş verir. Dünənki məktəbli tələbə olduqdan sonra yeni şəraitə düşür, intensiv təlim yüklənmələri yeni həyati situasiyalarla xarakterizə olunur. Belə mürəkkəb mərhələdə tələbənin sosial adaptasiyasında mühüm dəyişikliklər baş verir, o müstəqil aktiv fəaliyyətə keçir.

Təlim fəaliyyətinin strukturu və şəraiti məktəblə müqayisədə mürəkkəbləşir-müəllimlərin sayı çoxalır, tədrisin forma və metodları dəyişir, pedaqoji tələblər artır, təlim işlərinin həcmi artır. Tələbə xüsusi sosial münasibətlərə daxil olur, onun əməyinin ritmi dəyişir, istirahətdə, yuxuda, psixi həyəcanlanmalarda dəyişikliklər təzahür edir.Tələbənin adaptasiya reaksiyası stressorun xarakterindən deyil, ona təsir edən amilin həmin şəxsin özü üçün nə dərəcədə əhəmiyyətli olmasından asılıdır.

Əgər fəaliyyət sferasında əhəmiyyətli identifikasiya, tələblərin yüksəlməsi, yeni prinsiplər, forma və metodlar, habelə tələbələr və müəllimlər üçün emosional gərginlik,intellektual fəaliyyətdə təlim vasitələri orqanizmin müxtəlif funksiyalarının və mərkəzi sinir sisteminin mexanizmlərinin gərginləşməsinə gətirib çıxarır. Məsələ ondadır ki, tələbələrin adaptasiya tempi təlim tələblərinin artması tempindən kəskin şəkildə geridə qalır.

Əsəb-psixi gərginliyin ən mühüm formalarından biri imtahan prosesində şifahi cavab verməkdir. Belə ki, ali pedaqoji məktəblərin IV kurs tələbələri dövlət imtanını şifahi şəkildə verirlər. İmtahan situasiyasında tələbələrdə stress xarakterli elementlər dəyişməz qalır. İmtahan

stressi amili imtahandan sonra da təkrarən baş verir və uzun müddət davam edir. Orqanizmin adaptasiya ehtiyatı geniş deyil, hətta stressin uzunmüddətli təsirindən də onun izləri qalır.

Ali məktəb tələbələri ildə iki dəfə uzunmüddətli emosional stresli imtahan verməli olurlar. Onu "risk amilli imtahan" və ya "əsəb gərginliyi sindromu" kimi nəzərdən keçirirlər. İmtahan sessiyasında tələbə əsəb-emosional gərginlik keçirir. Yorğunluq vəziyyəti onda həmin dəqiqələrdə baş vermir, ona görə ki, gəncin orqanizmində kifayət qədər fizioloji ehtiyatlar vardır. İmtahana hazırlıq təkcə əqli yüklənmənin yüksəlməsi ilə deyil, həm də hərəki fəallığın məhdudlaşdırılması ilə sıx bağlıdır.

İmtahanda təlim motivasiyasının bu və ya digər tiplərinin dəyişməsi ilə bağlı xüsusilə də nəzarət lokusu, özünüqiymətləndirmə, həyəcanlanma, qərarsızlıq, riskə meyllilik, uğur motivasiyasının fərdi-şəxsi xüsusiyyətləri həyata keçirilir. İmtahanlar bütünlükdə tələbələrin təlim motivasiyasını gücləndirir. İlk növbədə bu güclənmə aşağı tələbatların (fizioloji, maddi və təhlükəsizlik tələbatlarının) hesabına baş verir. Sessiyada tələbələrin əksəriyyəti səylə oxuyur, onlara xoş gəlməyən situasiyalardan uzaqlaşmağa cəhd göstərir, onlar öz vəziyyətlərinin stabilliklərini təmin edirlər.

Semestr və imtahan müddətində təlim motivasiyasının xarakterində və istiqamətlənməsində dəyişikliklər motivasiya göstəricilərindən əhəmiyyətli dərəcədə asılıdır. Bu asılılıq əks-əlaqə xarakteri daşıyır. Odur ki, təlim motivasiyası aşağı səviyyə olan tələbələr təlim prosesinə cəlb edilməlidirlər. Təlim və imtahan sessiyasında stresli təsirlərə adaptasiya çox mühümdür. Təlim stressi və imtahan sessiyasının mənfi təsiri tələbələrdə dezadaptasiyaya səbəb olur və daxili gərginliklə müşayiət olunur.İmtahan stressi tələbələrin təlim fəaliyyətinin mühüm mərhələlərindən biri sayılır. Məhz bu mərhələdə tələbələr intellektual tapşırıqlarla qarşılaşırlar ki, bu da onlarda yüksək stressogen yaradır. İmtahan tələbələr üçün stresli vəziyyətdir və onların sosial statusuna, təlim fəaliyyətinin uğuruna, gələcək təlimə və maddi vəziyyətə təsir göstərir.

Onu da qed etmək lazımdır ki, təkcə imtahan deyil, nəzarətin müxtəlif formaları, kollokviumlar, testləşdirmə, buraxılış işlərinin müdafiəsi tələbələrdə gərginlik yaradır. İmtahan sessisyası müddətində əqli fəaliyyətin yüksək intensivliyi, yuxu rejiminin pozulması, emosional gərginliyin yüksəldilməsi halları müşahidə edilir ki, onlar qarşıdakı imtahanın verilməsi ilə bağlı olur [4,s.10].

İmtahanqabağı vəziyyətə bir çox amillər: hazırlıq, özünüqiymətləndirmənin səviyyəsi, gözlənilən qiymətlər təsir göstərir. Zəif uğurları olan tələbələrdə aşağı özünüqiymətləndirmə müşahidə edilir, tələbələr öz biliklərinə inanmır və onların yoxluğunu hiss edirlər. İmtahanda həyəcanlanmalar daha qabarıq şəkildə özünü göstərir. Tələbə oğlanlarda təlim stressinin baş verməsinin səbəblərinə təlimdə həddindən artıq yüklənmə, ciddi müəllimlər, tənzimlənməyən qidalanma səbəb olur. Qrupdakı konfliktlər onları az maraqlandıran problemlərdəndir. Tələbə qızlarda isə təlim stressinin yaranmasına təlim yüklənmələri, valideynlərindən uzaqda yaşamaları, gün rejimlərini düzgün qura bilməmələri aid edilir.Qrupda baş verən konfliktlər, oxumaq arzusunun olmaması və s. onların az maraqlandıran problemlərdəndir.

Tələbə oğlanlarda təlim stressinin səviyyəsi təlimin son üç ayında praktik olaraq dəyişməmişdir. Belə ki, tələbələrin 41%-də stress əhəmiyyətsiz dərəcədə yüksəlmiş, 35%-də əhəmiyyətli dərəcədə azalmış, 20%-də dəyişməmiş, 2%-də əhəmiyyətsiz dərəcədə azalmış, 2%-də əhəmiyyətli dərəcədə azalma halları müşahidə edilmişdir. Təlimin üç ayı ərzində təlim stressinin səviyyəsi tələbələrin əksəriyyətinin qarşıdakı imtahan sesssiyasının nəticələrinə görə keçirdikləri həyəcanlarla bağlı olmuşdur. Həm tələbə oğlanlarda, həm də tələbə qızların psixoloji vəziyyətində

stressin təzahürü özünü aydın göstərir ki, bu da tələbələrin iş qabiliyyətinin aşağı düşməsinə səbəb olur.

Tələbə oğlanlarda imtahan həyəcanının orta göstəricisi bir qədər (7,7bal) artır, tələbə qızlar isə normadan artıq (9,5bal) həyəcanlanırlar. İmtahan həyəcanının orta göstəricisi tələbələrdə bütünlükdə yüksəlmiş və 8,6 bal təşkil etmişdir. Tələbələr imtahanqabağı həyəcanlarını müxtəlif üsullarla: yuxu ilə, dadlı yeməklə, ünsiyyətlə, həmçinin nəfəs gimnastikası və sakitləşdirici preparatlarla aradan qaldırmağa çalışırlar .Bəzi tələbələr isə həyəcanlarını aradan qaldırmaq üçün heç bir üsuldan istifadə etmirlər.İmtahanqabağı stressin aradan qaldırılmasının əsas və mühüm üsulu yuxudur ki, soruşulanların 75%-nin göstəricisi bunu bir daha təsdiq edir. Tələbələr imtahan müddətində normadan artıq (8,6 bal) həyəcanlanırlar.

İmtahan stressi tələbələrin adaptiv imkanlarının xarakteri, psixofizioloji və şəxsi resursların məcmuyu, özünütənzimetmə, habelə təsirləri optimallaşdırmaq məqsədilə özünü inkişaf etdirməklə müəyyən edilir. Ali pedaqoji məktəblərdə tələbələrin ümumi adaptasiyasında müsbət dinamika təzahür edir. Belə ki, emosional diskomfort vəziyyətində olan I kurs tələbələrinin 94%-ində stressə qeyri-adaptasiya üstünlük təşkil edir. III kurslarda tələbələrin 48%-də, IV kurslarda tələbələrin yalnız 24%-də dezadaptasiya halları müşahidə olunur. Odur ki, tələbələrin 76%-də emosional komfortluqla, özünə və başqalarına pozitiv münasibətlə, yüksək nəzarətlə xarakterizə edilən vəziyyətlər stressin yaranmasına səbəb olur.

İmtahan stressi zamanı orqanizmin mobilləşməsi (səfərbərliyi) baş verir. Belə ki, *fiziki tərəfdən* növbəti simptomlar: müxtəlif növlü qıcolmalar, ümumi kefsizlik, arterial təzyiqdə dəyişikliklər, nəfəsalmanın çətinləşməsi, ürəkbulanma, nadir hallarda allergik reaksiyalar təzahür edir. *Emosional sfera baxımından* təşviş, şayiə, həyəcanlanma, çaşqınlıq, *koqnitiv sfera tərəfdən* yaddaşın pozulması, diqqətin mərkəzləşməməsi, imtahanda uğursuzluqların mənfi nəticələri haqqında fikirlər və s. stressin yaranmasına imkan yaradır. *Davranış tərəfdən* imtahan stressinə imtahana hazırlaşmaq arzusunun olmaması, halsızlıq və s. səbəb ola bilər.

Alimlər qeyd edirlər ki, imtahan stressi həmişə ziyanverici səciyyə daşımır. Psixoloji gərginliyin müəyyən situasiyasında stres stimullaşdırıcı mənaya malikdir, o tələbələrə imtahan vermək üçün öz biliklərini və şəxsi ehtiyatlarını mobilizə etməyə kömək edir. Bununla əlaqədar olaraq yüksək həyəcanlılığı olan tələbələrin imtahan stressini optimallaşdırmaq və tələbələri motivasiya etmək lazımdır.

ƏDƏBİYYAT

1. Əliyev B.H.,Cabbarov R.V.Təhsildə şəxsiyyət problemi. Bakı, Təhsil, 2008,134 s.

2. Габдреева Г.Ш. Формирование способности к самоуправлению психическими состояниями у студентов с высоким уровнем тревожности: автореф. дис. канд. психол. наук.М.: Изд-во Москов.гос.ун-та, 1991, 36с.

3. Корнев К.И. Значение когнитивных факторов в процессе преодоления стрессовых ситуации // мат-лы X Всеросс.конф.студ.аспир и молод.уч. «Наука и образование», в 6 т.: Изд-во томского гос.пед.ун-та. Томск, 2006, Т.3.Ч.1 (Педагогика и психология). с.48-54

4. Мельников В.И. Экзаменационный стресс студентов и основные методы его оптимизации //Психология.Историко-критические обзоры и современные исследования.-2012. -№ 1. с.45-60

5. Щербатых Ю.В. Вегетативные проявления экзаменационного стресса: автореф.дис. д-ра биол.наук. СПб: 2001, 38 с.

РЕЗЮМЕ
ПСИХОЛОГИЧЕСКОЕ ВЛИЯНИЕ УЧЕБНОГО И ЭКЗАМЕНАЦИОННОГО СТРЕССА НА АДАПТАЦИЮ СТУДЕНТОВ
Мамедова Н. М.

В статье автор отмечает, что стресс является функциональным состоянием организма и психики, биохимических и физиологических нарушений, а также результатом влияния экстремальных факторов психогенной природы на психологический статус и социальное поведение человека. В статье последовательно раскрываются причины учебного и экзаменационного стресса и их влияние на личность студента. На основании наблюдений обобщены сравнительные показатели результатов учебного и экзаменационного стресса у студентов юношей и девушек.
Ключевые слова: адаптация к обучению, экзаменационный стресс, эмоциональное напряжение, переутомление, мотивация обучения

SUMMARY
PSYCHOLOGICAL INFLUENCE OF TRAINING AND EXAMINATION STRESS ON THE ADAPTATION OF STUDENT
Mammadova N. M.

In the article, the author notes that stress is a functional state of the body and psyche, biochemical and physiological disorders, as well as the result of the influence of extreme factors of a psychogenic nature on the psychological status and social behavior of a person. The article consistently commented on the causes of study and examination stress and their impact on the personality of the student. On the basis of observations, the comparative indicators of learning outcomes and stress in exams among boys and girls were summarized.
Key words: adaptation to training, exam stress, emotional tension, exhaustion, training motivation

YENİYETMƏLƏRİN EMOSİONAL-İRADİ SFERASININ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Məmmədova S.Ə.
Bakı Dövlət Universiteti
seris.isazade@gmail.com

Xülasə: Məqalədə yeniyetmələrin emosional-iradi sferasının inkişaf və psixoloji xüsusiyyətləri ardıcıl- lıqla araşdırılır. Məqalədə müəllif tərəfindən yeniyetmələrin emosional sferasının meyarlarının psixoloji məzmun və mahiyyəti açıqlanır və onların elmi şərhi verilir. Həmçinin tezisdə müəllif haqlı olaraq qeyd edir ki, yeniyetməlik yaş dövründə özünüdərkin təkmilləşməsi uşaqların öz şəxsi səhvlərinə diqqətlə yanaşması ilə xarakterizə olunur ki, o da "Mən obraz"ının özünüinkişafa istiqamətlənən iradi səylərin tətbiqinə aparıb çıxarır.
Açar sözlər: emosional-iradi sfera, emosional təəssüratlar, emosionallıq, motivasiya sferası, özünüqiymətləndirmə

Yeniyetməlik dövründə şəxsiyyətin kollektivdəki sosial mövqeyi də əsaslı surətdə dəyişir. Belə ki, bu yaşda yeniyetmələr "kiçik" uşaqdan "böyük" uşağa çevrilir [4,s.308]. Yeniyetmələrdə emosiyalar əhəmiyyətli dərəcədə ünsiyyətlə sıx surətdə bağlıdır. Odur ki, insanlarla şəxsi əhəmiyyətli münasibətləri həm məzmununa, həm də xarakterinə görə müəyyən edirlər. V.N. Kunisinanın fikrincə, yeni aparıcı fəaliyyətdə və və ünsiyyətin təcrübəsində emosiyaların yaşanma təcrübəsində çatışmazlıqlar ona aparıb çıxarır ki, yeniyetmə öz emosional etalonları əsasında nəzərdə tutduğu konkret fərdi xüsusiyyətlərini qoruyur.

Yeniyetmələrdə özlərinə mənfi münasibət müşahidə edilir. Bu yaşda yeniyetmələr üçün mənfi emosiyalara qarşı müsbət, yüksək əhval-ruhiyyə və motivasiya sferasında razılaşdıırılma xarakterikdir. Onlarda qorxu və sevinc emosiyaları ilə yanaşı verbal özünü ifadəetmə də təzahür edir. Bu yaş dövründən başlayaraq emosiyalar haqqında biliklər həmin emosiyalara münasibətdə bir qədər ardıcıllıqla təşəkkül edir.

Rus psixoloqu E.Q.Babinovanın tədqiqatları müəyyən etmişdir ki, həyatının birinci ilində uşaqlarda qeydə alınmış emosional təzahürlərin 72%-i yaşlılarla ünsiyyət fəaliyyəti ilə bağlıdır. Onların böyük əksəriyyəti, yəni 80%-i müsbət emosiyalardan ibarətdir [5,s.173].

Yeniyetmələrin emosional sferası üçün aşağıdakı meyarlar daha çox xarakterikdir:

1. Yeniyetmələrdə yüksək emosional qıcıqlanma mövcuddur. Odur ki, onlar səbirsizlikləri, öz hisslərini tez büruzə vermələri və həddindən artıq emosionallıqları ilə fərqlənirlər. Belə yeniyetmələr onlar üçün maraqlı olan işlərə həvəslə qoşulur, lakin kiçik bir səhvdən, özlərinə qarşı yaranan haqsızlıqdan həmin işdən uzaqlaşmağa qadirdirlər.

2. Kiçik yaşlı məktəblilərdən fərqli olaraq onların emosional təəssüratlarında davamlılıq yüksəkdir. Onlar uzun müddət haqsızlığı unuda bilmirlər.

3. Böyük yeniyetməlik yaşında həyəcanlılığın artması müxtəlif emosiyalara səbəb olan insanlarla intim-şəxsi münasibətlərin təzahürü ilə bağlı olur.

4. Hisslərdə ziddətlilik özünü göstərir. Belə ki, yeniyetmələr tez-tez öz yoldaşlarını müdafiə edirlər. Şəxsi ləyaqət hissinin yüksək inkişafına yiyələnməklə yeniyetmələr inciklikdən ağlaya bilərlər, lakin başa düşürlər ki, ağlamaq onlar üçün ayıb sayılır.

5. Yenieytmələrdə təkcə başqalarının qiymətinə deyil, həm də öz inkişafının, özünüdərkinin nəticəsində təzahür edən özünüqiymətləndirmədə həyəcanlanmalar baş verir.

6. Yeniyetmələrdə qrupa mənsubluq hissi güclü inkişaf edir. Onlar müəllim və böyüklərdən daha çox, öz yoldaşları tərəfindən bəyənilməməkdən ehtiyat edirlər, bu anlar onlar üçün çox ağrılıdır. Onlarda tez-tez qrupdan təcrid olunmaq qorxusu özünü göstərir. Uşağın yeniyetməlik yaş dövrünə necə qədəm qoymasından asılı olmayaraq onun fəaliyyətinin başlıca motivi yoldaşlarının hörmətini qazanmaq, onların yanında nüfuza malik olmaqdır. Yeniyetmə yoldaşlarının rəyini müəllimlərinin və valideynlərinin rəyindən üstün tutur. Yeniyetmənin cəhd göstərdiyi ilk məsələ ağıllı, bacarıqlı insan kimi özünü təsdiq etməkdir. Hələ kiçik yeniyetməlik dövründən onların xarici görünüşü özünütəsdiq vasitəsinə çevrilir. Ətrafdakıların onların haqqında nə düşündükləri yeniyetmələri bir o qədər də narahat edir.

7. Yeniyetmələr qorxaqlığa qarşı çox barışmaz olurlar. Öz cəsarətlərini nümayiş etdirmək üçün onlar böyük riskə gedir, yoldaşlarının gözü qarşısında heç nədən qorxmadıqlarını nümayiş etdirmək məqsədilə bu cür hərəkətlərə yol verirlər.

8. Yeniyetmələr tərəfindən dostluğa yükək tələblər verilir. Bunun əsasında kiçik yaşlı məktəblilərin birgə oyun fəaliyyəti deyil, ümumi maraqlar, əxlaqi hisslər, dostluqda seçim mühüm rol oynayır. Dostlarının təsiri altında yeniyetmələr dəyişir, hətta qrup dostluğu da daha genişlənir.

9. Onlarda vətənpərvərlik hissi yüksək şəkildə təzahür edir.

Yeniyetməlik yaşına keçid uşağın şəxsi inkişafına psixoloji təsir edən dərin dəyişikliklərlə xarakterizə olunur. Bu dəyişikliklər daha çox orqanizmin fizioloji inkişafına, intellektinə, qabiliyyətlərinin və idrak proseslərinin inkişaf səviyyəsinə aiddir. Bütün bunlar uşaqlıqdan yetkinliyə keçidlə izah olunur. Bu yaşda yeniyetmənin fəaliyyətinin məzmunu, onun ünsiyyət sahəsi, insanlara münasibətdə seçiciliyi, onları qiymətləndirməsi, habelə özünüqiymətləndirməni müəyyənləşdirən şəxsi dəyərlər sisteminin formalaşması baş verir. Böyük yaşlı yeniyetmələr müxtəlif peşələrə maraq göstərməyə başlayır, onlarda peşə yönümlü arzular yaranır, peşə özünütəyini formalaşır. Lakin müsbət yaş meylləri bütün yeniyetmələr üçün tipik deyil. Onların bir çoxu sonrakı yaşlarında da gələcək peşələri barədə ciddi düşünmürlər.

Yeniyetməlik yaşın başlanğıcında yeniyetmədə böyüklərə oxşamaq istəyi inkişaf edir və güclənir, bu istək o qədər güclü olur ki, yeniyetmə bəzən vaxtından əvvəl özünü yetkin hesab etməyə başlayır, hamıdan onunla böyüklər kimi yanaşmağı tələb edir. O hələ də hər şeydə yetkinlik tələblərinə tam cavab vermir. Yetkinlik hissi bu yaşın mərkəzi və spesifik yeni törəməsidir. İstisnasız olaraq bütün yeniyetmələr yetkinlik keyfiyyətlərinə yiyələnməyə çalışırlar.

Yaşlı insanlarda bu keyfiyyətlərin təzahürlərini görən yeniyetmə çox vaxt onları tənqid etmədən təqlid edir. Yeniyetmələrin yetkinliyə şəxsi cəhdləri o zaman güclənir ki, yaşlılar yeniyetmələrə uşaq kimi deyil, daha ciddi və tələbkarlıqla yanaşmağa başlayırlar. Bu proseslərin nəticəsində yeniyetmənin yetkin olmağa daxili cəhdi daha da möhkəmlənir, bu da şəxsi psixoloji inkişafın tamamilə yeni bir xarici və daxili vəziyyətinin yaradılmasına imkan verir. O, yeniyetmənin ətrafdakı insanlarla və özü ilə münasibətlərinin bütün sistemində dəyişiklikləri tələb edir.

Yeniyetmənin şəxsiyyətinin inkişafında təqlidin məzmunu və rolu dəyişir. Təqlid idarəli olur, onun intellektual və fərdi inkişafının çoxsaylı tələbatlarına xidmət etməyə başlayır. Yeniyetmələr təlim formasının inkişafında yeni bir mərhələyə yetkinliyin xarici xüsusiyyətlərini təqlid etməklə başlayır. Qızlar üçün buraya: geyim, saç düzümü, zərgərlik, kosmetika, xüsusi söz ehtiyatı, davranış tərzi, istirahət yolları, hobbi və s aiddir. Yeniyetmə oğlanlar üçün təqlid obyekti çox vaxt iradə, dözümlülük, cəsarət, dostluğa sədaqət sahibi olan bir insandır. Yeniyetmələr üçün onlardan böyük olan həmyaşıdları nümunə ola bilər. Bu yaşda böyüklər kimi olma meyli yaşla birlikdə artır. Yeniyetməlik yaşında uşağın özünüdərkinin inkişafı və formalaşması prosesi davam edir. Əvvəlki yaş mərhələlərindən fərqli olaraq bələdləşmədə dəyişikliklər özünü göstərir ki, o insanın şəxsi xüsusiyyətlərinin dərkinə yönəldilir.

Bu yaş dövründə özünüdərkin təkmilləşməsi yeniyetmələrin öz şəxsi səhvlərinə diqqətlə yanaşması ilə xarakterizə olunur. Yeniyetmələrdə arzuolunan "Mən obraz"ı özünüinkişafa istiqamətlənən iradi səylərin tətbiqinə aparıb çıxarır. Böyük yeniyetməlik yaş dövründə bir çox oğlanlar öz iradi keyfiyyətlərinin özünüinkişafı ilə məşğul olmağa başlayırlar. Təqlidin obyekti onlar üçün yoldaşları, böyük yaşda olan gənclər və yetkin kişilərdir. Yeniyetmə iradəni təzahür etdirən işlərdə onlarla birlikdə iştirak edir. Bütün iradi keyfiyyətlərin inkişafının ümumi məntiqi özünü idarə etmək bacarığında, səyləri birləşdirməklə yüksək nəticələrə nail olmaqda və s.-də ifadə oluna bilər.

Məntiqə görə, iradi keyfiyyətlərin inkişaf üsulları təkmilləşir. İlk günlər yeniyetmələr sadəcə olaraq başqa adamlara qibtə ilə baxır, onların həmin keyfiyyətlərə yiyələnmələrinə (10-11 yaşda) həsəd aparırdılar. Sonralar yeniyetmələr belə keyfiyyətlərə malik olmaq arzusunu (11-12 yaşlarda) bildirir və nəhayət, onların özünütərbiyəsinə (12-13 yaşlarda) başlayır. Yeniyetmələrdə iradi özünütərbiyənin ən aktiv mərhələsi məhz 13 yaşdan 14 yaşa qədər olan dövr hesab olunur. Onunla eyni cinsdən olan bütün insanlara xas faydalı iradi keyfiyyətlərin yeniyetmələrin özündə tərbiyə edilməsinə səy göstərilir.

Oğlanlardan fərqli olaraq qızlarda analoji olaraq iradi keyfiyyətlərin işlənilməsi bir qədər fərqlənir. Belə ki, qızlar üçün iradi keyfiyyətlər təlimdə, incəsənətin müxtəlif növlü məşğələlərində, evdarlıqda, habelə idmanda möhkəmlənir. Oğlanlarla qızlar arasında təsvir olunan fərqlər onu göstərir ki, məhz belə fəaliyyət növlərində inadkarlıq və iş qabiliyyəti əldə edilir ki, onlarla məşğul olmaqla yetkin yaşa çatmaq mümkündür.

Yeniyetməlik yaşında gələcək peşə seçimi ilə bağlı proseslər həyata keçirilir ki, orada şəxsiyyətin mühüm iş keyfiyyətləri, bacarıq və vərdişləri özünü göstərir. Odur ki, bu yaşda yeniyetmələrdə idraki və yaradıcı fəallığın yüksəlməsi fərqlənir. Onlar hər gün nəyi isə öyrənmək, daha çox informasiya əldə etməyə səy göstərirlər. Belə cəhdlər yeniyetmələri adi məktəb təlimi proqramından kənara çıxıb öz bilik, bacarıq və vərdişlərini stimullaşdırmağa təhrik edir.

Yeniyetmə özünütəhsil və özünəxidmət yolu ilə öz tələbatlarını ödəməyə, bəzən də yoldaşları ilə bunu birgə etməyə başlayır. Onların bir çoxu müxtəlif peşə bacarıqlarına yiyələnməyə cəhd göstərirlər. Bu yaşda peşəyə bələdləşməyə maraq həqiqi ehtiras xarakteri kəsb edir, yeniyetmə özünün asudə vaxtının çoxunu ona sərf edir. Gələcək peşə seçimi yeni təlim motvlərinin təzahürünü şərtlənirir ki, onlar bilik, bacarıq və vərdişlərinin daha da genişlənməsi ilə bağlıdır.

Bütün bunlar yeniyetməyə maraqlı işlə, müstəqil yaradıcı əməklə məşğul olmağa imkan verir. Təlim özünütəhsillə birləşdikdə daha dərin şəxsi məna kəsb edir. Bu yaşda bilik, bacarıq və vərdişlər yeniyetmələr üçün dəyər meyarı olub maraqların və təqlidin təzahürünə səbəb olur. Bunlar iradi səyin nəticəsində özünü aydın göstərir. Yeniyetməlik yaşında emosional-iradi sferanın təzahürü ilə bağlı daha faydalı şəxsi keyfiyyətlər: işgüzarlıq və təşkilatçılıq qabiliyyətləri yaranır. Bu şəxsi keyfiyyətlər fəaliyyətin bütün sferalarında praktik olaraq inkişaf etməklə yeniyetməni qrup əsasında təşkil edilən təlim, əmək və oyuna cəlb edir.

Yeniyetmələrin iş keyfiyyətlərinin inkişafını sürətləndirmək məqsədilə əmək fəaliyyəti üçün böyük imkanlar açılır, onlar böyüklərlə bərabər burada iştirak edirlər. Bunlara məktəb işlərində, uşaq kooperativlərinin, kiçik məktəb müəssisələrinin işində iştirak və s. misal ola bilər. Belə hallarda yeniyetmələrə maksimum şəkildə müstəqillik verilməsi vacibdir ki, yaşlılar uşaqlarının təşəbbüskarlığını, işgüzarlığını görsünlər və dəstəkləsinlər.

Yeniyetməlik yaşında maraqlı oyun öyrənmək və işləməklə yanaşı, həm də onların fərdi inkişafı üçün də geniş imkanlar yaranır. Burada söhbət artıq oyun-əyləncələrdən deyil, böyüklərin idarəetmə sənətini öyrəndiyi modellər üzərində qurulmuş işgüzar oyunlardan gedir. Bu yaşda tələbatların düzgün qiymətləndirməsi, onlardan düzgün istifadə imkanlarını formalaşdırmaq və inkişaf etdirmək yaşlılardan asılıdır.

Yeniyetməlik yaşında uşaqlar həmyaşıdların və böyüklərin fikirlərinə qarşı həssas olurlar, onlar intim insani qarşılıqlı münasibətlərdə əxlaqi və etik xarakterli kəskin problemlə qarşılaşırlar. Bu yaşda insanların şəxsiyyətini və fəaliyyətini qiymətləndirmək üçün yeni meyarlar da formalaşır. O bir tərəfdən insanları bir-biri ilə müqayisə edərək daha dəqiq və düzgün qiymətləndirmək üçün bir imkanın yaranmasına səbəb olur, digər tərəfdən yeniyetmələrin bir yetkin insanı düzgün qəbul edə bilməməsi, ona düzgün qiymət verə bilməməsi səbəbindən müəyyən çətinliklər yaradır.

Bu yaşda özünüqavramada müsbət dəyişikliklər də baş verir, xüsusən də yeniyetmələrdə özünəhörmət hissi artır və şəxsiyyət kimi özünəqiymət yüksəlir. Yaşa dolduqca yeniyetmələrin ilkin, qlobal mənfi özünüqiymətləndirməsi bir qədər differensiallaşır, müəyyən sosial vəziyyətlərdə davranışı, daha sonra şəxsi hərəkətləri xarakterizə edir. Refleksiyanın inkişafında yeniyetmələrin öz şəxsi ləyaqətlərini və çatışmazlıqlarını dərk etməsi qabiliyyəti ziddiyyətli xarakter kimi müşahidə edilir.

Yeniyetməliyin başlanğıcında uşaqlar müəyyən həyati situasiyalarda yalnız ayrı-ayrı davranışları, sonra onların xarakter cəhətlərini, nəhayət, şəxsi xüsusiyyətləri dərk edirlər. Müəyyən edilmişdir ki, yaş artdıqca yeniyetmələrin ətraf aləmdəki insanlar haqqında təsəvvürləri də dəyişir. Şəxsiyyətlərarası qavrayış etalonları onları əhatə edən insanlar tərəfindən qiymətləndirilir və ümumiləşdirilir, həmçinin ibtidai məktəb yaşında olduğu kimi ayrı-ayrı böyüklərin fikirləri ilə deyil, ideallar, dəyərlər və normalarla əlaqələndirilir. Qiymətləndirici əxlaq etalonların məzmunu genişlənməkdə və dərinləşməkdə davam edir, fərdi fərqlərlə onlar daha incə və differensial olur.

ƏDƏBİYYAT

1. Qədirov Ə. Ə. Yaş psixologiyası.Bakı, 2002, 85 s.
2. Seyidov S.İ, Həmzəyev M. Ə. Psixologiya. Bakı, Nurlan, 2007, 462
3. Возрастная и педагогическая психология. Хрестоматия. М. 2001,86с.
4. Выготский Л.С. Педагогическая психология [Текст] Л.С. Выготский. М.: Педагогика, 1991,- 479 с.
5. Майерс Д. Психология. М. 2001, 124 с.
6. Эльконин Д. Б. Детская психология. М. 1986, 138 с.

РЕЗЮМЕ
ОСОБЕННОСТИ РАЗВИТИЯ ЭМОЦИОНАЛЬНО-ВОЛЕВОЙ СФЕРЫ ПОДРОСТКОВ

Мамедова С. А.

В тезисе последовательно исследуются развитие и психологические особенности эмоционально-волевой сферы подростков. В тезисе автор объясняет психологическое содержание и сущность критериев эмоциональной сферы подростков и дает их научную интерпретацию. Автор также точно и справедливо отмечает в тезисе, что совершенствование самосознания в подростковом возрасте характеризуется внимательным подходом к своим личным ошибкам и это приводит к применению волевых усилий, направленных на саморазвитие «Я-образа».

Ключевые слова: эмоционально-волевая сфера,эмоциональные впечатления, эмоциональность, мотивационная сфера, самооценка

SUMMARY
DEVELOPMENT FEATURES OF THE EMOTIONAL-VOLITIONAL SPHERE OF ADOLESCENTS

Mammadova S. A.

In the thesis, the development and psychological peculiarities of the emotional and volitional spheres of adolescents are studied sequentially. In the thesis, the author explains the psychological content and the essence of the criteria of the emotional sphere of adolescents and gives them a scientific interpretation.The author also accurately and fairly notes in the thesis that the perfection of self-awareness in adolescence is characterized by a careful approach to their personal mistakes, and this leads to the application of "volitional forms".

Key words: emotional-volitional sphere, emotional impressions, emotionality, motivational sphere, self-esteem

PSİXOLOGİYADA STRESS ANLAYIŞI VƏ ONUN MAHİYYƏTİ

Məmmədrzayeva N.Q.
Sumqayıt Dövlət Universiteti
memmedrzayevanurane@gmail.com

Xülasə: Bütün dövrlərdə olduğu kimi müasir dövrümüzdə də öz aktuallığını saxlayan problemlərdən biri stress problemidir. Stress hər bir insanın həyatında var, belə ki, müasir insanın həyat və fəaliyyətinin bütün sferalarında stress qaçılmazdır. Hər bir insan stress keçirir, hər kəs onun haqqında danışır, amma demək olar ki, heç kim dəqiq bilmir ki, stress nədir, onun əlamətləri hansılardır və onunla necə mübarizə aparmaq lazımdır. Stressli situasiyalar evdə olduğu kimi, işdə də yaranır. Stressi yaradan faktorları bilib onların aradan qaldırılması yolları müəyyən olunarsa, işlə bağlı stress halları azalar və personalın fizioloji və psixoloji itkiləri minimal həddə çatdırılar.

Açar sözlər: stress,adaptasiya , emosional gərginlik, stressor,distress, ekstremal təsir.

Bütün dövlərdə olduğu kimi müasir dövrümüzdə də ən aktual psixoloji problemlərdən biri stressdir.Stress insan həyatının qaçılmaz bir gerçəkliyidir. “Stress” müxtəlif xarici və daxili təsirlərə cavab olaraq meydana gələn reaksiyadır və bir insanın hadisələr qarşısında psixoloji vəziyyətini ifadə edir.

“Stress” anlayışı ilk dəfə Kanada fizioloqu Hans Selyenin “Nature” jurnalının “Redaktora məktub” bölməsində nəşr olunmuş “Müxtəlif zərərli amillərin törətdiyi sindrom” adlı məqaləsində işlənmişdir. Hələ gələcək tələbə ikən müxtəlif infeksion xəstəliklərin eyni əlamətlə başlanması Selyenin diqqətini çəkmişdir. Bu əlamətlərə ümumi əzginlik, üşütmə, qızdırma, oynaqların ağrı və sızıltıları aiddir. Eksperimentlər gənc alimin müşahidələrini təsdiq etdi. Bu eksperimentlər göstərirdi ki, yalnız infeksiya deyil, başqa zərərli təsirlər də spesifik nəticələrlə yanaşı biokimyəvi, fizioloji və davranış reaksiyaları kompleksi yaradır. Selye belə bir fərziyyə irəli sürürdü ki, istənilən zərərli təsirə qarşı orqanizmin müdafiə qrupunun qüvvəsini səfərbər etməyə yönəlmiş qeyri-spesifik reaksiyalar mövcuddur. Məhz bu reaksiyaları o, stress adlandırırdı.

“Stress” anlayışı zaman-zaman əhəmiyyətli dəyişikliklərə məruz qalaraq, daha geniş məna kəsb etdi. “Stressor” anlayışı yalnız fiziki deyil, həm də psixoloji təsirlərə şamil edilməklə bərabər, “stress” anlayışı da yalnız fiziki zərərli təsirlərə deyil, eyni zamanda mənfi emosiya yaradan bütün hadisələrə cavab reaksiyası kimi qəbul olundu.

Daha sonra Selye stress və distressi ayırmağı təklif etdi. O, stressə müsbət amil, yüksək aktivlik mənbəyi, çətinliklərin öhdəsindən gəlmək sevinci kimi baxmağa başladı. Selye stressin müəyyən dərəcəsini xeyirli hesab edir və bunu onun səfərbəredici rol oynayaraq insanın dəyişkən şəraitlərə uyğunlaşmasına imkan yaratması ilə əlaqələndirirdi. Lakin əgər stress həddindən artıq güclü və sıx şəkildə baş verirsə, o zaman o, insanın uyğunlaşma imkanları qarşısına həddindən artıq tələblər qoyaraq orqanizmdə fizioloji və psixoloji “çat”ların yaranmasına gətirib çıxarır. Selye məhz bunu stress adlandırırdı [4, s. 7].

Stress – insanın fəaliyyət və ünsiyyət prosesində çətin və mürəkkəb fiziki, zehni işlər görərkən, eləcə də təhlükə zamanı təcili və məsuliyyətli qərar qəbul etmək zərurəti qarşısında qaldıqda keçirdiyi psixi vəziyyətdir. Mahiyyətcə stress – insanın keçirdiyi normal vəziyyətlərdən biridir. Onun insana pis təsiri həmin emosional vəziyyətin hansı səviyyədə baş verməsi ilə bağlıdır. Belə ki, stress halı bəzi vaxtlarda insanın məqsədyönlü fəaliyyətinə pozucu təsir göstərir, bəzən isə əksinə qüvvə və enerjini artırır, fikrin cəmləşməsinə müsbət təsir göstərməklə, çətin məsələnin tez və asanlıqla həll olunmasına şərait yaradır [4, s. 11].

Stressin mənbəyi həm müsbət, həm də mənfi hadisələr ola bilər. Stressin mənbəyini və özünü fərqləndirmək üçün müsbətlər evstress, mənfilər isə distress və ya stress adlandırılır [2, s. 5]. Stress – emosional gərginlik, xarici qıcıqlandırıcıların təsiri nəticəsində insan psixikasının yüklənməsidir. Stress nə yaxşı, nə də pisdir. Bu sözün müsbət və ya mənfi məzmun alması onun hansı kontekstdə işlədilməsindən asılıdır. Bir tərəfdən stress həyatı canlandıran, xilas edən qüvvə, digər tərəfdən isə həyatı məhv edə biləcək qüvvədir.

Bəs nə vaxt stress dözülməz olur və onunla mübarizə aparmaq zərurəti yaranır? Əgər situasiya hədələyici olarsa, adaptasiya pozularsa, vəziyyəti idarə etmək qeyri-mümkündürsə, problem uzun müddət həll olunmursa və ya bu situasiyanın nəticəsində çox güclü emosiyalar yaranırsa üzücü stressdən danışmaq olar. Bir qayda olaraq bu situasiya beynimizə yazılır və tədricən sağlamlığımızı üzür. Sirr deyil ki, psixi və ya fiziki xəstəliklərin yaranması insanın həyatında çox ciddi dəyişiklərlə təmsil olunur [2, s. 14].

Müəyyən olunmuşdur ki, hadisələrin gələcək inkişafını görməyə çalışan, dəlil və sübutlarla stressorun neqativ – gücünü azaldan, situasiyaya yumor hissi ilə yanaşan insanlar stressi daha yüngül keçirirlər. Psixi gərginlik, qorxu, təhlükə hissi, uğursuzluq insan üçün daha dağıdıcı stressordur.

Stress orqanizmin daha çox gözlənilməz halda, qeyri-adi ekstremal təsirlərə məruz qalması ilə əlaqədar olaraq baş verir və müxtəlif təzahürlərə malik olur. 2000-ci il 25 noyabrda respublikamızda baş verən güclü zəlzələ adamların bir çoxunun güclü stress keçirməsinə səbəb olmuşdur. Burada stressin güclülüyü onun gözlənilməyən ekstremal vəziyyətin qəflətən yaranması ilə əlaqədar olmuşdur [3, s. 19].

Müasir dövrdə də bir çox hadisələr stress faktorunun artmasına səbəb olmuşdur.Bu hadisələr insanların həyat şəraitinin dəyişilməsinə səbəb olduğu kimi, eyni zamanda psixi cəhətdən də müəyyən gərginliklərə səbəb olur.Dünyanı öz təsiri altına alan Covid-19 Pandemiyası müasir dövrdə insanların ən çox təsirləndiyi hadisələrdəndir.Pandemiyanın gətirdiyi çətinliklər insanlarda güclü stress faktorları kimi dəyərləndirilir.

Orqanizm stressə üç yolla müqavimət göstərir: əvvəl siqnallar, yəni stressorlar beynin qabıq hissəsində təhlil olunur, sonra onların bəziləri hərəkətə cavabdeh olan əzələlərə gəlir və orqanizmi stressora cavab hazırlayır. 60-70-ci illərdə tədqiqatçıların diqqəti stressin təzahür etməsinin və psixoloji mexanizmlərinin öyrənilməsinə və onların emosional gərginlik nəticəsində yaranmış stress xəstəliklərinin inkişafında rolunun müəyyən edilməsinə yönəldi. Çoxlu sayda tədqiqatlar göstərir ki, söhbət insandan gedirsə, stressin əsas səbəbi psixoloji, emosional hadisələrdir. Stressin inkişafında onların o qədər böyük rolu var ki, "emosional və ya psixoloji stress" anlayışı meydana çıxıb. Stressorların növündən və onların təsirinin xüsusiyyətlərindən asılı olaraq stressin iki əsas növü ayırd edilir:

1) fiziki, fizioloji, birinci siqnal sistemi ilə əlaqəli stress müəyyən sensor və metabolik proseslər qıcığın təsiri nəticəsində müşahidə olunur. Bu zaman insanın həyat və fəaliyyətində obyektiv dəyişikliklər müşahidə oluna bilər. Tədqiqatlar göstərmişdir ki, fizioloji stress üçün mədə xorası, miqrenlər, hipertoniya, beldə ağrılar, qusma, artrit və ürəkdə ağrılar kimi əlamətlər xasdır.

2) psixoemosional və ya ikinci siqnal sisteminin təsiri ilə yaranan psixoloji stress – çox zaman fərdin şəxsi mövqeyi nəticəsində yaranır. İnsan onu əhatə edən şeylərə özünəməxsus izah verir. Bu, onun şəxsiyyət keyfiyyətlərindən, cəmiyyətdəki rolundan, sosial statusundan asılı olur. Psixoloji stress üçün əsəbilik, iştahasızlıq, depressiya, şəxsiyyətlərarası və seksual münasibətlərə marağın azalması və s. xüsusiyyətlər xasdır.

Psixoloji stresslər özləri də iki yerə ayrılır: informativ və emosional stresslər. İnformativ stresslər informasiyanın həddən ziyadə çoxluğu şəraitində, yəni insanın qarşıya çıxan məsələləri vaxtında həll edə bilməsi, məsul qərarları lazımi surətdə qəbul etməkdə çətinlik çəkməsi hallarında baş verir.

Emosional stresslər daha çox təhlükəli, qorxulu vəziyyətlərdə, ciddi inciklik şəraitində baş verir. Bu halda insanın psixi proseslərinin, emosional halətlərin, fəaliyyətin motivasiyasının ciddi təbəddülata uğraması, orada müəyyən dəyişikliklərin baş verməsi özünü göstərir. Hətta bu vəziyyətdə insanın nitq və hərəki fəaliyyətində pozğunluqlar baş verə bilir. Yəni emosional stresslər bir sıra psixosomatik xəstəliklərin törənməsi ilə nəticələnə bilər.

Emosional stress təhlükənin reaksiya vasitəsi ilə qiymətləndirilməsi və müdafiəyə hazırlıq prosesi kimi başa düşülməlidir. Emosional stress özünə nəzarətin itirilməsi, yeni situasiyanı düzgün qiymətləndirə bilməmək və həmçinin ona münasibət göstərməkdən imtina kimi də başa düşülə bilər. Orqanizm və həyat üçün təhlükəli olan hər bir stressor emosional stress yarada bilir. Stressor gücünə, müddətinə görə insana təsir edən əlverişsiz stimullar, hallar, hadisələr olub, güclü fizioloji və psixi zərbə əmələ gətirə bilir. İstənilən əzələ gərginliyi orqanizm üçün stressor rolunu oynayır. Sosial mühitin insan qarşısına qoyduğu çətin tələb – stressor orqanizmin ona verdiyi qeyri – adi cavab emosional stress kimi özünü büruzə verir.

Stressin ilk əlamətləri bunlardır [4, s. 21]:

- Ürək döyüntülərinin artması,nəbzin sürətlənməsi-normada 70-80 olan ürək vurğularının sayı stress zamanı 120-160-a çatır;
- Qanda şəkərin miqdarının artması;
- Tənəffüsün tezləşməsi;
- Tərləmə və ya ağızın quruması;
- Hərəkət aktivliyinin artması, jestikulyasiyanın güclənməsi, mimikanın dəyişməsi və s. Bu əlamətlər qanda adrenalinin artmasının əlamətləridir.

Stress hər zaman şəxsiyyətin psixofizioloji reaksiyasıdır. Qeyd olunduğu kimi, orqanizmin deyil, şəxsiyyətin reaksiyası və onu yaradan təsirlər sırası əvvəllər güman edildiyindən daha geniş məna kəsb etməyə başladı. Yalnız həyatı və sağlamlığı təhdid edən təhlükələr, soyuq və ya isti, aclıq və ya ağrı deyil, təhqir, günah, qısqanclıq, xəcalət və s. kimi hisslər də stress yaratmağa qadirdir [1, s. 9].

H.Selye stressin 3 əsas inkişaf mərhələsini ayırd edir:

I mərhələ – həyəcan və ya təhlükə mərhələsi. Orqanizmin adaptasiya olunmuş resurslarının səfərbərliyi bu mərhələdə baş verir. Bu zaman insan gərgin və sayıq vəziyyətdə olur. I mərhələ bir növ növbəti mərhələyə hazırlıq olduğu üçün bəzən “startdan əvvəlki hazırlıq” mərhələsi adlanır. İnsan fiziki və psixi cəhətdən özünü çox yaxşı hiss edir, yüksək əhval-ruhiyyədə olur. Bu mərhələdə tez-tez “psixosomatik” kateqoriyaya daxil olan xəstəliklər təzahür edir. Həmin xəstəliklər sırasına mədə qastritləri, kolitlər, miqren, mədə yaraları, allergiyalar və s. aiddir.

Əgər stressogen amil çox güclüdürsə və ya öz təsirini davam etdirirsə, növbəti mərhələ - müqavimət mərhələsi başlayır. Bu mərhələdə adaptasiya olunmuş imkanların balanslaşdırılmış şəkildə sərf olunması həyata keçirilir. İnsan dəyişkən şəraitlərə uyğunlaşaraq, optimal enerji inkişaf etdirir. O, çətinliklərin öhdəsindən gəlmək üçün müəyyən dərəcəyə qədər davamlı olaraq cəhd etməyə hazırdır.

Stressor yenə də təsir etməyə davam edərsə III mərhələ başlayır. Bu mərhələdə azalmış enerji ehtiyyatı tükənir, fizioloji və psixoloji müdafiələr qırılır. III mərhələ halı daha çox köməyə

çağırışa bənzəyir. Bu kömək isə yalnız kənardan ya dəstək almaq, ya da stressorun aradan qaldırılması şəklində gələ bilər [6, s. 18].

Stress vəziyyətləri haqqında bir çox məlumatlar mövcuddur:

1. Ailə stressi – ailədaxili münaqişələr. Maliyyə uğursuzluqları, valideynlərdən

birinin xəstələnməsi, boşanma perspektivi – bunların hamısı ailədə olan uşaqlarda stress halını yaradır.

2. Məktəb və ya ali məktəb stressi – bir çox şagirdlər və tələbələr bununla tanışdır: tapşırıqların çox olması, müəllimlərlə anlaşmazlıq, yataqxana şəraitinin pis olması, vaxtında qəbul edilməyən qida, rayon uşaqlarının öz evlərindən uzaq düşməsi və s..

3. Sevgi münasibətlərində təzahür edən stress halları – qısqanclıq, etibarsızlıq, xəyanət, valideynlərin etirazı və s..

4. Xarici görünüşlə əlaqədar olan stress – bu daha çox xarici görünüşündən razı olmayan gənc qızlarda olur.

5. İtki stressi – tədqiqatlar göstərir ki, insanın adət etdiyi mühiti, doğma yerlərini, yurd-yuvasını, valideynlərini, ailə üzvlərini, yaxınlarını və dostların, işini, başqalarına inamını və etibarını, həyat məqsədlərini, pulunu itirməsi çox zaman stresslə nəticələnir. Başqa sözlə, insan üçün böyük əhəmiyyət və dəyər kəsb edən adamlar, şərait və mühit, əşyalar, həyatın mənasıyla bağlı hər hansı bir itki stress və psixoloji sarsıntı doğurur [6, s. 16].

6. İşsizlik stressi – işin itirilməsi stressi. İş yerinin itirilməsi faktını, hətta insan təmin olunmuş olduqda və ac qalmaqdan qorxmadıqda belə, bütün adamlar olduqca ağır keçirir, onlara tələbin olmadığını çox çətinliklə yaşayırlar. Yaşından asılı olmayaraq, bütün qadın və kişilər üçün hər gün işə gedib-gəlmə, adam arasına çıxma, evdən kənarda adamlarla ünsiyyətdə olmaq, müntəzəm olaraq ictimai və peşəkar işlə məşğul olmaq çox vacibdir.

7. Yaxın adamın itirilməsi (münasibətlərin kəsilməsi).

8. Yaxın adamın ölümü (itki və iztirab). Yaxın adamın ölümü dərd və iztirabın yaşanması ilə müşayiət olunur. Dərd-sadəcə olaraq hisslərdən biri deyil. O, insanı insan edən hisslərdəndir. “Normal” və “pataloji” dərdi fərqləndirmək xüsusilə vacibdir. Belə ki, hər bir travmatik reaksiya kimi dərd də özlüyündə normal prosesdir. Dərdin timsalında istənilən travmatik stressin yaşanmasının təbii dinamikasını izləmək olar. Dərdin ümumi simptomları: somatik pozğunluqlara tənəffüsün spesifik şəkildə pozulması, nəfəsalmanın fasilələrlə, qırıq-qırıq olması, fiziki yorğunluq, iştahanın itməsi, yuxunun pozulması addir. Psixoloji sferada isə günahkarlıq hissi, mərhumun obrazına qapılma özünü büruzə verir. Uşaqlar yaxın adamın ölümünü çox vaxt xəyanət kimi,onlara həmişə yanında olmağa söz verib,atmaq kimi qavramağa meyllidirlər. Dərdin digər ümumi simptomlarına məna sferasında təzahür edən spesifik pozğunluqlar aiddir. Birdən məlum olur ki,gördüyün hər bir şey mərhumla bağlıdır. Adi məişətdə qəribə unutqanlıq əmələ gəlir, məsələn, həyatdan getmiş adam üçün boşqabda yemək qoyulur və s. Bu isə vəziyyətin yenidən pisləşməsinə səbəb olur [2, s. 28].

İztirabın təbii yaşanması mərhələləri psixoloji stressin istənilən fazası üçün xarakterikdir. Iztirabın ilkin mərhələsi-şok, yaxud donuqluq halıdır. Insan ölüm xəbərinə inanmayaraq, “belə şey ola bilməz” deyə donub qalır. Belə səciyyəvi vəziyyət bir neçə saniyədən bir neçə həftəyədək davam edə bilər. Ikinci-əzabın bütün dərinliyi ilə yaşanması və qeyri-mütəşəkkillik mərhələsidir.Üçüncü-son sarsıntılar və insanın yenidən səfərbər olunması mərhələsi kimi səciyyələnə bilər, o, bir ilə yaxın müddəti əhatə edir. Sonuncu mərhələ-iztirabın tamamlanmsı, sona çatması mərhələsidir [2, s. 32].

Stressin yaranmasında və gedişatında bir-birinə qarşılıqlı təsir göstərən 3 həlqə meydana çıxır: stressogen hadisəni qiymətləndirmə; hadisənin özünə və ya ona verilən qiymətə fizioloji və biokimyəvi reaksiya; stressin səbəblərini və nəticələrini aradan qaldırmağa, gələcəkdə ondan qaçmağa yönəlmiş davranış reaksiyaları.

Qiymətləndirmə. Hadisəyə münasibət çox vaxt stressin "özəyini" təşkil edir. Təhlükənin obyektivlik dərəcəsi o qədər də vacib deyil, əsas bu təhlükənin necə qiymətləndirilməsidir. Yanlış qorxu, yaxın adamların davranışlarının düzgün anlaşılmaması real təhlükə və ya zərərin mövcud olmadığı şəraitdə belə eynilə stress üçün xarakterik olan fizioloji və biokimyəvi dəyişikliklərə səbəb olur. Insan özünün situasiyanın öhdəsindən gəlmək imkanlarını qiymətləndirərkən də səhv edə bilər. Tələb olunan gücün həddən artıq göründüyü və ya keçmiş təcrübədə müvəffəqiyyətsizliyin olduğu zaman stress duyğusu güclənir.Beləliklə,stressə verilən ilk reaksiya-qiymətləndirmə, orqanizmin deyil, şəxsiyyətin reaksiyasıdır. Ikinci həlqə reaksiyası olan fizioloji və biokimyəvi dəyişikliklər də stressin sonrakı gedişatına təsir edir. Bu təsir yalnız birbaşa deyil, həm də onun şəxsiyyət tərəfindən qiymətləndirilməsi və dərk olunması yolu ilə baş verir. Üçüncü həlqə-emosional reaksiyalar və reaksiyalarıdır. Bu reaksiyalar stressin aradan qaldırılmasına yönəlir.

Göründüyü kimi, stress insanın daxili imkanlarının həddini aşırsa, orqanizmin psixoloji enerjisini tükəndirməyə başlayır,bu isə insanın normal fəaliyyətində pozğunluqların yaranmasına gətirib çıxarır.

ƏDƏBİYYAT

1. Bayramov Ə. S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2002.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı, 2003.
3. Bayramov Ə.S. "Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri". Bakı, 1981
4. B. Şamilov , rəyçi S. Musayev. "Stress, Relyativizm, Psixoanaliz" . Bakı, 2007, 24 s.
5. Cabbarova L. "Tənhalıq sosial-psixoloji fenomen kimi".
6. Cavadov R.Ə., Tağıyeva G.B. "Ekstremal şəraitlərdə psixoloji xidmət". Bakı, 2006, 259 s.
7. Əliyev B. H. "Emosional halların tədqiqi məsələləri". Dil və ƏDƏBİYYAT jurnalı.1998 №2.
8. Qaragözov R.R., Qədirova R.H. "Psixoloji stress: özünü və uşağını xilas et!". Bakı, 1997.
9. В.Водров. "Психологический стресс". Москва, 1985.
10. Селье Ганс. "Стресс без болезней". Москва, 1994.
11. Селье Ганс. "Стресс и дистресс". Москва, 1979.
12. "Стресс жизни: сборник ". Составители Попова Л.М., Соколов И.В. Москва, 1994, 384 s.
13. https://az.wikipedia.org/wiki/Stress
14.http://kayzen.az/blog/ekstremal-v%C9%99ziyy%C9%99t/7126/stres-haqq%C4%B1nda-bilm%C9%99dikl%C9%99rimiz.html
15. http://stress.az/index.php/about-hot-clinic/29-stress-yaxs-d-ya-pis

РЕЗЮМЕ
ПОНЯТИЕ СТРЕССА В ПСИХОЛОГИИ И ЕГО СУЩНОСТЬ

Маммедрзаева Н.Г.

Как и во всех странах, в наше время одной из самых острых психологических проблем является стресс. Стресс - это неизбежная реальность человеческой жизни. «Стресс» - это реакция, которая возникает в ответ на различные внешние и внутренние воздействия и выражает психологическое состояние человека перед лицом событий. Все испытывают

стресс, все говорят о нем, но почти, никто точно не знает, что такое стресс, каковы его симптомые и как с этим бороться. Стрессовые ситуации возникают как дома, так и на работе. Если вы знвете факторы, вызывающие стресс, и определяете способы их преоделения, снижение стресса, связанного с работой и сведены к минимуму физиологические и психологические потери персонала.

Ключевые слова: стресс, адаптация, эмоциональное напряжение, стрессор, дистресс, экстремальное воздействие

SUMMARY

THE CONCEPT OF STRESS IN PSYCHOLOGY AND ITS ESSENCE

Mammadrzayeva N.G.

As in all countries, one of the most pressing psychological problems in our time is stress. Stress is an inevitable reality of human life. "Stress" is a reaction that occurs in response to various external and internal influences and expresses a person's psychological state in the face of events. Everyone experiences stress, everyone talks about it, but almost no one knows exactly what stress is, what its symptoms are and how to deal with it. Stressful situations arise at home as well as at work. If the factors that cause stress are identified and ways to eliminate them are identified, work-related stress will be reduced and physiological and psychological losses of staff will be minimized.

Key words: stress, adaptation, emotional tension, stressor, distress, extreme impact

TƏLİM PROSESİNDƏ YENİYETMƏLƏRİN HAFİZƏSİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Qafarova S.M.

Azərbaycan Dövlət Pedaqoji Universiteti

s.qafarova@rambler.ru

Xülasə: Məqalədə təlim prosesində yeniyetmələrin hafizəsinin inkişaf və psixoloji xüsusiyyətləri araşdırılmış və onların elmi izahı verilmişdir. Müəllif haqlı olaraq qeyd edir ki, təlim materialının mənalandırılması və materialın psixoloji məzmununda olan səbəb-nəticə əlaqələrinin başa düşülməsi öyrənmənin səmərəliliyini təmin etməklə şagirdin hafizəsini, təfəkkürünü zənginləşdirir. Məqalədə hafizənin yaddasaxlama və yada salma proseslərinin psixoloji məzmun və mahiyyəti açıqlanmış, təlim fəaliyyətində misallarla onların elmi şərhi verilmişdir.

Açar sözlər: hafizə, mnefik fəaliyyət, yaddasaxlama, əqli fəaliyyət, yada salma

İnsanın psixi həyatının ümumi məzmununda hafizə bir idrak prosesi kimi müstəsna əhəmiyyətə malikdir. Hafizənin təlim prosesində mühüm rolu vardır. Belə ki, sistematik təlim bilavasitə hafizənin iştirakı sayəsində real istiqamətə yönəldilə bilər. Hafizənin təşəkkülü və inkişafı şagirdin bütün psixi xassə və xüsusiyyətlərinin təzahürü fonunda reallaşır. Hafizənin başqa psixi proseslərlə qarşılıqlı əlaqəsi mnemik fəaliyyətin funksional bir sistem kimi formalaşması üçün əlverişli zəmin yaradır.

Yeniyetməlik yaş dövründə hafizənin inkişafında şagirdin təlim fəaliyyəti mühüm rol oynayır. Sistematik təlim prosesində biliklərin mənimsənilməsi zərurəti şagirdin mnemik fəaliyyəti qarşısında yeni və ciddi tələblər qoyur. Şagirdin mnemik fəaliyyəti ilə təlimin məqsədləri arasında əlaqə yaranır. Bir sözlə, şagird öz mnemik fəaliyyətini mənimsəmənin məqsədlərinə tabe etməyə

fəal səy göstərir. Məhz bu istiqamətdə yeniyetmə biliklərin mənimsənilməsinin səmərəli üsullarına yiyələnməyə başlayır.

Təlim prosesində yeniyetmənin mənimsədiyi üsullar içərisində məntiqi, mənalı yadda-saxlama bacarığının təşəkkülü müstəsna əhəmiyyətə malikdir. Məntiqi yaddasaxlamanın təşəkkülü sayəsində şagirdin hafizəsi funksional cəhətdən inkişaf edir və onun yeniyetmənin idrak fəaliyyətində rolu daha da yüksəlir. Belə olduqda yaddasaxlama prosesi qavrayış çərçivəsindən kənara çıxaraq təfəkkürlə qarşılıqlı əlaqə və asılılıq şəraitində təzahür edir. Yaranmış funksional qarşılıqlı əlaqənin zəminində yaddasaxlama prosesinin səmərəliliyi artır və şagirdlər mənimsəmənin daha əlverişli üsullarına yiyələnirlər. Yeniyetməlik yaş dövründə əyani xarakterli materialları və bilavasitə qavrayış prosesinə əsaslanan məlumatları şagirdlər daha yaxşı mənimsəyir və yadda saxlayırlar. Apardığımız psixoloji müşahidələr göstərir ki, bu yaş dövründə əyani-obrazlı yaddasaxlama əsasında təlim materialının mənalı və məntiqi surətdə dərindən mənimsənilməsi imkanı daha da reallaşır, bu əsasda şagirdlər biliklər sistemini müvəffəqiyyətlə öyrənərək onu hafizələrində möhkəmləndirirlər.

Təlim prosesində mücərrəd xarakterli təlim materiallarının mənimsənilərək yaddasaxlanıl-ması yeniyetmələrdə o qədər də çətinlik yaratmır. Lakin təlimin məzmununda baş verən dəyişikliklər yeniyetmənin hafizəsinin sözlü-mənalı xarakter daşıması üçün əlverişli zəmin yaradır. Odur ki, şagirdlər əyani materialla yanaşı, sözlü-məntiqi materialı mənimsəməyə və yadda saxlamağa başlayırlar. Öyrənilən və mənimsənilən təlim materiallarının daima mənalandırılaraq yadda saxlanılması yeniyetmənin hafizəsinin sözlü-məntiqi səciyyə daşıması üçün geniş imkanlar açır. Məhz bu əsasda yeniyetmələrdə ümumiləşmiş və məntiqi hafizə sürətlə inkişaf etməyə başlayır.

Aparılan psixoloji tədqiqatların nəticələri göstərir ki, yaddasaxlamanın və yada salmanın səmərəliliyinin yüksəlməsində təlim materiallarının mənalandırılaraq öyrənilməsinin böyük əhəmiyyəti vardır. Mexaniki, yəni əzbərləməyə istinad edən yaddasaxlama isə hafizə fəaliyyətinin məzmunluluğunun inkişafına ləngidici təsir göstərməklə şagirdin idrak fəaliyyətinin səmərəliliyini təmin etmir. İxtiyari yaddasaxlamanın müvəffəqiyyəti, məhsuldarlığı mnemik məqsədin xüsusiyyət-lərindən asılı olur. İxtiyari yaddasaxlamanın məhsuldarlığı üçün mühüm şərt kimi yadda saxlanılacaq materialın planını tutmaq, qarşıya yaddasaxlama, uzun müddətdə yaddasaxlama məqsədi qoymaq, materialı təsnif etmək, sistemləşdirmək, öyrəndiklərini təxəyyüldə canlandırmaq və s. zəruridir [5, s.291].

Psixoloji təcrübə göstərir ki, mexaniki öyrənmə mənimsənilən materialın məna əlaqələrinə əsaslanmır.Vaxtilə alman psixoloqu Ebbinhauzun apardığı təcrübələr göstərmişdir ki, 12 mənasız hecanı yadda saxlamaq üçün 16,5 təkrar tələb olunduğu halda, 480 mənalı hecanı yadda saxlamaq üçün 8 təkrar kifayət etmişdir. Deməli, mənalı yaddasaxlama böyük üstünlüyə malik olmaqla mexaniki yaddasaxlamadan keyfiyyətcə və əsaslı surətdə fərqlənir. Təlim materialının başa düşülməsi, onun ayrı-ayrı hissələrində əks olunan fikirlərin dərk edilməsi və qarşıya qoyulmuş yaddasaxlama məqsədinin aydın təsəvvür edilməsi hafizə prosesinin məzmunluluğunu və real əhəmiyyət kəsb etməsini təmin edir. Yaddasaxlama şəraitinin normal gedişi prosesində hər bir şagird öyrəndiyi materialın əhəmiyyətini dərk edir və nəticədə mənimsənilən biliklər müəyyən sistem halında hafizədə möhkəmlənib uzun müddət yadda qalır.

Apardığımız müşahidələr göstərir ki, təlim materialının mənalandırılması və materialın məzmununda olan səbəb-nəticə əlaqələrinin başa düşülməsi öyrənmənin səmərəliliyini təmin etməklə şagirdin hafizəsini zənginləşdirir. A.A.Smirnovun apardığı psixoloji təcrübələrin birində şagirdlərə yaddasaxlamaq üçün təklif edilən materialın ayrı-ayrı hissələrinin yeri dəyişdirilmiş və

ifadə olunan məzmunun məntiqi ardıcıllığı pozulmuşdur. Buna baxmayaraq şagirdlər öyrəndikləri materialları yada salıb aktuallaşdırarkən onun real məzmununun məntiqi ardıcıllığını bərpa etməyə səy göstərmişlər. Tədricən qeyd edilən psixoloji xüsusiyyətlər möhkəmlənir və yeniyetmənin hafizə fəaliyyətinin səciyyəvi əlamətinə çevrilir.

Psixoloji müşahidələr göstərir ki, yeniyetməlik yaş dövründə təlim prosesinin təsiri altında mənalı yaddasaxlamaya meyl artır və şagirdlər öyrəndikləri təlim materiallarının ümumiləşmiş məzmununu yadda saxlamağa fəal səy göstərirlər. Yaddasaxlama prosesində anlama və təkararın təlim materiallarının yada salınması məqsədləri ilə daima əlaqələndirilməsi şagirdin hafizə fəaliyyətinin funksional imkanlarının inkişafına müsbət təsir göstərir. Qeyd edilən cəhət hafizə prosesinin təşkili baxımından böyük əhəmiyyət kəsb edir.

Mənalı yaddasalamaya artan meyl şəraitində şagird öyrəndiyi təlim materialının məzmunu ilə sərbəst rəftar edir və materialı olduğu kimi yaddasaxlamağa cəhd göstərmir. Şagird öyrənilən materialın məzmununun yadda saxlanılması qeydinə qalır və çalışır ki, yada salma prosesində öyrənilən materialın məzmunu bütövlükdə aktuallaşdırılsın. Məzmunlu yaddasaxlama prosesində bəzi yeniyetmələr bir çox çətinliklərlə qarşılaşır və təlim materialının məntiqi ardıcıllığını sərbəst və öz sözləri ilə ifadə etməkdə şagird əsaslı gərginlik keçirir. Məhz buna görə də şagirdlər təlim materiallarını olduğu kimi olduğu kimi yaddasaxlamağa çalışırlar. Şagird öyrəndiyi mətndən kənara çıxa bilmir, onun məzmunu və məntiqi quruluşunu aydın təsəvvür etməkdə çətinlik çəkir. Odur ki, şagird mətni əzbərləyir və ya onu öyrənərkən mətndəki sözləri və ifadələri olduğu kimi yadda saxlamağa cəhd göstərir.

Qeyd edilən xüsusiyyətlər yeniyetmənin hafizə fəaliyyətinin qanunauyğun əlaməti olmaqla şagirdin ümumi əqli inkişafında və onun nitq fəaliyyətinin formalaşmasında mühüm rol oynayır. Məhz bu əsasda şagirdin hafizə fəaliyyəti ilə onun təfəkkürü arasında funksional əlaqə yaranır. Sonuncu məntiqi yaddasaxlamanın təşəkkülü üçün əlverişli zəmin yaradır. Bu yaş dövründə mənalı və sərbəst yaddasaxlamanın inkişafı bilavasitə hafizə fəaliyyətinin funksional imkanlarının genişlənməsi ilə şərtlənir. Burada müəllimin istiqamətləndirici və nəzarət xarakterli göstərişlərinin də mühüm rolu vardır. Hafizə fəaliyyəti ixtiyari prosesdir. Bu fəaliyyətin funksional inkişafı onun ixtiyari idarə olunmasının səviyyəsi ilə şərtlənir. Yaddasaxlama prosesinin ixtiyarililiyi artdıqca təlim materiallarının şagirdin hafizəsində uzun müddət saxlanılması və möhkəmləndirilməsi imkanları əsaslı surətdə genişlənir. Şagirdin təlim fəaliyyətində ixtiyari yaddasaxlama əsas yer tutur. Təlim prosesində şagird sistematik olaraq müxtəlif xarakterli materialları öyrənir və mənimsəyir.

Bir çox hallarda mürəkkəb əqli fəaliyyət kimi təzahür edən mənimsəmə prosesi yadda-saxlamanın yüksək ixtiyari səviyyədə idarə olunmasını tələb edir. Belə şəraitdə təlim materiallarının yadda saxlanılnasına şagird gərgin iradi səy sərf etməli olur. Yeniyetmələrdə ixtiyari və qeyri-ixtiyari yaddasaxlama funksional bütövlüyə malik olmaqla mənimsənilən təlim materiallarının xarakterinə uyğun olaraq təzahür edir. Burada təlimin və mənimsəmə prosesinin təşkili səviyyəsinin və xarakterinin mühüm əhəmiyyəti vardır. Hafizə psixologiyası sahəsində aparılmış tədqiqatların nəticələri göstərir ki, təlim materiallarının səmərəli yadda saxlanılmasında qarşıda müəyyən məqsədin olmasının böyük əhəmiyyəti vardır. İxtiyari yaddasaxlama özünün konkret funksional məzmununu qarşıda müvafiq məqsədin qoyulmasında təzahür etdirir. İxtiyari yaddasaxlamağa meyl hafizə fəaliyyətinin ümumi istiqamətini təyin edir. Konkret yaddasaxlama məqsədinin olması isə şagirdin təlim fəaliyyətinin spesifik məzmununun xarakteri və idrak əhəmiyyəti ilə şərtlənir.

Aydın məqsəd və dərkolunan vəzifə təlim materialının daha möhkəm yaddasaxlanılması və bütöv şəkildə yada salınması üçün əlverişli şərait yaradır. İxtiyari yaddasaxlama prosesində qarşıda

ümumi məqsədin olması ilə yanaşı, xüsusi və ayrı-ayrılıqda olan bir sıra konkret məqsədlərin də olması zəruridir. Müşahidələr göstərir ki, mənimsəmə prosesində təlim materialının daha möhkəm yadda saxlamaq zərurətinin şagirdlərə aşaılanması böyük əhəmiyyətə malikdir.

Aparılmış psixoloji təcrübələr göstərir ki, şagirdlər qarşısında "qısa müddətli", "uzun müddətli" və "daimi" yadda saxlamaq vəzifəsi qoyulduqda sonradan bu özünü yada salma prosesinin dolğunluğunda və səmərəliliyində aydın şəkildə təzahür etdirir. Məlum olmuşdur ki, qarşıya qoyulmuş vəzifənin xarakteri sonradan müvafiq materialın yada salma keyfiyyətində aydın nəzərə çarpır. Məsələn, şagirdlər qarşısında müvafiq materialı "daimi yadda saxlamaq" vəzifəsi qoyduqda sonradan materialın yada salınması daha səmərəli olur.

Yeniyetməlik yaş dövründə hafizədə təşkil edilən tənzimetmə idarə olunan psixi prosesə çevrilir. Yeniyetmə yaddasaxlama və xatırlama proseslərindən şüurlu surətdə istifadə etməyə başlayır. Onun bu zaman cisim və hadisələri müqayisə etməsi, sistemləşməsi, təsnif etməsi mənalı yaddasaxlamanın inkişafı üçün əlverişli şərait yaradır. Yeniyetmənin materialı öz sözləri ilə danışmaq səyi də bununla əlaqədardır. Nəzərə almaq lazımdır ki, yeniyetmə adətən ev şəraitində yaddasaxlamanın nəticəsinin yada salma yolu ilə ilə deyil, tanıma vasitəsi ilə yoxlayır: o, materialı bir və ya bir neçə dəfə oxuduqdan sonra kitabı örtüb öyrəndiyi materialı yada salmaq əvəzinə kitabı açıb mətnə baxır, bu zaman onda belə təəssürat yaranır ki, "o hər şeyi bilir". Müəllim isə ondan kitaba baxıb nağıl etməyi deyil, materialı yada salmağı tələb edir. Bu zaman aydın olur ki, yeniyetmə materialı öz sözləri ilə danışsa da, müəyyən səhvlərə və təhriflərə yol verir. Yeniyetmə bir çox hallarda, hətta tərif və qanunları da öz sözləri ilə danışmaq istədikdə çoxlu səhvlərə yol verir. Müəllim yeniyetməyə mənalı yaddasaxlama priyomlarını öyrədərkən onlara tərif və qanunları dəqiq yaddasaxlamaq zərurətini izah etməli, dərsdə bu cəhətə həmişə xüsusi fikir verməlidir [1,s.70].

İxtiyari yadda saxlamanın inkişafında fəal fəaliyyət prosesinin böyük əhəmiyyəti vardır. İstər qeyri-ixtiyari yaddasaxlama, istəsə də ixtiyari yadda saxlama şagirdin fəaliyyət prosesinin təşkili xarakterindən - onun aktiv və müstəqil surətdə yerinə yetirilməsindən asılıdır. Müşahidələr göstərir ki, təlim materiallarının müqayisəli planda öyrənilməsi yaddasaxlama fəaliyyətinin səmərəliliyiniə müsbət təsir göstərir.Mənimsənilən cisim və hadisələrin, məlumatların sistematik şəkildə qarşılaşdırılaraq müqayisə edilməsi təlim materiallarının dərk edilərək yadda saxlanılması üçün əlverişli şərait yaradır. Psixoloji tədqiqatların nəticələri bir daha göstərir ki, şagirdin hafizə fəaliyyətinin təşkilində anlama mühüm rol oynayır. Yaddasaxlamanın başlaca şərtlərindən biri də materialın düzgün başa düşülərək öyrənilməsidir. Mənalı yaddasaxlama mexaniki yaddasaxlamaya nisbətən əsaslı üstünlüyə malikdir. Bu üstünlük özünü yaddasaxlamanın bütövlüyündə, sürətində, dəqiqliyində və davamlılığında büruzə verir. Mənalı yaddasaxlama prosesində şagird mənimsədiyi bilikləri əlaqələndirir və əldə etdiyi məlumatların sisteminə daxil edir. Mənalı yaddasaxlamanın mühüm cəhətlərindən biri odur ki, şagird müvafiq təlim materialını öyrənərkən keçmişdə əldə etdiyi təcrübəyə və biliklərə fəal surətdə istinad edir.

ƏDƏBİYYAT

1. Çələbiyev N.Z. Uşaq psixologiyası. Bakı, ADPU, 2005
3. Əzimli Q. Yaş və pedaqoji psixologiyanın müasir problemləri.Bakı, Nurlan, 2008
4. Həmzəyev M. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003
5. Psixologiya /prof.S.İ.Seyidovun və prof.M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə/ Dərslik. Bakı: Nurlan, 2007, 700 s.
6. Смирнова Е. О.Детская психология. М., Владос, 2003

7. Обухова Л.Ф. Возрастная психология. М., Просвещение, 1999

РЕЗЮМЕ
ОСОБЕННОСТИ РАЗВИТИЯ ПАМЯТИ ПОДРОСТКОВ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ
Гафарова С. М.

В тезисе исследуются особенности развития и психологические особенности памяти подростков в процессе обучения и дается их научное объяснение. Автор справедливо отмечает, что интерпретация учебных материалов и понимание причинно-следственных связей в психологическом содержании материала обогащают память и мышление учащегося, обеспечивая эффективность обучения. В тезисе дается психологическое содержание и сущность процессов памяти запоминание и напоминание, их научная интерпретация с примерами учебной деятельности.

Ключевые слова: память, мнемоническая активность, запоминание, умственная деятельность, напоминание

SUMMARY
DEVELOPMENT FEATURES OF TEENAGERS 'MEMORY IN THE TRAINING PROCESS
Gafarova S. M.

The thesis examines the developmental and psychological characteristics of the memory of adolescents in the learning process and provides their scientific explanation. The author rightly notes that the interpretation of teaching materials and understanding of cause-and-effect relationships in the psychological content of the material enrich the student's memory and thinking, ensuring the effectiveness of learning. The thesis gives the psychological content and essence of memory processes, memorization and recall, their scientific interpretation with examples of educational activities.

Key words: memory, mnemonic activity, memorization, mental activity, reminder

VALİDEYN VƏ MÜƏLLİM ƏMƏKDAŞLIĞININ MÜASİR MODELLƏRİNİN VALİDEYNLƏRDƏ PEDAQOJİ KOMPETENSİYALARIN FORMALAŞMASINDA ROLU

Quliyeva S.M.
Bakı Slavyan Universiteti
sabinaquluyeva78@gmail.com

Xülasə: Valideyn-müəllim əlaqələri ildən-ilə, şagirdlər yuxarı siniflərə keçdikcə zəifləyir. Valideynlərin pedaqoji bacarıqları təhsil islahatlarının tələblərindən geri qalır. Məqalədə valideynlərdə kompetensiyaların formalaşmasına ailə-məktəb əməkdaşlığının təsiri araşdırılmış, valideynlərdə pedaqoji bacarığın inkişafının müxtəlif modelləri, valideyn-müəllim əməkdaşlığının ənənəvi və qeyri-ənənəvi formaları təhlil olunmuşdur.

Açar sözlər: pedaqoji səriştə, əməkdaşlıq, məktəb, səriştəli valideynlər, təhsil

Valideyn və müəllim əməkdaşlığının müasir modeli *demokratikliyi, humanistliyi və müasirliyi* ilə diqqəti cəlb edir. Müasir modelin nəzəri əsasları "Azərbaycan Respublikasının təhsil Qanunun"da [1] öz əksini tapmışdır. Müəllim və valideynlərin əməkdaşlığı məktəb həyatının bütün mərhələlərində vacibdir, lakin uşağın məktəbdə getməsinin ilk illərində xüsusi əhəmiyyət kəsb edir.Bu illərdə uşaq hələ də ailə ilə çox sıx bağlı olduğundan hisslərini və davranışını idarə edə bilmir. Kiçik məktəb yaş dövründə uşağın fəaliyyət növü dəyişir, təlim aparıcı fəaliyyət növünə çevrilir, ünsiyyətində və digər adamlarla münasibətində fərqli situasia yaranır. Uşağın yeni vəzifələri (təhsil almaq, məktəbin daxili nizam-intizam qaydalarına əməl etməl etmək və s.) meydana gəldiyindən həyat tərzi də dəyişir. İbtidai sinif şagirdlərinin şəxsiyyətinin təşəkkülü ailədə və məktəbdə (sinif yoldaşları və müəllimlərlə ünsiyyət prosesində) yeni fəaliyyət növünün və ünsiyyətdə olduğu insanların təsiri altında baş verdiyindən bu mərhələdə valideyn-müəllim əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır. Birinci sinif şagirdlərinin məktəbə adaptasiyası onların ailədə psixoloji hazırlığı ilə sıx bağlıdır. Valideynlərin əksəriyyəti uşağın məktəbə hazırlığını bilik səviyyəsi ölçürlər. Onların fikrincə, əgər uşaqlar saymağı, şeir deməyi bilirsə, hərfləri tanıyırsa, - deməli onlar məktəbə hazırdır. Bu, doğru yanaşma deyil, valideynlər uşağa yazı və oxu öyrətməkdən öncə onlarda özünə inam hissi aşılamalı,fikirlərini sadə şəkildə ifadə etməyi öyrətməli, məktəbə həvəsləndirməlidir.

Müəllim-valideyn əməkdaşlığının *təşkilati və prosedur komponentinə* müəllim və valideynlərin sistematik və davamlı qarşılıqlı əlaqəsi, uşağın təhsil-tərbiyəsi ilə bağlı işin təşkili və yekunlaşdırılması, həmçinin müəllim və valideynlər arasında qarşılıqlı əlaqənin *metodları, vasitələri, formaları və prinsipləri* daxildir.

Müəllim-valideyn əməkdaşlığının effektivliyi metodların düzgün seçilməsindən və tətbiqindən asılıdır. "Pedaqoji mənada metod həyat həqiqətlərini optimal yolla şagirdlərə çatdırmaq, onları proqram çərçivəsində bilik, bacarıq, vərdişlərlə silahlandırmaq, məktəblilərdə zəruri keyfiyyətləri (vətənpərvərlik, əmək sevərlik, igidlik, xeyirxahlıq və s.) formalaşdırmaq üçün həyata keçirilən hərəkətlər sistemidir" [2, s.67]. Bu prosesdə müəlimin rəhbərliyi altında şagirdlər bilik, bacarıq və vərdişlər sisteminə yiyələnirlər. Müəllim-valideyn əməkdaşlığının effektivliyinin göstəricisi olan metodlar dedikdə isə təhsil-tərbiyə problemlərini həll etmək məqsədilə tam pedaqoji prosesin iştirakçıları olan müəllim, şagird və onların valideynləri arasındakı qarşılıqlı əlaqənin yolları başa düşülür. Uşaqların təhsil-tərbiyəsində ailənin və məktəbin əməkdaşlığının nəticəsini proqnozlaşdırmaq, düzgün layihələşdirmə aparmaq üçün müəllim pedaqoji fəaliyyətin metodlarının spesifik xüsusiyyətlərini bilməlidir. Yuxarıda da qeyd etdiyimiz kimi, uğurlu nəticənin alınması metodlardan ən optimalının seçilməsindən və tətbiqindən asılıdır.

Müasir dövrdə müəllim-valideyn əməkdaşlığında daha çox aşağıdakı metodlarından istifadə olunur: *mühazirə, müsahibə, məsləhət, müzakirə, disput və treninqlər*. Seçilən metodun müəllim-valideyn əməkdaşlığının formasına (kollektiv, qrup, fərdi) uyğunluğu onun səmərəliliyini təmin edir.

Ailədə uşağın şəxsiyyət kimi formalaşmasına təsir göstərən amillər çoxdur:1) uşağın şəxsi potensialı və xarakteri; 2)valideynlərin hər ikisinin uşaqların tərbiyəsində iştirak edib-etməməsi; 3) tərbiyəvi təsirlərdə (ailə üzvləri arasında, ailə-məktəb arasında) vahidliyin gözlənilməsi; 3)ailədə tərbiyə işinin sistemli, ardıcıl və fasiləsiz aparılması; 4) uşağın şəxsiyyətinə hörmətlə yanaşılması; 5)valideynlərin səmimiyyəti və mehribançılığının uşağın tərbiyəsi üçün sağlam mühit formalaşdırması.

Son illərə kimi müəllimlər şagirdlərin valideynləri ilə praktik iş zamanı ailə-məktəb əlaqələrinin əsasən ənənəvi formalardan istifadə edirdilər.Müasr dövrdə ənənəvi iş formaları ilə

yanaşı, həm də qeyri-ənənəvi iş formaları həyata keçirilir. 2020-ci ildə koronovirus pandemiyasının dünyanı fəlakət qarşısında qoyduğu bir zamanda Azərbaycanda həyata keçirilən qabaqlayıcı tədbirlərin sırasında bütün təhsil-tərbiyə müəssisələri müvəqqəti olaraq fəaliyyətini dayandırdı. Təhsilin fasiləsizliyini təmin etmək məqsədilə Zoom, Microsoft Teams, Skupe platformalarda dərslər təşkil olundu. Bu platformalardan səmərəli istifadə müəllim-valideyn əməkdaşlığına yeni məzmun gətirdi. Müəllim-valideyn əməkdaşlığının *qeyri-ənənəvi formaları*, yəni yeni modeli (onlayn məsləhətləşmə, onlayn müzakirə, onlayn sinif iclaslarının keçirilməsi və s.) yarandı. Əslində, bu proses ölkənin bəzi məktəblərində başlanmışdı. Həm dövlət, həm də özəl məktəblərin bəzilərində neçə illər idi ki, elektronlaşma həyata keçirilir, elektron jurnal, elektron gündəliktətbiq edilirdi. Valideynlər müasir texnologiyaların köməyi ilə evdə və ya işdə onlayn rejimdə övladlarının oxuduğu məktəbdə təhsil-tərbiyə prosesinin təşkili ilə tanış olur, uşaqlarının təlim nəticələrinə nəzarət edir, müəllimlərlə əlaqə saxlayır və fikir mübadiləsi aparırdılar. Məktəblərin elektronlaşması sahəsində az da olsa müsbət təcrübə toplanmışdı. Koronovirus epidemiyası isə bu işi daha da sürətləndirdi və onun əhatə dairəsini genişləndirdi. Zoom, Microsoft Teams, Skupe platformalarda işləmək bacarığına yiyələndilər. Onlayn rejimdə dərs oxuyan şagirdlərin valideynləri də müəllimlərlə əlaqə saxlamaq və uşaqlarına kömək etmək məqsədilə həmin proqramı öyrənməli oldular. Ümumtəhsil məktəblərində distant təhsilin tətbiqi perspektivsiz görünsə də, müəllim və valideynlərinonlayn formada görüşlərinin davamlı olacağı şübhə doğurmur.

Tərbiyə prosesində olduğu kimi müəllim-valideyn əməkdaşlığında da həmin prinsiplərin tətbiqi kompleks xarakter daşımalı, üzvi vəhdət halında çıxış etməlidir. Bu prinsiplərin müəllim-valideyn əməkdaşlığının konsepsiyasını yaratdığını nəzərə alsaq, onu bir sistem kimi də təsəvvür edə bilərik. Onda bu prinsiplərin hər biri həmin sistemin komponentləri kimi çıxış edir. İbtidai siniflərdə müəllim -valideyn əməkdaşlığında rəhbər tutulan həmin prinsiplərin səmərəi tətbiqi üçün münasib pedaqoji şərait olmalıdır.

Pedaqoji şərait dedikdə, qarşıya qoyulmuş təhsil-tərbiyə vəzifələrinin həllinə yönəlmiş məzmun, forma, metod və resursların məcmusu başa düşülür. İbtidai sinif müəllimləri valideynlərlə əməkdaşlıq həm zamanı həm yuxarıda sadaladığımız prinsiplərin kompleks tətbiqinə çalışmalı, həm bu münasibətlərin səmərəli olması üçün xarici (mühit) və daxili amilləri (valideynlərin pedaqoji ehtiyaclarını və s.), prosesə təsir göstərən subyektiv və obyektiv təsirləri nəzərə almalıdır. Bu səbəbdən müəllimlər ailə ilə əlaqə yaradarkən iki aspektə xüsusi diqqət yetirməlidir: 1) təşkilati; 2) psixoloji-pedaqoji.

Həm təşkilati, həm də psixoloji-pedaqoji aspektlərin nəzərə alınması ibtidai sinif müəllimlərindən pedaqoji səriştə və peşəkarlıq tələb edir. Müəllim-valideyn əməkdaşlığında qarşıya qoyulmuş vəzifələrinin həlli bir tərəfdən əməkdaşlığın baş tutması üçün münasib şəraitin seçilməsindən, valideynin ailəyə bələdliyindən, təşkilati işləri düzgün planlaşdırmadan, digər tərəfdən isə pedaqoji-psixoloji amilləri nəzərə almasından asılıdır.

Fikrimizcə, müəllim-valideyn əməkdaşlığının səmərəliliyinin şərtləri çox olsa da müəllim 4 şərtə xüsusi diqqət yetirməlidir:

1.Müəllimin valideynlərlə qarşılıqlı əlaqənin formalaşdırılması zəruriliyini tədris prosesinin məqsədi və meyarı kimi dərk etməsi.

2.Əməkdaşlıq prosesində valideynlərə fərdi yanaşmaq, yaradıcılıq nümayiş etdirmək, görüşlərdə dialoqa üstünlük vermək.

3.Müəllimin peşəkar ünsiyyət bacarığına malik olması.

4. Müəllimin empatiya və refleksiya qabiliyyətinə malik olması.

Təhsil-tərbiyə prosesi cəmiyyətin sosial-iqtisadi və mədəni tələbatı tələbatı ilə bağlı olduğundan, son yüz ildə müəllim-validyn əməkdaşlığının modelləri də bu tələbata uyğun olaraq dəyişmişdir. Müasir dövrün tələblərinə uyğun olaraq müəllim-validyn əməkdaşlığının yeni modelləri formalaşmaqdadır. Məktəbin ibtidai sinif şagirdlərinin valideynləri ilə əlaqəsinin yeni modeli yaradılarkən, cəmiyyətin tələbatzlrı, məktəbin məqsədi ilə yanaşı ailənin də pedaqoji potensialının və fərdi xüsusiyyətlərinin nəzərə alınmasısəmərəli nəticə verə bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. "Xalq qəzeti" 19 iyun 2009-cu il
2. Əhmədov B. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı: Maarif, 1974, 114 s.
3. Abbasov A. Ailə pedaqogikası. Bakı: Mütərcim, 2019, 270 s.
4. Paşayev Ə., Rüstəmov F. Pedaqogika, Bakı: Elm və təhsil, 2012, 463 s.

РЕЗЮМЕ
РОЛЬ СОВРЕМЕННЫХ МОДЕЛЕЙ ВЗАИМОДЕЙСТВИЯ РОДИТЕЛЕЙ И УЧИТЕЛЕЙ В ФОРМИРОВАНИИ ПЕДАГОГИЧЕСКИХ КОМПЕТЕНЦИЙ У РОДИТЕЛЕЙ

Гулиева С.М.

Отношения между родителями и учителями из года в год ослабевают по мере того, как ученики переходят в старшие классы. Педагогические навыки родителей отстают от требований образовательной реформы. В статье исследуется влияние сотрудничества семья-школа на формирование педагогических компетенций у родителей, анализируются различные модели развития педагогических навыков у родителей, традиционные и нетрадиционные формы взаимодействия родитель-педагог.

Ключевые слова: педагогическая компетентность, сотрудничество, школа, компетентные родители, образование

SUMMARY
THE ROLE OF MODERN MODELS OF PARENT-TEACHER INTERACTION IN THE FORMATION OF PEDAGOGICAL COMPETENCIES IN PARENTS

Guliyeva S.M.

Relationships between parents and teachers from year to year weaken in the same way as students move into senior classes. The pedagogical skills of parents lag behind the demands of educational reform. The article examines the impact of family-school cooperation on the formation of pedagogical competencies in parents, analyzes different models of development of pedagogical skills in parents, traditional and non-traditional forms of pedagogical interaction.

Key words: pedagogical competence, cooperation, school, competent parents, education

ƏQLİ FƏALİYYƏT ANLAYIŞI VƏ ONUN PSİXOLOJİ SƏCİYYƏSİ

Rzayeva N. T.
Azərbaycan Dövlət Pedaqoji Universiteti
nurəngiz.rzayeva@gmail.com

Xülasə: Tezisdə göstərilir ki, əqli fəaliyyət obrazlarda, təsəvvürlərdə və anlayışlarda əks olunan və fikrən nitqin köməyi ilə həyata keçirilən əşyalarla fəaliyyətdir. Tezisdə əqli fəaliyyətin məzmun və mahiyyəti müəllif tərəfindən psixoloji aspektdə araşdırılmışdır. Əqli fəaliyyətin formalaşması mərhələləri, habelə əqli əməliyyatın prosesləri - təşbeh, müqayisə, təsnifat, ümumiləşdirmə, konkretləşdirmə, mücərrədləşdirmə, sistemləşdirmə, təhlil və tərkib ayrı-ayrılıqda fikri fəaliyyət prosesində onların qarşılıqlı əlaqəsi müəllif tərəfindən ardıcıllıqla şərh edilmişdir.

Açar sözlər: əqli fəaliyyət, təsəvvürlər, təfəkkür, ümumiləşdirmə, müqayisə, mücərrədləşdirmə

Əqli fəaliyyət obrazlarda, təsəvvürlərdə və anlayışlarda əks olunan əşyalarla fəaliyyətdir. Bu fəaliyyət fikrən nitqin köməyi ilə həyata keçirilir. Əşyalarla hərəkət etməmişdən qabaq (əşyalardan nə isə qurmaq) insan əşyalarla əlaqə olmadan və qurduğu obyektdə heç bir dəyişiklik etmədən onu fikrən yerinə yetirir. Hansı obrazların aparıcı rol oyanamasından asılı olaraq əqli fəaliyyət sensor, perseptiv, mnemik və fikri ola bilər. Əqli fəaliyyət eşidilən nitqlə, xarici vasitələrin köməyi ilə olmadan daxili dərketmə planında insanın yerinə yetirdiyi fəaliyyətdir. Bunlarla əqli fəaliyyət insanın digər fəaliyyət növlərindən fərqlənir. Məsələn, buna fiziki, nitqli fəaliyyət əyani misaldır. Əqli fəaliyyət idraki (məntiqi) və emosional məsələlərin həllinə yönəldilir. Əqli fəaliyyət probleminin inkişafını J.Pyajenin əməliyyatların təşəkkülündə intellektual inkişaf mərhələlərinə dair sualların tətbiqi konsepsiyasında tapmışdır. Əqli fəaliyyətin genezisi müxtəlif aspektlərdə interiorizasiya problemləri ilə əlaqədə aktuallaşır. O ontogenezin müxtəlif mərhələlərində əqli fəaliyyətin konkret növlərinin formalaşmasının mexanizmləri qismində nəzərdən keçirilir.

Əqli fəaliyyət ümumi, yaş və pedaqoji psixologiya problemləri aspektində tədqiq və tətbiq edilir. Psixologiyada əqli fəaliyyət anlayışının formalaşmasına dair tədqiqatlar geniş və əhatəlidir. Bu sahədə P.Y.Qalperin və onun əməkdaşları çoxlu sayda tədqiqatlar aparmışlar. P.Y.Qalperinin fikrinə istinad edərək deyə bilərik ki, ali intellektual fəaliyyət özündən əvvəlki fəaliyyət üsullarının yerinə yetirilməsində kömək olmadan yarana bilməz. Son nəticədə bütün fəaliyyət əyani-hərəki vasitələrə istimad edir. Fəaliyyətin dəyişdirilməsində dörd parametr həyata keçirilir. Bu siyahıya aiddir: yerinə yetirilmə səviyyəsi, ümumiləşdirmə ölçüsü, bütünlükdə faktiki olaraq əməliyyatın yerinə yetirilməsi, mənimsəmənin həcmi. Əqli fəaliyyətin formalaşması prosesi konsepsiyaya müvafiq olaraq növbəti mərhələlərlə xarakterizə olunur:

I mərhələ gələcək fəaliyyətin əsasında bələdləşmənin formalaşması xarakterizə edilir. Bu mərhələnin əsas məqamlarından biri gələcək fəaliyyətin tərkibinin praktikada aydınlaşmasıdır. Son nəticə fəaliyyətdə müvafiq tələblərin qoyulmasıdır.

II mərhələ əşyaların köməyi ilə həyata keçirilən əqli fəaliyyətin praktiki şəkildə mənimsənilməsi ilə bağlıdır.

III mərhələ real əşyaların köməyi olmadan fəaliyyətin mənimsənilməsinin davam etdirilməsidir. Bu mərhələdə daxilə əyani-obrazlı planda hərəkətin xaricdən ötürülməsi baş verir. Bu mərhələnin əsas xüsusiyyətləri xaricən real əşyaların manipulyasiya ilə əvəz edilməsi qismində nitqdən istifadə etməkdir. Fəaliyyətin nitqli plana ötürülməsi müvafiq əşyavi fəaliyyətin nitqdə həyata keçirilməsini ifadə edir.

IV mərhələdə əqli fəaliyyətin mənimsənilməsi xarici nitqin köməyi olmadan baş verir. O, fəaliyyətin xarici nitqin köməyi ilə yerinə yetirdiyi daxili nitqə ötürülməsində həyata keçirilir. Konkret olaraq iş fəaliyyətdə yerinə yetirilir.

V mərhələdə fəaliyyət bütünlükdə daxili planda həyata keçirilir. Bu mərhələdə fəaliyyətin icrası dərketmə sferasından intellektual bacarıq və vərdişlər sferasına keçidlə nəticələnir [3,səh.57].

P.Y.Qalperin və N.F.Talızinin əqli fəaliyyətin formalaşması prosesinə dair apardıqları tədqiqatlar göstərdi ki, əvvəlcə fəaliyyət maddi əşyaların qavranılmasına və ya onların təsvirinə əsaslanır. Daha sonra onlar yüksək nitq planında əşyaların və ya onların təsviri olmadan həyata keçirilir. Fəaliyyət fikrən icra edilir, daxili nitq fəaliyyətdə təşəkkül edir, avtomatlaşdırılır və ümumiləşdirilir. Əqli fəaliyyət praktiki fəaliyyət kimi rəngarəngdir və konkret materiallarla bağlı deyil [4].

Əqli fəaliyyətin əsas tərkib elementlərini və ya əqli əməliyyat proseslərini ayırmaq olar: *təşbeh, müqayisə, təsnifat, ümumiləşdirmə, konktləşdirmə, mücərrədləşdirmə, sistemləşdirmə, təhlil və tərkib*.

Təşbeh zamanı hadisələr arasındakı qismən oxşarlıq əsasında nəticə çıxarılır. Təşbeh əqli fəaliyyətdə mühüm rol oynayır. O, iki cismin və ya hadisənin bir-birinə oxşamasına istinad edərək əşya və hadisənin başqa cəhətdən bir-birinə oxşaması hökmünün çıxarılmasından ibarətdir. Təşbehin nəticəsi bəzən doğru, bəzən yanlış olur. Əqli fəaliyyətin təşkilində kiçik yaşlı məktəblilərdə müqayisə mühüm rol oynayır.

Müqayisə təfəkkürün mühüm əməliyyatı olub cisim və hadisələr arasında oxşar və fərqli cəhətləri fikrən müəyyən etməkdir. Bu əməliyyat müqayisə edilən obyektlərin məzmunundan asılı olaraq mürəkkəbliyinə görə müxtəlif ola bilər.Müqayisədə əsas rolu əşyaların mövcud əlamətlərinin açılması oynayır. Bu üsullardan istifadə etmək bacarığının formalaşması öyrənmənin konkret məzmunu ilə bağlı olub mərhələlərlə həyata keçirilir. Məsələn, müqayisə məqsədyönlü olaraq növbəti mərhələlərə istiqamətlənir: 1/ əlamətlərin və ya eyni oxşar obyektlərin ayırd edilməsi; 2/ iki obyekt arasında oxşar və fərqli əlamətlərin müəyyən edilməsi; 3/ üç, dörd və daha artıq obyektlərin əlamətləri arasında oxşarlığın aşkar edilməsi [9,səh.106].

Təlim prosesində müqayisə mühüm əhəmiyyət kəsb edir, o öyrənilən materialın möhkəm yadda qalmasını təmin edir. Bu prosesdə ən çox ardıcıl müqayisə tətbiq edilir. Bu hər bir dərsdə mümkündür: hər gün yeni dərsi keçərkən onu köhnə materialla müqayisə etmək, onlar arasındakı oxşar və fərqli cəhətləri tapmaq yeni materialın daha yaxşı mənimsənilməsinə, köhnə materialların isə daha möhkəm yadda qalmasına müsbət təsir göstərir [1,səh.296].

Cisim və hadisələrin mühüm cəhətlərinin ümumiləşdirilməsi obyektləri növlərinə, cinsinə və digər əlamətlərinə görə qruplaşdırmağa imkan verir. Belə əməliyyat təsnifat adlanır. Təsnifat və ya sistemləşdirmə əməliyyatı əşyaları onların ümumi əlamətlərinə görə ayırmaq və yenidən birləş-dirmək məqsədilə həyata keçirilir. O fikri strukturda bilikləri nizamlamağı və onların dərindən başa düşülməsini şərtləndirir. Təsnifatı həyata keçirmək üçün ilk növbədə onun məqsədini, obyektlərin əlamətlərini müəyyən etmək, habelə obyektləri onların mövcud əlamətlərinə görə müqayisə etmək, təsnifatın ümumi səbəblərini aydınlaşdırmaq, obyektləri müəyyən prinsipə görə qruplaşdırmaq lazımdır. Məsələn, riyaziyyatın təlimində müxtəlif növlü təsnifat tapşırıqlarından istifadə etmək olar: 1/ hazırlıq tapşırıqları; 2/ təsnifat əsasında müəllimin göstərdiyi tapşırıqlar; 3/ təsnifat əsasında uşaqların özlərinin yerinə yetirdikləri tapşırıqlar [7,səh.9].

Üümumiləşdirmə cisim və hadisələri mühüm əlamət və xassələrinə birləşməsindən ibarət olan əqli fəaliyyətdir. Ümumiləşdirmə əməliyyatı mövcud əlamətlərinə görə qrupda əşyaların fikrən birləşdirilməsidir. O sözün köməyi ilə tərkib (sintez) fəaliyyətinin dərinləşməsi və davamıdır.

Burada söz ümumiləşdirmə funksiyasını həyata keçirir. Bu zaman ümumiləşdirmə prosesini və onun nəticələrini fərqləndirmək lazım gəlir. Nəticə anlayışlarda, mühakimə və qaydalarda fiksasiya edilir. Bu proses müxtəlif şəkildə təşkil oluna bilər. Bundan çıxış edərək ümumiləşdirmənin nəzəri və empirik tipləri haqqında danışmaq olar.

Konkretləşdirmə müvafiq ümumi müddəaya aid olan xüsusi halları fikrən müəyyənləşdirən əqli fəaliyyətdir. Təlim prosesində bəzən şagird tərifi, ümumi qaydanı kitabdan əzbərləyir, onu lazım gəldikdə tətbiq etməyi, konkretləşdirməyi bacarmır. Bu ondan irəli gəlir ki, müəllim dərsi izah edərkən tərifi, ümumi müddəanı müxtəlif sahələrdən gətirilmiş misallarla konkretləşdirmək qayğısına qalmır. Odur ki, şagirdlər müstəqil surətdə misalların cavablarını düşünməkdənsə yalnız kitabda olanları söyləməklə kifayətlənirlər. Bu bir tərəfdən ümumi bilikləri konkretləşdirməyə imkan vermir, digər tərəfdən isə təfəkkürün nitqlə vəhdət halında inkişafına mənfi təsir göstərir [1,səh.298].

Mücərrədləşdirmə cisim və hadisələri mövcud olan hər hansı bir mühüm əlamətləri, xassəni fikrən ayırıb nəzərdən keçirməkdən ibarət olan firki əməliyyatdır. Mücərrədləşdirmə zamanı cisim və hadisələrdəki ikinci dərəcəli xüsusiyyətlərə diqqət yetirilmir. Bu əməliyyatda əşyaların əlamətləri müəyyən edilir və başqalarından asılı olmayaraq onun əlamətləri təfəkkürün müstəqil əməliyyatda təşəkkül edir. İdraki fəaliyyətdə mücərrədləşdirmə əməliyyatının tətbiqi mürəkkəb gerçəklik hadisələrini dərindən və tam şəkildə əks etdirməyə imkan verir. Mücərrəd-ləşdirmə dərin ümumiləşdirmə üçün zəmin hazırlayır [6,səh.16].

Sistemləşdirmə ayrılmanı təmin edən və qrup obyektlərini və ya sinifləri birləşdirən əqli fəaliyyətdir. Sistemləşdirmə fikrən müəyyən qaydada çoxlu sayda obyektlərin yerləşdirilməsidir. Təsnifatdan fərqli olaraq o, həm mövcud, həm də mövcud olmayan bir çox əlamətlərlə həyata keçirilə bilər [5,səh.68].

Təhlil cismi və hadisəni fikrən hissələrinə ayırmaq, yəni tamın ayrı-ayrı əlamətlərinin və keyfiyyətinin müəyyən edilməsidir. Təhlil obyektin, onların əlamət və xassələrinin müəyyən edilməsi ilə bağlıdır. O, təfəkkürün fikri əməliyyatı olub obyektiv gerçəkliyin hissələrlə əks etdirilməsidir. Təhlilin obyektləri istənilən əşyalar və onların xassələri ola bilər. O, praktik fəaliyyətdə başlayır və fikrən əqli təhlildə başa çatır.

Təlim fəaliyyəti zamanı şagird hər hansı bir cismi, hadisəni fikrən hissələrinə ayırır, hissə ilə tam, həmçinin ayrı-ayrı hissələr arasında olan münasibətləri araşdırır. Təhlil cismi, hadisəni fikrən hissələrinə, tərkib isə həmin hissələri fikrən birləşdirir. Hər iki proses ziddiyyətli proses olub vəhdət təşkil edir. Təhlil və tərkib əsas fikri əməliyyat kimi tam və dərin şəkildə gerçəkliyin dərkini kompleks şəkildə təmin edir. Tərkib əvvəlcə praktik fəaliyyətdə yaranır, sonra fikri fəaliyyə keçir. Elementləri, fikri obrazları tərkib etmək olar. Fikri fəaliyyətdə təhlil və tərkib bir-birini tammlayır, təhlil tərkib, öz növbəsində tərkib təhlil vasitəsilə həyata keçirilir. Təhlil və tərkib fikri fəaliyyət prosesində qarşılıqlı vəhdətdə cərəyan edib varlığın ümumiləşmiş halında inikasına zəmin yaradır. Analitik-sintetik fəaliyyətə qabillik təkcə bu və ya digər obyektin elementlərini, onun müxtəlif əlamətlərini müəyyən etmək bacarığını ifadə etməklə deyil, həm də elementləri tam şəkildə birləşdirmək, bu bacarığa yeni əlaqələri daxil etmək, onlarda yeni funksiyaları görməkdir. Bu bacarıqların formalaşmasına imkan yaradır: 1/ müxtəlif anlayışların nöqteyi-nəzərindən həmin obyektə baxılması; 2/ obyektlə bağlı müxtəlif tapşırıqların qoyuluşu [2,səh.54].

Azərbaycan psixoloqlarının əsərlərində də əqli fəaliyyət problemi tədqiq və təhlil edilmişdir. Ə.S.Bayramov, B.H.Əliyev, S.İ.Seyidov, K.R.Əliyeva, R.İ.Əliyev, M.Ə.Həmzəyev, E.B.Bəylərov və başqaları əqli fəaliyyətin xüsusiyyətləri, yüksək təfəkkürlü uşaqların təlim-tərbiyəsinin təşkili məsələsini araşdırmışlar. Bununla belə problemi Azərbaycan psixoloqları içərisində ilk dəfə

sistemli, fundamental şəkildə professor Ə.Ə.Əlizadə araşdırmışdır. Ölkəmizdə də təfəkkür probleminin tədqiqi və təlimdə tətbiqi məsələlərinə keçən əsrin 60-cı illərin sonu, 70-ci illərin əvvəllərində başlanılmış, təfəkkür probleminə geniş toxunulmuş, bununla bağlı Azərbaycanın psixoloq və pedaqoqlarının geniş elmi tədqiqatları həyata keçirilmişdir. Onlardan: F.Bünyadova, A.Mirzəcanzadə, Ə.Əlizadə, Ə.Bayramov, Ə.Qədirov, Ə.Zəkuyev və digər psixoloqların adlarını çəkə bilərik. Təfəkkür probleminin tədqiqində professor Ə.Bayramovun da mühüm rolu olmuşdur. Belə ki, Ə.Bayramov "Təfəkkürün müstəqillik və tənqidiliyinə görə III-IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri" adlı namizədlik dissertasiyasında təfəkkürlə bağlı mühüm məqamlara toxunmuş, "Şagirdlərdə təfəkkürün inkişafı", "Şagirdlərdə təfəkkür müstəqilliyinin inkişafı və tərbiyəsi", "Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri" adlı monoqrafiya- larında isə alim təfəkkür problemini ətraflı şəkildə tədqiq etmişdir.

Beləliklə, ümumiləşdirilmiş psixoloji təhlil göstərdi ki, təfəkkürün funksiyaları, aspektləri, eləcə də əqli fəaliyyətin fikri əməliyyatları ilə bağlı çoxlu sayda mühakimələr mövcuddur.

ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik., Bakı. Çinar-çap, 2002, 620 s.
2. Болотина Л.Р. Развитие мышления учащихся / Л.Р. Болотина // Начальная школа. – 2014. – №11. с. 54-56.
3. Гальперин П. Я. Основные результаты исследований по формированию умственных действий и понятий /П.Я. Гальперин. М.:Просвещение,2000.– 134 с
4. Гальперин П. Я. Методы обучения и умственное развитие ребѐнка / П.Я. Гальперин. – М.: Просвещение, 2005.– 103 с.
5. Гамезо М.В. Общая психология / М.В. Гамезо. – М.: Ось, 2007. – 352 с
6. Немов Р.С. Психология / Р.С. Немов. – М.: ВЛАДОС, 2003. – 631с.
7. Осинская В.Н. Формирование умственной культуры учащихся в процессе обучения математике / В.Н. Осинская. – М.: 2011. – 192 с.
8. Раев А.И. Управление умственной деятельностью младшего школьника / А.И. Реев – Спб., 1996. – 123 с.
9. Рубинштейн С.Л.Основы общей психологии /С.Л. Рубинштейн.М:Просвещение,2009. – 238 с.

РЕЗЮМЕ
ПОНЯТИЕ УМСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТИ И ЕЕ ПСИХОЛОГИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ

Рзаева Н. Т.

В тезисе говорится, что умственная деятельность - это деятельность объектов, отраженных в образах, представлениях и концепциях, осуществляемая с помощью мысленной речи. В тезисе автор исследовал содержание и сущность умственной деятельности автором с психологической точки зрения. Автор последовательно раскрывает этапы формирования умственной деятельности, а также процессы умственной операции - аналогия, сравнение, классификация, обобщение, конкретизация, абстракция,

систематизация, анализ и синтез их взаимодействие в процессе интеллектуальной деятельности.

Ключевые слова: умственная деятельность, воображение, мышление, обобщение, сравнение, абстракция

SUMMARY

THE CONCEPT OF MENTAL ACTIVITY AND ITS PSYCHOLOGICAL CHARACTERISTICS

Rzayeva N. T.

The thesis says that mental activity is the activity of objects reflected in images, representations and concepts, carried out with the help of mental speech. The thesis explores the content and essence of mental activity by the author from a psychological point of view. The author consistently comments on the interaction the stages of the formation of mental activity, as well as the processes of mental operation - analogy, comparison, classification, generalization, concretization, abstraction, systematization, analysis and synthesis in the process of intellectual activity.

Key words: mental activity, imagination, thinking, generalization, comparison, abstraction

KOMPÜTERDƏN İSTİFADƏNİN İDRAK PROSESİNƏ TƏSİRİ

Rzayeva S.B.

Sumqayıt Dövlət Universiteti

sevincrzayevasdu@gmail.com

Xülasə: Məktəbliləri ən müasir informasiya kommunikasiya texnologiyalarının imkanları ilə tanış etmək təhsildə yaradıcı düşünən, müstəqil mühakimə yürüdə bilən demokratik dünyagörüşə malik şəxsiyyət formalaşdırmaq deməkdir. Şagirdlərin hərtərəfli inkişafında, formalaşmasında internet resurslarından məqsədəuyğun şəkildə istifadə etməyi bacarmaq zamanın tələbidir. Təlimin kompüterləşməsi bütün fənlər üzrə bilik, bacarıq və vərdişlər əldə olunmasına, şagirdlərin idrak və yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsinə, təlim-tərbiyə prosesini idarə etməyi optimallaşdırmağa və fərdi xüsusiyyətlərinə uyğun şəkildə aparmağa imkan verir. İnklüziv təhsildə kompüterlərdən istifadə edilməsi şagirdlərin idrak proseslərinin inkişafına və fəallaşdırılmasına (duyğu, qavrayış, təsəvvür, hafizə, təfəkkür, təxəyyül, diqqət və s) böyük təsir göstərir.

Açar sözlər: təhsil, şagird, kompüter, yaradıcı təfəkkür, idrak prosesləri, texniki tərəqqi, təlim

Fiziki və əqli işlərin elektron maşınlarla həyata keçirilməsi texniki tərəqqinin, insan zəkasının, onun təxəyyülünün ən yüksək qələbəsidir. Elmi-texniki nəaliyyətlərdən aydın olur ki, kompüterlər insanın məntiqi düşüncə və idrak qabiliyyətinin gördüyü ən incə işləri icra edə bilir. Yaradıcı təfəkkür və təxəyyül fəaliyyətinin nəticəsi olan kibernetik elminin köməyi ilə insan nəyinki kosmik fəzadakı ən yaxın və uzaq planetlərə sahib olacaq, eyni zamanda yerin cox-cox dərinliyini fəth edəcəkdir.

Son illərdə təhsil sistemində aparılan islahatlar,təhsilin məzmununun təkmilləşdirilməsi yeni təlim texnologiyalarının tətbiqini zərurətə çevirir. Şagirdlərin hərtərəfli inkişafında,

formalaşmasında internet resurslardan məqsədəuyğun şəkildə istifadə etməyi bacarmaq zamanın tələbidir. Məktəbliləri ən müasir informasiya kommunikasiya texnologiyalarının imkanları ilə tanış etmək təhsildə yaradıcı düşünən, müstəqil mühakimə yürüdə bilən demokratik dünyagörüşə malik şəxsiyyət formalaşdırmaq deməkdir. Təlimin kompüterləşməsi bütün fənlər üzrə bacarıq və vərdişlər əldə olunmasına, şagirdlərin idrak və yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsinə, təlim-tərbiyə prosesini idarə etməyi optimallaşdırmağa və fərdi xüsusiyyətlərinə uyğun aparmağa imkan verir.

Inklüziv təhsildə kompüterlərdən istifadə edilməsi şagirdlərin idrak proseslərinin inkişafına və fəallaşdırılmasına(duyğu, qavrayış, təsəvvür, hafizə təfəkkür, təxəyyül, diqqət və s) böyük təsir göstərir. Müasir dövrdə kompüterlərin təlim prosesində tətbiqi son zamanlar diqqəti daha çox cəlb edir. O, həm öyrənmə obyekti, həm də təlim vasitəsi kimi şərh olunur. Kompüterdən istifadə təlimin keyfiyyətini yüksəltməklə yanaşı,həm də idrak proseslərinin əks etdiricilik imkanlarını fəallaşdırır, təxəyyülün köməyi ilə gələcəyi görmək imkanı verir.

Bütün dünya təcrübəsi də təlimin kompüterləşdirilməsini tədris prosesinin effektivliyinin yüksəldilməsi amili kimi mənalandırır.Təlim prosesində kompüterlərdən səmərəli surətdə istifadə etmək üçün bir çox pedaqoji problemlər də aşkara çıxır. Həmin məsələlərin müvəffəqiyyətlə həlli həm öyrənmə obyekti, həm də təlim vasitəsi kimi istifadə edilməsi zamanın mühüm tələbi kimi təfəkkürlə təxəyyülün vəhdəti prinsipinə əsaslanmalıdır. Şagirdlərin kompüter savadına yiyələnməsi təlimin keyfiyyətinin daha da yüksəldilməsi üçün geniş imkanlar yaradır. Problemli təlimdə də kompüterin imkanları daha böyükdür. Bu zaman şagird axtarış qarşısında qalır, eyni zamanda tədqiqatçı kimi fəaliyyət gösdərir. Belə bir situativ şəraitdə şagird yeniliyə səy gösdərir, idrakı fəallaşır, problemin həllini təxəyyülündə canlandırır və çətinlikləri aradan qaldırmaqla iradi səy gösdərir.Kompüter təlimin ən aktual problemlərindən biri pedaqoji cəhətdən daha məqsədyönlü öyrədici proqramların hazırlanmasıdır. Çünki öyrədici proqramlar öz məqsədlərinə görə müxtəlif olur, inkişafetdirici və yaradıcı təxəyyülün inkişafına zəmin yaradır. Kompüter təlimi şəraitində nəzarət və özünənəzarət prosesi dinamik xarakter daşıyır, şagirdin müəllimlə əks əlaqəsi subyekt-subyekt münasibətləri baxımından sistemli və məhsuldar olur.

Məlum olduğu kimi təxəyyül bədii, texniki və elmi fəaliyyətin əsas tərkib hissələrindən birinə çevrilərək onun xüsusiyyətlərinə uyğun surətdə inkişaf etməyə başlayır. Kompüterlə bağlı olan təxəyyül surətləri də insanın intellektual səviyyəsinin inkişafı ilə əlaqədardır. Ən əsası isə mühüm əhəmiyyəti odur ki, kompüter surətləri insan hafizəsinin yadda saxlanması ilə müqayisədə lazım olan anda canlandıra bilər və bədii bərpaedici təxəyyülün zənginləşməsində mühüm vasitəyə çevrilir.

Kompüterin köməyi ilə idrak proseslərinin fəallaşdırılması insanın fəaliyyət növündən asılı olduğu kimi, həmin fəaliyyətin məqsədindən və istiqamətiləndirilməsindən də asılıdır. Elmi faktlar sübut edir ki, insanlarla"öyrədici maşınlar" arasında ünsiyyət öyrədici proqramlar vasitəsiylə həyata keçirilir ki, onların tətbiqinə də bir sıra psixoloji tələblər verilir. Buna görə də ilk növbədə şagirdlərin fərdi psixoloji xüsusiyyətləri və fəallıq səviyyəsi nəzərə alınmalıdır.

Psixologiyada idarəetmə dedikdə idarə edən sistemlərin idarə olunan sistemlərə təsiri nəzərdə tutulur.

Təlim prosesinin kompüter vasitəsi ilə idarə olunmasının əhəmiyyəti ondan ibarətdir ki, şagirdlər tapşırığı həll etmək üçün müxtəlif üsullar və əməliyyatlar seçib onları sınaqdan keçirə bilər ki, bu da onların vaxda qənaət etmələrinə, gün rejiminə kömək edər, diqqətin mərkəzləşməsi üçün real zəmin yaradar. Diqqətin mərkəzləşməsi isə öz növbəsində bütün idrak proseslərinin əksetdiricilik imkanlarının fəallaşdırılması deməkdir.

ƏDƏBİYYAT

1. Mehrabov A. Müasir təhsilin konseptual problemləri. Bakı, 2010
2. Mehrabov A. Pedaqoji texnolojiyalar. Bakı, 2006
3. Əzimov Q. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı, 2004
4. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası. Xalq qəzeti, 2013

РЕЗЮМЕ
ВЛИЯНИЕ ИСПОЛЬЗОВАНИЯ КОМПЬЮТЕРА НА ПРОЦЕСС ВОСПРИЯТИЯ

Рзаева С.Б.

Познакомить школьников с возможностями самых современных информационных и коммуникационных технологий - значит сформировать человека с демократическим мировоззрением в сфере образования, способного творчески мыслить и выносить независимые суждения. Пора уметь использовать ресурсы Интернета во всестороннем развитии и становлении учащихся. Компьютеризация обучения позволяет приобретать знания, навыки и умения по всем предметам, развивать познавательные и творческие способности учащихся, оптимизировать управление учебным процессом и проводить его с учетом индивидуальных особенностей.

Использование компьютеров в инклюзивном образовании оказывает большое влияние на развитие и активацию когнитивных процессов учащихся (эмоции, восприятие, воображение, память, мышление, воображение, внимание и т. д.).

Ключевые слова: образование, ученик, компьютер, творческое мышление, познавательные процессы, технический прогресс, обучение.

SUMMARY
THE EFFECT OF COMPUTER USE ON THE PROCESS OF PERCEPTION

Rzayeva S. B.

To acquaint students with the possibilities of the most modern information and communication technologies means to form a person with a democratic outlook who can think creatively and make independent judgments in education. It is time to be able to use Internet resources in the comprehensive development and formation of students. Computerization of training allows to acquire knowledge, skills and habits in all subjects, to develop students' cognitive and creative abilities, to optimize the management of the educational process and to conduct it in accordance with individual characteristics.

The use of computers in inclusive education has a great impact on the development and activation of students' cognitive processes (emotion, perception, imagination, memory, thinking, imagination, attention, etc.).

Key words: education, student, computer, creative thinking, cognitive processes, technical progress, training

PSİXOLOGİYADA ÖZÜNÜDƏRK PROBLEMİ

Salamova K.B., Məmmədova S.İ.
Sumqayıt Dövlət Universiteti
Salamovak11@gmail.com

Xülasə: Psixoloji müstəviyə görə şəxsiyyət özünü təyin edən, həyat planlarını və ideallarını həyata keçirən bir subektdir. Şəxsiyyət öz fiziki və psixoloji xüsusiyyətlərini bilir,dərk edir. Başqalarının - ailəsinin, cəmiyyətin və kollektivin ondan nə gözlədiyini başa düşür. Bu onun özünüdərkidir. Özünüdərk üçün insanın müstəqil həyata başlamağa və layiqli mövqe tutmağa psixoloji struktur və keyfiyyətlərin formalaşmasının tamamlanması yox, onun şəxsiyyətinin hazırda və gələcəkdə fasiləsiz inkişafına imkan verən psixoloji mexanizmlərin formalaşması lazımdır.

Qeyd etmək lazımdır ki, müasir psixologiyada "özünüdərk"in analoqu kimi "psixososialeyniyyət" anlayışından da istifadə olunur. Psixososialeyniyyət yeniyetməlik yaşında formalaşır,bu zaman şəxsiyyətin inkişafında əsas yeri "eyniyyətin normativ böhranı" tutur. "Böhran" inkişafın ən yüksək zirvəsini tutur, yəni şəxsiyyətin artan potensialı ilə birlikdə zəif xüsusiyyətləridə kəsginləşir (gərginləşir).

Açar sözlər: şəxsiyyət, müasir, psixologiyada, keyfiyyətlərin, formalaşmasının.

Dərketmə fərdin müstəqil fəaliyyəti üçün real imkanlar yaradır, lakin bu proses çox mürəkkəb psixofizioloji şərtlərdən asılı olaraq gedir, bir tərəfdən hisslər hərəkətə lazım olan enerjini verir, digər tərəfdən sosial münasibətlərdə davranışın strukturunu qaydaya salır, yəni: "İnsan –nə istədiyini (məqsədi, həyat planı, idealı), nə bacardığını (öz imkanlarını, istedadını, meylllərini), kim olduğunu (öz şəxsi və fiziki xüsusiyyətlərini), kollektivin və cəmiyyətin ondan nə istədiyini, nə gözlədiyini dərk edən, ictimai münasibətlər sistemində öz funksiyalarını yerinə yetirməyə hazır olan subyektdir. Ona görədə, özünüdərk sosiallaşmanın nisbətən müstəqil mərhələsi olub, fərddə, həyatın mənası və məqsədinin dərk edilməsinin formalaşması, müstəqil həyata hazırlıq, cəmiyyətin ondan gözlədiyi şəxsi keyfiyyətlər, imkanlar, tələbatlar və öz arzuları əsasında həyat fəaliyyətinin qurulması və onun mahiyyətrini təşkil edir "(4.142).

Şəxsiyyətinin formalaşmasında özünüdərk aparıcı rola malikdir. Özünüdərk insanın sosial inkişaf səviyyəsini xarakterizə edərək, gələcək həyat yolunun seçimində ona yardımçı olur. Rusiyalı alim L.İ.Bejoviçin dediyi kimi: "bu gələcək yolun seçimi, həyatda, cəmiyyətdə və ailədə öz yerini tapmaq tələbatıdır", "məqsədin və mövcudluğunun mənasının axtarışı","həyatın ümumi axarında öz yerini tapmaq ehtiyacıdır...".

İ.V. Dubrovinanın tədqiqatlarında özünüdərk gənclik dövrünün mərkəzi hissəsidir və üç əsas töreməsi var:

- birinci, psixoloji strukturun yüksək səviyyədə formalaşması;
- ikinci,şəxsiyyətin məzmun dolğunluğunu təmin edən ehtiyacların inkişafı, burada əsas yeri əxlaq qaydaları, dəyər meyarı və müvəqqəti perspektivlər tutur;
- üçüncü,öz qabiliyyətini və maraqlarını dərk etmə və inkişaf üçün ilkin şəraitin yaranması.

Özünüdərk üçün insanın müstəqil həyata başlamağa və layiqli mövqe tutmağa psixoloji struktur və keyfiyyətlərin formalaşmasının tamamlanması yox, onun şəxsiyyətinin hazırda və gələcəkdə fasiləsiz inkişafına imkan verən psixoloji mexanizmlərin formalaşması lazımdır.

Qeyd etmək lazımdır ki, müasir psixologiyada "özünüdərk"in analoqu kimi "psixososialeyniyyət" anlayışından da istifadə olunur. Bu anlayış elmə amerikalı psixoloq E.Erikson tərəfindən gətirilmişdir. E.Eriksona görə keçid dövründə şəxsiyyətin inkişafında əsas

yeri "eyniyyətin normativ böhranı" tutur. "Böhran" inkişafın ən yüksək zirvəsini tutur, yəni şəxsiyyətin artan potensialı ilə birlikdə zəif xüsusiyyətlərində kəsginləşir (gərginləşir).İnsan iki alternativ imkanın arasında qalır, bunların biri onu müsbət, digəri isə mənfi istiqamətə aparır. Buna görə də insanın ardıcıl mərhələlərdən keçən həyat dövründə və ətraf mühitlə münasibətində spesifik böhran yaranır, bu böhran onda eynilik hissinin inkişafı ilə yanaşı özünüdərk hisslərinidə formalaşdırır.

E.Eriksona görə gənçlikdə şəxsin qarşısında duran əsas məsələ şəxsi "mən"in formalaşmasına zidd olaraq eyniyyət hisslərinin formalaşmasıdır. Gənc "Mən kiməm?" və "Mənim sonrakı yolum necə olmalıdır?" suallarına cavab verməlidir. Una görə o şəxsi eyniliyin axtarışında qərara gəlir ki, onun üçün hansı hərəkətlər daha vacibdir. O, öz davranışını və dəyərlərini qiymətləndirmək üçün müəyyən normalar işləyib hazırlaya bildiyi zaman özünüdərk baş verir. E.Eriksonun fikrinə əsasən özünüdərkin formalaşmasının vacib mexanizmi uşaqların ardıcıl olaraq özlərini böyüklərlə eyniləşdirməsidir, bu da yeniyetməlik dövründə psixososial bənzətmənin inkişafına vacib təkandır. Bənzətmə hissi yeniyetmədə tədricən formalaşır, öz mənbəyini isə uşaqliq vaxtındakı eyniləşmədən alır. Bu dövrdə yeniyetmə artıq dünyanı qavramasının vahid xəritəsini hazırlamağa çalışır, bütün dəyərlər, qiymətlər sintez olunur. Yeniyetməlikdə hər bir şəxs fiziki, emosional və sosial planda yaxın adamlarla və bütövlükdə cəmiyyətlə münasibətdə özünüqiymətləndirməyə meyllidir. O, öz üzərində səylə çalışır ki, öz "Mən"inin müxtəlif tərəflərini aşkarlasın və nəhəyət özü olsun, çünki əvvəlki, bütün özünümüəyyənləşdirmə üsulları ona yararsız görünür.

Eyniləşmə (bənzətmə) gənclik dövründə formalaşır və kifyət qədər yetkin şəxsin xarakteristikasına çevrilir, buna qədər o bir sıra mərhələlərdən keçməlidir—özünü valideynlərlə eyniləşdirmə, cinsi yetkinləşmə və s. Bu proses onun tərbiyəsi ilə müəyyənləşir,yəni doğulduğu vaxtdan valideynləri, sonra isə daha geniş sosial əhatəsi onu öz sosial birliyinə və ya qrupuna daxil edir, özünə aid olan dünya qavrayışını verir. E.Erikson insanın yetkinləşməsi prosesində eyniləşmənin formalaşmasının sosial-psixoloji mexanizmlərini tədqiq edərək insanın inkişaf sxemini hazırlamış və onun bütün həyatını əhatə etməklə səkkiz mərhələyə ayırmışdır. O, öz modelini embriologiyadan götürərək ertgenetik prinsipə əsasən qurmuşdur: inkişfafın hər mərhələsi sonrakı üçün həlledici olan anlardan ibarətdir.

Özünüdərk insanın böyüməsi və inkişafı prosesində baş verən dəyişikliklərə baxmayaraq subyektdə öz "Mən"inin möhkəmliyi və sarsılmazlığı hissini yaradır. Bir eyniləşmə formasından digərinə keçid özünüdərk böhranı yaradır.

Özünüdərk axtarışı müxtəlif cür həll oluna bilər. Bu problemin həlli üsulullarından biri də fərdin müxtəlif rollarda özünü sınamaqdan ibarətdir. Bir çox gənclər rol sınağından və mənəvi axtarışlardan sonra bu və ya digər məqsədə döğru irəliləməyə başlayır, bəziləri isə bu böhranı elə-belə də dəf edə bimirlər, çünki onlar böhranın yarandığını hiss etmirlər. Sonuncu o fərdlərdə baş verir ki, onlar öz ailə dəyərlərini sözsüz üstün tutur və valideynlərinin təyin etdiyi sərhəddi keçmirlər. Bəzən fərd bu yolda əsaslı çətinliklərlə rastlaşır,özünüdərkə əziyyətli sınaq və səhvlər dövrü keçdikdən sonra sahib olur, bəzən isə özünüdərkin möhkəmliyinə heç cür nail ola bilmir. Buna görə də E.Eriksonun verdiyi "özünüdərk" təyini üç yerə bölünməlidir:

1. İnsan öz daxili tələbatlarını özü müəyyən etməlidir. Bu halda keçmiş təsəvvürlərlə bağlı olan və gələcək üçün formalaşan obraz müəyyənləşir.
2. Yaranan yeni obrazı və ya bütövlüklə eyniliyi başqa insanlarda görsün və dəstəkləsin.
3. Yüksək inam olmalıdır ki, onun bütövlüyünün daxili və xarici planları bir-birinə uyğun gəlsin.Onun özünüdərki əks əlaqə vasitəsilə şəxsiyyətlərarası ünsiyyət təcrübəsində təsdiq olunsun.

E.Eriksonun fikirlərinə əsaslansaq demək olar ki, özünüdərkin bünövrəsi uşaqlıqda qoyulur. Çünki üşaqlıqda yaranan müxtəlif eyniyyətlər yaş artdıqca birləşir, formalaşir və ona yeniləri əlavə olunur. Böyümüş və xarici görünüşcə dəyişən uşaq yeni sosial qruplara qoşulur və özü haqqında yeni təsəvvürlər əldə edir. Dünyaya etibar, müstəqillik, təşəbbüskarlıq və səriştəlilik ona imkan verir ki, cəmiyyətin onun qarşısında qoyduğu əsas məsələ olan həyat yolunu seçsin. Bu özünümüəyyənləşdirmənin nəticəsi olan özünüdərkdir. Lakin bir sıra faktorlar mövcuddur ki, özünüdərkin inkişafına ciddi şəkildə mane ola bilər:

1. Fərdin özünü bənzətməyə çalışdığı sosial qrupların (kino ulduzları,müğənnilər və s.və ya inqilab və müharibə qəhrəmanları) güclü təsiri altında eyniləşmə formalaşır. Bu halda o bəzən başqaları tərəfindən sıxışdırıldığı üçün özünüdərki məhdudlaşır.
2. Fərdin müəyyən qruplardan eynilşmə axtarışının kifayət qədər normal olmaması. Məsələn, ikinci dərəcəli insanlar kimi baxılan sosial azlıq təşkil edən qruplar.
3. Kəskin sosial, siyasi və texnoloji dəyişikliklərin yaratdığı qeyri-müəyyənlik hissləri. Bu zaman narahatlıq və tənhalıq hisslərinin (dünya ilə əlaqənin pozulması) yaranma ehtimalı artır.

Şəxsi eyniləşməyə nail olmağı bacarmamaq özünüdərk böhranına və ya rol qarışıqlığına aparır. Bu təhsili davam etdirə bilməmək, karyera uğursuzluğu və digər fəaliyyətlərdə özünü göstərir,fərd özünü faydasız, məqsədsiz, narahat, izolyasıya olunmuş, ruhdan düşmüş kimi hiss etdiyi üçün mmkün qədər gec böyüməyi arzulayır. Eyniləşmənin diffuziyası (qarışması) zamanı ailələrinin və ətralarındakıların onları görmək istədikləri sosial rollara düşmənçiliklə yanaşılır, milli olan hər şeyə nifrət edilir, müasirlik düzgün qiymətləndirilmir. Nəticədə "heç kim" olmağa meyil güclənir.

Fərdin yaranmış böhrandan çıxmasına ən yaxşı kömək isə düzlükdür, yəni dəyərlər sistemindəki qaçılmaz ziddiyyətlərə baxmayaraq vəzifələrini və verdiyi sözləri yerinə yetirmədiyini başa salmaq.

E.Eriksona görə, sosial və individual-şəxsi seçimlər seriyasından ibarət olan özünüdərk böhranı, bənzətmə və özünümüəyyənləşdirmə ətrafında qurulur.Əgər fərd bu məsələləri həll edə bilmirsə, onda dumanlı özünüdərk formalaşır."Dumanlı" özünüdərkin inkişafı dörd istiqamətdə gedə bilir:

1. Psixoloji intimlikdən uzaqlaşma, şəxslərarası münasibətlərdən qaçma ;
2. Vaxtı hissetmənin dumanlanması, həyatı planlar qura bilməmək, yetkinləşmə və dəyişmədən qorxmaq;
3. Məhsuldar, yaradıcı qabiliyyətlərin silinməsi, öz daxili resurslarını səfərbər etməkdə acizlik və müəyyən prioritet üçün özünü cəmləyə bilməmək;
4. "Neqativ eyniləşmə"nin formalaşması, özünümüəyyənləşdirmədən imtina edilməsi və davranış üçün mənfi nümunələrin seçilməsi.

E.Eriksondan fərqli olaraq Kanadalı tədqiqatçı Ceyms Marşe 1996-cı ildə apardığı üzunmüddətli tədqiqatlarına əsaslanaraq qeyd edir ki, özünüdərk üçün fərd dini, professional və siyasi özünümüəyyənləşdirmə səviyyəsini (dərəcəsi) üzə çıxardan dörd mərhələndən keçməlidir:

1. Eyniləşmənin qeyri-müəyyənliyi. Fərd hələ özü üçün müəyyən bir məqsəd, müəyyən bir professional istiqamət seçməmişdir.O hələ eyniləşmə böhranı ilə üzləşməmişdir.
2. Qabaqcadan eyniləşmə. Böhran hələ gəlib çatmayıb,lakin fərd artıq qarşısına müəyyən məqsəd qoymuşdur, lakin bu qənəatə gəlmişdir ki, onun fəaliyyəti başqalarının etdiyinin təzahürüdür.

3. Monotorium. Böhranın səviyyəsi. Fərd özünü hesab edə biləcəyi yeganə eyniləşmə variantını tapmaq ümidi ilə mümkün variantları fəallıqla araşdırır.
4. Eynilışməyə nail olunması. Fərd böhrandan çıxır, özünü tamamilə müəyyənləşmiş eyniləşməsini tapır və bunun əsasında özü üçün yol seçir.

Bu mərhələlər eyniləşmənin formalaşmasının ümumi məntiqi ardıcıllığını əks etdirir, lakin bu o demək deyildir ki, bunıların hər biri özündən sonrakı üçün vacib şərtdir və özünüdərkə mane olur.Öz mahiyyəıtinə görə yalnız moratorium özündən sonrakı eyniləşməyə mərhələsinin gəlməsini mütləq edir, yəni bu dövrdə baş verən axtarış özünüdərk probleminin həllinə təkan verir. Lakin "Mən" hissinin itməsi özünüdərk üçün təhlükədir, bu özünü gələcəyə və ya öz həyatını müəyyən axara yönəltmək imkanlarına şübhə nəticəsində yaranır.

Deməli, özünüeynilşdirmə (inentifikasiya) və özünümüəyyənləşdirmə mərhələləri bir-biri ilə sistemli şəkildə bağlı olduğu üçün özünüdərkin bütöv törəmələridir. Onların hər biri müəyyən psixoloji çətinliklərlə xarakterizə olunur.

ƏDƏBİYYAT

1. Божович Л.И. Развитие воли в онтогенезе // Проблемы формирования личности. М.:1995.-с.325-332.
2. Практическая психология оброзования //под ред.И.Б.Дубровиной.-М.1997.-с.341-345.
3. Эриксон Э.Идентичность юность и кризис.-М.1996 с.167-190.
4. Сафин В.Ф. Психология самоопределения личности учебное пособие //Е.Ф.Сафин-Свердловск. Сверд.ред.ин-т,1986.с.142.
5. Чеснокова И.И. Проблема самосознания в рсихологии.М.1977.
6. Гинзбург М.Р. Личиостное самоопределение как психологическая проблема. //Вопросы психологии. 1988.-2.-с.1926.

РЕЗЮМЕ
ПРОБЛЕМА САМОСОЗНАНИЯ В ПСИХОЛОГИИ

Саламова К. Б., Мамедова С.І.

В психологическом плане самоопеделелившая личность-это «субъект»,осознавший свои жизненные планы и идеалы ,знающий свои личностные и физические свойства. Он понимает, чего от него ждут другие, семья, коллектив, общество и.т.д.

Самосознание характеризуется как личностное новообразование старшего школьного возроста, связанное с формированием внутренней позиции, взрослого человека, с осознанием себя как члена общества, с необходимостью решать проблемы своего будущего.

В зарубежной психологии в качестве аналога понятия «личностное самосознание » выступает категория «психосоциальная идентичность». Первая цельная форма идентичности формируется в юношеском возрасте.Этот период характеризуется самым глубоким кризисом. К этому кризису приводят три линии развития :бурный физический рост и половое созревание, эмоциональная нестабильность, необходимость найти свое профессиональное призвание. Ценностная идентичнось личности, сомостоятельность, инициативность и компетентность позволяют юноше решить задачу самосознания, выбора жизненного пути.

Ключевые слова: самосознание, формирование, категория, позволяют, первая

SUMMARY

THE PECULIARITY OF THE IDENTICALLY IN YOUNG AGES

Salamova K. B., Mammadova S.И.

On the psychological level, personality is a subjest that defines itself and implements life and ideals. Personality knows and understands what physical and psychological features. Ne understands what others his family, society and team-expest from him.This is in itself.Completion of the formation of psychological structure and qualities is not enouh for a person to start an independent life and take a worthy position for self-awareness. For this, it is necessary to form psychological mechanisms that allow the individual to develop continuously.

It should be noted thad the consept "psychosociality" is also used in modern psychology as an analogue of " self-awareness". Psychosocial identity is formed in adolescence. In this case, the "normative crisis of identity" occupies a key place in the devalepment of personality. The "crisis" is at the peak of development,that is it is exacerbated by the weakening of the personality, along qith the growing potential of the individual.

Key words: psychological, determination, modern –formation problems, Complete identical

KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN İDRAK TƏLƏBATLARININ FORMALAŞMASININ PSİXOLOJİ ƏSASLARI

Verdiyeva Ç.Q.

Azərbaycan Dövlət Pedaqoji Universiteti

cimnazverdiyeva@gmail.com

Xülasə: Məqalədə göstərilir ki, idrak tələbatları ətraf aləmə şüurluluğun, aktivliyin və yaradıcı dərketmənin zəruriliyidir.İdrak tələbatları kiçik yaşlı məktəblilərin şəxsiyyətinin inteqral xassələrini formalaşdırır. Məqalədə kiçik yaşlı məktəblilərin idrak tələbatlarının formalaşmasının psixoloji əsasları və xüsusiyyətləri ardıcıllıqla araşdırılır, habelə kiçik yaşlı məktəblilərin idrak tələbatlarının strukturunun psixoloji komponentlərinin elmi şərhi verilir. Müəllif tərəfindən kiçik yaşlı məktəb- lilərin idrak tələbatlarının formalaşmasının prinsipləri ardıcıllıqla psixoloji aspektdə xarakterizə edilmişdir.

Açar sözlər: idrak tələbatları, motivlər, idraki fəallıq, maraqlar, yaradıcı fəaliyyət

Təlim fəaliyyətinin gedişində onun təşkilindən, ümumi mühitindən, müəllimin şagirdlərlə ünsiyyət tipindən asılı olaraq idrak tələbatları formalaşır, təkmilləşir. İdrak maraqları şəxsiyyətin inteqral təhsilidir. O, ümumi fenomen kimi mürəkkəb struktura malikdir. Həmin strukturda insanın ətraf aləmlə obyektiv və subyektiv əlaqələri münasibətdə ifadə olunur. İ.Q.Şukinanın fikrincə, idrak maraqları şəxsiyyətin dərketmə sahəsinə, onun əşyavi tərəfinə və biliklərə yiyələnmə prosesinin özünə seçici istiqamətidir [4,s.14]. V.S.Yurkeviçə görə, idrak tələbatları aktivlik, əqli fəaliyyət prosesinin özünə tələbat və əqli əməkdən razılıq hissindən ibarətdir [5].

Kiçik məktəb yaş dövrü inkişafın yeni situasiyası olub şagirddən yeni fəaliyyət - təlim tələb edir. Bu fəaliyyətin effektli olması təlimə motivasiyanı formalaşdırır ki, o kiçik yaşlı məktəblilər üçün spesifik vəzifələrdəndir. Şagird sosial əhəmiyyətli vəzifələri yerinə yeriməyi arzulayır. Odur

ki, məktəbdə idrak motivasiyasının yaranmnası zəruridir. Şagirdin təlim və tərbiyəsinin mühüm vəzifələrindən biri kiçik yaşlı məktəblilərin motivasiya sahəsini formalaşdırmaqdır.

Kiçik məktəb yaş dövrü şagirdin ilkin olaraq fəaliyyətə daxil olub təlim fəaliyyətinin yeni, əsas növlərinə yiyələnməsidir. Bu baxımdan təlim prosesi elə təşkil edilməlidir ki, onun motivi fənnin mənimsənilməsinin daxili məzmunu ilə bağlı olsun. Təlim motivasiyası həmişə dəyişikliklərlə özünü göstərir, burada bir-birini təhrik edən yeni münasibətlər (tələbatlar, şagird üçün təlimin məqsədi, onun motivləri, maraqları, emosiyaları və s.) yaranır. Motivasiyanın təşəkkülü təkcə müsbət və ya mənfi münasibətləri deyil, həm də motivasiya sferasının strukturunu mürəkkəbləşdirir. Təlim fəaliyyətinin motivi dedikdə, təlim fəallığının təzahürü ilə şərtlənən bütün amillər: tələbat, məqsəd, yönəlişlik, maraqlar və s. başa düşülür. Kiçik məktəb yaş dövründə yeni motivlər (tələbatlar, maraqlar, meyllər) təzahür edir, şagirdin iyerarxik motivasiya sistemi qurulur.

Köhnə maraqlar, motivlər öz təhrikedici qüvvəsini itirir, onlar yeniləri ilə əvəz olunur. Təlim fəaliyyətindəki münasibətlərə nə aiddirsə o şagird üçün daha mühüm dəyərli əhəmiyyət kəsb edir. Kiçik yaşlı məktəblilərdə motivasiyanın yönəlişlik üzərində üstünlüyü nəzərə çarpır. Əvvəlki qaydada bilavasitə fəaliyyət motivləri aparıcı mövqedə olur. Bir qayda olaraq təlim fəaliyyəti bir deyil, müxtəlif motivlər sisteminə təhrik olunur. Motiv şagirdin daxili münasibətləri ilə ona bağlı olan təlim işlərinin ayrı-ayrı tərəflərinə yönəlməsidir. Bu motivlərin növlərinə idraki və sosial motivləri aid etmək olar. Əgər şagirddə təlim zamanı təlim fənninin məzmununa yönəliş üstünlük təşkil edirsə, o zaman idraki motivlərin mövcudluğundan danışmaq olar. Əgər şagidlərdə yönəlişlik başqa insana istiqamətlənirsə o sosial motivdir. İdraki və sosial motivlər müxtəlif səviyyələrdə ola bilər.

İdraki motivlər *geniş idraki motivlər* (yeni biliklərə, faktlara, hadisələrə yönəlişlik); *təlim-idraki motivlər*(bilik əldə etmək üçün mənimsəmə üsullarına bələdləşmə, biliklərin əldə edilməsinin yeni, müstəqil üsulları); *özünütəkmilləşdirmə motivləri* (əlavə biliklərin əldə edilməsinə yönəlişlik, özünütəkmilləşdirmənin xüsusi proqramının qurulması). Sosial motivlər növbəti səviyyələrdə olur: *geniş sosial motivlər* (borc və məsuliyyətlilik, təlimin sosial əhəmiyyətliliyinin başa düşülməsi); *dar və ya mövqeli sosial motivlər* (ətrafdakılarla münasibətdə müəyyən mövqe tutmağa cəhd, onların tərifini qazanmaq); *sosial əməkdaşlıq motivləri* (başqa adamlarla birgə fəaliyyətin müxtəlif üsullarına yönəlmə).

İdrak tələbatları tərəfimizdən ətraf aləmə şüurluluğun, aktivliyin, yaradıcı dərketmənin zəruriliyi kimi nəzərdən keçirilir. İdrak tələbatları kiçik məktəbli şəxsiyyətinin inteqral xassələrini formalaşdırır. Şəxsi-fəaliyyətli yanaşma mövqeyi və elmi tədqiqatların təhlili baxımından müəyyən etdik ki, kiçik yaşlı məktəblilərin idrak tələbatlarının inkişafı üçün zəruri şərtlər təlim motivlərinin, inandırmanın, idealın, maraqların, yönəlişliyin, sərvət dəyərlərinin, azruların dərk edilməsidir. Kiçik yaşlı məktəblilərin idrak tələbatlarının formalaşması prosesində təkcə onların inkişafının şəxsi xüsusiyyətləri deyil, həm də onlarla tərbiyəvi işin prinsipləri nəzərə alınmalıdır. Tədqiqatın psixoloji təhlilinə və bu sahədə elmi təcrübələr aparan alimlərin tədqiqatlarına istinad edərək ümumtəhsil məktəblərinin şəraitində kiçik yaşlı məktəblilərin idrak tələbatlarının formalaşması prinsiplərini müəyyən etdik.

Bu prinsiplərə: şagirdlərin təlimin dəyərini dərk etmələri, onların potensial imkanlarının hesaba alınması, idraki subyektiv təcrübə, təlimdə məsuliyyətli fəaliyyətə hazırlıq, idraki fəallıq, yaradıcı dərketmədə özünüreallaşdırma aiddir. Göstərilən prinsiplərin reallaşdırılması şagirdlərin daxili ziddiyyətlər arasında, məsələn, “onlar necə oxuyurlar”, “onlar necə oxumalıdırlar” kimi maraq oyatmaq və onların yenini dərk etmək cəhdlərini stimullaşdırmaqla nəticələnir.

Şagirdlərin təlim dəyərlərini dərki prinsipi şəxsiyyətin fəallığının və davranışının tənzim edilməsini təmin edir ki, o da dərketmə prosesinə istiqamətlənir. Bu prinsipdə şagirdlərin təlimə idraki münasibəti və öyrənmə üçün zəruri bilikləri ifadə olunur. Həmçinin bu prinsip kiçik yaşlı məktəbli şəxsiyyətinin şüurunda şəxsi əhəmiyyətlilik kimi yenilərin dərkinə münasibətlərin ətraf aləmə şüurluluğun formalaşmasında üstünlüyünü nəzərdə tutur. Bu prinsip təlimin dəyər kimi şagirdin həm özü, həm də cəmiyyət üçün mühüm olmasını, habelə idraki fəaliyyəti yerinə yetirmək bacarığının formalaşmasını təmin edir. Kiçik yaşlı məktəblilərin idrak tələbatlarının formalaşması prosesində idraki subyektiv təcrübənin hesaba alınması prinsipinin reallaşması təlim şəxsi-bələdləşmə situasiyasını nəzərdə tutur. Bu prinsip şagirdin şəxsi təcrübəsini tələb edir. Həmçinin şagirdlərə öz subyektiv təcrübələrini dərk etməklə müxtəlif təlim situasiyalarında adekvat hərəkət etməyə, özünə təlim subyekti kimi yanaşmağa imkan verir.

Təlimdə məsuliyyətli fəaliyyətə hazırlıq prinsipi təlimin elə şərtlərinin yaradılmasını təklif edir ki, təlim fəaliyyətində səbirliliyin, inadkarlığın və məsuliyyətliliyin təzahürünü nəzərdə tutur. Bu prinsipin reallaşması məşğələlərin keçirilməsini, həmçinin müxtəlif növlü biliklərin məzmunu-nun açılmasını, şagirdlərin daxili mövqeyinin formalaşmasını ehtiva edir.

İdraki fəallıq prinsipində biz kiçik yaşlı məktəblilərin yaş xüsusiyyələrinə üstünlük veririk. Şagirdlərin aparıcı təlim fəaliyyətinin inkişaf səviyyəsini onların ətraf aləmə münasibət sistemi müəyyən edir. Bu prinsip şagirdin özünə, öz real mövqeyinə, müəlliminə olan münasibətini də nəzərdə tutur. Tədricən şagirdin aktiv idraki fəaliyyəti perspektiv inkişafı stimullaşdırmaqla şəxsiyyətin müsbət inkişafını və onun üçün yeni olanı dərk etmək tələbatını təmin etməlidir.

Yaradıcı dərketmədə özünüreallaşdırma prinsipi idraki tələbatların formalaşması hesabına kiçik yaşlı məktəblini axtarıcı, yaradıcı fəaliyyətə daxil etməklə məhsuldar təfəkkürün, qavrayışın, təxəyyülün inkişafını şərtləndirir. Belə hallarda təlimin subyekti kimi məktəblinin təşəkkülündə təlim biliklərini fəal mənimsəməni, bilik, bacarıq və vərdişlərə yiyələnmə prosesində şəxsiyyətin inkiaşfını və onun idraki tələbatının qarşılıqlı şəkildə bir-birinə təsirini müəyyən edir [3].

Şagirdlərin potensial imkanlarının hesaba alınması prinsipi L.S.Vıqotskinin uşağın aktual və yaxın inkişaf zonası haqqında nəzəriyyəsinin nəzəri qaydalarına istinad edir. Bu prinsip idrak tələbatlarının formalaşması işinin təşkilində şagirdlərin fərdi-şəxsi kömək vasitələrindən istifadəni nəzərdə tutur. Bunlarla yanaşı bu prinsip kiçik yaşlı məktəblilərə ən çətin situasiyalarda öz problemlərini həll etməyi öyrətməyi, yenilərini dərk etməklə təlim çətinliklərini aradan qaldırımaqda onlara kömək etməyi nəzərdə tutur. Fərdi-şəxsi kömək şagirdlərin özünüdərketmə-lərində, təlimdə uğur və uğursuzluqlarını adekvat şəkildə dərk etməyə üstünlük verir.

Kiçik yaşlı məktəblilərin idrak tələbatlarının firmalaşması prinsipinin reallaşması müvafiq üsul və metodların: problemli situasiyanın həlli, inkişafetdirici oyunlar, söhbətlər, müsbət nümunələr, tapşırıqlar, stimullaşdırıcı materiallarla iş və s.-nin seçilməsinə gətirib çıxarmışdır. Şagirdlərin idrak tələbatlarının formalaşması prinsiplərinin effektiv şəkildə reallaşmasını müəyyən etmək məqsədilə tərəfimizdən formalaşdırıcı eksperimentin əvvəlində şagirdlərin öz təlim vəzifələ-rini yerinə yetirmək bacarıqları ilə bağlı tədqiqatda diaqnostikadan istifadə edilmişdir.

Tədqiqatın nəticələri göstərdi ki, kiçik yaşlı məktəblilərin 38,2%-i qaydaların yerinə yetirilməsi ilə bağlı öz bacarıqlarının reallaşdırılmasını qiymətləndirmişlər. Şagirdlərin 15,9%-i belə zənn edirlər ki, onlar təlimdə əməksevərliyi, məsuliyyətliliyi nümayiş etdirirlər. Onların 14,6 %-i təlimdə köməyi qəbul ediklərini, 28,5%-i təlimdə uğurlara nailolma bacarıqlarını, 19,4%-i özlərinin təlim əməyini və istirahətlərini təşkil etmək bacarıqlarına malik olduqlarını bildirmişlər. Bunlarla yanaşı şagirdlərin 29,9%-i dərslərini müstəqil şəkildə icra etdiklərini, 39,7%-i hər gün kitab

oxuduqlarını, 42,3%-i məktəbdəki çətinlikləri müstəqil şəkildə aradan qaldırmaq bacarığını müsbət dəyərləndirmişlər.

Yuxarıda adları çəkilən prinsiplərin reallaşması zamanı tərəfimizdən "Mənim vəzifələrim", "Məktəb bizim ümumi evimizdir", "Yaxşı təhsil və mənim uğurum" və s. mövzularda kiçik yaşlı məktəblilərin məktəbdə və evdə vəzifələrini yerinə yetirməklə bağlı sinif saatları təşkil edilmişdir. Sinif saatlarının təşkilində növbəti vəzifələr yerinə yetirilmişdir: kiçik yaşlı məktəblilərin idrak tələbatlarının formalaşmasının reallaşması prinsipi, onun üsullarının davranış və fəaliyyətdə təzahürü, onların evdə və məktəbdə vəzifələri, məktəbdə düzgün davranış və normalara davamlı, müsbət münasibətləri, məsuliyyətlilik, əməksevərlik və s. İş fərdi, sinifdə cütliklərlə, həmçinin frontal şəkildə aparılmışdır. Məşğələlərdə fərdi və qrup formasında işin məzmunu şagirdlərin idrak tələbatlarının formalaşması səviyyəsindən asılı olmuşdur.

Kiçik yaşlı məktəblilərin idrak tələbatlarının formalaşması prinsipinin reallaşması tematik sinif saatlarından istifadə etməklə idrak tələbatlarının struktur komponentlərinin-idrak fəaliyyətinə hazırlıqda təzahür edən idraki yönəlişliyin təşəkkülünü şərtləndirir. Şagirdlərin idrak tələbatlarının formalaşması prinsipinin effektiv reallaşmasını yoxlamaq və təlim vəzifələrini yerinə yetirmək üçün diaqnostik iş aparılmışdır. Tədqiqatın nəticəsində aydın olmuşdur ki, kiçik yaşlı məktəblilərin bacarıqları təlim vəzifələrini yerinə yetirdikləri fəaliyyətdə reallaşır. Şagirdlərin əksəriyyəti bacarıqlarının reallaşmasını müsbət qiymətləndirirlər. Belə ki, şagirdlərin 59%-i tapşırıqların düzgün yerinə yetirilməsini, 58,4%-i təlim müddətinin təşkilini, 51,4%-i təlimdə xahiş və köməyin qəbulunu, 43,8%-i təlimdə məsuliyyətliliyi, 42,3%-i isə məktəb çətinliklərinin aradan qaldırılmasını xüsusi olaraq qeyd etmişlər.

Beləliklə, məktəbdə və evdə şagirdlərin vəzifələrinin öyrənilməsində tematik sinif saatlarının aparılması kiçik yaşlı məktəblilərin idrak tələbatlarının formalaşması prinsipinin reallaş masına zəmin yaradır. Kiçik yaşlı məktəblilərin idrak tələbatlarının formalaşması prosesi mərhələli şəkildə idrak fəaliyyətinin motivasiyasının yaradılması əsasında şagirdlərin təlimin subyekti kimi özləri haqqında təsəvvürlərini və daxili mövqelərini şərtləndirir.

Kiçik yaşlı məktəblilərin idrak tələbatlarının strukturuna növbəti komponentlər daxil edilir:

1/ şagirdin öz obrazı haqqında təsəvvürləri; 2/ təlimə müsbət münasibətini xarakterizə edən şagirdin idrak maraqları; 3/ idraki yönəlişlik, təlim tapşırıqlarını və şəxsi keyfiyyətləri yerinə yetirməyə hazırlığın təzahürü, məsuliyyətlilik, əməksevərlik, intizamlılıq, idrak fəallığı, təlim tapşırıqlarının yerinə yetirilməsində inadkarlıq; 4/ idrak dəyərlərinin təlimin dəyər kimi həm özü, həm də cəmiyyət üçün mühüm olmasını başa düşmək, həyatının mühüm hadisəsi kimi yeninin dərkinin şagirdlər tərəfindən qəbul edilməsi.

Beləliklə, tədqiqatda aldığımız nəticələr əsasında təkliflərimizi ümumiləşdirdik:

- sinifdə təlim prosesində kiçik yaşlı məktəblilərin idrak tələbatlarını inkişaf etdirmək üçün müxtəlif üsullardan: test tapşırıqlarından, müxtəlif metodikalardan, rəsmlərdən istifadə olunsun;
- məşğələlərdə şagirdlərin təlim uğurları, dərsdə bilikləri mənimsəmə səviyyəsi birbaşa olaraq onların düşünmək, mühakimə yürütmək kimi əqli qabiliyyətlərindən asılıdır. Odur ki, təlim uğurlarını yüksəltməyin ən səmərəli yollarından biri kiçik yaşlı məktəblilərdə əqli əməliyyatların formalaşdırılmasıdır.

ƏDƏBİYYAT

1. Асеев В.Г. Мотивация поведения и формирования личности. [Текст] / В.Г. Асеев М.: Мысль, 2006. – 158с.

2. Баранова Э.А. Диагностика познавательного интереса у младших школьников и дошкольников. – М: Речь, 2004. – 219 с
3. Булатова О. В. Познавательный интерес в структуре общей способности к учению в младшем школьном возрасте. // Начальная школа плюс до и после. 2009. № 11. с. 83-85.
4. Щукина Г.И. Педагогические проблемы формирования познавательных интересов учащихся. М.: Педагогика, 2008. – 109с.
5. Юркевич В.С. Развитие начальных уровней познавательной потребности у школьника // Вопросы психологии. 1980. № 2

РЕЗЮМЕ
ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ ФОРМИРОВАНИЯ ПОЗНАВАТЕЛЬНЫХ ПОТРЕБНОСТЕЙ МЛАДШИХ ШКОЛЬНИКОВ

Вердиева Ч. Г.

В статье показано, что познавательные потребности - это потребность в осознании, активности и творческом восприятии окружающего мира. Познавательные потребности формируют интегральные свойства личности младших школьников. В статье исследуются психологические основы и особенности формирования познавательных потребностей младших школьников, а также дается научное объяснение психологических компонентов структуры познавательных потребностей младших школьников. Принципы формирования познавательных потребностей младших школьников последовательно охарактеризованы автором в психологическом плане.

Ключевые слова: познавательные потребности, мотивы, познавательная активность, интересы, творческая активность

SUMMARY
PSYCHOLOGICAL FOUNDATIONS FOR FORMATION OF GOGNITIVE NEEDS OF YOUNGER SCHOOL CHILDREN

Verdiyeva C. G.

The thesis shows that cognitive needs are the need for awareness, activity and creative perception of the surrounding world. Cognitive needs form the integral properties of the personality of younger students. The thesis examines the psychological foundations and features of the formation of the cognitive needs of younger students as well as a scientific explanation of the psychological components of the structure of the cognitive needs of younger students. The principles of the formation of the cognitive needs of junior schoolchildren are consistently characterized by the author in psychological terms.

Key words: cognitive needs, motives, cognitive activity, interests, creative activity

ФОРМИРОВАНИЕ ПЕДАГОГИЧЕСКОЙ КОМПЕТЕНТНОСТИ У БУДУШИХ УЧИТЕЛЕЙ НАЧАЛЬНЫХ КЛАССОВ: ИСТОРИЧНОСТЬ И СОВРЕМЕННОСТЬ

Эфендиева Ф. Э.
Бакинский славянский университет
fidan141923@gmail.com

Резюме: В статье рассматриваются состояние, проблемы и приоритетные направления образования как важнейшего компонента надстройки на суверенном этапе развития Азербайджанской республики, в частности требования, предъявляемые к учебно-воспитательной деятельности учителя начальных классов, его мастерству, профессионализму и педагогическим компетенциям в условиях интенсификации образования.

Ключевые слова: система образования, статус учителя, компетенция, профессиональная компетентность, педагогическое мастерство.

В соответствующей психолого-педагогической литературе понятие «компетентность» оно стало употребляться в начале 90-х годов прошлого века. Тогда в образовании возникло новое направление, которое получило название компетентностный подход. В настоящее время оно используется в сфере высшего педагогического образования: приоритетными считаются результаты образования и способности участников учебно-воспитательного процесса творческое и креативное действие в разных нестандартных условиях. В общем смысле профессиональная компетентность интерпретируется как целостная интегральная характеристика совокупности компетенций, основанных на фундаментальных психолого-педагогических знаниях и приобретенном опыте. Она проявляется в практике субъекта учебно-воспитательной деятельности в неразрывном единстве с его личностными качествами. Анализ соответствующей психолого-педагогической литературы и словарных статей позволяют прийти к обоснованному мнению о том, что до сих пор нет однозначного толкования, интерпретаций, единого понимания базовых дефиниций «компетентность» и «компетенция». В официальных документах используются обе дефиниции. Хотя уже в 60-е годы XX века понималось различие между понятиями «компетентность» и «компетенция».

Так, в толковом словаре педагогических терминов под редакцией М.А.Исмиханова отмечено: «Компетенция (lat. competence – опыт, соревнование) способность, опыт человека эффективно и умело внедрять на практику приобретенные знания и умения. Компетенция обеспечивает превращение усвоенных знаний и умений человека в результаты конкретной деятельности [1,с.45]. Образование, основанное на компетенцию, оказывает более эффективное влияние на социально-экономическое развитие.

Компетенция имеет много видов. В разных источниках выделяются общие, частные, специфические компетенции. Самые общие базовые компетенции, которые определило Европейское сообщество, следующие: компетенции, связанные с общением на родном языке и на иностранных языках; математические и технические компетенции; компетенции, связанные с ИКТ; компетенции, связанные с учением учиться (самостоятельной работой); компетенции, связанные с социальным развитием и гражданством; компетенции, связанные с усвоением культурных ценностей и проживанием в поликультурном обществе.

Б.А.Ахмедов, анализируя важные качества необходимые для деятельности учителя, приходит к выводу о том, что в компетенции учителя должно найти свое отражение три

основных требования: общие, специальные и специфические [2,с.45]. В пособии «Актуальные проблемы модернизация подготовки учителя» изложены требования, предъявляемые к деятельности компетентного учителя, а также составляющие компетентности учителя и их содержание: 1) педагогические умения и навыки компетентного учителя; 2) педагогический такт и умения компетентного учителя; 3) педагогические способности компетентного учителя (личностные, дидактические, организаторские, коммуникативные, перцевтивные и др.); 4) педагогическое мастерство компетентного учителя [3, 96].

При этом, во-первых, авторы не проявили своего отношения по поводу определения термина «компетентность», во-вторых, на наш взгляд, «педагогическое мастерство» неоправданно рассмотрено в качестве составляющего компетентности учителя. Ибо «педагогическое мастерство» и «компетентность» разные понятия.

Некоторые ученые считали, что компетенции – это определенные внутренние и потенциальные психологические новообразования (знания, представления, программы (алгоритмы) действий, систем ценностей и отношений), которые впоследствии выявляются в компетентностях человека» [5].

Компетенция, по мнению Г.А. Сергеева, это совокупность взаимосвязанных качеств личности, заданных по отношению к определенному кругу предметов или процессов и необходимых, чтобы качественно и продуктивно действовать по отношению к ним. Компетентность – это владение субъектом учебно-воспитательной деятельности соответствующей компетенцией. Поэтому он приходит к обоснованному выводу о том, что компетенции выступают в качестве цели образовательного процесса, а компетентность – как результат, совокупность личностных качеств субъекта деятельности [6,с.9].

Как видно, в определении понятия «компетенция» мнения ученых в определенной степени разняться, ибо его сущность составляют разные основания: «внутренние, потенциальные психологические новообразования», «совокупность взаимосвязанных качеств личности», «цели образовательного процесса», «сплав традиционных знаний, умений и навыков с личностными особенностями школьника», « заранее заданное требование к образовательной подготовке ученика», «готовность человека к мобилизации знаний, умений и внешних ресурсов», «способность, опыт человека эффективно и умело внедрять на практику приобретенные знания и умения». Вместе с тем, на наш взгляд, объединяющим началом во всех приведенных дефинициях являются личностные качества, знания, умения и опыт. Если знания и умения непосредственно зависят от компетенций, иначе говоря, по отношению к компетенциям они носят подчиненный характер, то опыт и личностные качества подлежат интерпретацию.

Во-первых, современные условия настоятельно требуют приобретения опыта именно до профессиональной деятельности, на этапе обучения. Ведь именно, с одной стороны, отсутствие опыта, практики, с другой, формирования конкретных представлений об окружающей действительности, моделирование учебных, воображаемых условий стали причиной кризиса знаниевой парадигмы образования. Поэтому настоятельное требование и потребность сегодняшнего дня: учебный процесс следует организовать так, чтобы опыт и практика обучающихся опережали в целом теорию, а в частности их теоретическую подготовку. Интенсивный подход к современному образованию заключается в том, чтобы информированность, теоретическая подготовленность, теоретические знания способствовали решению практических задач, чтобы обучаемые погружались в реальные, действительные

социальные условия, учились выбирать и реализовывать адекватные способы деятельности и ситуации, самостоятельно решали возникшие проблемы в незнакомых условиях.

Во-вторых, в решении тех или иных практических задач, осуществлении жизненных планов, выборе способов деятельности, в конечном итоге реализации поставленной цели немаловажное значение представляют личностные качества, которые выступают компонентами компетенции, которые, как правило, подразделяют на: 1) когнитивные (познавательные); 2) креативные (творческие); 3) оргдеятельностные (методологические); 4) коммуникативные; 5) мировоззренческие.

Когнитивные качества выражаются в умении задавать вопросы, логически анализировать, причины явлений, обрабатывать поступающую информацию, преобразовывать ее в продуктивные знания, в хранении и креативном использовании накопленного опыта, как в основном виде деятельности, так и в повседневной жизни.

Креативные качества характеризуются наличием собственного мнения в оценке тех или иных вопросов, явлений, событий; прогностичности в нестандартных ситуациях; вдохновленности, критичности, раскованности мыслей; в принятии неординарных решений и др.

Оргдеятельностные качества – это способность к учебно-познавательной деятельности, рефлексивное мышление, самооценка, самопознание (познание свойств и специфики собственной личности), анализ собственных эмоций и чувств, способностей и поведения; умение поставить цель и достичь ее и др.

Коммуникативные качества обуславливаются необходимостью общения и взаимодействия с другими людьми в микро и макро социальной среде, совместной учебной и вне учебной деятельности, выполнением различных ролей в коллективе, использованием мобильных информационных и коммуникационных технологий: электронная почта, интернет и др.

В соответствующей педагогической литературе встречается классификация компетенций по уровню и виду. В частности, по уровню выделяют:

1) ключевые компетенции (универсальные, базовые, элементарные);

2) метапредметные (общепрофессиональные, надпредметные);

3) предметные (специальные).

Наиболее общие способности и умения, обладающие определенной универсальностью, получили название «ключевых» Термин «ключевые компетенции» впервые был введен в зарубежной педагогике в конце XX века Международной организаций труда. Через несколько лет это понятие начинает определять к подготовке специалистов в профессиональных школах и становится предметом исследования ученых. В частности, Э.Ф.Зеер интерпретирует основные компетенции как межкультурные и межотраслевые знания, умения и способности, необходимее для адаптации и продуктивной деятельности различных профессиональных сообществ. Он выделяет пять ключевых компетенций в профессиональном образовании Европейского сообщества:

1) социальная компетенция – способность взять на себя ответственность совместно вырабатывать решения и участвовать в его реализации, толерантность к разным этнокультурам и религиям, проявления сопряженности личных интересов с потребностями предприятия и общества;

2) коммуникативная компетенция – владение технологиями письменного и устного общения на разных языках, компьютерного программирования, общения через интернет;

3) социально-информационная компетенция – владение информационными технологиями и критическое отношение к информации, распространяемой через СМИ;

4) когнитивная компетенция – готовность к постоянному повышению образовательного уровня, потребность в актуализации и реализации личностного потенциала, способность самостоятельно приобретать новые знания и умения;

5) специальные компетенции – подготовленность к самостоятельному выполнению профессиональных действий, оценке результатов своего труда [4, с. 25].

Исследователь Усова А.В. считает, что ключевые компетенции – это общая способность субъекта деятельности мобилизовать приобретенные знания и умения, а также использовать в ходе профессиональной деятельности универсальные способы выполнения действий. Он также отмечает, что ключевые компетенции универсальные, поэтому не могут быть узкоспециализированными. Важным компонентом компетенций является опыт-интеграция в единое целое усвоенных человеком отдельных действий, способов и приемов решения [7, с.6].

В конечном итоге мы солидарны с мнениями ученых-педагогов, которые считают, что цели ключевых компетенций сводятся к базовым парадигмам современной педагогики: применяя активные и интерактивные методы обучения, внедряя в учебный процесс новые информационные и коммуникационные технологии научить учащихся учиться, учить способам добывания знаний, занимать позицию фасилитатора, признать субъективность, равность, паритетность ученика учителю

ЛИТЕРАТУРА

1. Pedaqoji terminlərin izahlı lüğəti (prof. M.A.İsmixanovun redaktorluğu ilə). Dərs vəsaiti. Bakı: ADPU nəşriyyatı, 2018, 156 s.
2. Əhmədov B.A., Rzayev A.Q. Pedaqogikadan mühazirə konspektləri. Bakı: Maarif, 1983, 352 s.
3. Mahmudov M.C. və b. Müəllim hazırlığının aktual problemləri və modernləşdirilməsi. Bakı: Mütərcim, 2015. – 216 s.
4. Зеер Э., Сыманюк Э. Компетентностный подход к модернизации профессионального образования // Высшее образование в России. – 2005. - № 4. – С. 25-28.
5. Зимняя, И.А. Ключевые компетенции – новая парадигма результата образования)/ И.А.Зимняя // Эйдос: Интернет-журнал. – 2006. – [Электронный ресурс]. – http: // www.eidos.ru
6. Сергеев Г.А.Компетентность и компетенции в образовании / Г.А.Сергеев. – Владимир: Изд-во Владимирского гос.ун-та, 2010.
7. Усова А.В. Требования к подготовке учителя в свете модернизации российского образования на период до 2010 года // Педагогическое образование и наука. – 2003. - № 2. с. 4-8.

XÜLASƏ

GƏLƏCƏK İBTİDAİ SİNİF MÜƏLLİMLƏRİNDƏ PEDAQOJİ KOMPETENSİYASININ FORMALAŞDIRILMASI: TARİXİLİK VƏ MÜASİRLİK

Əfəndiyeva F.E.

Azərbaycan Respublikasının suveren inkişaf mərhələsində üst quruluşun ən vacib komponenti kimi təhsilin vəziyyəti, problemləri və prioritet sahələri, xüsusilə ibtidai sinif

müəlliminin təhsil fəaliyyətinə qoyulan tələblər, təhsilin intensivləşdirilməsi kontekstində bacarıqları, peşəkarlığı və pedaqoji kompetensiyaları araşdırılmışdır.

Açar söslər: təhsil sistemi, müəllimin statusu, səriştə, peşə səriştəsi, pedaqoji ustalıq

SUMMARY

FORMATION OF PEDAGOGICAL COMPETENCE IN FUTURE PRIMARY SCHOOL TEACHERS: HISTORICITY AND MODERNITY

Efendiyeva F.E.

The article discusses the state, problems and priority areas of education as the most important component of the superstructure at the sovereign stage of development of the Republic of Azerbaijan, in particular the requirements for teaching and upbringing activities of primary school teachers, their skills, professionalism and pedagogical competencies in the context of education intensification

Key words: education system, teacher status, competence, professional competence, pedagogical skills

UŞAQLARIN MƏKTƏB TƏLİMİNƏ HAZIRLANMASINDA AİLƏ VƏ MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏNİN QARŞILIQLI ƏLAQƏSİ

Əhmədova F. E.

Sumqayıt Dövlət Universiteti

famile.ehmedova@gmail.com

Xülasə: Uşaqların təlim prosesi çox mürəkkəb prosesdir.Həm valideyn həm uşaq həm də tərbiyəçi prosesin əsas iştirakçılarıdır.Bu məqalədə valideyn-məktəbəqədər müəssisə arasındakı qarşılıqlı əlaqədən bəhs edilir.Beləliklə valideynlərin məktəbəqədər müəssisə ilə ünsiyyətinin yolları və vasitələrini aydınlaşdırdıq.Bu prosesi uşağın gələcək həyatı və ailə münasibətlərinə təsirinin vacibliyini göstərdik.Bu hadisə günümüzün ən actual mövzularından biridir.

Açar sözlər: valideyn, məktəbəqədər təhsil müəssisəsi, uşaq, tərbiyəçi, təlim - tərbiyə

Uşaqların təlim-tərbiyə prosesi öncə ailədən daha sonra isə məktəbəqədər təhsil müəssisələrindən başlayır. Uşağın məktəbəqədər müəssisəyə addım atdığı ilk gündən məktəbəqədər müəssisə ilə ailə arasında qarşılıqlı əlaqə yaranmalıdır. Uşaq bağçası tərbiyə müəssisəsi kimi valideynlərə tərbiyə işini aşılamalı, valideynlərin pedaqoji mədəniyyətini yüksəltməlidir. Uşaq bağçası və ailənin ümumi məqsədləri eyni olmalı, aydın təsvir edilməlidir.

Məktəbəqədər müəssisələrdə qruplarda valideynlərlə tədbirlər keçirilir. Bu tədbirlər müxtəlif məqsədlər üçün təşkil edilə bilər. İlk öncə uşaqların parlaq gələcəyi üçün aydın plan hazırlanmalıdır. Daha sonra təşkil edilmiş belə tədbirlərdə ailə və məktəbəqədər müəssisənin birgə fəaliyyəti məqsədilə uşaqların gün rejimi müəyyənləşdirilir.

Məktəbəqədər dövrdə tərbiyəçilər daimi olaraq ailə üzvləri ilə əlaqə saxlayırlar. Tərbiyəçilər həm də valideynlərin malik olduğu pedaqoji bilik və bacarıqla da maraqlanırlar. Ailə tərbiyəsində valideynlərin pedaqoji sahədə biliklərinin azlığı uşaqlarla pedaqoji iş zamanı problemlərə gətirib çıxarır. Bunun üçün valideynlərlə də xüsusi təbliğat işləri aparılır. Xüsusi təbliğat işlərinə söhbətlər, diskussiyalar, praktiki konfranslar, bağçada keçirilən valideyn günləri, xüsusi yığıncaqlar aiddir.

Bütün bunlar təşkil edilməzdən əvvəl tərbiyəçi bu tədbirlərin həyata keçirilməsinə əvvəlcədən hazır olur.

Son bir neçə ildir ki, uşaq bağcalarında valideynlər üçün lektoriyalar təşkil edilir. Burda müxtəlif məruzələr, mühazirələrdən istifadə edilir.Bütün bunların əsas məqsədi valideynlərə pedaqoji yenilikləri öyrətmək ,onları təcrübəyə yiyələndirməkdir. Belə təbliğatlar emosional və inandırıcı olmalıdır. Nəzərə alınmalıdır ki, hər bir valideyn müxtəlif bilik səviyyəsinə malikdir.

Valideyn və məktəbəqədər müəssisənin qarşılıqlı əlaqəsi bununla bitmir.Valideynlər belə sohbətlər zamanı həm də övladları haqqında məlumat alır, onların davranışıyla tanış olurlar. Bundan başqa valideynlər həmçinin təlim-tərbiyə işinin vəziyyəti ilə , valideyn komitəsinin fəaliyyəti ilə bağlı məsələlər də iştirak edirlər.Valideynləri məlumatlandırmaqda həm tərbiyəçilər, həm də metodistlər fəal iştirak edirlər.

Valideynlər üçün təşkil edilən konfranslarda onlar öz düşüncələrini irəli sürür fikir mübadiləsi aparırlar. Məktəbəqədər müəssisələrdə valideynlərlə həm kollektiv, həm də fərdi formada görüşlər keçirilir. Kollektiv formada aparılan görüşlər daha çox öyrədici xarakter daşıyır. Fərdi formada aparılan görüşlərdə isə valideyn ya müəssisəyə çağırılir,ya da ailə ziyarət edilir.

Tərbiyəçi çalışmalıdır ki, valideyn özü bağçayla maraqlanmağa, bağçaya gəlməyə ehtiyac duysun. Görüşlər zamanı uşaqların valideynlərin yanında olmamağı məsləhətlidir. Valideynlərin qarşısında uşaqdan şikayət etmək,onu təhqir etmək sonradan pis nəticə verə bilər. Həmçinin valideynlər ailədə uşaqlarla bağlı çətinlikləri dilə gətirməkdən çəkinməməlidirlər. Tərbiyəçi valideynlərlə səmimi söhbət üçün lazimi şərait yaratmalıdır. Bir növ məktebəqədər müəssisə valideyn üçün məsləhət məntəqəsinə çevrilir.

Rus pedaqoqu Uşinski öz qeydlərində deyirdi "Pedaqoq uşaqları hərtərəfli tərbiyə etmək istəyirsə,onu hərtərəfli də öyrənməlidir". Tərbiyəçi bəzi hallarda uşaqların ailələrinə gedir. Uşağın boş vaxtlarını necə qiymətləndirdiyini görmək və ya ailə və uşaq arasındakı münasibəti oyrənmək məqsədi ilə. Hər ailə uşağa müxtəlif cür təsir edir və problemləri özü bildiyi kimi həll etməyə çalışır. Tərbiyəçilər ailə tərbiyəsindəki nöqsan və mənfi cəhətləri gördükdən sonra bunu ailəyə bildirməlidir. Bu zaman tərbiyəçi fikrini aydın və konkret faktlarla izah etməlidir.

Məktəbəqədər müəssisələrdə keçirilən "Açıq qapı" günləri də valideynlərlə iş üçün xeyli effektivdir. Belə günlər əvvəlcədən müəyyənləşdirilir,planlaşdırılır. Əsasən ayda bir dəfə keçirilməsi nəzərdə tutulur. Bu o deməkdir ki bu zaman məktəbəqədər müəssisə öz qapılarini valideynlərin üzünə açır. Bu zaman valideynlər öz övladlarının təlim tərbiyə aldığı müəssisəylə bağlı suallarına cavab tapırlar. Bağçanın müdiri də mütləq burda iştirak etməlidir.

Bundan başqa qrup iclaslarını da qeyd etmək lazımdır. Qrup iclaslarında müəyyən edilmiş bəzi mövzularda çıxışlar hazırlanır. Bu mövzulara misal olaraq: "Məktəbəqədər müəssisədə gün rejimi" , "Uşaqların məktəbə hər tərəfli hazırlanması" , "Bayramların və xüsüsi günlərin təşkili" va s. kimi mövzular ola bilər.

Valideynlərlə iş zamanı konfranslarında özünəməxsus yeri var.Valideyn konfransları il ərzində bir -iki dəfə həyata keçir.Konfransların əsas məqsədi valideyn və məktəbəqədər müəssisənin vahid mövqeyini müəyyənləşdirməkdir.Həmçinin belə görüşlərdə valideynlərə öyrədici ,maarifləndirici kitablar , məqalələr tövsiyyə olunur. Belə kitablara Y.Ş.Kərimovun "Uşaq bağçasında nitqin inkişafı" , "Uşaq məktəbə gedir" kimi elmi pedaqoji əsərləri göstərmək olar.

Ümumiyyətlə pedoqoji kollektiv uşaqlarin təlim tərbiyəsin üzrə işi iki istiqamətdə aparırlar. Birinci istiqamət uşaqlarla aparılan işdir ki, bu da uşaq üzərində aparılan tərbiyənin vəziyyətini ön plana çəkir. İkinci yeri isə, valideynlərlə aparılan iş tutur. Və bu işin əsas məqsədi valideynləri pedaqoji biliklərə yiyələndirməkdir.

ƏDƏBİYYAT

1. G.Şirəliyeva . ‘’Məktəbəqədər Pedaqogika.Bakı’’, 2017.
2. S.Quliyev. ‘’Məktəb və valideynlərlə iş.Bakı’’. 1974.
3. K.D.Uşinski. ‘’Seçilmiş pedaqoji əsərləri’’

РЕЗЮМЕ

ОТНОШЕНИЯ МЕЖДУ СЕМЬЕЙ И ДОШКОЛЬНЫМ УЧРЕЖДЕНИЕМ В ПОДГОТОВКЕ ДЕТЕЙ К ШКОЛЕ

Ахмедова.Ф.Е.

Процесс обучения детей - очень сложный процесс. В этой статье обсуждается важность общения родителей с дошкольниками. Таким образом, мы выяснили способы и средства общения родителей с дошкольным учреждением. Мы показали важность воздействия этого процесса на будущую жизнь ребенка и семейные отношения. Это мероприятие сегодня - одна из самых злободневных.

Ключевые слова: родитель, дошкольное учреждение, ребенок, воспитатель, обучение-воспитание

SUMMARY

THE RELATIONSHIP BETWEEN FAMILY AND PRESCHOOL IN PREPARING CHILDREN FOR SCHOOL

Ahmedova.F.E.

The learning process of children is a very complex process.Both the parent and the child are the main participants in the process. This article discusses the importance of parent-preschool communication. Thus, we have clarified the ways and means of parents' communication with the preschool. We have shown the importance of the impact of this process on the child's future life and family relationships. This event is one of the most topical issues today.

Key words: parent,preschool,child,tutor,training-upbringing

İDRAK MARAQLARI TƏLİM FƏALİYYƏTİNİN APARICI AMİLİ KİMİ

Əliyeva L.M.

Sumqayıt Dövlət Universiteti

lala-aliyeva63@mail.ru

Xülasə: Məqalədə göstərilir ki, idrak maraqları pedaqoji hadisə kimi bir-biri ilə qarşılıqlı surətdə bağlı olan ikitərəfli prosesdir. Bir tərəfdən o şagirdin özünütəşkilinin və özünüreallaşdırmasının forması, digər tərəfdən isə şagirdlərin idrak fəaliyyətinin təşkilində müəllimin xüsusi səyinin nəticəsidir. Məqalədə idrak maraqlarını stimullaşdırmağın üsulları və tərəfləri psixoloji istiqamətdə ardıcıllıqla araşdırılmışdır. Müəllifin fikrincə, idrak maraqları şəxsiyyətin inteqral təhsili kimi təlim və tərbiyənin müxtəlif tərəflərinə təsir göstərir.

Açar sözlər: idrak maraqları, dərketmə, idrak fəallığı, formalaşma, özünüreallaşdırma

İdrak maraqlarının formalaşması problemi və onun həlli bütün təhsil sisteminin təkmilləşdirilməsindən asılı olaraq mühüm əhəmiyyət kəsb edir. Uşaqlarda arzu və qabiliyyətlərin müəllimin müdaxiləsi olmadan müstəqil şəkildə inkişafı məktəbin bütün təlim mərhələsində üstünlük təşkil edir. İdrak maraqları kiçik yaşlı məktəblilərin mühüm təlim metodlarından biridir. Sistematik, məqsədyönlü tərbiyə fəaliyyəti və onun təşkili nəticəsində idrak maraqları şagird şəxsiyyətinin davamlı xassələrindən biri olub onun inkişafına böyük təsir göstərir.

V.Q.Bojoviç və V.M.Myasişevin fikrincə, idrak maraqlarını təlim prosesinin mühüm amillərindən biri hesab etmək olar. Q.İ.Şukina göstərirdi ki, şəxsiyyətin idrak fəallığının və idrak marağının formalaşması qarşılıqlı proses kimi bir-birini şərtləndirir. İdrak maraqları idrak fəallığını əmələ gətirir, öz növbəsində idrak fəallığı da idrak marağını dərinləşdirir və möhkəmləndirir. İdrak tələbatları idrak marağının əsas hissəsidir. İdrak maraqları uşaqların idraki fəaliyyəti ilə sıx bağlı olub onların inkişafında mühüm rol oynayır. Bu maraqlar şəxsiyyətin inkişafını şərtləndirir və idraki fəallığın hərəkətverici qüvvəsinə çevrilir.

Q.İ.Şukina marağı insanın ətraf gerçəklikdəki hadisə və obyektlərə seçici münasibət kimi müəyyən edir. Alimin fikrincə, məhz həmin sahədə insan öz cəhdilə tələbatlarının ödənilməsi ilə məşğul olur, həmin fəaliyyət ona məmnunluq hissi əmələ gətirir. Bunlarla yanaşı insanın təhrikedici fəallığının təsiri altında psixi proseslər intensiv şəkildə inkişaf edir, fəaliyyət isə daha cəlbedici, səmərəli və seçici olur. İdrak maraqları insanın ətraf aləmə, obyekt və hadisələrə münasibətində iradi cəhdi möhkəmləndirir, emosiyaların inkişafına zəmin yaradır.

Tədqiqatçılardan: A.A.Kuznesova və V.N.Kuznesov qeyd edirlər ki, idrak maraqları insanın həyati fəaliyyətinin "düşmənidir". Əgər şagirdin marağı təlimədirsə bu onu göstərir ki, təlimin təşkilində ciddi çatışmazlıqlar vardır. Tədqiqatçılar qeyd edirlər ki, maraq insanın yaddaşını, diqqətini və iradəsini stimullaşdırır. Məlumdur ki, idrak maraqları təlim fəaliyyətində elmi biliklərin əldə edilməsinə yönəldilir. İdrak maraqlarının yaranması ilk növbədə şagirdin inkişaf səviyyəsindən, onun bilik və təcrübəsindən, digər tərəfdən isə materialların ötürülməsi üsullarından asılıdır. İdrak maraqlarının xüsusiyyətləri sadəcə olaraq əşyalarla tanışlıq deyil, həm də burada obyektləri dərketmə prosesinin özüdür ki, o hadisələrin mahiyyətini açmağa yönəldilmiş cəhdlə, elmi əsaslarla müəyyən edilmiş biliklərə, nəzəriyyələrə yiyələnmək arzusu, onları dərindən öyrənmək səyi ilə xarakterizə edilir [3,s.11].

Şüurlu idrak maraqları təlim və tərbiyə prosesində məqsədyönlü istiqamətdə formalaşır. Burada məqsəd şagirdlərə bilikləri əldə edib ondan istifadə etmələrində idraki təlim fəaliyyətinə və idrak maraqlarının uğurlu formalaşmasına kömək etməkdir. Təlim prosesində ən mühüm və vacib şərt odur ki, şagirdlər şüurlu olaraq məqsədyönlü şəkildə təlim fəaliyyətinin əhəmiyyətini və dəyərini dərk etsinlər. İdrak maraqlarının formalaşması dərəcəsini şagirdlərin davranışındakı bəzi təzahürlərlə mühakimə yürütmək olar:

* şagirdlərdə fikri fəallıq onların bildikləri suallarda təzahür edir ki, bu da onun maddi aləmdəki əşya və hadisələrin mahiyyətini öyrənmək məqsədilə yaranan suallara cavab tapmaq üçün özünün daxili tələbatını ödəmək;

* şagirdlərin müstəqil cəhdi ilə öyrənilən sualları müzakirə etmək və həmyaşıdlarının cavablarını da əlavə etmək;

* təqdim olunmuş sualların və ya mövzuların uzun müddətə öyrənilməsi.

İstənilən hallarda təzahür edən idrak maraqlarları çoxobrazlıdır. Təlim fəaliyyətinin strukturu davamlı idrak maraqlarının formalaşması üçün çoxlu sayda imkanlara malikdir. Məlumdur ki, kiçik yaşlı məktəblilər özlərinin şəxsi həyatında biliklərdən praktik şəkildə istifadə etmək imkanlarından həmişə yayınırlar. Şagirdlərin idrak maraqlarının predmeti odur ki, ətraf aləm

haqqında yeni biliklər, məlumatlar əldə etsinlər, həmin məlumatlar onlar üçün yeni, naməlum olsun, onları təəccübləndirsin.

Təlim materiallarının məzmunu şagirdlər üçün maraqlı olmaya da bilər. Belə hallarda idrak maraqlarının stimulu qismində təlim prosesinin özü mühüm rol oynayır. Uşaqlarda oxumağa maraq yaratmaq üçün onların idraki fəaliyyətlə məşğul olub tələbatlarını inkişaf etdirmək zəruridir. Təlim prosesində şagird onu cəlb edən, maraqlandıran tərəfləri tapmağa cəhd göstərməlidir. Məktəbdə hər bir şagirdin aktiv fəaliyyətini təmin edən təlimin oyun formaları xüsusi rol oynayır. Bu oyun forması şagirdlərin təlim əməyinə fərdi məsuliyyətini və avtoritetini yüksəldir.

Təlimin oyun forması biliklərin mənimsənilməsinin bütün səviyyələrindən istifadə etməyə imkan verir. Xüsusilə də başlıca məqsəd olan yaradıcı fəaliyyəti inkişaf etdirir. Şagirdlərin ümumi inkişafnın və şəxsiyyətinin formalaşması üçün idrak fəaliyyətinin əhəmiyyətini qiymətləndirməmək mümkün deyildir. Bu da xüsusilə kiçik məktəb yaş dövrünə aiddir. Məhz bu dövrdə şagirdlərin biliklərə yiyələnmələrinin təməli qoyulur. Təlim şagirdlərin fəal mövqeyindən çox asılıdır. Əgər təlim fəaliyyəti şagirdlərin müəllimlə əməkdaşlığı əsasında qurulursa o həmişə müsbət nəticələr verəcəkdir. Təlim məşğələlərinin uşaqlarla birgə fəaliyyətdə aparılması zamanı müəllim hər bir şagirdin ilk növbədə idrak fəallığının səviyyəsini öyrənməlidir. İdrak fəallığının yüksəlməsi üçün müəllim uşaqların idrak maraqlarını stimullaşdıran şəxsi üsullar müəyyən etməlidir. Məsələn, şagirdlərin idrak fəallığının yüksəlməsi üçün Q.İ.Şukina idrak maraqlarını stimullaşdırmağın üç üsulunu müəyyən etmişdir:

1) aterialın məzmununda dəyişikliklərin aparılması və müasir uğurları nümayiş etdirmək-dən istifadə etmək;

2) şagirdlərin idrak fəallığının təşkilinə kömək etmək məqsədi ilə bir çox üsullardan istifadə oluna bilər: a/müstəqil işlərin çoxobrazlı formalarından istifadə; b/ problemli tapşırıqların qoyuluşu, axtarıcılıq tələb edən məsələləri həlli; c/ şagirdlərin emosional-iradi sferasını və onun intellektual-idraki fəaliyyətini aktivləşdirən yaradıcı işlərin yerinə yetirilməsi;

3) idrak maraqlarının uğurlu formalaşmasının, təlim prosesinin emosional, intellektual və kommunikativ planda təhsilalanlar arasında qarşılıqlı münasibətlərindən asılı olması.

Beləliklə, idrak maraqları pedaqoji hadisə kimi bir-biri ilə qarşılıqlı surətdə bağlı olan ikitərəfli prosesdir, bir tərəfdən o, şagirdin özünütəşkilinin və özünüreallaşdırmasının forması, digər tərəfdən isə şagirdlərin idrak fəaliyyətinin təşkilində müəllimin xüsusi səyinin nəticəsidir. İdrak fəallığının inkişafı yeni təəssüratlara tələbatdan irəli gəlir ki, bu da hər bir insana anadan olan günündən məxsusdur. Kiçik məktəb yaşı dövründə sistematik iş şəraitində şagirdlərin ifəallığının əsasında idrak maraqları yaranır və formalaşır ki, nəticədə fasiləsiz təhsil prosesinin əsası qoyulur.

Maraq daxili proses kimi daxili ziddiyyətlərlə şərtlənir. Tədricən maraqla iradənin motivləri arasında əlaqə yaranır. Tələbatlarla maraq arasındakı əlaqəni A.Q.Zdravotslov "Sosial nəzəriyyədə maraq problemi" adlı kitabında maraqların strukturunda "zərurilik-tələbat-maraq-məqsəd-azadlıq" da əks etdirmişdir. Marağın strukturundan görünür ki, o öz-özlüyündə mövcud deyil, yalnız konkret olaraq bir hadisə kimi təzahür edir. Maraq sadəcə sosial subyektin qaydası deyil. Bu qaydalar şüurda ifadə olunur, sonra dərk edilərək fəaliyyətə keçir.

İnkişafın psixoloji-pedaqoji qanunauyğunluqlarında maraq aşağıdakı şəkildə xarakterizə olunur: 1) Maraq obyektə və subyektə çevrilən qarşılıqlı prosesdir; 2) Maraqların yaranması tələbatlarla şərtlənir; 3) Marağın fəaliyyət prosesinə təsiri onun istiqamətlənməsindən asılıdır.

A.S.Makarenko idrak maraqları anlayışının şərhini verərək qeyd edirdi ki, "marağın inkişafı sosial proses olub ətraf aləmdəki insanların fəaliyyətində sonsuz sayda münasibətlərlə ifadə olunur ki, onlar da digər münasibətlərlə şəbəkədə daha da mürəkkəbləşir. O qeyd edirdi ki, hər bir şagirdin

praktik olaraq maraqlarının inkişafı və formalaşması imkanları məhdudlaşmır, lakin tərbiyə və təlim sosial vasitələrin imkanları ilə şərtlənir.

Ş.A.Amonaşvilinin fikrincə, idrak maraqları şəxsiyyətin idraki cəhdinin hərəkət formasını, müstəqil axtarıcılığı, problemlərin müzakirəsini, o cümlədən çətin məsələlərin həllini şəxsi fikirlərin təsdiqi kimi müəyyən edir. L.V.Tarasov təsdiq edir ki, idrak maraqları nəinki şagirdin, həm də müəllimin inkişafının nəticəsi və həmin inkişafa rəhbərlik prosesdir. Maraq uğurlu təlimin mühüm stimulu kimi uşaq fəallığının güclü vasitəsi, onun təfəkkürünun inkişafı və yaradıcı qüvvəsidir. Həqiqi maraq mürəkkəb tapşırıqların həlli ilə müşayiət olunur. Qabaqcıl müəllimlərin fikirləri ilə tanışlıq bizə tədqiqatımızda bir sıra nəticələrə gəlməyə imkan vermişdir:

1. idrak maraqları cəmiyyətdən və ictimai münasibətlərdən kənarda inkişaf edə bilməz. İctimai asılılıq, münasibət və ünsiyyət inkişafın əlverişli vasitəsidir;

2. şagird özünün maraqlarının inkişafını, daxili stimullarını və özünüinkişafını göstərir.

Şagirdlərdə çoxtərəfli idrak maraqlarının şəxsiyyətin xassəsinin və inkişafetdirici ideyalarının formalaşmasına dair İ.F.Qerbart maraqların təsnifatını təklif etmişdir. Maraqlar məzmununa görə iki qrupa ayrılır: I qrupa xaricən özünüdərkin tələbinə yönəldilmiş maraqlar aiddir ki, uşaqlar bu qrupa təcrübi yolla gəlib çıxırlar. İdrak maraqlarının empirik, mücərrəd və estetik kimi müxtəlif növləri vardır. II qrup sosial ünsiyyət daxil olmaqla insanın emosional münasibətini, yönəlişliyini və maraqlarını əhatə edir. Simpatik sosial və dini maraqlar müxtəlif və rəngarəng olmaları ilə fərqlənirlər.

Bunlarla yanaşı olaraq idrak maraqları şagirdlərin öyrənməyə, təlim prosesinə, müəllimə münasibətini dəyişir. Fəaliyyətin nəzəri problemlərinin tədqiqi, maraqların obyektiv şərti və mexanimləri göstərir ki, tədris və təlimin həyata keçirildiyi təlim-idraki fəaliyyətdə və subyekt-obyekt münasibətlərində idrak maraqlar formalaşır. S.L.Rubinşteynə görə, insanın idrak fəaliyyəti əmək, dərketmə, təlim və oyun kimi fəaliyyətin əsas növlərində təzahür edir [4,s.435].

Maraq həmişə müəyyən əşyavi istiqamətə malikdir. Ətraf aləmdəki çoxsaylı əşya və hadisələr hər bir şəxsiyyətin fərdi təcrübəsi və inkişafı ilə bağlı olub maraqları əks etdirir. Ümumi maraq fenomenində idrak maraqları xüsusi rol oynayır. Mürəkkəb və çoxmənalı hadisə kimi idrak maraqlarının iki tərəfini nəzərdən keçirək:

* *Birincisi,* idrak maraqları maraqlılıq problemi ilə bağlı olub xarici stimul və təlimin vasitəsi kimi təzahür edir.

* *İkincisi,* idrak maraqları məktəblinin təlim fəaliyyətinin dəyərli motivi kimi özünü göstərir. Tədris motivləri üçün xarici təsir kifayət deyil, onlar şəxsiyyətin tələbatına əsaslanırlar.

Odur ki, idrak maraqlarının daxili və xarici təzahürlərini, həmçinin onun ardınca şəxsiyyətin formalaşmasına təsir edən daxili və xarici şərtlərini müəyyən etmək lazımdır. İdrak maraqlarının formalaşmasında daxili və xarici tərəflər öyrənilməlidir.

İdrak maraqları şəxsiyyətin inteqral təhsilidir. O ümumi fenomen kimi mürəkkəb struktura malikdir. Həmin strukturda insanın ətraf aləmlə obyektiv və subyektiv əlaqələri münasibətində ifadə olunur. İ.Q.Şukinanın fikrincə, idrak maraqları şəxsiyyətin dərketmə sahəsinə, onun əşyavi tərəfinə və biliklərə yiyələnmə prosesinin özünə seçici istiqamətidir [5,s.14].

İdrak maraqları təlim və tərbiyənin müxtəlif tərəflərinə təsir edə bilir. Çox vaxt idrak maraqları psixi proseslərin xarici stimulu, şagirdlərin idraki fəaliyyətinin formalaşdırılması vasitəsi, müəllimin "alət" effekti kimi nəzərdən keçirilir. Bu "alət" təlim prosesinin canlandırılmasına zəmin yaradır. İdrak maraqları şəxsiyyətin özünün daxili prosesinin formalaşması və obyektiv şərtlərin təzahürləri ilə xarakterizə olunur. Təlim prosesində şagirdləri təlimin elə tərəfləri cəlb edə bilər ki, onlar müəllim şəxsiyyətinin cazibəsi, təcrübəsi ilə sıx bağlı olsun. Bəzən müəllimlər dərsi canlı və

maraqlı aparmaq üçün çox vaxt idraki fəaliyyətin daxili proseslərinə diqqət yetirmirləri, bu da şagirdlərin dərsə olan marağının azalmasına və onların passivliyinə səbəb olur.

ƏDƏBİYYAT

1. Булатова О. В. Познавательный интерес в структуре общей способности к учению в младшем школьном возрасте. // Начальная школа плюс до и после. 2009. № 11. с. 83-85
2. Зайцева И.А. Формирование познавательного интереса к учению как способ развития креативных способностей личности. – Ноябрьск, 2005. – 124 с.
3. Кузнецова,А.А. Познавательный интерес. Условия его развития / Кузнецова,А.А., Чукавова С.В., Кузнецов В.Н. // Биология в шк. -1996. № 2.-С. 29-31.
4. Рубинштейн, С.Л. Основы общей психологии [Текст]: / С.Л. Рубинштейн.
- Спб.: Издательство «Питер», 2015. – 705 с.
5. Щукина Г.И. Активизация познавательной деятельности учащихся в учебном процессе. М.: Просвещение, 2009. - 34с.

РЕЗЮМЕ
ПОЗНАВАТЕЛЬНЫЕ ИНТЕРЕСЫ КАК ВЕДУЩИЙ ФАКТОР ОБРАЗОВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ

Алиева Л. М.

В статье показано, что познавательные интересы - это двусторонний процесс, который взаимосвязан как педагогический феномен, с одной стороны, это форма самоорганизации и самореализации школьников, с другой стороны, это результат особых усилий учителя по организации познавательной деятельности учащихся. Методы стимулирования и стороны познавательного интереса последовательно исследуются в психологическом направлении. По мнению автора, познавательные интересы как интегральное обучение личности влияет на различные аспекты обучения и воспитания.

Ключевые слова: познавательные интересы, восприятие, познавательная активность, формирование, самореализация

SUMMARY
COGNITIVE INTERESTS AS A LEADING FACTOR OF EDUCATIONAL ACTIVITY

Aliyeva L. M.

The article shows that cognitive interests are a two-way process that is interconnected as a pedagogical phenomenon, on the one hand, it is a form of self-organization and self-realization of schoolchildren, on the other hand, it is the result of the teacher's special efforts to organize the cognitive activity of students. The methods of stimulation and the side of cognitive interest are consistently investigated in the psychological direction. According to the author, cognitive interests as an integral training of a person affect various aspects of training and education.

Key words: cognitive interests, perception, cognitive activity, formation, self-realization

ВЛИЯНИЕ РАДИО И ТЕЛЕВИЗИОННЫХ ПЕРЕДАЧ НА ПОВЫШЕНИЕ ЭСТЕТИЧЕСКОЙ КУЛЬТУРЫ ШКОЛЬНИКОВ

Аскерзаде Г. А.
Азербайджанский технический университет
askerzade17@bk.ru

Резюме: Подчеркивается важность углубленного изучения нашей национальной истории, культуры, обычаев и традиций в современное время, воспитания патриотизма у старшеклассников, развития высокоморальной личности. Телевидение, которое считается чудом XX века, в качестве педагогического средства, ставшего очень мощным образовательным инструментом играет особую роль и влияние в реализации важных, неотложных задач педагогики. Телевидение, которое является очень сложным, но вместе с тем богатым и сложным средством обучения, играет важную роль в образовании старшеклассников, особенно в повышении их эстетической культуры.

Ключевые слова: телевидение, радио, эстетическая культура, воспитание, интеллект, информация, педагогика

Воспитание подрастающего поколения - одна из основных задач развитого демократического общества.

Телевидение и радио, как средство массовой информации занимает особое место в деле эстетического воспитания подрастающего поколения, так как они прививают культуру и точность [3, с. 407]. Они очень рано; еще до школы, начинают оказывать сильное воздействие на сознание ребенка, развивают его духовно, дают широкую информацию, формируют отношение к людям, вещам и окружающей среде. Проблема формирования ценностных ориентаций детей посредством телевидения и радио в настоящее время является актуальной, поскольку речь идет о воспитании человека будущего, человека развитого демократического общества.

Телевизионные и радио передачи оказывают большое влияние на нравственное, эстетическое воспитание. В плане формирования ценностных ориентаций школьников это влияние педагогикой постоянно изучается. Телевидение – это учитель, у которого можно многому научиться и взрослому человеку. Современное телевидение является сильнейшим орудием идеологического и нравственного воспитания человека.[1,с.12]. Воспитание посредством телевидения и радио зависит не только от педагогов, но и в значительной степени от семьи. Родители же не всегда задумываются о воспитательном воздействии этого средства массовой информации, а подчас и не умеют направить восприятие телевизионных и радио- передач в нужное русло. Отсюда они не всегда достигают нужного воспитательного эффекта.

Школа непосредственно не учит понимать произведения телевизионного и радио искусства, не формирует в достаточной степени способность верно судить об идейных, нравственных, эстетических достоинствах произведений. При этом часто не учитывается, что школьники плохие критики, их жизненный опыт не велик, ценностные установки не прочны, а художественный вкус еще не развит. Важнейшим специфическим моментом в эстетическом восприятии учащимися искусства является фактор не только непосредственного, но и опосредствованного – через педагога – восприятия, т.е. участие посредника, что характеризует “социальную специфику детства”. Особенно важна роль

посредника для адекватного восприятия художественной информации по ТВ и радио [2, с. 25].

Школьники пока еще мало получают даже самые элементарные знания о телеинформации, о художественной природе радио и телевидения, об их специфике, им никто не помогает в выборе программ. В результате, выбор школьником телевизионных программ происходит стихийно. Стихийность связей школьника с радио- и телевизионными программами сдерживает воспитательные возможности передач.

В художественных передачах, особенно в концертных лекциях, телекомпозициях о музыке и музыкантах, телевизионных передачах, подготовленных музеями изобразительных искусств и т. д., дается разнообразная информация об искусстве. Эта информация включает в себя биографии деятелей искусств - художников, скульпторов, композиторов, музыкантов, певцов, основные этапы их жизни и творчества, а также их современников, связь с эпохой. Усваивая эту информацию, школьники узнают больше и изъявляют готовность встретиться с тем или иным деятелем искусста. Художественная информация, получаемая из телепередач, повышает интерес к искусствоведению, расширяет кругозор школьников, побуждает их к творчеству, что в свою очередь, означает повышение их эстетической культуры. Благодаря телевидению, помимо доступности, каждое профессиональное художественное произведение, выполненное на высоком уровне, формирует эстетическое отношение, а главное – способности.

Путешествие школьников по миру с помощью голубого экрана, положительно сказывается на развитии их эстетического вкуса в целом. Художественные телепередачи в широком творческом и тематическом диапазоне не только вводят людей в мир прекрасного, но и закладывают внутренние основы эстетики, стимулируют творческую деятельность подрастающего поколения.

Известно, что телевидение сочетает в себе разные виды и жанры искусства - театр, литературу, музыку, кинематографию и изобразительное искусство. Телевидение со своими собственными специфическими средствами имеет ряд уникальных возможностей в создании художественного образа. В большинстве случаев эффективность эстетического восприятия достигается тогда, когда эмоциональное выражение образа гармонично разделено между словесным и визуальным образом.

Художественные телепередачи раскрывают перед школьниками красоты жизни, природы и общественной жизни. К ним относятся передачи из музеев и выставок, салонов классической музыки, телепередачи, посвященные героизму и храбрости в труде, спорте, науке, а также человеческим отношениям и красоте персонажей.

Искусство создает в ребенке ощущение духовного величия, что является одним из важнейших аспектов характера личности человека. Приближение к искусству, образное представление о красоте жизни формирует эстетическое удовольствие и наслаждение школьников.

Художественные телепередачи формируют не только понимание красоты окружающей среды, но и острое и творческое отношение к ней. Эта функция телевидения играет важную роль с точки зрения эстетического воздействия.

Такие жанры, как художественная информация - поэзия и музыка, театр и кино, танцы, живопись, скульптура, архитектура, прикладное искусство и примеры в этом жанре знакомят школьников с историей разных народов, опытом национальных культур. Освоение национальной культуры в таком общении увеличивает духовный потенциал личности.

Художественные телепередачи стимулируют интерес школьников к различным видам и жанрам искусства, усиливают понимание эстетического бытия мира, а также способность молодого человека к самостоятельному развитию.

Основная трудность в повышении интереса школьников к искусству связана с отсутствием системности в организации этого процесса и педагогического руководства по восприятию художественной информации, являющейся целенаправленной формой приобретения учащимися необходимых знаний об искусстве.

Воспитательные возможности телевидения становятся более эффективными, если их использовать целенаправленно в общей системе нравственного воспитания, организуемой школой во взаимосвязи с семьей. Именно школа должна научить умению адекватно усваивать зрительную и звуковую информацию. Опыт подсказывает, что в первую очередь необходимо устранить стихийность выбора радио- и телевизионных программ и приобщить старшеклассников к определенной культуре восприятия.

Вместе с тем необходимо добиваться единства и согласованности школы и семьи, исходя из того, что прослушивание и просмотр вещательных программ в основном происходит дома. Все это может способствовать формированию культуры связей между старшеклассниками и радио и телевидением, повышению воспитательного фактора в радио и телевизионных вещательных программах.

Формирование личности средствами радио и телевидения должно проходить в тесной связи со всей остальной учебно-воспитательной работой, органически включаться в процесс воспитания и повышения эстетической культуры школьников. Кроме того, именно школа призвана проводить педагогическую пропаганду информации в воспитательных целях. [4, с. 7] Ценностные ориентации применительно к радио- и телевизионному искусству и школьному возрасту есть установка личности на программы, содержащие в себе полезность, способствующие развитию личности школьника и направляющие её в конечном счете на конкретно-практические цели или идеалы, вытекающие из задач строительства демократического общества.

Ценность-это понятие, выражающее положительную или отрицательную значимость для предмета или явления. Осознание положительного или отрицательного в предмете или явлении это основной путь накопления ценностных представлений. Система ценностных представлений формируется в процессе обучения, воспитания, идеологического и других видов воздействия. На основе ценностных представлений создаются ценностные ориентации личности, накапливается собственный опыт, стимулируется непосредственное участие ее в практической жизни. Ценностные ориентации являются одним из важнейших компонентов социальной направленности личности, так как характеризуют отношение человека к различным ценностям материального, политического или духовного порядка. Прежде всего, мы имеем в виду формирование у школьников ориентаций на такие ценности идейно-политического, нравственно-эстетического плана, как преданность идеалам, патриотизм, гуманность, справедливость, ответственность, дисциплинированность, доброта, достоинство, честь, понимание красоты человеческих отношений, знание человеческой души. Поэтому в педагогике важно знать, какими путями формируются эти ценностные ориентации, чтобы воспитать человека целенаправленного, активного, сознательно относящегося к ценностям, которые дороги обществу. Таким образом, формирование ценностных ориентаций имеет важное социальное и педагогическое значение.

Однако многие вопросы воспитания, в том числе эстетического воспитания и повышении эстетической культуры средствами радио и телевидения и особенно применительно к подростковому возрасту не получили достаточного рассмотрения и нуждаются в специальном исследовании. Кроме того, на наш взгляд, недостаточно раскрыта взаимосвязь школы и родителей в воспитании подростков средствами радио и телевизионного искусства.

Изучая роль телевидения в эстетическом воспитании подростков, необходимо руководствоваться известными положениями педагогики о том, что человек воспитывается "не частями и по частям", что стержневые качества личности представляют собой органическое единство сознания, чувств, поведения, а схема ценностных ориентаций, взглядов и убеждений ребенка возникает под влиянием всей учебно-воспитательной работы школы, активной деятельности самих детей, под воздействием всей нравственной социальной среды на каждом шагу приобретаемого ими жизненного опыта.

Руководствуясь этими принципиальными положениями, постоянно приходиться считаться с тем фактом, что радиовещание и телевидение - это специфические воспитательные средства. Влияние их на формирование ценностных ориентаций, развитие сознания, убеждений, усвоение моральных норм и принципов, на поступки и поведение слушателя и зрителя не являются прямолинейным. Во-первых, радио и телевидение чаще всего говорят языком образов художественного произведения, избегая прямого дидактизма, морализирования. Во-вторых, вещательные программы, как правило, непосредственно не организуют поведение личности, ее практическую жизнедеятельность, труд и т. п. Они в большей степени формируют нравственные установки, понятия, представления, чувства и нормы у школьников, выступают в его поведении как средства косвенного внутреннего побуждения к тем или иным поступкам. Это отмечается и мнением многих граждан Азербайджанской Республики.

Исследовательские работы в этой сфере определяются в следующем порядке:

- Разработка специальной методики определения и восприятия влияния телепередач в повышении эстетической культуры старшеклассников.
- Необходимость разработки основных критериев оценки нравственного и эстетического воспитания и его результатов, проводимого через телевидение.
- Проведение быстрых и качественных изменений в характере влияния телевизионных передач на учащихся.
- Разработка специфической методики для использования СМИ, особенно телевидения, как неотъемлемой части учебно-воспитательного процесса для школ.
- Регулярное информирование общественности про задачи повышения эстетической культуры старшеклассников через телепередачи.
- Устранение изолированности телевидения в сфере повышения эстетической культуры и формирования ценностной ориентации в школах, особенно у старшеклассников.
- Устранение изолированности телевидения в сфере повышения эстетической культуры и формирования ценностной ориентации в школах, особенно у старшеклассников.
- Более оперативная и содержательная организация времени и тематики будущих передач в школах
- Усовершенствование методики воспитания у учащихся культуры телезрителя.

- Усовершенствование руководства деятельности со стороны педагогического коллектива в деле воспитания школьников как телезрителей.
- Систематическое использование на уроках радио и телевизионных передач.
- Целенаправленное и планомерное согласование радио и телевизионных передач с внеклассными мероприятиями.
- Создание единых центров влияния с целью приближения радио и телевизионных передач к деятельности школ, для прививания идейно-политических, морально-эстетических качеств у подрастающего поколения.
- Разработка программы по содержательному и систематическому использованию радио и телевизионных передач в воспитательной работе педагогических коллективов с учащимися.
- Уделять особое внимание художественно-литературным передачам, которые служат повышению эстетической культуры подрастающего поколения.

ЛИТЕРАТУРА

1. Абека-Ньюдо, Селестине "Роль телевидения в формировании личности молодого человека" Автореферат канд. фил. наук. М: 1980, 15с
2. Власкина Г.Я. " Эстетическое воспитание старшеклассников средствами телевидения и радио". Диссертация на соискание ученой степени кандидата педагогических наук. М: 1985, 205с.
3. Гафар Аскерзаде, Акиф Таваккюль оглы. История азербайджанской журналистики. Баку: «ABC poligraf» 2015, 455 с.
4. Усова.Г.А. Радиовещанеи и телевидение как факторы формирования ценностных ориентаций подростков. Диссертация на соискание ученой степени кандидата педагогических наук. М: 1981, 151с.
5. Leonard H. Clark/Irving S. Starr. Secondary and Middle School Teaching Methods (fifth edition) New- York: 1986, 125-142

XÜLASƏ
RADİO VƏ TELEVİZİYA VERİLİŞLƏRİNİN MƏKTƏBLİLƏRİN ESTETİK MƏDƏNİYYƏTİN İNKİŞAFINA TƏSİRİ

Əsgərzadə Q. Ə.

Müasir dövrdə milli tariximizin, mədəniyyətimizin, adət və ənənələrimizin dərindən öyrənilməsi və yuxarı sinif şagirdlərində vətənpərvərlik hissinin tərbiyə edilməsinin, yüksək mənəviyyatlı şəxsiyyət yetişdirilməsinin vacibliyi xüsusi olaraq nəzərə çatdırılır. Bu sahədə pedaqoji problem olaraq, mühüm, təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsində çox qüvvətli təlim-tərbiyə vasitəsinə çevrilən, XX əsrin möcüzəsi sayılan televiziyanın və xüsusilə də televiziya verilişlərinin özünəməxsus rolu, təsir imkanları vardır. Çox mürəkkəb, həm də zəngin və kompleks tərbiyə vasitəsi olan televiziyanın, o cümlədən yuxarı sinif şagirdlərinin tərbiyəsində, xüsusən, onların estetik mədəniyyətinin yüksəldilməsində rolu böyükdür.

Açar sözlər: televiziya, estetik mədəniyyət,təfəkkür, vətənpərvərlik,intellekt

SUMMARY

THE INFLUENCE OF RADIO AND TELEVISION IN INCREASING THE AESTHETIC CULTURE OF SCHOOLS

Askerzade. G.A.

According to the ideas considered in the system, radio and television programs have a strong influence on the aesthetic education of schoolchildren. Young people in the 21st century, unlike their predecessors, are formed through information received from color screens and radio broadcasts. In this light, the close relationship of teachers and radio and television workers will give positive results in the education of the modern younger generation. Television, which is very complex, but also a rich and complex means of education, plays the important role in the education of high school students, especially in raising their aesthetic culture.

Key words: television, radio, aesthetic culture, education, intelligence, information, pedagogy

MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ UŞAQLARIN PSİXİ İNKİŞAFINDA OYUNUN ROLU

Orucəliyeva Ş. Ş.

Azərbaycan Dövlət Pedaqoji Universiteti

Xülasə: Üç-altı yaş ərzində uşaq oyunları əşyavi-manipulyativ və simvolik xarakterdən süjetli-rollu qaydalı oyunlara qədər inkişaf yolu keçir. Bütün bunlar uşağın həyatında mühüm rol oynamaqla,onun tələbtını ödəməklə yanaşı,yaşlılarla ünsiyyət saxlamaq, həyatı başa düşmək, ətrafdakıları təqlid etmək, bu yolla bir növ gələcək həyata hazırlaşmaq işində mühüm vasitəyə çevrilir. Oyun fəaliyyəti uşağın psixi inkişafında əsaslı dəyişikliklərə gətirib çıxarır.

Açar sözlər: qavrayış, hafizə, təxəyyül, ünsiyyət, lider

Məktəbəqədər dövr uşağın fəaliyyətin subyekti kimi formalaşmasının ilkin mərhələsi kimi özünü göstərir. Oyun isə uşağın məktəbəqədər yaş dövründə əsas fəaliyyətidir. Oyun məktəbəqədər yaş dövründə uşağın vaxtını səmərəli keçirməsinə hərtərəfli inkişafına təsir göstərən ilkin şərtdir.

3-4 yaşlı məktəbəqədər uşaqlar təklikdə oynamağa daha çox üstünlük verirlər. Əşyavi və quraşdırıb düzəltmə oyunlarında uşaqların bir çox psixoloji və metodiki, hərəki qabiliyyətləri inkişaf edir. Buna misal olaraq təfəkkür, təxəyyül, hafizə və s. ola bilər.

Getdikcə yaş dövründən asılı olaraq uşaqlar birgə oyuna keçid etməyə başlayırlar.Artıq oyunlarda uşaqların iştirakının sayı çox olur. Məktəbəqədər yaşlı uşaqlarda artıq kollektiv oyuna keçid olur.

Məktəbəqədər yaş dövründə uşaqların nitqinin inkişafında,nitq qüsurlarının azaldılmasında didaktik oyunların xüsusi rolu var. 4-5 və 5-6 baxça yaşı dövründə rollu qaydalı oyunlar daha çox üstünlük təşkil etməyə başlayır. Oyun zamanı uşaqların bir sıra qabiliyyətləri,bacarıqları,maraqları özünü göstərməyə başlayır. Oyun eyni zamanda uşaqlarda bir sıra xüsusiyyətləri aşkara çıxarır. Baxça yaşı dövründə uşaqlar sadə əmək tapşırığı olan oyunları oynarkən onlara bu yolla sadə əmək bacarıqları aşılanır.

Eyni zamanda məktəbəqədər yaş dövründə uşaqlarda idrak prosesləri və nitqin inkişafında əsaslı dəyişiklik baş verir. 5-6 yaşlı məktəbəqədər yaşlı uşaqlarda cismin formasını, ölçüsünü,

tərkibini qavramağa başlayırlar. 5-6 yaşlı uşaqlar onları maraqlandıran obyektlərin xassələrini daha tez müəyyənləşdirmək, bir əşyanı başqasından fərqləndirmək, onların arasında mövcud olan əlaqə və münasibətləri aşkara çıxarmaq imkanı əldə edirlər. Qavrayışla bağlı olan qabiliyyətlərin əsasını perspektiv işlər təşkil edir. 5-6 baxça yaşı dövründə uşaqlarda qavrayışın,müşahidəçiliyin inkişafında oyun aparıcı fəaliyyət növü kimi xüsusi əhəmiyyət kəsb edir. Bu cür oyunlar içərisində didaktik oyunlar vacib yer tutur.

Böyük baxça yaşı dövründə uşaqlarda ətraf aləmin qavranılması genişlənir və aydınlaşır. Bu dövrdə qavrayış uşaqlara yaşlıların həyatına qoşulmağa,nüfuz etməyə imkan verir. Qavrayışla bağlı olan qabiliyyətlərin əsasını perseptiv işlər təşkil edir. Bu cür qabiliyyətlərin keyfiyyəti uşağın xüsusi perseptiv etalon sistemini mənimsəməsindən asılıdır. Bununla yanaşı böyüklərlə ünsiyyət qavrayışın məzmununu zənginləşdirir.

Getdikcə 5-6 yaş dövründə ixtiyari qavrayış inkişaf edir,müşahidə, izləmə və müşahidəçiliyin inkişafında oyun aparıcı fəaliyyət növü kimi xüsusi əhəmiyyət kəsb edir. 5-6 böyük baxça yaşı dövründə uşaqlarda qavrayışın inkişafında rəsm,yapma,quraşdırma da mühüm rol oynayır. Məktəbəqədər yaşlı uşaq nəyisə çəkmək, nəyinsə fiqurunu yapmaq üçün birinci növbədə onu diqqətlə müşahidə etməli, onun konturunu, rəngini müəyyənləşdirməli olur.

Məktəbəqədər dövrdə xüsusilə diqqətin təkmilləşməsi prosesi baş tutur. Bu zaman uşaqları zahirən rəngarəng maraqlı cəlbedici cisimlər cəlb edir.Başqa cür desək diqqət qeyri ixtiyari xarakter daşıyır. Böyük baxça yaşı dövründə diqqət öz inkişafının daha yüksək səviyyəsinə çatır.5-6 yaşlı uşaq gerçəkliyin əvvəllər onu cəlb etməyən cəhətlərini diqqət yetirməyə başlayır. Məktəbəqədər yaşlı uşağın ünsiyyət sahəsinin genişlənməsi, marağının zənginləşməsi ilk növbədə qeyri-ixtiyari diqqətin meydana gəlməsi üçün də şərait yaranır. Burada qeyri-ixtiyari diqqətdən ixtiyariyə keçid üçün uşağın diqqətini idarə etmək vasitələri mühüm rol oynayır. Qavrayışda olduğu kimi, baxça yaşlı uşaqlarda ixtiyari diqqətin inkişafında oyun mühüm rol oynayır. Oyun qaydalarına əməl etmək uşaqdan mərkəzləşdirilmiş diqqət tələb edir. Diqqətin ən yüksək davamlılığı oyun prosesində baş verir. 5-6 böyük məktəbədər yaşın sonuna doğru uşaqda tədricən öz diqqətini idarə etmək imkanı,onu az və çox dərəcədə müstəqil təşkil etmək bacarığı özünü göstərir.

Məktəbəqədər yaşlı uşaqlarda oyun zamanı hər hansı bir nağılı,hekayəni söylərkən buraya özlərinin əlavələrini də edir. Bu zaman artıq yaradıcı təxəyyüldə inkişaf etməyə başlayır. Yaradaıcı təxəyyülün inkişafı fəaliyyətlə sıx bağlı olur. Çünki uşağın maraqlandığı,onun üçün mühüm əhəmiyyət kəsb edən materiallar uzun illər onun hafizəsində hifz oluna bilər. Buda ona inkişafında ona təsir edən amillərdən ola bilər. Təsadüfi deyilki ən dəqiq və aydın təəsürat,xatirə həmin dövrə aid olur.

Məktəbəqədər baxça yaşı dövründə bərpaedici təxəyyül surətləri xeyli inkişaf etsədə hələ solğun olur, uşaq qarşıya qoyulmuş məqsədə uyğun,dəqiq surətlər yaratmaqda çətinlik çəkir. Bu da uşağın həyat təcrübəsinin azlığı,təəsüratlarının zəifliyi,müvafiq biliklərin məhdudluğu ilə bağlıdır.

Oyun zamanı bu dövrdə uşağın nitq inkişafında irəliləyiş baş verir. Baxça yaşı dövründə hər şeydən əvvəl uşağın söz ehtiyatı artır 3000-4000-ə çatır. Uşaqlarda nitqin fonetik və qrammatik cəhətdən inkişafı nitq etiketlərinin ilkin növləri özünü biruzə verir. Məktəbəqədər yaş dövründə dialoji nitqin inkişafı və təkmilləşməsi ilə yanaşı,monoloji nitq də inkişaf etməyə başlayır. Baxça yaşı dövründə uşaqların təfəkkürü əsasən əyani-əməli xarakter daşıyır, icra etdikləri işlərlə,dərk etdikləri konkret cisim və hadisələrlə bağlı olur. Uşaqlar ilk ümumiləşdirmələri əsasən zahiri oxşar əlamətlərə görə aparırlar. Nitqin inkişafı ilə əlaqədar ümumiləşdirmələri mühüm əlamətlər əsasında aparmaq meyli yüksəlir.

Məktəbəqədər yaş dövrünün orta və böyük yaşı dövründə uşaqlar rollu-qaydalı oyunlardan daha çox istifadə edirlər. Bu dövrdə həmin oyunlar özlərinin mövzularına, qaydalarının müxtəlifliyinə görə kiçik baxça yaşı dövründə istifadə olunan oyunlardan fərqlənirlər. Burada kiçik baxça yaşı dqaövründən fərqli olaraq oyunda təbii şəkildə istifadə olunan əşyalar şərti olaraq dəyişdirilir,nəticədə simvolik oyun xarakteri alır.

Rollu-qaydalı oyunlardan istifadə edilməsi uşaqlarad iradənin inkişafına güclü təsir göstərir. Adi şəraitdə bir yerdə dura bilməyən uşaq bu cür oyunlarda öz rolunu axıra qədər yerinə yetirməyə, qaydaya əməl etməyə məcbur olur. Oyun prosesində uşaqlar qarşılıqlı münasibətlərin həyata keçirilməsinə əməl etməyə məcbur olur. Rollu oyun prosesində ilk dəfə olaraq uşaqda liderlik özünü göstərir,təşkilatçılıq bacarıq və vərdişlər inkişaf etməyə başlayır. Oyun eyni vaxtda uşaqlarad bir sıra qabiliyyətlərin aşkara çıxmasına imkan verir. Bütün bunlarla yanaşı olaraq uşaqlar sadə əmək tapşırıqlarını icra edərkən də çox vaxt onlara oyun xarakteri verir və bu yolla bəzi sadə əmək bacarıqlarına da yiyələnirlər. Məktəbəqədər yaş dövründə uşaqların qavrayışının ixtiyari növünün inkişafı üçün şərait yaranır.

Bütün bunlarla yanaşı olaraq uşaqlar sadə əmək tapşırıqlarını icra edərkən də çox vaxt onlara oyun xarakteri verir və bu yolla bəzi sadə əmək bacarıqlarını mənimsəyir tətbiq edir. Oyun qaydalarına əməl etmək uşaqdan diqqət,qavrayış,rəqabət tələb edir. Qavrayışda olduğu kimi 5-6 yaşlı uşaqlarda ixtiyari diqqətin inkişafında da oyun mühüm əhəmiyyət kəsb edir. Bu yaş dövründə diqqətin ən yüksək davamlılığı oyun prosesində baş verir. Başqa fəaliiyət növləri də uşağın diqqəti olmadan səmərəli şəkildə həyata keçə bilməz.İxtiyari diqqətin meydana gəlməsində nitq də mühüm rol oynamağa başlayır.

Tədqiqatlar göstərmişdirki uşaqlarda ixtiyari diqqətin inkişafına öz-özünə hündürdən fikirləşmək xeyli kömək edir. Təcrübə göstərmişdir ki əgər 4-5 yaşlı uşaqlardan daima nə edəcəyini hündürdən deməyi tələb etdikdə onlar ixtiyari olaraq və daha uzun müddət öz diqqətlərini hr hansı bir obyektin və ya onun detallarının üzərində saxlaya bilərlər.

Məktəbəqədər yaşın sonuna doğru uşaqda tədricən öz diqqətini idarə etmək imknı onu az və çox dərəcədə müstəqil təşkil etmək imkan bacarığı özünün göstərir.

Tədricən 5-6 yaş dövründə ixtiyari qavrayış inkişaf edir, müşahidə izləmə qabiliyyətləri özünü biruzə verir.Böyüklər,tərbiyəçilər uşaqların qarşısına məqsəd qoyur onları ətraf aləmdəki daha mühüm cəhətləri qavramağa yönəldir, onlara müşahidə etməyi qiymətləndirməyi aşılayır.5-6 yaşlı uşaqlar rəsm kəsmə yapışdırma elementləri edərək zəhmətə alışdırılırlar. Uşaq nəyisə çəkmək,nəyinsə fiqurunu yapmaq üçün birinci növbədə onu diqqətlə müşahidə etməli,onun konturunu, rəngini müəyyənləşdirməli olur. Bütün bunlar uşağı müşahidə etməyə təhrik edir, ixtiyari qavrayışın inkişafına təkan verir.

ƏDƏBİYYAT

1.Həmzəyev M.Ə Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı-2003 Adiloğlu-nəşriyyatı
2.Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2002
3.Əlizadə Ə.Ə Xəmsədə yaş və pedaqoji psixologiya məsələləri. Bakı, 2002.

РЕЗЮМЕ
РОЛЬ ИГР В УМСТВЕННОМ РАЗВИТИИ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА
Оруджалиева Ш. Ш.

В возрасте трёх-шести лет детские игры развиваются от объектно-манипулятивных и символических до сюжетно-ролевых. Всё это, помимо того, что играет важную роль в жизни ребёнка, удовлетворяет его потребности, становится важным инструментом в общении со взрослыми, понимании жизни, подражании другим и, таким образом, становится главным средством подготовки к будущей жизни. Игровая деятельность приводит к фундаментальным изменениям в умственном развитии ребенка.
Ключевые слова: восприятие, память, воображение, мышление, разговор

SUMMARY
THE ROLE OF GAMES IN THE MENTAL DEVELOPMENT OF PRESCHOOLERS
Orujaliyeva Sh. Sh.

At the age of three to six, childish sports pass through the way of development from object-manipulative and symbolic to plot-role-based games. All these, in addition to playing an important role in the life of a child, meeting their needs, become an important tool in communicating with adults, understanding life, imitating others, and thus preparing for a kind of future life. Game activities lead to fundamental changes in a child's mental development.
Key words*:* perception, memory, imagination, thinking, conversation

AZƏRBAYCANDA ALİ PEDAQOJİ TƏHSİLİN İNKİŞAF İSTİQAMƏTLƏRİ (1920-1991-ci illər)

Azadəliyeva Ş. M.
Azərbaycan Dövlət Pedaqoji Universiteti
shiruye.azadeliyeva@gmail.com

Xülasə: 1920-1991-ci illərdə Azərbaycanda ali pedaqoji təhsil sürətlə inkişaf etmişdir. Milli pedaqoji kadrların yetişdirilməsi üçün təşkil olunan ali pedaqoji təhsil müəssisəsində kadrların seçilib yerləşdirilməsində sovet ideoloji prinsipləri əsas götürülürdü. Ali pedaqoji təhsil sahəsində tətbiq olunan tədris planları SSRİ-nin pedaqoji profilli müəssisələrində tərtib olunaraq Azərbaycana göndərilirdi. Bütün bunlara baxmayaraq Azərbaycanda ali pedaqoji kadr hazırlığının geniş şəbəkəsi mövcud idi.1921-ci ildə təşkil edilən Azərbaycan Dövlət Pedaqoji İnstitutunun ayrı-ayrı fakültələri əsasında yeni pedaqoji ali məktəblər yaradılmışdı.
Açar sözlər: ali təhsil, məktəb, tələbə, yeni təhsil sistemi, müəllim

1920-ci ildə Azərbaycanda yeni dövlət tipinin yaradılması nəticəsində millətin istək və arzularının – milli dilin, milli məktəbin, milli mədəniyyətin təşəkkülü və inkişafı üçün siyasi və iqtisadi bazanın təməli qoyuldu. Sovet hakimiyyəti illərində Azərbaycanda ümumtəhsil məktəbi, orta ixtisas məktəbi və ali məktəb şəbəkəsi yaradıldı. Pedaqoji texnikumlar müha-ribədən əvvəl və sonra xalq maarif sistemi üçün ixtisaslı müəllim kadrları hazırlayan əsas müəssisələr oldu. İlk ali pedaqoji təhsil müəssisəsinin əsası qoyuldu və ilk dəfə olaraq müxtəlif ixtisaslar üzrə ali təhsilli

pedaqoji kadrlar hazırlanmasına başlanıldı. Azərbaycanlı qadın ilk dəfə olaraq ali təhsil almaq, ali və ümumtəhsil məktəblərində müəllimlik etmək imkanına malik oldu, o fəal ictimai fəaliyyətə cəlb olundu.

Azərbaycanda yeni sovet təhsil sisteminin formalaşması prosesi başlanarkən birləşdirilmə və ayrılma prosesləri adi hal almasına baxmayaraq, hökumət ümumtəhsil məktəblərini müəllim kadrları ilə təmin etmək üçün konkret addımlar atırılır, ali pedaqoji məktəbin tələbə kontingentini türkləşdirmək istiqamətində ciddi tədbirlər həyata keçirilməsinə baxmayaraq, Sovet hakimiyyətinə sadiq olan müəllim kadrlarını formalaşdırmaq, köhnə kadrları öz tərəfinə çəkmək və onların xidmətlərindən faydalanmaq vəzifələri müəyyənləşdirilirdi. Mədəni quruculuğunu uğurla həyata keçirməklə yanaşı Sovet hakimiyyətinə sədaqətli müəllimlər ordusu formalaşdırmaq vəzifəsini dönmədən yerinə yetirən partiya və hökumət yeni təhsil sisteminin yaranmasına və tədricən inkişafına böyük əhəmiyyət verirdi. Bu sistemin bütün həlqələri üçün qarşılıqlı əlaqə, qarşılıqlı təsir və qarşılıqlı şərtlənmə xarakterik idi [1, s.3]. Belə bir yeni təhsil sisteminin SSRİ-də, o cümlədən Azərbaycanda formalaşması sosializmin ən böyük nailiyyətlərindən biri idi. Xalq maarifi, o cümlədən ali pedaqoji təhsil sahəsində qazanılan ilkin nailiyyətlər təhsil sisteminin sonrakı inkiaşfı üçün möhkəm baza rolunu oynadı.

Azərbaycanda ali pedaqoji təhsilin perspektiv inkiaşfının və təkmilləşməsinin istiqamətləri partiya və hökumətin xalq təsərrüfatının bərpası haqqında qəbul etdiyi tarixi qərarların ayrılmaz hissəsi idi. Ümumtəhsil məktəbinin şəbəkəsinin inkişafı, icbari ibtidai, yeddiillik, səkkizillik təhsilin həyata keçirilməsi və ona müvafiq olaraq ali pedaqoji kadr hazırlığının kəmiyyət və keyfiyyət göstəricilərinin intensivləşdirilməsi təhsil sisteminin daim hərəkətdə, inkişafda və təkmilləşməkdə olan vahid orqanizm olduğunu göstərdi. 20-30-cu illərin təcrübəsi göstərdi ki, ali təhsili və orta ixtisas Xalq Maarif Komissarlıqlarının nəzarətindən çıxarıb xüsusi təsərrüfat orqanlarının sərəncamına vermək daha faydalı olardı. Amma bu sahədə ittifaq hökumətinin atdığı addımlar öz müsbət nəticəsini vermədi və ali və orta ixtisas təhsili müəssisələri vahid mərkəzdən idarə olunmağa başlandı.

Azərbaycanda ali pedaqoji təhsildə baş verən diversifikasiya və birləşmə pro¬seslərinin 20-60-cı illərdə daha da genişləndi. Bu həm ölkənin sosial-iqtisadi və mədəni həyatının vəziyyəti, həm də ali təhsil quruculuğunda respubilkanın hakimiyyət orqanlarının təcrübəsizliyi ilə əlaqədar idi. 60-cı illərdən sonra diversifikasiya prosesi qəti, düşünülmüş şəkil aldı və bunun nəticəsində ali pedaqoji ixtisaslar üzrə kadrların hazırlanmasına başlanıldı. Bu hadisə ali pedaqoji təmayüllü tədris müəssisələrinin sayının artmasına və coğrafiyasının genişlənməsinə, respublikanın ümumi mədəni mənzərəsinin dəyişməsinə öz təsirini göstərməyə başladı.

Ali pedaqoji məktəblərin təkmilləşdirilməsi prosesi də davam etdirilirdi. Bu məqsədlə 1930-1931-ci illərdə universitetlərin pedaqoji fakültələrinə vaxtı ilə birləşdirilən təhsil müəssisəsi müstəqil ali pedaqoji institutlara çevrilirdi. Pedaqoji təhsil yeni ixtisaslar hesabına zənginləşir, ali təhsilli müəllimlər hazırlamaq işi müntəzəm genişlənir, ümumtəhsil məktəbinin belə mütəxəssislərlə olan təminatı yaxşılaşırdı. Müharibə dövrünün çətinliklərinə baxmayaraq ali pedaqoji məktəblər kadr hazırlığı sahəsində öz işlərini davam etdirirdilər.

Faşist Almaniyasının qəflətən hücumu sovet adamlarının dinc əməyini pozdu, Avropa və bütün dünya sivilizasiyasında ilk sosialist dövlətinin varlığını təhlükə altına aldı. Vətənin müdafiəsində minlərlə professor və müəllimlər, aspirantlar və tələbələr iştirak etdilər. Hərbi şərait ali məktəbin iş xarakterində ciddi dəyişikliklərin aparılmasını, tədirs planları və proqramlara yenidən baxmağı, yeni fənlərin, kadrların hazırlanmasında yeni ixtisasların və profillərin daxil edilməsini tələb edirdi. Ali məktəb müharibə sınaqlarından şərəflə çıxdı. Öz ənənələrinə sadiq qalan ali

pedaqoji məktəblərin müharibədən sonrakı illərdəki işi əyani, qiyabı və axşam təhsilini inkişafı və təkmilləşdirilməsi ilə xarakterizə olunur.

Müharibədən sonrakı illərdə çətinilkləri aradan qaldıraraq, iş metodlarını təkmilləşdirərək Azərbaycan ümumtəhsil məktəbi və ali pedaqoji təhsili böyük nailiyyətlər əldə etdi. Ölkədə ümumi orta təhsili həyata keçirmək vəzifəsi qarşıya qoyuldu. Bu vəzifənin yerinə yetirilməsində ali pedaqoji təhsil müəssisələri mühüm rol oynadı. Müəllim kadrları hazırlamaqla yanaşı müəllimləri yenidən hazırlamaq istiqamətində böyük işlər görülməyə başlandı. Bununla yanaşı təhsilin məzmununu və təlim prosesini elm və texnikanın, mədəniyyətin müasir inkişaf səviyyəsinə qaldırmaq tələb olunurdu. Ali pedaqoji təhsilin praktikasına yeni tədris planlarının və proqramlarının tətbiq olunması ali məktəb kollektivlərinin daha yaradıcı işləməsinə kömək etdi. Ali pedaqoji təhsilin təkmilləşdirilməsini ümumtəhsil məktəblərinin yeni növünə müvafiq hala salmaq, müəllimlərin ictimai-siyasi və peşə hazırlığını yüksəltmək, pedaqoji işçilərə olan tələbatla ali pedaqoji məktəblərin buraxılışı arasında olan fərqləri aradan qaldırmaq istiqamətində aparılırdı.

Ümumtəhsil məktəbinin inkişafı və ümumi orta təhsilin həyata keçirilməsi ali pedaqoji məktəbin inkişafını daha da sürətləndirdi. Bəzi pedaqoji ixtisasların beş illik təhsil müddətinə keçirilməsi müəllimlərin hazırlıq səviyyəsini yüksəltməyə və peşə profilini genişləndirməyə kömək etdi. V-VII siniflər üçün kadr hazırlamaq məqsədilə 30-cu illərdə yaradılmış ikiilik müəllimlər institutları ləğv edildi. [3, s 78]. Bunun nəticəsində respublikanın bəzi şəhərləri professional tədris müəssisələrindən məhrum oldu.

Qiyabi və axşam təhsil formaları ilə ali təhsilli müəlilmlər hazırlamaq işi geniş vüsət aldı. Bu böyük və vacib işin nəticəsində respublikada ali təhsilli pedaqoji kadrlar hazırlamaq sahəsində göstəricilər artmağa başladı. Nəhayət, ali pedaqoji məktəblərin diversifikasiyası baş verdi və bunun nəticəsində müxtəlif profili pedaqoji institutlar (xarici dillər, bədən tərbiyəsi) yaradıldı, ölkənin mədəni xəritəsində yeni mərkəzlər meydana gəldi.

Ali məktəbin tələbələrinin sosial tərkibinin yaxşılaşdırılmasına xüsusi diqqət verilməyə başlandı. Ali məktəb tələbə heyətinin formalaşması, ixtisaslı kadrların hazırlanması sahəsində işin genişlənməsi ali tədris müəssisələrinin professor-müəlim heyətinin hazırlanmasının yeni, daha effektli formaları üzrə çıxardı. Bu məqsədlə aspiranturanın işini yaxşılaşdırmaq və onu elmi-pedaqoji kadrların hazırlanmasının əsas formasına çevirmək üçün tədbirlər görüldü. Aspiranturanın genişlənməsi sayəsində ali məktəblərdə və elmi-tədqiqat müəssisələrində aspirantların sayı artmtağa başladı. Ali pedaqoji təhsilin məzmununda baş verən dəyişikliklər müəllim kadrlarının hazırlanmasının ideya-siyasi, elmi və professional səviyyəsini yüksəltməyə kömək etdi. Tədris prosesi intensivləşdirildi, yeni metodlar və texniki təlim vasitələri geniş yayılmağa başladı. Müəllim hazırlığınn profili də genişləndi, «Tarix və ictimaiyyat», əlavə «Sovet dövləti və hüququnun əsasları», «Ümumtexniki fənlər və əmək» ixtisasları meydana gəldi, ali təhsilli ibtidai sinif müəllimlərinin hazırlanması xeyli genişləndirildi.

Ali pedaqoji məktəbin fəaliyyətin ən mühüm hadisə partiya və hö¬ku¬mətin ümumtəhsil məktəbinin şagirdlərinin təlimi və tərbiyəsini təkmilləşdirmək haqqında qərarları önəmli rol oynadı. Həmin qərarlar müəllimlərin, birinci növbədə yeni pedaqoji işçilərin pedaqoji ustalığını əsaslı şəkildə yüksəltməyi nəzərdə tuturdu. Məktəb müəllimləri gənc nəslə geniş təhsil və tərbiyəvi təsir göstərməli, öz fənninin məzmunu və təliminin təşkilini şagidrlərdə yüksək idealları aşılamaq üçün bacarıqla istifadə etməli idilər. Bu səbəbdən, ali pedaqoji məktəbin perspektiv inkişafı müəllimlərin elmi və pedaqoji hazırlığının keyfiyyətini yüksəltməklə bağlı tələblər müəyyənləşdirildi. Hətta yuxarı siniflərdə dərs deyən müəllimlərin elmi hazırlığını universitet təhsili səviyyəsinə qaldırmağın zəruriliyi ortaya atıldı.

Sosializm quruculuğu şəraitində mütəxəssislərin təhsil və tərbiyəsi ali mək-təbdə kadr hazırlığının forma və metodlarını yeniləşdirməyi, ali məktəb pedaqogikasının prinsiplərini işləyib hazırlamağı və tətbiq etməyi tələb edirdi. Azərbaycanda ali təhsilin təşəkkülünün və inkişafının bu tarixi mərhələsində tədris müəssisələrini həm keyfiyyət, həm də kəmiyyət baxımından ali məktəbin tələbatlarını ödəməyə qadir olan professor-müəllim kadrları ilə təmin etmək lazım idi. Partiya və hökumətin fəaliyyəti nəticəsində ziyalıların qabaqcıl hissəsi sovet hakimyiyətinə xidmət etməyə başladı. Onlar Azərbaycana işləməyə gələn rus alimləri ilə birlikdə yeni ali təhsil sisteminin yaradılmasında fəal iştirak etdilər. Azərbaycan ali pedaqoji məktəbinin kadr potensialı getdikcə güclənməyə başladı. 60-80-ci illərdə bu potsnsial daha da gücləndi.

Ölkədə həyata keçirilən mədəni inqilabın ən böyük nailiyyətlərindən olan milli məktəb quruculuğu nəticəsində keçmiş imperiyanın ucqarlarında ali məktəb şəbəkəsi yaradıldı. Orta ixtisas və ali təhsilli mütəxəssislər hazırlayan yeni mərkəzlər meydana gəldi. Pedaqoji təhsil praktiki olaraq yenidən quruldu. Milli kadrların təhsil və tərbiyəsi üçün şəraitin yaradılması xalqımızın mədəni və iqtisadi inkişafı üçün güclü mənbə oldu.

Ali təhsilin inkişafının ən vacib yekunlarından Azərbaycanda öz xalqının formaca milli və məzmunca sosialist mədəniyyətinin inkişafında fəal iştirak edən, özünün zəngin pedaqoji təcrübəsini və ənənələrini toplayan milli ali məktəblərin yaradılması oldu. Ali pedaqoji məktəb müəllim hazırlığının keyfiyyətinə və elmi-tədqiqatların miqyasına və effektliyinə görə əvvəlki illəri ötüb keçdi. Böyük tarixi yol keçən ali pedaqoji təhsil 70-80-ci illərdə qabaqcıl tarixi zirvələrə qalxdı və ümumtəhsil məktəbinin sürətli inkişafı tempi üçün güclü vasitəyə çevrildi. Ali pedaqoji məktəblərin fəaliyyətinin ağırlıq mərkəzi xalq maarifinin kəmiyyət tələbatlarını ödəməkdən kadrların elmi-praktiki pedaqoji-metodiki hazırlığını yüksəltmək istiqamətində dəyişməyə başladı.

1920-1991-ci illərdə ali pedaqoji təhsilin təşkilində sovet imperiyasının ideoloji strukturu əsas yeri tuturdu. Milli pedaqoji kadrların yetişdirilməsi üçün təşkil olunan ali pedaqoji təhsil müəssisəsində kadrların seçilib yerləşdirilməsi və tərbiyəsində sovet ideoloji prinsipləri əsas götürülürdü. Ali pedaqoji təhsil sahəsində tətbiq olunan tədris planları və proqramları SSRİ-nin pedaqoji profilli müəssisələrində tərtib olunaraq yerlərə göndərilirdi. Yerli şəraitə, maddi-texniki bazaya və milli xüsusiyyətlərə əsas verməyib, bu cür tədris planları və proqramları vaxtaşırı olunan dəyişikliyə məruz qalır, nəticədə fənlərin tədrisində, o cümlədən kadr hazırlığında dəyişikliklərə səbəb olurdu.

Cəmiyyətin ahəngdar inkişafında, onun intellektual potensialının formalaşdırılmasında, maddi sərvətlərin insan kapitalına ali təhsil mühüm əhəmiyyət kəsb etdiyindən son illərdə ali pedaqoji təhsilin məzmunu milli dövlətçilik prinsipləri və azərbaycançılıq ideologiyasına uyğun yeniləşdirilmiş, bu təhsil pilləsində əsaslı islahatlar aparılmış, ölkənin ehtiyaclarına uyğun rəqabətə davamlı kadr hazırlığı və insan kapitalının formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır.

ƏDƏBİYYAT

1. Azadəliyeva Ş Azərbaycanda ali pedaqoji təhsilin difersifikasiyası və inkişaf tendensiyası. Pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2018,46 s.
2. Məmmədov Y. Azərbaycan Dövlət Pedaqoji Universiteti-90. Bakı: "Təhsil", 2012, 432 s.
3. Mərdanov M.C. Azərbaycan təhsil tarixi. II cild. Bakı: Təhsil, 2011, 704 s.
4. Rzayev A.Q. Azərbaycanda sovet hakimiyyəti illərində ali pedaqoji təhsilin inkişafı tarixindən. Bakı: Azərnəşr, 1960, 72 s.

РЕЗЮМЕ

НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ВЫСШЕГО ПЕДАГОГИЧЕСКОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ (1920–1991)

Азадалиева Ш.М.

В 1920-1991 годах в Азербайджане быстро развивалось высшее педагогическое образование. Советские мировоззренческие принципы были взяты за основу при подборе и расстановке кадров в высшее педагогическое учебное заведение, организованное для подготовки национальных педагогических кадров. Учебные планы, применяемые в сфере высшего педагогического образования, были разработаны в педагогических учреждениях СССР и отправлены в Азербайджан. Несмотря на все это, в Азербайджане существовала широкая сеть подготовки высших педагогических кадров. Новые педагогические университеты были созданы на базе отдельных факультетов Азербайджанского государственного педагогического института, созданного в 1921 году.

Ключевые слова: высшее образование, школа, студент, новая система образования, учитель

SUMMARY

DIRECTIONS OF THE DEVELOPMENT OF HIGHER PEDAGOGICAL EDUCATION IN AZERBAIJAN(1920–1991)

Azadaliyeva Sh.M.

In 1920-1991, the highest pedagogical education was rapidly developed in Azerbaijan. Soviet world-view principles were taken on a case-by-case basis during the selection and placement of personnel in the highest pedagogical educational institution, organized for the training of national pedagogical personnel. Curricula applied in the field of higher pedagogical education were developed in pedagogical institutions of the USSR and sent to Azerbaijan. Not with standing all this, in Azerbaijan there was a wide network of training of the highest pedagogical staff. New pedagogical universities were created on the basis of separate faculties of the Azerbaijan State Pedagogical Institute, created in 1921.

Key words: higher education, school, student, new system of education, teacher

PƏLTƏKLİK, ONUN MAHİYYƏTİ VƏ ARADAN QALDIRILMASI YOLLARI

Bayramova Y. A.

Bakı şəhəri, Nəsimi rayonu

35 saylı orta məktəbin ibtidai sinif müəllimi

Xülasə: Məqalədə uşaqlar arasında tez-tez rast gəlinən pəltəkliyin mahiyəti qeyd edilir. Onun nitq nöqsanı kimi nitqin fəliyyətinə mənfi təsir göstərməsi açıqlanır. Daha sonra pəltəklil və kəkələmənin müasir dövrdə aradan qaldırılması yolları açıqlanır və geniş şərh olunur. Bunun üçün daha çox folklor materialları əzbərlənməsi təlqin edilir.

Açar sözləri: *dil, diş damaq, pedaqoq, üzəngi*

Uşaqlar arasında, xüsusilə məktəb dövründə bir sıra nitq qüsurlu şagirdlərə rast gəlinir. Bunlardan biri pəltəklikdir. Pəltəklik elə nitq nöqsanıdır ki, bu zaman nitqin səlisliyi və ritmi pozulmamış qalırsa da, aşağıdakı nöqsanlar müşahidə edilir:

a) bəzi sözlərin tamamilə deyilməməsi; məsələn: *daraq-daaq, lampa-lapa, Rəhim-əhim* deyilməsi kimi və s.

b) ayrı-ayrı səslərin pozğun, dəyişilmiş şəkildə deyilməsi; məsələn: *s* səsini, çubuq çəkənlər dillərini üst damaqlarına sıxaraq dilinin ucu ilə üst dişlərin arasından uzaq məsafəyə tüpürdükləri zaman çıxan səsi ifadə edən bir səs kimi tələffüz etmək və s.

c) bir səsi və ya hecanı digərilə əvəz etmək; məsələn: *qaşıq* əvəzinə *daşıq* deyilməsi;

d) tək-təklikdə və ya başqa kəlmələrdə düzgün deyilməyinə baxmayaraq səsləri və ya hecaları buraxmaq və ya tam deməmək;

e) səslərin və ya hecaların yerlərini dəyişdirmək; məsələn: *dolma* əvəzinə *domla, dəvə* əvəzinə *vədə* deyilməsi və s.

f) nitq prosesində tənəffüsü nizama sala bilməmək nəticəsində, danışanda nəfəs tıxanma əmələ gəlməsi.

Çox zaman bu nöqsanların bir neçəsi olduqda uşağın nitqini nəinki yalnız kənar şəxslər, hətta ata-anaları belə başa düşmürlər. Məktəblilər ilk məktəb dövrlərində əsas etibarilə dövrü səhvləri dedikləri kimi yazıda da hərfi səhvləri buraxırlar. Nitq nöqsanları nəticəsində buraxılan səhvlər, ümumiyyətlə imla səhvlərinin 20-30 faizini təşkil edir.

Qeyd etmək lazımdır ki, nitq nöqsanları estetika nöqteyi-nəzərincə də insana olduqca pis təsir buraxır. Bunlardan başqa, nitq nöqsanları çox zaman yamsılama yolu ilə başqa uşaqlara da sirayət edə bilər. Pəltəkliyin əmələ gəlməsinə səbəb olan amilləri söylədiyimiz zaman beyin və nitqin ətraf cihazı ilə əlaqədar olan pozğunluqları bu bəhsə saxladığımızı xüsusi qeyd etmişik. Bu məqsədlə birinci dəfə pəltəkliyə səbəb ola biləcək beyinlə əlaqədar pozğunluqları nəzərdən keçirmək lazımdır. Buraya əsas etibarilə beynin qabağında və beynin maddəsində gedən iltihablar və patoloji proseslər nəticəsində əmələ gələn xəstə halın qalıqları aiddir. Bundan başqa ana və atadan övlada keçən xəstəliklər doğum zamanı qafa tasının sıxılması və sair hallar buraya daxil edilə bilər. Məsələn, yumşaq damaqda, dildə, dodaqlarda yarımifliclərin qalması kimi nitqin ətraf cihazlarında olan anatomik nöqsanlardan pəltəkliyə səbəb ola biləcək bir çox momentlerin üzərində dayanmaq olar.

Pəltəkliyə damaq və dişlərin düzgün formada olmamaları da səbəb ola bilər. Bunlardan birincisi, sərt damağın müxtəlif şəkillərdə (normal, uca-enli, uca-dar, qotik, kumbetə bənzər və s.) olmasıdır. İkincisi, isə üst çənə ilə alt çənənin bir-birinə münasibətidir. Belə ki, üst çənə alt çənədən irəli olduqda, yaxud yumulu olan ağızda qabaq və yan dişlərdə qalan açıqlıq da pəltək danışmağa səbəb ola bilər.

Bunlardan başqa, yumşaq damağın burnun yolunu qapaya bilməməsi, dişlərin müntəzəm düzülməməsi, dodaqların anadangəlmə açıq olması və sairilərini göstərmək olar. Bu göstərilən anatomik nöqsanların hər biri bir və ya bir neçə səsin biomexanikasını almağa mane olduğu üçün səslərin də nöqsanlı deyilməsinə səbəb olur. Belə nöqsanlardan birinin üzərində xüsusi dayanmaq lazımdır. Bu nöqsan dilin altında olan pərdənin (üzənginin) gödək olması ilə birlikdə dilin tam ucuna qədər uzanmasından ibarətdir. Bu zaman dil dişlərin arasından önə doğru hərəkət edə bilmədiyi kimi, yuxarı da qalxmır. Odur ki, dil ucu ilə söylənən səslər ***r, l, t, d*** tamamilə tələffüz edilmir, yaxud da başqa səslərlə əvəz edilirlər. Göstərilən anatomik nöqsanların bəzilərinin cərrahi müdaxiləyə ehtiyacı vardır. Məsələn, dodaqda yarıq varsa, onu tikmək olur. Cərrahi əməliyyatdan əvvəl və sonra loqopedik sərəncamlar aparılmazsa, sağlam nitq əldə edilməz.

Uşağın psixoloji xüsusiyyətlərinin də olduqca böyük əhəmiyyəti vardır. Burada qeyd ediləcək cəhətlərdən uşaqların eşitmə diqqətinin zəifliyi, pis yaddaş və ağlı geri qalmanın nitq nöqsanları yaranmasına buraxdığı təsirləridir; çünki belə hallarda nitqi təhlil etmək, kəlməni səslərə ayırmaq və düzgün tələffüzü başa düşmək onlar üçün olduqca çətin olur.

Burada valideynlərin xəstə hallarının da (əsəb, sifilis xəstəliyi və s.) uşağın nitqinin nöqsanlı olmasına təsiri vardır. Belə xəstəlikləri keçirən valideynlərin uşaqlarının əzələləri, sümükləri, əsəb sistemləri, o cümlədən beyinləri ya zəhərlənir və ya da lazımı qədər qida almır. Bu da yuxarıda göstərilən anatomik, psixo-fizioloji nöqsanların və eybəcərliyin əmələ gəlməsinə səbəb olur. Bir də qeyd etmək lazımdır ki, nitq inkişafında uşaqların ən axırda deməyə başladıqları ***r, l, ç, j, ş, s, z, k*** kimi mürəkkəb səsləri ilk dövrlərdə nöqsanlı tələffüz edilir və gec tərbiyələnirlər; çünki bu səslər öz tələffüzləri etibarilə beynin daha incə işini tələb edirlər.

Unutmamalıyıq ki, yuxarıda göstərilən nitq cihazının quruluş pozğunluqları, nitq pozğunluqlarının islah edilməsinə heç bir maneçilik törədə bilməz. Belə hallarda sağlam nitq almaq üçün əsas rol müəllimlərindir. Ancaq bu o demək deyil ki, həkimin köməyinə müraciət edilməməlidir. Həkimin köməyi ilə anatomik nöqsanların bir çoxunu ortopedik və ya cərrahi yollarla aradan qaldırmaq lazımdır. Müraciətdən qabaq və sonra müəllim xüsusi iş aparmazsa, sağlam nitq əldə etmək olmaz. Göstərilən anatomik nöqsanların olmasına baxmayaraq sağlam nitq tərbiyə etmək olar. Ancaq dişlərin qeyri-müntəzəm olması mane ola bilir. Bu nöqsanın aradan götürülməsi sağlam danışmağa səbəb ola bilməz, mütləq müəllim onlarla xüsusi iş aparmalıdır. Elə hallar da var ki, həkimin köməyi olmadan pəltəkliyi islah etmək olmaz. Buna misal olaraq, olduqca az təsadüf edilən dilin üzəngisi çox gödək olması nəticəsində dil səslərinin deyilə bilməməsidir. ***(r, l, d, t)*** Bu zaman həkimin kiçik cərrahiyyə müdaxiləsi hökmən vacibdir. Həmin dilin qədəyini bir qədər kəsməklə dilin yuxarı qalxması üçün şərait yaradır. Dilin sərbəst yuxarı qalxdığına baxmayaraq yenə də o səsləri demək mümkün olmur. Pedaqoq göstəriləcək üsuldan istifadə edərək nöqsanlı səslərin üzərində xüsusi işləməlidir. Bir məsələni burada xatırlatmaq lazımdır ki, keçmişdə hər hansı bir nitqi nöqsanlı adamı müalicə etmək məqsədilə həkimlər dilin üzəngisini kəsərək "danışacaqsan" deyə arxayın edib yola salırdılar. Şübhə yoxdur ki, bu təsəlliyə baxmayaraq sağlam danışmaq onlara mümkün olmurdu. Ona görə dilin üzəngisini kəsmək üçün gətirilmiş misal yalnız konkret olaraq faktı həqiqətən təsdiq etdikdən sonra, cərrahi əməliyyat tətbiq oluna bilər.

Sağlam nitqi almağa mane olmayan anatomik nöqsanı cərrahiyyə əməliyyatı ilə islah etmək arzu edilə bilər, ancaq məcburi deyildir.

Müasir dövrdə yaradılan psixoloji mərkəzlərdə də nitqi qüsurlu uşaqlar müalicə edilir. Normal danışığı bərpa olunur. Kəkələyən və pəltək uşaqlar üçün onların səviyyəsinə uyğun bəsit folklor nümunələri və asan əzbərlənən yazılı ədəbi nümunələrə aid çalışmaların verilməsi bir çox halda nöqsanlı nitqi yaxşılaşdırır, pəltəkliyi və kəkələməni aradan qaldırır.

ƏDƏBİYYAT

1. Abbasov M. Təlim-tərbiyə içində nitq nöqsanlarının islahı. Bakı, 1948, s.108
2. Хватцев М.Е. Недостатки речи у детей и их устранение. Москва, 1939, с.215

РЕЗЮМЕ
ЗАИКАНИЕ, ЕГО ОСОБЕННОСТИ И ПУТИ ЕГО УСТРОНЕНИЯ
Байрамова Я. А.

В статье овъясняются особенности заикания, одного из самых рассмотренных дефектов речи у детей, и его причины. Отмечено влияние заикания на психологические особенности ребенка. Затем показаны способы устранения заикания.

Ключевые слова: язык, зубы, небо, учитель, растяжки

SUMMARY
STUTTERING, THE ESSENCE OF IT AND THE WAYS OF PREVENTING IT
Bayramova Y.A.

In the article, the essence, main reasons and the factors that cause stuttering which is one of the speech disorders mainly, seen among children has been discussed. The effects of stuttering onc children's psychological features has been noted. Then the ways how to prevent stutterin has been shown.

Key words: language, dental palate, educator, stirrup

KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN İDRAK MARAQLARININ İNKİŞAF DİNAMİKASI

Cəbrayılova R. N.
Azərbaycan Dövlət Pedaqoji Universiteti
r.jabrayilova@rambler.ru

Xülasə: Məqalədə göstərilir ki, idrak maraqları təbiətcə müxtəlif olan xarakterin inkişafında baş verir. İdrak maraqlarının araşdırılmasında bütün mərhələlər üçün ən əhəmiyyətlisi onun diaqnostikasıdır. Müəllif idrak maraqlarının yaranmasında və inkişafında, pedaqoji praktikada mühüm əhəmiyyət kəsb edən inkişafın səviyyələrinin və göstəricilərinin aydın izahını vermişdir. İdrak maraqlarının diaqnostikası psixoloji-pedaqoji metodlar kompleksinin tətbiqi əsasında aparılmışdır. Məqalədə deyilir ki, şagirdin idrak maraqlarının formalaşmasının səviyyələri nə qədər yüksək olarsa, idrak maraqlarının struktur komponentləri arasındakı daxili və xarici əlaqələr bir o qədər təkmilləşər.

***Açar sözlər*:** idrak maraqları, meyarlar, göstəricilər, fəaliyyət, inkişaf dinamikası

Kiçik yaşlı məktəblilərin idrak maraqlarını formalaşdırmaq üçün ilk növbədə onların inikaş səviyyələri müəyyən edilməlidir. Psixoloji diaqnostika pedaqoji sistemdə əks əlaqəni təmin edir. Onun köməyi ilə kiçik yaşlı məktəblilərin idrak maraqlarının formalaşma səviyyəsinin vəziyyəti haqqında məlumat almaq olar. Bunlarla yanaşı onların formalaşması prosesini korreksiya etmək, inkişafdakı dəyişiklikləri proqnozlaşdırmaq çox vacibdir. Diaqnostika prosesində müəllim öyrənənlərə tərbiyəvi təsir göstərmək imkanına malikdir.

İdrak maraqları təbiətcə müxtəlif olan xarakterin inkişafında baş verir. İdrak maraqlarının araşdırılmasında bütün mərhələlər üçün ən əhəmiyyətlisi onun diaqnostikasıdır. Q.İ.Şukinanın tədqiqatlarına istinad edərək qeyd edə bilərik ki, idrak maraqlarının diaqnostikası adı altında təlim

prosesinin inkişafında idrak maraqlarının səviyyəsini müəyyən etməyə imkan verən müxtəlif metodlar birliyi başa düşülür.

İdrak maraqlarının diaqnostikası üçün zəruri olan meyarlar sistemi müəyyən edilmişdir. Psixoloji-pedaqoji ƏDƏBİYYATlar göstərir ki,müxtəlif tədqiqatçılar tərəfindən (L.S.Slavina, Q.İ.Şukina və b.) idrak maraqlarının formlaşmasının göstəriciləri və meyarları işlənilmişdir. Q.İ.Şukina tərəfindən işlənilmiş kiçik yaşlı məktəblilərin idrak maraqlarının formalaşmasının göstəriciləri və meyarlarını nəzərdən keçirək:

- *intellektual fəallıq* - faktların əldə edilməsinə və qanunauyğunluqların yaradılmasına marağın təzahürü, informasiyalar əldə etməyə və onu ətrafdakılarla bölüşməyə cəhd;
- *öyrənmək həvəsi* - yeni biliklərin əldə edilməsinə meyllilik, şagirdlərin maraqları;
- *tənzimedici proseslər* - mərkəzləşmə, tərəddüd və emosional təzahür [5].

Q.İ.Şukina tərəfindən aparılmış tədqiqatlar əsasında bir çox tədqiqatçılar idrak maraqlarının formalaşmasının meyar və göstəricilərini müəyyən etmişlər. E.V.Nenaxova növbəti meyarları belə müəyyən etmişdir: *məzmunlu-fəaliyyətli, emosional, tənzimləyici.*

* *Məzmunlu-fəaliyyətli meyarların* göstəricilərinə aiddir: verilən sualların xarakteri, qanunauyğunluqların yaradılması, tapşırıqların yerinə yetirilməsində müstəqillik, tapşırıqların həllinin yeni üsullarının axtarılması, dərsdənkənar fəaliyyətdə iştirak etmək, başqa fənlər sahəsində və gündəlik fəaliyyətdə yeni nailiyyətlərdən istifadə**.**

* *Emosional meyarların göstəricilərinə:* emosiyaların təzahürü, fəaliyyət müddətində həyəcanlılıqlar, şagirdlərin əhval-ruhiyyəsi;

* *Tənzimedici meyarlara:* tapşırıqların yerinə yetirilməsini cəhdlə başa çatdırmaq, diqqətin mərkəzləşdirilməsi, hər şeyi bilmək, zəngə şagirdlərin reaksiyası, şagirdlər tərəfindən mürəkkəb tapşırıqların seçilməsi və s. aiddir.

İdrak maraqlarının yaranmasında və inkişafında, pedaqoji praktikada mühüm əhəmiyyət kəsb edən inkişafın bir neçə səviyyəsini müəyyən etmişlər. Psixoloji-pedaqoji ƏDƏBİYYATda idrak maraqlarının səviyyəsinin müəyyən edilməsinə dair fikir və rəylər mövcud deyildir. E.Q.Kaydaş kiçik yaşlı məktəblilərin idrak maraqlarının stratifikasiyasını aşağıdakı şəkildə müəyyən etmişdir:

- *maraq - təəssüratlar* müvafiq təlim motivləri, münasibətlər şəraitində baş vermə;
- *maraq-istiqamətlənmə* uşağa düşünməyə, öz maraqlarının obyektini qiymətləndirməyə imkan verir;
- *maraq -tələbat* maraqların davamlı şəxsi xarakteristikasına keçidi göstərir.

Q.İ.Şukina şagirdlərin idrak maraqlarının yüksək, orta və aşağı səviyyələrini müəyyən etmişdir. *Aşağı elementar səviyyədə* konkret faktlar, nümunə üzrə fəaliyyət, təsvir üzrə biliklər ifadə edilir. *Orta səviyyədə* maraqların səbəb-nəticə əlaqələrindən asılılığı xarakterizə edilir. *Yüksək səviyyə* mənimsənilən biliklər üzrə yaradıcı fəaliyyəti, nəzəri problemlərə dərin marağın təzahürünü göstərir [5].

Fəaliyyətin motivasiyası V.Q.Denisovun kiçik yaşlı məktəblilərin idrak maraqlarının formalaşmasının səviyyələrinə dair təsnifatına əsaslanmışdır. *Aşağı səviyyə* qısamüddətli fəaliyyətlə, həmçinin tanıma və yada salma, istiqamətlənmə ilə xarakterizə edilir. *Orta səviyyə* göstəricilərin mənimsənilməsinə, manipulyasiya fəaliyyətinə əsaslanır. *Yüksək səviyyə* uzun-müddətli müstəqil fəaliyyətin hissəvi-axtarıcılıq xarakterini və müstəqil kreativ fəaliyyətin uşağın idraki maraqlarının yüksək göstəricilərini nəzərdə tutur [2].

Q.V.Alyabuşevanın fikrincə, kiçik yaşlı məktəblilərin idrak maraqlarının formalaşması səviyyəsinin müəyyənləşməsində struktur-funksional yanaşmadan istifadə edilir ki, o şkalalaşdırıl-

mış səviyyəni qoruyur, lakin uşağın koqnitiv generalizasiyasında baş verən funksional dəyişikliklərin bir səviyyədən digərinə keçidinə əsaslanır [1].

Qeyd etməliyik ki, şagirdin idrak maraqlarının formalaşmasının səviyyələri nə qədər yüksək olarsa idrak maraqlarının struktur komponentləri arasında daxili və xarici əlaqələr bir o qədər təkmilləşər. İdrak proseslərində və praktik fəaliyyətdə bilik və bacarıqların formalaşması həyata keçirilir. Onların keyfiyyəti fəaliyyətin xarakterindən birbaşa asılıdır. Kiçik yaşlı məktəblilərin idrak maraqlarının öyrənilməsi diaqnostik aparatın işlənilməsini tələb edir.

Bir çox tədqiqatçıların fikrincə, (N.İ.Boldırev, M.A.Danilov, Q.İ.Şukina) idrak maraqlarının diaqnostikası psixoloji-pedaqoji metodların kompleksinin tətbiqi əsasında aparılır. Kiçik yaşlı məktəblilərin idrak maraqlarının öyrənilməsi məqsədilə dərsdə şagirdlərin davranışını müşahidə edilmişdir.Müşahidə idrak maraqlarının tədqiqində mühüm metod sayılır. Bu metod informasiyaları ümumiləşdirməyə, müşahidə faktları arasında əlaqə yaratmağa, habelə idrak maraqlarının inkişaf prosesini izləməyə imkan verir. Dərsdə şagirdləri müşahidə etmək meyarlarına aiddir:

- dərsdə şagirdlərin aktivlik səviyyəsini işə yönəltmək;
- təşəbbüskarlığın xüsusiyyətlərinin təzahürü (özünün və ya müəllimlərinin tələbi ilə);
- uzunmüddətli intellektual tapşırıqların yerinə yetirilməsinə mərkəzləşmə bacarığı və vərdişi;
- dərs müddətində yaradıcı tapşırıqların yerinə yetirilməsində iştirak etmək;
- problemli və ya düşüncə tələb edən məsələlərə reaksiya;
- dərsdə suallara cavab vermək bacarığı;
- əqli fəaliyyətin yerinə yetirilməsi zamanı şagirdlərin davranışı;
- əqli işin yerinə yetirilməsinə şagirdlərin emosional münasibəti;
- dərsdə gedən iş fəaliyyətinə şagirdlərin iştirakının cəlb edilməsinin dərəcəsi.

Beləliklə, idrak maraqlarının diaqnostikası dedikdə, təlim prosesinin inkişafı, idrak maraqlarının inkişaf səviyyəsini müəyyən etməyə imkan verən müxtəlif metodların məcmuyu başa düşülür. Psixoloji-pedaqoji ƏDƏBİYYATın təhlili göstərir ki, müxtəlif tədqiqatçılar (L.S.Slavina, Q.İ.Şukina və b.) tərəfindən idrak maraqlarının formalaşmasının göstəriciləri və meyarları işlənib hazırlanmışdır.

Q.İ.Şukinanın tədqiqatlarına istinad edərək tərəfimizdən idrak maraqlarının üç səviyyəsi müəyyən edilmişdir. Tədqiqatçıların fikrincə, idrak maraqlarının diaqnostikası psixoloji-pedaqoji metodlar kompleksinin tətbiqi əsasında aparılır. İdrak maraqlarının səviyyəsini müəyyən etmək üçün V.İ.Lozov və Q.İ.Şukina tərəfindən təklif edilmiş göstəricilər əsas götürülmüşdür:

- təlimə münasibət və maraq;
- tapşırıqların yerinə yetirilməsində müstəqillik;
- diqqət (müəllimin izahını diqqətlə dinləmək, fikirləri məqrkəzləşdirmək, tərəddüd);
- şagirdlərin sualları, müəllimlərə müraciət;
- şagirdlərin öz arzu və istəklərinin fəaliyyətində iştirak etmələrinə cəhd, öz nöqteyi-nəzərini ifadə etmək arzusu.

Beləliklə, idrak maraqları ən əhəmiyyətli təlim motivlərindən biri və effektli təlim vasitəsi kimi nəzərdən keçirilmişdir. İdrak maraqlarının inkişafı mərhələlərlə davam edir. Alim tədqiqatçılar idrak maraqlarının təşəkkülündə növbəti mərhələləri: hər şeylə maraqlanmaq, öyrənmək həvəsi, idrak maraqları, nəzəri marağı araşdırmışlar. Dərsdə müəllimlər idrak maraqlarının inkişafının müxtəlif mərhələlərinin əlamətlərini, xüsusiyyətlərini öyrənməli, o cümlədən şagirdlərin idrak maraqlarını elmə, biliklərə yiyələnməyə yönəltməli, onları idraki fəallığa cəlb etməlidirlər.

Kiçik məktəbli yaş dövrü – ibtidai məktəb təliminin mərhələlərinə uyğunlaşan uşaqların inkişaf mərhələsidir. İdrak maraqları kiçik yaşlı məktəblilərdə mühüm təlim amili və şəxsiyyətin təşəkkülünün zəruri həyat amilidir. Məktəbdə qarşıya qoyulan məqsədlərə uğurla nail olmaq üçün ilk növbədə məktəblilərin təlim maraqlarının inkişafı üçün əlverişli, optimal şərait yaradılmalıdır ki, şagirdləri öyrəndikləri cisim və hadisələrdə aktiv, məqsədəuyğun maraqlarını inkişaf etdirsinlər.

Təlim prosesində idrak prosesləri fəaliyyətin əşyavi məzmununun vasitəçisi kimi inkişaf edir və təhsidə iştirakçılar arasında qarşılıqlı münasibətləri tənzimləyir. Müəllimlərin əsas vəzifəsi ibtidai məktəblərdə öyrənilən materialın əyləncəli olmasına çalışmalı, habelə naməlum və yenilik elementlərinə şagirdlərin diqqətini cəlb etməklə onlarda maraqların yaranmasına nəzarət etməli və onların idrak tələbatlarını formalaşdırmalıdırlar.

Kiçik yaşlı məktəblilərin idrak maraqlarının öyrənilməsi məqsədilə dərsdə şagirdlərin davranışı da müşahidə edilmişdir. Həmin metod informasiyaları ümumiləşdirməyə, müşahidə faktları arasında əlaqə yaratmağa, idrak maraqlarının inkişaf prosesini izləməyə imkan vermişdir. *”Kiçik yaşlı məktəblilərin idrak fəallığı” metodikasından* istifadə edilmişdir.Bu metodikanın aparılması zamanı alınan nəticələr əsasında kiçik yaşlı məktəblilərin idrak fəallığının ifadə edilməsinin səviyyələri müəyyən edilmişdir.

İbtidai məktəbdə şagirdlərin idrak maraqlarının öyrənilməsi məqsədilə eksperimental tədqiqat aparılmışdır. Tədqiqatda eksperimentlərin kompleks təhlilinin və müşahidənin gedişində alınan nəticələr kiçik yaşlı məktəblilərdə idrak maraqlarının səviyyələrini müəyyən etməyə imkan vermişdir. Diaqnostika göstərmişdir ki, ibtidai sinif şagirdlərinin əksəriyyəti idrak maraqlarının inkişafı üzrə aparılan işin əlavə olaraq yenidən aparılmasına ehtiyac duyurlar. Diaqnostikadan alınmış nəticələr kiçik yaşlı məktəblilərin gələcək inkişafını planlaşdırmağa və korreksiya işi aparmağa imkan vermişdir. Dərsdə düzgün planlaşdırılmış iş şagirdlərdə idrak maraqlarının tədricən inkişafını və güclənməsini şərtləndirir. Kiçik yaşlı məktəblilərdə hər bir dərsin gedişində maraqlı təəssüratların keçirilməsinə şərait yaratmaqla onlarda özünəinam, potensiallarına və imkanlarına güvənmə hissini formalaşdırmaq zəruridir.

ƏDƏBİYYAT

1. Алябушева, Г. В. Развитие познавательных интересов младших школьников в проектной деятельности [Электронный ресурс]: автореф. дис. канд. пед. наук: 13.00.01/Алябушева Галина Васильевна; Моск. пед. гос.ун-т.Москва, 2011. 23 с.
2. Кузнецова,А.А. Познавательный интерес. Условия его развития /Кузнецова, А. А., Чукавова С.В., Кузнецов В.Н. // Биология в шк. 1996. № 2.С. 29-31.
3. Меньшикова ЕА.Психолого-педагогическая сущность познавательного интереса// Вестник ТГПУ . 2008. №3. С. 16-20.
4. Садыкова Н.У. Формирование познавательных интересов учащихся в условиях совместной деятельности. Воронеж, 2004. 217 с.
5. Щукина Г.И. Активизация познавательной деятельности учащихся в учебном процессе. М.: Просвещение, 2009. 34 с.

РЕЗЮМЕ
ДИНАМИКА РАЗВИТИЯ ПОЗНАВАТЕЛЬНЫХ ИНТЕРЕСОВ МЛАДШИХ ШКОЛЬНИКОВ
Джабраилова Р. Н.

В тезисе показано, что познавательные интересы происходят в развитии различного по своей природе характера. Самым важным для всех этапов изучения познавательных интересов является его диагностика. Автор дал четкое объяснение возникновению и развитию познавательных интересов, уровней и показателей развития важных в педагогической практике. Диагностика познавательных интересов проводилась на основе применения комплекса психолого-педагогических методов. В тезисе говорится, что чем выше уровень сформированности познавательных интересов студента, чем больше улучшаются внутренние и внешние связи между структурными компонентами познавательных интересов.

Ключевые слова: познавательные интересы, критерии, показатели, деятельность, динамика развития

SUMMARY
DYNAMICS OF DEVELOPMENT OF COGNITIVE INTERESTS OF YOUNGER SCHOOL CHILDREN
Jabrayilova R. N.

The thesis shows that cognitive interests occur in the development of a character that is different in nature. The most important thing for all stages of the study of cognitive interests is its diagnosis. The author gave a clear explanation of the emergence and development of cognitive interests, levels and indicators of development in important teaching practice. Diagnostics of cognitive interests was carried out on the basis of the use of a complex of psychological and pedagogical methods.The thesis states that the higher the level of formation of the student's cognitive interests, the more the internal and external connections between the structural components of cognitive interests improve.

Key words: cognitive interests, criteria, indicators, activity, development dynamics

FİZİKİ TƏRBİYƏ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRƏ VOLEYBOL OYUNU İLƏ BAĞLI ZƏRURİ VƏRDİŞLƏRİN AŞILANMASININ PSİXOLOJİ ƏSASLARI

Hacıyev Z.C.
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
zaur-agsu@mail.ru

Xülasə: Məqalə fiziki tərbiyə dərslərində şagirdlərə voleybol oyunu ilə bağlı zəruri vərdişlərin aşılanmasının psixoloji əsaslarından bəhs edir. Məqalədə fiziki tərbiyə müəllimlərinin şagirdlərin psixoloji hazırlığı ilə bağlı əsas vəzifələri öz əksini tapır. Bu vəzifələr içərisində idmançı şəxsiyyətinin əxlaqi keyfiyyətlərinin tərbiyə olunması, şagirdlərə iradi keyfiyyətlərin aşılanması kimi zəruri amillər yer alır. Məqalədə şagirdlərə bir sıra zəruri fiziki qabiliyyətlərin və texniki-taktiki keyfiyyətlərin aşılanmasından da bəhs edilir.

Açar sözlər: fiziki tərbiyə dərsləri, voleybol oyunu, zəruri vərdişlər, psixoloji əsaslar, əxlaqi keyfiyyətlər, idmançı şəxsiyyəti, ümumi fiziki qabiliyyətlər, xüsusi fiziki qabiliyyətlər

Azərbaycanda həyata keçirilən təhsil islahatlarına dair direktiv sənədlərdə şagirdlərin fiziki tərbiyəsinin günün tələblərinə uyğun səviyyədə inkişaf etdirilməsi, onların fiziki mədəniyyətinin və fiziki inkişafının beynəlxalq normalara uyğun formalaşdırılması və bu sahədə görülən işlərin modernləşdirilməsi fiziki tərbiyə ilə bağlı tədqiqat aparanların qarşısında qarşısında təxirəsalınmaz vəzifələr qoyulur. Bu vəziflələrin müvəffəqiyyətlə həll edilməsi üçün orta ümumtəhsil məktəblərində fiziki tərbiyə dərlsərinin məzmununda islahatların aparılması, şagirdlərin şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsi mühüm aktuallıq kəsb edir. Belə mühüm aktuallıq kəsb edən problemin həlli üçün fiziki tərbiyə dərslərinin inkişaf etmiş ölkələrin təhsil sistemindəki fiziki tərbiyə təliminə uyğunlaşdırılması haqqında danışılan problemin müvəffəqiyyətli həllinə kömək etmiş olur. Fiziki tərbiyə dərslərində şagirdlərə voleybol oyunu ilə bağlı normativlərin ödənilməsi, bu sahədə onlarda bir sıra zəruri vərdişlərin yaradılması, habelə voleybolun sirləri ilə bağlı onlara ən zəruri bacarıqların aşılanması günün aktual tələblərindən sayılır. Ona görə ki, Azərbaycan hökuməti ölkəmizdə voleybolun inkişafına, onun dünya səviyyəsinə çıxarılmasına qayğı göstərməklə yanaşı, bu sahədə görüləcək işlərin müvəffəqiyyətlə həyata keçirilməsinə öz köməkliyini göstərmiş olur. Artıq ölkəmizdə qadınlardan ibarət yaradılan voleybol kamandası dünya miqyasında böyük şöhrət qazanmışdır. Ən yüksək titullara, mükafatlara layiq görülən voleybolçu qızlarımızın qazandıqları uğurları gələcək nəsil nümayəndələrinin müvəffəqiyyətlə davam etdirilməsi üçün fiziki tərbiyə dərslərində voleybol oyunu ilə bağlı şagirdlərə ən zəruri vərdişlərin aşılanmasını məqsədyönlü, planlı və mütəşəkkil olaraq həyata keçirmək zəruri sayılır. Fiziki tərbiyə dərslərində şagirdlərə voleybol oyunu ilə bağlı zəruri vərdişlərin aşılanması işində müəyyən psixoloji əsaslara istinad etmyin vacib olduğunu qeyd etmək lazım gəlir. Çünki voleybolçunun psixoloji hazırlığı bilavasitə onun bacarıq, vərdiş və ustalıq səviyyəsindən asılıdır.

Voleybolçunun psixoloji hazırlığının mahiyyət və vəzifələrini müəyyənləşdirmək üçün, əvvəlcə onun fəaliyyətində baş verən psixoloji prosesləri öyrənmək lazımdır. Bu proseslərin öyrənilməsi, voleybolçuya zəruri olan keyfiyyətlərin və vərdişlərin məqsədyönlü və müntəzəm surətdə tərbiyəsinə böyük kömək göstərir.

Voleybolçunun psixoloji hazırlığı – mühüm pedaqoji prosesdir. Bu proses iki hissədən ibarətdir: ümumi psixoloji hazırlıq və konkret yarışlara yönəlmiş xüsusi psixoloji hazırlıq. Bu hissələrin hər biri öz ciddi və dəqiq müəyyənləşdirilmiş vəzifələrini yerinə yetirir və eyni zamanda bir-biri ilə sıx əlaqədədir [2, s.175]. Məhz ona görə də fiziki tərbiyə dərslərində şagirdlərə voleybolla bağlı bacarıq və vərdişlərin aşılanması prosesində onlara psixoloji hazırlığın həm ümumi, həm də xüsusi tərəflərini izah etmək lazım gəlir. Əslində, voleybol oyununda oyunçunun psixoloji hazırlığı onun fiziki qabiliyyətlərindən çox asılıdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, qabiliyyətlər fəaliyyətin müvəffəqiyyətli icarasının şərtini təşkil edir. Psixoloji ƏDƏBİYYATda göstərilir ki, qabiliyyətlər şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri olub müəyyən fəaliyyətin müvəffəqiyyətli icrasının şərtini təşkil edir və onun üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnmə dinamikasındakı fərqlərdə ifadə olunur [4, s.423]. Deməli, şagirdlərin fiziki qabiliyyətləri voleybol oyununda hər hansı bir hərəkətlərin müvəffəqiyyətli icrasının şərti olub, onun üçün zəruri olan bilik, bacarıq, vərdişlərə yiyələnmə dinamikasında ifadə olunur. Bu, o deməkdir ki, şagirdlərə voleybolla bağlı bacarıq və vərdişlər aşılayarkən onların fiziki qabiliyyətlərinin tənzimlənməsinə də çalışmaq lazımdır. Unutmaq olmaz ki, belə fiziki qabiliyyətlər müəyyən qədər əxlaqi keyfiyyətləri də tənzimləmiş olur. Ona görə şagirdlərə izah etmək, şərh

etmək, öyrətmək vacibdir ki, voleybol oyunundakı risklər mübarizə gərginliyi, kəskin anlara qarşı emosionallığın nümayiş etdirilməsi, voleybolçunun təfəkkür tərzinin itiliyindən yaranmalıdır.

Voleybol böyük emosionallığı ilə fərqlənən idman oyunudur. Topun qəbulu zamanı voleybolçunun istifadə etdiyi əsas hərəkət növləri bunlardır: yerdəyişmələr, tullanmalar və sıçrayışlar. Bunların yerinə yetirilməsi müəyyən risklə bağlıdır. Eyni zamanda, bu hərəkətlərin yerinə yetirilməsi cəsarət və təmkinlik kimi keyfiyyətlər tələb edir. Oyun fəaliyyətlərinin mürəkkəbliyi ondan ibarətdir ki, texniki fəndlərin hamısı voleybolçulardan son dərəcə dəqiqlik tələb edir. Oyunun tempi, mübarizənin gərginliyi və kəskinliyi, daim dəyişilən şəraitdə bir hərəkət formasından digərinə ani keçilməsi voleybolçunun təfəkkürü qarşısında yüksək tələblər qoyur. Voleybolda demək olar ki, bütün hərəkət fəaliyyətləri görmə və qavrama qabiliyyətləri əsasında baş verir. Vəziyyəti görmək bacarığı və oyunçuların meydançada yerdəyişmələri, oyun vəziyyətlərinin tez və gözlənilmədən dəyişilməsi, daha çox obyektlərin qavranılması diqqətin həcmi, intensivliyi və möhkəmliyi ilə bağlıdır. Hər hansı texniki fənd yerinə yetirilərkən voleybolçu nəinki düzgün taktiki yol axtarmağı bacarmalıdır, o həm də onu həyata keçirmə bacarığına malik olmalıdır [2, s.175-176]. Deməli, şagirdlərə izah etmək lazımdır ki, voleybol oyununda taktiki kombinasiyalara yiyələnməyin əhəmiyyəti böyükdür. Taktiki kombinasiyalar deyəndə birinci növbədə voleybolçunun öz niyyətini və fəaliyyətini rəqibdən gizlətmək bacarığına yiyələnməsidir. Bu isə voleybolçunun taktiki təfəkkür tərzindən yaranır. Əgər oyunçunun taktiki gedişləri onun təfəkkür tərzinə əsaslanırsa, deməli, o bütün taktiki gedişlərini öz səriştəsi ilə tənzimləməyi bacarmalıdır. Bütün taktiki gedişlərə öz təfəkkür tərzi, yəni ağıl səviyyəsilə yanaşan oyunçunun texniki fəndlər yaratmaq qabiliyyətləri onun rəqiblərini çaşdıra bilər. Məhz ona görə də fiziki tərbiyə dərslərində voleybolla bağlı verilən məlumatlarda bu məsələyə geniş yer vermək lazım gəlir, həm də bu nəzəri məlumatları fiziki təlimlər zamanı praktik normalar səviyyəsinə qaldırmaq vacibdir. Belə olan təqdirdə fiziki təlimlər prosesində şagirdlər düzgün düşünülmüş taktiki kombinasiya variantlarının ən sadə növləri ilə tanış ola bilərlər.

Düzgün düşünülmüş taktiki kombinasiya, öz niyyətini və fəaliyyətini gizlətmək bacarığı voleybolçunun taktiki təfəkkürü qarşısında yüksək tələblər qoyur. Oyunda texniki fəndlərin yerinə yetirilməsinin yüksək məsuliyyəti, mübarizənin gərginliyi, gur reaksiya verən çoxlu tamaşaçının olması, müxtəlif emosiyaları ilə oyunun dolğunluğunu müəyyənləşdirir və oyunçunun əhval-ruhiyyəsinə bəziləri müsbət, bəziləri isə mənfi təsir göstərir. Oyun prosesində voleybolçunun emosional vəziyyəti, mübarizənin gedişindən asılı olaraq daim dəyişilir və bir çox hallarda tam sürətləşmə mərhələsinə çatır. Məhz buna görə də, voleybol oyunu voleybolçuların iradi keyfiyyətlərinin qarşısına yüksək tələblər qoyur [2, s.176]. Şagirdlərə iradi keyfiyyətlərin qazandırılması fiziki tərbiyə müəllimlərinin qarşısında duran ən mühüm vəzifələrindən biridir. Ona görədə iradəli olmaq hər bir voleybolçunun həm psixoloji silahı, həm mənəvi keyfiyyəti hesab olunur. Voleybolçunun iradəli olması onun komanda yoldaşlarının iradi keyfiyyətlərinin səviyyəsini yüksəldir və qələbəyə olan inamlarını artırmış olur.

Voleybol kollektiv oyundur və onun müvəffəqiyyəti bütün komanda üzvlərinin səyi ilə sıx bağlıdır. Hər bir oyunçunun vəzifələri, onunla komandada yerinə yetirilən funksiyalardan asılıdır və kollektivin ümumi vəzifələrinə tabe olunur. Bu cür anlayışlar qarşılıqlı əlaqə, qarşılıqlı asılılıq, həmrəylik, qarşılıqlı mühafizə, ayrı-ayrı voleybolçular arasında nəinki oyun uyğunluğunun dərəcəsini müəyyən edir, həm də oyunçuların iradi keyfiyyətlərinin müəyyən səviyyədə olmasını səciyyələndirir [2, s, 176-177].

Şagirdlərə voleybol oyunu ilə bağlı verilən məlumatların, informasiyaların onlara aşılanan bacarıq, vərdişlərin düzgün formalaşdırılması üçün müvafiq psixoloji əsaslarla yanaşı pedaqoji

əsaslara istinad edir. Bu, o deməkdir ki, ümumi psixoloji hazırlığın müvəffəqiyyəti bir sıra pedaqoji prinsiplərin yerinə yetirilməsindən, xüsusilə şüurluluqdan, fəallıqdan, sistemlilikdən, ardıcıllıqdan, hərtərəfli və möhkəm hazırlıqdan asılıdır. Qeyd etmək lazımdır ki, hazırlığın bütün prinsipləri bir-biri ilə qarşılıqlı əlaqə təşkil edir. Onlardan birinin pozulması digərinin həyata keçirilməsini çətinləşdirir. Ümumi psixoloji hazırlıq idman təkmilləşməsinin bütün dövründə fiziki, texniki və taktiki hazırlıqlarla bir sırada durur [2, s.177]. Əslində ardıcıllıq, sistemlilik, şüurluluq tərbiyə işinin fasiləsizliyi və mütəmadiliyi ümumpedaqoji prinsiplər kimi qəbul olunmuşdur. Hansı ki, fiziki tərbiyə dərslərində də bu prinsipə istinad olunması vacib hesab olunur. Bu xüsusda prof.F.B.Sadıqov göstərir ki, sistemlilik deyəndə isə ardıcıl və mütəmadi olaraq uşaqlarda bilik, bacarıq və vərdişlər sistemi yaratmaq nəzərdə tutulur. Uşaqlara tərbiyə elemetnlərinin aşılanması ilə bilik, bacarıq və vərdişlərə yiyələnmə prosesinin vəhdətdə götürülməsi çox faydalıdır. Lakin bu zaman ailə tərbiyəsində mövcud olan pedaqoji ziddiyyətlərdən yəni valideynlərin zərərli vərdişlərindən uzaqlaşmaq vacibdir. Bəs, həmən zərərli vərdişlər hansılardır?

- valideynlərin uşaqların əhatəsində siqaret çəkmələri;
- valideynlərin uşaqların əhatəsində spirtli içki içmələri;
- valideynlərin biri-birilərilə və yaxud qonşularla yola getməmələri;
- valideynlərin söyüş söymələri, qaba danışmaları və s. kimi zərərli vərdişlər tərbiyə işinin ardıcıllığını, sistemliliyini pozur.

Tərbiyə fasiləsiz proses olduğu üçün tərbiyə işinin fasiləsiz və mütəmadi aparılması da tərbiyə işinə müvəffəqiyyət qazandıran amillərdəndir [8, s.290-291]. Göründüyü kimi, fiziki tərbiyənin sistemiliyi, ardıcıllığı, fasiləsizliyi ailədən başlanır və məktəbdə formalaşdırılır. Deməli, fiziki tərbiyə dərlsərində şagirdlərə psixoloji və pedaqoji cəhətdən düzgün yanaşılması ardıcıl, sistemli və fasiləsiz görülən işlərin əsasını təşkil edir. Məhz ona görə fiziki tərbiyə müəllimləri şagirdlərə voleybol oyunu ilə bağlı biliklərin verilməsi, bacarıq, vərdişlərin aşılanması prosesində onların valideynləri və valideyn əvəzləri ilə inteqrasiyasını unutmamalıdırlar.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, şagirdlərin voleybol oyununun sirlərinə yiyələnmələri üçün onların psixoloji hazırlığı ilə bağlı mühüm vəzifələri mövcuddur. Onları aşağıdakı şəkildə təsnif etmək olar:

1. İdmançı şəxsiyyətinin əxlaqi keyfiyyətlərini tərbiyə etmək.
2. Qavrama keyfiyyətlərini, o cümlədən qavrayışın "topu hissetmə", "toru hissetmə" və "meydançanı hissetmə" kimi növlərinin formalaşmasını və təkmilləşməsini inkişaf etdirmək.
3. Diqqəti, xüsusən onun həcmini, intensivliyini, möhkəmliyini və bir obyektdən başqasına yönəlməsini inkişaf etdirmək.
4. Oyunun müxtəlif anlarını cəld və düzgün qiymətləndrimək, effektli qərar qəbul etmək və öz fəaliyyətlərinə nəzarət etmək bacarığı aşılamaqla taktiki təfəkkürü inkişaf etdirmək.
5. Öz emosiyalarını idarə etmək bacarığını inkişaf etdirmək.
6. İradi keyfiyyətləri inkişaf etdirmək [2, s.177].

Göründüyü kimi, ümumi psixoloji hazırlığın ən zəruri vəzifələri təlim prosesində şagirdlərin oyuna hazırlanması və oyun prosesində müəyyən əxlaqi, mənəvi, fiziki keyfiyyətlərə malik olmasını özündə təcəssüm etdirir. Şagird şəxsiyyətinin əxlaqi keyfiyyətlərinin formalaşdırılması deyəndə onlarda ən zəruri əxlaqi sifətlərin, əxlaq normalarının inkişaf etdirilərək formalaşdırılması nəzərdə tutulur. Fiziki tərbiyə dərslərində müəllimin belə əxlaqi keyfiyyətləri idmançı şəxsiyyətinin əxlaqi keyfiyyətləri kimi təqdim etməsinə zəruir ehtiyac duyulur. Çünki idmançı şəxsiyyətinin əxlaqi keyfiyyətləri içərisində cəsurluq, inamlı hərəkət etmək, mübarizə əzmi, qələbəyə inam, məğlubedilməzlik, inadkarlıq, rəqibə qarşı amansızlıq kimi keyfiyyətlər idmançı şəxsiyyətinin ən

əsas əxlaqi keyfiyyətlərindən hesab olunur. Duyma, qavrama, hafizədə saxlama, diqqətli olma kimi psixoloji halətləri şagirdə aşılamaq qeyd olunan əxlaqi keyfiyyətlərin formalaşmasına səbəb olunan amillərdəndir. Oyunun müxtəlif anlarını düzgün qiymətləndirmək, düzgün, obyektiv və effektiv qərar çıxarmaq və bu zaman özfəaliyyətinə nəzarət etməyi bacarmaq kimi keyfiyyətləri şagirdlərə aşılamaqla onların taktiki təfəkkür tərzini formalaşdırmaq olar. Şagirdləri iradi keyfiyyətlərlə təmin etmək əgər bir tərəfdən onları bir voleybolçu olaraq qalib idmançı kimi yetişdirmək deməkdirsə, digər tərəfdən həmin şagirdi iradəli vətəndaş kimi yetişdirmək deməkdir. İradəli vətəndaşlar isə öz cəsarəti, qeyrəti, qüdrti, rəşadəti, mübarizliyi, qoçaqlığı, igidliyi, düşmənlə barışmazlığı ilə seçilməklə vətənpərvər övladlar kimi yetişirlər. Erməni faşistlərinin vətən torpaqlarımızı işğal etdiyi hazırkı şəraitdə fiziki tərbiyə dərslərində şagirdlərdə belə keyfiyyətlərin aşılanması onlarda vətənpərvərlik və yurdsevərlik kimi iradi keyfiyyətləri formalaşdırmış olur.

Bütün bunlar deməyə əsas verir ki, fiziki tərbiyə dərslərində şagirdlərə voleybol oyunu ilə bağlı informasiyaları, məlumatları verərkən həmin informasiya və məlumatlara uyğun vərdişləri aşılayarkən bir sıra psixoloji əsaslara istinad etməyin əhəmiyyəti böyükdür.

Məqalənin elmi yeniliyi. Məqalədə fiziki tərbiyə dərslərində şagirdlərə voleybol oyunu ilə əlaqədar zəruri vərdişlərin aşılanmasının psixoloji əsasları ilə bağlı bir sıra elmi ideyalar, müddəalar, tövsiyə və təkliflər irəli sürülür. Bunlar məqalənin elmi yeniliyidir.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi. Məqalədən fiziki tərbiyə müəllimləri, voleybol üzrə məşqçilər, fiziki tərbiyə və idman sahəsində tədqiqat aparanlar faydalana bilərlər.

Nəticə etibarilə qeyd etmək lazımdır ki, fiziki tərbiyə dərslərində şagirdlərə voleybol oyunu ilə bağlı bir sıra zəruri vərdişlərin aşılanması üçün müəyyən psixoloji əsaslara, ümumpedaqoji prinsiplərə istinad etməklə şagirdlərin şəxsiyyətyönümlülük səviyyəsinin formalaşdırılmasına nail olmaq olar.

ƏDƏBİYYAT

1. Abbasov A.N. Pedaqogika (dərs vəsaiti). Bakı, Mütərcim, 2010
2. Ağayev O.M., Qədəşov E.N. Voleybol. Dərslik, Bakı, 2003
3. Ağayev O.M., İsmayılov T.M. Voleybolçuların psixoloji hazırlığı. Metodik vəsait. Bakı, 2004
4. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, "Çinar-Çap" Nəşriyyat-Poliqrafiya müəssisəsi, 2002
5. Hacıyev Z.C., Əliyev S.Y. Liberronun hazırlığı. Metodik vəsait. Bakı, 2019
6. Hüseynova G.A. Kurikulum təliminə praktiki baxış. Bakı, Hədəf Nəşrlər, 2017
7. Qədəşov E.N., Sultanov S.O., Axundov S.R., Əliyev S.Y. Voleybol, Bakı, 2008
8. Sadıqov F.B. Pedaqogika. Dərslik. Bakı, Adiloğlu, 2012
9. Sadıqov F.B. Uşaqlarin bədii yaradıcılıq qabiliyyətlərinin foralaşdırılması işinin elmi-pedaqoji əsasları. Monoqrafiya. Bakı, ADPU-nin nəşriyyatı, 1994
10. Sadıqov F.B. Ümumi pedaqogika. Dərslik. Bakı, Maarif, 2018

РЕЗЮМЕ

ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ ФОРМИРОВАНИЯ У СТУДЕНТОВ НЕОБХОДИМЫХ НАВЫКОВ ИГРЫ В ВОЛЕЙБОЛ НА УРОКАХ ФИЗКУЛЬТУРЫ.

Гаджиев З. Дж.

Психологические основы формирования у студентов необходимых навыков игры в волейбол на уроках физкультуры.

В статье исследуются психологические основы привития студентам необходимых навыков игры в волейбол на уроках физкультуры. В статье обозначены основные обязанности учителей физкультуры в психологической подготовке студентов. В эти задачи входит развитие нравственных качеств личности ученика, таких как личность спортсмена, и привитие у учеников волевых качеств. В статье также обсуждается формирование у студентов ряда необходимых физических способностей и тактико-физических качеств.

Ключевые слова: уроки физического воспитания, игра в волейбол, необходимые привычки, психологичкские основы, морольные качества, личность спортсмена, физические возможности, обшие способности, специальные способности

SUMMARY

PSYHOLOGICAL BASES OF INSTILLING STUDENTS THE NECESSARY SKILLS RELATED TO THE GAME OF VOLLEYBALL IN PHYSICAL EDUCATION CLASSES.

Hajiyev Z.C.

Psyhological bases of instilling students the necessary skills related to the game of volleyball in physical education classes

The psychological basis of instilling in students the necessary skills related to the game of volleyball education classes is studied in this article. The main responsibilities of physical education teachers in the psychological preparation of students are pointed in the article. These tasks include the development of the moral qualities of the students personality, such as the athletes personality, and the inculcation of volitional qualities in the students. The article also discusses the inculcation of a number of necessary physical abilites and tactical physical qualities in students.

Key words: the lessons of physical education, volleyball game, necessary habits, psychological bases, moral qualities, athletes personality, physical abilities, general abilities, special abilities.

İNKLÜZİV TƏHSİLİ HƏYATA KEÇİRƏN MÜTƏXƏSSİSLƏRİN HAZIRLIĞINA PEDAQOJİ-PSİXOLOJİ TƏLƏBLƏR: EMOSİONAL İNTELLEKT

Hacıyeva A. Ş.

Sumqayıt Dövlət Universiteti

r.hajiyeva98@gmail.com

Xülasə: Pedaqoji fəaliyyətdə emosional intellekt probleminin tədqiqi aktualdır. Müəllimin şagirdlərlə münasibət qurmasına təsir edən fərdi-psixoloji keyfiyyətlərinə böyük əhəmiyyət verilir. Müəllimin peşə və şəxsi keyfiyyətlərinin inkişaf səviyyəsi inklüziv təhsildə aktual və əhəmiyyətlidir, çünki şagirdin şəxsiyyətinin inkişafına böyük təsir göstərir. Müəllim olmaq

məsuliyyətlidir, inklüziv təhsil sistemi ona daha müasir və yüksək tələblər qoyur. Müasir dövrədən emosional intellekt problemi psixoloqların diqqətini cəlb etmiş, elmin tədqiqat obyekti olmuşdur. XX əsrin 90-cı illərinin sonu və XXI əsrin əvvəllərindən psixologiya elmində emosional sfera fenomeninə diqqət əhəmiyyətli dərəcədə artmışdır. Şəxsiyyət hər bir keyfiyyəti bir-biri ilə ayrılmaz şəkildə bağlı olan vahiddir. Şəxsiyyətin emosional sferasının inkişafı isə, məlum olduğu kimi, tarixi şəraitlərdən, fərdin bu və ya digər sosial mühitlə əlaqəsindən, cəmiyyət həyatında gedən proseslərdən və s. asılıdır. Müəllimin öz bilik səviyyəsini daima yüksəltməsi, eyni zamanda özünü fiziki və zehni olaraq yükləməsinə gətirib çıxarır. Müəllimin fəaliyyəti çətinliklər və stress ilə əlaqələndirilir ki, bu da müsbət emosiyaların qaynaqlarının tükənməsinə səbəb olur. Müəllimin məsuliyyətli işi, gərgin iş rejimi, güclü zehni stressə və emosianal gərginliyin yaranmasına gətirib çıxarır. Çətin vəziyyətlərdə müxtəlif psixoemosional halların qarşısını almaq istəməsi, emosional qarşıdurmanın qiymətləndirmə imkanının olmaması, bunların nəticəsi olaraq müəllimin fəaliyyətinin səmərəliliyini azaldır.

Acar sözlər: emosional intellekt, özünü tənzimləmə, ünsiyyət

Pedaqoji fəaliyyətdə emosional intellekt probleminin tədqiqi aktualdır. Müəllimin şagirdlərlə münasibət qurmasına təsir edən fərdi-psixoloji keyfiyyətlərinə böyük əhəmiyyət verilir. Müəllimin peşə və şəxsi keyfiyyətlərinin inkişaf səviyyəsi inklüziv təhsildə aktual və əhəmiyyətlidir, çünki şagirdin şəxsiyyətinin inkişafına böyük təsir göstərir. Müəllim olmaq məsuliyyətlidir, inklüziv təhsil sistemi ona daha müasir və yüksək tələblər qoyur.

Müasir dövrədən emosional intellekt problemi psixoloqların diqqətini cəlb etmiş, elmin tədqiqat obyekti olmuşdur. XX əsrin 90-cı illərinin sonu və XXI əsrin əvvəllərindən psixologiya elmində emosional sfera fenomeninə diqqət əhəmiyyətli dərəcədə artmışdır. Şəxsiyyət hər bir keyfiyyəti bir-biri ilə ayrılmaz şəkildə bağlı olan vahiddir. Şəxsiyyətin emosional sferasının inkişafı isə, məlum olduğu kimi, tarixi şəraitlərdən, fərdin bu və ya digər sosial mühitlə əlaqəsindən, cəmiyyət həyatında gedən proseslərdən və s. asılıdır.

Müəllimin öz bilik səviyyəsini daima yüksəltməsi, eyni zamanda özünü fiziki və zehni olaraq yükləməsinə gətirib çıxarır. Müəllimin fəaliyyəti çətinliklər və stress ilə əlaqələndirilir ki, bu da müsbət emosiyaların qaynaqlarının tükənməsinə səbəb olur. Müəllimin məsuliyyətli işi, gərgin iş rejimi, güclü zehni stressə və emosianal gərginliyin yaranmasına gətirib çıxarır. Çətin vəziyyətlərdə müxtəlif psixoemosional halların qarşısını almaq istəməsi, emosional qarşıdurmanın qiymətləndirmə imkanının olmaması, bunların nəticəsi olaraq müəllimin fəaliyyətinin səmərəliliyini azaldır.

İnsanın emosional sahəsi psixologiya tarixində ən çox maraq göstərilən, diqqət yetirilən, lakin fəaliyyət, davranış, ünsiyyət, intellekt kimi problemlərlə müqayisədə daha az faktlar əldə edilmiş problemlərdən biridir. Bu, emosiyaların mürəkkəb təbiətə malik olması, eksperimental tədqiqatlar zamanı ölçülməsindəki çətinliklər və digər xarakterik amillərlə bağlıdır. Bununla belə, müəyyən edilmişdir ki, emosiyaların başlıca funksiyası insanların qarşılıqlı anlaması, bir-birini başa düşməsi, yalnız nitqin deyil, bədən dili ilə öz düşüncələrini ötürməsi, mühakimə yürütməsi, birgə fəaliyyətdə, ünsiyyətdə əlverişli əlaqələr qura bilməsi üçün vacibdir. Bu baxımdan emosiyalar insanı sosial-psixoloji cəhətdən xarakterizə edir.[1,234]

Psixologiyada ən çox araşdırılan, lakin hələ də fərqli mövqelərin ortaya qoyulduğu problemlərdən biri də şəxsiyyətdir. Şəxsiyyətin formalaşdırılmasında çoxsaylı amillər iştirak edir. İctimai özünütəyin və özünüaxtarış ilə ayrılmaz şəkildə bağlı olduğundan gənclik yaşı dünyagörüşünün formalaşmasının həlledici mərhələsidir. Həyatın bu dövründə tələbə özünün

dünyaya baxış sistemini qurmağa, bu dünyadakı yerini müəyyənləşdirməyə çalışır. "İqtisadi fəallıq" da bu dövrlə bağlıdır. Bu anlayış altında biz tələbənin müstəqil istehsal fəaliyyətinə qoşulması, əmək fəaliyyətinə başlaması, ailə qurması, fəaliyyət motivasiyası və dəyərlər sisteminin formalaşması kimi məsələləri nəzərdə tuturuq. [2,78]

Bu yaşa rasionalizm - nəyisə inanaraq qəbul etmək xasdır. Məhz bu yaşda gerçəkliyə münasibət, əqidə və dünyaya baxışlar təcrübədə sınaqdan keçirilir, yenidən dərk edilir, ictimai meyl və yönümlərin vahid sistemi yaranır. Həmin dövrdə emosiyalar və hisslər daha da zənginləşir, ki buda emosional intellektin formalaşmasına təkan verir.

Pedaqoji fəaliyyətdə emosional intellekt pedaqoji situasiyanın zəruri bir hissəsidir. Praktiki olaraq ağlabatan davranış sistemi sahəsində formalaşan müəyyən problemləri həll etməkdən ibarətdir.

Emosional sabitlik, emosional dözümlülük ,emosional müvazinətlilik inklüziv təhsil sistemində pedoqoji prosesin mühim bir hissəsidir və bunlara sahib olmaq üçün müəllim yüksək səviyyədə emosional intellektə malik olmalıdır.

Hal-hazırda, emosional intellekt, insanın emosiyaları tanıma, digər insanların və özlərinin niyyətlərini, motivasiyasını və istəklərini dərk etmək, habelə praktik problemləri həll etmək üçün emosiyalarını və digər insanların emosiyalarını idarə etmək qabiliyyəti olaraq qəbul edilir. Emosional intellektin nisbətən sabit bir qabiliyyət olmasına baxmayaraq, təlim vasitəsilə emosional yetkinliyi artırmaq mümkündür.



Emosional intellektin inkişafı peşəkar inkişaf və özünü inkişaf yolu ilə həyata keçirilir. Emosional intellekt, öz quruluşuna idrak, davranış və emosional komponentləri daxil edən, öz emosiyalarını və başqalarının emosiyalarını bilmək, anlamaq və tənzimləməyi təmin edən mürəkkəb inteqrativ qabiliyyətdir. Bütün bunlar ümumilikdə şəxsiyyətlərarası qarşılıqlı münasibətlərin uğuruna və şəxsi inkişafına təsir göstərir. [4, s.110]

Psixologiyada emosional intellektin inkişafı prosesi dörd mərhələdən ibarət olur.

1. Öz hisslərini və emosiyalarını bilmək və anlamaq; əks olunması

2. Hədəfinizə çatmaq üçün emosiyalarınızı, hisslərinizi, emosional vəziyyətlərinizi idarə etmək; özünə nəzarət

3. Başqalarının emosiyalarını tanımaq və ünsiyyət tərəfdaşlarının hisslərini anlamaq.

4. Başqalarının emosiyalarınızı, hisslərinizi, emosional vəziyyətlərinizi idarə etmək;

Uğurlu fəaliyyət emosiyalarınızı tənzimləmək bacarıqlarından asılıdır.

Emosional yetkinliyin komponentləri bunlardır: özünü tənzimləmə, refleksiya, empatiya, özünü motivasiya, ünsiyyət və özünü idarəetmə.

Hər kəs emosiyalarını tənzimləmək, sözlərin, düşüncələrin köməyi ilə hərəkət etmək və ya nəfəs və əzələ tonusunu tənzimləmək bacarığına sahib olmalıdır. Özünü tənzimləməlidir.

Özünü tənzimləmə - insanın emosional vəziyyətini tənzimləmək, hissləri idarə etmək, onları müəyyən bir çərçivədə saxlamaq, özünü sakitləşdirmək, narahatlıq və əsəbilikdən qurtulmaq, mənfi həyat vəziyyətlərindən azad olmaq qabiliyyətidir.

Refleksiya, özünü inkişafı qavrayış prosesidir. Müəllimin təfəkkürünün inkişafı, mürəkkəb zəruri məlumatları qavrayışını təmin edən, bilik və bacarıqları inkişaf etdirir, və fəaliyyətdə müəllimin şəxsiyyətini dərk etməyə kömək edir.

Empatiya fərdlərin mənəvi birliyidir, başqa bir insanın problemlərini özününki kimi qəbul edir. Müəllimin belə bir emosional səriştəsi onun işində böyük rol oynayır.

Öz-özünə motivasiya, həvəslə, şübhə etmədən, insanın işinə məqsədli çatmaq istəyidir. Qeyd etmək lazımdır ki, özünü motivasiya edən vacib amil, özünə hakim olmağa səbəb olan emosiyalarımızı idarə etmək bacarığıdır.

Ünsiyyət, fərdlər arasındakı münasibətlərin idarə olunması, münaqişə vəziyyətlərinin həlli, qəzəbli bir insanı sakitləşdirmək və ya ona ilham vermək bacarığına sahib olmaqdır.

Özünü idarəetmə prosesi zərərli emosiyaları idarə etmək qabiliyyəti olaraq təyin olunur və emosional intellektin əsas komponenti hesab olunur. Emosional müvazinətin qorunması müəllimin fəaliyyətində əsas amildir. Belə bir tarazlığın olması gərginliyi, qorxu və qəzəbi aradan qaldırır, düşüncə aydınlığına təsir edir.

ƏDƏBİYYAT

1. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981, 190 s.
2. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 134 s.
3. Əliyev R.İ. Psixologiya. Bakı: Nurlan, 2008, 352 s.
4. Левин К. Теория поля в социальных науках. СПб.: Сенсор, 2000, 368 с.
5. Эго-психология и связанные с ней направления в теории личности: Э.Эриксон, Э.Фромм, К.Хорни// Теории личности. СПб.: Питер, 1997, с. 214-246
6. Леонтьев А.Н. Деятельность. Сознание. Личность. М.: 1977, 304 с.
7. Зимняя И. А. Педагогическая психология. М.: Логос, 2003, 384 с.

РЕЗЮМЕ
ПЕДАГОГИКО-ПСИХОЛОГИЧЕСКИЕ ТРЕБОВАНИЯ К ПОДГОТОВКЕ ПРОФЕССИОНАЛОВ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ: ЭМОЦИОНАЛЬНЫЙ ИНТЕЛЛЕКТ

Гаджиева А. Ш.

Актуальным является изучение проблемы эмоционального интеллекта в педагогической деятельности. Большое значение придается индивидуально-психологическим качествам учителя, влияющим на взаимоотношения с учениками. Уровень развития профессиональных и личностных качеств учителя актуален и важен в инклюзивном образовании, потому что он оказывает большое влияние на развитие личности ученика. Быть учителем - это ответственность, и система инклюзивного образования предъявляет к ней более современные и высокие требования.

С недавних пор проблема эмоционального интеллекта привлекает внимание психологов и является объектом научных исследований. С конца 1990-х до начала 21 века внимание к феномену эмоциональной сферы в психологии значительно возросло. Личность - это

единица, в которой неразрывно связано каждое качество. Развитие эмоциональной сферы личности, как известно, зависит от исторических условий, взаимоотношений индивида с той или иной социальной средой, процессов, происходящих в обществе и т. д

Ключевые слова: эмоциональный интеллект, саморегуляция, общение

SUMMARY

PEDAGOGICAL-PSYCHOLOGICAL REQUIREMENTS FOR THE TRAINING OF INCLUSIVE EDUCATION PROFESSIONALS: EMOTIONAL INTELLIGENCE

Hajiyeva A. Sh.

The study of the problem of emotional intelligence in pedagogical activity is relevant. Great importance is attached to the individual-psychological qualities of the teacher that affect the relationship with students. The level of development of professional and personal qualities of a teacher is relevant and important in inclusive education, because it has a great impact on the development of the student's personality. Being a teacher is a responsibility, and the inclusive education system places more modern and higher demands on it.

From modern times, the problem of emotional intelligence has attracted the attention of psychologists and has been the object of scientific research. From the late 1990s to the beginning of the 21st century, attention to the phenomenon of the emotional sphere in psychology has increased significantly. Personality is a unit in which each quality is inextricably linked. The development of the emotional sphere of the individual, as it is known, depends on historical conditions, the relationship of the individual with this or that social environment, the processes taking place in society, and so on.

Key words: emotional intelligence, self-regulation, communication

İBTİDAİ SİNİFLƏRDƏ METODİK İŞİN TƏŞKİLİNƏ NƏZARƏT

Hüseynov Ş.Ə.

Sumqayit Dövlət Universiteti

shikar_ hüseynli @mail.ru

Xülasə: Tədim olunan materialda ibtidai təhsildə metodik işin təşkili, onun idarə olunması müasir konteksdə, təhsil islahatı və kurikulum sistemi baxımından şərh olunur, ibtidai siniflərə metodik işə məktəb rəhbərləri tərəfindən rəhbərliyin istiqamətləri və onun kryfiyyətinin yüksədilməsi müəyyənləşdirilir.

Açar sözlər: *ibtidai təhsil, kurikulum, metodik xidmət, planlaşdırma, idarəetmə*

"Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda əsas istiqamətlərindən birini kadr hazırlığı və məktəbdə metodik xidmətin səviyyəsinin yüksəldilməsi təşkil edir. Pedaqoji prosesin keyfiyyəti müəllimdən, onun ideya-siyasi, elmi-pedaqoji və metodiki hazırlığından asılı olduğundan müasir dövrdə yüksək ixtisaslı, elmi-nəzəri və metodik cəhətdən daha yetkin, sərişləli, yaradıcı, novator müəllim kadrlarına və məktəb rəhbərlərinə böyük ehtiyac duyulur. Belə kadrlar olmasa məktəbin fəaliyyətini məqsədəuyğun şəkildə planlı təşkil etmək, tədris-pedaqoji işin keyfiyyətini günün tələbləri səviyyəsinə qaldırmaq mümkün deyil. Hazırda təhsil sistemində aparılan məzmun yeniləşmələri, təhsilin demokratik və humanist prinsiplər

əsasında qurulduğu, ibtidai siniflərdə kurikulum islahatının həyata keçirildiyi bir vaxtda pedaqoji kadrlarla aparılan metodik işin strukturunda, məzmunuda və formasında mühüm dəyişikliklərin aparılması zərurətə çevrilir. Metodik işin məzmununu, məqsədini, formalarını bilmədən onu təkmilləşdirmək, ən optimal variantları tətbiq etmək mümkün deyil. Metodik iş məktəbi idarəetmə orqanlarının əsas fəaliyyət istiqamətlərindən biri olduğundan bu prosesin idarə olunması elmi-pedaqoji əsaslarla təşkil olunmalıdır.

Məktəb rəhbərlərinin sinif müəllimləri ilə apardığı metodik işlərin əhatə dairəsi genişdir. Onlardan biri və başlıcası müəllimin fəaliyyətini, iş sistemini öyrənilməsidir. Praktik fəaliyyətdə bu özünü ən çox dərslərin dinlənilməsi vasitəsilə göstərir. Bu proses dərsə hazırlıq dövründə, dərsdə və dərsdən sonra həyata keçirilməklə kompleks xarakter daşıyır. Məktəb rəhbərləri metodik xidmətə rəhbərliyi həyata keçirərkən onun məzmununu müəyyənləşdirməli, real imkanları aşkara çıxarmaqla hər bir məktəbin ehtiyac və imkanlarını, yerli şəraiti, məktəbin üzərində işlədiyi pedaqoji problemin xüsusiyyətlərini qarşıya qoyulan konkret vəzifələri, məktəbin maddi bazasını müəyyənləşdirməlidir.

İbtidai təhsilə metodik xidmətin təşkilində və idarə olunmasında planlaşdırma ümummməktəb planının tərkib hissəsi olmaqla mühüm mərhələdir və fəal yaradıcı prosesdir. Həmin plan əsasında metodik xidmətin istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilə bilər:

1. Proqramların, dərsliklərin, dərs vəsaitlərinin məzmunu ilə bağlı metodik problemlərin həlli.

2. İbtidai siniflərdə tədrisin və şagirdlərin bilik səviyyəsinin təhlili, təlim və tərbiyənin praktikası, onun müasir tələblərə uyğunluğu.

3. Qabaqcıl pedaqoji təcrübənin ümumiləşdirilməsi və tətbiqi, sinif müəllimlərinin yaradıcı fəaliyyətlərini aşkara çıxarılması.

İbtidai təhsilə metodik xidmətin təşkili aşağıdakı idarəetmə formalarından istifadəni məqsədəuyğun sayır: pedaqoji şura, metodiki şura, ibtidai sinif metodbirləşməsi, yaradıcı qruplar, açıq dərslər, metodik müşavirələr, metodik guşə və kabinetlər, fərdi hamilik, məsləhət, müsahibə və s.

Müasir dövrdə kurikulumun tətbiqi metodik xidmətin təşkilində ənənəvi idarəetmə modelindən innovativ idarəetmə modelinə keçilməsini zəruri hesab etməklə idarəetmədə müstəqilliyi və təşəbbüskarlığı, təlim-tərbiyə prosesinin təşkilinə yeni yanaşmaları, informasiya texnologiyalarının tətbiqini ön plana çəkir. Belə olan halda real nəticələr əldə etmək mümkündür.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013
2. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu. Bakı, 2009
3. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı, 2006
4. Cabbarov R. H.Təlim-tərbiyə müəssisələrinin idarə edilməsi məsələləri. Bakı, 2002
5. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri.Bakı, 2011

РЕЗЮМЕ

КОНТРОЛЬ ЗА ОРГАНИЗАЦИЕЙ МЕТОДИЧЕСКОЙ РАБОТЫ В НАЧАЛЬНЫХ КЛАССАХ

Гусейнов Ш. А.

В данном материале в современном контексте комментируется организация и улравление методического обслуживания начального образования соответственно

требованиям реформы образования и курикулуму. Определяются направления методических работ, связанных с начальным образованием, проводимые руководством школы и выясняется влияние всего этого на повышение качества начального образования.

Ключевые слова: начальное образование, курикулум, методическое обслуживание, планирование, управление

SUMMARY

SUPERVISION OVER THE FORMATION OF WORK IN PRIMARY GRADES.

Guseynov Sh. A.

Methodic services in primary education, its governing in modern way and association with the students are investigated in this article. Also the forms of high quality primary education are determined according to the work of principals and chiefmen of schools.

Key words: primary education, kurikulum, methodic service, planning, governing

EKSTREMAL VƏZİYYƏTDƏ YARANAN POSTTRAVMATİK STRESS POZUNTULARININ PSİXOKORREKSİYASI

Hüseynova İ. A.

Sumqayıt Dövlət Universiteti

Xülasə: Ekstremal vəziyyətdə psixoloji böhran mövcuddur ki, bu insanların psixikasına ciddi təsir edərək funksional pozuntular yaradır. Böhranın ağır yaşantıları insanın sağlamlığını sıradan çıxarır. Bu günkü gündə koronavirusun geniş miqyasda yayılması və müharibədə gedən ağır döyüşlər, mülki əhalinin Ermənistan tərəfindən raket atəşinə tutulması, insanlar arasında yeni böhran yaranmasına gətirib çıxartdı. Bu baxımdan mövcud problemlərin yaratdığı psixoloji fəsadları araşdırmaqla yanaşı, onların korreksiya edilmə yollarını da inkişaf etdirmək vacib məsələdir. Məqalədə bu mövzu araşdırlmışdır.

Açar sözlər: stress, kəskin stress reaksiyaları, depressiv pozuntu, təşviş pozuntusu, kəskin stress pozuntusu, posstravmatik stress pozuntusu, korreksiya

Hər hansı bir məlum olmayan, gözlənilməyən, qəfil baş verən hadisə ekstremal vəziyyət adlanır. Təbii fəlakətlər nəticəsində yaranan hadisələr (zəlzələ, qasırğa, sel, daşqın, sunami, yanğın), insanlar tərəfindən törədilən (yol-nəqilyyat qəzaları, oğurluq, seksual zorakılıq yaxud zorlamaya cəhd, cinsi istismar, terror, müharibə) hadisələr ekstremal vəziyyət hesab olunur. Bir-birinin ardınca baş verən hadisələr psixikadan heç də yan keçmir. Son dövrdə gözlənilmədən covid-19 koronovirus pandemiyası və Ermənistanla Azərbaycan arasında gedən ağır müharibə insanlarda vahiməli qorxular, həyəcan, təşviş yaradır. İnsanlar bu hadisələrə psixoloji baxımdan hazır olmadıqları halda məruz qaldılar. Bu baxımdan sonu bilinməyən, kəskin stress yaradan hadisələrə psixoloji hazır olmaq və psixoloji problemlərə müqavimət göstərə bilmə gücünə malik olmaq üçün insanları maarifləndirmək günün ən aktual məsələsidir.

Ekstremal vəziyyət orqanizmin uyğunlaşdırıcı mexanizmlərinin həddən artıq gərginləşməsi nəticəsində yaranan son dərəcə ağır, hətta çox vaxt həyatla ölüm arasındakı vəziyyətdir. Ekstremal vəziyyətlər insanların psixoloji və fiziki sağlamlığına ciddi təsir edir. İfrat qorxu, kəskin stress,

vahimə, şok insanlarda psixoloji travma yaradır. Psixoloji travma psixikada funksional pozuntuların yaranmasına səbəb olur.

Dinc, rahat həyat şəraitinə uyğunlaşmış insanlar gözləmədikləri halda iki ağır hadisə ilə üzləşməli oldular. Bugünkü zamanda koronovirusun geniş miqyasda yayılması və Ermənistanla Azərbaycan arasında gedən ağır döyüşlər, mülki əhalinin Ermənistan işğalçıları tərəfindən raket atəşinə tutulması insanlar arasında yeni böhran yaranmasına gətirib çıxardı. Böhran vəziyyəti insanlarda kəskin stress reaksiyalarına səbəb olur. Kəskin stress reaksiyaları yaranmış travmatik hadisəyə cavab reaksiyasıdır ki, bu bir neçə saat və ya 3 günə kimi davam edə bilər. Kəskin stress reaksiyaları insanlarda qorxu, depressiya, təşviş, yorğunluq, emosional baxımdan yüksək oyanıqlıq, idrak prosseslərində zəifləmə yaradır. Kəskin stress reaksiyaları bir neçə saat və ya 3 gün ərzində keşmirsə, uzunmüddətli davam edirsə, bu kəskin stress pozuntusu yaradır. Kəskin stress pozuntusunun bir-iki ay müddətində qarşısı alınmırsa, bu da psixikaya ciddi təsir edərək, posstravmatik stress pozuntularını yaradır. Postravmatik stress pozuntusu bir və ya bir neçə son dərəcə təhlükəli stress hadisəsi nəticəsində inkişaf edir. Hər üç posstravmatik pozuntu biri digərini yaradır, onları bir-birindən fərqləndirən əlamət simptomların davam etmə müddətidir. Posttravmatik stress pozuntuları 1-3 ay arası davam etdikdə xroniki hala çevrilir. Posttravmatik stress pozuntusu hər yaş qrupunda olan şəxslərdə yarana bilər.

Posstravmatik stress pozuntularının əlamətləri kimi aşağıdakıları göstərmək olar:

- yuxu ilə bağlı problemlər (yuxusuzluq, yuxunun qırıqlığı, vahiməli yuxu görüldüyü üçün yuxu fobiyası);
- şiddətli tutmalar (aqressivlik);
- depressiv pozuntu;
- təşviş pozuntusu;
- affektiv pozuntu;
- diqqətin, yaddaşın, hafizənin pozulması;
- arzuolunmayan xatirələr;
- oyaq qalma səviyyəsinin artması;
- hərəkətlərin ləngliyi;
- ümumi həyəcanlılıq;
- hallünsinasiyalar
- intihar və s.

Posstravmatik stress pozuntusu insanların fiziki, koqnitiv, emosional və davranış sferasında pozuntular yaradır. Sadalanan pozuntular psixoloji baxımdan zəif, həyəcanlı qorxaq tip insanlarda daha dərin olur. Əgər insan şəraiti idarə edirsə, posttravmatik pozuntunu yaradan problemlərdən azad olur və bu problemin yaşanması onu psixoloji cəhətdən güclü edir. Təəssüf hissiylə qeyd etmək olar ki, son dövrdə baş verən böhranlı hadisələr insanları psixoloji baxımdan çökdürərək, sağlamlığına mənfi təsir etmişdir. Bu baxımdan insanların psixoloji rifahını yüksəldərək, sonu bilinməyən hadisələrə, ekstremal vəziyyətə müqavimət göstərmələri üçün, onların problemlərini aradan qaldıraraq psixoloji gücünü inkişaf etdirmək günün vacib məsələsidir.

Ekstremal vəziyyətin yaratdığı travmanın və travma sonrası formalaşan posstravmatik stress pozuntusu müxtəlif üsullarla korreksiya edilir. Bunlardan daha səmərəlisi kimi aşağıdakıları göstərmək olar:

- koqnitiv-bihevioreal terapiya;
- geştalt terapiya;
- qrup terapiya;

- relaksiya;
- abdominal nəfəs (tənəffüs texnikasının köməyi ilə istirahət);
- autogen məşq;
- meditasiya.

Geştalt terapiya. Bu terapiyanın başlıca məqsədi pasientə öz tələbatını anlamağa kömək etmək, yəni psixoloji travmanın yaranmasına səbəb olan amilləri üzə çıxararaq, onları neytrallaşdırmaqdır [1.səh.378] Ümumiyyətlə, geştalt terapiya qrup şəklində istifadə edilir, lakin posttravmatik stress pozuntusunda fərdi yanaşma daha effektivdir. Geştalt terapiyası posttravmatik stress pozuntusunun aşağıdakı simptomlarında istifadə edilə bilər:

- psixosomatik xəstəliklər;
- qorxu və fobiya;
- panik atak;
- nevrotik xəstəliklər;
- yuxu pozuntuları;
- depressiv təzahürlər;
- intihar meylləri;
- aqressiya, artan narahatlıq, təcavüzkarlıq, qıcıqlanma.

Psixoloji işin məqsədi travmanın yaratdığı problemləri aradan qaldırmaq və daxili dəstək mənbəyinin yaradılması, özünütənzimləmə proseslərinin optimallaşdırılması sayəsində insanın inkişafı prosesini stimullaşdırmaqdır. Psixoloq onların əhəmiyyətini və rolunu anlamaq üçün kömək edir. Fərdin psixoloji səviyyədə travmatik vəziyyəti tamamlaya bilməməsi problemi geştalt terapiya vasitəsilə aradan qaldırılır.

Posttravmatik stress pozuntusuna məruz qalan şəxs ətraf aləmlə əlaqələrini kəsir. İnsan özünü dərk etməni dayandırır. Bu zaman qıcıqlanma və təcavüzkarlıq hissləri yüksəlir. Əgər fərd belə hissləri münasib formada ifadə edə bilmirsə, o, neqativ hissləri öz orqanizminə yönəldə bilər. Nəticədə somatik xəstəliklər (xroniki əzələ gərginliyi, arterial təzyiqin artması, mədə xorası, ürək nahiyyəsindən ağrı, tənəffüsün çətinləşməsi və s.) meydana gələ bilər. Geştalt terapiyada dörd mərhələdən ibarət olan aşağıdakı texnika istifadə olunur:

- pasientə öz problemini təsəvvür etmək və onu danışmaq təklif olunur;
- ağrılı hisslərin arxasında duran aktiv reallaşmamış tələbat üzə çıxır;
- pasient bloklanmış fərdi hisslərini və ehtiyaclarını ətraf mühit istiqamətində ifadə edir;
- alınmış təcrübənin inteqrasiyası və onun bütöv şəxsiyyət sisteminə daxil edilməsi həyata keçirilir.

Məlumdur ki, geştalt bütövlükdə qavrama deməkdir. Tamamlanmamış hadisələr məsələn, illər boyu arzusunda olunan istəyə çatmadıqda, başqasıyla münasibətin müəmmalı şəkildə qırıldıqda, yaxud müəmmalı tərzdə sonlandıqda, hansısa iş yarımçıq saxlanıldıqda, ağır travmatik hadisə yaşadıqda natamam geştalt yaranır. Bundan başqa heç cür bağışlana bilinməyən insanlar, unutmaq iqtidarında olunmayan neqativ hallar, unudulmayan pis xatirələr, illərlə istifadə olunmayan əşyalar və s. yarımçıq geştaltın yaranmasına səbəb olur. Geştalt öz-özünə bağlanaraq tamamlanmır. Əgər bütün emosiyaları ilə yaşanılaraq saxlanılırsa, gecə-gündüz fikirləşərək üzərinə qayıdılırsa, yarımçıq geştalt heç zaman bağlanmır. Əksinə, fərd öz enerjisi ilə qidalandıraraq daha da dərinləşdirir. Bu baxımdan, bu gün ekstremal vəziyyətdə baş verən travmatik stress pozuntuları vaxtında korreksiya olmalıdır ki, şüuraltı yarımçıq geştaltın izi dərin kök ataraq insanların psixi və fiziki sağlamlığına ciddi zərər verməsin. Bunun üçün korreksiya üsulları içində ilk yardım olaraq, geştalt terapiya çox faydalıdır.

Qrup terapiyası. Posttravmatik stress pozuntusunun korreksiya edilməsində qrup terapiyasının xüsusi rolu vardır. Beləki, oxşar hadisəni yaşamış başqa insanların iştirakından istifadə edilir, travmatik situasiya zamanı zərərçəkmişin davranışı mühakiməsiz qiymətləndirilir. Qrup terapiyası dəstəkləyici, psixodinamik və koqnitiv xarakterli yanaşmalar vasitəsi ilə aparılır.

Relaksiya. Psixoloji travma yaşamış insanlar tez-tez daimi sinir gərginliyindən əziyyət şəkirlər. Bu, həddindən artıq həssaslıq, qıcıqlanma, yuxu problemlərinə səbəb ola bilər, bu da öz növbəsində yorğunluğa gətirib çıxarır və narahatlıq doğuran simptomları artırır. Bu vəziyyətdə, şüur səviyyəsində terapiya kifayət etmədiyi üçün relaksiya texnikalarından istifadə olunması faydalı ola bilər. Bu texnika insanın vəziyyətini yaxşılaşdırmaqla yanaşı, onun problemləri ilə bağlı acizlik hissini aradan qaldırmağa imkan verir. İnsan dərk edir ki, ona həyəcan verən vəziyyətin öhtəsindən gələ biləcəkdir. Relaksiya texnikası insanın xoşagəlməz fikirlərə və emosiyalara (qorxu, kədər, acizlik hissi və s.) asanlıqla dözməsinə şərait yaradır.

Abdominal nəfəs. Stress vəziyyətində insan nəfəsi tez-tez alır. Lakin əksər hallarda insan passiv olaraq qalır. Bu zaman orqanizm artıq oksigeni xərcləyə bilmir, qanda oksigenin və karbon qazının konsentrasiyası arasında qeyri-bərabərlik yaranır. Bu disbalans çox sayda xoşagəlməz simptomlara gətirib çıxarır. Nəticədə ürək döyüntüsü, boğulma hissi, başgicəllənmə, şüurun itirilməsi qorxusu, görmə qabiliyyətinin pozulması yaranır ki, bu da insanda daha çox qorxuya səbəb olur. Abdominal tənəffüs tənəffüsü normallaşdırır, qanda oksigenin və karbon qazının konsentrasiyası arasında balansı bərpa edir, ümumi istirahət hissi yaradaraq ürək döyüntülərini normallaşdırır.

Texnikadan istifadə vaxtı qarnı şişirtmək lazım deyil, sadəcə qarnın əzələlərini rahatlaşdıraraq nəfəsin daha dərin olmasına, nəfəsalma və nəfəsvermə zamanı nəfəsi hiss etməyə diqqəti cəmləşdirmək lazımdır. Bu texnika narahatlıq hissinin və qorxunun güclü olmasına imkan vermir.

Texnikanı mənimsəmək üçün vaxt tələb olunur. Başlanğıcda pasient hətta nəfəs texnikasını düzgün icra etdikdə belə, qeyri-ixtiyari səthi nəfəs alır. Korreksiya zamanı ilk növbədə pasient necə qarınla nəfəs almanı öyrənir. Pasient texnikanı mənisəyərək, narahat olduğu hallarda istifadə edir. Posttravmatik stress pozuntusunda abdominal nəfəs texnikası çox faydalıdır.

Autogen məşq. Bu üsul emosional gərginliyi və onunla bağlı əsəbiliyi və narahatlığı aradan qaldırmağa kömək edir, yuxunun keyfiyyətini yaxşılaşdırır. Posttravmatik stress pozuntusu tez-tez somatik simptomlar ilə müşayiət olunur. Autogen məşq bədənin ağrı və xoşagəlməz duyğularını aradan qaldırmaqla, ürək döyüntülərini və tənəffüsünü normallaşdırmaq üçün əhəmiyyətlidir. Autogen məşqi aktiv icra etməklə travma ilə bağlı simptomların qarşısını almaq olar. Bundan başqa depressiyanın, ümidsizliyin, faydasızlığın, enerjinin azalmasının, bir şeyə marağın və motivasiyanın olmamasının da qarşısı alınır.

Meditasiya. Meditasiya psixoloji problemlərin korreksiyasında, ümumilikdə şəxsiyyətin dəyər və keyfiyyətini inkişaf etdirməklə, fövqəladə gücü aşkarlamaqda, "ali mən"i kəşf etməkdə böyük qüvvəyə malikdir. Meditasiya təcrübəsi posttravmatik stress pozuntusu üçün xarakterik olan sinir gərginliyini və emosional oyaqlığın dərəcəsini azaldır. Bunun sayəsində qəzəbin və depressiyanın simptomları azalır, eyni zamanda özünə hörmət, enerjililik və rahatlanma qabiliyyəti artır. Meditasiya burada və indi baş verənləri, o cümlədən öz emosiyalarını hisslərinə nəzarət edərək izləməkdən ibarətdir. Bu texnika Şərq mənşəlidir. XX əsrin 80-ci illərindən başlayaraq psixoterapiyada daha çox istifadə olunur. Hadisələrə şüurlu şəkildə nəzarət etmək qabiliyyətini artırır və bunun sayəsində travma haqqında xatirələrə daha az diqqət yetirir və əvvəllər

posttravmatik stress pozuntusunun simptomlarına səbəb olmuş narahat edən duyğular azalaraq zərərsizləşir.

Posttravmatik stress pozuntusunun korreksiya edilməsində istifadə olunan üsulların ardıcıllığına və düzgün istifadə edilməsinə xüsusi diqqət tələb olunur. Ardıcıllıq və istifadə etmə qaydası düzgün formada yerinə yetirilməzsə, əks təsir yaranar. Nəticədə aqressivlik, fobiya və panik pozuntunun dərəcəsi yüksələ bilər.

ƏDƏBİYYAT

1. İsmayılov N.V., İsmayılov F.N. Tibbi psixologiya və psixoterapiya. Bakı, 2008, 416 s.
2. Şəfiyeva E. İ. Klinik pisxologiya. Bakı: BDU, 2002, 80 s.
3. Босс. П., Нортон В.В., Утрата, Травма и Жизнестойкость: работа с неопределенными утратами. 2006.
4. https://www/goole.com
5. https://yandex.ru
6. https://www.stat.gov.az

РЕЗЮМЕ
ПСИХОКОРРЕКЦИЯ ПОСТ-ТРАВМАТИЧЕСКИХ СТРЕССОВЫХ РАССТРОЙСТВ В ЭКСТРЕМАЛЬНЫХ СИТУАЦИЯХ

Гусейнова И. А.

В экстремальном случае возникает психологический кризис, который серьезно влияет на психику людей и вызывает функциональные нарушения кризиса, которые наносят ущерб здоровью человека. Сегодня распространение коронавируса и ожесточенные боевые действия на войне, ракетный обстрел мирного населения со стороны Армении, привели к новому кризису среди людей. С этой точки зрения важно изучить психологические последствия имеющихся проблем, а также разработать способы их исправления. Статья исследует эту тему.

Ключевые слова: стресс, острые стрессовые реакции, депрессивное Расстройство тревожное расстройство, острое стрессовое расстройство, посттравматическое стрессовое расстройство, коррекция.

SUMMARY
PSYCHOCORRECTION OF POSTTRAUMATIC STRESS DISORDERS IN EXTREME SITUATION

Huseynova I. A.

There is a psychological crisis in extreme cases which seriously affects the psyche of people and creates functional disorders. The severe effects of the crisis are detrimental to human health. Today widely spread of the coronavirus and the heavy fighting in the war, shelling of the civilian population by Armenia lead to a new crisis among the people. From this point of view, it is important to study the psychological consequences of existing problems, as to develop ways to correct them.

In the article all these problems are searched.

Key words: stress, acute stress reactions, depressive disorder , anxiety disorder, acute stress disorder, posttraumatic stress disorder, correction

MÜASİR AİLƏLƏRİN QARŞILAŞDIĞI PSİXOLOJİ PROBLEMLƏR

Həsənova N.N.
Mingəçevir Dövlət Üniversiteti
nnifteliyeva@list.ru

Xülasə: Tezis gənc ailələrin üzləşdiyi problemlərə, həmçinin ər-arvad arasında şəxsiyyətlərarası və məişət xarakterli münaqişələrin yaranması səbəblərinə həsr olunmuşdur. Gənc ailənin sosial-mənəvi və əxlaqi-mədəni dəyərlərinin təhlilinə, ailənin əbədi problemi sayılan valideyn-övlad münasibətlərinə xüsusi diqqət ayrılmışdır. Azərbaycan xalqının müqqəddəs sərvəti olan ailənin qorunması, onun ənənəvi dəyər meyarlarına cəmiyyətin verdiyi qiymət, qadına və uşaqlara münasibətdə ailə başçısının həssas və qayğıkeş mövqeyi tezisdə ön plana çəkilmişdir.

Açar sözlər: ailə, nikah, problem, valideyn, münasibət

Ailə bir-birinə bağlı alt sistemlərdən və elementlərdən ibarət açıq bir sistemdir, bir- birilə dinamik qarşılıqlı əlaqədədir. Ailə özünü təşkil edən bir sistem olaraq inkişafın bütün problemlərini və vəzifələrini özündə cəmləşdirir. Ailənin obrazı və ya daxili mənzərəsi, ailə sisteminin fəaliyyətinin subyektiv xüsusiyyətidir və bir sıra fikirlər ailənin daxili ssenarileridir. Ailə nigaha, qarşılıqlı sevgi və hörmət hissinə, qan qohumluğuna, ümumi sosial- mənəvi dəyərlərə, normalara malik olan və əsas olaraq yeni nəslin yaradılması funksiyasını həyata keçirən kiçik sosial qrup və ya birlikdir.[2]

Ailədə problemlər əsasən insanların bir-birinə nəyi necə söyləməklərindən qaynaqlanır. Bəzi cütlüklər bir-birlərinə duyğu və düşüncələrini açıq şəkildə ifadə edə bilirlər. Bəziləri isə fərqli səbəblərdən səmimi olmaqda çətinlik çəkirlər. Əsasən, uzunmüddətli evliliklərdə istək və problemlər açıq şəkildə ifadə edilmədiyində cinsi problemlər, ailə içi şiddət, psixosomatik xəstəliklər kimi simptomlar meydana gelir.

Müasir cəmiyyət sosial varlıq olaraq ailə qarşısında yeni vəzifələr qoyur. Həyatın müxtəlif sahələrində stress səviyyəsi artır və buna görə də ailə üzvləri arasında daha çox emosional dəstəyə, qəbullanmağa, mənəvi ünsiyyət qurmağa ehtiyac hissi artır. Ancaq hələ də əsrlər boyu dəyişməyən əsas problem kimi uşaq yetişdirmək olaraq qalır. Ailədə ər-arvad arasında münasibətlər valideynlik münasibətindən də təsirlənir. Çox sayda tədqiqatlar bu problemin fərqli aspektlərini həll etməyə çalışır. Getdikcə tədqiqatçılar yalnız tərbiyə üçün lazımlı bir təhsil deyil, həm də valideyn şəxsiyyətinin inkişafı üçün bir qaynaq olaraq valideynlikdən danışırlar. Bu problemin inkişafı yalnız valideynlərə deyil, həm də uşaqlar üçün əhəmiyyətli dərəcədə kömək edir, çünki qarşılıqlı əlaqənin əsas komponentərindən biri valideynlərdir."Bir uşağın bütün həyat tərzini və ya sosial varlığını qətiliklə təyin edir" Vıqotski.

Uşaq şəxsiyyətinin formalaşmasında ailə xeyli müddət ərzində əsas rol oynayır. Məlumdur ki, insanın xarakterinin, əməyə, mənəvi, ideya və mədəniyyət sərvətlərinə münasibətinin əsasları ailədə formalaşır. Ailənin tərbiyə mühitini şərtləndirən amilləri iki tipə ayırırlar. Ailə üzvlərinin bir-birilə qarşılıqlı münasibətləri, onların şəxsi keyfiyyətləri və s. birinci tip amillərə, maddi vəziyyətini, mənzil şəraitini, strukturunu və s. ikinci tip amillərə daxildir. [1] Ana uşaq aləminin affektiv mərkəzidir. Uşağın xarici aləmə bütün münasibətləri ana vasitəsilə reallaşır. Lakin uşaq

gələcək ailəsindəki rolunu zehni olaraq eyni cinsdən olan valideynlə eyniləşdirir. Ailədə bu obrazların formalaşması gələcək ailədə də necə insanla ailə qurmasına, ailədəki rol və vəzifəsinə təsir edir. Qız uşaqlarının emosional sferası ana, oğlan uşaqlarının emosional sferası isə ata vasitəsilə formalaşır. Natamam ailələrdə ata və ananın yoxluğu uşaq şəxsiyyətində müəyyən yaralar açır.

Bir çox ailələr uşaqların psixoloji problemləri ilə qarşılaşırlar. Əlbətdə ki, çox vaxt bu cür davranış sadəcə müəyyən bir inkişaf dövrünün davranışına uyğun gəlir. Bu səbəbdən belə bir dövrün çətinliklərinə daha sakit və bağışlayıcı yanaşmaq lazımdır. Ancaq bu problemlər zamanla davam edərsə və ya daha da pisləşərsə, valideynlər müvafiq tədbirlər görməlidirlər. Bu zaman ən çox rast gəlinən hallar aqressivlik, qəzəbli olmaq, yalan və oğurluq, hiperaktivlik, altını islatma, yemək problemləri, ünsiyyətdə çətinliklər, fiziki xəstəliklər, evdən qaçmaq, özünə inamsızlıq və s. İlk öncə problemi ailədaxilində həll etməyə çalışmaq lazımdır. Ailələr açıq şəkildə öz uşaqları ilə onlarda yaranan problem haqqında danışmalıdır və öz köməyini təklif etməlidir. Problem nə qədər tez bilinsə, həlli də bir o qədər tez baş verər. Bəzən isə valideynlər problemi həll etməkdə çətinlik çəkirlər və bu zaman onlar psixoloqa müraciət edirlər. Belə hallarda əsasən ailənin bütün üzvləri bu prosesə cəlb olunurlar.

Bu mövzu çox aktualdır, çünki müasir ailə bir çox psixoloji problemlə qarşılaşır və münaqişə vəziyyətlərinin aradan qaldırılmasında böyük çətinliklər yaşayır. Müasir ailə daxilində gender amillərindən və rol münasibət sistemlərindən təsirlənən ailə münaibətlərinə xüsusilə rast gəlinir. Hər bir ailə fərdi və müxtəlif elmlərin, xüsusilə psixologiya və pedaqogikanın diqqətlə araşdırılmasına tabedir. Bunun üçün isə ailə ilə maraqlanan sahələr ailənin anlayışını və mahiyyətini dərindən bilməlidirlər.

Ailə üzvlərinin psixo-emosional vəziyyəti, münasibətləri və ailə rolları ailədə böyüyən insanın davranış tərzinə, xarakterinə, inancına və meylinə təsir göstərir. Bir insan ailədəki qarşılıqlı təsir təcrübəsini geniş bir sosial cəmiyyətə əməkdaşlıq, qarşılıqlı yardım və dəstək şəklində köçürür və ya təəssüf ki, sadalanan bacarıqların olmadığı təqdirdə əks hal baş verir.

Evlilik problemləri ər və arvadın həyatında ortaya çıxan, bəzən uzun və ağrılı bir fikir ayrılığına səbəb ola biləcək çətinliklərdir. Ailə içindəki münasibətləri uyğunsuzlaşdırır və həyatdan dərin narazılıq hisslərinə səbəb olurlar. Problemlər yayılma dərəcəsi və ailəyə təsirinin gücü ilə xarakterizə olunur. Məsələn, bir problem bir çox ailə üçün kifayət qədər ümumi ola bilər. Yəni həyat boyu çətinliklər yaratsa da problem ailəni kökündən məhv etmir. Ailənin yalnız bir hissəsinin qarşılaşdığı başqa bir problem növü isə ailə sisteminin mövcudluğu üçün çox dağıdıcı olur. Dövrümüzdə ən aktual olan boşanma problemləri qondarma nikahların yayılması və uşaqların qeyri-qanuni doğulması, natamam ailələr, evli cütlüklərin şüurlu və məcburi övladsızlığı, ailə daxilində şiddətin artmasıdır.

Sosial bir qurum olaraq evlilik getdikcə daha az funksiyasını yerinə yetirir və bir çox elm adamının qeyd etdiyi kimi bu dərin bir böhrandır. Ailə problemləri ailənin özü olduğu müddətdə mövcuddur, lakin cəmiyyətdəki əhəmiyyətli dəyişikliklər və dəyişikliklər səbəbi ilə yeni, spesifik ailə problemləri ortaya çıxmağa başladı. Ən tipik ailə problemləri bunlardır: zorakılıq, evlilik rollarının balansının pozulması və ər-arvadın nüfuzunun qeyri-uyğunluğu, müxtəlif sosial rolları olan qadınların həddindən artıq yüklənməsi, intim münasibətlərin uyğunsuzluğu. Müasir cəmiyyət və mədəniyyətin yaratdığı spesifik problemlər olaraq bunları müəyyən etmək olar: uşaq dünyaya gətirmək istəyinin olmaması, motivasiya dəyişkənliyi və s.

Müasir cəmiyyətin problemlərindən biri də qadının ailədə kişidən daha çox rol almasıdır. Qadın uşağı böyütmək, ev işlərini görməklə yanaşı, ailəni maddi cəhətdən də dəstəkləyən bir işçi

olur. Qadınlar ömürlərinin çox hisslərini işdə keçirirlər deyə özlərində ailəyə, uşağa qarşı kifayət qədər vaxt ayıra bilmədikləri üçün günahkarlıq hiss edirlər. Həddindən artıq yüklənmək ailə münasibətlərində fikir ayrılığına səbəb olacaq qıcıqlanmaya səbəb ola bilir.[3]

Sosial münasibətlərin və hər şeyin dəyişməsində ailənin aktiv rolu, həyat quruluşu kiçik bir sosial qrup olaraq ailənin analizində əks olunur. Ailənin əsasını nikah münasibətləri təşkil edir. Evlilik kişi ilə qadın arasındakı əlaqəni tənzimləyən bir sıra adətlərdir. Ailə qurmaq yalnız ər-arvad arasındakı münasibətləri tənzimləyən bir qurumdur və ailə bununla yanaşı valideynlər və uşaqlar arasındakı münasibətləri də tənzimləyən bir qurumdur. Ancaq hər bir ailə evlilik problemlərinin təsirinə qarşı fərqli müqavimət göstərir, çünki şərtlər çox fərqli ola bilər. Dəyişikliyin nəzəri təhlili və empirik öyrənilməsi problemi azərbaycanlıların ailə dəyərləri və həyat istiqamətləri psixoloqların, pedaqoqların, sosioloqların, tarixçilərin, kulturoloqların diqqət mərkəzindədir. Pedaqoji və psixoloji elm və təcrübələr əsasında ənənəvi Azərbaycan ailələrinin dəyərlərinin qorunması və inkişafı dövlətin, cəmiyyətin vacib və prioritet vəzifəsidir. Milli mənəvi dəyərlərimizin ailələrimizdə qorunması, uşaqlara aşılanması və nəsildən-nəslə ötürülməsində ailə üzvlərinin üzərinə böyük məsuliyyət düşür.

ƏDƏBİYYAT

1. Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Bakı, 2006.
2. Əhmədov Y., Ağamalıyeva V. Ailə xoşbəxtliyinin fəlsəfəsi. Bakı, 2017.
3. Mirzəyev İ. Ailənin sosial psixologiyası. Çaşıoğlu, 2011.

РЕЗЮМЕ
СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ В МОЛОДЫХ СЕМЬЯХ И ИХ ОСНОВНЫЕ ПРИЧИНЫ

Гасанова Н. Н.

Тезис посвящен проблемам, с которыми сталкиваются молодые семьи, а также причинам возникновения конфликтов межличностного и бытового характера. Особое внимание уделяется анализу социально-нравственных и культурно-этических ценностей молодой семьи и отношениям детей-родителей в качестве вечной проблемы семьи. Защита семьи, как священное богатство азербайджанского народа, оценка, данная обществом ее традиционным ценностным критериям, чувственная и заботливая позиция главы семьи в отношении женщины и детей в тезисе выносятся на передний план.

Ключевые слова: семья, брак, проблемы, родитель, отношение

SUMMARY
SOCIO-PSYCHOLOGICAL PROBLEMS IN YOUNG FAMILIES AND THEIR MAIN REASONS

Hasanova N. N

The thesis is dedicated to the problems faced by young families, as well as the causes of the emergence of conflicts of interdisciplinary and domestic nature. Particular attention is paid to the analysis of socio-moral and cultural-ethical values of the young family and the relationship of parents to the eternal problems of the family. The protection of the family, as the sacred wealth of

the Azerbaijani people, the assessment of this society by its traditional value criteria, the sensitive and caring position of the head of the family in relation to women and children in the thesis.

***Key words**:* family, marriage, problem, parent, attitude

POZİTİV DÜŞÜNCƏNİN ŞƏXSİYYƏTİN HƏYATINDA ROLU

İbrahimli N. N.
Sumqayıt Dövlət Universiteti
nezrin.ibrahimli.97@mail.ru

Xülasə: Son illərdə fərdin və cəmiyyətin psixoloji sağlamlığı ilə əlaqədar, ağır həyat şərtlərinə baxmayaraq bu proseslərə təsirli bir şəkildə uyğunlaşıb-uyğunlaşmaması ilə bağlı araşdırmaların sayı daha da artıb. Bu gün pozitiv psixologiya altında araşdırılan müsbət düşüncə bu məsələlər arasındadır. İnsanlar müsbət düşüncə və təcrübələrini inkişaf etdirə bildikləri zaman həyat keyfiyyətlərini də yüksəldə bilər və psixoloji cəhətdən daha sağlam olarlar.

Açar sözlər: pozitiv düşüncə, optimizm, mənfi düşüncə, pessimizm, pozitiv psixologiya

Müasir dövrdə ƏDƏBİYYATdan fəlsəfəyə, dindən sənətə, həyatın hər bir sosial-mədəni sahəsində pozitiv psixologiyanın bir hissəsi olan pozitiv düşüncə konsepsiyasından iz tapmaq mümkündür. Misal olaraq, Mahatma Gandi "Fikirləriniz müsbət olsun, çünki fikirləriniz sözlərinizə çevrilir. Sözləriniz pozitiv olsun, çünki sözləriniz davranışlarınız olar. Davranışlarınız pozitiv olsun, çünki davranışlarınız vərdişlərə çevrilir. Vərdişləriniz müsbət olsun, çünki vərdişləriniz dəyərləriniz olar. Dəyərləriniz müsbət olsun, çünki dəyərləriniz sizin taleyiniz olacaqdır" ifadəsi ilə müsbət düşüncənin fərdin həyat istiqamətini müəyyənləşdirmək gücünə sahib olduğunu vurğulamışdır.

Pozitiv düşüncə həyatın yaxşı tərəflərinə fokuslanan və müsbət nəticələr gözləyən bir düşüncə tərzidir [2, s.115]. Davranışlarımıza və fəaliyyətimizə təsir etmək istəyiriksə, bunu yalnız şüuraltımızla edə bilərik. Bunun üçün müsbət düşüncələri seçməli və onları daim təkrar etməliyik. Çünki təkrar düşüncələr zehində kök salır. Tez-tez təkrarlanan mənfi düşüncələr isə mənfi nəticələr ortaya çıxarır. Dərin köklərə sahib olan bu hisslər və düşüncələr zamanla münasibətə çevrilir [6].

Pozitiv düşüncəli insan xoşbəxtliyə, sağlamlığa və müvəffəqiyyətə diqqətini cəmləyir, hər hansı bir maneə və çətinliyin öhdəsindən gələ biləcəyinə inanır. Pozitiv düşüncə hər kəsin inandığı və qəbul etdiyi bir düşüncə tərzi deyil. Bəziləri onu axmaqlıq hesab edir. Həmçinin, pozitiv düşüncəni reallıq olaraq qəbul edən və öz fəaliyyətində də istifadə edən xeyli insan var [1, s.21]. Bu prinsipi öz həyatınızda istifadə edə bilmək üçün təkcə mövcudluğundan xəbərdar olmaq kifayət deyildir. Bu düşüncə tərzini mənimsəmək lazımdır.

Optimist insanlar bir çox zaman yaxşı şeylərlə qarşılaşacaqlarını zənn edirlər, çünki özlərinin uğurlu və şanslı olduqlarını hiss edirlər [2, s.108]. Müsbət nəticələr əldə etmək üçün münasibət və davranışlarının önəmli olduğunu düşünürlər. Ona görə müəyyən bir işdə nəticə əldə edənə kimi səy göstərmə stimulunu özləri özlərinə yarada bilirlər.

Bir hadisədə müvəffəq olacağını düşünən şəxs eyni vəziyyətdə pis nəticə qazanacağını düşünən bir insandan daha yaxşı nəticə əldə edir və özünü daha yaxşı hiss edir. Optimistlər özlərinə yüksək hədəflər qoyurlar və bu hədəflərə çata biləcəklərini düşünürlər. Tədqiqatçılar bildirirlər ki, şəxsin öz bacarıqlarına güvənməsi müvəffəqiyyətin açarıdır. Optimistlər maneələr və müvəqqəti uğursuzluqların əhval-ruhiyyələrini pozmağına imkan vermirlər.

Məkandan, zamandan, vəziyyətdən və şəraitdən asılı olmayaraq nikbinliyi insanın həyatında davamlı və ardıcıl bir şəkildə vəziyyətlərin müsbət olduğuna və olacağına inanma meyli kimi adlandırmaq olar. Əslində nikbinliyi bu meyli özündə cəmləşdirən düşüncə tərzinə əlavə olaraq şəxsiyyət əlaməti kimi də düşünə bilərik. Nikbin insanlar pessimistlərlə müqayisədə mənfi bir vəziyyətlə qarşılaşdıqda daha planlı hərəkət edərək aktiv və problem mərkəzli mübarizədən istifadə edirlər [4, s.76].

Şəxsin həyatında hadisələrin öhdəsindən gələ biləcəyinə inam nikbinliyin mərkəzində dayanır. Optimistlər hər cür mənfiliklərə qarşı daha asanlıqla müqavimət göstərə bilirlər. Özlərinə güvənirlər, buna görə də mənfi cəhətlərə çox əhəmiyyət vermirlər və təbii olaraq daha az təsirlənirlər. Nikbin insanların xüsusiyyəti kimi öz dəyərlərini bilirlər, dəyərsiz olduqlarını düşünmürlər. Həyatdan mürəkkəb şeylər gözləmirlər, çünki kiçik şeylərdən zövq almağı və bu anı necə yaşamağı bilirlər. Optimistləri münasibətlərindən və hərəkətlərindən dərhal tanımaq mümkündür, çünki dözülməz, sərt, etibarsız deyillər, açıq əlaqələr qura və açıq bir şəkildə çıxış edə bilirlər [5].

Şəxsiyyətin gələcəklə əlaqəli gözləntilərini və bundan asılı olaraq gələcəklə bağlı bugünkü münasibət və davranışlarını pozitiv düşünmə bacarığı olduqca təsirli bir şəkildə formalaşdırır. Bir insanın gələcəklə bağlı gözləntiləri varsa, məqsədinə çatmaq üçün daha çox istəkli olacaqdır. Məqsədinə çatmaq üçün göstərəcəyi səylərin özünü doğrultması və həyatını istiqamətləndirmək gücünə sahib olacağına olan inam bu gözləntiləri ucaltmaqla yanaşı, onlara çata bilmək istəyini daha da artıracaqdır [1, s. 85]. Gözləntiləri aşağı salmaq, uğursuzluq ehtimalını artırmaq, şəxsin özünü daha gücsüz hiss etməsi, istəksizlik mənfi düşüncələrin meyvələridir ki, onlar da gələcəyə mənfi cəhətdən təsir göstərir.

Həyatda hər kəs müsbət və mənfi hadisələrlə əhatələnmişdir. İnsanların fiziki və psixi cəhətdən həyat keyfiyyətlərini artırmağın yolu müsbət düşüncə və təcrübələri inkişaf etdirməkdir [3, s.34].

Çətinliyin, mənfi bir düşüncənin şəxs tərəfindən idarə edilməsi həmişə mümkün olmaya bilər. Ancaq idarəsi çətin bir vəziyyətə yükləyəcəyimiz müsbət fikirlər insanı çarəsizlikdən, onunla birlikdə gələn digər problemlərdən uzaqlaşdıracaq, ona ümid verəcəkdir. Vəziyyətlə əlaqədar şəxsin mənfi cəhətdən yüklənməsi isə bu müddət ərzində tükənmişlik hissini meydana gətirəcək və bu hal həyatın digər sahələrinə də öz təsirini göstərəcəkdir.

Ümumiyyətlə, son günlərdə təmkinli olmaq, gələcək haqqında real düşünmək, yaradıcılıq, cəsarət, məsuliyyət hissi kimi bacarıqlara laqeyd yanaşılır. İnsanların həyat keyfiyyətlərini yaxşılaşdırıb daha sağlam və xoşbəxt olmağı bu xüsusiyyətlərlə əlaqəli olsa da, bu xüsusiyyətlərin özləri isə həyatın axınında qarşılaşdıqları hadisələrə qarşı nə dərəcə müsbət düşüncə və müsbət təcrübə hissini inkişaf etdirə bildiklərindən asılıdır [4, s.45].

Bu halda gələcəklə bağlı müsbət və ya mənfi yükləmələrin nə qədər vacib olduğu aydın olur. Pozitiv düşünməyə səbəb olan adət və inanclar insanların həyat keyfiyyətinin artmasında böyük əhəmiyyət daşıyır. Bunun əksi kimi hallar isə insanlarda depressiya, mənfi avtomatlaşdırılmış düşüncələr kimi müxtəlif problemlərə səbəb olur.

Müsbət düşünməyi bir həyat fəlsəfəsi olaraq mənimsəyən insanlar ətrafdan daha cəsur, özlərinə güvənən insanlar kimi hiss edilir, görünürlər. Bu şəkildə uğura gedən yolda sosial dəstək mövzusunda da heç bir problem yaşamırlar [7].

Depressiv, bədbin əhval-ruhiyyə mənfi hadisələrin xatirələrini əks etdirə və daha çox mənfi qərarlar verdirə bilər. Pozitiv əhval-ruhiyyə isə xoş xatirələri, müsbət emosiya və qərarları təşviq edəcəkdir.

Son illərdə inkişaf edən pozitiv psixologiya səbəbi ilə pozitiv düşüncə bacarıqlarının vacib olduğu məlum bir həqiqətdir. İnsanların baxış nöqtələri şəxsiyyət xüsusiyyətlərinə görə dəyişir. Hadisələrə müsbət tərəfindən yanaşanlar problemlərini asanlıqla dəf edərkən, mənfi cəhətdən yanaşanların isə problemlərinin öhdəsindən asanlıqla gələ bilmədikləri müşahidə edilmişdir.

İnsanlar stress vəziyyətində daha çox pessimistdirlər. Ümumi sağlamlıq problemləri səbəbi ilə depressiyaya uğramış insanlar narahatlıq, nevrotik davranışlar göstərirlər. Bu şəxslər başqalarına nisbətən özlərini uğursuz hiss edir, hadisələrə mənfi yanaşır və özlərinə daha az hörmət edirlər. Bu onların həyat keyfiyyətini aşağı salır və özlərini bədbin hiss etmələrinə şərait yaradır. Bu vəziyyəti öyrənilmiş çarəsizliklə izah etmək mümkündür [4, s.116]. Pozitiv psixologiyanın yaradıcılarından Martin Seliqman öyrənilmiş çarəsizliyi heç bir şeyin önəmli olmadığına olan inam, hər şeydən imtina etmək davranışı kimi izah edir. Öyrənilmiş nikbinlik isə bu çarəsizliyə son verir. Öyrənilmiş nikbinlik bir işdə müvəffəq olmağın hər zaman bir yolunun olduğuna inanmaq, uğursuzluqları müvəqqəti bir vəziyyət olaraq görmək və problemləri həll etmək üçün hərəkətə keçmə istəyi verən düşüncə tərzidir.

Müasir tədqiqatlardan aydındır ki, düşüncə, sağlamlıq və yaşam arasında çox sıx əlaqə vardır, yəni sağlam düşüncə, sağlam bədən və sağlam nitq bütöv şəxsiyyətin əsas göstəricisidir. Müşahidələr göstərmişdir ki, optimist baxış nöqtəsinə sahib insanların depressiv və ya gələcəklə bağlı narahatlıqları olan insanlara nisbətən xəstəliklərlə daha yaxşı bacara bilirlər. Kainatda hər şey bir-birinə qarşılıqlı təsir göstərir. Bədən və zehin arasında da bu qarşılıqlı əlaqə mövcuddur. Müsbət düşüncələr fiziki sağlamlığı dəstəkləyir. Həyata müsbət baxan xoşbəxt şəxslərin beyinləri xoşbəxtlik və canlılıq hissi verən serotonin və ya endorfin kimi maddələri daha effektiv bir şəkildə sərbəst buraxır. Endorfin bir növ təbii morfindir. Bu morfin kimyəvi olaraq istehsal olunan morfindən ən azı üç qat güclüdür. Fiziki travmalarda da müsbət düşünmə bacarığını inkişaf etdirən insanlar müsbət bir fərq yaradır. Bədəndə istehsal edilən nöropeptidlər adlanan zülal zəncirləri pozitiv şəxslərdə daha təsirli olur, bu hormonlar şəxsləri daha sağlam saxlayır və immunitet sistemini gücləndirir [4, s.178]. Bu nüansları şəxsin müsbət düşüncənin gücünə inanması, bu istiqamətdə səy göstərməli olduğunun güclü bir dəlili kimi görə bilərik, yəni şəxsiyyətin həyatındakı uğur və uğursuzluqlar nəyi, nə qədər düşündüyündən və nəyi, nə dərəcədə etdiyindən birbaşa aslıdır.

ƏDƏBİYYAT

1. Aaron Kennard, The Positive Thinking Secret, 2013, səh. 208.
2. Alan Carr, Pozitif Psikoloji, İstanbul 2016, səh. 471.
3. Becca Anderson, Think Happy To Stay Happy, 2018.
4. İlona Boniwel, Kate Hefferon, Pozitif Psikoloji: Kuram, Araştırma ve Uygulamalar, 2011, s. 248.
5. http://www.antalyapsikiyatri.com/psikoterapist-emine-filiz-uluhan/pozitif-dusunmek
6. https://www.kimpsikoloji.com/pozitif-dusunme-sanati/
7. http://www.rasyonelpozitifdernek.org/pozitif-dusunmenin-gucu/

РЕЗЮМЕ
РОЛЬ ПОЛОЖИТЕЛЬНОГО МЫШЛЕНИЯ В ЛИЧНОЙ ЖИЗНИ
Ибрагимли Н.Н.

В последние годы, что касается психологического здоровья личности и общества, тяжелая жизнь следует ли демонстрировать эффективное соблюдение процессов, несмотря на обращает на себя внимание, что количество исследований увеличилось еще больше. В настоящее время положительные позитивное мышление, изучаемое психологией, также входит в число этих вопросов. Индивидуальный позитив проявлять более эффективное копирующее поведение, как он думает, позитивные мысли о жизни, когда они справляются с негативными ситуациями можно ожидать улучшения.
Ключевые слова: позитивное мышление, оптимизм, негативное мышление, пессимизм, позитивная психология

SUMMARY
THE ROLE OF POSITIVE THINKING IN PERSONAL LIFE
Ibrahimli N.N.

In recent years, with regard to the psychological health of the individual and society, a hard life should be demonstrated effective adherence to the processes, despite the fact that the number of studies has increased even more. Currently, positive positive thinking, studied by psychology, is also among these questions. Individual positives exhibit more effective copying behavior, as he thinks positive thoughts about life, when they cope with negative situations can be expected to improve.
Key words: positive thinking, optimism, negative thinking, pessimism, positive psychology

TƏLƏBƏ ŞƏXSİYYƏTİNİN ÖZÜNƏMƏXSUS TİPOLOGİYASI

İsayeva Z.M.
Sumqayıt Dövlət Universiteti
zabite66@box.az

Xülasə: Tezisdə tələbə şəxsiyyətinin istiqamətləri və onların sosial-psixoloji portretini müəyyən edən və təlim uğurlarına təsir edən amillərin kateqoriyaları müəllif tərəfindən araşdırılmışdır. Müasir tələbə gənclərin tiplərinin müqayisəli şəkildə şərhi verilmişdir. Tezisdə tələbələrin özlərinə münasibətləri qruplaşdırılmışdır. Bunlarla yanaşı ali pedaqoji məktəblərdə tələbələrin təlim uğurlarına psixoloji təsir edən amillər psixoloji aspektdə tədqiq edilmişdir. Tezisdə tələbə şəxsiyyətinin tipologiyası geniş və əhatəli şəkildə müəllif tərəfindən araşdırılmışdır.
Açar sözlər: tələbə şəxsiyyəti, tipologiya, intellekt, optimallaşdırma, təlim uğurları

Tələbəlik mobil sosial qrupdur. O, hazırlıqlı, təhsilli gənclərin bir hissəsi olub onların qabaqcıl qrupundan ibarətdir. Ali məktəblərdə təlimin psixoloji inkişaf planında tələbələrin intensiv sosializasiya mərhələsi və ali psixi funksiyaların inkişafı özünü aydın şəkildə göstərir. Bir sözlə, tələbə şəxsiyyəti gələcəyin ali təhsilli mütəxəssisi kimi aşağıdakı istiqamətdə inkişaf edir:

* Peşəyə istiqamətlənmə düzgün istiqamət alır, zəruri qabiliyyətlər əldə edilir.

* Psixi proseslər, sosial təcrübələr artır və təkmilləşir.

* Tələbələrdə borc və məsuliyyət hissi yüksəlir, peşə fəaliyyətində uğura görə məsuliyyət hissi artır.

* Peşə təcrübəsinin, zəruri sosial keyfiyyətlərin formalaşması nəticəsində tələbə şəxsiyyətinin yetkinliyi yüksəlir.

* Gələcəyin mütəxəssisi kimi tələbənin özünütərbiyəsində, özünüreallaşdırmasında mühüm əxlaqii keyfiyyətlər, mənəvi dəyərlər və sosial təcrübə formalaşır.

* Gələcəkdə praktik işə hazırlıq və peşə müstəqilliyi daha da möhkəmlənir və s.

Ali məktəblərdə tələbə şəxsiyyətinin özünəməxsus tipologiyası var. Belə ki, tələbələrdə seçdikləri peşə sahələrinə iddia səviyyələri yüksəlir, sosial və peşə təcrübəsi əsasında mənəvi keyfiyyətlər formalaşır, həmçinin tələbə şəxsiyyətində yetkinlik və təkidlilik inkişaf edir. Bu dövrdə tələbə üçün gələcək mütəxəssis kimi lazım olan zəruri keyfiyyətlərin, təcrübənin formalaşmasında özünütərbiyənin xüsusi çəkisi artır. Tələbələrdə peşə müstəqilliyi və gələcək praktik işə hazırlıq səviyyəsi artır və möhkəmlənir [3, s.77].

Tələbələrin sosial-psixoloji portretini müəyyən edən və təlim uğurlarına təsir edən amilləri iki kateqoriyada fərqlənirlər:

1/ birincisi,onları diqqətinə görə qəbul edirlər- tələbə ali məktəbə gəlmişdir;

2/ ikincisi, təlim prosesində özlərini təzahür etdirirlər ki, onları idarə etmək olsun.

Birinci kateqoriyaya: hazırlıq səviyyəsi, dəyərlər sistemi, təlimə münasibət, ali məktəb realları ilə məlumatlandırılma, gələcək peşə ilə bağlı təsəvvürlər aiddir. Bu amillər bütünlükdə cəmiyyətdə və konkret "məişət bilikləri", habelə informasiya mənbələrinin daşıyıcıları ilə müəyyən olunur. Onlardan tələbəyə dolayı yollarla təsir etmək vasitəsi kimi istifadə etmək olar.

Birinci kateqoriyanın amilləri adaptasiya mərhələsində üstünlüyü ilə həyata keçir.Tədricən birinci qrupun amillərinin təsiri zəifləyir və həlledici rolu ikinci qrup oynayır. İkinci qrupa: təlim prosesinin təşkili, təhsilin səviyyəsi, müəllim və tələbələrin qarşılıqlı münasibət tipləri və s. aiddir. Məhz bunlar əhəmiyyətli dərəcədə tələbə gənclərin psixoloji simasını və peşəkarlıq səviyyəsini müəyyən edir. Bu qarşılıqlı münasibətlərdə tələbə gənclərin peşə seçimi ilə bağlı təhlillər böyük maraq kəsb edir. Bu baxımdan müasir gəncləri üç qrupa ayırırlar:

Birinci qrupu peşəyə yiyələnmək üçün təhsilə yönəldilən tələbələr təşkil edir. Onlar üçün gələcək işlər maraqlıdır. Özünüreallaşdırma əsas məqsədə çevrilir. Hətta gələcəkdə təhsilini magistraturada, doktoranturada davam etdirməyə də meyllidirlər.

İkinci qrupu biznesə yönələn tələbələr təşkil edir. Onlarda təhsilə münasibət bir qədər fərqlidir. Belə ki, onlar üçün təhsil alət qismində dəyərlidir, onun vasitəsi ilə gələcəkdə öz şəxsi işlərini qurmağa cəhd göstərmək və ticarətlə məşğul olmaqdır.

Üçüncü qrupa o tələbələr aid edilir ki, bir tərəfdən onlar "qeyri-müəyyənliklər", digər tərəfdən isə məişət planında müxtəlif şəxsi problemləri ilə yüklənmişlər. Onlar üçün birinci planda məişət, şəxsi, yaşayış və ailə problemləri dayanır [1, s.25-27].

Müasir tələbə gənclərin bir neçə tiplərini fərqləndirirlər:

Birinci tipi - "Sahibkar" adlandırırlar. Bu tipə malik olan tələbə biznes sahəsində uğurlar əldə etməyə can atır. Tələbə ona görə ali təhsil almaq istəyir ki, sahibkarlıqla bağlı nəzəriyyə və praktikaya yiyələnsin, gələcəkdə rəhbər vəzifələrdə fəaliyyətini davam etdirsin. Bu tip tələbələr düzgün ixtisas və peşə seçdiklərinə inanır, həm də öz təhsil müəssisəsinə tənqidi yanaşır, peşələrini daha yaxşı bildiklərini nümayiş etdirməyə cəhd göstərirlər. Onlar işsiz qalmaqdan ehtiyat etmirlər, çünki onlarda şəxsi keyfiyyətlər, fərdiyyətçilik, peşəkarlıq, müstəqillik, şəraitə uyğun olaraq hərəkət

etmək qabiliyyəti, habelə asanlıqla adaptasiya olmaq və yeni şəraitə uyğunlaşmaq kimi keyfiyyətlər təzahür edir.

İkinci tipi "Emiqrant" adlandırırlar. Bu tip tələbələr yüksək ali təhsilə ona görə yiyələnmək istəyirlər ki, sərbəst şəkildə xarici dildə danışsınlar, təhsil almaq imkanlarından istifadə edib gələcəkdə xaricdə işləsinlər. Onlar düzgün peşə seçdiklərinə inanırlar. Bu tip tələbələrdə fərdiyyətçilik, həyata nikbin baxışlar, yüksək optimizm və yeni şəraitə uyğunlaşma xarakterikdir.

Üçüncü tip - hər iki tipə qarşı "*ənənəyə sadiqlik" tipidir*. Bu tipə məxsus olan tələbələr yaxşı təhsili, peşə hazırlığını qiymətləndirməyi bacarırlar. Onlar ali təhsilə ona görə yiyələnmək istəyir ki, mütəxəssis diplomu alsınlar, gələcəkdə elmi-tədqiqatlar işləri aparsınlar. Bu tip tələbələr peşə fəaliyyəti ilə bağlı kifayət qədər məlumata malik deyillər, onların mütaliəsi bir qədər zəifdir. İşsiz qalmaqdan ehtiyat edirlər. Peşəkarlıq və işə qabillik onlarda güclü inkişaf edir. Lakin onlarda risk etmək qabiliyyəti, şəraitə uyğun baxışları dəyişmək, həyati optimizm, yeni şəraitə tezuyğunlaşmaq bir qədər aşağı səviyyə olur.

Tədris və idrak sahəsindəki fəaliyyətə və davranışına görə tələbə şəxsiyyətinin üç tipini xüsusi olaraq qeyd edirlər:

Birinci tip tələbə şəxsiyyətinə malik olanlar ali məktəbdə tədrisin məqsəd və vəzifələrinə üstünlük verirlər. Bu tip tələbələrin maraqları təhsil proqramında nəzərdə tutulandan daha geniş bilik sahəsinə yönəlmiş olur. Həmin tələbələrin sosial və idraki fəallığı ali məktəb həyatının mühüm sahələrində özünü aydın göstərir. Bu tipə mənsub olan tələbələrin fəaliyyəti peşə hazırlığına yiyələnməyə yönəlmiş olur.

İkinci tip tələbə şəxsiyyəti dar ixtisaslaşmaya sosial yönəlişliyi ilə fərqlənir. Birinci tipdə olduğu kimi bu tipdən olan tələbələrin idrak fəallığı tədris proqramından kənara çıxır. Lakin birinci tipdən fərqli olaraq onlarda proqram çərçivəsindən kənara çıxmaq halları daha qabarıq şəkildə baş verir.

Üçüncü tip tələbələrin idrak fəaliyyəti yalnız tədris proqramı həcmində bilik, bacarıq və vərdişlərə yiyələnməyə istiqamətlənir. Tələbə şəxsiyyətinin potensial imkanlarının optimal-laşdırılması şərtlərinə onun idrak fəallığı, müxtəlif fəaliyyət növlərinə istiqamətlənmələri aiddir. Tələbənin əsas tələbatlarından biri ünsiyyətdir. Ünsiyyətdə onlar təkcə ətrafdakı insanları deyil, həm də özlərini dərk etməklə sosial həyat təcrübəsinə yiyələnirlər. Ünsiyyətə tələbat tələbələrin sosial əlaqələrinin, yoldaşlıq və dostluq keyfiyyətlərinin inkişafını şərtləndirir, həmçinin onların bilik və təcrübə mübadiləsini, əhval-ruhiyyəni stimullaşdırır. Tələbə şəxsiyyətinin digər mühüm tələbatlarından biri uğura tələbatdır. Tələbənin həyati tələbatlarının ödənilməsi öz imkanına görə spesifik xüsusiyyətə malikdir.

Psixoloji tədqiqatlar göstərir ki, tələbənin idrak fəallığının yüksəlməsi gələcək peşədə və ali məktəbdə təlimin tələbləri mənəvi tələbatların inkişafı ilə sıx bağlıdır. Apardığımız tədqiqat bir daha göstərdi ki, tələbələrin təlim uğurları özünüanlamanın və özünüdərkin psixoloji xüsusiyyət-lərindən, özünüqiymətləndirmənin adekvatlıq dərəcəsindən çox asılıdır. Tələbələrin müvəffəqiyyətə cəhdi intellekt, özünütəhlil və iradədən asılıdır.

Ali məktəblərdə zəruri olaraq differensiallaşdırılmış təlimdən istifadə olunur. "Hər kəsdən qabiliyyətinə görə" prinsipi tələbənin qabiliyyətinə tələblərin yüksəlişi kimi başa düşülməlidir. Yalnız belə təlimdə hər bir tələbə şəxsiyyətinin intellektual və iradi qabiliyyətləri bütünlükdə reallaşır. Təlim fəaliyyətinin tənzimlənməsində tələbələrin iki tipi: *yüksək və aşağı səviyyə* özünü təzahür etdirir. Orta intellektual qabiliyyətlərlə sistematik olaraq işləmək bacarığı tələbələrin yüksək müvəffəqiyyətə nail olmalarını təmin edir. Tələbənin özünüidarə etmək bacarığının olmaması, proqram materiallarını yaxşı mənimsəməməsi təlimin keyfiyyətini və onun öyrənməyə qabilliyini

aşağı salır. Aparılmış psixoloji tədqiqatlar göstərmişdir ki, tələbələrin özlərinə münasibətləri də müxtəlif olur. Bu baxımdan onlar özlərini aşağıdakı şəkildə qruplaşdırırlar:

1. *Əlaçı -"əzbərçilər"*. Onlar məşğələlərə daima davam edir, zəhmət hesabına yaxşı nəticə əldə edirlər. Onlar həddindən artıq intizamlıdırlar. Sinif nümayəndələrini onlardan seçirlər.

2. *Əlaçı - "ağıllılar"*. Onlar yüksək intellektə, güclü məktəb bazasına malikdirlər. Özlərinin sualları bəzi müəllimləri çıxılmaz vəziyyətə sala bilirlər. Onlar belə hesab edirlər ki, "hər məşğələyə getmək nəyə lazımdır, axı biz ağıllıyıq". Ümumiyyətlə, "hər şeydən bir az" prinsipi ilə oxuyurlar.

3. *"Zəhmətkeşlər"*. Bu cür tələbələr daima oxuyurlar. Lakin öz zehni qabiliyyətlərinə görə onların müvəffəqiyyəti o qədər də ürək açan deyildir.

4. *"Təsadüfilər"*. Bu cür kontingentlər müxtəlif olur: diplomlu gəlin olmaq istəyən qızlar, orduda qulluq etmək istəməyən oğlanlar, xuliqanlar, valideynləri tərəfindən bir təhər ali məktəbə dail edilənlər və s. [3, səh.81].

Təlim prosesinin optimallaşmasında təlim metodlarının təkmilləşməsinin, o cwmlədən təlim və tərbiyə prosesinin fərdiləşdirilməsi mühüm rol oynayır. Tələbə şəxsiyyətinin qabiliyyətləri, ümumi intellektual inkişafı, habelə onun maraq və motivləri ali pedaqoji məktəblərdə onları reallaşdırmağa imkan verir.

Ali məktəbdə tələbələrin təlim uğurlarına onların maddi vəziyyəti, sağlamlığı, yaş xüsusiyyətləri, ailə vəziyyəti, psixoloji hazırlıq səviyyəsi, vərdişlərə yiyələnmə bacarığı aid edilir. Bunlarla yanaşı müasir təlim şəraitində tədris formalarını, məktəbin maddi bazasını, müəllimlərin pedaqoji səriştəliliyini və onların ixtisaslaşma səviyyəsini də qey etmək olar.

Müasir dövrdə psixologiyada işlənilən sosial intellekt anlayışı qabiliyyətlərin kompleksi, kommunikativ səriştəlilik kimi başa düşülür. Sosial intellektin yüksək səviyyəsi E.A.Klimovun təsnifatı üzrə "insan-insan" tipli peşəyə yiyələnmə üçün çox vacibdir. Sosial intellektin yüksək səviyyəsi təhsildə təlim uğurlarının çox yüksək olmayan səviyyəsini ifadə etməklə yanaşı həm də tələbə şəxsiyyətinin tipologiyasının formalaşmasına zəmin yaradır.

ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. B.: Çinar-Çap nəşriyyat-poliqrafiya mətbəəsi, 2009, 620s.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. B.:2004, 432s.
3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiya. B., 2000,171s.
4. Mehdizadə Z.M. Uşaq psixologiyası I hissə, B.: 1982, 90s.
5. Мандрикова Е.Ю. Динамика профессиональной самооценки студентов-психологов // Психология и жизнь: Сб.науч. тр. Вып.1.М.: МОСУ, РПО, 2000.

РЕЗЮМЕ
СПЕЦИАЛЬНАЯ ТИПОЛОГИЯ ЛИЧНОСТИ СТУДЕНТА

Исаева З.М.

В тезисе автор исследует направления личности студента и категории факторов, определяющих их социально-психологический портрет и влияющих на успешность обучения. Дана комментарий сравнительная характеристика типов современной студенческой молодежи. В тезисе группируется отношение студентов к себе. Кроме того, в психологической аспекте изучены факторы психологически влияющие на успеваемость

студентов высших педагогических школ. В тезисе также расследуется автором широко и всесторонне типология личности студента.

Ключевые слова: личность студента, типология, интеллект, оптимизация, успешность обучения

SUMMARY

SPECIAL STUDENT PERSONALITY TYPOLOGY

İsayeva Z.M

In the thesis, the author examines the direction of the student's personality and the categories of factors that determine their socio-psychological portrait and affect the success of education.A commentary is given on the comparative characteristics of the types of modern student youth. The thesis groups the attitude of students towards themselves. In addition, in the psychological aspect, the factors that psychologically influence the progress of students of higher pedagogical schools have been studied. The thesis also investigates the typology of the student's personality widely and comprehensively by the author.

Key words: student personality, typology, intelligence, optimization, learning success

İDRAK TƏLƏBATLARININ PSİXOLOJİ SƏCİYYƏSİ

İsazadə E.Ə.

ADPU-nun Quba filialı

elnare.i0171@gmail.com

Xülasə: Məqalədə deyilir ki, idrak tələbatları fərdin sərbəst şəxsi tələbatları olub məktəbli şəxsiyyətinin davranışının strukturunda şəxsi vəzifələrə malikdir. Məqalədə idrak tələbatlarının əsas psixoloji xarakteri, həmçinin forma və səviyyələri ardıcıllıqla müəyyən edilmişdir. Müəllif qeyd edir ki, idrak maraqları şəxsiyyətin inteqral təhsili olub ümumi fenomen kimi mürəkkəb struktura malikdir. Məqalədə idrak tələbatlarının psixoloji xarakteristikasının,habelə idrak maraqlarının inkişaf mərhələlərinin elmi şərhi müəllif tərəfindən psixoloji aspektdə araşdırılmışdır.

Açar sözlər: idrak tələbatları, maraqlar, fikri fəallıq, motivasiya, inkişaf səviyyələri.

Tələbatlar insanın həyat və inkişafını təmin edən, müəyyən şəraitdə orqanizmin obyektiv ehtiyac vəziyyətidir. Bütün tələbatlar əşyavi məzmunu müəyyən obyektə istiqamətləndirməklə xarakterizə olunurlar. Fəaliyyətə bilavasitə təhrik edən cisim onun tələbatına istiqamətlənir. Tələbatlar üçün periodik aktuallaşma xarakterikdir. O, həyatın müvafiq situasiyasında və fəaliyyətdə insanın ehtiyacının daxili, psixoloji halıdır. İnsanın tələbatları dəyişkəndir. Bəzi tələbatlar mürəkkəbləşir, bəziləri isə yeni tələbatların yaranmasına zəmin yaradır. Ensiklopedik lüğətdə idrak tələbatlarının növbəti təsnifatı verilmişdir: "Tələbat daxili vəziyyət olub şəxsiyyətin fəallığının konkret şəraitində canlı orqanizmin asılılığını ifadə edir [1,səh.209].

İdrak tələbatları fərdin sərbəst tələbatları olub davranışın strukturunda şəxsi vəzifələrə malikdir. Bu tələbatların aspektləri, xüsusilə də onun strukturu, dinamikası və digər tələbatlarla əlaqələri hələ də ciddi diskussiyanın predmeti olaraq qalmaqdadır. İdrak tələbatları və onun formalaşması problemi pedaqoji-psixoloji ƏDƏBİYYATda hələ kifayət qədər öyrənilməmişdir. Son zamanlar bu problemə maraq daha da artmışdır. *Birincisi,* şəxsiyyətin hərtərəfli inkişafının

qanunauyğunluqlarının tədqiqi ilə bağlıdır, idrak tələbatlarının inkişafı onun əsas hissəsini təşkil edir. *İkincisi,* əqli fəaliyyətin tənzim edilməsində motivasiyanın tədqiqi, habelə yaradıcı təfəkkürlə şərtləndirilmiş motivasiya ilə bağlılıqdır.

A.V.Leontyevə görə, tələbatlar - ilkin fəaliyyətin yaradılmasının psixoloji vəziyyətinə və uşağın fəallığına istiqamətlənmişdir [3]. Tələbat özlüyündə fəaliyyətin xarakterini müəyyən etmir, bu onunla izah olunur ki, tələbatlı vəziyyətdə əşya və ondan razılıq qeydə alınmır: bu və ya digər tələbatlar əşyalarla, müxtəlif üsullarla ödənilir.

L.İ.Bojoviçin fikrincə, hər bir uşağa yeni təəssüratlara tələbat xarakterik haldır. Əgər məktəblidə idrak tələbatları geniş şəkildə aktuallaşmayıbsa təlim fəaliyyətinə hazırlıq yaranarsa o davranışın daha aktiv formasına keçmir. Məsələn, əgər şagirddə qarşısına qoyduğu məqsədin həyata keçirilməsinə tələbat yoxdursa və müəllim tərəfindən ona köməklik göstərilmirsə, o zaman şagirdlərin qarşısına hazır məqsədlərini qoymaq lazım gəlir [2].

Müəllim təlim prosesində tələbatların reallaşmasına stimul verən təlim fəaliyyətinin məzmununa dair suallardan xüsusi olaraq istifadə etməlidir. İdrak tələbatlarının bəzi hallarında şagirdlər yaxşı qiymət aldıqda məmnunluq hissi keçirir, bəziləri təlim fəaliyyətinin düzgün təşkilində şagirdin təlimin məzmununun daxilinə yönəlməsindən razılıq hissi özünü göstərir. Təlim fəaliyyətinin gedişində onun təşkilindən, ümumi mühitindən, müəllimin şagirdlərlə ünsiyyət tipindən asılı olaraq təlim, idrak tələbatları formalaşır, təkmilləşir.

Təlim fəaliyyəti prosesində təkcə tələbatların komponentlərinin şəxsi göstəriciləri dəyişmir, həm də təlimin sosial yönəlişliyi - tələbat ictimai əhəmiyyətli işə, özünütəkmilləşdirməyə başlayır. Bütün bunlar spesifik insani tələbatların fəaliyyətinin təşəkkülünün əsasını qoyur. İdrak tələbatları tipik formada ilkin olaraq situativ idrak tələbatları kimi təzahür edir ki, onlar şəxsiyyətlərarası birgə fəaliyyətdə ünsiyyətin xüsusiyyətləri və konkret vəzifələrin şərtlənməsi ilə təzahür edir. Situativ idrak tələbatları intellektual vəzifələrin elə şəraitində yaranır ki, onların həlli prosesində problemli situasiya özünü göstərir. Bu situasiya subyektdən yeni biliklərə və fəaliyyət üsullarına yiyələnib qoyulmuş vəzifələrin həllinin təminatını tələb edir.

İdrak tələbatları tapşırıqlar situasiyasında yaranır. Tələblər fikri fəaliyyətdə intellektual vəzifələrin təqdimi kimi aşkar olunur. Fikri vəzifələrin yeni tələbləri idrak tələbatlarının situativ mənbəyi kimi özünü göstərir. Deməli, situativ idrak tələbatları yeni tələblərin əsasında problemli situasiyada təşəkkül edir. Bir sözlə, idrak tələbatları problemli situasiya şəraitində baş verir. V.S.Yurkeviç tədqiqatlarında idrak tələbatlarının əsas xarakterini belə müəyyən etmişdir:

1. İdrak tələbatları – hər şeydən əvvəl yeni informasiyalara tələbatdır, yeni informasiyalar müxtəlif formalarda ola bilər: *yeni stimulda* (gözlənilməz səs-küy, qeyri-adi forma, əşyanın yeni rəngi), *əşyalar haqqında yeni biliklər* (onların təyini, tərtibi), *yeni sistemdə aləm haqqında təsəvvürlər* (elmi biliklər). Ən sadə və mürəkkəb üsullar bütünlükdə bu və ya digər idrak tələbatlarını xarakterizə edir. Bu müsullardan asılı olaraq idrak tələbatlarının inkişaf səviyyələrini fərqləndirirlər [5].

2 yaşdan 5 yaşa kimi uşaqların "nə üçün?"lər yaş dövrüdür. Çünki o ətraf aləmi aktiv şəkildə anlamağa çalışır. Bu növbəti mərhələ uşağı hər şeylə maraqlanmağa aparıb çıxarır. Özünün gələcək inkişafında idrak tələbatları yüksək səviyyəyə - məqsədyönlü fəaliyyətə səbəb olur ki, şagirdlər xüsusi biliklərə cəhd göstərirlər, onun əsasında maraq və meylləri inkişaf edir, möhkəmlənir. Yaşa dolduqca idrak tələbatları prinsipial olaraq dəyişir, tədricən mürəkkəbləşir. Hər bir insanda idrak tələbatlarının ödənilməsinin müxtəlif səviyyələri özünü göstərir, onlardan biri səviyyəsinə görə aparıcı olur və intellektual inkişafın ümumi səviyyəsi ondan asılıdır.

2. Müxtəlif üsullarla idrak tələbatlarının ödənilməsində onların təminatı da mühüm rol oynatır. İnsan üçün yeni biliklər, stimullar lazımdır, onsuz insan öz həyatını lazınca qura bilmir. İdrak tələbtlarını bütünlükdə ödəmək qeyri- mümkündür. O həmişə təzahür edir.

3. İdrak tələbatları konkret situasiyada vəzifələrə uyğunlaşmasından asılı olaraq idrak prosesinin özünə istiqamətlənir. Riyaziyyatı sevən şagird hər dəfə yeni tapşırığı özü müstəqil şəkildə icra edəndə sevinir, lakin hazır həlli olan tapşırıqlardan o məmnunluq hissi keçirmir. İdrak prosesindən məmnunluq hissi istənilən formada idrak tələbatlarının xüsusiyyətləri üçün xarakterikdir.

4. İdrak tələbatları idrak prosesinə yönəlişliklə sıx bağlıdır ki, o idrak tələbatlarının əsas xüsusiyyətlərindən biridir. Digər xüsusiyyət isə onun müsbət emosiyalarla bağlılığıdır. Məsələn, riyaziyyatı sevən həqiqətən çox sevinir. Məhz məmnunluq, sevinc hissi əqli fəaliyyəti fərqləndirir.

Mühüm idrak tələbatları əsasında digər tələbatlar yaranır. Şagird səylə çalışır ki, onu tərifləsinlər, evdə onu danlamasınlar. Bunlar idrak tələbatlarına aid deyil. Şagird öz şəxsi həvəsi ilə məşğul olur, bu onda müsbət emosiyalara səbəb olur. Bu idrak tələbatlarıdır. İdrak tələbatlarının müsbət emosiyalarla bağlılığı: *birincisi,* idrak fəaliyyətinin xarakterinin diaqnostikası üçün mühümdür. *İkincisi,* idrak tələbatlarının inkişafının taktikası və strategiyası üçün zəruridir. İdrak tələbatlarının inkişaf prosesinin konkret məzmunu xüsusi tədqiqatların predmeti olmamışdır.

Fikrimizcə, şəxsiyyətin yaradıcı müstəqilliyinin tələbatlar iyerarxiyasının ardınca özünüakuallaşmada idrak tələbatları olmalıdır, məhz onlar əşyavi fəaliyyəti həyata keçirtmək qabiliyyətini təmin edir. Şəxsiyyətin idrak tələbatları problemi bir çox pedaqoji-psixoloji işlərdə nəzərdən keçirilir. Belə ki, V.S.Yurkeviç idrak tələbatlarının forma və səviyyələrini açıqlayır:

- İdrak tələbatlarının ilkin səviyyəsi – təssüratlarla tələbatdır. Bu səviyyədə fərd fəaliyyətdə yeni stimullara reaksiya verir. Təəssüratlara tələbat idrak tələbatlarının təməlini təşkil edir.
- İdrak tələbatlarının inkişafında növbəti səviyyə: hər şeylə maraqlanmaq tələbatı, biliklərə tələbat, oxumağa tələbat və s. mühüm rol oynayır. İdrak tələbatları hər şeyi öyrənmək səviyyəsində təbii-emosional xarakter daşıyır və fəaliyyət məhsulları üçün o qədər də sosial əhəmiyyət kəsb etmir.
- İdrak tələbatlarının inkişafının ən yüksək səviyyəsi ictimai əhəmiyyətli nəticələrə aparıb çıxaran məqsədyönlü fəaliyyətin mənimsənilməsinə yönəldilir [4].

Birinci səviyyədə idrak tələbatlarının təzahür formaları hazır biliklərin mənimsənilməsidir. *İkinci səviyyədə* toplanmış biliklərə meyllilik və onların inteqrasiyasıdır. *Yüksək səviyyədə* biliklərin sistemləşdirilməsi, yeni biliklərin əldə edilməsi məqsədilə həqiqiliyin tədqiqi, təəssüratların təhlili və məqsədyönlü yaradıcı fəaliyyətə aparıb çıxaran problemli situasiyaya maraq.

Deməli, tələbat hər hansı bir cismin müvafiq fəaliyyətə yönəlmiş motivi ola bilər. Şəxsiyyətin maraqlarının əsasını tələbatlar təşkil edir. idrak maraqları təlim fəaliyyətində elmi biliklərin əldə edilməsinə yönəldilir. İdrak maraqlarının yaranması ilk növbədə şagirdin inkişaf səviyyəsindən, onun bilik və təcrübəsindən, digər tərəfdən materialların ötürülməsi üsullarından asılıdır. İdrak maraqlarının xüsusiyyətləri sadəcə olaraq əşyalarla tanışlıq deyil, həm də burada obyektləri dərketmə prosesinin özüdür ki, o hadisələrin mahiyyətini açmağa yönəldilmiş cəhdlə, elmi əsaslarla müəyyən edilmiş biliklərə, nəzəriyyələrə yiyələnmək arzusu, onları dərindən öyrənmək səyi ilə xarakterizə edilir.

V.M.Masterov və Q.A.Sukerman kiçik yaşlı məktəblilərin maraqlarını dörd mərhələyə bölmüşlər:

* *birincisi* - passiv və situativ mərhələdir. Bu onunla izah edilir ki, maraq epizodik xarakter daşıyır, qeyri-ixtiyari təzahür edir, əşyalara maraq itir.

* *ikincisi* - fəaliyyətli və praktiki mərhələdir. Bu mərhələ praktik fəaliyyətə cəhdlə xarakterizə olunur. Özünü texniki, təsviri fəaliyyətdə yoxlamaq arzusu yaranır. Həmin cəhdin gücü bilik, bacarıq və şagirdlərin həyati təcrübəsindən asılıdır.

* *üçüncüsü* – idraki-nəzəri mərhələdir. Bu mərhələ şagirdin əşyalarla bağlı çox şeyləri öyrənmək arzusu, biliklərini zənginləşdirmək tələbatı ilə xarakterizə olunur.

* *dördüncüsü* – yaradıcı marağın yüksək mərhələsidir. Yeninin yaranmasına tələbatla, özünün şəxsi məhsulunun (şeir, texniki model, oyuncaqlar və s.) yaradılmasına tələbatla xarakterizə olunur.

İdrak maraqlarının formalaşması dərəcəsini şagirdlərin davranışındakı bəzi təzahürlərlə mühakimə yürütmək olar: **1/** şagirdlərdə fikri fəallıq onların bildikləri suallarda təzahür edir ki, bu da onun maddi aləmdəki əşya və hadisələrin mahiyyətini öyrənmək məqsədilə yaranan suallara cavab tapmaq üçün özünün daxili tələbatını ödəmək; **2/** şagirdlərin müstəqil cəhdi ilə öyrənilən sualları müzakirə etmək və həmyaşıdlarının cavablarını da əlavə etmək; **3/** təqdim olunmuş sualların və ya mövzuların uzun müddətə öyrənilməsi.

İdrak maraqları şəxsiyyətin inteqral təhsilidir. O, ümumi fenomen kimi mürəkkəb struktura malikdir. Həmin strukturda insanın ətraf aləmlə obyektiv və subyektiv əlaqələri münasibətdə ifadə olunur. Q.İ.Şukinanın fikrincə," idrak maraqları şəxsiyyətin dərketmə sahəsinə, onun əşyavi tərəfinə və biliklərə yiyələnmə prosesinin özünə seçici istiqamətidir" [5,s.14].

Q.İ.Şukina şagirdlərdə marağın inkişafını üç mərhələyə ayırır:

* *birinci mərhələ - amorf maraqlardır* ki, onlar dəyişkənliliklə, situativliklə, şüurluluqla xarakterizə olunur, qeyri məhsuldar, prosessual xarakter daşıyır və təhrikedici qüvvəyə malik deyillər.

* *ikinci mərhələ - geniş maraqlardır*: onlar təlim fənlərinin və təlim fəaliyyətinin əhəmiyyətli dairəsini əhatə edir, idrak fəallığı və və fəaliyyətə müsbət münasibətlə xarakterizə olunurlar.

* *üçüncü mərhələ - dərin maraqlardır*, onlar lokal və domunant əşyavi xarakter daşıyır, şəxsiyyətin praktik fəaliyyətinin yüksək aktivliyini təmin edir. Fəaliyyətin aparıcı motivləri rolunda çıxış edir, şəxsiyyətin inkişafını şərtləndirir, davamlı peşə maraqlarının formalaşmasına təsir edirlər [5,s.12].

İdrak tələbatlarının formalaşması motivasiyanın və şəxsiyyətin inkişafına müsbət təsir göstərir: idrak tələbatları aparıcı mövqedə olduğu hallarda motivasiya tipləri formalaşır, şəxsiyyətin yüksək intellektuaı fəallığı, təlim materiallarını tez qavramaq, məntiqi təfəkkür, sualların cavablarını dərinliyinə qədər öyrənməyə cəhd formalaşır.

ƏDƏBİYYAT

1. Баранова Э.А. Диагностика познавательного интереса у младших школьников и дошкольников. – М: Речь, 2004. – 219 с.
2. Божович Л. И. Проблемы формирования личности: Избранные труды /Под ред. Д. И. Фельдштейна. — М.: Педагогика-Пресс, 2001. — 352 с.
3. Леонтьев А.Н. Потребности, мотивы, эмоции./ Конспект лекций. – М.: МГУ, 1997. – 68 с.
4. *Юркевич В.С.* Развитие начальных уровней познавательной потребности у школьника // Вопросы психологии. 1980. № 2
5. Щукина Г.И. Педагогические проблемы формирования познавательных интересов учащихся. М.: Педагогика, 2008. – 109 с.

РЕЗЮМЕ
ПСИХОЛОГИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ ПОЗНАВАТЕЛЬНЫХ ПОТРЕБНОСТЕЙ
Исазаде Э. А.

В статье говорится, что познавательные потребности - это свободные личные потребности индивида и имеют личные обязанности в структуре поведения школьной личности. В статье определена основная психологическая природа познавательных потребностей, а также ее формы и уровни. Автор отмечает, что познавательные интересы представляют собой комплексное образование личности и имеют сложную структуру как общее явление. В статье автор исследует научную интерпретацию психологических характеристик познавательных потребностей, а также этапов развития познавательных интересов в психологическом аспекте.

Ключевые слова: познавательные потребности, интересы, умственная деятельность, мотивация, уровни развития

SUMMARY
PSYCHOLOGICAL CHARACTERISTICS OF COGNITIVE NEEDS
Isazade E. A.

The article states that cognitive needs are free personal needs of the individual and have personal responsibilities in the structure of the behavior of the school personality. The main psychological nature of cognitive needs, as well as forms and levels are identified in the article. The author notes that cognitive interests are an integrated education of the individual and have a complex structure as a general phenomenon. In the article, the scientific interpretation of the psychological characteristics of cognitive needs, as well as the stages of development of cognitive interests is studied by the author in psychological terms.

Key words: cognitive needs, interests, mental activity, motivation, levels of development

AZƏRBAYCANDA YENİ PEDAQOJİ NƏZƏRİYYƏLƏRİN İNKİŞAFINDA PROFESSOR B.B.KOMAROVSKİNİN ROLU

İsmayılova R.H.
Sumqayıt Dövlət Universiteti
cafarli84@mail.ru

Xülasə: Azərbaycanda elmi-pedaqoji nəzəriyyələrin təşəkkülü və inkişafında, pedaqoji və elmi-pedaqoji kadr hazırlığında müstəsna xidmətləri olan alimlərdən biri də Boris Borisoviç Komarovski olmuşdur. Onun həyatı Azərbaycanla bağlı olmuşdur. O, burada gedən təhsil quruculuğunda, ibtidai, yeddiillik, səkkizillik icbari təhsilin həyata keçirilməsində, pedaqogikanın metodoloji problemlərinin tədqiqində, böyüyən nəslin təhsil və tərbiyəsinin nəzəri və praktik istiqamətlərinin araşdırılmasında, qabaqcıl məktəb təcrübəsinin öyrənilməsində, ali pedaqoji məktəblər üçün dərslik və dərs vəsaitlərinin yazılmasında, pedaqoji və elmi-pedaqoji kadr hazırlığında mühüm xidmətlər göstərmişdir.

Açar sözlər: B.B.Komarovski, pedaqoji fikir, nəzəriyyə, inkişaf, pedaqoji nəzəriyyə

Azərbaycanda elmi-pedaqoji nəzəriyyələrin təşəkkülü və inkişafında, pedaqoji və elmi-pedaqoji kadr hazırlığında müstəsna xidmətləri olan alimlərdən biri də Boris Borisoviç Komarovski olmuşdur. Onun şüurlu həyatı bütövlükdə Azərbaycanla bağlı olmuşdur. O, burada gedən təhsil quruculuğunda, ibtidai, yeddiillik, səkkizillik icbari təhsilin həyata keçirilməsində, pedaqogikanın metodoloji problemlərinin tədqiqində, böyüyən nəslin təhsil və tərbiyəsinin nəzəri və praktik istiqamətlərinin araşdırılmasında, qabaqcıl məktəb təcrübəsinin öyrənilməsində, ali pedaqoji məktəblər üçün dərslik və dərs vəsaitlərinin yazılmasında, pedaqoji və elmi-pedaqoji kadr hazırlığında, Azərbaycan pedaqoq və psixoloqlarının elmi uğurlarının keçmiş İttifaq səviyyəsində təqdimatında və təbliğatında milli tədqiqatçılarla eyni məsuliyyəti bölüşmüşdür.

Azərbaycanda pedaqogikanın metodoloji problemlərinin tədqiqində və təbliğində B.B.Komarovskinin mühüm xidmətləri olub. Onun Amerika və Avropada təhsilin təşəkkülü və inkişaf tarixini dərindən bilməsi, bu sahədə xüsusi araşdırmalar aparması, rus pedaqoq alimlərinin nəzəri konsepsiyalarına yaxından bələd olması pedaqogikanın metodoloji problemləri ilə bağlı mühüm nəzəri fikirlər irəli sürməsinə imkan yaradıb

B.B.Komarovskinin yaradıcılığında tarixi-pedaqoji cərəyanların fəlsəfi əsaslarda təsnifatının yaradılması mühüm yer tutur, onun bu konsepsiyası dərin nəzəri zəminə əsaslanan müstəqil təlim idi. 30-cu illərdə Azərbaycanda aparılan pedaqoji diskussiyalar pedaqoji elmin inkişana təkan vermək əvəzinə, onu daha da ləngitdi. Siyasi mövqe uğrunda gedən mübarizə pedaqoqları üz-üzə qoydu, pedaqoji diskussiyalarda şəxsiyyətlərin toqquşması arxasında ideyaların mübarizəsi yox, pedaqoji elmdə mövqe qazanmaq istəyi, totalitar rejimin təzyiqindən yaxa qurtarmaq meyli dayanırdı.

XX əsrin 20-ci illərindən başlayaraq Azərbaycanda yeni tip məktəblər - sovet məktəbləri təşkil olunmağa başlandı və qısa bir müddətdə bu proses uğurla başa çatdı. Bu məktəblər cəmiyyətin mahiyyətinə uyğun qurulduğundan, hər şeydən əvvəl, onun siyasətinin bilavasitə ifadəçisinə çevrilmişdi. Yeni cəmiyyət məktəbin qarşısına yeni məqsəd və vəzifələr qoydu. Bu məqsəd və vəzifələrin həyata keçirilməsi yeni tərbiyə sisteminin formalaşdırılmasını tələb edirdi.Yeni tərbiyə nəzəriyyəsinin formalaşmasında B.B.Komarovskinin tərbiyənin məqsədi, məzmunu, prinsip, metod və formaları ilə bağlı ideyaları mühüm əhəmiyyət kəsb edir.

XX əsrin 20-ci illərində Azərbaycanda didaktikanın nisbi müstəqilliyə malik elm sahəsi kimi inkişafına və bu sahədə yeni əsərlərin yaranmasına kömək etmişdir. Həmin dövrdə Azərbaycanda ixtisaslı pedaqoq və psixoloqların yoxluğu pedaqogika (xüsusilə də onun didaktika bölməsinin) və psixologiyanın sistemli inkişafına mənfi təsir göstərirdi. Azərbaycanda yaranan sovet məktəbləri mahiyyətinə uyğun olaraq yeni məzmun, yeni prinsip, yeni öyrənmə yolları (metod) tələb edirdi. Bolşeviklər ənənəvi məktəbin üstünlüklərindən ilk vaxtlar, demək olar ki, imtina etmişdi. Ona görə də nəyi (məzmun), kimə (yaş dərəcəsi), harada (təşkilat forması), nə üçün (məqsəd), nələrin köməyi ilə (vasitələr), necə (hansı metod və priyomların köməyi ilə) öyrətmək məsələləri ilə bağlı ciddi müzakirələr gedirdi. Bəşəriyyətin əldə etdiyi ictimai təcrübənin, bilik və bacarıqların gənc nəslə öyrədilməsinin optimal variantının tapılması əsas müzakirə predmetinə çevrilən məsələlərindən biri idi. Məktəbin didaktik problemlərinin araşdırılması, yeni nəzəri fikirlərin formalaşdırılması, üstün ideyaların təbliği çətinliklə müşayiət olunurdu. Didaktik fikrin inkişafına istiqamət verə biləcək milli kadrlar yox dərəcəsində idi. Azərbaycanda ilkin didaktik fikrin formalaşması B.B.Komarovskinin adı ilə bağlıdır. Onun pedaqoji fikrinin əsas istiqamətlərindən birini Azərbaycanda didaktikanın inkişafı təşkil edir. İlkin didaktik anlayışların məzmununun dəqiqləşdirilməsində, elmi dövriyyəyə daxil edilməsində onun xidmətləri böyükdür.

Azərbaycanın bolşeviklər tərəfindən işğalından sonra pedaqoji terminologiya intensiv şəkildə rus-Avropa terminlərinin hesabına zənginləşməyə başladı. Sovet ideologiyanın təsiri ilə Azərbaycanda təhsilin məzmunu ciddi dəyişikliyə uğradı, millilik sentrizmlə əvəz olundu. XX əsrin 30-40-cı illərdə pedaqoji leksika (dilin lüğət tərkibinin təhsil, təlim, tərbiyə və s. anlayışlarını ifadə edən xüsusi sözlərdən ibarət hissəsi), pedaqoji terminologiya (pedaqoji leksikanın bir hissəsi) və pedaqoji termin (təlim-tərbiyə sistemində müəyyən anlayışı ifadə edən söz və yaxud söz birləşməsi) anlayışları elmi dövriyyəyə daxil edildi. Pedaqogika nəzəriyyəsi ilə bağlı lüğətin yaradılmasına təşəbbüs göstərildi. Yenə də birincilik B.B.Komarovskiyə nəsib oldu.

XX əsrin 60-cı illərində respublikamızda pedaqoji terminologiyanın inkişafında ən mühüm hadisə B.B.Komarovskinin sistemli tədqiqatları əsasında hazırlanmış "Rus pedaqoji terminologiyası" monoqrafiyasının nəşri oldu. Bu monoqrafiya onun uzun müddətli yaradıcılığının bəhrəsi idi. Nəinki Azərbaycanda, ümumiyyətlə keçmiş SSRİ-də pedaqoji terminologiyanın inkişafını tarixi aspektdə öyrənən ilk tədqiqat əsəri idi. XX əsrin əvvəllərində yeni sosial-iqtisadi və mədəni-tarixi şəraitin təsiri ilə dövlətlərin təhsil siyasətində əsaslı dəyişikliklər baş verdi. Dövrün mahiyyətinə və zamanın ruhuna uyğun olaraq yeni pedaqoji təfəkkür və mədəniyyət formalaşmağa başladı. Diferensiasiyaya əsaslanan monoloji mədəniyyətdən fərqli olaraq, inteqrasiyaya əsaslanan dialoji mədəniyyətə üstünlük verildi. ABŞ-da və Avropada təhsili öyrənən, tədqiq edən cəmiyyətlər, mərkəzlər, beynəlxalq pedaqoji təşkilatlar yarandı. ABŞ-da və Avropada fərqli təhsil modelləri mövcud idi. ABŞ təhsilində praqmatizm üstünlük təşkil edirdi. Praqmatik pedaqogikanın yaranması C.Dyui və U.Kilpatrikin adı ilə bağlıdır. C.Dyuinin yaradıcılığı XX əsrin 20-ci illərində keçmiş İttifaqda, o cümlədən Azərbaycanda daha geniş yayılıb, tədqiq və təbliğ olunub. XX əsrin 20-ci illərində SSRİ-də də hazırlanan təhsil layihələrinin əsasında onun ideyaları dayanırdı. Bu səbəbdən də onun nəzəri və praktik irsi pedaqoji tədqiqatlarda mühüm yer tuturdu.

XX əsrin 20-ci illərində Azərbaycanda C.Dyuinin pedaqoji irsi ilə bağlı sistemli və fundamental araşdırma B.B.Komarovskinin adı ilə bağlıdır. B.B. Komarovski C.Dyui yaradıcılığına yüksək qiymət verib, onun elmi-pedaqoji irsini professionallıqla tədqiq edərək keçmiş İttifaq səviyyəsində təqdir olunan ən mükəmməl iki monoqrafiya yazıb, "Dyui pedaqojisinin fəlsəfi əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. .20-ci illərin ikinci yarısında rus və ukrain alimlərinin C.Dyui ilə bağlı apardıqları araşdırmaların fövqündə B.B.Komarovskinin sistemli araşdırmaları durur. B.B.Komarovski və onun həmfikirləri 30-cu illərdən sonra C.Dyuinin əsərlərində təhsillə bağlı marksizm və leninizm təliminin təsirlərini axtarsalara da, onu sosializmi dərk edə bilməməsində ittiham etsələr də 70 illik tarix göstərdi ki, bu yanaşma doğru deyilmiş.

XX əsrin 20-ci illərində Azərbaycanda təhsil quruculuğu sahəsində təbəddülatlar davam edirdi.Tarixi-pedaqoji irsə yanaşmalar fərqli idi.Bəzi pedaqoqlar yeni pedaqogika elminin yaradılmasında milli, Avropa və rus pedaqoji fikrindən istifadə etməyi zəruri hesab etdiyi halda, bəziləri bu ideyanın əlehhinə çıxır.Yeni pedaqogikanı proletariatın təcrübəsindən çıxarmağı irəli sürürdü. Proletariatın isə ciddi təçrübəsi yox idi. Onlar keçmiş quruluşu inkar etdikləri kimi, onun təhsil-tərbiyə nəzəriyyəsini və təcrübəsini də inkar edirdi. Klassik pedaqoji irsin ən yaxşı cəhətlərini nəzərə almadan, dünya təcrübəsini öyrənmədən daha mütərəqqi təhsil-tərbiyə nəzəriyyəsini yaratmağın mümkün olmadığını əsaslandıran tədqiqatçılardan biri də B.B.Komarovski idi.

Y.A.Komenskinin, C.Lokkun, J.J.Russonun, A.Disterveqin, Kantın, Frebelin, Herbartın, Spenserin, L.Tolstoyun, K.D.Uşinskinin, Odessada təhsil alanda Pestalossinin, Pisarevin, Dobrolyubovun, Çernışevskinin irsinin araşdırılmasında, onların didaktik fikirlərinin sistemli tədqiqi və təbliğində B.B.Komarovskinin mühüm xidmətləri olmuşdur. B.B.Komarovskinin Qərbi Avropa, ABŞ və rus pedaqoji fikri ilə bağlı sistemli araşdırmaları Azərbaycanda bu istiqamətli tədqiqatlara

təkan vermiş, yeni-yeni tədqiqatların meydana gəlməsinə səbəb olmuşdur. Azərbaycanda pedaqogikanın metodoloji problemlərinin tədqiqində, pedaqoji cərəyanlarla bağlı nəzəri fikrin ümumiləşdirilməsində, xarici ölkələrin mütərəqqi pedaqoji irsinin öyrənilməsində və praktikaya tətbiqində, pedaqoji terminologiyanın və təhsil-tərbiyə nəzəriyyəsinin formalaşmasında, pedaqogika ilə bağlı ilk dərslik və dərs vəsaitlərinin hazırlanmasında B.B.Komarovskinin tədqiqatları müstəsna əhəmiyyətə malik olmuşdur. Onun mükəmməl təhsil-tərbiyə konsepsiyası və pedaqoji tədqiqatları Azərbaycanda pedaqogika elminin təşəkkülü və inkişafına güclü təsir göstərmişdir.

ƏDƏBİYYAT

1.Rüstəmov F. Pedaqogika tarixi. Bakı: Nurlan, 2006, 748 s.
2. Komarovski B.B. Pedaqoji seminarlar. Bakı: Azərnəşr, 1930, 157 s.
3. Блонский П.П. Избранные педагогические и психологические сочинения в 2-х томах. Том I. М.: Педагогика, 1979, 306 с.

РЕЗЮМЕ
РОЛЬ ПРОФЕССОРА Б.Б. КОМАРОВСКОГО В РАЗВИТИИ НОВЫХ ПЕДАГОГИЧЕСКИХ ТЕОРИЙ В АЗЕРБАЙДЖАНЕ

Исмаилова Р. Г.

Борис Борисович Комаровский был одним из ученых, внесших исключительный вклад в становление и развитие научных и педагогических теорий в Азербайджане, подготовку педагогических и научно-педагогических кадров. Его жизнь была связана с Азербайджаном. Он занимался построением образования, реализацией начального, семилетнего, восьмилетнего обязательного образования, изучением методических проблем педагогики, изучением теоретических и практических аспектов обучения и воспитания подрастающего поколения, изучением передового опыта, написанием учебников и учебных пособий для высших педагогических *школ. оказал важные услуги в подготовке научно-педагогических кадров.*

Ключевые слова: Б.Б.Комаровский, педагогическая мысль, теория, развитие, педагогическая теория, наука

SUMMARY
THE ROLE OF PROFESSOR B.B. KOMAROVSKY IN THE DEVELOPMENT OF NEW PEDAGOGICAL THEORIES IN AZERBAIJAN

Ismayilova R.H.

Boris Borisovich Komarovsky was one of the scholars who made an exceptional contribution to the establishment and development of scientific and pedagogical theories in Azerbaijan, the training of pedagogical and scientific-pedagogical personnel. His life was associated with Azerbaijan. It is engaged in the construction of education, the implementation of primary, seven-year, eight-year compulsory education, the study of methodological problems of pedagogy, the study of theoretical and practical aspects of teaching and learning. showed important services in the preparation of scientific and pedagogical staff.

Key words: B. B. Komarovsky, pedagogical thought, theory, development, pedagogical theory

MÜASİR TƏLİM ŞƏRAİTİNDƏ İDRAKIN FƏALLAŞDIRILMASI MƏSƏLƏLƏRİ

Kərimova S. A.
Sumqayıt Dövlət Universiteti
kerimova_sevinc1967@mail.ru

***Xülasə*:** Məqalədə qeyd edilir ki, idrak fəallığının əsasında dərketmə təşəbbüskarlığı, tədris fəaliyyətinə maraq durur. İdrak fəallığı yalnız fəal axtarıcılıq deyil, həm də verilmiş tapşırığın yerinə yetirilməsi üçün təlim vasitələri ilə sərbəst əməliyyatlar aparmaqdır. Tədris fəaliyyətinin bütövlüyü, sistemliliyi və yeni elementlərlə qurulması şəraitində yerinə yetirilən hərəkətlər zəminində dəyişmələr baş verir. Belə tədris fəaliyyəti həm də onunla xarakterizə olunur ki, onun təşkilinə aid olan vasitələr aralarında sıx əlaqə olub biri-digərini tamamlayır. Qeyd olunur ki, fəallığın yüksək səviyyəsi dərketmə müstəqilliyinə doğru aparır. Bu, biliklər, bacarıqlar, müstəqil düşünmək, yeni situasiyaya istiqamətlənmək və onu tənzimləmək qabiliyyəti, yalnız qəbul etdiyi normalar deyil, onu əldə etməyin yollarını da dərindən anlamaq istəyi ilə xarakterizə olunur. Tədqiqat bir daha sübut edir ki, hazırkı dövrdə oxumaq, fənlərlə, elmi biliklərlə bağlı yeni informasiya almaq, marağının olmaması, xüsusilə intellektual passivlik halları tədris prosesinin təşkili ilə bağlıdır. Hesab edirik ki, bu problemi tədris fəaliyyətinin optimal qaydada qurulması yolu ilə həl edilə bilər.

Açar sözlər: təhsilalanlar, fəallıq, idrak fəallığı, şəxsi fəallıq, təlim fəaliyyəti, idrak qabiliyyəti, idrak motivasiyası, taksonomiya, təlim məqsədi.

İdrak fəallığı şagirdlərin və tələbələrin öyrənmə marağından, maraq isə təlim fəaliyyətinin quurlduğu şəraitdən əhəmiyyətli dərəcədə asılıdır. Bu prosesdə iştirak edən, idrakın fəallaşmasını şərtləndirən inkişafetdirici amillər məhz əlverişli təlim şəraitində öz təsirini göstərə bilir. Təlim fəaliyyətində bu, bir tərəfdən psixi proseslərin, digər tərəfdən həmin proseslərin baş verdiyi mühitin qarşılıqlı əlaqəsində reallaşır. Ona görə də müasir təhsildə şagirdlərin və tələbələrin (təhsilalanların) idrakının fəallaşması onların daxili (psixi) və xarici (sosial) əlaqələrinin qarşılıqlı müdaxiləsi nəticəsində mümkün olur.

Pedaqogikada şəxsiyyətin fəallığına - onun ətraf mühitə xüsusi istiqamətlənmiş, dəyişməyə və inkişafa səbəb olan, özünü və mühiti dəyişməyə yönələn, ictimai təcrübəyə əsaslanmış fərdi fəallığı kimi baxılır. Ona görə də pedaqogikada fəallıq və fəaliyyət anlayışları bir çox hallarda sinonim kimi işlədilir.

Təhsilalanlarda idrak fəallığının inkişafı sahəsində bir çox araşdırmalar aparılmış (L.V.Zankov, M.N.Akimova, Q.İ.Sukina, M.N.Kazımov, Ə.Ə.Əlizadə, A.N.Abbasov, Ə.S.Bayramov), mühüm nəticələr əldə edilmişdir. Bu tədqiqatlar göstərmişdir ki, fəallıq şəxsiyyətə konstruktiv hərəkət etmək, həyat strategiyasını və taktikasını işləyib hazırlamaq, ünsiyyət və münasibətlərini tənzimləmək imkanı verir. Bu reallıq nəzərə alınaraq ailə və məktəb qarşısında həlli mühüm olan vəzifələr qoyulur. Həmin vəzifələrin yerinə yetirilməsi üçün, ilk növbədə yeniyetmələrdə idrak fəallığının xüsusiyyətlərini müəyyənləşdirmək tələb olunur.

Müasir tədqiqatçılar (A.A.Rean, A.Arlin, D.Hemilton, L.Dotta və b.) ənənəvi təlim sistemində şagirdlərdə başlıca olaraq empirik təfəkürün inkişaf etdirildiyini bildirirlər. Əslində isə, idrak fəaliyyətinin xüsusi modelləşmə əsasında baş verdiyi və onun qanunauyğun proses olduğu

sübut edilmişdir. Bu mülahizələrə görə, informasiyaların işlənməsində idrakın hər bir mərhələsinin öz funksiyası vardır. Ona görə də pedaqoji şəraitdə idrak fəaliyyətinin ayrı-ayrı proseslərinin əlaqəli, qanunauyğun şəkildə qurulan qarşılıqlı təsiri yolu ilə tənzimlənməsi nəzərə alınmalıdır. İdrak fəallığının zəif olması, ya da yüksək aktivliyi bu prosesdə iştirak edən ayrı-ayrı idrak prosesinin digərlərindən üstün təbii imkanlara malik olması kimi başa düşülür. Bunlar nəzərə alınaraq təlim zamanı idrak fəallığını şərtləndirən proseslərin xüsusiyyətləri öyrənilməlidir. Qeyd edilənlər nəzərə alınaraq müasir təhsildə idrakın fəallaşdırılması şərtləri təfəkkür əməliyyatlarının öyrənilməsi kontestində nəzərdən keçirilir. Bu istiqamətdə təlimdə ümumiləşdirmə növləri (V.V. Davıdov), əyanilik və şagirdlərin fəallaşdırılması (L.V.Zankov), itiağıllılıq və kreativlik (T.V.İvanova) mövzularında fikirlər irəli sürürlər.

Mürəkkəb proseslərlə müşayiət olunan idrak fəallığının mahiyyəti ondadır ki, şüura keçən hər bir təsəvvür şüurda möhkəmlənməli, əlavə olaraq yeni, yaradıcı məhsul əmələ gəlməlidir. Çünki idrak fəallığı yalnız öyrənilənlərə və mənimsənilənlərə fəal reaksiya verməkdən ibarət deyildir. Bu proses yaradıcı olub təhsilalanlarda əldə edilmiş informasiyaya yeni əlavələr etmək tələbi qoyur. Bunlar təlim şəraitində idrak əməliyatlarının ardıcıl, sistemli aparılması sayəsində yaranmış təcrübə əsasında mümkün olur. Onu bütövlükdə idrakın qabiliyyəti, fikirləşmək bacarığı, problemi həll etmək səriştəsi da adlandıra bilərik. Müasir təhsildə bu məsələlər taksonomiya nəzəriyyəsində geniş şəkildə izah edilir.

İdrak fəallığı motivasiya əsasında yaranır. İdrakın motivasiyası fəaliyyətin nəticələrinin məhsuldarlığını müəyyən edir. Ona görə də təhsilalanların fəallaşdırılması, öz qabiliyyətlərinə görə istiqamətləndirilməsi, kiçik uğurlardan böyük uğurlara doğru fəaliyyət göstərməsi sistemli qaydada yanaşma tələb edir. Bunun üçün hər bir yaş dövründə idrakın fəallaşdırılması şərtlərini müəyyənləşdirmək lazım gəlir. Mənbələrdə idrak və onunla bağlı olan anlayışların geniş izahı verilir. Azərbaycan Ensiklopediyasında idrak - "obyektiv gerçəkliyin insan beynində əks etdirilməsi və onun haqqında dürüst bilik almaqdan ibarət olan fəal ictimai-praktik prosesdir. İnsanlar idrak prosesində əldə edilən həqiqətlər vasitəsilə ətraf aləmi dərk edir, onu öz tələbatına uyğun dəyişdiririlər" [1, s. 390].

Ə.S.Bayramov idrakla bağlı komponentlərə şərh verərkən qeyd edir ki, "biliyə yiyələnmə - anlamanin ilkin şərtidir. Biliyə yiyələnmə isə tədricən əmələ gəlir, həm də daha mütəşəkkil formada məhz təlim prosesində baş verir. Şagirdlər anlaşılması tələb edilən cisim və ya hadisəni özlərinə yaxşı məlum olan cisim və hadisələr kateqoriyasına aid etməyi bacardıqlari vaxt anlamanın daha yüksək mərhələsinə nail olurlar. Belə olduqda onlar qavradıqları cisim və hadisənin xüsusiyyətlərini, hətta müfəssəl surətdə anlamasalar belə, onun ümumi xassələrini yaxşı dərk edə bilirlər" [2, s. 80].

İdrakın ən mühüm proseslərindən biri - anlamadır. Ə.S.Bayramova görə anlamaq - "ətraf aləmin cisim və hadisələri arasındakı əlaqə və münasibətlərin inikasından ibarətdir. Anlamaq cisim və hadisələrin düzgün qavranılmasından, təhrifə yol verilməməsindən asılıdır, lakin onu qavrayış prosesi ilə eyniləşdirmək olmaz" [2, s. 79].

M.Məhərrəmov idrak fəaliyyətini - fikri fəaliyyət kimi səciyyələndirir. "Təhlil, tərkib, müqayisə, ümumiləşdirmə, sistemləşdirmə, tasnifat, mücərrədləşdirmə və konkretləşdirmə, fikri, yaxud əqli əməliyyatlarin bir - biri ilə sıx və qarşılıqlı vəhdət halında cərəyan edən əsas növləridir" (3, s. 32).

M.C.Məhərrəmov də şagirdin yaxşı oxumağının sirrini idrak qabiliyyətlərinin yaradıcılıqla əlaqəsində axtarır. "Bu və ya digər şagirdin dərsdə müvəffəqiyyətsizlik göstərməsinin səbəbini onun "istedadsızlığı" ilə izah etmək düzgün olmaz. Təlim materialının mənimsənilməsindəki sürət istedadın yeganə göstəricisi deyildir. Elə şagird vardır ki, dərsdə keçirilən materialı sürətlə mənimsəyir, lakin aldığı bilikləri yaradıcılıqla tətbiq etməkdə acizlik göstərir. Elə şagird də olur ki,

təlim materialını nisbətən gec, müəyyən şətinliklərə üstün gəlməklə mənimsəyir, lakin aldığı bilikləri yaradıcılıqla tətbiq edir, təşəbbüs və orijinallıq göstərir. Qabiliyyətlərin əsas göstəricisi fəaliyyətin nəticəsinin səviyyəsi, orijinallığı olmalıdır" [3, s. 19].

Bu izahda idrak fəaliyyəti - əqli fəaliyyətin tərkib hissəsi kimi götürülür. Deməli, idrakın fəallaşması məhz əqli proseslərin fəallaşması nəticəsində baş verəcəkdir. Fəallığın səmərəliliyi isə nəticələrin kəmiyyət və keyfiyyəti ilə ölçülür.

Fikirləşmək bacarığı Ə.Ə.Əlizadə və İ.H.Sultanovanın yanaşmasında (taksonomiyasında) spesifik təlim məqsədidir [4]. İdeya odur ki, məktəbdə qurulan təlimin başlıca məqsədi də şagirdə fikirləşməyi öyrətməkdir. Qarşısına belə inkişafetdirici məqsədlər qoyan taksonomiya nəzəriyyəsi özündə bir sıra prinsipləri birləşdirməlidir [4, s. 23].

· Praktik istiqamət prinsipi: taksonomiya məqsədəuyğunluq nəzəriyyəsini əks etdirməli, müəllim üçün səmərəli vasitə olmalıdır

· Psixoloji prinsip: taksonomiya psixologiyanın müasir nailiyyətlərinə əsaslanmalıdır.

· Məntiqilik prinsipi: taksonomiya məntiqi baxımdan tamamlanmış və mükəmməl daxili bitkinliyə malik olmalıdır.

· Obyektivlik prinsipi: məqsədlərin təsnifatı onların dəyərlərinin təsnifatı demək deyil. B.Blumun taksonomiyası ən unuversal bir model kimi tətbiq olunmaqdadır. Bu taksonomiyalar sadədən mürəkkəbə doğru düşünmə (fikirləşmə) bacarıqlarının altı səviyyədə təşkilini təmin edir.

Bilik səviyyəsi fənn sahəsində təlim informasiyasının baza elementlərinin yaddasaxlamaya, tanımaya, yadasalmaya yönəlmiş təlim məqsədlərinin işlənməsini nəzərdə tutur. Bu səviyyənin məqsədlərinə dörd kateqoriyalı: -faktiki, konseptual, prosedur və meqakoqnitiv biliklərin formalaşdırılmasını aid etmək olar. Anlama səviyyəsi təlim məqsədlərinin üç kateqoriyasını özündə birləşdirir:

- keçirmə, məsələn, tapşırığı praktik dildən riyazi dilə çevirmə;
- interpretasiya, məsələn, riyazi həlli praktik dildə izah etmək;
- ekstrapolyasiya, müəyyən sahədə alınmış biliklərin başqa sahəyə, oxşar situasiyalara aid edilməsi.

Tətbiqetmə səviyyəsi- şagirdlərdə praktik situasiyalarda bilikləri istifadəyə dair tətbiq bacarığının formalaşdırılmasını nəzərdə tutur. O aşağıdakı alt səviyyələrdə də təsvir edilə bilər: anlayışların tətbiqi; metodların tətbiqi; alqoritmlərin tətbiqi.

Analiz səviyyəsi- aşağıdakı kateqoriyalarda təhsil məqsədlərini nəzərdə tutur: elementlərin analizi (tərkib hissələrinə ayırma və ya parçalma); münasibətlərin (əlaqələrin) analizi (elementlər arasında müəyyən edilmiş əlaqələrin, asıllıqların yaradılması, sübut edilməsi); prinsiplərin analizi (elementlərin sistemləşdirilməsi);

Sintez səviyyəsi - təhlil prosesində hasil olmuş ayrı-ayrı ünsürlər arasındakı əlaqəni müəyyən etmə və onlardan ümumi nəticə çıxarma bacarığı formalaşdıran təhsil məqsədi: ideyaların sintezi (məsələn problemlərin həlli yollarının axtarılması); üsulların sintezi (məsələ həlli ilə bağlı planın hazırlanması, əməliyyatların ardıcıllığının müəyyənləşdirilməsi); strukturların sintezi (funksiyaların, çoxluqların, qrupların qurulması).

Qiymətləndirmə səviyyəsi- diaqnostik bacarığın, tənqidi təfəkkürün inkişafını nəzərdə tutur. Aşağıdakı kateqoriyalara malikdir: daxili mühakimə və biliklərə əsaslanaraq qiymətləndirmə (dəlil gətirməklə, isbat etməklə, məntiqlə); xarici kriteriyalara əsaslanaraq qiymətləndirmə(standartlar, norma və qaydalar).

Hər bir ictimai inkişaf mərhələsində yeni elmi kəşflərlə bağlı olaraq insan cəmiyyətlərində yeni informasiyalar yaranır. Onların öyrənilməsi və dövrün tələblərinə uyğun olaraq tətbiqi

dərketmə fəallığı sayəsində mümkün olur. Ə.Ə.Əlizadə və H.Ə.Əlizadə müasir şəraitdə insan idrakına qoyulan tələbləri nəzərə alaraq yazırlar: ”Böyük Sabir hələ əsrin əvvəllərində böyük uzaqgörənliklə əsrin şah damarını tutmuşdu və öz həmvətənlərini də məhz əsrin şah damarını tutmağa çağırmışdı. Onda əsrin əvvəlləri idi, indi isə əsrin son illərini yaşayırıq. XX əsr artıq tarixə elmi-texniki inqilab əsri, ağlın təntənəsi əsri kimi daxil olmuşdur. Ağıl zamanın ən başlıca sərvət-lərindən biri sayılır və ağlın keşməkeşli yolu elə ailə və məktəbdə başlayır” [5, s. 14].

Tədqiqatçıların bir qismi şagirdlərin idrak fəallığını təhsilin fundamental məsələlərinin məqsədyönlü həll olunmasının mühüm şərti kimi qəbul edirdilər. Q.Spenserə görə, “ağılın inkişafı digər inkişaf edən sahələr kimi məlum olmayandan məlum olana doğru gedir. Təlim də belədir. İnsan ağlı erkən yaşda fəaliyyət qabiliyyətinə müəyyən qədər malik olur. Sonralar qabiliyyətlərin oyanması sayəsində fəaliyyətin bir çöx sahələri birgə baş verir” [6, s. 111].

Aparılan tədqiqatlarda idrak fəallığı probleminin motivasiya ilə yanaşı, fərdi xüsusiyyətlər, xüsusilə qabiliyyət və davranışla əlaqəsi də axtarılır. Bununla bağlı N.S.Leytes əqli qabiliyyətlərin yaş imkanları [7], A.K.Markova təlim fəaliyyətiin motivasiyası [8], M.F.Morozov şagirdlərdə müstəqil düşünmə bacarıqlarının inkişafı [9], O.V.Ovçannikova təkrarlama [10] və digər baaxımdan yanaşırlar.

Z. Kərimov pedaqoji prosesdə şagirdlərdə idrak fəallığının təmin edilməsində müstəqil təfəkkür formalaşdırmanın yolu olaraq müstəqil işlərin səmərəliliyini göstərir: a) şəkil üzrə müstəqil işlər; b) qiraət növləri ilə əlaqədar tətbiq edilən müstəqil işlər. “Şagirdlərin izahlı qiraət dərslərində fəal və yaradıcı iştirak etmələri üçün evristik müsahibədən daha çox istifadə edilməlidir. Çünki evristik müsahibə yolu ilə problem qoymaq, problemin həlli üçün yollar axtarmaq, bu yollardan birinin köməyi ilə problem həll etmək və nəticə çaxarmaq mümkün olur. Bu cüt evristik müsahibənin əsas vəzifəsi axtarış yolunu müəyyən etməkdən, bu yolun həqiqiliyini sübut etməkdən, şagirdləri axtarışa sövq etməkdən və sistemli mühakimələr yürütməyə alışdırmaqdan ibarətdir” [11, s. 5].

N.M.Kazımov idrak fəaliyyətində müqayisənin roluna xüsusi əhəmiyyət verir. Müqayisənin nəzəri və əməli problemlərindən bəhs edərkən N.M. Kazımov bu məsələləri vurğulayır: “Xarici aləmin cisim və hadisələrinə xas olan oxşar və fərqli əlamətləri məntiq kateqoriyalarında, fizioloji proseslərdə bu və ya digər formada inikas edir. İnsandan asılı olmayan bu obyektiv proses, yəni təbiət və cəmiyyət hadisələrindəki oxşar və fərqli əlamətlərinin məntiq kateqoriyalarında (məfhumda, təsnifdə, tərifdə, ümumiləşdirmədə, mühakimədə), fizioloji hadisələrdə (oyanmada, ləngimədə, diferensiasiyada, inteqrasiyada), psixoloji proseslərdə (duyğuda, qavrayışda, təsəvvürdə, təxəyyüldə) bu və digər şəkildə əks olunması həmin əlamətlərin müqayisə yolu ilə şüurlu dərk edilməsini zərurətə çevrilir” [12, s. 103].

Nəzəri hazırlıq deyəndə N.Kazımov müqayisənin mahiyyəti, xüsusiyyətləri, növləri, formaları, aparılma qaydaları, şərtləri haqqında biliklər sistemini, əməli hazırlıq dedikdə isə müqayisədən istifadə etmək, müqayisəli düşünmək təcrübəsini nəzərdə tutur. Bildirir ki, bu iki cəhət üzvü şəkildə qovuşduqda idrak səviyyəsinə yüksəlir, müqayisə belə adamda ağlın sönməz məşəlinə çevrilir; onun köməkliyi ilə fikirdə və əməldə yeni-yeni uğurlar qazanmaq xeyli asanlaşır [12, s. 107].

- müqayisə üçün münasib obyektlər seçilir;
- müqayisə obyektlərinin qoşalığı təmin edilir;
- qoşa obyektlərin biri istinad kimi götürülür;
- obyektərin oxşarlığı və fərqi eyni cür müəyyənləşir;
- vəzifə qabaqcadan müəyyənləşir;
- əlamətlərin üzə çıxarılması ardıcıllığı gözlənilir;
- müvafiq nəticə çıxarılır, nəticə izah olunur.

Təhsilalanlarda idrakın fəallaşdırılması sahəsində praktik istiqamətlərin hazırlanmasında Q.İ.Şukina [13], L.V.Zankov [14], L.M.Fridman [15] mühüm işlər görmüşlər. Bunun üçün müəllimlərin öyrətmə, təhsilalanalrın isə öyrənmə sahəsindəki səyləri artırılır, tədris - dərketmə fəallığı onların sosial həyatına, davranış və münasibətlərinə də pozitiv təsir göstərilir. İdrak fəallığının artırılması prosesində aşağıdakı pedaqoji vasitələrdən istifadə olunur:

- intellektual, rollu, süjetli, səhnələşdirilmiş və internet oyunları;
- tədris filmləri, internet xidmətləri;
- müzakirə, diskussiya və söhbətlər;
- interaktiv vasitələr.

Tədqiqatlarda yeniyetmələrin səmərəli fəaliyyəti onların fənlər üzrə praktik işlərində həyata keçirilir. Praktik fəaliyyətdə mövzular üzrə tədqiqat apararaq, ümumiləşdirmələr edilir, təqdimat hazırlanaraq həm daxili, həm də xarici fəallığa nail olunur.

Təhsilalanlar üçün maraq doğuran, diqqətini cəlb edən hər hansı mövzu onun fəallaşmasına stimul yarada bilər. Əsas məsələ budur ki, mövzu üzrə daha dərinliklərə getməsi, axtardığı həqiqəti öyrənməyə nail olması üçün istiqamət vermək lazımdır. Bu zaman problemin mıərhələli həllinə şərait yaradılmalı, həvəsləndirməli, obyektiv qiymətləndirməli, bir sözlə, öyrənmə, təhsilalan təlim prosesinin icraçısı deyil, təşkilatçısı olmalıdır. Belə bərabərhüqüqluluq şəraitində onlar idrak fəallığına daha çox maraq göstərirlər.

Belə aydın olur ki, idrak fəalığı yeni bilik bacarıq və vərdişlərə yiyələnmək, yeni informasiyalar almaqla təhsilalanlarn özü və yaşadığı mühit haqqındakı təsəvvürlərini genişləndirmək, üzvü olduğu sosial qrupda öz yerini müəyyənləşdirməyə yönəlmiş şüurlu, məqsədəyönəlmiş, əqli, fiziki və sosial fəallıqla şərtlənən fəaliyyətidir. İdrak fəallığı zamanı təhsilalanlar ətraf aləmə yeni mövqedən yanaşır, özünüfəallaşdırmanın yeni, daha müstəqil, yollarını axtarır, fəaliyyətdə orijinal nəticələr əldə etməyə səy göstərirlər. İdrak fəallığı daha geniş, daha optimal, və daha məhsuldar fəaliyyətdir. Bu fəallıq özünü bir neçə sahədə göstərir: hər hansı fənnə, yaxud fənlərə münasibətdə, bütövlükdə sosial-ictimai fəallıq formasında, müxtəlif həyati situasiyalarda təşəbbüskar, operativ, işgüzar yanaşmasında.

ƏDƏBİYYAT

1. Azərbaycan Sovet Ensiklopediyası. Bakı: ASE Baş Redaksiyası, 1980, 591 s.
2. Bayramov Ə.S. Şagirdlərdə təfəkkür müstəqilliyinin inkişafı və tərbiyəsi. Bakı: Maarif, 1966, 121 s.
3. Məhərrəmov M. C. Yaxşı oxumağın sirri. Bakı: ANB, 1965, 78 s.
4. Əlizadə Ə.Ə., Sultanova I.H. Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı: 2008, 172 s.
5. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. Bakı: ADPU-nun mətbəəsi, 2008, 479 s.
6. Спенсер Г. Воспитание умственное, нравственное и физическое. СПб.: 1881, 294 с.
7. Лейтес Н.С. Возрастные предпосылки умственных способностей // Хрестоматия по психологии. М.: Просвещение, 1977, с. 386-395.
8. Маркова А.К. Мотивация учебной деятельности школьников // Вопросы психологии, 1978, № 3, с.136-143.
9. Морозов М.Ф. Воспитение самостоятельности мысли школьников в учебной работе. М.: Учпедгиз, 1959, 91 с.
10. Овчанникова О.В. Повторение - мать учения // Начальная школа, 2008, № 11, с. 17-22.

11. Kərimov Z. İbtidai sinif şagirdlərinin idrak fəaliyyətinin inkişafında müstəqil işlərin rolu. Bakı: Maarif, 1975, 24 s.
12. Kazımov N.M. Ali məktəb pedaqogikası. Bakı: Əlfərul, 2006, 391 c.
13. Щукина А.И. Формирование познавательных интересов учащихся. М.: Учпедгиз, 1962, 229 с.
14. Занков Л.В. Наглядность и активизация учащихся в обучении. М.: АПН РСФСР, 1960, 309 с.
15. Фридман Л.М. Логико-психологический анализ школьных учебных задач. М.: Педагогика, 1977, 205 с.

РЕЗЮМЕ
АКТИВИЗИРОВАТЬ ПРОБЛЕМЫ ОБУЧЕНИЯ В СОВРЕМЕННОМ УСЛОВИИ

Каримова С.А.

В статье исследуется познавательная деятельность на основе познавательной инициативы и ее интерес к обучению. Познавательная деятельность - это не только активный поиск, но и бесплатная работа со средствами обучения для выполнения поставленной задачи. Изменения происходят в контексте действий, предпринимаемых в контексте целостности, систематизации и построения новых образовательных мероприятий с новыми элементами. Такой учебный процесс также характеризуется тем, что инструменты, связанные с его организацией, тесно взаимосвязаны и дополняют друг друга.

Отмечается, что высокий уровень активности приводит к когнитивной независимости. Он характеризуется знаниями, навыками и способностями, чтобы мыслить независимо, сосредотачиваться и приспосабливаться к новой ситуации, а также желанием понять не только принятые нормы, но и желание глубоко понимать пути их достижения. Исследование еще раз доказывает, что в настоящее время отсутствие интереса к чтению, новая информация по предметам, научные знания, особенно случаи интеллектуальной пассивности, связаны с организацией учебного процесса. Мы считаем, что эту проблему можно решить путем оптимальной организации учебного процеса.

Ключовые слова: обучающий, активность, активность сознания, сознания мотивизации, тасономия, проблемы обучения

SUMMARY
PROBLEMS OF COGNITION IN MODERN TEACHING CONDITION

Karimova S.A.

Cognitive activity on the base of cognitive initiative and its interest in teaching are studied in the article. Cognitive activity is not only an active search, but also a free operation with learning tools to perform a given task. Changes take place in the context of the actions taken in the context of the integrity, systematization and construction of new educational activities with new elements. Such teaching process is also characterized by the tools related to its organization are closely interrelated and compled each-other.

It is noted that a high level of activity leads to cognitive independence. It is characterized by knowledge, skills and abiliies, to think independently, to focus on and adjust to a new situation, and a desire to understand not only the norms that adopted, but also a wish deeply understanding the

ways to achieve them. The research proves once again that at the present time, the lack of interest in reading, new information about subjects, scientific knowledge, especially cases of intellectual passivity are related to the organization of the educational process. We believe that this problem can be solved by the optimal organization of training process.

Key words: learners, activity, cognitive, personal aktivity, cogniviti motivation, taxonomy, learning objective

TALASSEMİYALI UŞAQLARIN HƏYATINDA DEPRESSİV HALLAR

Muradlı A. H.
Azərbaycan Universiteti
muradliaygun9@gmail.com

Xülasə: Talassemiya bir insanın ömrü boyu davam edən xroniki bir xəstəlik olduğu halda, insanın həyatına, sağlamlığına və ictimai həyatına, eləcə də ruhi sağlamlığı da daxil olmaqla hər yaşda depressiyaya əhəmiyyətli dərəcədə təsir göstərir. Talassemiya xəstələrinin yaşayış mühitində mühüm rol oynayan xəstəxana faktoruna əlavə olaraq, məktəb və digərləri onun depressiyadan qurtulmasında və sosial həyata uyğunlaşmasında mühüm rol oynayır. Talassemiyalılar üçün psixi sağlamlıq proqramları, hər yaşda depressiyanın öhdəsindən gəlməyə kömək edə bilər.

Açar sözlər: depressiya, talassemiyalı uşaqlar, məktəb, xəstəxana, sosial mühit.

Talassemiya qlobal, olaraq ən çox rast gəlinən xroniki və genetik hematoloji xəstəliklərdən biridir. Talassemiya, müntəzəm transfüzyon, dəmir çelasiya terapiyası, tez-tez xəstəxanaya yerləşdirmə və ümumi tibbi müayinədən ibarət olan müalicə sistemini tələb edir [11,12].

Talassemiyanın daha təsirli idarə olunması və hətta müalicəsi mümkün olduqda, bu şəxsləri tez-tez müşayiət edən depressiya kimi psixiatrik xəstəliklərin qiymətləndirilməsinə diqqət çəkilir. Depressiya, tibbi müalicəyə ehtiyacı olan və xəstələrin həyatı üçün bir sıra məhdudiyyətlər yaradan, əlilliyə təhrik edən və bu səbəbdən həyat keyfiyyətlərinə mənfi təsir göstərən xroniki xəstəlikdir [7,14,17].

Uşaqlarda və yeniyetmələrdə depressiyanın etimologiyası böyüklər ilə müqayisədə yaxşı başa düşülməsə də, fərqli amillər arasındakı qarşılıqlı təsir nəticəsində qəbul edilir. Depressiyanın başlanmasına səbəb olan əsas amillər stresli hadisələr (xroniki xəstəliklər), ailə ilə əlaqəli amillər (ailədəki ölüm, boşanma, fiziki istismar, ailədaxili münasibətlərin keyfiyyətini pozan ailədaxili münaqişələr və ya iqtisadi çətinliklər) və ya sosial faktorlar (uşaqlar "təzyiq" kimi hiss etdikdə yaşıdlar qrupu və ya məktəb) [7, 14, 16].

Uşaqlıq dövründə depressiya anlayışı mübahisələrə səbəb oldu, çünki bu dövr ümidsizlik əlamətləri olmayan sevinc dolu bir zaman kimi qəbul edildi. Bu baxışdan sonra uşaqlarda depressiyanın diaqnoz qoyulmadığı və nəticədə müalicə edilmədiyi məlum olur. Əlavə olaraq, diaqnozun uğursuzluğu, inkişaf mərhələlərində kliniki təqdimatlardakı fərqlərə aiddir, bu da tez-tez uşaqlıqda başlayan depresif pozuntuların yetkinlərdən fərqli bir xəstəlik olub-olmadığı sualını doğurur. Lakin son 20 ildə uşaqlarda yetkinlərdə olduğu kimi depresif xəstəliklər yarana biləcəyi yavaşca qəbul edildi. Uşaqlarda daha tez-tez sosial problemlər yaranır, baş ağrısı və ya əsəbilik, zəif məktəb performansı, sosial təcrid və ümidsizliyə dözməmək kimi psixosomatik simptomlar şikayətlənir [10,16].

Həyatın ilk illərində uşaqlar xəstəliyin həqiqi dərəcəsini anlaya bilmirlər, bununla birlikdə xəstəliyi izləyən ümumi dağınıqlıq iqlimini hiss edirlər. Yetkinləşdikləri zaman talassemiyanın

təbiətini daha çox dərk edirlər. Talassemiyanın həyatın bir çox ölçüsündə təsiri, məktəbəqədər və məktəb yaşlarında uşaqların müstəqillik axtardıqları zaman getdikcə daha aydın görünür [4,9].

Tez-tez proqnozlaşdırıla bilməyən və dalğalanan talassemiya gedişi nəzərə alınmaqla, tez-tez yenidən xəstəxanaya yerləşdirilmə və dəfələrlə məktəbdə olmama və bu səbəbdən də aşağı məktəb göstəriciləri ilə əlaqəli olduğu aydın olur. Talassemiyalı uşaqlarda daha çox görülən mücərrəd mülahizə, dil çatışmazlığı, diqqət, yaddaş və ya görmə məkan bacarıqları və icra funksiyaları kimi aşağı məktəb performansından çox sayda digər amillər məsuliyyət daşıyır [4,15]. Üstəlik səssiz beyin infarktları, əsasən xəstəliyin xronikasına aid edilən nevroloji və koqnitiv zədələnmələrdən məsul ola bilər [6]. Uşaqlar erkən müdaxilə, xüsusi təhsil və psixoloji dəstəyə sahib olması üçün qiymətləndirilməlidir [1].

Xəstəliyin xroniki olması, uşaqların sosial həyatını mənfi təsir göstərir, çünki xəstəliyi aşkarlayır, ətraflarında, əsasən məktəbdə şərh və ya suallar yaradır. Adətən, talassemiyalı uşaqlar sağlamlıq problemlərini dostları ilə və valideynlərindən asılı olanlarla müzakirə etməkdən imtina edirlər. Qeyd etmək lazımdır ki, hər bir uşağın xroniki xəstəliklər daxil olmaqla stresli təcrübələrlə qarşılaşmağın fərqli üsulları var. Fərqli cavablar fərdi xüsusiyyətlərindən, yaşından, idrak inkişaf mərhələsindən, uyğunlaşma qabiliyyətindən, əvvəlki xəstəlik təcrübələrindən və s. asılıdır [3, 18, 19].

Məktəbdə və məktəbəqədər yaşda olan uşaqların ətrafındalı şəxslər; müəllim, valideyn və digər şəxslər tərəfindən özlərinə inam hiss etmələri lazımdır [16].

Həqiqətən də, xroniki xəstəliyi olan uşaqlara qulluq etməyin əsas məqsədi bərabər müalicə və cəmiyyətə inteqrasiya etməkdir. Daha təfərrüatı ilə sosial inteqrasiya şərtləri hər hansı bir imtiyazdan və həddindən artıq qorunmadan qaçınmaq, müstəqilliyin və muxtariyyətin təşviqi, maraqların xəstəliyin tətbiq etdiyi hədlər daxilində böyüməsi, "yaşıdlar qrupundan fərqli" hiss olunmamaq və psixoloji sıxıntının aradan qaldırılmasıdır.

Müəllimlərin rolu talassemiya xəstəliyinin emosional yükünün minimuma endirilməsində faydalı təsir göstərir, çünki onlar tez-tez sinif yoldaşlarının mənfi münasibətlərini və ya fikirlərini dəyişdirə bilirlər, beləliklə cəmiyyətə inteqrasiyası üçün kömək etmiş olurlar. Müəllimlərin məlumatlılığının artırılması, səhiyyə işçiləri ilə işbirliklərinin gücləndirilməsi və onlar ilə valideynlər və uşaqlar arasında möhkəm bir əlaqə yaratmağın həm xroniki xəstəliklərin, talassemiyanın, həm də depressiyanın müalicəsinə əhəmiyyətli dərəcədə kömək etdiyi qəbul edilir [8,13].

Talassemiyalı uşaqların həyatının önəmli hissəsini xəstəxanalar və orda baş verən proseslər önəmli yer tutur. Xəstəxanaya müraciət həm uşaqlar, həm də ailə üçün travmatik bir təcrübədir və həyatı əhəmiyyətli dərəcədə sabitləşdirən bir amildir. Yetkin və yeniyetmələrdən fərqli olaraq, uşaqlar müalicə və xəstəxanaya yerləşdirməyin zəruriliyini başa düşə bilmirlər [5,20].

Talassemiyalı uşaqlarda valideynlərdən ayrılma körpələrdə, məktəbdə və məktəbəqədər uşaqlarda əsas stres faktorudur. Körpələrin "ana-uşaq" bağının kəsilməsinə gəldikdə, psixoloji inkişafın mənfi nəticələri ilə əlaqələndirilir. Eynən, məktəbəqədər uşaqlar, valideynlərindən daha çox asılı olduqlarından, daha çox ehtiyac duyduqlarından və tez-tez qan köçürülməsindən qorxduqlarına görə stresə həssasdırlar. Daha çox xəstəxanaya yerləşdirilmiş uşaqlarda fərdi məkan çatışmazlığı və ya dost çatışmazlığı və terapevtik müdaxilənin müvəffəq olması üçün narahatlıq yaşanır.Valideynlərindən əvvəl ayrılma təcrübəsinin olması və ya emosional məhrumiyyətlərlə əlaqəli digər stresli və travmatik təcrübələr də bu amillər uşaqlarda psixoloji narahatlığa təsir edər. Vahid yanaşma konsepsiyası ailənin xəstəxanada qalmasını artırır, valideynlərin və səhiyyə

işçilərinin səmərəli əməkdaşlığı uğurlu uzunmüddətli idarəetməyə əhəmiyyətli dərəcədə kömək edir [8,12].

Talassemiyanın mahiyyəti, müalicəyə ehtiyac, yeni tibbi protokollar barədə başa düşülən və doğru bir şəkildə məlumat vermək həm talassemiya, həm də depressiya nəticələrinə faydalı təsir göstərir. Bilik çatışmazlığı lazımsız depressiyaya səbəb ola bilər. Məlumat vermə fərdi və yaş, inkişaf mərhələsi, psixoloji yetkinlik, şəxsiyyət və ailə mühitinə uyğun olmalıdır.

Talassemiya xəstələri psixi sağlamlıq problemlərinin qarşısının alınması üçün ömürlük psixoloji dəstəyə ehtiyac duyurlar. Talassemiya xəstələri üçün psixoloji proqramların həyata keçirilməsində əsas məqsəd, sosial şəbəkəyə inteqrasiyasını genişləndirmək, bilik çatışmazlıqlarını minimuma endirmək və təhsil, fərdi və karyera hədəflərini planlaşdırmaq və həyata keçirmək üçün kömək göstərməklə depressiya ilə mübarizə aparmaqdır.

Açar sözlər: talassemiya, depressiya, talassemiyalı uşaqlarda depressiya, məktəb və xəstəxanaların talassemiyalı uşaqlar üçün əhəmiyyəti, talassemiyalı uşaqların depressiya amilinin həllində ətrafındakı şəxslərin önəmi

thalassemia, depression, depression in children with thalassemia, the importance of schools and hospitals for children with thalassemia, the importance of those around them in addressing the depressive factor in children with thalassemia

талассемия, депрессия, депрессия у детей с талассемией, Важность школ и больниц для детей с талассемией, важность окружающих в борьбе с депрессивным фактором у детей с талассемией

Xülasə: Talassemiya bir insanın ömrü boyu davam edən xroniki bir xəstəlik olduğu halda, insanın həyatına, sağlamlığına və ictimai həyatına, eləcə də ruhi sağlamlığı da daxil olmaqla hər yaşda depressiyaya əhəmiyyətli dərəcədə təsir göstərir. Talassemiya xəstələrinin yaşayış mühitində mühüm rol oynayan xəstəxana faktoruna əlavə olaraq, məktəb və digərləri onun depressiyadan qurtulmasında və sosial həyata uyğunlaşmasında mühüm rol oynayır. Talassemiyalılar üçün psixi sağlamlıq proqramları, hər yaşda depressiyanın öhdəsindən gəlməyə kömək edə bilər.

While thalassemia is a chronic disease that lasts for the rest of a person's life, it has a significant impact on a person's life, health and social life, as well as depression at any age, including their mental health. In addition to the hospital factor, which plays an important role in the living environment of thalassemia patients, the school and others play an important role in its recovery from depression and adaptation to social life. Mental health programs for thalassemia can help them cope with depression at any age.

Хотя талассемия является хроническим заболеванием, которое длится всю оставшуюся жизнь человека, она оказывает значительное влияние на жизнь, здоровье и социальную жизнь человека, а также на депрессию в любом возрасте, включая его психическое здоровье. Помимо госпитального фактора, который играет важную роль в жизненной среде больных талассемией, школа и другие люди играют важную роль в их выздоровлении от депрессии и адаптации к социальной жизни. Программы психического здоровья при талассемии могут помочь им справиться с депрессией в любом возрасте.

ƏDƏBİYYAT

1. Armstrong FD. Thalassemia and learning: Neurocognitive functioning in children. Ann N Y Acad Sci. 2005;1054:283-9.
2. Aydinok Y, Erermis S, Bukusoglu N, Yilmaz D, Solak U. Psychosocial implication of thalassemia major. Pediatrics International. 2005;47:84–89.

3. Cakaloz B, Cakaloz I, Polat A, Inan M, Oguzhanoglu NK. Psychopathology in thalassemia major. Pediatr Int. 2009;51(6):825-8.
4. Canatan D, Ratip S, Kaptan S, Cosan R. Psychosocial burden of beta-thalassaemia major in Antalya, south Turkey. SocSci Med. 2003;56(4):815-9.
5. Commodari E. Children staying in hospital: a research on psychological stress of caregivers. Ital J Pediatr. 2010; 36:40.
6. Economou M, Zafeiriou D, Kontopoulos E, Gompakis N, Koussi A, Perifanis V, Athanasiou-Metaxa M. Neurophysiologic and intellectual evaluation of beta-thalassemia patients. Brain Dev.2006;28(1):14-18.
7. Hajibeigi B, Azarkeyvan A, MoayedAlavian S, MoghaniLankarani M, Assari S. Anxiety and depression affects life and sleep quality in adults with beta-thalassemia Indian J Hematol Blood Transfus.2009;5(2):59–65.
8. Hongally C, Benakappa AD, Reena S. Study of behavioral problems in multitransfusedthalassemic children. Indian J Psychiatry. 2012;54(4):333-6.
9. Khodaie S, Karbakhsh M, Asasi N. Evaluation psycho-social state of juvenile with Thalassemia Major based on their self-report and GHQ-12 test results. Zahedan Med SciencUnivers. 2005;6:18–23.
10. Kolaitis G. Mood disorders in childhood and adolescence: Continuities and discontinuities to adulthood Psychiatriki.2012;23:S94–S100.
11. Li Ping Wong, Elizabeth George, Jin-Ai Mary Anne Tan. Public perceptions and attitudes toward thalassaemia: Influencing factors in a multi-racial population. BMC Public Health. 2011;11:193.
12. Loukopoulos D. Haemoglobinopathies in Greece: prevention programme over the past 35 years. Indian J Med Res. 2011;134(4):572–576.
13. Masia-Warner C, Nangle DW, Hansen DJ. Bringing evidence-based child mental health services to the schools: general issues and specific populations. Educ Treat Child. 2006;29:165–172.
14. Maughan B, Collishaw S, Stringaris A. Depression in childhood and adolescence. J Can Acad Child Adolesc Psychiatry. 2013;22(1):35-40.
15. Monastero R, Monastero G, Ciaccio C, Padovani A, Camarda R: Cognitive deficits in beta-thalassemia major. Acta Neurol Scand. 2000; 102:162-168.
16. OuzouniCh, Nakakis K. Nursing care of depressed children. Nosileftiki. 2008;47(4):458–470.
17. Polikandrioti M, Christou A, Morou Z, Kotronoulas G, Evagelou H, Kyritsi H. Depression in patients with congestive failure. Health science Journal 2010;4(1):37-47.
18. Pradhan PV, Shah H, Rao P, Ashturkar D, Ghaisas P. Psychopathology and self-esteem in chronic illness. Indian J Pediatr. 2003;70(2):135-8.
19. Shaligram D, Girimaji SC, Chaturvedi SK. Psychological problems and quality of life in children with thalassemia. Indian J Pediatr. 2007;74(8):727-30.
20. Shields L. A review of the literature from developed and developing countries relating to the effects of hospitalization on children and parents. IntNurs Rev. 2001;48(1):29-37.

РЕЗЮМЕ
ДЕПРЕССИВНЫЕ СОСТОЯНИЯ В ЖИЗНИ ДЕТЕЙ, БОЛЬНЫХ ТАЛАССЕМИЕЙ
Мурадли А. Г.

Хотя талассемия является хроническим заболеванием, которое длится всю оставшуюся жизнь человека, она оказывает значительное влияние на жизнь, здоровье и социальную жизнь человека, а также на депрессию в любом возрасте, включая его психическое здоровье. Помимо госпитального фактора, который играет важную роль в жизненной среде больных талассемией, школа и другие люди играют важную роль в их выздоровлении от депрессии и адаптации к социальной жизни. Программы психического здоровья при талассемии могут помочь им справиться с депрессией в любом возрасте.
Ключевые слова: депрессия, дети с талассемией, школа, больница, социальнаясреда

SUMMARY
DEPRESSIVE CONDITION IN THE LIVES OF CHILDREN WITH THALASSEMIA
Muradli A. H.

While thalassemia is a chronic disease that lasts for the rest of a person's life, it has a significant impact on a person's life, health and social life, as well as depression at any age, including their mental health. In addition to the hospital factor, which plays an important role in the living environment of thalassemia patients, the school and others play an important role in its recovery from depression and adaptation to *social life. Mental health programs for thalassemia can help them cope with depression at any age.*
Key words*:* depression, children with thalassemia, school, hospital, social environment

AŞIQ SÜMMANI POEZİYASININ ƏXLAQİ-DİDAKTİK MAHİYYƏTİNƏ DAİR

Avtandil Ağbaba
Sumqayıt Dövlət Universiteti
avtandil.aqbaba@mail.ru

Xülasə: Məqalədə xalq sənətkarı Aşıq Sümmaninin (1862-1916) ictimai-siyasi lirikası araşdırılmışdır. Aşığın şeirlərində əks etdirdiyi ictimai bərabərsizlik, insan hüquqlarının pozulması, kamilliyə çağırış və sair kimi ideyalar dərin sosial-fəlsəfi mahiyyəti ilə diqqəti cəlb edir. Müəllif bu məsələləri dövrün ictimai-siyasi vəziyyəti kontekstində tədqiq etmiş, müqayisələr aparmışdır. Aparılan təhlillərdən belə bir nəticəyə gəlinmişdir ki, aşıq Sümmaninin bu mövzuda yazdığı şeirlər müasir dövrümüzdə də aktual və əhəmiyyətli səciyyə daşıyır.
Açar sözlər: Aşıq Sümmani, bərabərlik, mənəvi tərbiyə, poeziya, estetik gözəllik .

Azərbaycan aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Aşıq Sümmani poeziyasının mühüm bir qismini ictimai-siyasi motivli şeirlər təşkil edir. Ümumiyyətlə, saz-söz sənətkarları arasında elə bir aşıq tapmaq olmaz ki, yaşadığı dövrün sosial-siyasi məsələlərinə münasibət bildirməsin. Gəzib-dolaşdığı yerlərdə gördüyü haqsızlıqlar, ictimai bərabərsizlik, insan hüquqlarının pozulması, cahilliyin, mənəvi geriliyin tənqidi, var-dövlət hərisliyi və sair Aşıq Sümmaninin şerlərinin əsas ictimai-siyasi istiqamətlərini müəyyənləşdirir. Bu baxımdan mənəvi kamilliyə çağırış, ictimai

bərabərlik, şərə, zülmə qarşı kəskin etiraz motivləri ilə Sümmani doğma xalqının taleyini düşünən, onun istiqbalını parlaq görmək istəyən bir sənətkar kimi yadda qalır. Aşıq Sümmani cəmiyyətdə baş verən xaos və nizamsızlığın başlıca səbəbini insanların dini-əxlaqi qaydalara əməl etməməsində görür, islam dünyasının kafirlərin hiylə tələsinə düşdüyünü, öz yolunu azdığını ürəkyanğısı ilə poetikləşdirirdi.

Çox islam tərk etdi savmi-səlati,
Pozulub işləməz hacı zəkatı,
Yalnız dildə qaldı bir şəhadəti,
Onda ixlas ilə diqqətmi qaldı. [1, s.180]

Aşığın fikrincə, cəmiyyətin nizamı fərdlərin mənəvi aləminin zənginliyi ilə müəyyənləşir. Bu mənəvi zənginlik insanın özünü dərk etməsində, sözünə, gözünə, izinə (yoluna) sədaqətli olmasındadır. Başqa sözlə, "haqlı-haqsız yerdə dava edirsə" rüşvət cəmiyyətin özülünü sarsıdırsa, cahillər kamillərin üstündə dayanıb hökm verirlərsə, onda ədalət pozulur, onun yerini nifaq, hərc-mərclik, özbaşınalıq tutur. Bu cür dərin əxlaqi-fəlsəfi ideyalar aşığın ictimai-siyasi lirikasının məna və məzmun tutumunu daha da genişləndirir. Çünki Sümmaninin göylərə ucalan fəryadı onun şəxsi qəm-kədərindən deyil, vətən dərdindən, millətin yaman günə qalmasındandır. Sümmani də Qaracaoğlan, Abbas Tufarqanlı, Ərzurumlu Aşıq Əmrah, Aşıq Ələsgər, Aşıq Şenlik və digər saz-söz ustadları kimi cəmiyyətdəki təzadları açıb göstərmiş, bu təzadların ictimai mahiyyətini əks etdirməyə çalışmışdır. Bir sənətkar kimi o, yaşayıb-yaratdığı dövrün ziddiyətli mənzərəsini əks etdirməyə səy göstərir, insanlar arasında etimadın, qarşılıqlı əxlaqi-mənəvi münasibətlərin korlandığını dərin təəssüf hissi ilə canlandırırdı. Bu mənada Aşiq Sümmani yuxarıda adlarını çəkdiyimiz və çəkə bilmədiyimiz ustadlarla eyni mövqedə dayanır, sənətkar cəsarəti və fəhmi nümayiş etdirir. Müqayisə üçün Aşıq Ələsgərin "Görmədim" qoşmasından bir bəndə nəzər salaq

Yetəni özümə mən dost eylədim,
Yolunda canıma çox qəsd eylədim.
Söyüddən bağ saldım, peyvəst eylədim,
Almasın, heyvasın, narın görmədim [2,s.85]

Aşıq Sümmani "Bulamadım" ("Tapa bilmədim") qoşmasında "ömrünü bihudə keçirdiyini", "yara yetişmək üçün bir yol tapa bilmədiyini" etiraf edir, çəkdiyi zəhmətin hədər getdiyinə təəsüflənərəkiç duyğularını dilə gətirir:

Can qurban eylədim Həzrəti Pirə,
Fədakar olmadım ağlımda şirə.
Yüz min çiçək cəm eylədim bir yerə.
Yoğurdum içində bal bulamadım. [1, s.218]

Bir çox el sənətkarlarından fərqli olaraqaşıq Sümmaninin ictimai-siyasi lirikasında kəskin tənqid, xalq gülüşü zəifdir. Aşıq dünyanın nizamının pozulmasının, insanların qəddarlaşmasının, qanlı-qadalı müharibələrdə günahsız qurbanların həlak olmalarının səbəbini dərin sosial-siyasi ziddiyətlərdə, imperialist qüvvələrin hökmranlıq iddialarında deyil, bəşər övladının Allahdan üz döndərməsində, dini-mənəvi əxlaq qanunlarından kənara çıxmasında görür, soydaşlarını şəriət qaydalarına əməl etməyə çağırırdı.

Məlumdur ki, əlli beş illik ömründə Sümmani bir çox mühüm tarixi hadisələrin şahidi olmuşdur. 1877-ci ildən başlayıb davam edən rus-türk müharibələri, Osmanlı Türkiyəsinə beynəlxalq səviyyədə edilən təcavüzlər, Balkan müharibələri, daxili çəkişmələr və üsyanlar, erməni məsələsi, birinci dünya müharibəsi və sair Sümmani yaradıcılığında müşahidə olunan bədbin əhval-ruhiyyənin güclənməsinə səbəb olmuşdu. Aşığın "Ağlaram", "Dünyanın". "Yoxsulun", "Satılır",

"Qaldı" və digər qoşmalarında qeyd olunan bu xüsusiyyətlər qabarıq şəkildə nəzərə çarpır. Fikirimizcə dünya hadisələrinə bu cür yanaşma onun dünyagörüşündəki bəzi məhdudiyyətlərdən və mühafizəkarlığından irəli gəlirdi. "Əli süfrəyə çatmayan yoxsul", "Camidən, məsciddən qaçan camaat", "Dinin sahibindən yetişsə himmət", "Şəriətdən ayrıldı buli dünyanın" və sair kimi misra və ifadələr haqq və ədalət axtaran aşığın islamçılığa , şəriətə nə qədər bağlı olduğunun, nicat yolunu islam dinində tapmağının bədii təcəssümüdür. Hətta aşıq bəzən "kimi müsavat deyir, kimi hürriyyət" ifadələrinə istehza ilə yanaşır, yeni açılan məktəblərdə latın əlifbasının öyrədilməsinə, tədris üsullarının yenilənməsinə qarşı çıxır, "üsul incəldikcə din zəiflədi" deyə Osmanlı Türkiyəsində aparılan islahatlara mühafizəkar münasibət bəsləyirdi:

Bütün asi olub yoldan azarlar,
Şəriətin ehkamını pozarlar.
Gün gəlib latınca oxub yazarlar,
Açıb oxumazlar o gözəl Quranı [1, s.184]

Şəxsi həyatında çəkdiyi ağır iztirablara baxmayaraq, ustad sənətkar heç vaxt milli dərdlərə biganə qalmamış, "Sümmani Məcnundur vətən dərdindən" –deyə vətənpərvərlik hisslərini ifadə etmişdir. Xüsusilə, I Dünya müharibəsinin başlanması və bu müharibədə Türk ordularının bir neçə cəbhədə xarici işğalçılara qarşı vuruşması Sümmaniyə dərin təsir göstərmişdir. "Azaldı sədaqət, çoxdur xəyanət"- deyə aşıq qana çalxanan dünyanın xilasını yalnız ulu Yaradanda görürvə ümidini ona bağlayırdı. Bunu onun şeirlərindən də aydın görmək olur.

Sənə tam min üçyüz otuz olunca,
Qırıldı qanadı, qolu dünyanın. [1, s.241]

Aşıq cəmiyyətdəki yaramazlıqlara, ictimai qüsurlara nəzər saldıqca saxtakarlığın, mənəvi yoxsulluğun baş alıb getdiyini görür. Aşıq Sümmaninin ictimai-siyasi lirikasında əks olunan bu cür naqisliklər və yaramazlıqlar ayrı-ayrı insan qruplarına və yaxud müəyyən sosial təbəqələrə aid bir xüsusiyyət deyil. Bu cür mənfi xüsusiyyətlərin ictimai bir bəla kimi bütün cəmiyyəti əhatə etdiyini, dünyanın fitnə-fəsadla dolduğunu söyləyən aşıq bunun səbəbini axtarmağa çalışır. "Zatən tərsinədir dünyanın işi"-deyə xeyirlə şərin, yaxşı ilə yamanın, doğru ilə yalanın bir-birinə qarışdığını göstərir:

Dəyərli insanlar qaldı yalnız,
Dəyərsizlər eldə gəzər tərtəmiz.
Alan kor, satan kor, qantar ayarsız,
Buğda bahasına saman satılır. [1, s.282]

"Satılır" rədifli üç bəndlik bu qoşmada Sümmani dövrün sosial mənzərəsini xarakterik cizgilərini yarada bilmişdir. Milli-əxlaqi dəyərlərə, ağsaqqal öyüdünə biganə münasibət bəslənilən bir dövrdə aşıq Sümmani bədbin əhval-ruhiyyəyə qapılsa da, gələcəyə olan inamını da itirmir, cəmiyyətdəki yaramazlıqların aradan qalxacağına, xaosun nizama salınacağına ürəkdən inanır. Bu nikbin baxış sənətkarın şəxsi kədəri ilə ictimai dərdlərinin vəhdətində oxucuda da xoş ovqat oyadır, onu mənəvi təkamülə, milli-əxlaqi vədini dəyərləri qoruyub saxlamağa səsləyir. Xəlqi ruh, milli kolorit, canlı danışıq dilinin sadəliyi, xalq ƏDƏBİYYATından gələn aforistik ifadələrin poetik bir biçimdə əks olunması aşıq Sümmaninin ictimai-siyasi mövzuda düzüb-qoşduğu şeirlərin sənət keyfiyyətlərinin başlıca göstəriciləridir.

ƏDƏBİYYAT

1. Aşıq Ələsgər. Əsərləri. Dastan-rəvayətlər.Xatirələr. (toplayıb tərtib edəni. İ.Ələsgər). Bakı Şərq-Qərb, 1999, 578 s.
2. Erkal A. Aşık Sümmani, Erzurum: Fenoman yayımları, 2007, 494 s.

3.İnal İ.Halil. Osmanlı imperatorluğu tarihi. İstanbul Noktakitap. 2007, 557 s.

РЕЗЮМЕ
НРАВСТВЕННО-ДИДАКТИЧЕСКАЯ СУЩНОСТЬ В ПОЭЗИИ АШУГА СУММАНИ
Автандил Агбаба

В статье исследуется общественно-политическая лирика народного деятеля Ашуга Суммани.В стихотворениях Ашуга отражается социальное неравенство, нарушение прав человека, такие идеи, как призыв к совершенству и т.п., привлекают внимание своей глубокой социально-философской сущностью. Автор исследовал эти вопросы в контексте общественно-политической ситуации того времени, делал сравнения. Из анализа сделан вывод, что стихотворения, написанные Ашугом Суммани на эту тему, актуальны, важны также и в наше время.

Ключевые слова: Ашуг Суммани, равенство, нравственное воспитание, поэзия, эстетическая красота

SUMMARY
MORAL AND DIDACTIC ESSENCE IN THE POETRY OF ASHUG SUMMANI
Avtandil Agbaba

The article examines the socio-political lyrics of folk artist Ashug Summani. The ideas reflected in Ashug's poems, such as social inequality, human rights violations, the call for perfection, etc., attract attention with their deep socio-philosophical nature. The author studied these issues in the context of the socio-political situation of the time and made comparisons. It has been concluded from the analysis that the poems written by Ashug Summani on this subject are still relevant and important in our time.

Key words: Ashug Summani, equality, moral education, poetry, aesthetic beauty

ORTA MƏKTƏBLƏRDƏ TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİNİN TƏDRİSİ: PROBLEM VƏ PERSPEKTİVLƏR

Ağayev E. R.
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci
Emilaghayev93@mail.ru

Xülasə: Orta məktəblərdə incəsənət yönümlü fənlərin tədrisi şagirdlərdə böyük maraq doğurur. Təsviri incəsənət fənninin də şagirdin formalaşmasında özünəməxsus güclü təsiri vardır. Orta məktəb dərsliklərimizə diqqət yetirsək, istər nəzəri, istərsə də təcrübi baxımdan geniş yer ayrılmışdır.

Bu məqalədə orta məktəbdə təsviri incəsənət fənninin tədrisi metodikasında inkişafı ön plana çıxarmaq, dərsliklərin təhlili ilə bərabər problemlərdə araşdırılmışdır. Orta məktəblərdə bu fənnin tədris olunmasında olan problemlər və onun həll yolu, inkişafı üçün müəllifin yeni fikirləri təqdim edilmişdir.

Açar sözlər: Təsviri incəsənət, problem, fənn, orta məktəb, perspektiv

İncəsənət hər bir insanın dünyagörüşü, daxili aləmi və estetik zövqünün formalaşmasında mühüm yer tutur. Bütün bu sadaladıqlarımız orta məktəblərdə təhsil alan şagirdlərin onlara tədris edilən fənnlərin düzgün şəkildə tədris olunmasından başlayır. Özündə rəng, işıq-kölgə, plastika və digər anlayışları birləşdirən təsviri incəsənət fənninin də şəxsiyyətin formalaşmasında oynadığı rolu vurğulamalıyıq.

Orta məktəblərdə təsviri incəsənət fənni üzrə dərsliklər**.** Azərbaycan Respublikasında orta məktəblərdə təsviri incəsənət fənni birinci sinifdən başlayaq doqquzuncu sinifə qədər keçirilir. Birinci və ikinci sinif dərsliklərində təsviri incəsənət üzrə ilkin anlayışlar, Qəzənfər Xalıqov, Cəlal Qaryağdı, Bəhruz Kəngərli və Əzim Əzimzadə kimi sənətkarlar haqqında qısa məlumatlar verilir. Həmçinin dərsliklərdə məşğələlərin verilməsi, şagirdlərin yaradıcılıq qabiliyyətini artırır. Dünyanın məşhur muzeylərinə səyahət edilərək, həm də yeni formalaşan şagirdlərin dünyagörüşünün artmasına xidmət edir. Üçüncü və dördüncü sinif dərsliklərində Azərbaycan və avropa təsviri incəsənət tarixinə aid nümunələr işlənilmişdir. Nəzəri və praktik biliklər qarşılıqlı şəkildə əlaqələndirilir. Beşinci və altıncı siniflərin təsviri incəsənət üzrə dərsliklərində çoxlu nəzəri səhvlərin olmasını qeyd etməliyik. Həmin bu siniflər üzrə dərs vəsaitləri yenidən işlənilərərək, daha da təkmilləşdirilməlidir. Orta məktəblərin yeddinci sinif dərsliklərində daha çox üslubların tarixi və estetik nəzəriyyəsinə geniş yer ayrılıb.Səkkizinci sinif dərsliyinə nəzər yetirsək 19-20-ci əsr Azərbaycan və Avropa təsviri incəsənət tarixi, rəssamları və onların məşhur əsərləri şagirdlərdə marağın oyanması üçün mühüm əhəmiyyət kəsb edir.Doqquzuncu sinif dərsliyində isə müasir dövr incəsənəti araşdırılıb və təqdim edilir. Bütün bu dərsliklərdə məşhur əsərlər sənətşünaslıq kontekstində təhlil edilərək daha da şagirdlərdə maraq oyadır.

Orta məktəblərdə təsviri incəsənət fənninin tədrisində problem və perspektivlər. Orta məktəblərdə tədris olunan təsviri incəsənət fənni çox təssüf olsun ki, şagirdlərdə maraq oyatmır. Burada bir sıra ciddi problemlər var. Çünki müasir təhsilin yeni təlim-texnologiyaları bu fənn üçün də tətbiq edilməlidir. Hər il təhsil nazirliyinin müəllimlərin işə qəbul zamanı yalnız təsviri incəsənət müəllimliyi ixtisası üzrə bitirən məzunların müsabiqəyə buraxılması düzgün qərar deyil. Biz bu fənn üzrə dərsliklərə diqqətlə nəzər yetirsək, nəzəri biliklərin üstün olduğunu görə bilərik. Müsabiqə zamanı sənətşünaslıq yəni təsviri incəsənət tarixi və nəzəriyyəsi ixtisası üzrə məzunların müsabiqəyə qəbulu orta məktəblərdə bu fənnin tədrisinə müsbət nəticə verər. Çünki nəzəri bilikləri və fənnin müasir təhsil qaydalarına uyğun daha dinamik şəkildə məhz adı çəkilən ixtisasın məzunları daha dərindən öyrənir. Təsviri incəsənət fənninin tədrisi zamanı hər bir mövzu müəyyən bir slayd təqdimatı, videolardan istifadə edilərək, şagirdlərdə bu fənnə qarşı müəyyən maraq oyatmaq olar. Təhsil nazirliyi bu fənn üzrə müəllimlərin işə qəbul zamanı sənətşünaslıq (təsviri incəsənət tarixi və nəzəriyyəsi) ixtisası üzrə bitirən məzunları da cəlb edərək daha uğurlu nəticələr əldə edə bilərik.

"Orta məktəblərdə təsviri incəsənət fənninin tədrisi: problem və perspektivlər" tezisinin əsas nəticələri aşağıdakılardır:

1. Təsviri incəsənət fənni üzrə dərsliklər təhlil edimişdir
2. Təsviri incəsənət fənninin tədrisindəki problemlər araşdırılmışdır
3. Təsviri incəsənət fənninin tədrisində yeniliklər etmək üçün bir sıra maraqlı təkliflər verilmişdir.

ƏDƏBİYYAT

1.Təsviri incəsənət (ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün dərslik), Bakı Azərnəş, 2012, 64 s
2.Təsviri incəsənət (ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün dərslik), Bakı, Azərnəşr, 2012, 64 s
3. Təsviri incəsənət (ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün dərslik), Bakı, Azərnəş, 2011, 72 s

4.Təsviri incəsənət (ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün dərslik), Bakı, Aspoliqraf, 2012, 79 s
5. Təsviri incəsənət (ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik), Bakı, Azərnəşr, 2019, 95 s

РЕЗЮМЕ
ПРЕПОДАВАНИЕ ПРЕДМЕТА ИЗОБРАЗИТЕЛЬНОГО ИСКУССТВА В СРЕДНЕЙ ШКОЛЕ: ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ
Агаев Э. Р.

Большой интерес у учащихся вызывает преподавание художественных предметов в средних школах. Предмет изобразительного искусства также оказывает сильное влияние на формирование уникального ученика. Если обратить внимание на школьные учебники, то там отводится много места как теории, так и практике. В статье исследуется развитие предмета изобразительного искусства в вузе в методике преподавания, а также, дается анализ учебников. Представлены авторские новые идеи для их решения и развития. проблем преподавания данного предмета в общеобразовательных школах.
Ключевые слова: изобразительное искусство, проблема, предмет, вуз, перспектива

SUMMARY
TEACHING THE FINE ARTS IN SECONDARY SCHOOLS: PROBLEMS AND PERSPECTIVES
Agayev E.R.

The teaching of art-oriented subjects in secondary schools is of great interest to students. The subject of fine arts also has a strong influence on the formation of a unique student. If we pay attention to our high school textbooks. This article examines the development of the subject of fine arts in high school in the teaching methodology, as well as the analysis of textbooks. The author's new ideas for the problems of teaching this subject in secondary schools and its solution and development were presented.
***Key words*:** fine arts, problem, subject, secondary school, perspective

MUSTAFA ÇƏMƏNLİNİN “YADDAŞ” POVESTİNDƏ SƏLİMOVUN MƏNƏVİ DEQRADASİYASI

Babayeva A. N.
Sumqayıt Dövlət Universiteti

Xülasə: M.Çəmənli əsərlərində mənəvi dəyərlərin deqradasiyasını sosial, siyasi, iqtisadi, psixoloji və ideoloji ziddiyyətlərin əsas mənbəyi kimi qeyd edir. Bu prosesi insanlığın böhranı, özünə dönüklük adlandırır. Buna görə də o, insanları öz mahiyyətlərini dərk etməyə, yaddaşına, keçmişinə, vicdanına dəyər verməyə çağırır. Çünki zaman və məkan dəyişir, amma insanlığın mahiyyəti dəyişməz olaraq qalır.
Açar sözlər: mənəvi-əxlaqi dəyər, insan, yaddaş, düşüncə, mənəvi böhran.

Bütün sahələr (elm, texnika, iqtisadiyyat və s.) üzrə inkişaf etməkdə olan, qloballaşan dünyada hamı harasa tələsir. Bu tələskənliyin içində də insanlığın mahiyyəti olan külli

mənəviyyatda nöqsanlar, qüsurlar daha da çoxalır. Yaradılış, həyat və insanın əsl mahiyyətini alt-üst edən bu problemi əks etdirmək üçün yazıçı, şair, rəssam, musiqiçilər və s. öz əsərlərində mənəvi-əxlaqi problematikaya toxunur, nəzərləri hadisələrin arxasında gizlin qalan səbəb və məqsədlərə yönəldərək təkrar-təkrar xeyir və şərin mübarizəsini göstərir, zamanın, dövrün nə qədər inkişaf etməsindən asılı olmayaraq insan həyatının mahiyyətinin dəyişməz olduğunu göstərməyə çalışırlar.

İnsanın ruhi, daxili aləmini əksetdirən mənəvi-əxlaqi dəyərlər sistemi insanlara, ilk növbədə, nəyin yaxşı, nəyin pis olduğunu öyrədir. İnsanın bu dəyərlər sistemindən – mərhəmət, sevgi, ailə, humanizm, ədalət, ləyaqət, vicdan, şərəf, namus və s. – seçdiklərindən asılı olaraq, pis və ya yaxşı bir fərd kimi formalaşdığını görürük. Deməli, bədii ƏDƏBİYYATda mənəvi-əxlaqi problemə müraciətin əsas məqsədi cəmiyyətə, gəncliyə doğru həyat yolunu göstərmək, insanların hiss və düşüncələrini, mənəvi axtarışlarını genişləndirərək zənginləşdirməkdir.

Azərbaycan yazıçı və şairlərinin də (C.Cabbarlı, H.Cavid, İ.Əfəndiyev, M.Hüseyn, V.Babanlı, Y.Səmədoğlu, B.Vahabzadə, M.Araz, Ə.Məmmədxanlı, İ.Hüseynov, Ə.Əylisli, Anar, Elçin, M.Çəmənli, və s.) yaradıcılıqları bu baxımdan diqqətəlayiqdir. Onlar mənəvi mövzulara müraciət etməklə oxucunu, xalqı hər zaman mənəvi tarazlığı qorumağa çağırırlar.

Bu ənənəni qoruyan və yaradıcılığında mənəvi dəyərlərə xüsusi yer ayıran yazıçılardan biri də M.Çəmənlidir. Ümumiyyətlə, Mustafa Çəmənlinin yaradıcılığı əsas iki xətt üzrə inkişaf edir:

1. Vətən sevgisi, milli heysiyyət;
2. Mənəvi-əxlaqi dəyərlər.

Yazıçı mənəvi-əxlaqi dəyərlər mövzusuna xüsusi önəm verməkdə yanılmır. O, bu yolla həm də müxtəlif problemlərin təhlilinə yol açır. Bu səbəbdən də, insanlara mənəvi dəyərləri aşılamaq, insanın əsl mahiyyətini anlatmaq, Tanrını dərk edən yaşam tərzini təlqin etmək onun əsas məqsədlərindəndir. İnsanın özü və Allahı arasında baş verən hər bir yanlış dərkin, yanaşmanın sistematik (ardıcıl), eyni zamanda xaotik olaraq bütün münasibətlərin pozulmasına, yanlışlığına gətirib çıxardığını göstərir. Buna görə də siyasi, sosial, fəlsəfi, iqtisadi və s. münasibətlər üzərində qurulan insanlığın, cəmiyyətin dayaq nöqtəsi kimi məhz mənəvi dəyərlər sistemi olduğunu xüsusilə vurğulayır.

Yazıçı yaradıcılığının ilk dönəmində diqqətini daha çox insan xarakterinə, sosial problemlərə yönəldir. Lakin onun əsas məqsədi yalnız fərd problemini vurğulamaq deyil. O, fərd problemini daha geniş aspektdə - zaman və mühitin fonunda təhlil edir. Buna görə də insanı məhz zaman və mühitin yetirməsi kimi təqdim edir. 70-90-cı illərdə yaratdığı obrazlar Sovet quruluşunun spesifik xüsusiyyətlərinə analoji olaraq səciyyələndirilir. Biz bu əsərlərdə onun Sovet quruluşunun ciddi milli və mənəvi nöqsanlar yaratdığını göstərməyə çalışdığını görürük. Məsələn, milli adət-ənənələrini təhlükəli sayan Sovet quruluşunun tərkibinə daxil olan bütün xalqlar kimi (xüsusilə də, xristian olmayanlar) Azərbaycan xalqını da milli heysiyyətini itirmiş manqurtlara çevirmək istədiyini və bu yolda pul, şöhrət, vəzifə kimi vasitələrdən istifadə etdiyini ustalıqla təsvir edir. Sovet rejiminin sosial və ictimai əsarəti yenilik adı ilə təbliğ etməsi yazıçının yaradıcılığında mənəvi və milli uçurum kimi qiymətləndirilir.

Bu tezisdə biz onun 1984-cü ildə yazdığı "Yaddaş" povestinin aparıcı obrazı Səlimovun daxilində gedən mənəvi problemlərin dinamikasına, evolyusiyasına nəzər yetirəcəyik.

Ümumiyyətlə, bu əsərdə ideal qəhrəman xarakteri təsvir olunmayıb. Yazıçı bununla, yəni insanları olduğu kimi göstərməklə real həyatın qüsursuz olmadığını vurğulayır. O, əsərin əvvəlində Səlimovu xəstələnib yatağa düşmüş halda təsvir edir. Ömrünün sonuna çatmış Səlimovun ətrafında hər şey arzuladığı kimi (Kənddə və şəhərdə evi, maşını, vəzifəsi, onun qayğısına qalan həyat

yoldaşı və oğlu) olmasına baxmayaraq o, sonun başlanğıcında təşviş içindədir, uzun zaman özündən uzaqlaşdırdığı suallara cavab axtarmağa başlayır. Xasının (uşaqlığında onu "Xası" deyə çağırardılar) xatırlamaq istəmədiyi, buna görə də yaddaşının küncünə atılmış bir çox xatirələri var: Durna düzümünü dağıtmasından tutmuş körpə bədəni torpağa basdırmasına qədər. Yaddaşının bir küncündə ilişib qalmış bu xatirələr onun günahlarının əksidir. O, qaranlıq keçmişindən qaçmaq istəsə də, kölgəsi onun qarşısında durub yaddaşının itirilmiş fraqmentlərinə baxmağa məcbur edir. Etdiyi günahlar bir şillə təki üzünə çırpılır. Beləcə, yalana, xainliyə, pis əməllərə alışan, daşlaşan ürək artıq bu ağırlığa tab gətirmir.

Biz bu halı - ölümqabağı yaddaşın dərinliyində itirilmiş xatirələrin yenidən oyanmasını Y.Səmədoğlunun "Qətl günü" əsərindəki Zülfüqar obrazında da müşahidə edirik. Hər iki yazıçı bunu ölümün yaxınlaşması ilə əlaqələndirir. Yəni ölümün nəfəsini duyan hər bir kəs sona gəlib çatan yola baxmağa başlayır. Beləcə, illərlə özünə hesabat verməyən insanlar öz əməllərini nəzərdən keçirtməli olurlar.

"Heç bir şeyi insan həmişəlik unutmur, çünki xatirələrin öz vədəsi var: vaxtı gələndə beynin bütün kilidli qapıları öz-özünə açılacaq. Amma gərək bu xatirələrin qabağında davam gətirə biləsən" [3, s.54) Səlimov da xatirələrinin qarşısında davam gətirə bilmir.

Yuxarıda qeyd etdiyimiz kimi, Səlimovun yaddaşına səyahəti onun özünə gecikmiş hesabatıdır. Onun yad etməyi unutmuş yaddaşsızlığı yaşadığı ictimai mühiti ilə yanaşı, fərdi çatışmamazlıqlarını əks etdirir. Yaddaşı ona xatırladır ki, o, törətdiyi əməllərlə şərin qüvvətlənməsinə geniş imkanlar açıb. Çünki onun bu əməlləri yarımçıq qalmış həyatlar, lənət, faciə ilə nəticələnmişdir.

Şəhər mühitində insan özü ilə təkbətək qalmağa vaxt və məkan tapmır. Ona görə də yazıçı məqsədli şəkildə Səlimovu kəndə gətizdirir. Kəndə qayıdış şərti-metaforik xarakter daşıyır. Bu qayıdışa biz çox əsərlərdə (Ə.Əylislinin "Ağ dərə", İsi Məlikzadənin "Gümüşgöl əfsanəsi" və s.) rast gəlirik. Yazıçı kəndə qayıdışı kökə, keçmişə, vicdana aparan addım kimi göstərir. Səlimovun kənddən, qohumlardan uzaqlaşması ilə onun insan kimi mənəviyyatdan uzaqlaşması arasında paralellər aparmaq mümkündür. O, saflığını itirdikcə öz kökündən, ailəsindən qaçıb şəhərin xaotik həyatının ağuşuna tələsir. Çünki orada ona keçmişini xatırladan olmayacaq, o da istədiyi kimi yaşayacaq. Deməli, kənd özünə, kökə qayıdışı, şəhər isə imtinanı ifadə edir. Kənd, torpaq insanı saflaşdıran amillərdən olduğuna görə də müəllif Səlimovu ölümqabağı kəndə gətirir və yaddaşı, vicdanı ilə üz-üzə qoyur. Şəhər mühitində bu daha çətin olardı. Çünki uca evlərdən durnaların uçuşunu izləmək, zəhmət nəticəsində böyüyən tut ağacının altında oturmaq, təmiz hava almaq, özünlə tək qalmaq mümkünsüz hala çevrilib. İndi isə o, onun adına sevgi ilə əkilmiş bu ağacın altında oturub uşaqlığını, qaranquş yuvasını uçurtması, durna düzümünü dağıtmasını, anasının qarğışını, insanlara xəyanətini, vəzifəsindən sui-istifadə etdiyini və ən əsası, onun son şansı ola biləcək günahsız körpənin bədənini basdırdığını xatırlayır. Çirkaba batmış Səlimov məhz onda anlayır ki, həmin körpə Tanrının ona bəxş etdiyi sonuncu lütf, sevgi idi. Bu bəxşişi qəbul etsəydi, bəlkə də, həyatını, mənəviyyatını xilas etmiş olardı. Amma yox, o, "özünün işıqlı gələcəyi" üçün Tanrının bəxş etdiyi nemətdən imtina edir və bir insan, bir kişi kimi tamamilə məğlub olur. Bu məğlubiyyət onunla bərabər ətrafındakılara da təsir etmiş, onların həyatı alt-üst olmuşdur.

Xasının qaranquş yuvasını uçurtması, yerdə daşı çevirməklə durna qatarını dağıtması, Pəri xalanın dözməyib oğluna "Xası, Xası, səni görüm Əzrayıl aparsın" [1, s.17] deyib qarğıması povestin ekspozisiya elementləri kimi qəbul etmək olar. Bu kiçik xatirələrlə yazıçı hadisələrin inkişafına təkan verir. Ananın qarğışı özlüyündə mifik və fəlsəfi yük daşımaqla yanaşı, assosiativlik yaradır.

Yazıçı əsər boyu Səlimovun həm sosial, həm də mənəvi-əxlaqi kontekstdə bədii təhlili üçün imkan yaradır. Bununla da, insan təbiətinin gizli tərəflərini göstərir. Zamanın caynağına düşən bu şöhrət, vəzifə, pul həvəskarı həm də dövrünün (Sovet rejiminin) yetirməsidir. Yazıçı Səlimov obrazı üzərində zamanın insana təsir gücünü xüsusilə vurğulayır. O, Səlimov obrazı ilə insanlara insan olma vəzifələrini unutduqlarını xatırladır.

"Yaddaş" epizodik hadisələrdən ibarətdir, amma kompozisiya, süjet, təəssürat tamdır. Ümumiyyətlə, Mustafa Çəmənli əsərlərində detallara xüsusi önəm verir. Bu detallar vasitəsilə o, obrazlı emosional dərki təmin etməyi bacarır, hadisələrin psixoloji qatını açır.

"Yaddaş" ictimai-siyasi xarakterli əsər kimi həm də müharibənin törətdiklərinin də əksidir. Müharibə və rejim əsərdə bir tərəfdən insanları özlüyündən çıxaran, bədbəxtlik amili kimi verilirsə, digər tərəfdən də yaxşını-pisi, güclünü-zəifi ayırd edir. Yazıçı bu "süzgəc"dən başıyuxarı çıxanları dəyərləndirməyi tövsiyə edir.

Yazıçı cəmiyyətdə baş verən mənəvi böhranı insanlığa dönüklük kimi təqdim edir. Bu mənəvi problemə də münasibətini sərt şəkildə bildirir. Çünki belə davam edərsə, cəmiyyətimizin "manqurtlaşa" biləcəyindən narahatdır.

ƏDƏBİYYAT

1. Çəmənli M. Ruhların üsyanı. Bakı: Adiloğlu, 2007, 320 s.
2. İtirilmiş söz. Bir kitablıq söz. Bakı: Təhsil, 2017, 304 s.
3. Səmədoğlu Y. Qətl günü. Bakı: Qanun, 1987, 270 s.

РЕЗЮМЕ
МОРАЛЬНАЯ ДЕГРАДАЦИЯ САЛИМОВА В ПОВЕСТИ МУСТАФЫ ЧЕМЕНЛИ "ПАМЯТЬ"

Бабаева А. Н.

В своих произведениях М.Чеменли подчеркивает распад моральных ценностей как главный источник социальных, политических, экономических, психологических и идеологических конфликтов. Он назвал этот процесс кризисом человечества, отвержением самого себя. Поэтому он призывает людей ценить свою сущность, память, совесть. Потому что, время и пространство меняются, а сущность человечества, как всегда, остается неизменной.

Ключевые слова: моральная ценность, человек, память, мышление, моральный кризис

SUMMARY
SALIMOV'S MORAL DEGRADATION IN MUSTAFA CHEMENLI NOVEL " MEMORY"

Babaeva A.N.

M. Chemenli in his works emphasizes the disintegration of moral values as the main source of social, political, economic, psychological and ideological conflicts. He called this process the crisis of humanity, the rejection of oneself. Therefore, he encourages people to value their essence, memory, conscience. Because time and space change, but the essence of humanity, as always, remains unchanged.

***Key words*:** moral value, person, memory, thinking, moral crisis

ETNİK KODUMUZ: ŞUŞA ŞƏHƏRİNİ YAŞADAN ADLARIMIZ

Bayramov A. Ə., Babayeva A.N.
Sumqayıt Dövlət Universiteti

Xülasə: Bu məqalədə Qarabağ, Şuşa tarixi ilə bağlı konkret tarixi faktlar təqdim edilmişdir. Şuşanın yaranma tarixi, onun bir şəhər kimi inkişafı, ictimai-siyasi vəziyyəti, tarixi-etnik mədəniyyəti haqda məlumatlar verilmiş, orada mövcud olmuş onomastik vahidlər funksiyalarına görə qruplaşdırılmışdır. Şuşanın onomastik leksikasını təhlil edərkən aydın olur ki, bu onomastik vahidlər azərbaycanlıların etnik koduna çevrilmişdir.

Açar sözlər: *Qarabağ, Şuşa, tarix, etnik kod, onomastik leksika.*

Qarabağ tarixinə aid yazılmış tarixi kitablarda həm Qarabağ, həm də onun mərkəzi olan Şuşa və ona yaxın ərazilər haqqında geniş və ətraflı məlumat verilir. Mirzə Adıgözəl bəy (Qarabağnamə), Mirzə Camal Cavanşir Qarabaği (Qarabağ tarixi – 1747-1828), Əhməd bəy Cavanşir (Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyəti), Mirzə Yusif Qarabaği – 1780-1828 (Tarixi-Səfi), Mirzə Mehdi Xəzani (Kitabi-tarixi Qarabağ), Rzaqulu bəy Mirzə Camal oğlu, "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri", Mirzə Rəhim Fəna – 1841-1922 (Tarixi Cədidi-Qarabağ), Baharlı (Əhvalati-Qarabağ), Həsən İxfa Əlizadə – 1893-1972 (Şuşa şəhərinin tarixi), Həsənəli Qaradaği – 1848-1928 "Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övraları", Abbasqulu ağa Bakıxanov – 1794-1846 (Gülüstani-İrəm), Firidun Şuşalı –1925-1997 ("Şuşa"), Məhəmməd Baharlı – 1896-1997 (Azərbaycan) və digərlərinin əsərlərində Şuşa və ona yaxın olan ərazilərdə bəy-xan mülükünə aid olan yerlər və mülklər də xatırlanır. Azərbaycanın tarixi bir hissəsi olan Qarabağın sərhədi ictimai-siyasi vəziyyət və s. haqqında geniş məlumat verilir.

Həmin mənbələrdə göstərilir ki, Nadir şah Qarabağdakı Cavanşir elini başçıları Əli bəy Sarıcalı (Pənah xan) ilə birlikdə Xorasana köçürmüşdü. Nadir şahın ölümündən sonra (1847) Azərbaycanda Gəncə, Şəki, Şirvan, Bakı və başqa xanlıqlar yaranır. Belə bir vaxtda Xorasandan qayıdan Pənah xan Cavanşirlər və Otuzikilər türk tayfalarının köməyindən istifadə edərək Qarabağ xanlığını yaratmışdır. Xanlığın sərhədi Cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə, Şərq tərəfdən Kür çayının Araz çayı ilə birləşən Cavad kəndinə, Şimal tərəfi Goran çayına, Qərb tərəfi Keştək, Salvartı və Ərikli dağlarına qədər uzanırdı. Mil-Muğan düzlərinin bir hissəsi, Zəngəzur, Sisyan, Qafan, Naxçıvan sərhədi və Ordubadın Əylis kəndinə qədər Qarabağ ərazisi sayılırdı.

Pənah xan Bayat və Şahbulaq qalasını tikdirdi. Daha sonra o çalışdı ki, Qarabağın mərkəzi elə bir yerdə olsun ki, həm səfalı, həm də əlçatmaz olsun. Beləliklə, 1850-ci ildə Şuşa qalasının əsası qoyulur. Pənah xan məşhur ustalar gətirdib 1756-1757-ci illərdə qalanı inşa etdirir. Qalanın şimal və şərq hissəsinə hündür və möhkəm hasar çəkdirir. Qalanın "İrəvan" və "Gəncə" adlanan qapıları böyük darvazalarla bərkidilir. Qapılar səhər açılır, axşam isə keşikçilər bağlayardılar. Şəhərdə Avropa üslubunda evlər tikilir, meydança, park və küçələr salınırdı. O vaxt böyük el sayılan Dəmirçi Həsənli, Kəngərli, Cinni, Seyidli, Köçərli, Saatlı, Mardinli, Culfalar, Qurdlar tayfaları Şuşa şəhərinə yerləşərək öz məhəllələrini yaradırdılar. 1871-ci Xan qızı Natəvan Şuşa şəhərinə 7 kilometrdən su xətti çəkdirir, şəhərin bir neçə yerində su kranı qoydurur. Yaxın ərazilərdən müxtəlif insanlar şəhərə yerləşir, sənətkarlıq inkişaf edirdi. Pənah xan 1758-ci ildə vəfat edəndən sonra onun oğlu İbrahimxəlil xan 1760-cı ildən 1806-cı ilədək İran və Rum padşahlarına boyun əymədən Qarabağın xanı olur, müstəqil hökmranlıq edir. Azərbaycanın digər xanlıqları ilə yaxından əlaqə

saxlayır. İbrahim xan öldürüldükdən sonra (1806) Çar Aleksandrın fərmanı ilə İbrahim xanın oğlu Mehdiqulu xan 1822-ci ilə qədər xanlığa rəhbərlik edir.

Firidun bəy Şuşalı rus statistik sənədlərinə əsaslanaraq qeyd edir ki, XVIII əsrin axırı, XIX əsrin əvvəllərində Şuşada 2 minə qədər ev, 10 mindən çox adam yaşamışdır. Məhəmməd Baharlının məlumatına görə 1917-ci ildə Şuşada 50 mindən çox əhali yaşamışdır. Şəhərdə gön-dəri istehsalı, misgərlik, daşyonma, xalçalıq, çəkməçilik, zərgərlik, baramaçılıq, papaqçılıq inkişaf etmişdir. Şuşa tacirləri Şərq və Qərbi Avropa şəhərlərinə, İran, Orta Asiya, Rusiya və Türkiyəyə mal aparıb-gətirirdilər.

XIX əsrin sonu XX əsrin əvvəllərində Şuşa sənaye şəhərinə çevrilməkdə idi. Belə ki, 1903-cü ilin statistik məlumatına görə Şuşa şəhərində 34 çörəkçi, 30 dava-dərman, 44 xırdavat, 22 qəssab, 4 şirniyyat, 71 dərzi, 50 çəkməçi, 45 papaqçı, 12 rəngsaz, 40 dülgər, 8 dülgər, 7 misgər, 40 taxtaçəkən, 7 misgər, 15 tənəkəçi, 3 şüşəkəsən, 8 faytondüzəldən, 24 araba (furqon) düzəldən, 20 qızıl və gümüş zərgarı, 7 saatsaz, 54 dəmirçi, 16 dəlləkxana, 2 mətbəə, 1 fotoqraf, 10 dəri aşılama, 3 əyirici və toxuma, 1 tornaçı, 8 sabunbişirmə, 10 qalayçı, 20 daşyonan, 10 baytarxana, 3 yəhər-yüyən düzəldən, 3 sobaçı, 2 qamçı və at bəzəyi düzəldən emalatxana və mağazalar olmuşdur. Burada 517 usta, 748 fəhlə, 339 şagird işləyirdi.

Azərbaycanlıların tarixi-etnik mədəniyyəti, maarif və qəhrəmanlıq ənənələrinə söykənən, mənbələrdə Qafqazın "Parisi" və konservatoriyası, Qarabağın mirvarisi sayılan Şuşa şəhərində görkəmli şəxsiyyətlər doğulmuş, gələcək nəsillərin maarif və mədəniyyətə sahib olmasında onların böyük xidmətləri olmuşdur. Bununla bərabər, Şuşa şəhəri və ətrafında sahibi və mənsubluğu bilinən tarixi coğrafi obyektlər və tikililər (kənd, qala, hamam, mülk, məscid, körpü, qəbiristanlıq, bağ, bulaq və s.) vardır. Babalarımızın tikib yaratdığı bu tarixi abidələrin çox böyük etnik-tarixi, siyasi və elmi əhəmiyyəti vardır. Çünki Şuşanın, eləcə də Qarabağın onomastik leksikası biz azərbaycanlıların etnik kodudur – tarixi yaddaşıdır. Bu onomastik vahidlər – **ktematonimlər** malın-mülkün, evin-eşiyin, məscid və karvansaranın kimə aid olduğunu daha dolğun və ətraflı əks etdirir. Firidun bəy Şuşalının "Şuşa" kitabında bu barədə daha çox məlumat əldə etmək olur. O, Şuşa şəhərinin 1750-1888-ci illərdəki vəziyyətini, tarixi-etnoqrafiyasını yazmışdır.

Şuşada mövcud olmuş onomastik vahidləri funksiyalarına görə müxtəlifdir. Onları növlərinə görə belə qruplaşdırmaq olar:

1) Antroponimlər – şəxs adları

Şuşa Şəhərində doğulub boya-başa çatmış, öz əməlləri ilə Azərbaycan maarif və mədəniyyətində ictimai-siyasi və hərbi tarixində dərin iz buraxmış mülki və dini titullu, eləcə də müxtəlif peşə və sənət sahibi olan şəxsiyyətlərin adlarını belə qruplaşdırmaq olar:

a) Ağa, bəy titullu tarixi şəxsiyyətlərin adları: Ağabəyim ağa, Gövhər ağa, Firidun bəy Köçərli, Rüstəm bəy Behbudov, Xosrov bəy Sultanov, Kərim bəy Mehmandarov, Bədəl bəy Bədəlbəyov, Haşımı bəy Vəzirov, Əbdüləli bəy Qalabəyov, Cavad bəy Adıgözəlov, Səlim bəy Adıgözəlov, Səlim bəy Rüstəmbəyov, Fərzəli bəy Vəzirov, Nəcəf bəy Vəzirov, Üzeyir bəy Hacıbəyov, Bədircahan bəyim, Əbdürrəhim bəy Haqverdiyev və s.

b) Xan, banu (xanım) titulları olan tarixi şəxsiyyətlərin adları: Fətəli xan Avşar, İbrahim Xəlil xan, Murtuzəli xan, Səfərqulu xan, Mir Mustafa xan, Məmməd xan, Məmməd Həsən xan, Mehdiqulu xan, Xurşud banu Natəvan, Pənah xan, Fatma xanım Kəminə, Əbülfət xan və s.

c) Kərbalayı, seyid, məşədi, hacı, axund və molla dini titulları olan tarixi şəxsiyyətlərin adları: Kəblə Məhəmməd, Məşədi Məmməd, Kəblə Mürsəl, Mirzə Camal, Molla Qulu, Seyid Şuşinski, Molla İbrahim, Hacı Hərisi (musiqiçi), Məşədi Dadaş, Məşədi Zeynal, Mir Möhsün

Nəvvab, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Seyid Həsən, Axund Molla Abbas Cavanşir, Zabul Qasım, Tarzən Qurban, Məşədi Cəmil Əhmədov.

ç) Peşə və sənətlə bağlı olan tarixi şəxsiyyətlərin adları: Aşıq Abbasqulu, Segah İslam, Aşıq Lələ, Qaçaq Səfər, Xarrat Qulu, Aşıq Valeh, Aşıq Qənbər, Aşıq Nəcəfqulu, Segah İslam, Zabul Qasım, Keçəçi Məhəmməd, Tarçı Sadıqcan, Tarçı Qurban, Tarzən Malıbəyli Həmid, Qarmonçu Kərbalayi Lətif, Qarmonçu Abutalıb, Pəsxan Cəlil və s.

d) Ad, titul və təxəllüs modelində olan şəxs adları: Fatma xanım Kəminə, Məşədi Əyyub Baqi, Əbülhəsən Şahid, Xan Qarabağı, Mirzə Mehdi Xəzani, Abdulla bəy Asi, Qasım bəy Zakir, Seyid Şuşalı, Xan Şuşalı, Musa Şuşalı, Mir Möhsüm Nəvvab, Molla Vəli Vidadi, Molla Pənah Vaqif və s. Göründüyü kimi, bu onomastik vahidlər ad+titul+təxəllüs, ad+təxəllüs və titul+şəxs+təxəllüs modellərindədir.

e) Tayfa, nəsil və digər etnik adlar: Şuşada yaşayan və Qarabağ elitasına mənsub olan əsl zadəgan ailələri olmuşdur. Bunlardan Vəlibəyovlar, Zöhrabbəyovlar, Vəzirovlar, Ağalarovlar, Mehmandarovlar, Uğurlubəyovlar, Misirxanovlar, Əlibəyovlar, Ağayevlər, Adıgözəlovlar, Sarıcallılar, Əmirovlar, Behbudovlar, Bədəlbəyliləri və s. göstərmək olar.

ə) Hərbi titul və ad modelində olan adlar: General Səməd bəy Mehmandarov, General Fərəc bəy Ağayev, General Kərim bəy Mehmandarov, General Yaqub Quluyev, General Xəlil Məmmədov, Polkovnik Aslan Vəzirov və s.

İrəlidə qeyd etdiyimiz şəxsiyyət və nəsillərdən gələn insanlar Azərbaycan musiqi və ƏDƏBİYYATını, maarif və mədəniyyətini bəzəyən kişilər olmuşlar. Bu gün də onların əsil-nəcabətləri yaşayır. Öz töhfələrini Azərbaycan mədəniyyətinə verməkdədirlər.

2. Oykonimlər – yaşayış məntəqəsi adları:

Şuşa yaxınlığında müxtəlif tayfa adlarından törənmiş etnooykonimlər də vardır: Sarıcalı, Köçərli, Seyidli, Kəbirli, Çanaxçı, Xəlifəli, Saatlı, Otuzikilər, Cavanşirlər, Qurdlar, Culfalar, Bayat, Quşçu, Kəngəli, İmirli, Poladlı, İlxıçılar, Baharlı, Qacar, Türkmən və s.

Göstərilən kənd adlarının kökündə dayanan tayfa adları – etnonimlər Azərbaycan türklərinin soykökündə iştirak etmiş və böyük ənənəsi olan tayfalardır.

Şuşa yaxınlığındakı toponimlərin sintaktik xüsusiyyətləri də müxtəlifdir. Oykonimlərin tərkibində işlənən bulaq, xana, daş, qaya, dərə, təpə coğrafi terminləri Azərbaycan toponimiyasında geniş yayılmış coğrafi terminlərdir.

a) I növ ismi birləşmə modelində olan oykonimlər: Ağbulaq, Topxana, Şahbulaq (qala), Dəlikdaş, Qızılqaya, Kürəkdərə, Qaratəpə, Qırxqız, Çanaxqala, Xanabad və s.

b) II növ ismi birləşmə modelində olan oykonimlər: Cıdır düzü, Daşaltı, Qaladərəsi və s.

3) Hidronimlər – su mənbəyi adları. Şuşa şəhəri həm də bulaq çeşmə və ovdanları ilə məşhur olmuşdur. Məsələn: Gövhər ağa bulağı, Mehralı bəyin bulağı, Meydan bulağı, İsa bulağı, Saxsı bulaq, Turşusu, Şor bulaq, Ovdan bulağı və s.

4) Fitonimlər – meyvə adları. Şuşa və ətrafında aşağıda qeyd olunan üzüm və tut sortları da yetişdirilmişdir. Məsələn: Qara şirə, Keçi məməsi, Sarı gilə, Şah tut, Xar tut və s.

5) Zoonimlər – heyvan adları. Qarabağda həm də atbəsləmə ənənəsi olmuşdur. Qarabağda İbrahim xanın vəXurşud banu Natəvanın at ilxısı, atyetişdirmə zavodu vardır. Bir çox bəylərin də atyetişdirmə zavodları olmuşdur. Qarabağ atlarından “Maymun”, “Əlyetməz”, “Ceyran”, “Dilboz”, “Zaman” adlı atları şöhrət qazanmışdır. Hər ildə iki dəfə, Cıdır düzündə at yarışları keçirilərdi.

Şuşa şəhəri karvansara, bağ, bazar, mülk, məhəllə, hamam, körpü, məscidləri ilə də məşhur olmuşdur. Bunlara ayrılıqda nəzər yetirək:

a) Karvansaralar: Qatırçı Murad, Mir Sahib oğlu, Şeytan bazarı, Xanlıq Mustafa, Şəmil bəy Məşədi Şükür və s.

b) Hamam, körpü və qapılar: Gəncə qapısı, İrəvan qapısı, Gövhər ağa hamamı, Şahlıq körpüsü, Molla Nəsrəddin körpüsü.

c) Məhəllə adları: Urudlar, Seyidli, Culfalı,Çuxur, Hamam qabağı, Təzə məhlə, Dörd çinar, Köçərli, Dördlər, Saatlı, Dəmirçilər, Xocamircanlı, Çölqala, Hacı Yusifli, Mardinli, Mamaylı və s.

ç) Mülk, qəsr, imarət, saray adları: Hacı Bəsirin mülkü, Əsəd bəyin mülkü, Bəhmən Mirzə Qacarın mülkü, Nəcəfqulu ağanın mülkü, Cabbar Qaryağdının mülkü, Mehmandarovların mülkü, Nəcəf bəy Vəzirovun mülkü, Yusif bəy Çəmənzəminlinin mülkü, Əbdürrəhim ağanın mülkü, Mirzə Hüseynin mülkü, Kəblə Şirinin mülkü, Kal Həsənin mülkü, Xayatlı Mehdinin evi, Fərzalı bəyin mülkü, Allahverənli Kəblə Şirinin mülkü, Məşədi Qəhrəmanın mülkü, Məşədi Temurun evi, Zöhrabbəyovların imarəti, İbrahim xanın mülkü, Sadıqcanın qəsri, Uluq bəyin mülkü, Bəhmən Mirzənin evi, Calal bəyin evi, Firidun bəy Köçərlinin evi, Süleyman Sani Axundovun mülkü, Qasım bəy Zakirin mülkü, Əbdürrəhim bəy Haqverdiyevin mülkü, Ağamirovların mülkü, Qaraşovların mülkü, Ağabəyim ağanın mülkü, Divanxana qəsri, Xurşud banu Natəvanın sarayı.

d) Məscid və qəbiristanlıq və məqbərə adları: Aşağı Gövhər Məscidi, Yuxarı Gövhər məscidi, Qeybalı məscidi, Malıbəyli məscidi, Mir Həsən qəbiristanlığı, Mir Fəseh qəbiristanlığı, Şırlan məscidi, Vaqifin məqbərəsi, Alban kilsəsi, Rus kilsəsi.

e) Bağ adları: Kəblə Şəhriyarın bağı, Şəmilin bağı, Hacıların Armud bağı, Mir Fəseh bağı və s.

Nəinki Şuşada, eləcə də ermənilər tərəfindən işğal olunan digər rayonlarda Azərbaycan tarixi üçün önəmli olan tikililər (qala, məscid, körpü, ovdan, qəsr, mülk, malikanə və s.) yerlə yeksan edilmiş yaşayış məntəqələri xarabazarlığa çevrilmişdir. Bununla belə, Azərbaycan dili üçün çox böyük əhəmiyyəti olan onomastik vahidlər də işlənmədiyi üçün dilimizin passiv fonduna keçmişdir. Ona görə də informatorlar vasitəsilə hələlik erməni işğalında qalan ərazilərimizin onomastik leksikasını toplayıb kitab halına gətirmək Azərbaycanşünaslıq üçün böyük əhəmiyyəti ola bilər. Bu işdə sözsüz ki, ziyalılarımızın fəallığı lazımdır. Firidun bəy Şuşalı dediyi kimi, heç vaxt bədbinliyə qapılmaq olmaz. Biz hökmən Qarabağı, onun zümrüd tacı, xalqımızın şərəf və ləyaqəti olan Şuşanı azad etməliyik.

Şuşa şəhərində Azərbaycan dilinin qayda-qanunları əsasında yaradılmış onomastik vahidlərin şagirdlərə öyrədilməsinin çox böyük elmi-praktik, etnik-siyasi əhəmiyyəti vardır. Passiv fonda keçən bu adlarımız Şuşa şəhərində Azərbaycan bayrağı sancılandan sonra, yəqin ki, aktiv işlənəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan SSR-in inzibati ərazi bölgüsü. Bakı, 1974
2. 1903-cü ilin hərbi-topoqrafik xəritəsi. Tiflis, 1903
3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: I cild, 2007
4. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. II cild, 2007
5. Şuşalı F. Şuşa kitabı. Bakı, 1968
6. Məmmədov B. Qarabağın baməzə adamları. Bakı, Yazıçı, 1992, 123 s.
7. Şuşinski Firidun. Şuşa, Bakı, 1968
8. Vəlili M. Azərbaycan coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat. Bakı: Azərnəşr, 1993, 208 s.

РЕЗЮМЕ
НАШ ЭТНИЧЕСКИЙ КОД - НАЗВАНИЯ, ПРЕДСТАВЛЯЮЩИЕ ГОРОД ШУША
Байрамов А.А., Бабаева А.А.

В данной статье представлены конкретные исторические факты из истории Карабаха и Шушы. Дана информация об истории Шушы, ее развитии как города, социально-политической ситуации, историко-этнической культуре, существующие единицы в Шуше сгруппированы по функциям. Анализируя ономастическую лексику Шушы, выясняется, что эти ономастические единицы стали этническим кодом азербайджанцев.
***Ключевые слова*:** Карабах, Шуша, история, этнический код, ономасти-ческая лексика

SUMMARY
OUR ETHNIC CODE - NAMES REPRESENTING THE CITY OF SHUSHA
Bayramov A.A., Babayeva A.N.

This article presents specific historical facts from the history of Karabach and Shusha. Information about the history of Shusha, its development as a city, socio-political situation, historical-ethnic culture is given, the existing onomastic units are grouped by function. Analyzing the onomastic vocabulary of Shusha, it turns out that these onomastic units have become the ethnic code of Azerbaijanis.
Keys words: Karabach, Shusha, history, ethnic code, onomastic vocabulary

RƏSUL RZA POEZİYASINDA İNSAN FƏLSƏFƏSİ

Cümənov D. A.
Sumqayıt Dövlət Universiteti
cumanov73@mail.ru

Xülasə: Rəsul Rza Azərbaycan poeziyasında milli sərbəst və modern şeirin yaradıcısıdır. Şairin yaradıcılığında insanın fəlsəfi dərkinə maraq 1950-ci illərin sonlarından bəri yeni istiqamət almışdır. Şairin bədii axtarışlarında insanın və onun taleyinin bədii-fəlsəfi ifadəsi konsepsiya şəklində meydana çıxmışdır.
Açar sözlər: Rəsul Rza, sərbəst şeir, insan fəlsəfəsi, "kiçik insan", adi insanın tərənnümü

Azərbaycan poeziyası üçün xarakterik olan ənənəvi mövzular – siyasi lirika, vətənpərvərlik lirikası, təbiət lirikası (təbiət, təbiət-insan, təbiət-cəmiyyət), sevgi lirikası 1960-cı illərdə R.Rza və S.Vurğun ədəbi məktəblərinin timsalında və bu poetik məktəblərə mənsub şairlərin yaradıcılığında müşahidə olunur. Xəlqilik prinsipinə, milli zəminə söykənməklə vətənin və təbiətin, insanın daxili dünyası, əxlaq və mənəviyyat fəlsəfəsinin tərənnümü bu ədəbi məktəblər üçün oxşar cizgilərdir. Bu ədəbi məktəblər, demək olar ki, mövzu mündəricəsi baxımdan yox, məzmun sərbəstliyi, sərbəst düşüncə və dünyagörüşü, ənənəvi mövzularda “insan-zaman-kainat” üçlüyünə münasibətdə və onu ifadə tərzində, qaldırılan problemlərə bədii yanaşmada, sənətkarlıq xüsusiyyətlərində, poetik forma, poetik üslub, ədəbi təmayül, yaradıcılıq manerası baxımından fərqlənmişlər. Hər iki ədəbi məktəb nümayəndələri Azərbaycan poeziyasının çoxəsrlik ənənəsini novatorcasına davam etdirmiş, yeni-

yeni poetik mətnlər yaratmışlar. Lakin bu bədii axtarışlar S.Vurğun və R.Rza ədəbi məktəblərinin özünəməxsusluğunu şərtləndirmişdir.

1950-ci illərin sonlarından R.Rza poeziyasının inkişaf istiqamətini stimullaşdıran əsas amil İnsan və onun fəlsəfi dərki olmuşdur. Şairin yeni insan konsepsiyasını aşağıdakı kimi ümumiləşdirmək olar:

1. XX əsrin əvvəllərində C.Məmmədquluzadənin böyük ədəbiyyata gətirdiyi "kiçik insan" 1950-ci illərin sonunda R.Rza poeziyasında yenidən "dirildi". Adi və sadə insan obrazı ön cərgəyə, yəni bədii mətnin mərkəzinə gətirildi. Şeirdən-şeirə insanın çoxçalarlı fəlsəfi dərki güclənir, "axtarış və kəşflər" poeziyasına, eyni zamanda poeziyanın novatorluq keyfiyyətinə çevrildi. "Mən torpağam", "İnsan şəkli", "Məndə ixtiyar olsa", "Dana və balaca qız", "Olum ya ölüm", "Ömür keçdi, gün keçdi", "Vaxt var ikən", "Yazıq dünya" şerləri, eləcə də "Rənglər" silsiləsi Azərbaycan poeziya coğrafiyasında yeni İNSAN konsepsiyasının başlıca kredosuna və müddəalarına çevrilmişdir. "İnsan şəkli" (1964) şeirində şairin dünya tablosuna çəkdiyi insan rəsmi adiliyin tərənnümüdür:

"Mənə bir sərgi salonu verin!
Orda bir insan şəkli asacağam -
adi bir insan.
...Bir insan şəkli asacağam;
qapalı dodaqlarında söz yanığı.
...Şəklin müəllifi - Zaman.
Adı - insanlığın ömür yolu" [1, s. 36-37].

Bir insan şəkli asacağam/bir yanında Nəsimi/ dabanından soyulandan sonra/Bir yanında məşəl təki yanmış Azəri qızı/tunc heykəli qoyulandan sonra/Bir yanda Cordano Brunonun külü/Bir yanında Məmmədhəsən kişi/ömrü, günü yollara tökülü/Yuxarıda kosmopolit göy/Aşağıda sərhədlə kilidlənmiş ölkələr/"Bir yanda Ofivensim -/minlərlə insan, beli bükülü./Bir yanda yolları insanla döşənmiş -/Köhnə Sibir,/Kalıma./Bir yanda Xirosima - ölü./Bir tərəfdə/Fərhad, Şirin,/Kərəm, Əsli,/Bir tərəfdə/İsrafil, Qafur/Qastello, Lorka -/prometeylər nəsli", –deyən şairin "asdığı", "çəkdiyi" şəkillər ilk baxışdan başqa-başqa təfərrüatlar yaratsa da, lakin oxucu bu əşya və hadisələrin arsında bir körpü qura bilir və bununla, hissələr, yəni ayrı-ayrı rəsmlər tamlaşır, müxtəlif dinlərin, irqlərin, xalqların nümayəndələri, məkanlar birləşir, R.Rzanın çəkdiyi bütöv poetik tablo (təlqin etmək istədiyi poetik fikir) canlanır: bütün zamanlardan keçən planetar səciyyəli insan və onun ömür yolu. Əslində bu, şairin öz zamanından bütün zamanlara və insanlara, insanlığın tarixinə poetik-fəlsəfi baxışı idi, insanlıq konsepsiyası idi.

2. R.Rza poeziyasında İnsan özünü dünyanın, kainatın və təbiətin bir parçası kimi hiss edir, həm də düşünür. Bu məqamda Orta əsrlər Azərbaycan-türk ədəbiyyatının əsas ədəbi cərəyanı olan sufizm, hürufizm fəlsəfəsinə, Nəimi-Nəsimi şeirinə yaxınlaşır. "Mən torpağam" (1963) şeirində "insan-təbiət" konsepsiyası "Mən torpağam", "Mən baharam", "Mən küləyəm", Mən buludam", "Mən işığam", "Mən qranitəm", "Qarlı dağdan süzülən çayam mən", "Mən bulağam", "Mən həyatam" kimi ifadələrlə açılır. Bu ədəbi mətn "Nəsiminin "Mənəm, mən" şeirinin poetik xələfi kimi çıxış edir:

"Mən torpağam, məni at\ş yandırmaz;
Tərkibimdə kömürüm var, gülüm var.
Mən baharam çəmən-çəmən
Çiçəyim var, gülüm var.
Mən küləyəm, əsməsəm,

Kim bilər ki, mən varam.
Mən buludan, səhraları susuz görüb, ağlaram" [2, s. 151].

3. R.Rza yaradıcılığında arzu-istək, dua-alqış tipli ədəbi mətnlər şairin insan fəlsəfəsinin, bütövlükdə humanizm konsepsiyasının poetik bir elementi kimi çıxış edir. "Məndə ixtiyar olsa" (1964) şeirində "Meyvələr dəysin yüz fəslində. / Ürəklərə söz dəyməsin./ Bəşərdəm budaqlar əyilsin./ İnsan başını əyməsin, xəsalətdən, ya gücsüzlükdən. / Axsın bulaqlar gözyaşı kimi. / Torpağın üzərində. / Göz yaşı bulaq kimi axmasın / dünyanın heç bir yerində./ Hər şey insana baxsın./ İnsan ələ baxmasın." - deyən şair ədəbi mətni "mən istəyirəm" modelində belə açılır:

"Mən istəyirəm:
Buludlar ağlasın
Uşaqlar ağlamasın;
Analı ya anasız.
Mən istəyirəm:
Güllər açılsın,
Güll\r açılmasın,
Amanlı ya amansız..." [2, s. 164].

4. R.Rza poeziyasının əsas leytmotivi, əsas obyekti insandır. Şair bütün bəşəriyyətin diqqətini insana və insanlığa, onun dərd-kədərinə yönəldilir, insanların problemini planetarlaşdırır. İnsan taleyindən nigaranlıq, narahatlıq, şairin fikir bu poeziyanın, humanizm konsepsiyasının bir istiqamətini təşkil edir:

"İnsanlara bir doyumluq çörək,
Bit içimlik su çatacaqmı?
Yer üzünün yığın-yığın insanı
Köhnəliyin, mənəmliyin,
Fənalığın, qəzəbin, kinin
Daşını atacaqmı?" [2, s. 172].

Lirik-fəlsəfi yönümün üstünlük təşkil etdiyi R.Rza yaradıcılığında 1950-ci illərdə II Dünya müharibənin insanlığa gətirdiyi faciələrin fonunda şairin ədəbi axtarışları İnsan və onun taleyinin bədii-fəlsəfi təqdiminə yönəlmişdi. 1960-62-ci illərdə yazılmış, rəng çalarlarının yaratdığı assosiasiyada insanın yenidən "doğulduğunu" göstərən "Rənglər" silsiləsinin poetik mətnləri, fəlsəfi lirika nümunələri - "Vaxt var ikən" (1961), "Ömür keçdi, gün keçdi" (1962), "Mən torpağam" (1963), "İnsan şəkli" (1964), "Məndə ixtiyar olsa" (1964), "Olum, ya ölüm" (1966), "Sarı dana və balaca qız" (1959), "Dindirin məni" (1969) on illik boyunca, yəni 1960-70 mərhələsində Azərbaycan milli poetik fikrində yeni insan obrazı və yeni insan konsepsiyasının formalaşmasına təkan vermişdi. Bu mənada "Rənglər" başda olmaqla poeziya nümunələri insana baxış bucağını dəyişdi, insan başqa çalarları ilə də görünə bildi, insan sosial məzmundan fərdi-intim dünyaya, eləcə də qloballaşmaya keçid almışdı.

ƏDƏBİYYAT

1. Rza R. Seçilmiş əsərləri. 5 cilddə, I cild. Bakı: Öndər nəşriyyat, 2005, 304 s.
2. Rza R. Seçilmiş əsərləri. I cild. Bakı: Litterpress, 2010, 416 s.

РЕЗЮМЕ
ФИЛОСОФИЯ ЧЕЛОВЕКА В ПОЭЗИИ РАСУЛА РЗА
Джуманов Д.А.

Расул Рза был создателем национальной вольной поэзии в азербайджанской поэзии. В его работах интерес к философскому пониманию человека вырос с конца 1950-х годов. Литературные изыскания поэта были направлены на художественно-философское осмысление и представление человека и его судьбы и приняли форму концепта.

Ключевые слова: Расул Реза, вольная поэзия, человеческая философия, «маленький человек», гимн простого человек

SUMMARY
HUMAN PHILOSOPHY IN THE POETRY OF RASUL RZA
Jumanov D.A.

Rasul Rza was the creator of the national free poetry in Azerbaijani poetry. In his work, interest in the philosophical understanding of man has grown since the late 1950s. The poet's literary research was aimed at the artistic and philosophical understanding and presentation of man and his destiny, and took the form of a concept.

Key words: Rasul Rza, free poetry, human philosophy, "little man", the hymn of the common man

SEYİD ƏZİM ŞİRVANİNİN "RƏBİÜL-ƏTFAL" DƏRSLİYİNDƏ ÖYÜD VƏ NƏSİHƏTLƏR

Hüseynova G. T.
Sumqayıt Dövlət Universiteti
gulnarelcan9195@icloud.com

Xülasə: Seyid Əzim Şirvani Azərbaycan ƏDƏBİYYATı tarixində həm də görkəmli şair-pedaqoq kimi tanınmışdır. Məqalədə Seyid Əzimin əxlaqi-didaktik əsərlərindən söhbət açılır, "Rəbiül-ətfal" dərsliyində toplanmış öyüd və nəsihətləri təhlil edilir. Müəllif şairin daha səciyyəvi əsərlərini nəzərdən keçirmiş, onların aktuallığını və əhəmiyyətini qeyd etmişdir.

Açar sözlər: poeziya, S.Ə.Şirvani, öyüd, mənzum hekayə, təmsil, əxlaqi-didaktik ruh

XIX əsrdə yaşayıb-yaratmış görkəmli Azərbaycan şairi Seyid Əzim Şirvaninin (1835-1888) poeziyası həm formaca, həm məzmunca çox şaxəli və çox cəhətlidir. Onun şeirlərinin ana xətlərini müəyyənləşdirən dərin lirizm, kəskin satirik ruh, mənəvi gözəlliklərin tərənnümü, əxlaqi yaramazlıqların tənqidi və sair ideyalar. Bütün dövrlərdə aktual və əhəmiyyətli səciyyəsi ilə diqqəti cəlb edir. Şair bütün həyatı boyu elm və maarifi təbliğ etmiş, cəhalətə, nadanlıqa qarşı barışmaz mövqede dayanmışdır.

Məlum oldugu kimi, çar Rusiyasının işğalından sonra Azərbaycanın bir sıra böyük şəhərlərində və mədəniyyət mərkəzlərində, o cümlədən Şamaxı şəhərində də yeni üsullu məktəblər açılmışdı. 1869-cu ildə yeni və demokratik prinsiplər əsasında fəaliyyətə başlayan Şamaxı məhəllə məktəbində müəllim işləyən Ş.Ə.Şirvaninin qarşılaşdığı əsan cətinliklərdən biri də müvafiq dərs

vəsaitlərinin yoxluğu idi. Görkəmli maarifçi şair bu çatışmazlıqları aradan qaldmaq üçün humanizmi, elmi bilikləri, dünyavi məlumatları əks etdirən şeirlər yazır, Nizami Gəncəvidən, Sadi Şirazidən təbdil və tərcümə etdiyi əsərlərdən bəhrələnərək tədris prosesində yeniliyi təbliğ edirdi. Yüksək humanizmi, açıq dünyagörüşü, qabaqcıl təhsili əks etdirən bu cür əsərlər şairin "Rəbiül-ətfal" dərsliyində toplmaşmışdır. Dərsliyə daxil edilmiş, əsərlər içərisində şairin öyüd və nəsihətləri, mənzum hekayə və təmsilləri yalnız əxlaqi-didaktik məzmunu ilə deyil, həm də bədii sənətkarlıq xüsusiyyətləri ilə dövrün qabaqcıl ziyalılarının rəğbətini qazanmış, uzun müddət məktublarda bu əsrin tədris edilmiş və indi də tədris edilməkdədir. Klassik şərq poeziyasına məxsus ənənələrlə ("Dibaçə" , "Peyğəmbərin tərifi", "Kitabın yazılma səbəbi" və s.) başlanan dərslikdə müəllif özünün mütərəqqi ideyalarını oğlu Mir Cəfərə müraciətlə əks etdirir. "Ey oğul, ey həmidəsiyər", "Cəfər ey..." və sair kimi xitablarla başlayan öyüd və təmsillər nəcib ürəkli bir atanın yüksək ideallarını, arzu və istəklərini,milli və bəşəri duyğularını təcəssüm etdirir. "Prototipi Seyid Əzimin özü olan" bu əsərləri səciyyələndirərkən prof. Zaman Əsgərli yazır: "...Şairin xitab etdiyi Mir Cəfər bir nəfər şəxs deyil. O, hələ dünyanın bərkinə-boşuna düşməmiş, həyatın eniş-yoxuşlarından keçməmiş, təcrübəsiz gənclərin ümumiləşdirilmiş surətidir ki, sənətkar onun timsalında əsasən, gənc nəslə, ümumiyyətlə isə bütün insanlara müraciət edir" [1, s557].

Seyid Əzim insanın mənəvi zənginliyini elm və təhsildə görür, gəncləri bəşəri mədəniyyətə yiyələnməyə, multikultural ənənələrdən bəhrələnməyə səsləyirdi:

Cəhd qıl nemət-təmamə yetiş,
Elm təhsil qıl, məqamə yetiş.
Ey oğul, hər lisanə ol rağib,
Xassə ol rus elminə talib. [S.Ə. s.377]

Yazılmasından yüz əlli ilə yaxın bir müddət keçməsinə baxmayaraq, bu sətirlər şairin nə qədər uzaqgörən və mütərəqqi düşüncəli bir ziyalı olduğunu sübut edir. "Aslan və iki öküz", "Qaz və durna", "Şiçan və pişik", "Abid və quru kəllə", və sair təmsillərdə şair gənc nəsli cəhalət və nadanlığın əsarətindən xilas olmağa çağırır, birliyi, kamilliyi, ənənəvi zənginliyi təbliğ edir. "Abid və quru kəllə" mənzum hekayəsində şair göstərir ki, əsl insanlıq bərabərlikdədir. Heç kəs var-dövlətə, cəmiyyətdə tutduğu yüksək vəzifəyə arxalanmamalı, bu dünyada faydalı bir işlə məşğul olmalı, bədxah əməllərdən çəkinməlidir. Bu cür humanist ideyalarla çıxış edən S.Ə.Şirvani səhvləri Yusif Xas Hacib, Nizami, Xəqani, Füzuli kimi sənətkarların mütərəqqi ənənələrini davam etdirir, onlarla eyni nöqtədə birləşir.

"Öyüd" başlıqları altında qələmə aldığı mənzum parçalarda müəllif gəncləri xeyirxahlığa və doğru yola dəvət edir, maraqlıdır ki, şair gənc nəslə və peyğəmbərləri nümunə göstərərək fikir və ideyalarını Nuh, İdris, Davud, Zəkəriyyə, Yunis kimi peyğəmbərlərin simasında bədii detallarla ümumiləşdirir: Bu ümumiləşdirmələrdə xeyirxah əməllərlə çağırış, xeyirli bir peşənin və sənətin arxasınca getmək başlıca yer tutur:

Oldu xəyyat Həzrəti-İdris,
Xəlqə ol elmi eylədi tədris.
Həzrəti-Nuhdur, oğul, nəccar,
Kəşti elmin o eylədi izhar. [s.517]

Seyid Əzim gənclərin mənəvi tərbiyəsində əngəlləri dəf etməyə çalışır, nadanlığa və cəhalətə qarşı barışmaz mövqedə dayanırdı. "Şair çalışır ki, xalqımızın gələcəyi olan uşaqlar həyata açıq gözlə baxıb öz ağılları, kamalları, qabiliyyətləri ilə sabaha müdrik, işgüzar insanlar kimi yetişsinlər. Bu baxımdan onun öyüd və nəsihətləri çox əhəmiyyətlidir". [s.59]

Ümumiyyətlə, S.Ə.Şirvaninin "Rəbiül-ətfal" dərsliyi ideya-məzmun mündəricəsi ilə yüksək əxlaqi-didaktik səciyyə daşıyır, humanizmi, mənəvi gözəllikləri, həqiqəti və kamilliyi təcəssüm etdirir.

ƏDƏBİYYAT

1. Azərbaycan ƏDƏBİYYATı tarixi. 6 cilddə, IX cild, Bakı: Elm, 2011, 860 s.
2. Əzim S.Ə. Əsərləri. 3 cilddə, 11 cild, Bakı: Azərbaycan SSK Elmlər Akademiyası nəşriyyatı, 1969, 650 s.
3. Hacıyev A. Azərbaycan uşaq ədəbiyyatı tarixi. Bakı: Təhsil, 2004, 248 s.

РЕЗЮМЕ
СОВЕТЫ И НАСТАВЛЕНИЯ В УЧЕБНИКЕ СЕИД АЗИМ ШИРВАНИ «РАБИУЛЬ-АТФАЛ»

Гусейнова Г. Т.

Сеид Азим Ширвани известен в истории азербайджанской литературы как выдающийся поэт и педагог. В статье рассматриваются нравственно-дидактические труды Сеид Азима, анализируются напоминания и советы, собранные в учебнике «РАБИУЛЬ-АТФАЛ». С этой целью автор рассмотрел избранные произведения поэта, отметив их актуальность и важность.

Ключевые слова: поэзия, С.А.Ширвани, советы, стихотворные рассказы, представление, нравственно-дидактический дух

SUMMARY
ADMONISHMENT AND ADVICE IN SEYID AZIM SHIRVANI'S TEXTBOOK "RABIUL-ETFAL"

Huseynova G. T.

Seyid Azim Shirvani is known as a prominent poet and pedagogue in the history of Azerbaijani literature. The article discusses the moral and didactic works of Seyid Azim, analyzes the admonishments and advice collected in the textbook “Rabiul-etfal”. For this purpose, the author reviewed the more specific works of the poet, noting their relevance and importance.

Key words: poetry, S.A Shirvani, admonishments, verse story, fable, moral-didactic spirit

MƏMMƏD ASLANIN UŞAQ ŞEİRLƏRİNDƏ MƏNƏVİ- ƏXLAQİ DƏYƏRLƏRİN İNİKASI

İskəndərov B. A.
Sumqayıt Dövlət Universiteti
babaxanli64@mail.ru

Xülasə :Məqalədə Məmməd Aslanın uşaq şeirlərində əxlaqi dəyərlərin tərbiyəsi problemi öz əksini tapmışdır. Şairin uşaq ƏDƏBİYYATının inkişafındakı uğurları verdiyimiz poetik nümunələr əsasında elmi və nəzəri təhlil zamanı öz əksini tapmışdır.

Açar sözlər: Məmməd Aslan, uşaq ƏDƏBİYYATı, poeziya, ənənəvi poeziya, əxlaqi dəyərlər

Bizim əsas vəzifəmiz gələcəyimiz olan kiçik və azyaşlı uşaqlarımızı soykökümüzə söykənən milli adət- ənənələrimiz ruhunda tərbiyə etməkdən ibarətdir. Unutmaq olmaz ki, hər bir ailədə tərbiyənin təşkilinin məsuliyyəti valideyn üzərinə düşür Odur ki, böyüməkdə olan nəslin tərbiyəli və əxlaqlı yetişməsi üçün tərbiyə işinin nə qədər vacib və ciddi olduğunu unutmamalıyıq. Deməli, milli zəmin üzərində qurulan tərbiyədə ailə ilə yanaşı, məktəbin də rolu danılmazdır. "Müasir dövrdə gənc nəslin təlim tərbiyə işində orta ümumtəhsil məktəbləri mühüm rol oynayır, onların tərbiyə vəzifələri xeyli genişlənir. Məktəblər tədris müəssisələri olmaq etibarı ilə tərbiyə müəssisələri kimi də böyük nüfuz qazanır. [1, s. 38]

Azyaşlı və yeniyetmə uşaqlar arasında mənəvi- əxlaqi dəyərlərin təbliğ olunması işində uşaqlar üçün yaradılmış mənəvi sərvətlərdən- bədii əsərlərdən də mühüm bir vasitə kimi istifadə edilir. Qeyd edək ki, bu əsərlər həm də onların mənəvi- estetik zövqünün formalaşmasına köməklik göstərir. Uşaq poeziyasının mövzu istiqamətini müəyyənləşdirərkən, şairlərimiz ilk növbədə uşaqların elmə və təhsilə cəlb edilməsi ilə yanaşı, onların həm də yüksək vətəndaşlıq duyğuları ilə tərbiyə olunmasına səy göstərirlər. Qeyd edək ki, digər şairlərimiz kimi, Məmməd Aslan da uşaqlar üçün yazmış olduğu şeir və poemalarında bu mühüm amilləri nəzərə almışdır. Odur ki, şairin uşaq şeirlərini mövzularına görə aşağıdakı şəkildə qruplaşdırmaq olar;

1.Kiçik yaşlı uşaqların təhsilə (elmə) və əməyə çağırışı.

2.Kiçik yaşlı uşaqlar arasında mənəvi- əxlaqi keyfiyyətlərin təbliği.

3.Kiçik yaşlı uşaqlarda təbiətə qarşı sevgi və qayğı hisslərinin təbliği.

Uşaq dünyaya gəldiyi gündən valideyn qayğısı ilə əhatə olunur. Müəyyən yaş həddinə çatdıqda isə ona ailə daxilində vacib olan vərdişlər öyrədilir. Uşağa verilən tərbiyənin bünövrəsi millilik üzərində qurulmalıdır ki, o gələcəkdə vətəni üçün layiqli bir övlad kimi bö böyüyə bilsin. Kiçik yaşlı uşaqları milli ənənələr və adətlər ruhunda tərbiyə etməklə, biz həm də onlara vətən sevgisini aşılayırıq.

Kiçik yaşlı uşaqların formalaşmasında ailə ilə yanaşı, ümumtəhsil məktəblərinin də rolu danılmazdır. Təhsil aldıqları müddətdə onlar sanki dünyaya müəllimlərinin gözü ilə baxır, onu təqlid edirlər. Bir sözlə kiçik yaşlı məktəblilərin mənəvi keyfiyyətləri müəllim şəxsiyyətinin, müəllim sözünün təsiri altında formalaşır. Həmçinin müəllimin dərs materiallarını necə şərh etməsinə, qarşılaşdığı insanlarla necə münasibət qurmasına, özünün və yoldaşlarının cavablarını necə qiymətləndirməsinə xüsusi diqqət yetirirlər. Müəllimin yorulmaz fəaliyyəti birinci növbədə azyaşlı şagirdlərin biliklərinin dərinliyinə və möhkəmliyinə xidmət göstərməlidir. Kiçik yaşlı məktəblilər yaşa dolduqca məhz tərbiyə işində müəllim şəxsiyyətinin ləyaqəti və mənəviyatının mühüm rol oynadığını dərk edirlər.

Bildiyimiz kimi, uşaq poeziyasında ana- övlad, nənə- nəvə münasibətlərini özündə əks etdirən çoxlu sayda şeirlər mövcuddur. Bu baxımdan, şairin kiçik yaşlı uşaqlar üçün yazmış olduğu şeirləri maraq doğurur. Bu qəbildən şairin "Nənənin dərman balası" şeiri maraq doğurur

Nənə bir az kefsizlədi,
Soyuq dəyib, yoxsa nədi?!
Həkim bilsə, gələcəkdi,
Axı həkim nə gərəkdi:
Ağrıyırsa başı əgər
Mən əl qoysam-
Ağrı kəsər.
Haçan məni gördü nənəm,
Unudar hər dərdi nənəm.

Qayğısına qalasıyam,
Onun dərman balasıyam [2, s. 92]

Uşaq əsərlərinin tərbiyəvi mahiyyətini gözəl anlayan Məmməd Aslan kiçik yaşlı oxucuları üçün yazmış olduğu şeir və poemaları onların əqli, əxlaqi, əmək və estetik tərbiyəsinin formalaşmasında əhəmiyyətli rol oynayır.

ƏDƏBİYYAT

1. Talıbov Y., Sadıqov F., Quliyev S. Gənclərin mənəvi tərbiyə problemləri. Bakı, Ünsiyyət, 1998,153 s.
2. Aslan M. Səhəri kim açır. Şeirlər və poemalar. Bakı, Gənclik, 1975, 142 s.

РЕЗЮМЕ
ДУХОВНЫЕ И НРАВСТВЕННЫЕ ЦЕННОСТИ МАМЕДА АСЛАНА В ДЕТСКИХ СТИХАХ

Искендеров Б. А.

В статье отражена проблема воспитания нравственных ценностей в детских стихотворениях Мамеда Аслана. Вклад поэта в развитие детской литературы нашел научно-теоретический анализ на основе поэтических примеров из его произведений.

Ключевые слова: Мамед Аслан, детская литература, поэзия, традиционная поэзия, нравственные ценности

SUMMARY
REFLECTİON OF SPIRITUAL AND MORAL VALUES IN CHILDREN'S POEMS OF MAMMAD ASLAN'S

Iskandarov B. A.

The article reflects the issue of inculcation of moral values in Mammad Aslan's children's poems. The poet's contribution to the development of children's literature has found a scientific analysis on the basis of poetic examples from his work.

Key words: Mammad Aslan, children's literature, poetry, traditional poetry, moral values

MİRZƏ ƏLƏSGƏR NÖVRƏSİN "PƏNDİ-ƏTFAL" ƏSƏRİNİN DİDAKTİK VƏ MƏNƏVİ-ƏXLAQİ ASPEKTLƏRİ

İsmayılova Ə. Ş.
AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun
efsane.ismayilzade@inbox.ru

***Xülasə*:** Qarabağın görkəmli şairlərindən olan Mirzə Ələsgər Növrəs eyni zamanda XIX əsrin maarifçi-pedaqoqlarından biri kimi fəaliyyət göstərmişdir. Dərsliklərə ehtiyac olduğu dönəmdə dərs vəsaiti tərtib etmək kimi müqəddəs missiyanı üzərinə götürən şairin "Pəndi-ətfal" məsnəvi toplusundan məktəblərdə uzun müddət istifadə olunmuşdur.

Növrəsin pedaqoji görüşlərindən bəhs edən məsnəvilər təbii və emosinal çalarlarına, mental dəyərlərin təbliğinə görə hələ şairin öz sağlığında böyük rezonans doğurmuş, uzun müddət pedaqoji

fəaliyyətlə məşğul olmuş ziyalı və şagirdlərin əzbərinə çevrilmişdir. Bu məsnəvilər bu gün də aktual səciyyə daşıyaraq, öz müasirliyini saxlamaqdadır.

Açar sözlər: Mirzə Ələsgər Növrəs, XIX əsr, "Pəndi-ətfal", məsnəvi.

XIX əsr Qarabağ ədəbi mühitinin görkəmli şairlərindən olan Mirzə Ələsgər Növrəs eyni zamanda maarifçi-pedaqoq kimi fəaliyyət göstərmişdir. Dərsliklərə ehtiyac olduğu dönəmdə dərs vəsaiti tərtib etmək kimi müqəddəs missiyanı üzərinə götürən şairin "Pəndi-ətfal" məsnəvi toplusundan uzun müddət məktəblərdə əyani vəsait kimi istifadə olunmuşdur. Didaktik məzmunlu toplu hələ 1900-cü ildə, Növrəsin sağlığında nəşr edilmişdir. Dərsliyin yazılmasını şairdən görkəmli maarifçi Soltan Məcid Qənizadə xahiş etmişdir. Şair bu barədə əsərin əvvəlində qeyd etmişdir:

Tapmısan nəzmü -nəsrdə şöhrət,
Heyfsən, tazə halə qıl rəğbət.
Eylə təhrir pəndi-ətfali,
Xeyrdən məktəb olmasın xali. [2, s.49]

Qeyd etmək lazımdır ki, "Pəndi-ətfal" öyüd, nəsihət və "Məsəl" başlıqlı təmsilləri ehtiva etdiyi üçün vahid süjet xətti yoxdur. Bunların hər biri kiçik yaşlı uşaqların təlim-tərbiyə və təhsilində xüsusi rola malik olub, insanda mənəvi-əxlaqi keyfiyyətlər aşılayır.

Növrəsin "Tərlan və qarğa" (təmsillərin adı şərtidir – Ə.İ.) təmsilində qarğanın tərlanın sədaqətli vəziri şahinə həsəd aparması göstərilir. O, vəziri şahın gözündən salmağa çalışır və ona çoxlu ov-leş əti vəd edib buna nail olur. Qarğa ilə tərlan ovda olarkən tora düşürlər. Ovçu tərlanı şaha peşkəş aparır, qarğa isə birtəhər xilas olur. Şah tərlandan tora düşməsinin səbəbini soruşur. Tərlan isə vaxtilə şah olmasından, şahinə etdiyi ədalətsizlikdən bəhs edir, dövrünün hakimləri və ətrafındakı acgöz xislətli, işbilməz məmurlara sanki sosial mesaj verir:

Ləşkəri-cah izzətim var idi,
Bu cahan içrə şövkətim var idi.
Nazlı tərlan mənim vəzirim idi,
Baniyi-fəhmi-binəzirimidi.
Elədimçün vəzir qovğanı,
Gətirib başıma bu qovğanı. [2, s.59]

Təmsildə qarğa paxılllıq, həsəd və lovğalığı simvolizə etsə də, Növrəsin ideyası bilavasitə tərlanla bağlıdır. Belə ki, tərlan şaha yalan vədlərə inandığı üçün peşman olduğunu deyir, onu haqq-ədalətə çağırır, yalnız tədbirli və ağıllı insanların əhatəsində olmasını məsləhət bilir.

Növrəs A.Krılovdan iqtibas etdiyi təmsillərə milli kolorit qataraq öz fərdi düşüncələri əsasında orijinal sənət nümunələri yaratmışdır. Onun "Qaraquş və köstəbək" təmsili də ictimai məzmunu ilə seçilir. Şair dünyadakı müharibələrə, lüzumsuz olaylara zəmin yaradan şahları tənqid edir və haşiyə çıxaraq toplumun cəhalətinə iradını bilirir, inkişaf və rifahın yalnız elmi yolla mümkünlüyünü ifadə edir, xalqınıbu yolla tərəqqiyə səsləyir:

Bizə tənə eylər özgə millətlər,
Bəs degilmi dəxi bu töhmətlər.
Bəs degilmi bu qətlü qarətlər,
Nə tüfəngü tapançavü xəncər. [2, s.70]

Növrəs təmsil janrına dönəmin şərtlərinə uyğun olaraq ictimai-siyasi cəhətdən kəsərli, etik-estetik baxımdan tərbiyəedici forma kimi yanaşır. O, bu prinsipə riayət edərək problematikanı Krılovda olduğu kimi saxlayır, "Cırcırama və qarışqa"da zəhməti, əməyi təbliğ edir, "Qaraquş və Köstəbək", "Qazlar", "Qoca şir" təmsillərində məddahlığa qarşı çıxır, gənclərə zəhmətlə yaşamağı

tövsiyə edir. Şairin təmsilləri hər dövr üçün aktual olub pedaqoji və əxlaqi-mənəvi keyfiyyətlər ehtiva edir.

Tifl üçün tərbiyət münasibdir,
Nə münasib, bəlkə vacibdir [2, s.69]

-deyən şair pedaqoqlara müraciət edərək hər bir gəncin şəxsiyyət kimi formalaşmasında onların məsuliyyətini xatırladır. O, hesab edir ki, şəxsiyyət yetişdirmək üçün onun "bünövrəsi" fundamentallığı ilə seçilməlidir. Bünövrə isə ilk növbədə tərbiyədən başlayır. Bununla yanaşı, tərbiyədə elmin rolunu da xüsusi vurğulayır:

Elmsiz qalma, eylə əndişə,
Olusan axiri susuz meşə. [2, s.70]

Şair şeirlərində humanist ideyanı əsas götürərək aforizmlərlə gənc nəsli əxlaq kodeksini hərtərəfli idrak etməyə səsləyir. Onun təmsillərində qəliz tərkiblərə az yer verilmişdir. Olduqca aydın, sadə dillə yazılan bu şeirlər dövrün poeziyasının dil-üslub xüsusiyyətlərini öyrənmək baxımından da böyük əhəmiyyət kəsb edir.

Elm və təhsilin təbliği Növrəsin ibrətamiz məzmunlu məsnəvilərinin əsas ideyasıdır. Şair oğlunun simasında gəncləri etik dəyərlərə hörmət edən ziyalı kimi görmək istəyir. Onun fikrincə, yalnız elm öyrənməklə tamahkarlıq, oğurluq, təkəbbürlülük kimi mənfi cəhətlər insan xislətindən uzaqlaşdırıla bilər. Təmsillərində olduğu kimi nəsihət və öyüdlərində də Növrəs yüksək rütbəli məmurlarda tez-tez üzləşdiyi mənfi cəhətlərə - zülmkarlıq, ikiüzlülük, böhtançılıq kimi xüsusiyyətlərə toxunur, gəncləri zülmdən uzaq olmağa səsləyir:

Ey oğul, zülmə eyləmə adət,
Sənə yüz versə,qüvvəti qüdrət.
Olsa gər səndə qüvvəti-bazu,
Qurdtək bir fəqiri sanma quzu. [2, s.67]

Növrəsin öyüdləri mütərəqqi ideyalarla zəngin olub, məzmunca rəngarəngdir. O, övladına xitab etsə də, əslində gəncləri yersiz mübahisədən, qumar və meyxanədən, pis vərdişlərdən çəkindirmək istəyir:

Meyə meyl etmə, ey gözüm saqi,
Ləzzəti eyş çün deyil baqi.
Xeyr gəlməz qumardan əsla,
Nücəbani edər həqiqi – gəda. [2, s.60]

Şairin mənzum hekayələri orijinal təsir bağışlasa da, ideya etibarilə nəsihət aşılayır və elm öyrənməyin məziyyətlərindən bəhs edir. "Şah və ovçu" hekayəsində balıqçının təsadüfən eşitdiyi bir məlumat onu şahın qəzəbindən qoruyaraq, ölümdən xilas edir. Növrəs burada elmin faydasından söz açaraq yalnız intellekt hesabına "bir gədanın sultanı mat qoymasının" mümkünlüyünü ifadə edir. O, ənənəvi olaraq məsnəvilərində elm anlayışından didaktik-pedaqoji vasitə kimi istifadə edir. Onun fikrincə, yüksək intellekt sahibi eyni zamanda izzət və dövlət sahibidir:

Alimi hər görən hörmət qıl,
Həqqi var çünki səndə, xidmət qıl. [2, s.61]
Mərifətdən, oğul, zərər yetməz,
Kim deyir, elmdən səmər yetməz? [2, s.65]

Bütün nəsihətlərin sonunda şair kiçikləri elmi mühitə hörmət etməyə çağırır, onları bu sahənin insanları ilə dost olmağa sövq edir:

Eylə daim xas ilən söhbət,
Etmə hərgiz əvam ilən ülfət...[2, s.60]

Növrəsin məsnəvilərində diqqəti cəlb edən cəhətlərdən biri də onun oğluna olan müraciətidir. “Gözüm nuru”, “cani-mən”, “cani-pədər”, “ey gözüm”, “nuri-didəm” deyə xitab edən şair sözün həqiqi mənasında qayğıkeş və fədakar atadır. Maraqlıdır ki, bu qayğıkeşlik fərdi səciyyə daşımır. Mənəvi-əxlaqi mahiyyət kəsb edən nəsihətlərdə o, ölkədə hökm sürən cəhalət və geriliyin pəncəsindən xilas olmasına çağırış vardır.

XIX əsrin siyasi şəraiti Növrəsin ictimai məzmunlu şeirlərində az və ya çox dərəcədə işıqlandırılmış, əyalət və şəhərlərdə mövcud çar mütləqiyyəti, habelə yüksək rütbəli rüşvətxor rus məmurlarının ölkəni özbaşınalıqla və zülmlə idarə edib yerli insanları - müsəlmanlari incitməsi onun yaradıcılığından parlaq xətt kimi keçmişdir. Şair “Dövr haqqında” və “Mabədi” şeirlərində xalqının acınacaqlı vəziyyətinə acıyaraq deyir:

Müsəlmanə qətli-müsəlman halal,
Olubdur, edib bir-birin payimal. [2, s.117]

Belə məsnəvilərdə müəllif xalqa xitab edərək əslində acgöz və rüşvətxor dövlət məmurlarını adil olmağa, böhtan, mərdiməzarlıqdan uzaq olmağa çağırır. Müsəlmanların nadanlığı, hüquqsuz və mütiliyi bəzən şairi daha kəskin çıxış etməyə vadar edir:

Hökümət yerində mən olsam əgər,
Müsəlmanı veyl edərəm sərbəsər.
Qırıb bir-birin bəlkə etsin təmam,
Budur düşmənin fikri hər sübhü şam! (120)

Növrəsin fikrincə, bəd əməllər törədən insanlar yalnız elm və sənətdən bixəbər olanlardır. Şair belə hesab edir ki, nadanlıq bütün faciələrin başlanğıcı deməkdir. O:

Getsə gər bu sayaq nadanlıq,
Məhv olur yeksərə müsəlmanlıq- [2, s.72]

-söyləyərək elmdən bixəbər ruhaniləri köhnə təhsil üsulundan çəkindirmək üçün hədislərdən misal gətirir, onlardan camaatı aldatmamağı xahiş edir, xalqı “məhddən ləhdə kimi elm öyrənməyə” çağırır. Şairin fikrincə, hər hansı bir xalqın azad və xoşbəxt həyatını təmin etmək elmin açarını əldə etdikdən sonra başlayır. Şair məktəblərin azlığından, mövcud təhsilin vəziyyətindən, şikayət edir, varlı insanlardan yeni məktəblərin inşasına kömək etməyi xahiş edir:

Var hər yerdə xeyli dövlətli,
Sahibi-çiz, şəxsi hörmətli.
Məktəb əmrində etməmək təqsir,
Xərc lazımdı, şövq üzilə kəsir.
Qoymaq ətfalı tərbiyət tapsın,
Onlara niknamlıq qalsın. [2, s.79]

Sevinc Rəsulova yazır: «Pəndi-ətfal» müxtəlif xalqların ƏDƏBİYYATından tərcümə, təbdil və iqtibas edilmiş qiraət kitabıdır və yalnız tərcümə və iqtibas nümunələrindən ibarətdir [3, 118-119]. Lakin qeyd edək ki, Krılovdan tərcümə olunmuş 4 təmsil istisna olmaqla, buraya daxil olan nəsihət və hekayətlər bəzən ənənəvi öyüdlərlə eyni məzmun daşısa da, burada mövzu və sənətkarlıq xüsusiyyətlərinə görə orijinal hesab olunan məsnəvilər də az deyildir. Müəllif ənənəvi Şərq ƏDƏBİYYATının nəsihətçilik ənənələrinə sadiq qalır və canlı xalq dili ilə yazılmış beytlərində yüksək istedad nümayiş etdirir.

Beləliklə, Növrəsin pedaqoji görüşlərini özündə ehtiva edən bu məsnəvilər təbii və emosinal çalarlarına, atalar sözü və el deyimlərinə yerli-yerində istinad edilməsinə, mental dəyərlərin təbliğinə görə hələ şairin öz sağlığında böyük rezonans doğurmuş, uzun müddət pedaqoji

fəaliyyətlə məşğul olmuş ziyalıların, şagirdlərin əzbərinə çevrilmişdir. Bu məsnəvilər bu gün də aktual səciyyə daşıyaraq, öz müasirliyini saxlamaqdadır.

ƏDƏBİYYAT

1. Azərbaycan ƏDƏBİYYATı tarixi: 6 cilddə, IV cild. Bakı: Elm, 2011, 838 s.
2. Mirzə Ələsgər Növrəs. (ön söz və lüğətin müəllifi Ş.Cəmşidov, tərtib edən: Ş.Cəmşidov, N.Növrəsli). Bakı: Yazıçı, 1985, 156 (4)
3. Rəsulova S. Rus və Avropa yazıçılarının uşaq əsərlərinin Azərbaycan dilinə tərcüməsi və bu əsərlərin milli-maarifçi uşaq ədəbiyyatının inkişafında rolu (XIX əsrin II yarısı — XX əsrin əvvəlləri). “Azərbaycan məktəbi” jurnalı, 2018, № 4, s. 107-121

РЕЗЮМЕ
ДИДАКТИЧЕСКИЕ И НРАВСТВЕННЫЕ АСПЕКТЫ ПРОИЗВЕДЕНИЯ «ПАНДИ-АТФАЛЬ» МИРЗЫ АЛЕСГЕРА НОВРАСА

Исмаилова А.Ш.

Один из выдающихся поэтов Карабаха М.А.Новрас, в тоже время действовал как одним из просветителей-педагогов Х1Х века. Поэт который взял на себя священную миссию составления учебников в течение периода когда это было необходимо. В школах длительное время использовали сборник маснави – «Панди-Атфаль».

Маснави которые рассказывали о педагогических взглядах Новраса, блогодаря их естественным оттенкам и продвижению ментальных ценностей, нашел отклик у поэта при его жизни и стал памятью интеллектуалов и студентов, долгое время занимающихся педагогической деятельностью. Эти маснави даже сегодня несут характерную черту актуальности и сохраняют свою современность.

Ключевые слова: Мирза Аласгар Новрас, Х1Х век, «Панди-Атфаль», маснави

SUMMARY
DIDACTIC AND SPIRITUAL-MORAL ASPECTS OF "PANDI-ATFAL" BY MIRZA ALASGAR NOVRAS

İsmailova A.Sh.

Mirza Alasgar Novras, one of the prominent poets of Karabakh, also functioned one of the enlighteners-pedagogues of the XIX century. The collection of masnavi (couplet) of the poet "Pandi-atfal", which undertook the sacred mission of compiling textbooks when there was a need for textbooks, has been used in schools for a long time. Masnavis (couplets), which spoke about the pedagogical views of Novras, due to their natural and emotional shades, promotion of mental values, caused a great resonance in the poet's life, remained in memory of intellectuals and students who were engaged in pedagogical activities for a long time. These masnavis(couplets) are still relevant today and maintain their modernity.

Key words: Mirza Alasgar Novras, XIX century, "Pandi-atfal", masnavi

MƏNƏVİ TƏRBİYƏDƏ TƏBİƏT ŞEİRLƏRİNİN ROLU (ƏŞRƏF VEYSƏLLİNİN POEZİYASI ƏSASINDA)

Nağızadə S. E.
Sumqayıt Dövlət Universiteti
sekinenagizade@gmail.com

***Xülasə*:** Məqalədə Əşrəf Veysəllinin peyzaj lirikasından söhbət açılır, təbiətin tərənnümünə həsr etdiyi bir sıra şeirlər təhlil edilir. Müəllif göstərir ki, şairin peyzaj lirikası gənc nəslin mənəvi tərbiyəsində mühüm rol oynayır. Humanizm, təbiətə estetik münasibət, gözəlliyə vurğunluq kimi mənəvi hisslərin formalaşmasında bu cür şeirlər böyük əhəmiyyət daşıyır.

Açar sözlər: poeziya, Ə.Veysəlli, təbiət, fəsil, xəlqi ruh, lirika

Vətənimizin əsrarəngiz təbiəti hər bir sənətkarın əsas təsvir obyektlərindən biri olmuşdur. Gözəlliyin, saf duyğuların vurğunu olan bir çox sənətkarlar kimi, Əşrəf Veysəlli yaradıcılığında da təbiət lirikası xüsusi yer tutur. Bir-birindən maraqlı bədii təvir və ifadə vasitəsi onun peyzaj lirikasının mayasını təşkil edir. Şairin təbiətin tərənnümünə həsr etdiyi şeirlərdə müxtəlif metaforalar, təşbehlər və bənzətmələr yüksək sənətkarlıq keyfiyyətinin göstəricisidir. Milli koloritin, xəlqi ruhun çox güclü təcəssümünə çevrilən Əşrəf Veysəlli poeziyasında "məxsusi detallar, bədii təsvir vasitələri, sözün yeni poetik çalarlari ilə qarşılaşırıq" [2, s.111].

Ə.Veysəllinin poeziyasında "Dağ çayı", "Tərtər çayı", "Dəli Kür, məzəli Kür" kimi şeirləri adlarından da göründüyü kimi, çayların vəsfinə həsr olunmuşdur. "Tərtər çayı" şeirini oxuduqca sanki çay gözümüzün önündə canlanır. Tərtərin axıb keçdiyi yerlər, pambıq sahələri, çaya qovuşan bulaqlar, yamyaşıl meşələr bu şeirdə elə poetik vəhdətdə təsvir olunur ki, sanki yurdumuzun bir parçasının bədii xəritəsini görürük:

Qayaları gözəlliyin keşiyində dayanar,
Çiçəkləri günəşin al rənginə boyanar.
Nəğməsindən torpağın yatan bəxti oyanar,
Bulud da zirvələrdən sallanıb öpər çayı,
Məni məftun edibdir yurdumun Tərtər çayı. [3, s.188]

Şeirdə işlənən "ləpələr nə oxuyur", "ceyran gözlü min suyun", "ləpələr bir-birini danışdırar", "aylı gecələr", "ağ çalmalı dağlar", "sirli bulaqlar", "gümüş-gümüş ləpələr", "dağlar tutub ləngidir" və s. kimi poetik deymlər şeirin dilini daha da axıcı və rəvan edir. "Dağ çayı" şeirində isə şair "Ey yaşıl çöllərin sevimli dilbəri"- deyə özünəməxsus bir tərzdə çaya tərif vurur:

Torpağın ilhamı, gümüşü, sevinci,
Ən zərif güllərin gülüşü, sevinci. [3, s.170]

"Böyük şairlərin əsərlərində peyzaj həmişə bədii və ictimai məna kəsb edir" (4, 79). Əşrəf Veysəlli yaradıcılığında da bu hal müşahidə olunmaqdadır. Təbiətimizin gözəlliklərini tərənnüm etməkdən doymayan şair bəzən rastlaşdığı mənzərələr qarşısında öz heyrətini gizlədə bilmir. Cəmiyyətimizdə təbiətə hamı eyni cür qayğı göstərmir. Çox təəssüflər olsun ki, təbiətimizi qoruyanlarla yanaşı ona ziyan verənlərdə az deyildir. Xüsusilə müasir dövrdə bəzi insanlar tərəfindən təbiətə laqeyd münasibət şairi daha çox narahat edir. Yamyaşıl, çiçəkli yamaclarımızda ocaq yerləri görən həssas qəlbli şair "Ocaq yerləri" şeirində təbiətə biganə münasibəti pisləyərək buna öz etirazını bildirir:

Baxıram meşədə ocaq yerinə,
Burda ov ovlanıb, burda qan düşüb.

Yaşıl dünyamızın ağ ciyərinə
Bu qara ləkələr hayandan düşüb? [3, s.179]

"Dünyada bizim görmədiyimiz, hiss etmədiyimiz duyğular, nəsnələr var. Bu duyğular, bu nəsnələr, bu predmetlər arasında əlaqəni, bağlılığı kəşf etmək məhz şairlərin işidir" (5, 52). Əşrəf Veysəlli də "ulu Tanrının bəxş etdiyi bitməz-tükənməz gözəlliklərə bir filosof gözü ilə baxır", onlar arasında əlaqəni, bağlılığı kəşf eləməyə çalışır. Ona görə də "dünyaya, təbiətə vurğunluq, həssas bir qəlbin duyduqları fəlsəfi düşüncələrlə birləşib poetik harmoniya yaradaraq özünüdərkin özünəməxsus cəhətlərini nümayiş etdirir:

Gün düşür çöllərin qar sinəsinə,
Sular işım-işım işıldayırdı.
Sanki ulu Tanrı yer kürəsinə,
"Sevirəm" sözünü pıçıldayırdı. [2, s.133]

Şair "səhərin açılmasını elə həssaslıqla, dərin sevgi ilə təsvir edir ki, insan "təzə pardaxlanmış çiçək kimi dünyanın" əzəməti qarşısında heyrətə düşür, yaşayıb-yaratmağın gözəlliyini sanki yenidən dərk edir" [2, s.133].

"Dəydi bu yerlərə yaz qədəmləri", "Təzadlar dünyası", "Gəlibdir", "Qar yağdı gecənin qaranlığına", "Payızda", "Səhər açılırdı", "Gecəyə qar yağdı", "Bahar" kimi şeirlər fəsillərin əsrarəngiz gözəlliyinə həsr olunub. Bu şeirlərdə biz qışda yağan qarın, şaxtanın, baharda çiçək açan ağacların, güllərin, çiçəklərin, parlayan günəşin, payızda artıq saralmaqda olan təbiətin canlı şahidi oluruq. "Fəsillərin cazibədar mənzərəsinin bənzərsiz təsviri şairin poetik istedadının göstəricilərindəndir" [2, s.105].

İnsan təbiətin ayrılmaz bir parçası olduğu kimi, onda baş verən dəyişikliklərə də biganə qala bilməz. Baharın gəlişi təbiətin oyanmasına səbəb olduğu kimi, insanların da sevincinə sevinc qatır, onların mənəvi dünyasında təlatümə səbəb olur. Məhz bu incə detalları özünəməxsus bədii ştrixlərlə, təsvir və ifadə vasitələri ilə mənalandırır, yeni effekt yaratmağa nail olur. Əşrəf Veysəllinin yaratdığı təbiət mənzərələrində, hər şeydən əvvəl, təbiət və onun gözəlliklərinə həssas şair münasibəti öz əksini tapır:

Oxudu bulaqlar, dindi bulaqlar-
Torpağın ürəyi döyündü yenə.
Gümüş paltarını soyundu dağlar,
Qızıl paltarını geyindi yenə. [3, s.196]

Şeirdə "gümüş paltarını soyundu dağlar" misrasında qışın lakonik və obrazlı təsviri verilmişdir. Qışda dağların başının qarla örtüldüyünü, yazda isə laləzara büründüyünü obrazlı bir dillə tərənnüm edən şair "Gecəyə qar yağdı", "Qar yağdı gecənin qaranlığına" kimi şeirlərində poetik peyzajlarla müxtəlif duyğu və düşüncələri bir-birini tamamlayır. Onun təbiət lirikasının uğurlu cəhətlərindən biri də təsvirlə tərənnümün, lirik "mən"lə tərənnüm obyektinin vəhdət təşkil etməsidir:

Qar yağdı gecənin qaranlığına,
Hər tərəf büründü qar ağlığına.
Hayana baxırsan düm ağdı gecə,
Sanki bələkdəki uşaqdır gecə. [2, s.105]

Qeyd etdiyimiz kimi, şairin peyzaj lirikası forma və məzmunca zəngindir. "Dağların səhər nəğməsi", "Bu dağların", "Nəğməli dağlar", "Yarğanda lalələr", "Dağların", "Bu dağların" və bu qəbildən olan digər şeirlərdə yalnız təbiət gözəllikləri tərənnüm olunmur. Bu şeirlərdə insan-təbiət münasibətləri humanist düşüncələrin axarında verilir. Y.Qarayev şeirin mənəvi həyatımızdakı

rolundan bəhs edərkən ana təbiətin poeziyada tərənnümünə xüsusi diqqət yetirir: "Təbiətin, hətta bahar və qış, gecə və gündüz kimi fəsil və mövsüm vahidləri də müasir şeirdə əvvəlki ənənəvi mənalardan daha geniş bir estetik tutum kəsb etmişlər. Məlumdur ki, poeziya öz hümanizmini həmişə qaranlığa və gecəyə qarşı, səhər və işıq xeyrinə səfərbər etmişdir. Müasir şeirdə hətta təbiətin "gecə"si də düşmən deyil, dostdur, daha həssas, daha humanist münasibətə möhtacdır. [1, s.68].

Əşrəf Veysəllinin poeziyasında təbiəti ideallaşdırmaq, etik-estetik duyğuların inkişafında onun gözəlliklərini tərənnüm etmək geniş yer tutur. Onun şeirlərində insan təbiətdən ayrılmır, vahid bir orqanizmin üzvləri kimi vəhdətdə verilir. Təbiətin saflığı və gözəlliyi kimi insanın da mənəvi dünyasının zənginliyi, insan-təbiət münasibətinin ədəbi-fəlsəfi mahiyyəti bu vəhdətin fonunda açılır.

ƏDƏBİYYAT

1. Qarayev Y. Poeziya və nəsr. Bakı: Yazıçı, 1979, 198 s.
2. Veysəlli Ə. Qəbuluna yazılmışam Allahın. Sumqayıt: Azəri, 2018, 256 s.
3. Veysəlli Ə. Qarşıma siz çıxın. Sumqayıt: Azəri, 2015, 432 s.
4.Yusifoğlu R. ƏDƏBİYYATşünaslığın əsasları. Bakı: Şirvannəşr, 2005, 276 s.
5. Yusifli V. Yolayrıcı. Bakı: Vektor, 2004, 185 s.

РЕЗЮМЕ

РОЛЬ СТИХОТВОРЕНИЙ О ПРИРОДЕ В ДУХОВНО-НРАВСТВЕННОМ ВОСПИТАНИИ (на основе поэзии Ашрафа Вейсалли)

Нагизаде С. Э.

В статье рассматривается пейзажная лирика Ашрафа Вейсалли и анализируется ряд стихотворений, посвященных воспеванию природы. Автор показывает, что пейзажная лирика поэта играет важную роль в духовно-нравственном воспитании подрастающего поколения. Такие стихи имеют большое значение в формировании таких духовно-нравственных чувств, как гуманизм, эстетическое отношение к природе, любовь к прекрасному.

Ключевые слова: поэзия, А.Вейсалли, природа, глава, народный дух, лирика

SUMMARY

The role of poems about nature in spiritual education (Based on the poetry of Ashraf Veysalli)

Nagizade S. E.

The article deals with the landscape lyrics of Ashraf Veysalli and a number of poems dedicated to the hymns of nature are analyzed. The author shows that the poet's landscape lyrics play an important role in the spiritual education of the younger generation. Such poems are of great importance in the formation of spiritual feelings such as humanism, aesthetic attitude to nature and fascination with beauty.

Key words: poetry, A.Veysalli, nature, season, spirit of the people, lyrics

"KOROĞLU" DASTANININ "ALI KİŞİ" QOLUNNDA TƏRBİYƏ MƏSƏLƏLƏRİ

Yusifova K.Y.
Bakı Mühəndislik Universiteti
keyusifova@beu.edu.az

Xülasə: "Koroğlu" dastanı Azərbaycan xalqının yaratdığı möhtəşəm mədəniyyət abidəsidir. Dastanın ayrı-ayrı qolları ("Alı kişi", "Koroğlu ilə Dəli Həsən", "Dəmirçioğlunun Çənlibelə gəlməsi", "Koroğlunun Ərzurum səfəri", "Eyvazın Çənlibelə gətirilməsi", "Durna teli" (buna "Koroğlunun Bağdad səfəri" də deyirlər), "Həmzənin Qıratı aparması", "Məhbub xanımın Çənlibelə gətirilməsi", "Koroğlunun Bəyazid səfəri", "Qulun qaçması" və s.) xalqın etnik təsəvvürlərini, milli-mənəvi dəyərlərini, tərbiyə haqqında bütün anlayışlarını əhatə edə bilmək imkanı ilə diqqəti cəlb edir. "Alı kişi" qolu bu baxımdan çoxçeşidliliyi, fiziki tərbiyədən ailə tərbiyəsinə, ideya-mənəvi tərbiyəyə qədər böyük bir zənginliyi əhatə edir. Bütün bunlar dastanın mənəviyyat hadisəsi olaraq möhtəşəmliyini aydınlaşdırır.

Açar sözlər: "Koroğlu" dastanı, "Alı kişi" qolu, Rövşən, Koroğlu, Qırat, Misri qılınc, tərbiyə, milli-mənəvi dəyərlər, xalq pedaqogikası

Azərbaycan xalqının yaratdığı möhtəşəm qəhrəmanlıq abidələrindən biri "Koroğlu" dastanıdır. Etnosun əxlaq, mənəviyyat toplusu kimi vurğulanan bu dastan yüz illər boyu onun ruhani dünyasına işıq tutmuş milli-mənəvi tərbiyənin qaynağı olaraq mükəmməl təsəvvür formalaşdırmışdır. "Kitabi-Dədə Qorqud"dan üzü bəri daşınanların çeşidli örnəkləri ilə səciyyələnən epos sosial çevrənin ailə tərbiyəsindən dövlətçilik (cahanşümul dövlət) təsəvvürünə qədər geniş bir zənginliklə faktlaşır.

"Koroğlu" dastanı təkcə bədii ədəbiyyat hadisəsi olaraq əhəmiyyət daşımır. Əlbəttə bu, öz ifadə imkanları, yüksək struktur xüsusiyyətləri ilə xalqın bağrının başından qopmuş möhtəşəm epos hadisəsidir. Mahiyyətində daşınanlar isə dastanın əvvəlindən axırına qədər xalqın tərbiyə, əxlaq, vətənpərvərlik dərsliyi olması düşüncəsini ortaya qoyur. Məhz bu zənginliyin nəticəsidir ki, Şərq xalqları arasında bu dastan qədər yayılacaq ikinci bir epos nümunəsi yoxdur. Orta Asiya, Kiçik Asiya, Qafqaz xalqları bu abidənin təsiri ilə özlərinin "Koroğlu"sunu yaratmışlar. Balkanlarda da Koroğlu qəhrəmanlığı, Çənlibel, Nigar xanım, Koroğlu dəliləri ilə bağlı çeşidli əhvalatlar dolaşmaqdadır.

Dastanın aşıq repertuarından toplanmış qolları (hal-hazırda 24 qolu toplanıb geniş ictimaiyyətə təqdim olunmuşdur) hər birisi etnosun kompleks tərbiyə təsəvvürlərini özündə əks etdirmək gücü ilə mükəmməl təsəvvür formalaşdırır. "Alı kişi", "Koroğlu ilə Dəli Həsən", "Dəmirçioğlunun Çənlibelə gəlməsi", "Koroğlunun Ərzurum səfəri", "Eyvazın Çənlibelə gətirilməsi", "Durna teli" (buna "Koroğlunun Bağdad səfəri" də deyirlər), "Həmzənin Qıratı aparması", "Məhbub xanımın Çənlibelə gətirilməsi", "Koroğlunun Bəyazid səfəri", "Qulun qaçması" və s. qollar hər birisi mahiyyətində etnosun tərbiyə təsəvvürünü əks etdirmək gücü ilə əbədiyaşarlıq qazanır. Əlavə edək ki, hər bir qol özlüyündə bütövlüyü və mükəmməlliyi ilə bitkin təsir bağışlayır və tərbiyə ilə bağlı təsəvvürlərinin mühüm bir tərəfini əks etdirir. "Alı kişi" qolu da bu sırada olub çox ciddi mətləbləri əhatə etmək xüsusiyyəti ilə sistemli təhlillərə şərait yaradır.

"Koroğlu" dastanının birinci qolu "Alı kişi qolu"dur. Tədqiqatçılar araşdırmalarında ona müxtəlif aspektlərdən yanaşmış, fikir və mülahizələrində eposun ustadnaməsi kimi təqdim etmişlər. Ustad sözü isə ağsaqqal sözü, müdrik sözü hesab olunmuş və həmişə uca tutulmuşdur. Bu etnosun

bir təsəvvür kodu olaraq bütün dastan örnəklərində müxtəlif səviyyələrdə özünə yer alır. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanlarında Dədə Qorqud timsalında deyilənlər ("Qorqud Ata Oğuz qövmünün müşkülünü həll edərdi. Hər nə iş olsa Qorqud Ataya danışmayınca işləməzlərdi. Hər nə ki, buyursa qəbul edərlərdi. Sözün tutub tamam edərlərdi" **(3, 14).** "Koroğlu" dastanında da eyni ağsaqqallıq funksiyasını Koroğluya qədər Alı kişi yerinə yetirir. Dastan mətnində də bu xüsusi özünəməxsusluqla təqdim olunur. "Alı kişi neçə illər idi ki, Həsən xana ilxı otarırdı. Ömrünü, gününü onun qapısında çürüdüb, saçını-saqqalını ilxıçılıqda ağartmışdı.

Hər gün səhər dan yeri ağaranda Alı kişi ilxını çölə aparar, bütün günü otarar, gecədən bir pas keçəndən sonra xalxala gətirərdi. Dağlarda, daşlarda, kövşənlərdə Alı kişinin ayağı dəyməyən bir qarış yer qalmamışdı" **(1, 16).** Mətn situasiyalarında Alı kişinin ağsaqqallıq statusu tərbiyə müstəvisində bir neçə xətdə motivləşir.

I. situasiya:

a) Alı kişi el ağsaqqalıdır;

b) zəhmətlə ömür-gün yaşayır (əmək tərbiyəsi);

c) Həsən xana sədaqətlə xidmət edir;

ç) övlad tərbiyəsi (Alı kişi və Rövşən timsalında valideyn-övlad münasibətləri)

II situasiya:

a) Alı kişi və Həsən xan münasibətləri (kollektiv tərbiyəsi);

b) Alı kişinin haqsız cəzalandırılması (gözlərinin çıxarılması);

III situasiya:

a) Alı kişinin gözlərinin çıxarılmasına oğlunun münasibəti;

b) ətraf mühitin baş verənlərə etirazı;

c) Çənlibelin vətən timsalında obrazlaşması (Alı kişinin yurd seçimi);

ç) fiziki tərbiyə (Qoşabulaq, Misri qılınc, Qırat və Dürat);

d) ailə tərbiyəsi (ata kimi Koroğluya öyüd və nəsihətləri);

e) qəhrəmanlıq tərbiyəsi (Rövşənin Koroğlu adı ilə tanınması) və s.

Bütün bunlar və bu kimi epizodik məqamlar "Koroğlu" dastanındakı tərbiyənin funksional mahiyyətini, etnosun tərbiyə təsəvvürlərini əhatələmək gücü ilə müəyyənləşir. Burada yurd seçimindən, el-oba gənclərinin baş verənlərə etirazına, Alı kişinin oğluna "bala, hələ qisas vaxtı deyil, vaxtı çatanda mən deyəcəyəm" tövsiyəsinə, eləsə də "nə qədər ki, Misri qılınc sənin belində, sən də Qıratın belindəsən, özün də bu Çənlibeldəsən, sənə heç kəs dov gələ bilməyəcək. Get, sənin adını Koroğlu qoydum" (1, 16) sön sözünə (vəsiyyətinə) qədər hamısı dastanın tərbiyə müstəvisində mahiyyətini aydınlaşdırır. Burada xalqın zəngin milli-mənəvi düşüncəsinin bütün təfsilatları, əxlaq və dəyər anlanmında müəyyənləşmiş təsəvvürləri bir çeşni olaraq mətn boyu sıralanır.

Dastanın "Alı kişi" qolu boyu verilən təsvirlər bir istiqamətdə tarixi-mədəni yaddaşa, ideya mənəvi-tərbiyənin dəyər olaraq formalaşdırılma kutsallığına bağlanır. Məlum olduğu kimi, "biliklərin mənimsədilməsi əqidəyə gətirib çıxarmalıdır. İnsanın cəmiyyətə, adamlara, sosial problemlərə münasibəti əqidədə öz ifadəsini tapır. İdeya əqidəsi insana öz davranışında, hərəkətlərində mənəvi yolunu, xətti-hərəkətini seçməyə imkan verir. İnsan özünün ictimai borcunu dərk edir" (5, 219). Alı kişi//Koroğlu xəttində olanlar bütünlükdə xalqın dastan ənənəsində daşınanların nə qədər ciddi məzmun daşıdığını, etnokulturoloji təfəkkür və davranış intelleksiyasını əhatələdiyini aydınlaşdırır.

Ümumiyyətlə, dastan xalq ƏDƏBİYYATının janr zənginliyində bir forma olaraq imkanlılıq və yaddaş təsəvvürlərini əhatələmək gücü ilə daha çox nəzər-diqqəti cəlb edir. Məsələn, Alı kişinin "Koroğlu" dastanında ağsaqqallıq statusu baxımından sərgilədiyi təsəvvür "Oğuz Kağan"

dastanında Uluq Türklə reallaşır **(2).** Son dövrün qaçaq dastanları **(6)** adı ilə formalaşdırdığı dastan örnəklərində ("Qaçaq Kərəm", "Qaçaq Nəbi", "Qandal Nağı", "Qara Tanrıverdi" və s.) eyni mənzərə özünə yer alır. Bütün bunlar xalq dastanlarında xalq pedaqogikasının təfsilatlı şəkildə əksini tapması təsəvvürünə bağlanır. "Koroğlu" dastanındakı "Alı kişi" qolu isə müstəsnalığı ilə mükəmməl mahiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Aşıq ƏDƏBİYYATı antologiyası. Qəhrəmanlıq dastanları. 3 cilddə, II c., (tərtib edənlər: M.Qasımlı və M.Allahmanlı). Bakı: Meqaprint, 2017, 512 s
2. Bayat F. Oğuz epik ənənəsi və "Oğuz Kağan" dastanı. Bakı: Sabah, 1993, 194 s.
3. "Kitabi-Dədə Qorqud". Bakı, Gənclik, 1978, 184 s.
4. Koroğlu. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, 1956, 454 s.
5. Talıbov Y., Ağayev Ə., İsayev İ., Eminov A. Pedaqogika. Bakı: Maarif, 1993, 292 s.
6. Yeddi dastan. (tərtib edəni: R.Rüstəmzadə). Bakı: Azərnəşr, 1989, 168 s.

РЕЗЮМЕ

ВОПРОСЫ ВОСПИТАНИЯ В ГЛАВЕ "АЛЫ КИШИ" ЭПОСА "КЁРОГЛУ"

Юсифова К. Я.

Эпос «Кёроглу» является величайшим произведением народного творчества азербайджанского народа. Отдельные направления в дастане, такие как: «Алы киши», «Кёроглу и Дели Гасан», «Возвращение в Ченлибель сына кузнеца», «Путешествие Кёроглу в Арзурум», «Приезд Эйваза в Ченлибель», «Журавлиная нить» (другое название этой линии «Путешествие Кёроглу в Багдад»), «Укража Гамзой Гырата», «Приезд Махбуб ханыма в Ченлибель», «Путешествие Кёроглу в Баязыт», «Побег раба» и др. привлекают внимание возможностью воспринять идеи людей, национально-нравственные ценности и все их представления о воспитании. С этой точки зрения направление «Алы киши» очень многогранно. Оно включает в себя как физическое, так и семейное и нравственное воспитание.

Все это проясняет величие эпоса как необыкновенного духовного события в фольклорно-этническом творчестве азербайджанского народа.

Ключевые слова: Эпос «Кёроглу», направление «Алы киши», Ровшан, Кёроглу, Гырат, меч Мисри, воспитание, национально- нравственные ценности, народная педагогика, героизм

SUMMARY

EDUCATIONAL ISSUES IN THE BANCH OF "ALI KISHI" OF "KOROGLU" EPIC

Yusifova K.Y.

The "Koroglu" epos is a great cultural event created by the Azerbaijani folk. The various branches of the epos ("Ali Kishi", "Koroglu and Deli Hasan", "Demircioglu's arrival in Chanlibel", "Koroglu's visit to Erzurum", "Bringing Eyvaz to Chanlibel", "Durna Teli" (also called "Koroglu's visit to Baghdad"), "Hamza's Girati" , "Bringing Mahbub khanum to Chanlibel", "Koroglu's visit to

Beyazid", "Escape of the slave", etc.) increases the attention of people to know how to continue the ethnic ideas, national-moral values, all concepts of education. In this regard, the "Ali Kishi" branch covers a wide range of varieties, from physical education to family education, ideological and spiritual education. All this clarifies the greatness of the epos as a spiritual event.

Key words: the epos of "Koroglu", the branch of "Ali kishi", Rovshan, Koroglu, Girat, Misri sword, education, national-moral values, folk pedagogy

ÜMUMTƏHSİL MƏKTƏBİNİN I SİNİF ŞAGİRDLƏRİNDƏ OXU POZULMALARININ MÜASİR DİAQNOSTİKASI

Mürsəlova A. A.
Azərbaycan Dövlət Pedaqoji Universiteti
loqoped55@mail.ru

***Xülasə*:** Ümumtəhsil məktəbinin birinci sinfində savadlılığın tədrisinin əsas mərhələlərindən biri də uşaqlarda oxu vərdişlərinin formalaşması və gücləndirilməsidir. Bu savadlılıq mərhələsində şagirdlər səsləri, hərfləri və rəqəmləri tanıyır, sözləri hecalayır və nəhayət oxuma vərdişlərinə yiyələnirlər. Müşahidələr göstərir ki, birinci sinif şagirdlərində bu bacarıq çox sürətlə inkişaf etsə də, bəziləri bu bacarığı uzun müddət mənimsəməkdə çətinlik çəkirlər. Oxu çətinliyinin bir neçə əsas səbəbi var:

- fonemik qavrayışın pozulması;
- görmə qavrayışının və vizual yaddaşın pozulması;
- idrak proseslərinin inkişafında gecikmə;
- pedaqoji səhlənkarlıq;

Ümumtəhsil məktəblərinin birinci sinif şagirdlərində oxu pozulmalarının vaxtında diaqnozu düzəliş və profilaktika işinin düzəldilməsinə imkan verir.

Açar sözlər: ümumtəhsil məktəbi, şagird, oxu pozulmaları, səs, heca, diaqnostika, korreksiya

Ümumtəhsil məktəblərinin I sinfində savad təliminin əsas mərhələlərindən biri uşaqlarda oxu vərdişlərinin yaradılması və möhkəmləndirilməsidir. Savad təliminə yeni başladığı bu mərhələ şagirdlərin səs, hərf və rəqəmləri tanıması, fərqləndirməsi, sözləri hərflərə görə təhlil -tərkib etməsi və ən nəhayət oxu vərdişlərinə yiyələnməsi ilə xarakterizə edilir. Lakin müşahidələr göstərir ki, I sinif şagirdlərinin əksəriyyətində bu bacarıq çox tez formalaşsa da, bəziləri uzun müddət bu vərdişə yiyələnməkdə çətinlik çəkirlər. Oxuya yiyələnməkdə müəyyən çətinliklərin yaranma sının bir neçə əsas səbəbi vardır:

- fonematik qavramanın pozulması;
- görmə qavrayışı və görmə yaddaşının pozulması;
- idrak proseslərinin inkişaf ləngimələri;
- pedaqoji səhlənkarlıq;

Qeyd edilən səbəblərin içərisində ən çox rast gəlinən fonematik və görmə qavrayışının xüsusiyyətlərinin pozulmasıdır. Yəni uşaqlar eşitmə analizatoru vasitəsilə hərf və rəqəmləri düzgün qavraya və fərqləndirə bilmir, oxu zamanı onları qarışdırır və ya təhrif edirlər. Bu əsasən uşaqlarda eşitmə ilə diferensiasiya, eşitmə diqqəti və yaddaşı, eşitmənin ardıcıllığı funksiyalarının pozulması ilə bağlıdır.

I sinif şagirdlərində normal eşitmənin olmasına baxmayaraq, onların diqqətlərini düzgün şəkildə paylaşdıra, cəmləməyi və bir fəaliyyətdən digərinə keçirə bilmir, tez -tez diqqətləri yayındığı üçün hərfləri düzgün mənimsəmir, öyrəndikləri hərf və rəqəmləri uzunmüddət yaddaşda saxlamaqda çətinlik çəkirlər. Uşaqlar heca və sözün tərkibindəki səsləri düzgün ardıcıllıqla oxusalar da tələffüz edərkən onların ardıcıllığını pozur, səs əlavə və ya təhrif edirlər: top -[pot], qırmızı - [qımrızı], neft- [nefit], at- [ata] və s.

Birinci sinif şagirdlərində oxunun pozulması həm də görmə qavrayışı prosesi ilə bağlıdır. Uşaqlarda görmənin fizioloji funksiyaları normal olsa da, bəzən oxu problemi informasiyanın göz ilə düzgün qəbul edilməməsi və qavranılmaması nəticəsində yaranır. Yəni uşaqlarda görmə - məkan münasibətlərini: hərf və rəqəmləri təşkil edən elementlərin bir-biri ilə necə birləşməsini, sözün tərkibindəki hərflərin məkanda hansı ardıcıllıqla yerləşməsini, hərf və rəqəmləri tanımağı, yadda saxlamağı, onların oxşar əlamət və elementlərini fərqləndirilməyi, hər hansı sözün ilk hecasını gördükdə onu bütövlükdə qavramağı, hecanın, sözün harada bitdiyi və yeni sözün haradan başladığını müəyyən etməyi bacarmırlar. Uşaqlarda çox zaman əl-göz koordinasiyasının pozulması özünü göstərir: onlar oxumağa yeni başladıqları zaman oxuduğu sətirləri barmağı ilə izləməyi və yeni sətrə keçməyi bacarmırlar.

I sinif şagirdlərinin bəzilərində idrak proseslərinin inkişafındakı ləngimələr (qavrayış, diqqət, hafizə və təfəkkür) oxu vərdişinin formalaşmasına və inkişafına mənfi təsir göstərir.

Beləliklə də, I sinif şagirdləri oxu zamanı aşağıda qeyd edilən pozulmalara yol verirlər:

- Uşaqlar kitabdakı ağ rəngli səhifələr üzərindəki qara rəngli yazılara diqqətini mərkəzləşdirə bilmək üçün əlavə güc sərf etdiyinə görə gözləri tez yorulur və sətirləri qarışdırır, sözləri səhifədə hərəkət edirmiş kimi görür.
- Hərflər və rəqəmlərdə elementlərin yerləşmə istiqamətini qarışdırdığı üçün “b-d, p-q, e-ə, 6-9" kimi hərf və rəqəmləri diferensiasiya etməkdə çətinlik çəkir.
- Səhifədəki sətirləri oxuyarkən barmaqla izləməkdə çətinlik çəkir, səthi yerini itirirlər.
- Sol və sağı xatırlamaqda çətinlik çəkdikləri üçün oxumağa haradan başlamaq lazım olduğunu unudurlar.
- Əlifbanı sıra ilə xatırlamaqda çətinlik çəkirlər.
- Lövhə və ya kitabdakı yazını köçürməkdə çətinlik çəkirlər.
- Tanıdığı sözlərin görünüşünü əzbərləməkdə çətinlik çəkirlər.
- Uşaq diqqətini kitab və ya dəftərdəki sözə cəmləyə bilmədiyi üçün diqqəti yayınıb ətrafdakı sözlərə də paylanır və oxunu düzgün formada yerinə yetirə bilmirlər.

Ümumiyyətlə, uşaqlarda oxu vərdişlərinə yiyələnmə çətinliklərini təhlil etsək, görərik ki, bu pozulmaların əlamətləri uşaqlarda kiçik yaşlardan təzahür etməyə başlayır. Belə ki, idrak proseslərinin inkişafındakı ləngimələr ya daha kiçik yaşdan özünü göstərir ki, bu da uşaqlarda digər əqli proseslərin pozulmasına səbəb olur, ya da kiçik məktəb yaşı dövründə müəyyən proseslərin gedişində yaşıdlarından geri qalma kimi müşahidə edilir. Çox zaman ailə üzvləri və məktəb müəllimlərinin uşağın təlim problemlərinə qarşı laqeydliyi, onlara səhlənkar yanaşması, ailədə və təhsil mühitində onun düzgün təşkil edilməməsi, uşaq potensialının düzgün qiymətləndirilməməsi, müəllim məsuliyyəti və tələbkarlığının olmaması və təlim metodikalarının düzgün seçilməməsi uşaqlarda oxu problemlərinin yaranmasına səbəb olur. I sinifdə savad təliminin başladığı dövrdə oxu prosesindəki çətinlikləri ilk olaraq uşağın sinif müəllimi tərəfindən aşkarlanır. Öyrənmə prosesindəki çətinliklər davam edir və getdikcə mürəkkəbləşir. Bu halda valideynlərin mütəxəssisə müraciət etməsi ilə mövcud pozulma diaqnozlaşdırılır.

Uşaqlarda əqli inkişaf səviyyəsinin diaqnostikası üçün ən çox və ən etibarlı testlərdən biri Veksler testidir. Test şifahi və praktik hissələr olmaqla iki hissədən ibarətdir. Hər iki hissə beş əsas testdən və altı subtestdən ibarətdir. Testin şifahi hissəsi nin subtestləri aşağıdakılardır:

1.Ətraf aləm: Uşağın ətraf aləmlə əlaqədar ümumi mlumatlılıq səviyyəsini ölçmək üçün uşaqlar məktəb, ailə, ətraf aləm, təbiət haqqında diaqloqlar aparılır. Sual-cavabdan çox uşağın danışıb fikirlərini ifadə etməyi üçün şərait yaradılır.

2.Oxşarlıq: Bu subtestlə uşağın məntiqi təfəkkürünün inkişafı müəyyənləşir. Uşa ğa hər hansı əşya və ya hadisənin adı deyilir, uşaqdan onun haqqında ətraflı danış maq tələb edilir. Burada əsas məqsəd uşağa zəncirvari suallar verərək söhbət möv zusunu tez-tez dəyişdirməkdir. Burada həmçinin uşağın yaradıcı təxəyyülünün inki şaf səviyyəsi ölçülür.

3. Riyazi: Bu subtest, uşağın riyazi əməliyyatları həll etmək bacarığını, həmçinin, qısamüddətli hafizə və eşitmə yaddaşının həcmi diaqnozlaşdırılır. Çünki uşaq sualı yadda şında saxlamalı və onu emal etməlidir. Bu subtest uşağın riyazi bacarıqlarını və riyazi məsələləri fonematik qavrama vasitəsilə həll etmə səviyyəsini müəyyən ləşdirir.

4. Lüğət ehtiyatı: Bu subtest uşağın əşyaları və obyektləri sadalanan əlamətlərinə görə yada salmalı və adlandırmalıdır. Həmçinin əksinə adı deyilən əşya və obyekt lərin xarakterik xüsusiyyətlərini sadalamalıdır. Bu subtest uşaqların söz ehtiyatı və uzunmüddətli yaddaşının vəziyyətini diaqnozlaşdırır.

5. Mühakimə: Burada uşaqlara danışılan hekayədə baş verən hadisələri uşaqlar təhlil edir. Hekayədə düzgün olmayan hadisələri və obrazları mühakimə edir və düzgün formada şərh edir. Həmçinin, uşağa yarımçıq danışılan hekayəni hadisənin gedişatına əsasən tamamlamağı tələb olunur.

6. Ardıcılllıq: Uşaqlara müəyyən məntiqi ardıcılllıqla verilən söz, səs, rəqəm və s. kimi amilləri uşaq yadda saxlayıb bir neçə saniyə və ya dəqiqə sonra təkrarlama lıdır. Bu subtest uşağın qısamüddətli hafizəsini ölçür.

Testin praktik hissəsinin subtestləri aşağıdakılardır:

1. Şəkli tamamlamaq: Uşağa yarımçıq verilmiş şəklin əksik hissələrini tamamla maq tapşırılır. Uşaq kənardakı hissələrdən uyğun olanını tapıb şəkli tamamlama lıdır. Bu test görmə qavrayışını müəyyən etmək üçün tətbiq edilir.

2. Şəkil əlqələndirmək: Uşağa təqdim edilən kartlar arasından bir-birinə uyğun olan iki şəkli tapıb hadisələr arasında səbəb - nəticə əlaqəsi qurmalıdır. Burada görmə qavrayışı, qavrayışın təhlil prosesi, əyani - obrazlı təfəkkürün inkişaf səviy yəsi müəyyənləşdirilir.

3. Kublardan fiqurlar qurmaq: Bu subtest görmə qavrayışının bir çox funksiyasını ölçür. Burada uşağa müxtəlif rəngli kiçik kublar təqdim edilir. Uşaqdan kartların üzərindəki şəkilləri rəngli kublardan stolun üstündə düzəltmək tələb olunur. Bura da vacib olan uşağın şəkli qısamüddətli yaddaşında saxlamağı, əl-göz koordinasi yasını tənzimləməsi və manipulyativ fəaliyyəti icra edə bilmələridir.

4.Hissələrdən tamı düzəltmək: Uşağa bir neçə kiçik və müxtəlif həndəsi fiqurlarla ayrılmıış şəkil verilir. Uşaqdan həmin çəkli hissələri birləşdirərək tamamlamağı tələb olunur. Burada uşağın məntiqi təfəkkürü əl-göz koordinasiyası müəyyən edilir.

5. Rəmzlər: Burada bir cümlə bir neçə ardıcıl kartla ifadə edilir. Daha sonra hər bir kart başqa əşya ilə əvəz edilir. Uşaq cümləni əvəz edildiyi əşyalara müvqafiq qurmalıdır. Məsələn: Ata + çay + içir. Ata oğlanla, çay - qələmlə, içmək- kitabla əvəz edilir. Uşaq cümləni qurmaq üçün kartları bu ardıcıllıqla düzməlidir: oğlan +qələm+ kitab

6. Labirint: Burada uşağın görmə diqqəti, görmə qavrayışı, əl-göz koordinasiyası və məntiqi təfəkkürü ölçülür.

Uşaqlarda görmə qavramasının diaqnostikasında Geştalt testləri ən çox istifadə edilən diaqnostik metodlardandır. Hər biri ayrı-ayrı kartlardan ibarət olan 9 forma dan ibarət test 5-11 yaşlı uşaqlara tətbiq edilir.

Fonematik qavrayışın diaqnostikası üçün ən çox istifadə edilən test "CTOPP-2- Fonoloji funksiya testi, ikinci nəşr" testidir. Bu test fonoloji qabiliyyətləri və fonoloji informasiyaları emal etmək bacarıqlarını üç göstəricidən istifadə edərək ölçür:

- fonoloji qavrama bölməsi
- fonoloji yaddaş bölməsi
- sürətli adlandırma bölməsi

Bunlar informasiyanı qısamüddətli və uzunmüddətli yaddaşda saxlamağı və tapşırıqları tez bir zamanda emal etmək qabiliyyətini nəzərə alaraq məlumatlılıq səviyyələrini qiymətləndirir.

Test, eyni zamanda xüsusi müdaxilə proqramları ilə əldə edilən irəliləyişləri izləməyə kömək edir və 5 yaşdan 24 yaşa qədər uşaqlar, yeniyetmələr və gənclərə tətbiq olunur. Testin tətbiqedilmə metodu qeyd edilən hər üçün göstəriciyə aid test tapşırıqlarının uşağa şifahi olaraq ünvanlanması əsasında aparılır. Görmə qavrayışındakı gerilik, reqressiya, funksiyaların pozulması və s. aşkar etmək üçün Geştalt testindən istifadə olunur. Testdə uşaqlardan kartlarda gördükləri şəkilləri öz qavra yışlarına uyğun şəkildə təsvir etmələri tələb olunur. Əsas oxu və anlama bacarıq larının diaqnostikası üçün WRMT-R testindən istifadə olunur. Yenidən tənzimlənmiş Vudkuk oxu peşəkarlığı testi istifadə edilir. Bu test əsas oxu və anlama bacarıqlarını qiymətləndirmək üçün istifadə olunur. Onun əsas məqsədi oxu qabiliyyətinin bir neçə vacib tərəfini ölçməkdir. Yetkinlik yaşına qədər uşaqları sınaqdan keçirir. Testin kompleks aparılma müddəti 40-45 dəqiqə və sürətli aparılması isə 15 dəqiqə vaxt tələb edir.

Beləliklə də, ümumtəhsil məktəbin I sinif şagirdlərində oxu bacarığının pozulmasının diaqnostikası korreksiya və profilaktika işini düzgün və səmərəli təşkil etməyə imkan verir.

ƏDƏBİYYAT

1.N.T.Hüseynova, T.H.Ağayeva "Loqopediya" -. Bakı., 2018

2.Белякова Л.И., Иншакова О.Б. Нарушения письма и чтения у учащихся неправшей / Дети с проблемами в развитии: исследования и коррекция. СПб. 1999

3.Корнев А.Н. Нарушения чтения и письма у детей. СПб.: ИД «МиМ», 1997.

4.Лалаева Р.И. Диагностика и коррекция нарушений чтения и письма у младших школьников / Р.И.Лалаева, Л.В.Бенедиктова: Учебно-методическое пособие. СПб: Изд-во «СОЮЗ», 2003.

РЕЗЮМЕ

СОВРЕМЕННАЯ ДИАГНОСТИКА НАРУШЕНИЙ ЧТЕНИЯ У ПЕРВОКЛАССНИКОВ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

Мурсалова А. А.

Одним из основных этапов обучения грамоте в первом классе общеобразо вательной школы является формирование и укрепление у детей навыков чтения. На этом этапе обучения грамоте учащиеся узнают звуки, буквы и числа, распознают их, анализируют слова по буквам и, наконец, овладевают навыками чтения. Наблюдения показывают, что хотя этот навык очень быстро формируется у первоклассников, однако, у некоторым из них трудно овладеть

этим навыком в течение длительного времени. Есть несколько основных причин трудностей с чтением:

- нарушение фонематического восприятия;
- нарушение зрительного восприятия и зрительной памяти;
- задержка развития когнитивных процессов;
- педагогическая халатность;

Своевременная диагностика нарушений чтения у первоклассников общеобразовательных школ позволяет организовать корректирующую и эффективную работу коррекции и профилактики.

***Ключевые слова**:* общеобразовательная школа, школьник, нарушения чтения, звук, слог, диагностика, коррекция

SUMMARY

MODERN DIAGNOSIS OF READING DISORDERS IN FIRST GRADE STUDENTS OF SECONDARY SCHOOLS

Mursalova A.A.

One of the main stages of teaching literacy in the first grade of general education school is the formation and strengthening of reading skills in children. In this phase of literacy, learners recognize sounds, letters and numbers, recognize them, spell out words, and finally master reading skills. Observations show that although this skill is developed very quickly in first graders, however, some of them find it difficult to master this skill for a long time. There are several main reasons for reading difficulties:

- violation of phonemic perception;
- violation of visual perception and visual memory;
- delay in the development of cognitive processes;
- pedagogical negligence;

Timely diagnosis of reading disorders in first-graders of general education schools allows organizing corrective and effective work of correction and prevention.

***Key words*:** general education school, student, reading disorders, sound, syllable, diagnostics, correction

NƏSİMİNİN ŞEİRLƏRİNDƏ İŞLƏNƏN SUAL CÜMLƏLƏRİ VƏ ONLARIN İFADƏ VASİTƏLƏRİ

Bayramova A. A.

Sumqayıt Dövlət Universiteti

bayramova.arzu2@gmail.com

Xülasə: Məqalədə Nəsimi şeirlərində istifadə edilən sual cümlələri və onların ifadə vasitələri göstərilmişdir. Daha sonra cümlədə sual vasitələrini yaratmaq üçün dəqiq nümunələr göstərilmişdir. Bəzən hər tip üçün uyğun müqayisələr edilmişdir.

Açar sözlər: əvəzlik, intonasiya, söz, tələffüz.

Bədii söz sənətinin solmaz, gözəl incilərini yaradan İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatı tarixinə yeni bir üslub və deyim tərzi gətirmişdir [7, s.337]. Dahi söz ustadı, anadilli şeirimizin yaradıcısı, şeirləri sufi simvolikası ilə bəzənən Nəsiminin anadan olmasının 650 ili bu yaxınlarda tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları 15 noyabr 2018-ci ildə xüsusi Sərəncam imzalamış, və bu Sərəncama görə 2019-cu il"Nəsimi ili" elan edilmişdir. Bu münasibətlə hər bir ziyalı imkan daxilində öz sözünü deməli, az da olsa, Nəsimi irsinə kiçik bir töhfə verməyi bacarmalıdır. Əlbəttə ki, Nəsimini başa düşmək də çətindir, onun özü təsadüfi deməyib ha:

Heç kimsə Nəsimi sözünü kəşf edə bilməz,
Bu quş dilidir,onu Süleyman bilər ancaq [6, s.30].

Nəsiminin şeirlərinin maraqlı sintaksisi var. Belə ki, onun şeirlərində məqsəd və intonasiyasından asılı olaraq nəqli, sual, əmr və nida cümlələrinə çox rast gəlinir. Sairin qəzəllərində işlənən sual cümlələiri xüsusi maraq doğurur. Şair ritorik suallar vasitəsi ilə insanları dünyanı dərk etməyə, inkişafa, tərəqqiyə çətin məsələləri həll etməyə çağırır. Müasir Azərbaycan ədəbi dilində olduğu kimi, onun yaradıcılığında nəzərə çarpan sual cümlələri, sual əvəzlikləri, sual ədatları və az bir qismi isə intonasiya ilə qurulur. Bunlara ayrılıqda nəzər yetirək.

1. Sual əvəzlikləri ilə yaranan sual cümlələri.

Sual əvəzlikləri ilə qurulan cümlələrdə sair əvəzlikləri cümlələrin müxtəlif yerlərində işlətməklə bir-birindən fərqli xüsusi sual intonasiyası yaratmışdı. Məsələn:

Kim – Gerçək xəbər imiş bu ki, xubun vəfası yox,
Kim sevdi xubu, kim dedi xubun cəfası yox? [6, s.269].

Nə – Canda ki, eşq olmadı, dildə xəbər nə fayda?
Gözdə ki, görmək olmadı, nuri-bəşər nə fayda? [6, s.43].

Nəsən – Ərşilə fərşi kafi nun səndədir, ey mələk, bu gün,
Kimsə bu sirrə irmədi, şərhi bəyansan, nəsən? [4, s.166].

Nə üçün – Odü su, torpağı yel adı nədəndir adəm?

Nədir – Ana səcdə nə üçün, iblisə inkar nədir [1, s.70].
Sol ləbi şirinə, yarəb, gər şəkər dersəm, nola?
Şol günəş tələtli ayə gər qəmər desəm nola?

Neylər//nedər – Şol başa ki, taci-dövlət endi,
Neylər kəməri, nedər silahı?

Qanda (harada) – Canımı yandırdı sövqün, ey nigarım, qandasan?
Gözlərim nuri, iki aləmdə varım qandasan? [6, s.150].

Qaçan – (haçan) Talibi-zat olan qaçan miltəfiti-sifat olur? [6, s.213].
Huri qaçan bu lütf ilə şirinzəban olur?

Nedim (nə edim) **–** Çəkə bilməm, nedim arami-canım?
Canı nedərəm,neylərəm axı bu cahanı? [4, s.110].

Qanı (hanı) – Qanı bir əhdü peyman, bütün yar?
Qanı bir qövlü gerçək, doğru dildar?

Qanğı (hansı) – Qanğı hərarətdən durur qəmzələri bölükü kim,
Durmaz anın xədənginə min çərinin həzarəsi [4, s.82].

Necə – Şəninə gör canımı kim, necə pərvanədir?

Nəsi – Üzündə abid olmuşdur Nəsimi,
Nəsiminin bu gün cana, nəsidir?

Nümunələrdən göründüyü kimi, sual əvəzliklərinin bəzisi müasir Azərbaycan dili ilə müqayisədə müxtəlif fonetik fərqlərlə (səs əvəzlənmələri ilə) nəzərə çarpır. Bu təbiidir.

2. Sual ədatları ilə yaranan sual cümlələri.

Nəsiminin şeirlərində sual ədatları ilə (-mı, əgər, əcəba, pəs//bəs və s.) yaranan sual cümlələri də çoxluq təşkil edir. Bunlara ayrılıqda nəzər yetirək.

Müasir Azərbaycan dilində ahəng qanununa görə dörd cür yazılan –mı[4] sual ədatı yazılı abidələrdə, eləcə də Nəsiminin dilində bir formada (-mi) yazılmışdır. Cümlə daxilində əlaqədar olan sözdən sonra gəldiyi üçün qeyri-sabitdir. Buna görə də xüsusi bir vurğuya malik deyildir. Bu ədatlar həm ad bildirən sözlərlə, həm də feillərlə işlənir. Məsələn:

-Sözmüdür nəzmi-Hüseyni, ya məgər sehri həlal,
Ya füsun, ya şeirdir, ya hikməti-yunanmıdır? [1, s.90].
-Ləli şərabi şərbəti-kösər degilmidir?
-Yüzün çırağı mehri-münəvvər degilmidir? [1, s.116].

* * *

-Yarəb, ol üzün çırağı şəmi-xavərdənmidir?
-Yarəb, ol sərvin yanağı vərdi-əhmərdənmidir? [1, s.117].
-Cəmalın rövzeyi-rizvan deyilmi?
-Dodağın çeşmeyi –heyvan deyilmi?

Farsmənşəli ***məgər*** ədatı müasir Azərbaycan dilində olduğu kimi, klassik ədəbiyyatımızda da cümlə daxilində sərbəst surətdə sual məzmunu ifadə edir. Nəsiminin qəzəllərində də məgər sual ədatının işləndiyinə çox rast gəlinir:

Məgər həqdən ziyan gördün ki, batil qövlə yapışdın?
Məgər həqqi unutmuşsan ki, oldun dünyaya mail?

* * *

Məgər əndişənin eyni ləbin dövründə var oldu?

* * *

Nədən düşmüş müənbər zülfünə tab,
Məgər şol vəch ilə kim, aya düşmüş?
Fitneyi-dövri-qəmərsən bəs məgər?

Məgər ədatı sual məzmunundan başqa, həm də tərəddüt, təkid, şübhə, səbəb, təəccüb mənaları da yarada bilir.

Xəcil eylər rüxun hüsnilə ayı,
Məgər sən fitneyi axır zamansan? (təəccüb)
Vücudun zati-mütləqdir məgər kim,
Nəyə kim bağırsan anda sənsən (səbəb).

Dilimizin bütün inkişaf dövrləri üçün –mı[4], məgər sual ədatlarının işlənməsi səciyyəvi hal olmuşdur [8, s.392].

Şairin şeirlərində ərəbmənşəli ***əcəba*** ədatı cümlənin əvvəlində işlənərək təəccüb, heyrət mənası bildirməklə yanaşı, həm də sual çalarlığı yaradır. Məsələn:

Əcəba, bu çətin bütin yüzi nəqşi-Azərimi?
Əcəba, Bu pəri yüzli məhin müdir, ya pərimi?
Boyu sərv busitani, yanağı güli təbərimi?

Mənşə cəhətdən farsca olan pəs//bəs sözü də müasir Azərbaycan dilində sual ədatı kimi işlənir. Əsasən sual cümlələrinin əvvəlində gəlir, şeir dilində cümlədə sırası fərqli də ola bilir. Bəs ədatı başqa sözlərlə birlikdə işlənməsi klassik ədəbi nümunələrdə nəzərə çarpır. Bu ədatın bəs

nədən, pəs nədən, bəs nə, pəs neçin və s. formaları da var. Nəsiminin qəzəllərində də bəs və pəs formalarında sual məqamında işlənməsi nəzərə çarpır. Məsələn:

– Dil sənindir, can sənindir, bən bənəm, bəs nəmdurur?

– Küfr əgər iman degilsə, pəs nədən düşmüş ki bən.

– Ey mana nahaq deyənlər, qandadır bəs yaradan?

– Ey vahidi-yeğanə, bəs nişə sən nihansan?

3. Sual intonasiyası ilə düzələn sual cümlələri.

Sual intonasiyası ilə yaranan cümlələr dilimizdə çoxdur. Bu tip sual cümlələrində sual intonasiyasından başqa, sual bildirməyə xidmət edən heç bir qrammatik vasitə iştirak etmir. Ona görə də bu tipli sual cümlələrinin vahid və yeganə əlaməti sual intonasiyasından ibarətdir. Bu sual cümlələri zahirən heç bir cəhətdən nəqli cümlələrdən fərqlənmir. İntonasıyanı dəyişməklə, onları asanlıqla nəqli cümlələr kimi işlətmək olar. Yazıda isə onların sonundakı sual işarələri atılarsa, həmin cümlələr nəqli cümlələr kimi oxunar. Bu o deməkdir ki, belə cümlələrin sual cümləsinə çevrilməsində heç bir qrammatik dəyişiklik edilməmiş, sözlərin sırası, əlaqə vasitələri, bir-birinə münasibəti eyni ilə qalmış, yalnız onların intonasiyası başqalaşmışdır. H.Mirzəzadə də intonasiya ilə qurulan sual cümlələrinin yazılı abidələrdə az işləndiyini qeyd edir [8, s.391]. XX əsrdən sonra ədəbi dilimizdə intonasiya ilə işlənən sual cümlələri işləkliyini artırmışdır.

Sual cümlələrinin bu tipində, məntiqi vurğunun hansı söz üzərinə düşməsindən asılı olmayaraq, xəbərin son hissəsi, bir qayda olaraq, uzadılır və buradan da sual intonasiyası yaranmış olur.

Nəsiminin şeirlərində də sual intonasiyası ilə yaranan sual cümlələrinə az da olsa, rast gəlirik. Belə cümlələrdə sual məzmunu son hecanın uzun tələffüzü ilə yaranmışdır. Məsələn:

- *Ey günəş üzlü, camalın fitnədir?*

-*Ola doğru anın gilində gövtar?*

-*Qoyam adın onun doğru vəfadar? və s.*

Nəsiminin şeirlərində sual əvəzlikləri ilə qurulan sual cümlələri digər klassiklərə nisbətən coxluq təşkil edir. N.Xudiyevin dediyi kimi, Nəsiminin dili dolğun, diferensial sintaksisi ilə Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması dövrünün birinci mərhələsini (XIII-XIV əsrlər) yekunlaşdırdığı kimi, ikinci mərhələsini də başlayır [3, s.239].

ƏDƏBİYYAT

1. Azərbaycan klassik ƏDƏBİYYATı kitabxanası. Bakı: Elm, 1985, 349 s.
2. Xəlilov B. Sintaksis. Bakı, 2018, 361 s.
3. Xudiyev N. Azərbaycan ədəbi dili. Bakı, Elm və təhsil, 2018, 630 s.
4. İmadəddin Nəsimi. Seçilmiş əsərləri: I c. Bakı, Lider, 2004, 334 s.
5. İmadəddin Nəsimi. Seçilmiş əsərləri: II c. Bakı, Lider, 2004, 373 s.
6. Nəsimi. Seçilmiş əsərləri. Bakı: Maarif, 1985, 436 s.
7. Səfərli Ə., Yusifli X. Azərbaycan ƏDƏBİYYATı tarixi. Bakı: Ozan, 2008, 691 s.
8. Tanrıverdiyev Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Elm və təhsil, 2012, 464 s.

РЕЗЮМЕ
ВОПРОСИТЕЛЬНЫЕ ПРЕДЛОЖЕНИЯ, ИСПОЛЬЗОВАННЫЕ В СТИХАХ НАСИМИ И СРЕДСТВА ИХ ВЫРАЖЕНИЯ
Байрамова А. А.

В статье показаны вопросительные предложения и способы их выражения, используемые в стихах Насими. Представлены средства выражения вопросительности в предложениях на конкретных примерах. В некоторых случаях даются соответствующие сравнения для каждого типа.

***Ключевые слова*:** местоимение, интонация, слово, произношение

SUMMARY
QUESTION SENTENCES USED IN NASIMI'S POEMS AND THEIR MEANS OF EXPRESSION
Bayramova A. A.

In the article interrogative sentences and their means of expressions used in Nasimi's poems have been shown. Furthermore, the exact samples have been mentioned to create these means of expressions. Besides that , appropriate comparisons have been made for each type.

***Key words*:** pronoun, intonation, syllable, pronunciation

DİLLƏRARASI ÜNSİYYƏTDƏ "KONSEPT" ("RUH") VƏ "DİL" ("HƏRF") PROBLEMİ

Bünyatova A.B.
Sumqayıt Dövlət Universiteti
ayten.bunyatova@yahoo.com

Xülasə: Ünsiyyət zamanı adresantın konseptosferasında formalaşan dünyanın mənzərəsi dil ilə ifadə olunan diskurs vasitəsilə adresata ötürülür və adresatın konseptosferasında deşifrə olunur. Burada eyni dil daşıyıcıları arasında ünsiyyət nümunəsi kimi olduqca çətin olan mürəkkəb bir koqnitiv prosess baş verir. Bunu dillərarası ünsiyyət nümunəsindən - tərcümə olunmuş materiallardan istifadə edərək daha sadə və aydın şəkildə öyrənmək olar. Tərcümə prosesində əsas rol adresantla münasibətdə adresat qismində çıxış edən, son "istehlakçı" ilə münasibətdə adresant rolunu oynayan tərcüməçiyə aiddir. Məqalədə tərcüməyə və tərcüməçinin şəxsiyyətinə qoyulan əsas tələblər qeyd edilmişdir.

Açar sözlər: linqvokulturologiya, konseptosfer, tərcümə, tərcüməçi, adresant, adresat, dillərarası kommunikasiya.

Konsept və dil sıx vəhdətdə mövcuddur, onları bir-birindən ayırmaq, təcrid olunmuş şəkildə nəzərdən keçirmək mümkün deyil, çünki konsept dil vasitəsilə realizə olunur, dil konsepti əks etdirir. Özü də bu, məsələnin ən üzdə olan tərəfidir. Konseptin formalaşmasında dilin iştirakı vacibdir. İnsan ictimai varlıqdır, o, müəyyən ictimai, sosial, etnik, dil əhatəsində formalaşır və bu əhatə olmadıqda müəyyən konseptosferə malik varlıq kimi formalaşa bilmir.

Konsept şüurda saxlanılır və dil vasitəsilə (sözün ən geniş mənasında) realizə olunur. Konsepti yalnız realizə olunduqdan sonra «görmək», öyrənmək mümkündür. Konseptlə dilin qarşılıqlı münasibətlərini məzmun və formanın qarşılıqlı münasibətləri ilə müqayisə etmək olar. Bu baxımdan yanaşdıqda «konseptsiz dil və dilsiz konsept yoxdur» tezisini səsləndirmək olar.

Xalqın konseptosferini dil daşıyıcılarının hamısının şüurundakı konseptlərin məcmusu adlandırmaq olar. Lakin nəzərə almaq lazımdır ki, hər bir şəxsin fərdi konseptosferindəki konseptlər xalqın konseptosferi ilə qismən üst-üstə düşür, onların hamısını özündə tam əks etdirmir. Buna görədir ki, eyni bir dilin daşıyıcılarının bir-birini mütləq tam başa düşməsi çətindir, yəni bir konseptosferdə formalaşan fikrin realizədən sonra digər konseptosferdə eyniliklə bərpası həmişə qismən olur. Məsələn, ata oğlunu mağazaya çörək almağa göndərir. Mağazada çörəyin növləri çox olduğundan, konsept («çörək») leksik vasitələrlə tam dəqiqləşdirilməyibsə, uşaq «zavod», «kərpic» (ağ, qara, «borodinski», ikinci növ, doğranmış, kəpəkli və s.), lavaş (təndir, kürə, təbriz, yuxa və s.) və s. çörəklərdən istənilən birini alıb gətirə bilər və tapşırığı yerinə yetirdiyini güman edər. Lakin onun aldığı heç də atanın öz konseptosferində nəzərdə tutduğu ilə üst-üstə düşməyə bilər. Bu misaldan görmək olar ki, ən sadə bir konseptin realizədən sonra şifrinin açılması çox vaxt çətinliklə üzləşir. Bu misal eyni bir dilin daşıyıcıları arasında ünsiyyəti, bəsitləşmiş şəkildə də olsa, şərh edir.

Dillərarası ünsiyyətdə isə bu proses daha da mürəkkəbləşir. Müxtəlif dillərin daşıyıcılarının konseptosferləri bir-birindən əsaslı şəkildə fərqli olur. Bunun da əsas səbəbi konsept və konseptosferlərin formalaşma şəraiti ilə bağlıdır. Artıq qeyd etdiyimiz kimi, konsept konkret təbii şəraitdə, etnik özəl əhatədə, konkret dil şəraitində və s. formalaşır, zənginləşir. Və fərqli şəraitdə formalaşan şəxsiyyətin konseptlərinin məcmusu başqa şəraitdə formalaşan şəxsiyyətin konseptosferində formalaşan fikri tam qavramağa, yəni həmin fikri öz konseptosferində bərpa etməyə yetərli olmur. Bu prosesi tərcümə materialları əsasında müşahidə etmək daha məhsuldardır. Daha doğrusu, tərcümə prosesində konseptlərin dil vasitəsilə necə realizə olunması, tərcüməçi tərəfindən dərk olunması, yəni tərcüməçinin şüurunda bərpa olunma, daha sonra tərcümə dilinin vasitələrinin köməkliyi ilə «ilkin» konseptin realizəsi və adresat tərəfindən bu realizənin nəticəsinin «şifrinin açılması» gedir və deyilən mərhələlər konseptin realizə olunması və «şifrinin açılması» prosesini müşahidə etməyə və öyrənməyə real imkan verirlər.

Konsept, onun realizə olunması, dərki və başqa dilin vasitələri ilə bərpası problemi yeni deyil. Dillərarası ünsiyyətdə bu istiqamətdə böyük təcrübə toplansa da, bu ünsiyyətdə fəal iştirak edən tərcüməçilər arasında nəyi çatdırmağın daha vacib olması ətrafında mübahisələr həmişə getmişdir. Onlar «konsept», «konseptosfer», «diskurs» və s. bu kimi müasir terminoloji aparatdan istifadə etməsələr də, onların işlətdikləri məfhumlar əslində hazırda işlədilənlərlə məna tutumuna görə səsləşir.

XX əsrdə tərcüməyə iki yanaşma fərqləndirilirdi. Dilçilər dil vasitələrininin «çatdırılmasını», ƏDƏBİYYATçılar isə məzmunun «çatdırılmasını» daha vacib hesab edirdilər. Tərcümə nəzəriyyəsində bu, «hərf» (forma) və «ruh» (məzmun) problemi kimi meydana çıxsa da, ümumi şəkildə bu, məzmunun, yoxsa formanın vacibliyi haqqında mübahisə şəklində təzahür edirdi. Amma bu bölgü nə dərəcədə vacibdir? Əgər məzmunsuz forma, formasız da məzmun yoxdursa, tədqiqatçı və tərcüməçi yanaşmasında kəskin hədd qoymaq, onlarda hər hansı birini önə çəkmək nə dərəcədə düzgündür?

Aydındır ki, «bədii əsərin məzmunu yalnız onda deyilən deyil, həm də deyilməyən, yalnız nəzərdə tutulan, yalnız mətndə deyil, həm də sətiraltı səviyyədə işarə ediləndir» [4, s. 171]. Bədii əsərin məzmunu yalnız sözlər və cümlələrdə ifadə olunmuş «maddi hissə»dən ibarət deyil. Məzmun

deyim tərzi (təntənəli, sakit, düşüncəli, kinayəli və s.) ilə də müəyyənləşir. Deyim tərzinin dəyişməsi məzmunun da dəyişməsinə səbəb olur.

Məzmun yalnız dillə ifadə hüdudlarında mövcud olduğundan dil vasitələrinin xarakteri məzmunla müəyyənləşir, amma məzmunun dəqiqliyi də dil vasitələrinin xarakteri ilə müəyyənləşir.

Poetik mətnin yalnız mənasının qavranılması yetərli deyil, həm də hissi-assosiativ oxunuşu da lazımdır, çünki tərcüməçi yalnız sözləri deyil, həm də obrazlı assosiasiyaları da çatdırmalı olur.

Tərcümə haqqında yüzlərlə sanballı kitablar yazılsa da, onların çoxunda əsasən bədii tərcümənin xüsusiyyətləri ön plana çəkilir, Başqa növ materialların tərcümə problemlərinə isə daha az diqqət yetirilir. Bununla belə, həmişə bir prinsip əsas diqqət mərkəzində qalır: bir konseptosferdə formalaşmış məzmun dil vasitəsilə realizə olunur və adresatın (tərcüməçi) şüurunda qəbul edilərək şifri açılır, daha sonra adresat adresanta çevrilir – öz konseptosferində bərpa olunmuş «mənzərəni» başqa dilin vasitələrinin köməkliyi ilə şifrələyir.

Tərcümə dualizminin təhlili zamanı istifadə olunan metodlara tərcümə fəlsəfəsinə aid nəzəriyyələrin kritik analizi, ilkin və tərcümə mətnlərinin dil vahidlərinin müqayisəli təhlili, həmçinin kontekstual struktur-semantik və leksik-semantik təhlilləri aid etmək olar. Linqvokulturoloji adaptasiya strategiyalarının təbiətini anlamaq məqsədilə tərcümə tədqiqatlarında linqvokulturoloji aspektlər, tərcümə hermenevtikası, müasir tərcüməşünaslığın açar problemləri, onun əsas inkişaf tendensiyaları, tərcüməçinin "görünüb-görünməməsi" problemlərinin təhlili XX ikinci yarısında mütəxəssislərin diqqət mərkəzində olmuşdur. Tədqiqatın nəticələri müxtəlif növ bədii, publisistik, işgüzar və elmi səciyyəli mətnlərin tərcümə problemlərinin öyrənilməsində istifadə oluna bilər.

Mətnin linqvokulturoloji adaptasiyası termini adətən tərcümə mətninin onu qəbul edən linqvomədəniyyətin mahiyyətinə yazılması kimi təyin edirlər. Lakin biz hesab edirik ki, linqvokulturoloji adaptasiyanın iki istiqaməti var. Bir tərəfdən o orijinalın linqvomədəniyyətinə istiqamətlənə bilər. Digər tərəfdən isə tərcümə olunduğu linqvomədəniyyət yönümlü ola bilər. Onun istiqamətinə baxmayaraq, mətn həmişə iki mədəniyyətin və iki dilin qarşılıqlı əlaqəsinin təsiri altında adaptasiya olunur. bu yerdə belə bir sual doğur: Bu yanaşmaların hansı daha doğrudur, məqsədəuyğundur?

Güman edirik ki, bu, birinci növbədə «qavrayıb çevirənin» qarşısında duran məqsədlə müəyyənləşir. Bu fikri İdris Şahın deyimindən də görmək olar. O yazır: «Bir tərcüməçi sufii şeyxinin yanına gəlib İdris Şahın kitabının tərcüməsini redaktə etməyi xahiş edir.

Şeyx razılaşır.

«Əziz dost, - şeyx dilləndi. – Sufilər öz ƏDƏBİYYATlarını əyləndirici yox, təsirli hesab edirlər. Onun təsir etmək qadiliyyətinin tərcümədə itməməsi üçün tərcüməçi həmin ƏDƏBİYYATın *özünün çıxış etdiyi prinsipləri* əldə rəhbər tutmamalıdırmı?» «Sizin nəyi nəzərdə tutduğunuzu başa düşürəm,- tərcüməçi ehtiramla cavab verdi.- Buna görə də mən mənaya xələl gətirməmək üçün mətnin orijinalına olduqca ehtiyatla yanaşmışam».

«Məsələ də elə bundadır.- Şeyx gülümsündü və tələsmədən çay fincanını dodaqlarına yaxınlaşdırdı.- Orijinalın mənasının təhrif olunmaması üçün mətnlə, onun hərfi mənası ilə işdə müəyyən sərbəstlik lazımdır. Məna hər dəfə yenidən təkrar yaradılmalıdır – həmin yer, vaxt və adamlara daha yaxşı tətbiq oluna bilən formada. Bizim elmimizin əsas prinsiplərindən biri belədir» [1, s. 11-14]. Bu fikir məşhur rus tərcüməçisi K.Çukovski konret belə bildirir: «Hərfi tərcümə bütün tərcümələr arasında ən yalançısı, orijinal mətndən ən uzaq olanıdır. Zəngin lüğət tərcüməçiyə məhz hərfi tərcümə etməmək üçün lazımdır. Bu, dialektikanın adi paradoksudur: əgər orijinala

yaxınlaşmaq istəyirsənsə, onun söz örtüyündən mümkün qədər uzağa çəkil və onun əsas mahiyyətini – onun fikrini, onun üslubunu, onun pafosunu tərcümə et» [5].

Orijinalın və tərcümənin arasında dil və mədəniyyət müxtəlifliyinin olması ilkin mətnin tərcümə edilməsinin mümkün olmaması ideyasının yaranması ilə nəticələnmişdir. Belə bir məşhur deyim var: ”İnsanın taleyi, üstünlüyü və şərəfi heç vaxt fikirləşdiyini əldə etməməsidir...O həmişə məğlubiyyətə gedir, hələ döyüşdən qabaq gicgahından bir güllə ilə vurulur” [3, s. 341]. Lakin tərcümə olunmayanlar (tərcüməsi mümkün olmayan mətnlər) probleminə daha nikbin baxışlar da mövcuddur. Məsələn, U.Eko hesab edir ki, tərcüməçi özü yaxşı bilir “tərcümə etmək mümkün deyil” və tərcüməçi yalnız demək olar ki, eyni şeyi deyə bilər. O, tərcüməçidən orijinala tam uyğunluq tələb etmir və qeyd edir ki, hər hansı tərcümə təxmin edilən düzgünlük nüvəsi ətrafında qeyri-düzgün olanların sərhədlərini göstərir. Lakin bu nüvənin yerləşməsinin və bu sərhədlərin hüdudları barədə verilən qərar tərcüməçinin qarşısında qoyduğu məqsədlərdən asılıdır [6, s. 17].

Beləliklə, müasir tərcümə tədqiqatçıları belə bir qənaətə gəlirlər ki, tərcümə olunmayan əsərlər yoxdur, lakin hər bir mətndə tərcümə olunmayan elementlər var. Tərcümədə tərcümə olunmayanlar problemi, daha dəqiq desək, orijinal ilə tam eyni tərcüməyə nail olmağın mümkün olmaması, tərcümədə məna və forma itkilərinin qaçılmaz olması tərcüməçilik dualizmi adlanan iki əks tərcümə strategiyalarının yaranmasına şərait yaratmışdır.

Sinxronik və diaxronik aspektlərdə tərcümə strategiyası tərcüməçinin hərəkətlərinin ümumi planı kimi başa düşülür. O, məqsədə çatmaq üçün tərcüməçinin qarşısına qoyduğu prinsipial məsələlərdir. Biz tərcüməçi strategiyasını əbədi tərcümə dualizmi nöqteyi-nəzərdən baxırıq. Bu dualizm hələ Siseron və İyeronin tərəfindən verbum *e verbo (sözlə söz) və sensum exprimeve de sensu (məna ilə məna)* kimi müəyyənləşdirilmişdir. Müasir tərcümə nəzəriyyəsində müxtəlif qütblü strategiyalar hesab edilən hərfi və sərbəst tərcümələr fərqli şəkildə təyin olunur. Belə ki, ingilisdilli ƏDƏBİYYATlarda onlar tərcümə kimi tutuşdurulur: word for word/sense for sense, literal/free, target-oriented/source-oriented, domestication/foreignization. Rusdilli ƏDƏBİYYATlarda onları forma strategiyaları və məna strategiyaları adlandırırlar.

Verilən tərcümə strategiyalarının qütblülüyü və qeyri-mükəmməlliyi üçüncü strategiyanın “qızıl orta” strategiyasının yaranmasına səbəb oldu. Onun əsasında forma və məzmun arasında ortaq məxrəcin tapılması ideyası dayanır.

İki əks strategiyalar barəsində fikrini ilk söyləyənlərdən biri XVII əsrdə C.Drayden olmuşdur. O, tərcüməçinin qızıl ortaya çatması üçün qaydalar düşünür. Bu qaydalara əsasən tərcüməçi orijinalın mənasını qoruyub saxlamalıdır, müəllifi oxucunun dili ilə danışmağa vadar etməlidir, orijinalı hərfi mənada tərcümə etməlidir ki, onun mənasını itirməsin, orijinalın cəlbediciliyini onun mənasına xələl gətirmədən saxlamalıdır. A.Taytler isə öz növbəsində, bir-birinə əks tərcümə strategiyalarını nəzərdə tutaraq təkid edir ki, əsl mükəmməlliyi onların arasında axtarmaq lazımdır.

Lakin V.Humboltd və F.Şleyermaxer qızıl ortanın tapılmasını qeyri-mümkün hesab edir. V.Humboldtun iki “sualtı daşlar” haqqında məşhur deyiminə əsasən tərcüməçi mütləq onlara çırpılacaq. Xarici mətnin iki adaptasiya üsulu arasında orta nəyinsə olması, onun fikrinə əsasən, mümkün deyil. F.Şleyermaxer isə öz növbəsində qeyd edirdi ki, iki strategiyadan yalnız biri seçilməlidir, yoxsa oxucu və müəllif ümumiyyətlə görüşməyə də bilər. Strategiyaların bir-birinə əks qoyulması T.Savorinin “paradokslar” adlandırdığında öz əksini tapmışdır. Onlardan biri belə səslənir: “Tərcümə tərcümə kimi oxunmalıdır” / “Tərcümə orijinal kimi oxunmalıdır” [8]. Lakin təcrübədə tərcüməçi intuisiyaya əsaslanaraq “qızıl ortanın” tapılmasına cəhd edir. Bu, müasir tərcümə nəzəriyyəsində öz əksini tapmışdır. Bu yolla adekvat tərcümə, realist tərcümə, tam dolğun

tərcümə, bütöv tərcümə, düzgün tərcümə, bədii dəqiqlik konsepsiyaları yaranır. Bütün adı çəkilən konsepsiyalar ortaq məxrəc tapmağa istiqamətlənmişdir. Yəni onlar həm həddindən artıq hərfilik, həm də həddindən artıq sərbəstlikdən qaçmağa çalışır. Bu halda artıq üç strategiyadan danışmaq olar.

Lakin bizim fikrimizcə, bütün adı çəkilən strategiyalar ideal anlayışlardır və yalnız tərcümə nəzəriyyəsində mövcuddur. Təcrübədə isə onlardan istifadə olunmur. Tərcüməçilər strategiyaların birinə üstünlük versələr də əslində hər üçündən müxtəlif dərəcədə istifadə edirlər.

Hesab edirik ki, linqvokulturoloji adaptasiya strategiyası orijinalın və tərcümənin semantik yaxınlaşma və ya uzaqlaşması və tərcümə mətnində başlanğıc strukturların sintaktik quruluşunun saxlanılması və ya dəyişdirilməsi prosesində aydın görünür. Bu və ya digər linqvokulturoloji adaptasiya strategiyaların əlamətlərini aşkar etmək üçün, zənnimizcə, iki təhlil növündən - leksik-semantik və struktur-sintaktik – istifadə etmək daha məqsədəuyğundur. Leksik-semantik təhlil başlanğıc vahidlərin semantikasını və onların tərcümə olunmuş variantlarının ardıcıl müqayisəsindən ibarətdir.

Əgər Azərbaycan və ingilis dillərindəki materialların bu iki dil arasında tərcüməsi məsələləri nəzərdən keçirilirsə, təhlildə ingilis və Azərbaycan dillərində izahlı lüğətlərdən istifadə olunmalıdır. Təhlil orijinalın və tərcümə mətnlərinin semantikasının yaxınlaşma və ya uzaqlaşma dərəcəsini müəyyən etməyə istiqamətlənir. Bu kimi problemlərin poetik tərcümə əsasında nəzərdən keçirilməsi problemin xüsusilə dərindən və bariz işıqlandırılmasına rəvac verir. Buna görədir ki, tərcümədə məzmun və forma vəhdətinin saxlanılmasına diqqət yetirən tədqiqatçılar əsasən poetik tərcümədən olan misallar üzərində dayanırlar.

Bir həqiqəti yəqin etmək lazımdır ki, şeiri tam olduğu kimi başqa dildə çatdırmaq, canlandırmaq mümkün deyil, heç olmasa ona görə ki, tərcümənin oxucusu dəyişir, ünvan dəyişir, tərcümənin oxucusunun öyrəşdiyi poetikadan fərqli bir poetika ona təqdim olunur.C.Məmmədov qeyd edir: «Tərcüməçi yalnız ayrı-ayrı sözləri, ifadələri, sətirləri deyil, onlardakı bitkin canlı fikri tərcümə etməlidir, o, orijinalın əsas fikrini açmalı və bütün işini müəllifin bu ideyasının, əsas fikrinin mümkün qədər daha parlaq, daha dolğun ifadə olunmasına tabe etdirməlidir» [2, s. 91-94].

ƏDƏBİYYAT

1. Идрис Шах - Волшебный монастырь (сборник). Издательство: Совпадение.ISBN: 5-85302-202-4. 215 с.
2. Мамедов Дж. Русские поэты об Азербайджане. Литературный Азербайджан, 1955, №8, с.93-94.
3. Ортега-и-Гассет. Х Нищета и блеск перевода / Хосе Ортега-и-Гассет // Что такое философия. М., 1991. - с. 336-352.
4. Финкель А. 66-й сонет в русских переводах / Мастерство перевода. 1966. М.: Советский писатель, 1968, с.161-182.
5. Чуковский К. Бедный словарь и богатый словарь. Литературная газета. 1963, 20 июля.
6. Эко У. Сказать почти то же самое. Опыты о переводе / У. Эко. -СПб.: symposium, 2006.
7. Mounin G. Les belles infidels / G. Mounin. P., 1955.
8. Savory Th. The Art of Translation / Th. Savory. London, 1968.

РЕЗЮМЕ
ПРОБЛЕМА «КОНЦЕПТ» («ДУХ») И «ЯЗЫК» («БУКВА») В МЕЖЯЗЫЧНОЙ КОММУНИКАЦИИ
Бунятова А. Б.

При коммуникации сформированная в концептосфере адресант картина мира передается адресату через дискурс, созданный посредством языка, и раскодируется в концептосфере адресата. Здесь происходит сложный когнитивный процесс, который проследить на примере коммуникации между носителями одного языка крайне сложно. Проще и нагляднее это можно исследовать на примере межъязыковой коммуникации - на примере переводных материалов. В процессе перевода ключевая роль принадлежит переводчику, который по отношению к адресанту выступает адресатом, а по отношению к конечному «потребителю» выступает в качестве адресанта. В статье излагаются основные требования, предъявляемые к переводу и личности переводчика.
Ключевые слова: лингвокультурология, концептосфера, перевод, переводчик, адресант, адресат, межъязыковая коммуникация

SUMMARY
THE PROBLEM OF "CONCEPT" ("SPIRIT") AND "LANGUAGE" ("LETTER") IN INTERLINGUAL COMMUNICATION
Bunyatova A. B.

In communication, the addressee formed in the conceptual sphere of the addressee is transmitted to the addressee through a discourse created by means of the language, and decoded in the conceptual sphere of the addressee. A complex cognitive process takes place here, which is extremely difficult to trace using the example of communication between speakers of the same language. This can be explored easier and more clearly by the example of interlanguage communication - by the example of translated materials. In the translation process, the key role belongs to the translator, who acts as the addressee to the addressee, and acts as the addressee to the final “consumer”. The article sets out the basic requirements for the translation and the identity of the translator.
Key words: linguoculturology, concept sphere, translation, translator, addressee, addressee, interlanguage communication

EXCEL&VBA–DA MACROSLARIN ÖYRƏDİLMƏSİ TEXNOLOGİYASI

Bəşirova Q. İ.
Azərbaycan Dövlət Pedaqoji Universiteti
qoncabashirova@yahoo.com

Xülasə: Macroslar görulən hər hası bir işi dəfələrlə bir duymə vasrəsi ilə istənilən səhifədə təkrarlayaraq istifadəçinin işini yüngulləşdirən vastədir Macroslar bütün tətbiqi proqramlarda realizə olunub.

Macroslar bütün tətbiqi proqramlarda realizə olmasına baxmayaraq macroslardan ən çox Microsoft Access və Microsoft Excel tətbiqi proqramlarda istifadə olunur.Yaradılmış hər hansı

düymə vastəsi ilə görulmüş n sayda addimları bir macroda yadda saxlayıb lazim olduqca dəfələrlə təkrarlamaq mümündür

Macrosların belə bir özəliyinin olmasına baxmayaraq orta məktəblərdədə və ali təhsil ocaqlarında Excelin bu bəndi lazımınca tədris olunmur.

Açar sözlər: Makrolar, Visul Basic, Fərdi Şerit, Seçimlər, Gəliştirici, Yazı Makrosları Metodları

Macrosları iki üsulla yaratmaq olur :

1-ci üsul ya Excel səhifəsində macroslarları açıb addimları yerinə yetirirlər sonar isə Visul Basicin kod hissəsinə keçib modul daxilində bütun edilmiş addımların VBA dilində yazılışını görürük.

2-ci üsul Visul Basicdə İnsert menyusundan modul yardırıq. layihə pəncərəsində yaradilmış modulun kod sətirini aktivləşdirib isrənilən səhifəyə müraciət edərək macroslar yaradırıq.

Exseldə macroslarla iş görmək üçün əvvəl Excelin lent başlığında bəzi işləri yerinə yetirmək lazımdır.Adi istifadəçi üçün bu lent başlığı elə də önəmli deyil. Lakin biz macroslarla və kod sətirlərinə müraciət etdiyimiz üçün biz lent başlığını sazlamalıyıq. Bunu üşün fayl menyusunu açib açılan pəncərədən "**OPTİONS**"-alt kateqoriyasını aktivləşdiririk, açılan pəncərədən "**CUSTOMİZE RİBBON"**-ni aktivləşdiririk. Sağ tərəfdə açılan pəncərədən isə "**CUSTOMİZE the RİBBON"** pəncərəcindən lent başlığının qarşısında qeyd işarəsini aktivləşdiririk OK düyməsini sıxırıq Yenidən Microsoft Excel tətbiqi proqramını yüklədikdə lent başlığında **"DEVELOPER"** başlığını görəcəyik. İndi macrosla işləyə bilərik:Macroslarla isləmək üçün ya,1- **VİEW** lent başlığından **MACROS** sonra ise **RECORD MACROS,** 2- **DEVELOPER** lent başlığından **MACROS** sonra ise **RECORD MACROS**

İndi hər hansı bir üsuldan istifadə edərək bir macro yaradaq: Bunun ücün əvvəlcədən nə etmək istediyimizi planlaşdirmalıyıq yəni texniki layihə hazırlamalıyıq: Deyək ki, Universitetlərdə oxuyan tələbələrdən bəziləri haqınqda məlumat toplayıb onları hər hansı bir bölmə üzrə hazırlığa göndərmək lazımdır. İndi isə tələbələr haqqinda məlimat cədvəli hazırlayaq

Excel kitabinin hər hansı bir sehfəsində məsələn Sheet1-də nə edəcəyimizı planlaşdırırıq

Sonra cədvəli yerləşdirəcəyimız məsələn Sheet3 səhifəsində cədvəlin quruluşunu tərtib edib yenidən Sheet1-ə qayıdıb macrosumuzu yaradırıq



Şəkil.1



Şəkil.2

Macromuzun adi Cedvel qisa yolu Ctrl+c duyməsi oldu



Şəkil.3



Şəkil.4

Bu macroda biz tələbə haqqinda olan məlumatı Copy etdik Sheet3 -ə keçib onu ufiqi vəziyyətdə cədvələ yerləşdirdik sonra bütün yaziları Bold daha sonra İtalik şiriftin ölçüsünü 14

fonu sarı şiriftləri isə qirmizi etdik. Yenidən Sheet1-ə qayidib cədvəli təmizlədik ki növbəti tələbə haqqinda məlumatları yazmaq olsun.Bütün bu addımları bir düymə vastəsi ilə yerinə yetirək



Şəkil.5.

Biz bu macromuzu düzəltdikdən sonra onu fərqli yaddaşda saxlamalıyıq ki bizə lazım olduqda ondan istifadə edək. Onu Excel kitabı kimi yaddaşa versək onda macrolarımızı itirmiş olacağıq.Makrosları itirmədən yaddaşa vermək üçün **File-Save as** açılan pəncərədən macromuza ad verib **Save as type** hissəsində **Excel Macro Enabled Workbook** və **Save** edib yaddaşda saxlayırıq Biz işimizi daha da yüngülləşdirmək üçün bu macronu bir düyməyə bağlayaq. Buna görə **Developer İnsert Form Controls** hissəsindən bir düymə seçib Exsel səhifəsində alınan" + " işarəsi ilə düzbucaqlı çəkib adını istədiyimz kimi dəyişdiririk.

İndi isə həmin düyməni yaradaq.

Yəni bundan sonra n qədər əməliyyatı bir düyməni sıxmaqla yerinə yetirəcəyik.



Şəkil.6



Şəkil.7

Indi isə bizim etdiyimiz bütün bu addimların Visul Basic (VBA)-dəkı kodlarına baxmaq ücün Developerdə Visua Basic hissəsinə baxaq.

Yəni macros aktiv olan zaman bizim etdiyimiz bütün addimlar proqram kodları şəkilində yazılır.



Şəkil.8

Düşünürəm ki, İnformatika müəllimləri Excel tətbiqi proqramini tədris edən zaman macrosların öyrədilməsinə də müəyyən qədər zaman ayırsalar şagirdlərdə proqramçılıq peşəsinə maraq yarda bilərlər

Makroslarla işləyən zaman aşağıdakıları *mütləq* nəzərə almaq lazımdır:

İstifadəçi tərəfindən yazılmış makroslar istifadəçinin və Excel-in "səhvlərini" yadında saxlayır və müəyyən şəraitdə bu "səhvlər" üzə çıxa bilər. Bu səbəbdən makros müxtəlif şəraitlərdə yoxlanılmalıdır.

Makrosu yazmamışdan öncə, istifadəçi yaxşı düşünülmüş əmr ssenarisi hazırlamalıdır. Bu əmr ssenarisində makrosun unversallıq və optimallıq məsələləri önə çəkilməlidir.

Çoxsaylı əmrlərdən ibarət makroslarda "çoxsaylı" səhvlərin olma ehtimalı artır.

Makroslar yalnız VB redaktorunda uyğun dəyişikliklər olunandan sonra "intelektual" mahiyyət daşıya bilər.

VBA proqralaşdırmada zəruri biliklərə malik olmayan istifadəçinin mühafizəsi olmayan makros ları və ya prosedur/funksiyaları dəyişdirməsi qətiyyən yol verilməzdir. Çünkü "qaş düzəltmək əvəzinə göz çıxara bilərlər"

ƏDƏBİYYAT

1. Q.Bəşirova. Müasir proqramlaşdırmanin əsasları: EXCEL&VBA. Bakı-2018
2. Кен Гетц, Майк Джилберт. Програмирование в Microsoft Office. Польное руководство по VBA. Издательство "Вильямс", 2008
3. Партика Т.Л., Попов И.И., Голицына О.Л. Языки программирования. М: Форум Инфра, 2008, 400 с.
4. Грэхем И. Объективно-ориентированные методы. Принципы и практика. 3-е изд. М: «Вильямс», 2004, 880 с.
5. Пышкин Е.В. Основные концепции и механизмы объектно-ориентированное программирования. BHV-Санкт-Петербург, 2005, 640 с.
6. Иванова Г.С., Ничушкина,Т.Н., Пугачев Е.К. Объектно-ориентированное программирование. МГТУ им. Н. Э. Баумана, 2007, 316 с.

РЕЗЮМЕ
ТЕХНОЛОГИЯ ОБУЧЕНИЯ МАКРОСАМ В EXCEL&VBA
Баширова Г. И.

Макросы обширны, упрощая работу пользователя, повторяя любую работу, выполняемую на любой странице снова и снова, одним касанием.

Ключевые слова: *Макросы, Visul Basic, лента настройки, параметры, разработчик, методы записи макросов.*

SUMMARY
MACROS TEACHING TECHNOLOGY IN EXCEL & VBA
Bashirova G.I.

Macros are vast, simplifying the user's work by repeating any work done on any page over and over again with a single touch.

Key words: Macros, Visul Basic, Customize Ribbon, Options, Developer, Record Macros Methods.

İNGİLİS DİLİNDƏ İDİOMLARININ TƏDRİSİNƏ DAİR

Hacıyeva G.K.
Azərbaycan Dillər Universiteti
gunel_sm@yahoo.com

Xülasə: Bu tezisdə söhbət ingilis idiomlarının tədrisindən və dilin öyrənilməsində onların təsir effektivliyindən söhbət açılır. Səmərəli metodlardan biri olan ingilis metodlarının ana dildəki idiomlarla müqayisəli öyrənilməsi tələbələr üçün yadda qalan və maraqlı metoddur. Doğma dili ingilis dili olmayan tələbələrə ingilis idiomlarının ekvivalentlərlə tədrisi onların bu sahədə

biliklərini inkişaf etdirəcək. Burada sərgilənən uyğunluq xalqların dünyagörüşü, yanaşması, sosial-mədəni həyat tərzinin bənzərliyi ilə müşayiət oluna bilər. Bu metod ingilis idiomlarının Azərbaycan dilindəki ekvivalentləri ilə müqayisəli tədrisi üçün əhəmiyyətlidir.

Açar sözlər: milli dəyər göstəricisi, tədrisin effektivliyi, məcazlaşmış ifadələr, qarşılıqlı uyğunluq, mürəkkəb ingilis idiomları

"İdiom" yunan sözü olub "İdios" "özünün, məxsusi" mənalarını ehtiva edir, "İdiotes" isə nəyinsə "fərdi xüsusiyyəti" mənasını verir. Dil ilə bağlılıqda bu, nitqin özünəməxsus ifadə anlamını verir. Əvvəllər yunan dilindən alınmış bu sözün müasir "idiom" variantı deyil, "idiomatizm" variantı istifadə edilmişdir. Sonralar kobud mənasına görə "idiotizm" sözü "idiom" alınması ilə əvəz olunmuşdur. Mənbə dildəki mənasından göründüyü kimi idiomlar özünəməxsus, ayrıca mənası olan sözlərdir. İdiom daimi kontekstin vahididir. İdiom tam məna ilə səciyyələnir. Ç.Hokket idioma və idiomatikliyə böyük diqqət yetirərək, "idioma" terminini hər şeyi əhatə edən leksikoqrafik və sintaktik hadisələrin təsbiti üçün istifadə edir və qeyd edir ki, bu hadisələrin struktur baxımından mənalarını qabaqcadan xəbər vermək mümkün olmur [2, s.175]. F.Xauzholder idiomu "əsas və elementar vahid" kimi səciyyələndirir. O, yazır ki, idiom əsasında cümlə yaranır [1, s.93]:

He is gone. – O həlak olub.; He is used. – O adət edib [3, s. 52].

U.Çeyfin "idiom" anlayışı haqqında orijinal bir konsepsiyası vardır. U.Çeyf qeyd edir ki, dildə idiom mövcudluğu şübhəsizdir. İdiomlar dil hadisəsidir, haşiyələrdə yazılmış olsa da, linqvistika onun izahını tapmalıdır. U. Vaynrayx idiomu frazeoloji vahid kimi şərh edir. O, izah edir ki, idiom ən azı iki idiomu frazeoloji vahid kimi şərh edir. O, izah edir ki, idiom komponentdən ibarət olur və orada əks kontekstual mənaların seçilmə imkanı var:

broad smile - ədəbsiz təbəssüm; bright victory – parlaq qələbə; brave decision – cəsarətli qərar; dreary speech – cansıxıcı nitq

İdiomatik ifadələr iki və ya üç söz, bəzən dörd və daha artıq sözlərin birləşməsindən ibarət olur:

half-hearted consent – yarıkönül razılıq; in his heart of hearts – ürəyinin dərinliyində; matter of life and death – ölüm-dirim məsələsi

Belə birləşmələrdəki sözlərin hamısı, yaxud müəyyən qismi müstəqilliyini ya tamamilə, ya da qismən itirmiş olur. Buna görə də idiomatik ifadələrin bəzisi öz lüğəvi müstəqilliklərini itirmiş olan sözlərdən düzəlir və üzvlərinə ayrılmayan vahid halında birləşib sabitləşmiş olurlar. Belə idiomatik ifadələri sabit, dəyişməz ifadələr adlandırırıq.

İngilis idiomlarının tədris effektivliyini artıran metodlardan biri və ən səmərilisi bu ifadələrin ana dili ilə müqayisədə öyrədilməsidir. İngilis idiomlarının ana dildəki idiomlarla müqayisəli öyrənilməsi tələbələr üçün həm maraqlı, həm də yadda qalan metoddur. İngilis dili ana dili olmayan tələbələrə idiomları Azərbaycan dilində verilən ekvivalentlərlə tədris etmək onların ingilis dili üzrə dil biliklərinin inkişaf etdirilməsinə birbaşa xidmət göstərəcək. Çünki ana dili ingilis dili olmayan tələbələr istər mətnlərdə, istər gündəlik həyatlarında daha mürəkkəb məcaziləşmiş elə ifadələrə rast gələ bilərlər ki, bu da həmin strukturların dərk olunmasına əngəl yarada bilər. İngilis idiomlarının müəyyən faizi hərfi tərcümə ilə başa düşüləndir. Bu qarşılıqlı uyğunluq xalqların dünyagörüşü, hadisələrə oxşar tərzdə yanaşması, sosial-mədəni həyat tərzinin bənzərliyi səbəb ola bilər. Belə ümumi və oxşar cəhətlər haqqında L.İ.Royzenzon və Y.Y.Aveliani yazırlar: "Sözsüz ki, müxtəlif dillərdəki bu cür yaxın idiomların meydana çıxmasında təsadüf ola bilməz; belə oxşar ifadələrin yaranmasında ümumi meyl, qanunauyğunluqlar, müəyyən amillər olmalıdır [4, s.91] ". Məsələn:

center of attraction - diqqət mərkəz; in a jiffy of an eye - bir göz qırpımında; from a point of view - baxış nöqtəsindən (bucağından); softhearted man - ürəyiyumşaq adam.

A speeding taxi will get you to your destination ***in a jiffy of an eye****.; Ther were many movie stars at the premiere, but the leading lady was the* ***center of attraction****.; You can refer to the opinions or attitudes that you have about something* ***from your point of view****.;* ***Softhearted people*** *are highly sensitive people.*

Lakin hər hansı tarixi, dini və ya mifik hadisəyə söykənən, dərk olunması çətin olan, "milli dəyər göstəricisi" xüsusiyyətini özündə cəmləyən mürəkkəb ingilis idiomlarının məhz azərbaycan ekvivalentlərilə tədrisi bu baxımdan zəruridir:

a fly in the ointment (a problem) – çətin, mümkün olmayan bir şey; a taste of his/her own medicine (to do something bad to someone after the other person has done the same bad things) – bir kəsin sənə etdiyi pisliyin əvəzini vaxtı gələndə çıxmaq, bir kəsə öz kartı ilə cavab vermək; over the hill (getting too old, unable to function as one used to) – qocalıb əldən düşmüş, havası çalınmış/vaxtı keçmiş; once in a blue moon (almost never, very seldom) – nadir hallarda, hərdənbir; a man/a woman on Friday (someone who does a large variety of tasks on the job) – işin çətin hissəsini görən adam kişi və ya qadın.

I hurried to get to the game on time, but there was ***a fly in the ointment****.; Bob always played tricks on John. Then one day, John played a trick on Bob and it was* ***a taste of his own medicine****.; Many athletes try to retire before they got* ***over the hill****.; We see her only* ***once in a blue moon****.; What we need in this office is* ***a man on Friday****.*

Eyni zamanda müəllimlər ingilis idiomlarının Azərbaycan dilində verilən ekvivalentlərlə uğurlu tədrisinə nail olmaq istəyirlərsə, hər dörd aspektdə, dinləmə, danışma, oxuma və yazma fəaliyyətlərində onların tətbiqini həyata keçirmələri münasib ola bilər. Müxtəlif fəaliyyətlərlə təmin edilmiş kontekstlər idiomatik ifadələrin fərqli şəkillərdə tətbiq olunmasına və istifadəsinə, həmçinin tələbələr tərəfindən mənimsənilməsinə uyğundur. Bu məcazlaşmış ifadələrin oxuma, yazma, dinləmə və danışma fəaliyyətləri ərzində Azərbaycan dilində müzakirəsi İngilis dili öyrənənlərin daha yüngül təcrübə keçərək, dili daha rahat qavramalarına müvəffəq olmağa səbəb olacaqdır. Bəlli olduğu kimi, mənasını anlamaq üçün idioma dair yalnız hərfi-lüğəvi bilik kifayət etmir, bir çox hallarda onun mənşəyinə, tarixinə istinad olunur. Bu da özlüyündə ingilis idiomlarının Azərbaycan dilində verilən ekvivalentlərlə tədrisini aktuallaşdırır.

ƏDƏBİYYAT

1. Alice Maclin. Reference Guide to English: A Handbook of English as a Second Language. USA, Washington, 1996, p.93
2. Gardiner A. The Theory of Speech and Language. Oxford, Clarendon Press, 1987, p.175
3. Latif Maharramov, Fiala Abdullayeva. Many a Little Makes a Mickle. Baki, Poliqrafiya İstehsalat Müəssisəsi "Təhsil", 2002, p.52
4. Ройзензон Л.И. Авалиани Ю.Ю. Современные аспекты изучения фразеологии. – Проблемы фразеологии и задачи ее изучения в высшей и средней школе. Вологда, 1967.

РЕЗЮМЕ
ПО ОБУЧЕНИЮ ИДИОМОВ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ
Гаджиева Г. К.

Этот тезис, посвящена преподаванию английских идиом, методу, повышающему эффективность их обучения. Сравнительное изучение английских идиом с идиомами родного языка - интересный и запоминающийся метод для студентов. Обучение идиомам студентов, для которых английский не является родным, с азербайджанскими эквивалентами будет напрямую способствовать развитию их навыков английского языка. Такая взаимная совместимость в обоих языках наблюдается у народов со схожими мировоззрениями, общими тенденциями, закономерностями. Конечно, это актуально для сравнительного обучения английским идиомам с их азербайджанскими эквивалентами.

Ключевые слова: показатель национальной ценности, эффективность обучения, метафорические выражения, связность, сложные английские идиомы

SUMMARY
ON THE TEACHING OF IDIOMS IN ENGLISH
Hajiyeva G.K.

This thesis deals with the teaching of English idioms, a method that increases their teaching effectiveness. A comparative study of English idioms with idioms in the mother tongue is both an interesting and memorable method for students. Teaching idioms to non-native English students with Azerbaijani equivalents will directly contribute to the development of their English language skills. Such mutual compatibility in both languages is observed in nations with similar worldviews, common tendencies, regularities. Of course, this actualizes the comparative teaching of English idioms with their Azerbaijani equivalents.

Key words: national value indicator, teaching effectiveness, metaphors, coherence, complex English idioms

RƏNG TERMİNLƏRİNİN LEKSİK-SEMANTİK SAHƏSİ TƏDQİQAT OBYEKTİ KİMİ

İbrahimov R.M.
Sumqayıt Dövlət Universiteti
www.ibrahimov.r@mail.ru

Xülasə: Məqalədə rəng terminləri və «semantik sahə» koqnitiv dilçilik baxımından müzakirə olunur. Müasir linqvistika mürəkkəb vahidlərin istifadəsini qiymətləndirən sistemlərə əsaslanır. Hal-hazırda onların arasında öz universallığı ilə ən çox seçilən «semantik sahə»dir. Bir termin kimi o, mənalarla həqiqət fraqmentləri arasında əlaqəni göstərir. Nümunə olaraq Azərbaycan dilində rəng bildirən sözlər istifadə olunub. Məqalədə göstərilmiş nümunələrin həm Rus, həm də İngilis dilində tərcümələrinin verilməsi dillər arasında oxşar və fərqli cəhətlərin başa düşülməsinə kömək edəcək.

Açar sözlər: rənglər, semantik sahə, simvolika, konsept, qavrama

Rəng insan tərəfindən dünyanın dərk edilməsində mühüm rol oynayır. Linqvistik baxımdan maraqlı aspekt ondan ibarətdir ki, müxtəlif xalqlarda əsas rənglərin və onların rəng çalarlarının ifadə etdikləri məna bəzən eyni, bəzənsə tamamilə fərqlidir. 1969 – cu ildə antropoloq Berlin B. və linqvist Key P. "Əsas rəng terminləri" kitabında baza rənglər haqqında fikirlər irəli sürmüşlər və rənglərin universallığından söhbət açmışlar. Bütün dünyaboyu keçirilən eksperimentlərdə Berlin və Key müxtəlif dil qruplarına məxsus nümayəndələrə İngilis dilində müəyyən dil təyinatlarına malik rəngləri nümayiş etdirərək araşdırıblar ki, heçdə bütün dillərdə bu on bir termin – *qırmızı, sarı, yaşıl, göy, qəhvəyi, bənövşəyi, çəhrayı, narıncı, qara, ağ və boz* mövcud deyil [2]. Bəzi dillərdə, məsələn, Yeni Qvineyadakı Bernimo qəbiləsinin dilində *göy* və *yaşıl* eyni sözlə işarə olunur, bəzilərində isə məsələn,Vyetnam dilində *sarı, narıncı* və *qırmızı* rənglərin arasında dəqiq sərhədlər mövcud deyil. Tədqiqatçılar bu qəbildən olan çatışmamazlıqları həmin dillərin qərb dilləri ilə müqaisədə inkişaf baxımından geri qalmaları ilə izah edirlər. Lakin ümumilikdə əsas rənglər nəzəriyyəsi rəng terminlərinin müxtəlif dillərdə necə işlənməsindən aslı olmayaraq insanlıq, bəşəriyyət tərəfindən bir universallıq kimi qəbul olunur. Rəng terminləri Azərbaycan dilinin leksik sistemində sosial, linqvistik, ekstralinqvistik və tarixi-coğrafi şəraitlə sıx əlaqədə uzun bir dövr ərzində əmələ gəlib. Rəng simvolikası "dünya xəritəsini" daha da dəqiq yaratmağa imkan verən xüsusi bir dildir. Psixolinqvistikada hesab edilir ki, obyektlərin və proseslərin sinif daxili və sinif xarici oxşar və fərqli cəhətləri rəng qavrayışından aslıdır. [3 s.76]

Məsələn, Azərbaycan dili daşıyıcıları iki rəng – *göy/mavi*, Rus dili daşıcılarıda iki rəng – *синий/голубой* gördükləri halda İngilis dili daşıyıcıları bir rəng – *blue* görürlər. Lakin dilimizdəki *çəhrayı* sözünə İngilis dilidə iki sifət – *pink/rosy* sözləri ekvivalent olaraq çıxış edə bilir.

Semantik sahəyə klassik bir nümunə kimi "rəng" konseptinin sahəsini göstərmək olar. Onlar bir neçə rəng cərgələrindən ibarət olurlar *(qırmızı – çəhrayı – moruq rəngli; göy – göyümtül – mavi və s.)* Burda ümumi semantik komponent kimi "rəng" çıxış edir. Eyni zamanda, əgər biz ümumi semantik komponent kimi konkret rəng konseptini götürsək, onda semantik sahə onun ətrafında qurulacaq *(*məsələn: ağ- *rəng, işıq, qar, təmizlik, toy, matəm və s.)*

Hər bir rəng spektrin sadəcə bir hissəsi deyil, o bir konseptdir. Məhz o, baza rəngin birləşmiş xüsusiyyətlərini təyin edir. Buna görə də *tünd-qəhvəyi*, təmizlənməmiş undan hazırlanmış çörək xalq arasında həmişə *"qara çörək"* kimi tanınıb. Məsələ təkcə çörəyin rəngində deyil, çünki İngilis dilində bu növ çörəklərə *"brown bread"* və ya *"rye bread"* deyirlər. Səbəb dilimizdə *"qara"* konseptinə *"aşağı keyfiyyət, ucuzluq"* və s. anlayışlarının aid olmasıdır. Məhz bu konseptə əsasən *"qara çörək"* öz adını almış və təmizlənmiş undan hazırlanmış *"ağ çörək"* ilə ziddiyyət təşkil etməkdədir.

Azərbaycan dilində rus və ingilis dilləri ilə müqaisədə əsas rənglərin qavranılmasında elə də böyük fərq yoxdur. Lakin rəng çalarlarının təyin edilməsində müəyyən fərqlər üzə çıxır. Bunlara Rus dilində çox yayılmış taxıl məhsullarından, tərəvəzlərdən, giləmeyvələrdən və gül adlarından götürülmüş rəng bildirən sifətləri – *"малиновый, брусничный, свекольный, розовый, пшеничный,* və s. aid etmək olar. Sadaladığımız dillərdə "üz" nahiyyəsinin müqaisəli təsvirinə nəzər yetirək. Rus dilində "*свекольные щеки*" ifadəsində "свекольные" (çuğunduru) sifəti təyinedici rolunda çıxış edib, lakin İngilis dilində həmin ifadə müqaisəli konstruksiya şəklində verilir – *"red as beet root"* (*çuğundur kökü kimi qırmızı*). Burda həmçinin çuğundurun qırmızı rəngdə olduğuna da işarə olunur. Azərbaycan dilində semantik baxımdan oxşar ifadə belə səslənir – *"Pomidor kimi qırmızı yanaqlar"*. Verilən nümunələrdə paralellik apardıqda aydın şəkildə dilimizdəki bu ifadənin struktur baxımdan ingilis dilindəki variantla oxşar olduğunu müşayət etmək mümkündür.

Rəngin etalon daşıyıcısı ilə korrelyasiya (lat. “correlatio”- *uyğunluq, qarşılıqlı əlaqə*) ideyası A.Vejbiçkanin koqnitiv nəzəriyyəsinin əsasını təşkil edir. Bu nəzəriyyəyə əsasən rənglər dil daxilində abstrakt şəkildə mövcud deyil; onlar bu və ya digər rənglərlə əlaqələnən, insanlar üçün əhəmiyyət kəsb edən obyektlərlə sıx bağlıdırlar [4.] Məsələn, *pamidor kimi qırmızı, kömür kimi qara, süd (və ya qar) kimi ağ* və s. Yalnız rəngin fiziki mənası ilə etalon daşıyıcısını özündə cəmləşdirən konsepti birbaşa müqaisə etməklə verilmiş rəngin semantik sahəsini təyin etmək mümkündür. Müxtəlif xalqlarda bu sahə özünü fərqli olaraq biruzə verəcək, hətta bəzən subyektiv xarakter də daşıyacaq.

Semantik inkişaf zamanı rənglər oxşar əlamətləri bildirmək üçün istifadə edilir. Eyni rəng bildirən söz əşya və ya hadisələrin oxşar əlamət və keyfiyyətlərini ifadə etdikdə hələ çoxmənalılıq yaranmır; məsələn: *ağ saç (white hair/белые волосы), ağ pul (white money/белые деньги), ağ əl (white hand/белая рука)* birləşmələrində *saç, pul, əl* rəng etibarilə bir-birlərinə çox yaxındır və bu yaxınlıq həmin əlamətləri bir-irindən ayırmağa imkan vermir. Çünki həmin birləşmələrdə ağ sifəti rəng bildirmək xüsusiyyətini itirməmişdir. Bunu ağ sifətinin semantik inkişafı kimi səciyyələndirmək olmaz. Bu, dilin ümumiləşdirmə xüsusiyyətidir. [1. s.143].

Beləliklə, sözün semantik inkişafı dilin lüğət tərkibini zənginləşdirir və yeni yaranan məfhum əvvəlkinə mane olmadan onunla yanaşı yaşamaq hüququna malik olur.

ƏDƏBİYYAT

1. Azərbaycan SSS Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu Müasir Azərbaycan dilinin semasiologiyası (oçerklər) Bakı, Elm-1985 240s.
2. Berlin B., Key P., Əsas rəng terminləri.,1969, 178 s.
3. Frumkina R.M., Rəng, Məna, Oxşarlıq. Psixolinqvistik Analizin Aspektləri. Moskva,1984, 175s.
4. Vejbiçka A., Dil, Mədəniyyət, Dərketmə., Moskva, 1996, 412 s.

РЕЗЮМЕ
ЛЕКСИКО-СЕМАНТИЧЕСКОЕ ПОЛЕ ЦВЕТОВЫХ ТЕРМИНОВ КАК ОБЪЕКТ ИССЛЕДОВАНИЯ

Ибрагимов Р. М.

В статье обсуждается цветовые термины и “семантического поле” с точки зрения когнитивной лингвистики. Современная лингвистика основана на системе, которая оценивает использование сложных единиц. Сейчас наиболее выделяющимся среди них универсальностью является семантическое поле. Как термин, он показывает связь между смыслами и фрагментами действительности. В качестве примеров использовано слова, указывающие на цвет в Азербайджанском языке. Переводы примеров приведенных в статье на Русский и Английский язык поможет, понят похожие и отличающиеся характеристики между языками.

Ключевые слова: цвета, семантическое поле, символика, концепт, понимание

SUMMARY

LEXICA-SEMANTIC FIELD OF COLOR TERMS AS AN INVESTIGATION OBJECT

Ibrahimov R.M.

The article discusses color terms and "semantic field" from the cognitive linguistics point of view. Modern linguistics is based on a system that estimates the use of complex units in a language studying. Nowadays the most distinguished among them by its versatility is "semantic field". As a term it shows the connection between meanings and fragments of reality. The Azerbaijani color words have been used as examples. The translations of the examples given in the article into Russian and English will help to understand the similar and different characteristics among languages.

Key words: colors, semantic field, symbolics, concept, perception

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN MÜSTƏQİL İŞLƏRİ

Rahtari M.F.

Sumqayıt Dövlət Universiteti

arifmeryem@mail.ru

Xülasə: Məqalə tədris proqramının tələbinə əsasən Azərbaycan dili dərslərində şagirdlərə verilən müstəqil işlərə həsr edilmişdir. Bu mənada Milli Kurikulumun məzmununun seçilmiş sahələri şagirdlərin bu fənn üzrə müstəqil şəkildə əldə edə biləcəkləri biliklərə istiqamətlənmiş və proqnoz-laşdırılmışdır.

Açar sözlər: Azərbaycan dili, şagird, müstəqil iş, kurikulum, məzmun, layihə

Milli kurikulumun tələbi ilə bütün fənlər üzrə şagirdlərin müstəqil işlərinə geniş yer ayrılır. Bu mənada orta məktəblərdə Azərbaycan dili dərslərinin həftə ərzində daha çox tədris olunduğunu nəzərə alarsaq, bu fənnin tədrisində proqram üzrə şagirdlərin müstəqil işlərinə daha sıx yer verildiyini aydın görmək mümkündür.

Milli kurikulumda qeyd olunmuş məzmun standarları üzrə də şagirdlərin müstəqil fəaliyyəti qeyd olunmuş, tələb kimi göstərilmişdir.

Azərbaycan dili Kurikulumuna əsasən:

I. "Dinləyib anlama və danışma" məzmun xətti üzrə:

- "Dialoji mətnlər qurur və təqdimatlar edir" (4-cü sinifdən başlayaraq)

-1.2.4. "Hər hansı fakt və hadisə ilə bağlı fikir bildirir"

II. "Yazı" məzmun xətti üzrə:

- 3.1.2. "Mövzu ilə bağlı topladığı materiallar əsasında mətn hazırlayır";

-3.1.4. "Müşahidə və təəssüratlar əsasında kiçikhəcmli esse (yuxarı siniflərdə isə inşalar) yazır";

III. "Oxu" məzmun xətti üzrə:

- 2.1.1. "Lüğətlərdən istifadə etməklə tanış olmadığı sözlərin mənasını müəyyənləşdirir";

- 2.2.2. "Bədii və elmi-kütləvi mətnlər haqqında təqdimatlar edir";

- 2.2.3. "Mətnin hissələrinə başlıq verməklə məzmununa aid (II sinifdə) sadə plan tutur"; (III sinifdə geniş plan tutur, IV sinifdən isə yaradıcı plan tutur)

IV. "Dil qaydaları" məzmun xətti üzrə:

- 4.1.3. “Rast gəldiyi yeni sözlərin mənasını, yazılış və tələffüzünü müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir”;

- 4.1.4. “Mətndə rast gəldiyi yeni sözlərin yazılış və tələffüzünü müəyyənləşdirmək üçün lüğətdən istifadə edir”;

- 4.1.6. “Cümlə və onun növləri haqqında kiçik təqdimatlar edir” tələbləri şagirdlərin müstəqil fəaliyyət nəticələrinin əldə olunmasına hədəflənmişdir.

Bütün yuxarıda göstərilən prosedurlar 4 əsas bacarığı inkişaf etdirməyə xidmət edir: müxtəlif fəaliyyətlər vasitəsilə dinləyib-anlama və danışma, yazı, oxu və dil qaydaları. Müəllimin metodik vəsaitində bu bacarıqlarla yanaşı, lüğət, tələffüz və qrammatikaya dair hərtərəfli çalışmaları əhatə edən və hər bir mövzuya həsr olunmuş proqram vardır. Strukturlaşmış danışıq tapşırıqları hər bir mövzunun mərkəzi hissəsin təşkil edir.

“Ana dili kurikulumu”nda şagirdlərə müstəqil iş kimi verilmiş məlumatların şagird tərəfindən araşdırılması tapşırılır. Araşdırmanın nəticəsi kimi təqdimat- layihələrin hazırlanması kurikulumun tələbi baxımından dərslik müəllifləri tərəfindən tövsiyyə olunur. Müəlliflərin fikrincə, ev tapşırığı kimi araşdırma və layihələr üzrə işlərin verilməsi, məzmun standartlarının tədrisdə reallaşdırılması şagirdlərə yetəri qədər qazanılmış material təqdim edir.

Layihə- ərəb sözü olub, hər hansısa bir sənədin, qərarın prosesin əvvəlcədən yazılmış mətninin mənasını özündə ehtiva edir. Tikiləcək, qurulacaq, yaradılacaq bir şeyin əvvəlcədən düşünülmüş, hazırlanmış, işlənmiş proyekti də layihə hesab olunur.

Layihə fəal təlimin aktiv isifadə olunan üsuludur və adətən, uzunmüddətli olur. Bu üsul hər hansı bir mövzunun şagird tərəfindən müstəqil araşdırılmasına imkan verir. Təlim nəticəsinə xidmət edən mövzu müəllim tərəfindən müəyyən olunur.

Onu da qeyd etmək istəyirik ki, hal-hazırda müasir formada Azərbaycan dilinin ibtidai siniflərdə, eləcə də yuxarı siniflərdə tədrisi zamanı qabaqcıl müəllimlərimiz dərslərində MS Power Point və Activeİnspire proqramlarından və Activeİnspire proqramına məxsus olan gizlətmə, pərdə, projektor, konteyner və sehrli qələm alətlərindən istifadə edirlər. Prometan lövhələr vasitəsi ilə tədris olunan müasir dərslər şagirdlərin maraq dairələrini genişləndirir, dərsə maraq və diqqəti artırır, biliklərin şagird hafizəsində uzun müddət qalmasına təmin edir və şagirdlərin informasiya texnologiyaları ilə bağlı biliklərini əyani olaraq zənginləş-dirir.

Azərbaycan dili dərslərində yuxarı siniflərdə təhsil alan şagirdlərə də müstəqil işlər tapşırılır. Belə ki, bu şagirdlərə müstəqil surətdə yerinə yetirmək üçün iki layihə təqdim olunur:

1) Kompleks lüğət hazırlamaq; 2) Qəzet hazırlamaq.

Şagirdlərin arzu və istəklərinə, xüsusən də bacarıqlarına əsasən sinfi qruplara bölüb, hər qrupa bir layihəni tapşırmaq daha məqsədəuyğundur.

Dərslik üzrə hər bölmədə təqdim olunmuş sözlərin leksik, eləcə də qrammatik mənalarının, vurğularının düzgün tələffüzünün müəyyənləşdirilməsi son səhifədə nümunə kimi təqdim olunan kompleks lüğətin ərsəyə gəlməsinə səbəb olacaqdır.

Yuxarı siniflərdə şagirdlərə qəzet maketi hazırlamaq üçün layihə işi sxem şəklində təqdim edilmişdir. Layihənin məqsədi, forması, şagirdlərin görəcəyi işlər dərsliklərdə verilmişdir. Bu layihə rus bölməsi üçün hazırlanmış Azərbaycan dili tədris vəsaitlərində də vardır. Yaxşı olar ki, (əgər müəllimlər uyğun bilərlərsə) bu layihə hər iki bölmənin iştirakı ilə (əgər məktəbdə hər iki bölmə mövcuddursa) hazırlansın və məktəbin mətbu orqanı hesab olunsun.

Müəllim şagirdlər tərəfindən qəzetdə yerləşdiriləcək mətnlərin daha çox məktəblə, təhsillə, şagirdlərin peşə seçimi ilə bağlı olmasına çalışmalıdır. Toplanılan materiallar təkcə Azərbaycan dili

dərslərində öyrəndikləri ilə yekunlaşmamalıdır. Digər fənlərin tədrisi zamanı öyrəndikləri maraqlı fakt və hadisələrin maketdə öz əksini tapması fənlərarası əlaqələrin yaranması üçün imkan yaradar.

Əgər hər hansısa bir məktəbin İKT ilə təminatı yoxdursa, maddi-texniki baza buna imkan vermirsə, müəllim bunu adi qalın (vatman) kağızlardan istifadə etməklə də həyata keçirə bilər. Bu layihə üzərində şagirdləri çalışdırmaqla müəllim onlarda qruplarda komanda şəklində işləmək, toplamaq, sistemləşdirmək, yazıları düzəltmək, ədəbi dilin normalarına uyğun yazı yazmaq, sual tərtib etmək, şəkil çəkmək, onu başqalarına rəy üçün təqdim etmək, fərqli fikirlərə, tənqidə dözümlülük kimi bacarıqlar formalaşdıra biləcəkdir.

Məktəblərdə yuxarı sinif dərsliklərində bir neçə yerdə qəzet və ya jurnal materialı üzərində iş aparmaq üçün tapşırıqlar verilmişdir. Bu tapşırıqları icra edən şagird istər-istəməz Azərbaycan mətbuatı ilə tanış olacaq, mütaliə edəcək, müsbət və mənfi tərəfləri müəyyən edəcək, münasibət bildirəcək, əgər lazımdırsa, yazıya düzəliş edəcək və fikrini əsaslandıracaq. Bu tipli tapşırıqları mərhələli şəkildə icra edən şagirdlərin, həmçinin, mükəmməl yazı vərdişlərinə də yiyələnəcəkləri hədəflənir.

ƏDƏBİYYAT

1. Balıyev H.B., Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası: dərslik. Bakı, Qismət, 2014, 380 s.
2. Cavadov İ. Fonetikanın tədrisi prosesində müasir təlim-texnologiyalarından istifadənin əhəmiyyəti. Azərbaycan dilinin tədrisi: elmi-metodik jurnal, 2015, №4 (oktyabr-dekabr), 58-64 s.
3. Həsənov M.M., Cəfərov N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası: dərslik. Azərbaycan Respublikası Təhsil Nazirliyi, AMİ, Bakı: Mütərcim, 2013, 410 s.
4. İkidillilik şəraitində şagirdlərə Azərbaycan dili üzrə düzgün tələffüz vərdişləri aşılamağın xüsusiyyətləri: metodik tövsiyyə. Bakı, 1984, 23 s.
5. Kərimov Y.Ş., Balıyev A.N. Azərbaycan dilinin tədrisi metodikası: dərsli. Bakı, Qismət, 2014, 380 s.

РЕЗЮМЕ
САМОСТОЯТЕЛЬНАЯ РАБОТА УЧЕНИКОВ НА УРОКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Рахтари М. Ф.

Статья посвящена самостоятельной работе, предоставляемой ученикам на уроках азербайджанского языка по требованию учебной программы. В этом смысле выбранные направления содержания Национальной учебной программы обеспечивают и прогнозируют направления знаний, которые студенты будут приобретать самостоятельно.

Ключевые слова: Азербайджанский язык, ученик, самостоятельная работа, учебная программа, содержание, проект.

SUMMARY

САМОСТОЯТЕЛЬНАЯ РАБОТА УЧЕНИКОВ НА УРОКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Rahtari M. F.

The article is devoted to independent work provided to students in the Azerbaijani language lessons at the request of the curriculum. In this sense, the selected areas of the content of the National Curriculum provide and predict the areas of knowledge that students will acquire on their own. Keywords: Azerbaijani language, student, independent work, curriculum, content, project.

Key words: Azerbaijani language, student, independent work, curriculum, content, project

MÜASİR İNGİLİS DİLİNDƏ RƏNG BİLDİRƏN SİFƏTLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Vəliyeva S. V.

Sumqayıt Dövlət Universiteti

sevil-veliyevaSDU@mail.ru

Xülasə: Yaşadığımız mühit olduqca rəngarəngdir. Bu rəngarəngliyi ifadə etmək üçün bir sıra sözlərdən istifadə edirik. Bu sözlər içərisində rəng bildirən sifətlər xüsusi rol oynayır. Dilçilikdə rəng bildirən sifətlər müxtəlif qrammatik kateqoriyalarla araşdırılmışdır. Hər bir dilin lüğət tərkibində bir sıra rəng bildirən sifətlərin olması dilin inkişaf səviyyəsindən asılıdır. Ümumiyyətlə, rəng bildirən sifətlər mənaca genişdir, amma formaca o qədər də böyük deyildir. Nitqi obrazlı etmək üçün rəng bildirən sifətlərdən istifadə olunur. İngilis dilində 250-dən çox rəng bildirən sifətlər mövcuddur.

Açar sözlər: rəng bildirən sifətlər, sinonim sifətlər, çoxmənalılıq

Absinthe, admiral, alabaster, albino, almond, amaranth, amber, amethyst, anchor, apricot, apple, aqua, aquamarine, arctic, ash, aubergine , auburn, avocado, azure; B: baby blue, banana, beige, begonia, birch, bisque, biscotti, black, blonde, blue, blue green, blue violet, blush, bone, Bordeaux , brass, brick, brindle, bronze, brown, buff, burgundy, burnt orange, burnt sienna, burnt umber, buttermilk, butter, bumblebee, butterscotch, blood, berry, bubblegum, ballet slipper, boysenberry, basil, brunette, ; C: camel, cameo, canary, caramel, cardinal, carmine, carnelian, celadon, cerise, cerulean, champagne, charcoal, chartreuse, chesnut , chocolate, chrome, cinnamon, citrine, claret, clear, cobalt, cocoa, coffee, color, complementary, copper, coral, cordovan, cornflower, cranberry, cream, crimson, crystalline, cyan, cotton, coconut, corn, cantaloupe, carrot, cherry, currant, candy, crepe, crocodile, chocolate, cedar, cloud, crow, coal,;D: dark, denim, desert sand, drab, dull, dusty rose, daisy, daffodil, dandelion, dijon, dove ; E: ebony, ecru, eggplant, eggshell, egg nog, emerald; F: flax, flamingo pink, flesh, forest green, fuchsia, frost, fawn, flaxen, fire, fern, fog, flint, fossil; G: gold, goldenrod, gray, green, grey, granola, ginger, garnet, grape, grease; H: henna, hot pink, hue, hyacinth, hydrangea; I: indigo, iridescent, ivory, iris, iron, ink; J: jade, jet, jungle green, jam, jet black, juniper; K: kelly green, khaki; L: lapis, lavender, lemon, light, lilac, lime, linen, lace, latte, lemonade, lead, leather; M: magenta, mahogany, maize, maroon, mauve, melon, mink, mint, mocha, mulberry, mustard; N:navy blue,

nutmeg, navy; O: oatmeal, obsidian, ochre, olive, opal, opaque, orange, orchid, oyster, onyx ;P: pale, paprika, pastel, peach, pearl, periwinkle, persimmon, pewter, pink, platinum, plum, poppy, primary, primrose, puce, pumpkin, purple, pear, pine, pickle, parakeet, pistachio, peanut, pecan, pebble, pitch, penny, pewter, porpoise, ; R: rainbow, raspberry, raven, red, rose, rosewood, rouge, ruby, ruddy, russet, rust; S: sable, saffron, sage, salmon, sand, sapphire, scarlet, seafoam, seashell, sea green, secondary, sepia, shade, shamrock, sienna, silver, slate, spectrum, spruce, steel blue, stone, straw, strawberry, sky, snow, sugar cookie, sandcastle, sand dollar, shortbread, squash, sandstone, spice, sangria, syrup, soot, spider; T: tan, tangerine, taupe, taffy, teal, terracotta, thistle, tint, tomato, topaz, tortilla, tawny, turquoise, tuscan sun, ; U: ultramarine, umber; V: vanilla, verdant, verdigris, vermeil, vermilion, violet, viridian; W: watermelon, wheat, white, wine, wisteria, walnut, wood; Y: yellow.

Müasir ingilis dilində təxminən 11 əsas rəng bildirən sifət var: white, black, red, green, yellow, blue, brown, purple, pink, orange, grey.

Rəng bildirən sifətlər özünəməxsus semantik və üslubi çalarlara malikdir. Əsas rəng bildirən sifətlərin məna çalarlarına nəzər salaq: White: white days, white hands, a white ring, to play white, a cup of white coffee, a white-faced beggar, the White House, to be in white və s. Black: black reputation, black mood, black intentions, blacks and whites, to be in black və s. Red: red-blooded, the reds, a red-ripe peach, to be in red və s. Green: the greens of trees, a green act, a green tomato, a green teenager, The Green Party və s.Blue: the birds in the blue, a deep blue, blue condition, blue fingers, navy blue və s.Yellow: plants with yellow, a real yellow man , yellow and white və s.

Nəyisə təsvir etmək üçün rəngdən istifadə etməyin üç yolu var-

1. To be + rəng. Məsələn: My bag is yellow.
2. Rəng + İsim. Məsələn: The yellow bag is mine.
3. Rəng cümlədə mübtəda rolunda olur. Məsələn: Yellow is the colour of my bag.

Əgər biz rəngi təsəvvür etməyə əmin deyiliksək, biz adətən –ish suffiksindən istifadə edirik.

Məsələn: Greenish (təxminən yaşıl rəng, amma tam dəqiqliklə yaşıl rəng deyil)

The sunset is pinkish-purpish colour today.

His shirt is lightish blue in colour.

Müasir ingilis dilində white, black, red, green, yellow, blue, brown, purple, pink, orange və grey sifətlərinin bir sıra sinoniminə rast gəlmək olar: red – maroon, scarlet, crimson; green – bottle-green, olive green; yellow – melon-yellow, corn-colored; blue – azure, navy blue, Cambridge blue; brown – beige, chestnut, coffee-colored; purple – livid, magenta, lavender, mauve; pink –peach, rosy; orange – carroty, salmon-pink, coral, tangerine; grey – Cambridge grey, steel grey.

Müasir ingilis dilində frazeoloji vahidlərin yaranmasında rəng bildirən sifətlərin yüksək dərəcədə rolu vardır. Əsas rəng bildirən sifətlərin iştirakı ilə yaranan bir neçə frazeoloji vahidlərə nəzər salaq: green thumb- bitkiləri böyütmək üçün xüsusi bacarıq, yellow-bellied- qorxaq, pink slip- işdən azad edilməsi barədə bildiriş, golden opportunity- nəyəsə nail olmaq üçün çox yaxşı şans, red tape- tərəqqini dayandıran bir sıra qaydalar, silver screen- kino sənayesi, blue collar- əl əməyi işində işləmək, black as night- qaranlıq bir yerdə bir şeyi görmək çox çətin olduqda, black and blue- pis bükülmüş bir şeyi təsvir etmək üçün istifadə olunur, black eye- göz ətrafında olan zədə, black as a skillet- çirkli bir şeyi təsvir etmək üçün istifadə olunur, black market- a term used for places where goods are illegally bought and sold for a profit, in someone’s black books- to be in disgrace or in disfavour with someone, out of the blue- to appear out of nowhere without any

warning, blue pencil- to censor something, blue blood- used to describe someone from a noble or wealthy family, talk a blue streak- when someone talks very much and very rapidly, once in a blue moon- to occur extremely rarely, browned off- to be bored or annoyed with someone or something, to be green- used to describe someone who is inexperienced, green with envy- used to describe someone who is extremely jealous, green belt- an area of fields and trees around a town, a golden handshake- a large sum of money that is paid to a retiring manager or director, or to a redundant worker, in the pink of something- meaning in very good health, to be out of the red- to be out of debt, a red flag- a signal that something is not working properly or correctly, red hot- something new and exciting, red in the face- to become embrassed, red-eye – a journey that leaves late at night and arrives early in the morning, to see the red light- to recognize approaching danger, paint the town red- to go out and have a really good time at a party, born with a silver spoon in one's mouth – meaning born into a rich family, raise a white flag- this indicates that one has accepted defeat and surrenders to the other party, white elephant- a term used for a useless possession, a yellow streak- someone who has cowardice in their character.

İngilis dilində bəzi sifətlər var ki, onlarla frazeoloji vahidlər yaratmaq olmur. Bu sifətlər bunlardır: purple (bənövşəyi), orange (narıncı) (orange). Beləliklə, müasir ingilis dilində rəng bildirən sifətlərin çoxmənalılığı dil daşıyıcılarının düşüncələrinin dildə ifadə olunmasına böyük şərait yaradır.

ƏDƏBİYYAT

1.Ващенко М.А. Символика цветов в народной культуре//Лингвистика и межкульт.коммуникация N1, М., Просвещение, 2000, с. 115-123

2. ЖирмунскаяМ.Л. Словообразовательные потенции прилагательных цветообозначения в современных германских языках, Москва, Просвещение, 1982, 24 с.

3. Кульпина В.Г. Характер человека сквозь призму цвета//Россия и Запад, Москва, Наука, 1996, с. 40-47

4. Abramov I., Gordon J., Color appearance. Annual Review of Psychology 45, 1994, pp.451-485

5. Abramov I., Physiological mechanisms of color version. Color categories in thought and language. CambridgeUniversityPress, 1997, pp.259-316

6. Berlin Brent and Paul Key. Basic Color Terms: Their Universality and Evolution. UniversityofCaliforniaPress, 1999, 376 p.

7. Debi Roberson, Colour categories are culturally diverse in cognition as well as in language; Cross-cultural reseach, Vol.39, N1, 2005, pp.56-71

8. Cambridge Advanced Learner's Dictionary, Cambridge University Press, 2003

РЕЗЮМЕ

ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ ПРИЛАГАТЕЛЬНЫХ,ВЫРАЖАЮЩИХ ЦВЕТ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Валиева С. В.

Прилагательные, обозначающие цвета были исследованы в различных аспектах и они тесно связаны с когнитивной лингвистикой. Очень важно исследовать эти прилагательные с грамматической точки зрения. Определённое количество прилагательных, обозначающих цвета в каждом языке зависит от степени развития языка. Люди связывают цвета с

различными символами. Согласно нашему исследованию существует более 250 таких прилагательных. Список этих прилагательных есть в статье. Но основных цветов 11: белый, чёрный, красный, зелёный, жёлтый, голубой, розовый, серый, коричневый, оранжевый и фиолетовый. Эти прилагательные также характеризуются многозначностью и синонимичностью. Они играют огромную роль в образовании фразеологизмов.

Ключевые слова: прилагательные обозначающие цвета, синонимичные прилагательные, многозначность

SUMMARY

LEXICAL-SEMANTIC FEATURES OF ADJECTIVES EXPRESING COLOUR IN MODERN ENGLISH

Valiyeva S.V.

The colour naming adjectives have been investigated from different aspects and it is closely connected with cognitive linguistics. It is very important to investigate the colour naming adjectives from the point of view of the grammatical categories. The definite number of the colour naming adjectives in the vocabulary of each language depends on the level of the development of the language. Colours are related with different symbols by the people. According to our investigation the number of the colour naming adjectives is more than 250. The list of the colour naming adjectives have been noted in the article. But the basic colour adjectives are 11 in number: white, black, red, green, yellow, blue, pink, grey, brown, orange and purple. The colour naming adjectives are also characterized by their multimeaning and synonyms. They play a great role in the forming of phraseological units.

Key words: colour naming adjectives, the synonymous adjectives, polysemantism

YAZILI VƏ ŞİFAHİ NİTQ BACARIQLARININ İNKİŞAFINDA SİNİFDƏNXARİC OXU DƏRSLƏRİNİN ROLU

Şükürova S. F.

ADPU-nun Şamaxı filialı

sukurov03@mail.ru

Xülasə: Sinifdənxaric oxu dərsləri şagirdlərdə özünü göstərən yazılı və şifahi nitq qüsurlarının aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb edir. Sinifdənxaric oxu zamanı şagirdlərin nitqində olan qüsurları aradan qaldırmaq və sözlərin orfoepik normalara uyğun tələffüz edilməsinə, öz fikirlərinin müstəqil, yaradıcı formada təqdim edilməsinə çalışmaq lazımdır. Şagirdlərin yaradıcı təfəkkürünün və nitqinin inkişafında, dünyagörüşünün formalaşmasında, lüğət ehtiyatının zənginləşdirilməsində, ifadəli, intonasiyalı oxu vərdişlərinə yiyələnməsində sinifdənxaric oxu dərslərinin əhəmiyyəti böyükdür.

Açar sözlər: təlim, sinifdənxaric oxu, yazılı nitq, şifahi nitq, nitq qüsurları

Müasir dövrdə məktəbin qarşısında duran əsas vəzifələrdən biri cəmiyyət üçün hərtərəfli inkişaf etmiş kamil şəxsiyyətlər yetişdirməkdir. Daim inkişafda olan cəmiyyətin tələbatını ödəmək üçün təhsilin də inkişafda olması vacib şərtdir. Müasir təhsil müəllimdən də inkişaf etməyi, daim öz üzərində işləməyi, yaradıcı olmağı və dərsə də yaradıcı proses kimi yanaşmağı tələb edir. Yaradıcı

proses zamanı isə şagird bir şəxsiyyət kimi formalaşır, inkişaf edir, müəllimlə birlikdə dərsin ayrılmaz bir hissəsinə çevrilir. Bu gün müəllimin qarşısında oturan şagird artıq ənənəvi təlimdəki bütün deyilənləri qeydsiz-şərtsiz qəbul edən, hazır bilikləri olduğu kimi mənimsəyən obyekt deyil. O istənilən məlumatı istənilən mənbələrdən almağı bacaran, araşdırmalar aparan, nəticələri özü çıxardan kiçik tədqiqatçıdır. Təlim prosesində müəllim artıq məlumat mənbəyi kimi deyil, bu tədqiqata yalnız istiqamət verən bələdçi kimi çıxış edir.

Təlim prosesi zamanı şagirdlərdə müəyyən edilən nitq qüsurları müxtəlif olur. Bu qüsurlar fonetik, leksik və qrammatik xarakter daşıyır. Qüsurları müəyyənləşdirmək üçün söz ehtiyatının hansı səviyyədə olduğunu dəqiqləşdirmək, müxtəlif sözlərin sinonim, antonimlərini tapmaq və s. kimi tapşırıqlar yerinə yetirilə bilər.

Nitq qüsurları şifahi və yazılı olmaqla iki yerə ayrılır. Şifahi nitq qüsurlarına dislaliya, alaliya, afaziya, kəkələmə, dizartiya, rinolaliya, disfoniya, afoniya və s. daxildir. Yazılı nitq pozulmasına isə disleksiya, aleksiya, disqrafiya, aqrafiya aid edilir [6, 327].

Disqrafiya və disleksiya oxu və yazı qabiliyyətinin qismən pozulmasıdır. Oxu və yazı ilə bağlı nitq qüsurları aşkar edilərsə, müxtəlif istiqamətlərdə iş aparıla bilər.

1. Fonematik qavramanı inkişaf etdirmək.
2. Səs tələffüzü üzərində iş.
3. Səslərin analizi və sintezi vərdişini inkişaf etdirmək.
4. Lüğət ehtiyatını zənginləşdirmək və ondan praktiki istifadə bacarığını inkişaf etdirmək.
5. Qrammatik vərdişləri inkişaf etdirmək.
6. Rabitəli nitqi inkişaf etdirmək. [6, 344]

Yuxarıda sadalanan işlər mütəxəssis üçün nəzərdə tutulsa da, müəllim də bu işdə fəal iştirak etməlidir. Nitq qüsurlarını aradan qaldırmaq zamanı sinifdənxaric oxu dərslərinin də əhəmiyyəti böyükdür.

Sinifdənxaric iş ayrı-ayrı fənlərin spesifik cəhətlərinə uyğun proqram materialına dair əlavə biliklər verməyə, müəyyən problem məsələlər ətrafında geniş və hərtərəfli iş aparmağa, fənnə xüsusi meyl göstərənlərlə digər qrup şagirdlər arasında dərs prosesində mümkün olmayan məşğulluq həddini tənzimləməyə imkan yaradır, fənnin həm üfüqi, həm də şaquli istiqamətdə keyfiyyətlə mənimsənilməsinə, asudə vaxtın səmərəli təşkilinə fayda verir. Sinifdənxaric iş təlim və təhsilin təşkili formalarından biri olmaqla zəngin məzmuna malikdir.

Sinifdənxaric iş təlim vasitəsi olmaqla yanaşı həm də tərbiyə vasitəsidir. Məktəbdə sinifdənxaric işlərin keçirilməsində əsas məqsəd müvafiq təlim materialı ilə, həyat hadisələri ilə, tarixi məqamlarla əlaqəli hazırlanan tədbirlərin mahiyyət etibarilə pedaqoji prosesi zənginləşdirməsi, şagirdlərə həm əqli, həm də mənəvi zövq verən, onları məktəbin cazibəsində saxlayan, ziyanlı vərdişlərdən uzaqlaşdıran təlim və tərbiyə vasitəsi olmasıdır.

Qarşıda qoyulan bu məqsədi həyata keçirmək üçün müəllim dövrün və şəraitin tələblərinə uyğun prinsiplər seçməlidir. Bu prinsiplər aşağıdakılardır:

-sinifdənxaric işin həyatla, inkişafla əlaqələndirilməsi prinsipi;

-sinifdənxaric işin təlim materialları ilə əlaqələndirilməsi prinsipi;

-sinifdənxaric işin müvafiq təlim materialına fayda gətirə biləcək məqamda (ondan əvvəl, onunla paralel, ondan sonra) keçirilməsi prinsipi;

-sinifdənxaric işin tərbiyəedici prinsipi;

-sinifdənxaric işin inkişafetdirici prinsipi və s.

Sadaladığımız prinsiplər sinifdənxaric işlərdən biri olan sinifdənxaric oxu dərslərinin təşkil edilməsində də mühüm əhəmiyyət kəsb edir. Bu dərslərinin təşkilində əsas məqsəd şagirdlərdə oxu vərdişlərini inkişaf etdirilməsidir.

Sinifdənxaric oxu şagirdlərdə mütaliə mədəniyyətinin formalaşdırılmasında mühüm rol oynayır. Bu dərslər zamanı şagirdlər oxuduqları əsərlərin müzakirəsini keçirir, əsər haqqında rəy və mülahizələr söyləyir, sinifdə mütaliə mühiti formalaşır və şagirdlərdə müstəqil mütaliəyə həvəs artır.

Məlumdur ki, şagirdlərdə oxu vərdişlərinin formalaşdırılması hələ ibtidai siniflərdən başlayır. Kiçikyaşlı məktəblilərdə kitaba məhəbbət hissi aşılanır, oxuduqlarına müstəqil münasibət bildirmək, müqayisələr aparmaq, mühakimə yürütmək bacarıqları yaradılır. Yuxarı siniflərdə sinifdənxaric oxu dərsləri ƏDƏBİYYAT fənn proqramlarına daxil edilib. Lakin bu işi yay tətili zamanı da aparmaq olar. Bu zaman uşaqların yaş səviyyəsinə, maraq dairəsinə uyğun ƏDƏBİYYAT siyahısı tərtib edilməlidir. Çalışmaq lazımdır ki, şagirdlər kiçik yaşlarından həm məktəb, həm də rayon kitabxanalarının üzvü olsunlar. Müstəqil mütaliə zamanı şagirdlərə daim nəzarət edilməli, kitab seçimində məsləhətlər verilməlidir. Müəllim hər bir şagirdin mütaliə marağının dairəsini, oxu texnikasına yiyələnmə səviyyəsini, ümumi inkişafını nəzərə alaraq müəyyən əsərin oxunmasını məsləhət görə bilər. Sinifdənxaric oxu üçün əsər seçilərkən müəyyən məqamlara diqqət yetirmək lazımdır: sinifdənxaric oxu üçün seçilən əsər həcmcə çox böyük olmamalıdır; klassik və müasir Azərbaycan, dünya ƏDƏBİYYATı nümayəndələrinin yazdıqları əsərlər daxil edilməlidir; seçilmiş bədii əsərlər şagirdlərin maraq dairəsinə, yaş səviyyəsinə uyğun olmalıdır; tərbiyəedici və inkişafetdirici xarakter daşımalıdır; seçilmiş bədii əsərin dili aydın, anlaşılan formada olmalıdır və s.

Müasir dövrdə keçirilən sinifdənxaric oxu dərsləri zamanı müəllim bir neçə dərs əvvəldən müzakirəsi nəzərdə tutulan əsərin oxusunu tapşırır. Bu zaman həcmindən asılı olaraq bir və ya bir neçə əsər seçilə bilər. Bunun üçün ya proqramda verilmiş və ya hansısa əlamətdar günlə bağlı olan əsərin oxusunu tapşırmaq olar. Yaxşı olardı ki, mövzu ilə əlaqədar bir neçə əsərin üzərində iş təşkil edilsin. Bu da sinifdənxaric oxu dərsini digər dərslərdən fərqləndirir və şagirdlərin dünyagörüşünün artırılmasına səbəb olur. Əgər ev tapşırığı kimi əsərin oxusu tapşırılırsa, qruplara əsərlərin səhnələşdirilməsi, mövzuya aid illüstrasiyaların çəkilməsi, plan üzrə nağıl edilməsi və s. tapşırılır. Dərs zamanı isə şagirdlər əvvəlki dərslərdən mənimsədikləri bilik və bacarıqları müstəqil formada tətbiq edirlər. Şagirdlərə əsərin xəritəsini hazırlamaq, ideyasını, mövzusunu, bədii təsvir və ifadə vasitələrini, süjet xəttini və hadisələrin ardıcıllığını müəyyənləşdirilmək kimi tapşırıqları vermək nəzərdə tutula bilər. Sinifdənxaric oxu dərsini tapşrılmış əsərin nağıl edilməsinə həsr etmək olmaz. Keçiriləcək əsəri əvvəlcədən müəyyən edən müəllim şagirdlər arasında kiçik qruplar şəklində iş bölgüsü aparar, mövzu ilə bağlı araşdırma aparmağı, əlavə materiallar toplamağı və təqdimatlar hazırlamağı tapşıra bilər.

Sinifdənxaric oxu şagirdlərdə özünü göstərən yazılı və şifahi nitq qüsurlarının aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb edir. Sinifdənxaric oxu zamanı şagirdlərin nitqində olan qüsurları aradan qaldırmaq və sözlərin orfoepik normalara uyğun tələffüz edilməsinə, öz fikirlərinin müstəqil, yaradıcı formada təqdim edilməsinə çalışmaq lazımdır.

Şagirdlərin yaradıcı təfəkküründün və nitqinin inkişafında, dünyagörüşünün formalaşmasında, lüğət ehtiyatının zənginləşdirilməsində, ifadəli, intonasiyalı oxu vərdişlərinə yiyələnməsində sinifdənxaric oxu dərslərinin əhəmiyyəti böyükdür. Həmçinin bu dərslərin müasir təlim metodları və İKT-nin köməyi ilə təşkili şagirdlərdə ƏDƏBİYYATa marağı artırır, kitab oxumağa daha da həvəsləndirir.

ƏDƏBİYYAT

1. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. (Dərslik). Bakı-2016
2. İbrahimov F., Hüseynzadə R. Pedaqogika: 2 cilddə. II cild. – Bakı: Mütərcim, 2012
3. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3, 2020
4. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003
5. Sinifdənxaric oxunun səmərəli təşkili (metodik tövsiyə). Bakı, 1988
6. Uşaq inkişafı metodikası. Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu, 2011

РЕЗЮМЕ
РОЛЬ ВНЕКЛАССНЫХ УРОКОВ ЧТЕНИЯ В РАЗВИТИИ НАВЫКОВ ПИСЬМЕННОЙ И УСТНОЙ РЕЧИ

Шукурова С.Ф.

Внеклассные уроки чтения важны для преодоления письменных и устных дефектов речи у учащихся. Во время внеклассного чтения студенты должны постараться устранить дефекты речи и произносить слова в соответствии с ортоэпическими нормами, самостоятельно, творчески излагать свои идеи. Уроки внеклассного чтения имеют большое значение в развитии творческого мышления и речи учащихся, в формировании их мировоззрения, в обогащении словарного запаса, в приобретении выразительных, интонационных навыков чтения.

Ключевые слова: обучения, внеклассное чтение, письменная речь, устная речь, дефекты речи

SUMMARY
THE ROLE OF EXTRACURRICULAR READING LESSONS IN THE DEVELOPMENT OF WRITTEN AND ORAL SKILLS

Shukurova S.F.

Extracurricular reading lessons are important in overcoming written and oral speech defects in students. During extracurricular reading, students should try to eliminate speech defects and pronounce words in accordance with orthoepic norms, to present their ideas in an independent, creative way. Extracurricular reading lessons are of great importance in the development of students' creative thinking and speech, in the formation of their worldview, in the enrichment of vocabulary, in the acquisition of expressive, intonation reading skills.

Key words: teaching, classroom reading, written speech, verbal speech, speech defects

SİGNİFİCANCE OF NEW TECHNOLOGİCAL İMPLEMENTATİONS İN ONLİNE EDUCATON

Ahmadova G. B.

Azerbaijan State Oil and Industry University

gulnar.ahmadb@gmail.com

Summary: The article researches the increasing role of technical means in teaching foreign languages. Distance, online and e- learning, their varieties, advantages and disadvantages are being briefly considered. The introduction of new technologies has created new opportunities for effective teaching of foreign languages. The sudden transition to an online education has highlighted a sharp demand for the use of technology. Consequently, the main goal is to use high-level online learning platforms and various teaching methods to support learners and improve their knowledge of language.

Key words: online learning, technical facilities, pandemic, EdTech, distance learning

With unexpected interference of the COVID-19 pandemic in our lives, everything has crucially changed. It has changed the way we were living, working and thinking. Sudden interference of the mentioned COVID-19 epidemic virus first profoundly confused then forced everyone to search for the survival ways. Education is the branch that suffered most of all, since coronavirus has resulted in school and university closures all over the world. Globally over 1.2 billion schoolchildren were out of their schools and millions of students were affected by University closures due to the pandemic. Within a few weeks education has dramatically changed with the distinctive rise of distant e-learning, which resulted in remote education on digital platforms. This is the way online learning abruptly emerged and soared.

In the consumption of language apps, virtual tutoring, video conferencing tools or online learning software there has been witnessed a profound surge since urgent measures had to be taken to avoid calamity coronavirus has caused all around the world. It is enough to mention the global amount of investment on EdTech, i.e. a portmanteau deriving from education and technology, referring to hardware and software designed to enhance teacher–led studying in classrooms thus improving students' outcomes, to support education. Though global investment on EdTech was high enough reaching US $ 18.66 billion in 2019, it is predicted to grow up to US $350 billion by 2025. This enormous sum of investment once again proves the significance of new technological implementations in educational branch. By implementations commonly, interactive projection screens, in-classroom tablets, smart boards, smart tables, etc. are assumed. The main purpose of EdTech is to raise students' knowledge, improve personal education and ease teachers' work. It allows instructors and lecturers to be able to deliver their lectures, have seminars, exam their students, etc. provided that learners do not leave home. Instructors are assumed to deliver their classes both from home and educational establishments. Being compelled to stay home those aiming to proceed their education have found the way out via online classes. Thus lots of new platforms like Zoom, WebEx, Microsoft Teams, etc. spread widely in no time as a result of keen need and thus leading to promotion and support of the teachers in the problem solution.

Nowadays frequently used collocations like distance learning, e-learning and online learning though all look alike, in fact, are quite different types of delivery models. A brief glance at the study of this type of education will reveal notable facts about the emergence of online education.[2] The history of distance education goes back to the year 1728, Boston, Massachusetts, when the earliest attempt was taken to attract the students, intending to learn "Short Hand" through weekly mailed lessons. The following fact might be interesting for the teachers of English, as the first distance education course in its contemporary sense was provided in the 1840s by Sir Isaac Pitman, a teacher of the English language, who developed the most widely used system of shorthand, now known as "Pitman shorthand". The idea was to teach by mailing texts and receive transcriptions

from his students in return for correction. In this system the element of feedback was a crucial innovation.

In the late eighties and early nineties of the XX century with the birth of the first form of electronic education Computer –Based Training, CBT the cornerstone of today's eLearning was laid. In the CBT system personal computer is to be connected to another multimedia, say CD-ROM.

Online education emerged comparatively recently, in 1985 when Nova Southeastern University in Florida, USA offered the first accredited online graduate program, while the previous ones were all "closed networks". Since then online classes were spread among other world universities. The National Science Foundation Network, NSFNET was the pioneer in this field being the first to open a new computer network and focusing mainly on the promotion of advanced research and higher education in networking. NSFNET served as a hub providing access to the supercomputer centers created by NSF. Later the first course for use with DOS offered by Electronic University Network in 1986 was followed by launching an online degree program by University of Phoenix, Arizona, USA.

But 1990-1999 which is called The Information Age, was the period of the real tech boom, as the commercial prospects of the internet started to take a root. The early pioneers of online learning entered the fray around that time, with the first accredited fully-online college. Other companies began utilizing the internet to pioneer brand new avenues of entertainment, learning, exploration and discovery. A brief excursus to the history of online education reveals several facts, namely WWW launched in 1991 allowed internet utilization and online education, that we are consuming today. A year later Electronic University Network proposed a PhD program through America Online. In European countries even distant villages and households were connected to the Internet then.

The second Information Age concurs on 2000, when rapid expansion of the Internet reached most world cities, including Baku, the capital of Azerbaijan. Though the scholars call the second Information Age to have a tremendous impact on the world, actually it is in the year 2020 the whole world crucially altered. We would dare to call the year of 2020 the beginning of the Third Information Age, since nearly the whole globe was struck by Coronavirus and its truly seismic impact was felt across the whole world and throughout society, including Azerbaijan. People were compelled to proceed to the online way of working, studying, trading, briefly living, which resulted in the boom of online connection. Schools, colleges and universities started their online classes. As a result, teachers having slight knowledge of using a computer were compelled to learn it since they had to deliver their online classes.

The Azerbaijan State Oil and Industry University has halted its choice on Microsoft Teams, since being a communication and collaboration platform it allows to combine workplace chats, video meetings, file storage, application integration, etc. The service integrates with the Office 365 subscription office productivity suite and features extensions that can integrate with non-Microsoft product. This platform proved to be much more reliable and efficient with almost all the opportunities for the instructors during the lesson. The platform whose primary mission is to provide on-line classes, seminars, lectures and exams has successfully been fulfilled. In comparison with Zoom platform another significant advantage of Microsoft Teams is that there is no fear of interruption occurring with Zoom due to limitation of class duration. University groups or teams join via specific URL or invitation sent by an IT administrator or the instructor, further they are able to create their groups for classes, department members, another staff or guests, etc. Users have an opportunity to communicate to one another avoiding email or SMS texting. All these

functions and even more e.g. sharing the previously prepared materials, power point slides, lectures, demonstrating pictures and videos can be carried out by means of Microsoft Teams.

Explanatory videos with detailed description of functions allow to overcome the difficulties arising during live broadcasting. Techno education, the main purpose of which is to improve learners' outcome thus leads to enhancing the whole education system. Development of industry contributes to the implementation of the technical facilities in education. Its effectiveness has become evident. Web classrooms provide instant search of the information, in addition both the instructors and students have an opportunity to share their researches, presentations, assignments, etc. At technical Universities teaching ESP, English for Specific Purposes i.e. learning English for specific needs, which can include the area of EPP –English for Professional Purposes as well, using new technologies is extremely of enormous significance.

Nowadays at universities teaching English being an inseparable and compulsory discipline has acquired more importance. Since all the scientific innovations are introduced in English, students are to be aware of them, which is impossible without language knowledge. Consequently, teaching and learning a foreign language at high level has become unimaginable without modern technical aid.

Individual, pair and team work have all acquired new ways and colors of interactivity. Task correction has obtained enormous varieties. Apparently, studying new terms and expressions is an integral part of technical English. Most of the terms obtained from the English language or being of Latin origin have acquired the status of international words and are not translated into most world languages. E.g. *browser, conglomerate, consensus, contribution, corporate, derivative, distraction, disjunctive, commission* and enormous number of other words being immensely attractive from linguistic view point need additional explanation as the ones functioning in specific branches. [1,3] At this point the classroom equipped with technological facilities is undoubtedly advantageous. One can find not only the translation of the investigated term but also its definition, derivatives, synonyms, antonyms, collocations, explanation, etymology and history, its use in various parts of speech, sample sentences, etc. Comprehension of the meaning of new terms has become much more effective and interesting. As far as several words in a unit besides definition, explanation rarely translation need visual watching of the whole process, in these terms the aid of the Internet is indispensable. E.g. safety systems, injection moulding of plastic, oil and gas extraction, torch welding, the work of gene gun machine, construction of spars and wide range of other processes are more comprehensively analyzed and understood if displayed in online videos in all its details. [5,6] The whole technological process when viewed is undoubtedly much better comprehended and memorized.

Listening to audio scripts which is an inseparable and integral part of language skills has acquired more essence in online classes. New technologies allow us to transmit audio scripts and videos, thus supporting the total comprehension of the topic. Evidently, most English instructors at the universities have had in their groups the students who studied English in remote regions and whose English was not understood by their peers or even the instructor. Additionally, students with wrong pronunciation are not able to understand either the teacher, or their peers, though their vocabulary knowledge is being quite sufficient. Having listened to tape scripts within a month or so those students profoundly improve their pronunciation and successfully complete the course. This fact once more proves the significance of listening to audio scripts at the lesson. Due to new technologies one and the same text can be listened to as many times as the listeners wish in three speed modes: slow, normal and fluent. Consequently, this allows the students with various levels

of ability to choose the most suitable one with further gradual speeding. During online classes the teacher can provide students with listening materials not only suggested by the course outline but with wide range of audio tasks, selected on students' desire as well, which is very important. It has been proved that education built on interest is an essence of academic success.

Web classrooms have revealed extended opportunities for the instructors in selecting materials for reading, with further appliance in reading technical articles. The instructor may start with sentence comprehension. The necessary word or term can be inserted in the drop-down menu among the other options thus making the process of choosing the proper word more joyful. While organizing the text the students have to place the sentences in such an order, to obtain an arrangement of a coherent text. In comparison with former jigsaw texts here the computer allows to compile the text with several trials, changing the position of the sentences to obtain a text. Another appealing type of the task is a series of given headings that have to be matched correctly corresponding to the given paragraphs. Most instructors have concluded that one and the same reading material when presented via computer attracts almost everybody's attention than its paper version. The duration of students' involvement lasts much longer; they display more interest in the topic discussed; do the assignments faster; catch the essence of the text more intensively and comprehensively.

Modern technology offers a lot of opportunities for improving speaking abilities as well. Learners can record their own speech with further listening, analyzing and correcting. Various sites suggest speech activities for all levels. Here the learner can compare his speech with ideal one, viewing the fluctuating curves. Though a computer is not able to completely substitute a live partner for speaking yet, which appears to be disadvantageous, nevertheless it covers this inconvenience suggesting a large variety of tasks, topics, thematic dialogues in countless methods. For those learning English as a second language, in some countries like Azerbaijan for some learners even as a third language modern programs are of remarkable value. At the moment various sites present enormous number of videos, exercises, audio books, grammatical explanations for students covering all the main types of skills including reading, writing, listening, speaking, vocabulary and grammar. All these opportunities can be referred to during online classes. The only problem here is the absence of a live partner, since speech is taught much more efficiently provided that it is held in live communication. Not to look computer illiterate the instructors have to work hard on improving their technical knowledge.

REFERENCES

1. Business Vocabulary in Use Intermediate, B.Mascull, Cambridge University Press, UK, 2010
2. Hubackova S., History and Perspectives of E-learning. Procedia-Social and Behavioral Sciences, 2015, p 189
3. Professional English in Use, ICT for Computers and the Internet, S. R. Esteras, E.M.Fabre, Cambridge University Press, UK, 2007
4. Technical Aid in Science and engineer: Passbooks Study Guide. National Learning Corporation, 2014
5. Technical English 3. D. Bonamy, Pearson Longman, 2011
6. Technical English 4. D. Bonamy, Pearson Longman, 2011
7. Штурба Я. Ю. Филологические науки. Вопросы теории и практики Тамбов: Грамота, 2012. № 7 (18)

XÜLASƏ

ONLAYN TƏHSİL SİSTEMINDƏ YENİ TEXNOLOJİ TƏTBİQLƏRİN ƏHƏMİYYƏTİ

Əhmədova G.B.

Məqalə xarici dil tədrisində texniki vasitələrin artan rolundan bəhs edir. Distant, elektron və onlayn təhsil, onlar arasında olan fərqlər, üstün və mənfi cəhətlər müxtəsər olaraq nəzərdən keçirilir. Yeni texnologiyaların tətbiq olunması xarici dil tədrisində səmərəli nəticələr alınması üçün yeni imkanlar yaratmışdır. COVİD-19 pandemiyasının yayılması ilə əlaqədar olaraq, otuz ilə yaxın mövcud olan onlayn təhsil sisteminə qəfil keçid texniki vasitələrdən istifadə məsələsini bütün kəskinliyi ilə ön plana çıxardı. Nəticə etibarilə əsas məqsəd, təhsil alanları dəstəkləmək və biliklərini inkişaf etdirmək üçün müxtəlif tədris metodları ilə yanaşı, onlayn təhsil platformalarını yüksək səviyyədə tətbiq etməkdən ibarətdir.

Açar sözlər: *onlayn təhsil, texniki vasitələr, pandemiya, texniki təhsil, distant təhsil*

РЕЗЮМЕ

ЗНАЧЕНИЕ НОВЫХ ТЕХНОЛОГИЧЕСКИХ ВНЕДРЕНИЙ В СИСТЕМЕ ОНЛАЙН ОБРАЗОВАНИЯ

Ахмедова Г. Б.

В статье рассматривается возрастающая роль технических средств в обучении иностранным языкам. Кратко рассмотрены дистанционное, электронное и онлайн-обучение, их отличия, преимущества и недостатки. Внедрение новых технологий создало новые возможности для эффективного обучения иностранным языкам. С распространением пандемии COVİD-19 переход к системе онлайн-образования существовавшего около тридцати лет высветил резкий спрос на использование технологий. В результате основная цель - использовать платформы онлайн-обучения на высоком уровне, а также различные методы обучения для поддержки учащихся и развития их знаний.

Ключевые слова: онлайн-обучение, технические средства, пандемия, техническое образование, дистанционное обучение

II BÖLMƏ. İNKLÜZİV TƏHSİLDƏ FƏNLƏRİN TƏDRİSİ METODİKASININ XÜSUSYYƏTLƏRİ

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN HƏYATINDA İNKLÜZİV TƏHSİLİN ƏHƏMİYYƏTİ

Abbasova K.M.
Azərbaycan Universiteti
Email: elmi.hisse.08@mail.ru

Xülasə: Məqalədə xüsusi qayğıya ehtiyacı olan uşaqların inklüziv təhsil proqramından, həmin proqramın əhəmiyyətindən, təlim metodikasına müvafiq olaraq inklüziv təhsil sayəsində uşaqlara qarşı hər hansı formada bərabərsizliyin qarşısının alınması yollarından danışılır. Müasir dövrdə inklüziv təhsil dedikdə uşaqların məktəbəqədər müəssisələrdə, tam orta təhsil məktəblərində dərs prosesi nəzərdə tutulur. İnklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqlara cəmiyyətə inteqrasiyada, özünəinamın formalaşmasında, öz həmyaşıdları ilə birgə ünsiyyətə girmə və sosiallaşma yolunda mükəmməl şəkildə təhsil almaq, uğur qazanmaq imkanı verir. İnklüziv təhsilin əsas vəzifəsi əlilliyi olan uşaqların peşə hazırlığı üçün sərhəd tanımayan mühit yaratmaqdır.

Açar sözlər: xüsusi qayğıya ehtiyacı olan uşaqlar, diskriminasiya, seqreqasiya, inteqrasiya, inkluziv təhsil, dövlət proqramı, valideynlər, müəllimlər

İlk növbədə onu qeyd etmək istərdim ki, hər bir azərbaycanlı ailəsinin övladı kimi, xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətimizdə rolu böyükdür. Elə məhz onların inkişafında, öz yaşıdları ilə ünsiyyət qurmasında, cəmiyyətə inteqrasiyasında, sosiallaşmasında, cəmiyyətin və ətraf mühitin də onların həyatında rolu və təsiri əvəzolunmazdır.

Valideynlər hər zaman sağlam, ideal bir uşağın xəyalını qurarlar. Xüsusi qayğıya ehtiyacı olan bir uşağın anadan olması isə onlarda müəyyən şok, məyusluq və kədərlilik kimi hislərə gətirib çıxarda bilər. Ancaq, bu yerdə valideynlər son dərəcə təmkinli, güclü, iradəli, anlayışlı və vicdanlı olmalı, uşaqlarının bu vəziyyətini tez qəbul etməli və daha diqqətlə, nəzarətlə onlara sahib çıxmalıdırlar. Çünki, xüsusi qayğıya ehtiyacı olan uşaqlar adından da göründüyü kimi xüsusi qayğıya, diqqətə, sevgiyə, anlayışa, mərhəmətə ehtiyacı olan uşaqlardır.

Valideynləri düşündürən digər əsas məqam da uşaqlarının təhsilidir. Əsasən də bəzi xüsusi qayğıya ehtiyacı olan uşaqların valideynləri uşaqlarını təhsildən yayındırır, cəmiyyətdən kənarlaşdırırlar. Bu da həmin uşaqların psixologiyasına və inkişafına mənfi təsir göstərir. Ancaq, bu gün xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili bəşəriyyət qarşısında duran əsas çağırışlardan biridir. Bu, inklüziv təhsildir. İnklüziv təhsil ümumi təhsilin elə bir inkişaf mərhələsidir ki, burada hər bir uşaqların, əsasən da əlilliyi olan uşaqların təhsilə ehtiyacı təmin edilir. Bu zaman əlilliyi olan uşaqlar ümumtəhsil müəssisələrində tipik uşaqlarla eyni siniflərdə təhsil alırlar. İnklüziv təhsilin əsas prinsipi kimi birgə təhsil alan uşaqların cəmiyyətdə də birgə yaşaması çıxış edir. İnklüziv təhsilin də bir sıra mərhələləri olmuşdur. Birdən-birə inklüziv təhsil bu formada cəmiyyətimizə inteqrasiya olunmamışdır. Həmin inkişaf mərhələlərinə sxematik olaraq aşağıda nəzər yetirək:

1. **Diskriminasiya** - Əlilliyi olan uşaqlar ümumiyyətlə təhsildən kənarda qalır, təhsildən təcrid olunurdular.
2. **Seqreqasiya** - Əlilliyi olan uşaqlar ya xüsusi məktəblərdə oxuyur, ya da evdə təhsilə cəlb olunurdular.

3. **İnteqrasiya** - Əlilliyi olan uşaqlar ümumtəhsil məktəblərdə tipik uşaqlarla birlikdə, lakin, ayrı siniflərdə xüsusi proqram əsasında oxuyurdular.
4. **İnklüziya** - Əlilliyi olan uşaqlar ümumtəhsil müəssisələrində tipik uşaqlarla eyni siniflərdə təhsil alırlar.

Son mərhələ cəmiyyətin əlilliyi olan şəxslərə münasibətin dəyişdirilməsi, təkcə hüquqlarının tanınması deyil, təhsil də daxil olmaqla, həyatın müxtəlif sahələrində onlara digər insanlarla bərabər imkanların yaradılmasını xarakterizə edir.

İnklüziv təhsil sistemində

Bütün uşaqlar öyrənmə bacarıqları ilə anadan olur. Tipik uşaqlar kimi xüsusi qayğıya ehtiyacı olan, əqli və fiziki geriliyi olan uşaqların da öyrənmək, bilik və bacarıqlarını inkişaf etdirmək və təhsil almaq hüququ vardır. Çünki, bütün şagirdlərin inkişafı onların bilik və bacarıqlarından asılıdır. Biz pianinoda ifa etməyi pianinoda ifa edərək, futbolu futbol oynayaraq, oxumağı oxuyaraq öyrənirik. Sadəcə xüsusi qayğıya ehtiyacı olan uşaqlarda bu proses biraz ləng gedə bilər. Bunun üçün də inklüziv təhsilə ilk addım kimi onların inkişafında erkən müdaxilə xüsusi rol oynayır. Uşağa erkən müdaxilə prosesi onun üçün yaşadığı hər anda inkişaf etmə imkanı verir. Beynin inkişafının 90%-i 0-3 yaş arası baş verir. Bunun üçün də uşağın həyatında 0-3 yaş çox vacib bir dövrdür. Düzdür, gec yaşlarda da inkişaf gözlənilən dir. Lakin uşağın 3 yaşına qədərki dövründə inkişaf daha sürətli gedir. Erkən müdaxilə ilə uşağın inkişafında daha uzunmüddətli nəticələr əldə etmə imkanı qazanılır. Bu, uşağın öz bilik və bacarıqlarını inkişaf etdirmək, cəmiyyətə müstəqil şəkildə inteqrasiya və adaptasiya olmaq, öz yaşıdları ilə ünsiyyətə girmək, məktəbdə daha çox uğur qazanmaq, hətta işləmək şansı deməkdir.

Keyfiyyətli erkən müdaxilə keyfiyyətli inklüziv təhsilə ilk addımdır, çünki biz uşaqları elə ilk günlərdən təhsilə yönəldirik. Erkən müdaxilə və İnklüziv təhsil digər uşaqların əldə etdiklərini xüsusi qayğıya ehtiyacı olan uşaqların da əldə edə bilməsi deməkdir. Bu, oynamaq, ünsiyyətə girmək, birgə asudə vaxt keçirmək deməkdir. Rəsmi statistikaya görə, Azərbaycanda 72 minə yaxın sağlamlıq imkanları məhdud olan uşaq var və hər il təxminən 8 min uşaq əlilliyi olan şəxs kimi qeydə alınır. Bunlardan yalnız 12 minə yaxını təhsil alır və qalanları isə kənarda qalır. Təhsilə cəlb olunanların əksəriyyəti xüsusi təhsil sistemi ilə ya xüsusi məktəblərdə, ya da evdə təhsilə cəlb olunurlar. Yəni, xüsusi qayğıya ehtiyacı olan uşaqlar digər uşaqlardan ayrılaraq, özləri kimi əlilliyi olan uşaqlarla, reallıqdan uzaq, ünsiyyətdən kənar təhsil alırlar. Belə təlim-tərbiyə üsulu isə uşaqda "mən fərqliyəm" düşüncəsini yaradır. Uşaqlarda cəmiyyətə inteqrasiyasında və adaptasiyasında bir sıra çətinliklərə, insanlarla ünsiyyət qurma problemlərinə, dünya görüşünün zəif inkişafına, özünəqapanmış bir ruh halına gətirib çıxarır və özlərini bir növ cəmiyyətdən təcrid olunmuş kimi hiss edirlər. Əlilliyi olmayan uşaqlar da eyni zamanda, əlilliyi olan uşaqla rastlaşdıqda ona bir qədər təəccüblə baxır, bəzən isə gülür və ələ salırlar. Bunun əsas səbəbi də onlar arasında ünsiyyətin olmamasıdır. Bununla da onlar bir-birilərini dərk etmir və nə hiss keçirdiklərini anlaya bilmirlər.

Bunu nəzərə alaraq, "2004-cü ildən başlayaraq Azərbaycan Respublikasında inklüziv təhsilin tətbiqi ilə bağlı təşəbbüslər qeyd olunmuş, sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması üçün "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş və bunun həyata keçirilməsinin zəruriliyi göstərilmişdir." [1]

Dövlət Proqramının məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil hüququnu təmin edərək xüsusi dəstək xidmətləri göstərilməklə inkişaf etmələrinə və öz yaşıdları ilə bərabər səviyyədə təhsil almalarına şərait yaradılmasından, ünsiyyətə girməsindən, cəmiyyətdə kollektivə

inteqrasiya olunması üçün əlverişli stimul yaratmağa imkan verməsindən ibarətdir. Çünki, həqiqi təhsil yalnız real münasibətlərin kontekstində mövcud ola bilər və bütün insanlara öz həmyaşıdlarının dəstək və dostluğu lazımdır.

Bu proqramın əhəmiyyəti isə ondan ibarətdir ki, bu yeni təhsil sistemi ilə tək əlilliyi olan uşaqlar yox əlilliyi olmayan uşaqlar da bir çox mənəvi dəyərləri və hisləri özlərində formalaşdırmaq imkanı qazanırlar. Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla birlikdə onların yaşıdları da başqalarına təmənnasız yardım etmək, onların qayğısına qalaraq onları cəmiyyətdə təcrid etməmək, vicdan sahibi olmaq kimi mühüm dəyərləri hələ uşaqkən öyrənməyə başlayırlar.

İnklüziv təhsil sitemində bu mühitin əlverişli və səmərəli keçməsi elə məhz müəllimin göstərdiyi səydən çox şey asılıdır. Müəllim sinifdə uyğun şəraitin, hər bir uşaq üçün tələbatı ödəyərək mühitin yaradılmasına səy göstərməli, təhsilə maneə ola biləcək halların baş verməsinə qarşı olmalıdır. Onu da qeyd etməliyik ki, hətta inklüziv təhsilli siniflərdə dərs deməkdən imtahan edən, bu təhsil sistemi ilə razılaşmayan və qəbul edə bilməyən müəllimlər də az deyil. Bu da müəllimlərin səriştəsindən, metodik səviyyəsindən, empatiya bacarığından və vicdanından asılıdır. Bunu bir keyslə diqqətə çatdıraq: "Üç məktəbdən qovulmuş bir şagirdi yeni məktəbə gətirirlər. Birinci dərsə girən müəllim onu görüb ürəyində deyir: "Belə uşaqlar hardan gəlir axı?" İkinci dərsə gələn müəllim yeni şagirdi görüb hirslə: "Elə bir sən çatışmırdın...", - dedi. Üçüncü müəllim isə sevinclə: "Ooo, yeni şagirdimiz var!", - deyib ona yaxınlaşdı. Əlini sıxdı, gözünün içinə baxdı, gülümsünüb dedi: "Salam, elə mən səni gözləyirdim.!" (Şalva Amonaşvili) [3]

Göründüyü kimi, xüsusi qayğıya ehtiyacı olan uşaqların inklüziv təhsil həyatında müəllimlərin özünəməxsus rolu vardır. Burada müəllimin inklüziv səriştəliliyinə çox iş düşür. Müəllim, ilk öncə inklüziv təhsilin fəlsəfəsini anlamalı, xüsusi qayğıya ehtiyacı olan uşaqların şəxsi və yaş inkişafının öz qanunauyğunluqlarını, xüsusiyyətlərini bilməli, inklüziv təlimin təşkilinin bir sıra optimal üsullarını seçməli, inklüziv sinifdə təlim prosesini layihələndirməyi bacarmalı və əsasən də motivasiyaedici xarakterə sahib olub uşaqda daima ruh yüksəkliyi və özünəinamı bərpa etməli və saxlamalıdır. Eyni zamanda, müəllimlərin rolu yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstək və təhsil verməsindən ibarət deyil, bununla yanaşı onların valideynləri arasında da bir sıra maarifləndirmə işləri aparmalıdır. Onlarla uşaqların inkişafına aid maarifləndirici seminar, konsultasiya və görüşlər təşkil olunmalıdır. Çünki, valideynlərin bəziləri fərqli uşaqlarını cəmiyyətdən kənarlaşdırır və təhsildən yayındırırlar. Buna səbəb bəzi valideynlər uşaqlarının bu vəziyyətindən utanır, hətta bunu öz ətrafından gizlədir və gələcəkdə uşaqlarının heç bir irəliləyiş əldə etmiyəcəklərini düşünürlər. Bunun nəticəsində də xüsusi qayğıya ehtiyacı olan uşaq təhsil ala bilməyərək cəmiyyətdən kənarda qalır, gələcəkdə ailənin üzərinə yük olur, özünü valideynlərindən asılı və cəmiyyətə yarasız insan kimi hiss edir. Hətta bəzi valideynlər də vardır ki, tipik uşaqlarını xüsusi qayğıya ehtiyacı olan uşaqlarla birgə təhsildən yayındırırlar. Burada da bir sıra səbəblər özünü göstərir. Bunu nəzərə alaraq, xüsusi qayğıya ehtiyacı olmayan uşaqların valideynləri ilə də maarifləndirmə işləri aparılmalıdır. İnklüziv təhsil proqramının əhəmiyyətindən, mahiyyətindən, əldə oluna biləcək nəticələrdən və dünyada, ölkəmizdə hər bir üzvümüzün bu təhsildən məlumatlı olub yararlana biləcəyindən bəhs edilməlidir.

"Məktəblər bütün uşaqları onların fiziki, intellektual, sosial, emosional, dil və digər xüsusiyyətlərinə baxmayaraq qəbul etməlidir.Bu əqli və fiziki ləngiməsi olan, xüsusi istedada malik olan, kimsəsiz, işləyən uşaqlara, etnik və mədəni azlıqlara mənsub olan uşaqlara da aiddir..." [4]

Mən düşünürəm ki, bu yeni təhsil sistemi ilə cəmiyyətimizə yeni işıq, yeni bir baxış gəldi, insanlarda empatiya hissi, mərhəmət duyğusu, dəyər və vicdan anlayışı formalaşaraq xüsusi qayğıya ehtiyacı olan uşaqlara qarşı ayrı-seçkilik və bərabərsizlik kimi hallar tədricən ortadan qalxmağa

başladı. Çünki, insanların müxtəlifliyi həyatın bütün sahələrini inkişaf etdirir. Bu baxımdan, bütün insanlar hər zaman bir-birinə lazımdır. Bunu gün keçdikcə daha bariz şəkildə görürük və bunu görmək mənim üçün olduqca sevindirici bir hala çevrilir. Çünki, fərqli uşağın taleyi məhz bizim əlimizdədir. Nə qədər fərqli olsalar da onlar bizim cəmiyyətimizin bir üzvüdür və onları ünsiyyətdən, təhsildən, sosiallaşma meyllərindən kənarlaşdırmağa və təcrid etməyə haqqımız yoxdur. Unutmamalıyıq ki, "Hər bir uşaq özəldir!

Hər bir uşaq bir möcüzə olduğunu və dünya yaranandan bəri və dünyanın sonuna qədər onun kimi başqa bir uşaq olmadığını və olmayacağını bilməlidir..!" Pablo Kasalz [2]

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli Sərəncamı
2. BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiya, 1989
3. İnklüziv siniflərdə təlimin təşkili. Bakı, 2018
4. Salamanka Deklarasiyası, 1994 il.
5. Sosial işin əsasları. Bakı, 2014

РЕЗЮМЕ
ВАЖНОСТЬ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ В ЖИЗНИ ДЕТЕЙ С ОСОБЫМИ ПОТРЕБНОСТЯМИ

Аббасова К. М.

В статье обсуждается программа инклюзивного образования для детей с особыми потребностями, важность этой программы и способы предотвращения любых форм неравенства в отношении детей посредством инклюзивного образования в соответствии с методикой обучения. В наше время инклюзивное образование означает процесс обучения детей в дошкольных и средних школах. Инклюзивное образование позволяет детям с особыми потребностями получить идеальное образование и успешно интегрироваться в общество, укрепить уверенность в себе, общаться и общаться со своими сверстниками. Основная задача инклюзивного образования - создать безграничную среду для профессионального обучения детей с ограниченными возможностями.

Ключевые слова: дети с особыми потребностями, дискриминация, сегрегация, интеграция, инклюзивное образование, государственная программа, родители, учителя

SUMMARY
THE IMPORTANCE OF INCLUSIVE EDUCATION IN THE LIVES OF CHILDREN WITH SPECIAL NEEDS

Abbasova K. M.

The article discusses the inclusive education program for children with special needs, the importance of this program, and ways to prevent any form of inequality against children through inclusive education in accordance with the teaching methodology. In modern times, inclusive education means the process of teaching children in preschools and high schools. Inclusive education allows children with special needs to get a perfect education and succeed in integrating into society, building self-confidence, communicating and socializing with their peers. The main

task of inclusive *education is to create a borderless environment for vocational training of children with disabilities.*

***Key words*:** children with special needs, discrimination, segregation, integration, inclusive education, state program, parents, teachers

TƏLİM PROSESİNDƏ (XARİCİ DİL DƏRSLƏRİNİN NÜMUNƏSİ ƏSASINDA) İNKLÜZİVLİYİN TƏMİN OLUNMASI MƏSƏLƏLƏRİ

Abdullayeva G. M.

Azərbacyan Dillər Universiteti

Xülasə: İnklüziv təhsil psixofiziki, sosial, intellektual xüsusiyyətlərindən asılı olmayaraq, bütün uşaqların təhsilə cəlb olunması, təhsildən fayda götürməsi və həmyaşıdları ilə birgə tərbiyə almalarını əhatə edir. Təlim prosesində inklüzivliyin təmini üçün prinsiplərdən ayrı-ayrılıqda deyil, vəhdət halında istifadə edilməlidir. Hal-hazırda ölkəmizdə sağlamlıq məhdudiyyəti olan uşaqlara zəruri bilik, bacarıq və vərdişlərin daha yüksək səviyyədə tədrisi məqsədilə ixtisaslı müəllim-defektoloqların hazırlanması istiqamətində böyük tədbirlər həyata keçirilir. Kadr hazırlığı ilə bərabər qüsurlu uşaqların təlim-tərbiyəsinin yüksək effektivliyi üçün vasitə və yollar tədqiq edilir, yeni pedaqoji texnologiyalar işlənib hazırlanır.

Açar sözlər: inklüziv, xarici, dil, zəka, öyrənmə

Elmi idrakın obyekti xarici aləmdə baş verən hadisələr, qanunauyğunluqlar olduğu halda təlimdə öyrənilən obyekt bəşəriyyətin əsrlər boyu əldə etdiyi, ümumiləşdirdiyi biliklərdir, təcrübə-dir. Təlimdə şagirdlər bəşəriyyətin əldə etdiyi məlum biliklərə yiyələnir, onları özləri üçün kəşf edirlər.

Təhsil sistemi əqli və fiziki vəziyyətindən asılı olmayaraq bütün uşaqları əhatə etməli, hamıya bərabər imkanlar yaratmalı, onların hər birinin fərdi nailiyyətlərinə dəstək olmalıdır. Bu prioritet məsələ kimi inklüzivliyin əsas məqsədinə çevrilməlidir. Təlim prosesində inklüzivliyin təmini təhsilalanları təlim-tədris prosesinə daxil etməkdən daha çox, spektrli qabiliyyətlərə malik və təlimdə xüsusi qayğıya ehtiyacı olan şagirdlər üçün təlim mühitinin yaradılmasını tələb edir.

Əqli və fiziki cəhətdən qüsurlu şagirdlərlə münasibətin müxtəlifliyinə baxmayaraq pedaqoji elmlər sisteminə daxil olan anomaniyalı uşaqların psixofiziki xüsusiyyətlərini, onların təlim və tərbiyə qanunauyğunluqlarını öyrənən müstəqil bir elm sahəsi – inklüziya elmi yaranmağa başlamışdır. İnklüziya elmi təlim-tərbiyə işlərini aşağıdakı sahələrə üzrə reallaşdırır:

- Surdopedaqogika - eşitmə qüsurlu (lal-kar) uşaqların təlim-tərbiyə işlərini gerçəkləşdirir;
- Tiflopedaqogika - görmə qüsurları olan uşaqların təlim-tərbiyə problemlərini tədqiq edir;
- Oliqofren pedaqogika - əqli geri uşaqların təlim-tərbiyə problemlərini tədqiq edir;
- Loqopediya - nitq qüsurlu uşaqların təlim-tərbiyə problemlərini tədqiq edir;
- Xüsusi təhsilin psixologiyası;
- Fənlərin tədrisi metodikasında inklüzivliyin təmini və s [4] .

Göstərilən bu sahələrlə bərabər pedaqogika və psixologiya ilə sıx əlaqədə olan inklüziyanın təmini mürəkkəb pedaqoji və sosioloji problemlərdən biridir. İnkişaf prosesində yaranan qüsurlar - fiziki və ya psixi pozulmalar yalnız mənfi əlamətlərin olmasını ehtiva etmir. Məhz defektologiya anormal uşaqların inkişafında müəyyən müsbət aspektlərin olmasını və bu qüsura uyğun tərbiyə prosesinin təşkili ilə həmin uşaqların ətraf mühitə tez adaptasiya olunmasını göstərir.

Tədris proseslərində inklüziv təhsilin gerçəkləşdirilməsinin aşağıdakı təşkili formaları vardır:

- Ümumtəhsil məktəblərin siniflərində;
- Ümumtəhsil məktəblərin xüsusi siniflərində (sinif-dərsdənkənar fəaliyyətində qismən inteqrasiya);
- Müəyyən vaxt xüsusi məktəbdə təhsil almış və kompensator imkanları lazımınca inkişaf etmiş uşaqların ümumtəhsil məktəblərində keçirilməsi;
- Peşə təlimi prosesində xüsusi qayğıya ehtiyacı olan uşaqların tam və ya qismən inteqrasiyası[7].

Təlim prosesində inküzivliyin təmini zamanı sinif otaqlarında istifadə edilən rəng çalarlarına diqqət yetirilməlidir. İnsanda əsəb gərginliyinin profilaktikasında rənglərin rolu və təsiri olduqca vacibdir. E.V. Babkin eksperimental tədqiqatlar nəticəsində insanda daha çox müsbət emosiyalar formalaşdıran optimal rəng diapazonu (yaşıl, sarımtıl-yaşıl və yaşımtıl-mavi rənglər) müəyyənləşdirmişdir. Rəngin fiziki xassələrindən (dalğanın uzunluğundan) əlavə, keyfiyyət və estetik mənası da nəzərə alınmalıdır. Əşyaların estetik dəyəri, onların qavranılmasının assosiativ xarakteri həmin əşyalara xas olan rənglərlə şərtləndirilir. Beləliklə, rəng öz mahiyyətini reallıqdan götürür və onun təsiri insanın ictimai təcrübəsinin də daxil olduğu faktların cəmi ilə müəyyənləşdirilir. Yuxarıdakı fikirləri nəzərə alaraq xarici dil dərslərinin tədrisi zamanı sinif otaqlarının, təlim vasitələrinin göy və mavi rəngə boyamağın daha effektiv olduğunu qeyd etməyə əsas verir. Əgər müəllim xarici dilin tədrisi zamanı bitkilərin və heyvanların adlarını öyrədərək onların düzgün tələffüzünə nail olmaq istəyirsə bu zaman əyani-vizual vasitələrdən, rəngli plakatlardan istifadə edə bilər. Ümumiyyətlə əyaniliyə əsaslanaraq xarici dillərin tədrisini daha optimal şəraitdə təşkil etmək olar.

İngilis dilinin tədrisi zamanı libropsixoterapiyadan da istifadə etmək təlim nəticələrinin yüksəlməsinə səbəbə ola bilər. Libropsixoterapiya (müalicəvi oxu) V.M.Bexterev təklif etmişdir. Xüsusi olaraq seçilmiş kitabların istifadə edilməsi minimum vəsait sərf etməklə, şagirdlərin emosional halına müsbət təsir göstərməyə imkan verir. Burada kitabların düzgün seçimi əsas şərtdir. Kitablar seçərkən inklüziv şagirdlərin yaş, fərdi və psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır. Bu metodun tətbiqi yuxarı sinif şagirdlərində effektiv hesab edilir.

Təlim prosesində xarici dili tədris edən müəllim pedaqoji ustalığın tərkib hissələri olan pedaqoji qabiliyyətlərini (akademik, didaktik, qnostik, suqqestiv, perseptiv, kommunikativ, təşkilati) inkişaf etdirməlidir. O, pedaqoji ünsiyyətin idarə edilməsi qabiliyyətinə malik olmalı, sinifin ünsiyyətdən əvvəl yaradıcı əhval-ruhiyyəsini səfərbər etməyi də bacarmalıdır. Müəllim akademik və qnostik qabiliyyətlərini inkişaf etdirərək ingilis dili fənninn bütün incəliklərinə qədər informasiyaları əldə edə bilir. Didaktik qabiliyyətlər isə xarici dilin tədrisi zamanı öyrənmə motivininin yüksəldilməsinə, sağlamlığı məhdud uşaqlara zəruri biliklərin ötürülməsində səmərəliliyinin təmininə xidmət edir. Müəllim perseptiv qabiliyyətinin vasitəsi ilə şagirdin daxili aləmini görür, suqqestiv qabiliyyətinin köməkliyi ilə isə ona iradi-emosional təsir göstərməyə müvəffəq olur. Tədris prosesinə cəlb olunan sağlamlığı məhdud uşaqlarla digər uşaqların arasında optimal əlaqələrin formalaşdırılmasında habelə, müəllimin özü ilə sağlamlığı məhdud uşaqlar arasında əlaqə bağlarının qurulmasında təşkilatçılıq qabiliyyətinin rolu əvəzedilməzdir. Pedaqoji ünsiyyətini inkişaf etdirərək müəllim həm kommunikativ, həm də təşkilati qabiliyyətlərinin inkişafına nail olur.

Göründüyü kimi təlim prosesinin effketivliyi və inklüzivliyin optimal təşkili üçün müəllimin üzərinə düşən funksiyaların icrası üçün o pedaqoji qabiliyyətlərini inkişaf etdirməli, sinif - dərs

sisteminin təşkili üçün təlim metodlarını və vasitələri düzgün təyin etməli, gündəlik hazırlığını yüksək səviyyədə təşkil etməlidir.

Araşdırmalar nəticəsində ölkəmizdə bir sıra məktəblərdə artıq inklüzivliyin tətbiq olunduğunu, inklüziv təhsilin inkişafı üçün müəyyən addımlar atıldığını görürük. Xarici dil dərslərində sinifdə müəllim-şagird münasibətləri, fənn müəlliminin inklüzivliyin təmini, şagirdlərə fərdi yanaşma və humanizm prinsipləri əsasında fəaliyyətinin nizamlaması məsələləri daim diqqət mərkəzində olmalıdır. Hər bir şagird özünəməxsus xarakteri ilə fərqlənir. İnklüzivliyin təmininə diqqət edərkən görürük ki, şagirdlərdə yüksək hərəki fəallıq, motivasiya azlığı, diqqət zəifliyi, yüksək qabiliyyətlilik, narazılıq, fiziki çətinlik və mənim ayırd edə bilmədiyim başqa fərqliliklərin də daxil olduğu təlim mühitinin təşkili məsələləri heç də nəzəriyyə kimi asan deyil. Təlim-tərbiyənin təşkili və idarəedilməsi prosesində xüsusi qayğıya ehtiyacı olan uşaqların inklüziv məktəb şəraitində, normal uşaqlarla bərabər bilik, bacarıq və vərdişlərin mənimsənilməsində, eyni zamanda onların sosial adaptasiyasında iştirak edən müəllim digər müəllimlərlə müqayisədə daha böyük məsuliyyət daşıyır. İnklüziv mühitin təşkil edilməsində fənn müəllimi yüksək təmkin, səbir nümayiş etdirməli, şagirdlərin fərdi xüsusiyyətlərini ilk gündən izləməli, onlarda təlim motivlərini müəyyənləşdirməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycanda sağlamlıq imkanları məhdud olan uşaqlara təhsil xidmətlərinin göstərilməsi haqqında tədqiqat. Müasir Təhsilə və Tədrisə Yardım Mərkəzi. 2010.
2. İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr. V Elmi-praktiki konfransın məqalələr toplusu, Bakı, Azərbaycan Respublikası, «Şərq-Qərb» Bakı-2011
3. İsmayılov E. “İnklüziv təhsil günün tələbidir”. Məqalə. “Azərbaycan müəllimi” qəzeti, 2010, 17 dekabr
4. Zeynalova N., Əhmədov H., Pedaqogika, Bakı, Elm və Təhsil, 2019
5. Peter Mittler, Working Towards Inclusive Education: social contexts. David Fulton Publishers, London. 2000
6. Robert C Heterick, Jr. The Dreaded “P” Word. Educom Review, Vol 30, No 1, Jan-Feb 1995.
7. UNESCO. The Salamanca Statement and Framework for Action on Special Needs Education. Adopted by the World Conference on Special Needs Education: Access and Quality, Salamanca, Spain, 7-10 June 1994
8. https://www.unicef.org/azerbaijan/Final_Edu_CWD_Report_AZE.pdf

РЕЗЮМЕ

ВОПРОСЫ ОБЕСПЕЧЕНИЯ ИНКЛЮЗИВНОСТИ В УЧЕБНОГО ПРОЦЕССА (НА ПРИМЕРЕ УРОКОВ ИНОСТРАННОГО ЯЗЫКА)

Абдуллаева Г. М.

Инклюзивное образование включает вовлечение всех детей, независимо от их психофизических, социальных и интеллектуальных характеристик, в образование, получение пользы от образования и воспитание вместе со своими сверстниками. Чтобы обеспечить включение в процесс обучения, принципы следует использовать в целом, а не по отдельности. В настоящее время для обучения детей с ограниченными возможностями на более высоком уровне необходимым знаниям, навыкам и привычкам принимаются большие

меры по подготовке квалифицированных педагогов-дефектологов. Наряду с подготовкой кадров изучаются инструменты и способы повышения эффективности обучения детей с ограниченными возможностями, разрабатываются новые педагогические технологии.

Ключевые слова: инклюзивный, иностранный, язык, интеллект, обучение

SUMMARY

ISSUES OF ENSURING INCLUSION IN THE LEARNING PROCESS (BASED ON THE EXAMPLE OF FOREIGN LANGUAGE LESSONS)

Abdullayeva G. M.

Inclusive education includes the involvement of all children, regardless of their psychophysical, social and intellectual characteristics, in education, benefiting from education and being brought up together with their peers. To ensure inclusion in the learning process, principles should be used as a whole, not separately. At present, great measures are being taken in our country to train qualified teachers-defectologists in order to teach children with disabilities the necessary knowledge, skills and habits at a higher level. Along with staff training, tools and ways for the high effectiveness of the education of children with disabilities are being studied, and new pedagogical technologies are being developed.

Key words: inclusive, foreign, language, intellect, learning

ƏQLİ ÇATIŞMAZLIĞI OLAN UŞAQLARDA NİTQİN FORMALAŞDIRILMASI YOLLARI

Baxşiyeva S. S.

ADPU-nun Şamaxı filialı

sevinc.baxsiyeva65@gmail.com

Xülasə: Nitq inkişafı dərslərinin hamısı, mövzu istiqamətindən asılı olmayaraq, spesifik korreksiyaedici funksiyanı yerinə yetirir. Yəni, bu dərslər tələffüz, lüğət ehtiyatı, cümlə quruluşu çatışmazlıqlarının aradan qaldırılması istiqamətində qurulur. Nitqin yeni sözlər, ifadələr, davamlı nitq konstruksiyaları ilə zənginləşdirilməsi üzrə xüsusi iş görülür. Təşəkkür, xahiş, salamlaşma bildirən kommunikativ hərəkətlərin əsasını təşkil edən qeyri-nitqi "siqnal" vasitələri (jest,mimika) formalaşdırılır.Dərsin təşkilində oyun elementlərindən istifadə uşaqların diqqətini nitqə, onun emosional komponentlərinə, məzmunun qavranılmasına cəlb edir.

Açar sözlər: dərs, nitq, tələffüz, lüğət ehtiyatı, cümlə quruluşu, oyun, kommunikativ ünsiyyət

Xüsusi qayğıya ehtiyacı olan uşağın dünyaya gəlişi bəzi ailələr üçün problem yaradır.Valideynlər arasında konflikt yaranır, onlar bir-birini günahlandırır, səbəbkar axtarırlar. Bu isə o qədər vaxt aparır ki, uşaq yaddan çıxır,valideyn övladının problemi ilə məşğul ola bilmir. Bu məsələdə onların günahlandırmaqdan daha çox körpənin problemi ilə məşğul olmaları lazımdır

Analar övladı problemləri ilə birgə varlıq kimi qəbul edir.Onun üsyanı heç vaxt uşaqla bağlı olmur,o öz uşağını canı kimi sevir,qoruyur və böyüdür.Bu bir analıq instiktidir.Ana övladının digər uşaqlardan fərqli olduğunu görür, onun üçün qayğılanır, cəmiyyətin digər üzvləri tərəfindən incidilməsindən qorxur. Qorxusunu dəf etmək üçün mütəxəssisə müraciət edir.Mütəxəssis köməyi ilə valideynlərə problemli uşaqla davranış və onu idarəetmə qaydaları

öyrədilir, belə uşaqla adekvat ,mülayim ,qarşılıqlı mehriban münasibətlərin yaradılması yolları göstərilir.Mütəxəssis yardımı ilə valideyn övladı ilə daha yaxından ünsiyyət qurmağa nail olurlar. Lakin uşağın ətraf aləmdən təcrid olunması, ailə daxilində ,xüsusi məktəblərdə təhsil alması onun özünəgüvənini sarsıdır.Belə uşaqlar zaman keçdikcə cəmiyyətdən qopur,ətrafdakılarla ünsiyyət problemi yaşayırlar.

Araşdırmalar göstərir ki,təhsilə cəlb olunan xüsusi qayğıya ehtiyacı olan uşaqların əksəriyyəti evlərində təhsil alırlar.Lakin evdə təhsil almaq üsulu müasir dövrdə səmərəli deyil.Əsas məsələ onların cəmiyyətə inteqrasiya olunmasıdır, bunun üçün də o öz həmyaşıdları ilə birlikdə təhsil almalı və ünsiyyətə girməlidirlər.

İnklüziv təhsil erkən müdaxilə ilə başlayır.Keyfiyyətli erkən müdaxilə keyfiyyətli inklüziv təhsilə ilk addımdır. İnklüziv təhsil digər uşaqların əldə etdiklərini xüsusi qayğıya ehtiyacı olan uşaqların da əldə edə bilməsi deməkdir. Bu, oynamaq,ünsiyyətə girmək, küçəyə çıxmaq deməkdir.

Əqli çatışmazlığı olan uşaqlar normal intellektual imkanları olan yaşıdlarının inkişaf etdiyi qanunlar üzrə böyüyürlər. Hər iki kateqoriyadan olan uşaqların həyatı və sosial təcrübəsiictimai münasibətlərin və əlaqələrin təsiri altında qurulur.Yəni uşağın nitqi onun yaşadığı və fəaliyyətdə olduğu mühitdə, ətrafdakılarla ünsiyyət zamanı formalaşır və inkişaf edir.

Əqli çatışmazlığı olan uşaqların kommunikativ bacarıq və vərdişlərini formalaşdırmaq üçün onlara ünsiyyət texnologiyalarını öyrətmək lazımdır.

Nitq inkişafı dərslərində vaxtın çox hissəsi xüsusi nitq situasiyalarışəraitində fəal nitq praktikasının formalaşdırılmasına və inkişafına ayrılır.Dərsin təşkilində oyun formalarından geniş istifadə etmək uşaqlarda bu sahədə olan təcrübəyə əsaslanaraq nitq konstruksiyaları obrazlarının və hərəkətlərinin yaradılması və tərbiyələndirilməsi ən effektli yol kimi qiymətləndirilə bilər.Bunu onunla izah etmək olar ki,məhz oyun elementləri uşaqların diqqətini nitqə ,onun emosional komponentlərinə, məzmunun qavranılmasına cəlb etməyə imkan verir.

Nitq inkişafı dərslərinin hamısı ,mövzu istiqamətindən asılı olmayaraq, spesifik korreksiyaedici funksiyanı yerinə yetirir,yəni bu dərslər – tələffüz, lüğət ehtiyatı, cümlə quruluşu çatışmazlıqlarının aradan qaldırılmasıistiqamətində qurulur. Bundan əlavə, nitqin yeni sözlər ,ifadələr, davamlı nitq konstruksiyaları ilə zənginləşdirilməsi üzrə xüsusi iş görülür. Təşəkkür, xahiş, salamlaşma bildirən kommunikativ hərəkətlərin əsasını təşkil edən qeyri-nitq "siqnal"vasitələri(jest, mimika) formalaşdırılır,onların adekvat istifadəsi üçün zəmin yaradılır.Məsələn:tələffüzlə bağlı "Avtomobil","Qaz", "Gələn kimdir?","Səsindən tanı","Hansı şey necə səslənir?" və s.

Əqli çatışmazlığı olan şagirdlərin şifahi nitqi öz monotonluğu,yeksənəkliyi, ifadəsizliyi ilə seçilir. Odur ki, müəllim nitqin ifadəliliyinin artırılması istiqamətində planlı şəkildə iş görməlidir. Bu iş nitqin gücü,sürəti, ton və melodikası kimi xüsusiyyətlərinin mərhələli formalaşdırılmasını nəzərdə tutur. Bununla da şifahi nitqin ekspressiv xüsusiyyətləri gücləndirilmiş və inkişaf etdirilmiş olur.

Şifahi nitqin yaradılması üçün ünsiyyətin rolu həddindən artıqdır.Təcrübələr göstərir ki, şagirdlər arasında sorğu keçirərkən onlara verilən suallar elə suallar seçilməlidir ki, şagird cavab verməyə həvəslənsin. Məsələn: "Sənin topun hansı rəngdədir?" - sualının cavabı alınmaya da bilər.Lakin oyun prosesində görülən işin təsviri ilə bağlı verilən sual onu həvəsləndirir ki, gördüyü iş haqqında məlumat versin.Ünsiyyətin formalaşdırılması və şifahi nitqə

yiyələndirmə baxımından bir sıra göstəricilər var ki, onların əhəmiyyətini qeyd etmək lazımdır. Öncə müəllim faydalı və fəal dinləyici olmalıdır. Yəni, uşağın danışığını səbirlə dinləmək və onu anlamağa çalışmaq şifahi nitqin formalaşmasına kömək edən amillərdən biridir. Şagird ona qulaq asan ,söyləmək istədiyini başa düşən dinləyici gördükdə danışmaq üçün həvəslənir.

Müəllim aydın və anlaşıqlı danışmalıdır ki, şagird onu düzgün təqlid edə bilsin.Söhbət zamanı uşağın gündəlik işlətdiyi sözlərdən istifadə edərək üç, yaxud dörd sözdən ibarət cümlələr qurmalıdır. Jest və hərəkətlərdən istifadə edərək şagirdi cavab verməyə maraqlandırmalı və həvəsləndirməlidir. Uşağın anlam dərəcəsi və danışıq qabiliyyəti artdıqca, cümlələri mürəkkəbləşdirmək olar.

Uşağın ünsiyyətqurma təşəbbüsünə şərait yaratmaq məqsədilə onunla söhbət zamanı tez-tez pauza verilməli və şagirdin söhbətə qoşulmasına kömək etmək lazımdır. Lazım gəldikdəqurulan cümlələrin düzgünlüyünə müdaxilə etmək şifahi nitqin asanlaşmasına körpü salar.

İnklüzivliyi inkişaf etdirmək üçün kolloborativ təlimatlarda Modelləşdirilmiş Oxu nümunəsi verilmişdir.Modelləşdirilmiş Oxu cütlük şəklində oxuma ,fərqli yaşlarda müəllimlər və həmyaşıdlarla öyrətmə proqramının nümunəsidir.Modelləşdirilmiş Oxu bir sıra mərhələlərdən ibarətdir:

1. Modelləşdirmə. Bu mərhələdə şagirdə nümunə göstərilir.Müəllim göstərilən sözü uşağın anlayacağı sürətdə oxuyur.

2. Söz axtarışı.Müəllim şagirdin əlilə gizlətdiyi səhifədən bir sözü yüksək səslə oxuyur.Şagird sözü təkrar edir və səhifəni açıb həmin ifadəni tapır.

3. Söz təcrübəsi.Əvvəlki mərhələdə istifadə olunan sözlərdən biri ucadan oxunur.Şagird onu təkrar edir.

4. Çevik sözyoxlanması.Bu mərhələdə müəllimin göstərişi ilə şagird öyrəndiyi sözlərdən birini oxuyur.

5. Cüt oxuma mərhələsində şagird müəllimlə birlikdə oxuyur.Lakin tanış söz seçilməlidir ki,oxu zamanı şagird səhv etməsin.

6. Tək oxuma mərhələsində şagird özü sərbəst oxuyur.Əgər hər hansı sözün oxusunda çətinlik çəkərsə, müəllim ona kömək edir.

Modelləşdirilmiş Oxu müəllimlərin şifahi göstərişlər verməklə, sistemli şəkildə stuativ nitq mühiti yaratmasına yardım edir. Təlim 15 dəqiqədən çox olmamalıdır ki, şagirdlərin oxu-oyuna marağı azalmasın.

Tədris prosesində əqli problemi olan uşaqlqrın nitqinin inkişaf etdirilməsi üçün bir sıra meyarlardan istifadə olunur ki,bunlar oyun prosesində həyata keçirilir.

1. Nitqi anlama səviyyəsinin,yəni uşaqların nitq inkişafının vəziyyətinin müəyyənləşdirilməsi üçün verilən tapşırıqlar onun müəlliminin nitqini anlamasına istiqamıtlənir. Belə ki,uşağın hər hansı bir oyuncağı digərlərindən fərqləndirməsi bacarığı, tək və cəm anlayışlarını nə dərəcədə qavraması aydınlaşır.”Oyuncağı göstər”,”şəkli göstər”,”Şəkli tap” və s. Oyunlardan istifadə edilir.

2. Görmə və eşitmə analizatorlarınınninkişaf səviyyəsinin ölçülməsi üçün verilən tapşırıqlarda səslənməsinə görə yaxın olan səslərin eşitmə ilə qavranılması, oxşar səsləri fərqləndirilməsi bacarığı aydınlaşdırılır.”Diqqətli ol”,”Oyun Exo” təlim məşğələ bu baxımdan məsləhətlidir.

3. Lüğət ehtiyatının formalaşma səviyyəsini yoxlamaq üçün “De görüm nə göstərirəm”, “Bir sözlə ifadə et”, “Əksini de” və s. Oyun-təlimlərdə uşağın lüğət ehtiyatı,əşya,əlamət, hərəkət bildirən sözlərdən istifadə dərəcəsi müəyyənləşir.

4. Sözdə heca strukturunun formalaşma səviyyəsi öyrənilir.”Ardımca təkrarla”,”Adlandır” kimi oyunlarda uşağın heca sturukturunun düzgünlüyünü saxlamaqla sözləri təkrarlamaq bacarığı inkişaf etdirilir.

5. Aktiv nitqin inkişaf səviyyəsi məyyən edilir.”Söhbət”,”Danış”,”Şeiri danış” oyun – məşğələlərdə uşağın ünsiyyətə meyilliliyi , nitqi anlama səviyyəsi yoxlanılır.

Müasir dövrün əsas tələblərindən biri xüsusi qayğıya ehtiyacı olan uşaqların inklüziv təhsilə cəlb olunmasıdır.Araşdırmalar göstərir ki,bu kateqoriyadan olan uşaqların çox az hissəsi inklüziv təhsil alır. Sağlamlıq imkanları məhdud olan uşaqların inklüziv təhsilə cəlb olunmasının bir sıra üstünlükləri vardır:

*Xüsusi qayğıya ehtiyacı olan uşaqlar kollektivə uyğunlaşır,cəmiyyətə inteqrasiyaedir;

*Onlarda özünəinam hissi formalaşır;

*Onlar cəmiyyətin digər üzvləri kimi bərabər hüquqlu şəxsiyyət kimi formalaşır;

*Gələcəkdə onların məşğulluq kimi problemi də aradan qaldırılmış olur;

Təcrübələr göstərir ki,təhsili olan fiziki qüsurlu insanın digər insanlardan heç bir fərqi yoxdur,sadəcə,onlara uşaqlıqdan qayğı göstərərək düzgün yönləndirmək lazımdır.

ƏDƏBİYYAT

1.Abbasova K.M. Xüsusi qayğıya ehtiyacı olan uşaqların erkən müdaxilə vasitəsilə keyfiyyətli inklüziv təhsili /Azərbaycan və Türkiyə Universitetləri. I Beynəlxalq elmi-praktik konfransın materialları. Ihissə. Bakı, 2019.

2.Abasova S.A. 4-5 yaş dövründə olan daun sindromlu uşaqların nitq inkişafının vəziyyəti/Azərbaycan və Türkiyə Universitetləri.I Beynəlxalq elmi-praktik konfransın materialları.I hissə Bakı, 2019

3.Xüsusi hazırlıq siniflərinin təşkili.Bakı.2001.

4.İnklüziv təhsil.Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. “İdeal Print”məətbəsi.2020.

5.İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Bakı: İdeal Print”məətbəsi, 2020.

РЕЗЮМЕ

СПОСОБЫ ФОРМИРОВАНИЯ РЕЧИ У ДЕТЕЙ С УМСТВЕННОЙ ОТСТАЛОСТЬЮ

Бахшиева С.С.

Все уроки развития речи, независимо от тематики, выполняют определенную корректирующую функцию, то есть эти уроки призваны устранить недостатки произношения, словарного запаса, структуры предложений. Осуществляется специальная работа по обогащению речи новыми словами, выражениями, слитными речевыми конструкциями, формируются неречевые «сигнальные» средства (жесты, мимика), которые составляют основу коммуникативных действий, выражающих благодарность, просьбу, приветствие.

Ключевые слова: урок, речь, произношение, словарный запас, структура предложения, игра, коммуникативное общение

SUMMARY

WAYS OF SPEECH FORMATION IN CHILDREN WITH MENTAL RETARDATION

Bakhshiyeva S. S.

All speech development lessons, regardless of the topic, perform a specific corrective function. That is, these lessons are designed to eliminate the shortcomings of pronunciation, vocabulary, sentence structure. Special work is done to enrich the speech with new words, expressions, continuous speech constructions. Non-speech "signal" means (gestures, facial expressions) are formed, which form the basis of communicative actions expressing gratitude, request, greeting.

Key words: lesson, speech, pronunciation, vocabulary, sentence structure, game, communicative communication

İNKLÜZİV TƏHSİL DİLİN TƏDRİSİ ÇƏRÇİVƏSİNDƏ

Eminli B.İ.

Sumqayıt Dövlət Universiteti

aynurebagirova8@gmail.com

Xülasə: İnklüziv təhsil əlil (fiziki və əqli qüsurlu) və bu cür qüsuru olmayan uşaqların birgə təhsili və təlimidir. Təhsilə vahid yanaşma cəmiyyətin və dövlətin sosial quruluşundan irəli gəlir. İnklüziv təhsilin effektivliyinin əsas meyarı maksimum sosial adaptasiya və gələcəkdə sağlamlıq imkanları məhdud nsanların peşəyə və işə uyğunlaşması olmalıdır. Xüsusi təhsil ehtiyacları olan tələbələrin uğurlu uyğunlaşmasına yönəlmiş xüsusi bir əhatəli mühitin yaradılması, fərdi xüsusiyyətlərini maksimum dərəcədə nəzərə alan şəxsiyyət yönümlü formalara, tədris metodlarına əsaslanmalıdır.

Açar sözlər: inklüziv təhsil; əlillər; əlil tələbələr; fiziki imkanları məhdud insanlar, təhsil mühiti

İnklüziv təhsil əlil uşaqların (fiziki və əqli geriliyi olan) və bu cür əlilliyi olmayan uşaqların birgə təhsili və təlimidir. Təhsildə əhatəli bir yanaşma cəmiyyətin və dövlətin sosial sifarişindən qaynaqlanır. İnklüziv təhsilin effektivliyinin əsas meyarı maksimum sosial adaptasiya, gələcəkdə isə sağlamlıq imkanları məhdud uşaqların peşə və əməyə uyğunlaşması olmalıdır [5.].

Xüsusi ehtiyacı olan gənclərin ictimailəşməsi yeni sosial təcrübə əldə etmək, yeni sosial rolları mənimsəmək üçün təsirli kömək göstərən yaxın mühitdən asılıdır. Bu səbəbdən, əlil tələbələr üçün inklüziv təhsil müddətində ünsiyyət, komandada münasibətlər qurmaq, bir qrupun tam hüquqlu üzvləri kimi fəaliyyət göstərmək üçün imkanlar yaradılmalıdır. Xüsusi təhsil ehtiyacları olan tələbələrin uğurlu uyğunlaşmasına yönəlmiş xüsusi bir əhatəli mühitin yaradılması, fərdi xüsusiyyətlərini maksimum dərəcədə nəzərə alan şəxsiyyət yönümlü formalara, tədris metodlarına əsaslanmalıdır.

Bir müəllimin inkişaf qüsurlu gənclərə ali təhsil müəssisəsində uyğunlaşmasına kömək etmək üçün etməsi lazım olan ilk şey psixoloji cəhətdən rahat bir təhsil mühiti yaratmasıdır.[2.] Dərs zamanı sakit bir iş mühiti tələb olunur. Müəllim heç bir halda stresli vəziyyətlərin yaranmasına icazə verməməli, vəziyyəti aradan qaldıraraq bunlardan çəkinməyi bacarmalı, məsələn, tələbələrin diqqətini başqa bir fəaliyyət növünə yönəltməlidir. Bundan əlavə universitetdə,

auditoriyadankənar işlərdə tələbələrlə tolerantlıq və bir-birlərinə hörmət barədə danışmaq məcburidir. Dil dərslərində (xüsusilə, praktik dərslərdə) tədris prosesində aşağıdakı müddəalar nəzərə alınmalıdır:

• hər bir tələbənin emosional ehtiyacları və davranışları nəzərə alınmalıdır (tələbə depressiyaya düşə bilər, geri çəkilə bilər, ləng və ya əksinə, hiperaktiv və s.);

• tapşırıqların yazılması üçün əlavə vaxtın verilməlidir. (dərslərdən sonra yazının bitməsinə icazə verilir; yaxşısı budur ki, dərsdən sonra olsun, uşaq fasilədə istirahət etsin);

• yazılı nəzarət və yoxlama işinin vaxtı barədə əvvəlcədən məlumat vermək;

• tapşırığı yenidən yazaraq nəticəni yaxşılaşdırmaq imkanı təmin etmək;

• sərbəst iş müəllim və tələbə arasındakı razılaşma ilə son tarixdən gec qəbul edilə bilər;

• yaradıcı xarakterli iş müəllimə əlyazma, çap və ya elektron formada təhvil verilə bilər (tələbələrin seçimi ilə);

• müəllimin tövsiyələrini nəzərə alaraq yaradıcı işi incəltmək və yenidən işləmək fürsəti vermək.

• şərait yaradılmalıdır ki, güclü tələbə bir daha zəif tələbəyə mövzunu izah etsin.

• nəzarət olaraq həm yazılı, həm də şifahi fərdi tapşırıqlar verilir.

• dərsin aktivliyində və formasında gözlənilməz bir dəyişiklik kömək etmək olar, (ekskursiya, oyun, viktorina.) dərs bir mahiyyət olaraq qalaraq dərs olmaqdan çıxır. Bununla birlikdə, didaktik oyun və əyləncə arasındakı sərhədləri incə şəkildə hiss etmək lazımdır.

• fərqli idrak qabiliyyəti olan tələbələrin təhsil aldığı qruplarda hər birinin nailiyyətlərini izləmək lazımdır.

Hazırda yeni tələblərə uyğunlaşmağı bacaran ali təhsil müəssisələri var. Məsələn, Ural Dövlət Pedaqoji Universiteti gözdən əlil tələbələr üçün şərait yaradıb. Bunlar fərdi vahid işıqlandırma, böyük çap dərs vəsaitləri və s. yaradılmışdır. Sankt-Peterburq Dövlət İqtisad Universitetində hərəkət məhdudiyyəti olan tələbələr üçün məsafədən təhsil texnologiyalarına əsaslanan electron tədris tətbiq olunmuşdur. Çelyabinsk Dövlət Universitetində maneəsiz bir memarlıq mühiti yaradılmışdır: keçidlərdə giriş rampaları, liftlər, panduslar, mühazirə salonlarının birinci sıralarında xüsusi təchiz olunmuş təlim yerləri, ümumi sahələr var. Görmə qüsurları olan tələbələr üçün tiflo-texniki sinif, eşitmə qüsurlu olanlar üçün audioloji sinif yaradılmışdır. Moskva Dövlət Psixologiya və Təhsil Universiteti Respublika Dövlət Kitabxanasının bazasında gözdən əlil tələbələr üçün 5 səsli dərslik hazırlanmışdır. Əlil uşaqlar üçün məlumatların təqdim edilməsində müxtəlif dəyişikliklərə ehtiyac var. Hazırda universitetdə əlil tələbələr üçün inklüziv təhsilin təşkilində çətinliklər də var. [1]

Bu problemləri həll etmək üçün əlillər tərəfindən qanuna uyğun olaraq yüksək peşə təhsili almasını təmin edən xüsusi şərait yaratmaq lazımdır. Bunlara inklüziv təhsil sahəsində qabaqcıl təhsil almış universitet müəllimlərinin təcrübəsinin artması, əlilliyi olan şəxslər və əlillər üçün təhsil proqramlarının uyğunlaşdırılması və təhsil prosesinin tədris-metodiki təminatı, məsafədən təhsil texnologiyalarından istifadə edərək tədris prosesinin təşkili, maneəsiz sosial-mədəni mühitin yaradılması daxildir.

ƏDƏBİYYAT

1. Инклюзивное образование в России. ЮНИСЕФ. М., 2011.
2. Инклюзивное образование: право, принципы, практика. М., 2009.
3. Малофеев Н.Н. Специальное образование в меняющемся мире. Европа. Уч. пос. для студентов пед. вузов. – М.: Просвещение, 2009.

4. Лешер О.В., Деменина Л.В. Инклюзивное обучение студентов университета: комплекс научных подходов [Электронный ресурс]: Современные проблемы науки и образования. - 2015. - №1. - Режим доступа: www.science-education.ru/121-18603.
5. Пугачев А.С. Инклюзивное образование // Молодой ученый. 2012.

РЕЗЮМЕ
ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ В РАМКАХ ОБУЧЕНИЯ ЯЗЫКУ
Эминли Б.И.

Инклюзивное образование - это совместное образование и обучение детей с ограниченными возможностями (с физическими и умственными недостатками) и детей без таких нарушений. Комплексный подход к образованию проистекает из социального устройства общества и государства. Основным критерием эффективности инклюзивного образования должна быть максимальная социальная адаптация, а в перспективе адаптация детей с ограниченными возможностями к профессии и работе.

Ключевые слова: инклюзивное образование, инвалиды, студенты с ограниченными возможностями, люди с ограниченными возможностями, среда обучения

SUMMARY
INCLUSIVE EDUCATION IN THE FRAMEWORK OF LANGUAGE TEACHING
Eminli B.I.

Inclusive education is the joint education and training of children with disabilities (with physical and mental disabilities) and children without such disabilities. A comprehensive approach to education stems from the social order of society and the state. The main criterion for the effectiveness of inclusive education should be maximum social adaptation, and in the future the adaptation of children with disabilities to the profession and work.

Key words: inclusive education, people with disabilities, students with disabilities, people with limited opportunities, learning environment

İNKLÜZİV TƏHSİLDƏ İNNOVATİV METODLARDAN İSTİFADƏ

Kərimova G.H.
Bakı Dövlət Universiteti
reraro@mail.ru

Xülasə: Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmaq üçün informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodlarına istinad etmək yüksək nəticələr verir. Bu cəəhətdən davamlı olaraq mütərəqqi tədris metodlarının yaradılması, innovasiyaların tətbiqi və müəllimlərin səriştəsinin artırılması təhsil siyasətində mühüm yer tutmalıdır.Bu gün məktəblərimizdə pedaqoji prosesdə, inklüziv təhsildə innovasiyaların tətbiqi, interaktiv təlim metodlarından istifadə getdikcə genişlənməkdə və artmaqdadır.

Açar sözlər: inklüziv təhsil, təhsil strategiyası, müəllim.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramında göstərildiyi kimi, humanistləşdirmə, demokratikləşdirmə, humanitralaşdırma, inteqrasiya, diferensiallaşdırma, fərdiləşmə, innovasiyalardan istifadə prinsiplərinə əsaslanaraq təhsil alanın elmi dünyagörüşünün formalaşdırılması milli zəminə, ümum bəşəri dəyərlərə əsaslanan bütün qurumların fəaliyyətini təhsil alanın mənafeyinə xidmət etmək, şəxsiyyəti formalaşdırmaq, sosial həyata hazırlamaq məqsədi təhsilin qarşısında duran mühüm məsələlərdir [1].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qeyd etdiyi kimi, intellektual, etik və estetik inkişafın, zəkanın, elmi dünyagörüşün təkanverici amili İKT, yeni pedaqoji texnologiyalar, innovasiyalardır ki, bunlar təhsilin bütün sahələrinə o cümlədən inklüziv təhsilə də tətbiq edilməlidir: "Təhsil əsri" adı qazanmış XXI əsr Azərbaycan təhsilinin də yeniləşməsini və müasirləşməsini tələb edir". Cənab Prezidentin təhsil sektoru qarşısında qoyduğu tələb - "Azərbaycan təhsilinin yeniləşməsini və müasirləşməsi" tələbi təhsilin kompleks informatlaşmasını, təhsil sistemində İKT-dən intensiv istifadəni, virtual təhsilin, distant təhsilin imkanlarından geniş istifadə edilməsini tələb edir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının ikinci strateji istiqaməti təhsilin bütün sahələrində - o cümlədən inklüziv təhsildə insan resurslarından səmərəli istifadə etməyi və innovasiyaların tətbiqini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən sərişt əli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsini tələb edir. Həmçinin tələb olunur ki, inklüziv təhsilə cəlb edilənlərin istedadının aşkar olunması və inkişafı ilə bağlı ardıcıl sistemli iş aparılsın. Belə uşaqların xüsusi istedad qabiliyyət və bacarıqları olur ki, onu müəllim, tərbiyəçi üzə çıxarmalıdır. Təhsil strategiaysının bu istiqaməti xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının və xüssui metdların yaradılmasını, innovasiyaların tətbiqini tələb edir. İnnovasiya bir pedaqoji fəaliyyət olaraq təhsilə yenilik gətirir, təhsil prosesinin təkmilləşdirilməsinə , bilik keyfiyyətinin yüksəlməsinə xidmət edir. İnnovasiya — yüksək səmərələliyə malik yeniliyin tətbiqi, insanın intellektual fəaliyyətinin, kəşfinin, ixtirasının son nəticəsi deməkdir. İnnovasiya termini latın sözü olub "innovato" sözündən olub, "yenilənmə", "yeniliyin tətbiqi" deməkdir.

Ölkəmizin Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar siyasətinin başlıca məqsədlərindən biri də ölkəmizdə təhsilin bütün sahələrində innovasiyaların inkişafı üçün zəruri olan bütün şərait və imkanların, son nəticədə rəqabətədavamlı milli innovasiya sisteminin yaradılmasıdır. Hazırda cəmiyyətimizin bütün səviyyələrində o cümlədən təhsil sahəsində, inklüziv təhsildə innovasiya fəaliyyətinin genişləndirilməsi və tətbiqinin sürətləndirilməsi istiqamətlərdə stimullaşdırıcı mexanizmlər işlənib hazırlanır və təkmilləşdirilir.

Bu gün inklüziv təhsilin qarşısında qoyulan vəzifələri həyata keçirmək üçün yeni pedaqoji texnologiyalardan, innovativ metodlardan geniş istifadə edilməlidir.

Bəs bu innovasiyaları təhsilə gətirən kim olmalıdır? Təbii ki ilk növbədə müəllim. Müəllimin yaradıcı fəaliyyəti, tədqiqatçılıq qabiliyyətləri, sərişt əliliyi və peşəkarlığı onun fəaliyyət göstərdiyi işində yeniliklərdən istifadə etməyi və özünün də innovativ fəaliyyəti bu işin uğurlu təminatına səbəb olar.

İnnovativ fəaliyyət daha çox "necə öyrətmək" məsələsini özündə ehtiva edir. Təhsil Strategiyasında göstərilir ki, "Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim

metodları daha yüksək nəticələr verir. Həmin məqsədlə, davamlı olaraq mütərəqqi tədris metodlarının yaradılması və müəllimlərin səriştəsinin artırılması təhsil siyasətində mühüm yer tutur" [2]. Bu gün məktəblərimizdə pedaqoji prosesdə, inklüziv təhsildə interaktiv təlim metodlarından istifadə getdikcə genişlənməkdə və artmaqdadır.

Müasir təlim metodlarından və İKT-dən istifadə sinif mühitində dəyişiklik etməyə və müəllimlə şagird arasında, şagirdlərin öz aralarında və məktəblə ev arasında baş verən qarşılıqlı əlaqələr qurmağa imkan yaradır. Son zamanlar inklüziv təhsildə Azərbaycanda tətbiq olunan müasir təlim metodikalarından fəal və interaktiv təlim üsullarından və İKT-dən istifadə olunur.

Hər bir müəllim, diqqətlə və ağılla, həmin nəzəriyyələrdən irəli gələn tədris üsullarından istifadə edərək səmərəli öyrənmə və şagirdlərin təhsildə təşəbbüskarlıq göstərməsi üçün onlar ü çün xüsusi təlim proqramı da hazırlaya və pedaqoji fəaliyyətində tətbiq edə bilər.

Müasir təlim metodlarından və İKT-dən istifadə cəmiyyətin dəyərli vətəndaşları olmağa hazırlaşan, fəal və hər şeylə maraqlanan şagirdlərin bir yerdə təhsil aldığı xüsusi siniflərin yaradılmasında müəllimlərə yol göstərəcəkdir. Bu isə təfəkkürə, yeniliyə, yaradıcılığa üstünlük verən müəllimlərin heç vaxt bitib-tükənməyən axtarışları deməkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respyblikasının təhsil sahəsində İslahat Proqramı. Bakı, Çaşıoğlu , 1999, 65 s.
2. "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı. "Xalq" qəzeti, 25 oktyabr 2013-cü il

РЕЗЮМЕ
ИСПОЛЬЗОВАНИЕ ИННОВАЦИОННЫХ МЕТОДОВ В ИНКЛЮЗИВНОМ ОБРАЗОВАНИИ

Каримова Г.Г.

В статье раскрываются особенности инновационных технологий в инклюзивном образовании, состоящие в оптимизации посредством информационно-коммуникационных технических средств процесса обучения лиц с ограниченными возможностями здоровья. Рассматриваются возможности инновационных технологий в процессе обучения лиц с нарушениями слуха, зрения, опорно-двигательного аппарата, а также с нарушением здоровья, вызванного соматическим заболеванием.

Ключевая слова: образования, стратегия образования, учитель

SUMMARY
USE OF INNOVATIVE METHODS IN INCLUSIVE EDUCATION

Karimova G.G.

The article reveals the features of innovative technologies in inclusive education, which consist in the optimization of the learning process of persons with disabilities through information and communication technical means. The possibilities of innovative technologies in the process of teaching people with hearing impairments, vision impairments, musculoskeletal system impairments, as well as health impairments caused by a somatic disease are considered.

Key words: education, education strategy, teacher

“RİYAZİYYATIN İBTİDAİ KURSUNUN TƏDRİSİ METODİKASI” FƏNNİNİN TƏDRİSİ PROSESİNDƏ İNKLÜZİV TƏHSİLİN ÖYRƏDİLMƏSİNİN METODİK SİSTEMİNİN OPTİMALLAŞDIRILMASI

Kərimova M. N.
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı
kerimova.mexriban@mail.ru

Xülasə: Məqalədə inklüziv təhsildə öyrənmə metodları araşdırılmış, refleksiya yolu ilə öyrənmənin üstünlükləri qeyd edilmişdir. “Refleksiv müəllim necə olmalıdır?” sualına cavab axtarılmışdır. Eyni zamanda məqalədə inklüziv təhsildə təlim prosesində akkomodasiya və modifikasiya strategiyalarını fərqləndirməyi bacarmaqla yanaşı uyğun olaraq onlardan yerində istifadə etmək üçün müəllimlər qarşısında duran əsas vəzifələrin nədən ibarət olması haqqında geniş məlumat yer almışdır.

Açar sözlər: inklüziv təhsil, özünürefleksiya, refleksiv müəllim, akkomodasiya, modifikasiya

“Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyanı imzalayan tərəflərdən biri kimi, Azərbaycan Hökuməti ölkədə inklüziv təhsili həyata keçirmək öhdəliyini üzərinə götürmüşdür. Hökumət inklüziv təhsilin tətbiqində boşluqların olduğunu qəbul edir və onları aradan qaldırmaq üçün önəmli addımlar atmışdır. 2017-ci ildə Hökumət əlilliyi olan şəxslərin digərləri ilə bərabər əsaslarla təhsil imkanlarına malik olmasını təmin etmək, tam və faydalı inteqrasiyanın təşəkkül tapmasına mane olan əngəlləri aradan qaldırmaq üçün “ 2018-2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlər Proqramı”nı qəbul etdi . [1] Azərbaycanda inklüziv təhsilin tətbiqini dəstəkləmək üçün bir sıra təşəbbüslər həyata keçirilib. Təhsil nazirliyi UNİCEF ilə əməkdaşlıq çərçivəsində ölkədə inklüziv təhsil komponentli ilk pilot məktəbləri işə salıb. İnklüziv təhsil komponentli pilot məktəblər üzrə aparılmış qısa qiymətləndirmənin nəticələri göstərir ki, məktəb icmalarındakı yanaşmalar və dəyərlər, habelə xüsusi pedaqoqlarla əməkdaşlıq baxımından pilot məktəblərdə nümunəvi təcrübələr müşahidə olunur. [2]

İnklüziv Təhsildə inam, paylaşma və dəstək mühitinin formalaşdırılmasını həyata keçirmək məqsədilə müəllimlərin hazırlıq səviyyəsinin qiymətləndirilməsinin nəzərdən keçirilməsi əsas şərtlərdəndir. İnklüziv Təhsildə müəllimlər necə öyrənir? Qeyd edək ki, öyrənmə davamlı fəaliyyətdir. Öyrənmə bir günlük seminarlarda və ya təlim sessiyalarında baş vermir. Müəllimlər nadir hallarda seminarlardan ekspert səviyyəsində biliklər və yeni ideyaların tətbiqi üçün bütün zəruri bacarıqları əldə edirlər. Müəllimlərin yeni təcrübənin tam başa düşməsi və tətbiq edə bilməsi üçün onlara vaxt, eyni zamanda yeni konsepsiya və təcrübələrin içərisində olmaq lazımdır. Müəllim inkişafı yalnız davamlı və fasiləsiz olduğu halda baş tutur. Müəllimlərin öyrənməsi üçün ən yaxşı mühit öz məktəbləridir. Yəni müəllimlər birgə öyrənir.

Öyrənmə sosial fəaliyyətdir. Məktəbdə inam və bilik mübadiləsi mədəniyyəti, əməkdaşlıq mexanizmləri mövcud olduqda müəllimlər daha yaxşı öyrənirlər. Müəllimlər dəstək göstərilən şəraitdə, əməkdaşlıq etdikdə, öz sinif otaqlarında yeni yanaşmaları sınaqdan keçirməyə daha meyilli olurlar. Bu, müəllimlərin fəaliyyətinin səmərəliliyinin artmasına və şagirdlərin nəticələrinin yaxınlaşmasına gətirib çıxarır. İnklüziv Təhsildə bilik dinamikdir. Biliyə çox zaman nəzəriyyə və konsepsiyaların sabit toplusu kimi yanaşılır və fərz edilir ki, müəllimlərə, məsələn, inklüziv təhsilin tətbiqi ilə bağlı biliklər aşılayanda, onlar avtomatik olaraq bunu öz məktəblərində tətbiq edəcəklər. Lakin inklüziv təhsil çox mürəkkəb bir məfhumdur. İnklüziv

təhsilin tətbiqinin elə bir modeli yoxdur ki, bütün məktəblərdə uğurlu şəkildə həyata keçirilsin. Çünki hər bir məktəb icması fərqlidir və inklüziv təhsilin tətbiqi üçün müxtəlif kontekstual amilləri, təlimə mane olan müxtəlif əngəlləri aradan qaldırmalıdır. Buna görə də müəllimlərə təqdim olunan nəzəriyyə və biliklərin sabit toplusu yoxdur. Müəllimlər birlikdə tənqidi refleksiya fəaliyyətində iştirak etməyə, həmçinin öz məktəb icmalarında öz vəziyyətlərini təhlil etməyə və yerli çətinlikləri aradan qaldırmaq üçün yerli strategiyalar tapmağa həvəsləndirilməlidirlər.

İnklüziv Təhsildə öyrənmə aktiv fəaliyyətdir. Müəllimlər əldə etdiyi biliyi tətbiq etdikdə yaxşı nəticələr əldə olunur. Ənənəvi müəllim inkişafı prosesində öyrənmə çox zaman passiv xarakter daşıyır. Təlimçi ənənəvi olaraq, müəyyən məzmun təqdim edir. Bəzən təlimçi yeni məzmun təqdim etməzdən əvvəl iştirakçılar bu məzmunu müzakirə etməyə və öz fikirlərini bölüşməyə dəvət olunurlar. Bu yanaşma öyrənmə fəaliyyətinin çox passiv olmasına səbəb olur. Müəllimlər əsasən biliklər qəbul edir, lakin bu bilikləri təcrübədə tətbiq etməyi öyrənmirlər və bununla bağlı dəstək almırlar. Aktiv müəllim isə qrup müzakirələri və ya seminarlarda keçirilən oyunlarla məhdudlaşmır. O, yeni konsepsiya və təcrübələrlə geniş şəkildə işləməyi və əsas anlayışların və prinsiplərin real vəziyyətlərdə tətbiqini ehtiva edir.

İnklüziv Təhsildə öyrənmə metodlarını xarakterizə edərkən refleksiya yolu ilə öyrənmənin daha prespektiv olduğunu qeyd etmək olar. Refleskiya yolu ilə öyrənmə müəllimlərə bilik və bacarıqlarını tətbiq etmək, düşünmək, təlim üsulunu dəyişərək daha yaxşı nəticələr əldə etmək imkanı verir:

- Fərdi refleksiya fasilə vermək və düşünmək üçün faydalıdır. Öyrəndiklərini mənimsəmək üçün müəllimlərə fərdi refleksiya etmək lazımdır. Bu metod fərdi şəkildə öyrənənlər üçün uyğundur.
- Qrup müzakirələri – kiçik qruplar şəklində aparılan müzakirələr müxtəlif baxış bucaqlarını öyrənməyə kömək edir. Bu metod qrup və şifahi şəkildə öyrənənlər üçün uyğundur.
- Nümunəvi hallar – yazılı mətnlər, videolar ola bilər. Nümunəvi halların tədqiqi real sinif otağı situasiyaları ilə əlaqə qurmağa kömək edir. Bu metod məntiqi şəkildə öyrənənlər üçün uyğundur.
- Simulyasiyalar – yeni bacarıqları təcrübədən keçirməyə kömək edir. Bu metod fiziki şəkildə öyrənənlər üçün uyğundur.
- Dərslərin əməkdaşlıq şəklində planlaşdırılması – müəllimlər bir araya toplanaraq dərs planlarını hazırlamaq üçün birgə çalışırlar. Daha sonra sinif otağında dərs keçirilməsi, nəticələri yaxşılaşdırmaq üçün həmkarların müşahidə aparması və rəylər verməsi arzuediləndir. Bu metod məntiqi və qrup şəkildə öyrənənlər üçün uyğundur.
- Açıq dərs – təcrübəli müəllimlərdən biri sinif otağında yeni anlayışları tətbiq edərkən həmkarları onu müşahidə etmək üçün dəvət edilir. Bunun ardınca refleksiya və müzakirə sessiyası aparılır. Bu metod şifahi və vizual şəkildə öyrənənlər üçün uyğundur.
- Təlim qrupları – bu qruplar təlimin əməkdaşlıq aspektinə köklənir. İştirakçılar ortaq bir problemi həll etmək və ya yeni anlayışların tətbiqini planlaşdırmaq üçün birlikdə çalışırlar. Qruplar öz tapdıqları və ya təlimçi tərəfindən təqdim olunan materialları oxuyur, refleksiya edir, müzakirə edir, planlaşdırır və yazırlar. Bu metod məntiqi və qrup şəkildə öyrənənlər üçün uyğundur.
- Şagirdin işinə baxmaq. Dərsin daha yaxşı planlaşdırılması üçün şagirdlərin təlim nəticələri, onların necə öyrənməsi, bunun dərsi planı ilə necə əlaqələndirildiyi barədə refleksiya üçün şagirdlərin işinə baxmaq olar. Bu metod məntiqi şəkildə öyrənənlər üçün uyğundur.
- Tapşırıq. Bu fəaliyyət təlim sessiyaları arasında keçirilir. Bu, təlim sessiyalarının

davamlı öyrənmə təcrübəsinə çevrilməsinə kömək edir və məzmunun faktiki tətbiqinə töhfə verir. Tapşırıqlara video roliklərə baxmaq, materialları oxumaq, resursları axtarmaq, əməkdaşlıq şəraitində dərsin planlaşdırılması, birgə tədris, bir-birinin dərslərini müşahidə etmək və rəy vermək, sınaq dərsləri daxildir. Bu metod bütün növ öyrənənlər üçün uyğundur.

Bəs refleksiv müəllim olmaq niyə görə vacibdir? Müəllimlər özünürefleksiya zamanı sinif otağında etdiklərinə nəzər salır, onları niyə etdiyi və niyə etdiklərinin nə qədər yararlı olduğu barədə düşünür. Refleksiv müəllimlər daha effektiv müəllimlərdir.

Öyrətmək müərəkkəb bir peşədir. Müəllimlər çox zaman sinif otağında təkdir. Adətən bir çox şey eyni zamanda baş verir və müəllimlər çox sürətli qərar verirlər. Bu qərarlar sinif otağında uşaqların öyrənməsinə təsir göstərir. Sinif otağında baş verənlər haqqda məlumat toplamaq və onları təhlil etmək yolu ilə müəllimlər öz fəaliyyətlərinə və bunun əsasında duran inanclara nəzər salırlar. Bu, növbəti dərs üçün alternativlər və dəyişikliklər barədə düşünməyə kömək edir.

Sinif otağındakı fəaliyyəti refleksiya etmək üçün müxtəlif üsullar mövcuddur. Fəaliyyəti yaxşılaşdırmaq üçün refleksiyadan istifadə barədə sistemli şəkildə düşünmək üçün mütəmadi olaraq qısa sorğu anketinə diqqət yetirmək kifayətdir. Özünürefleksiya üsulları aşağıdakılardır:

- **Fərdi refleksiya** – fəaliyyətiniz barədə düşünmək. Əvvəlcədən hazırlanmış qısa anketləri doldurmaq. Daha yaxşı nailiyyət əldə etmək üçün nə etdiyinizə, nə üçün etdiyinizə, hansı nəticəni əldə etdiyinizə və üsulunuzdan hansı dəyişikliyə ehtiyac olduğuna nəzər salmaq vacibdir.
- **Həmkar müşahidəsi** – iş yoldaşlarınızdan biri sinif otağına gələrək dərsiniz barədə məlumat toplayır. Məqsəd qiymətləndirmək deyil, bir-birinizdən öyrənməkdir. Daha sonra müşahidənin nəticələri müzakirə olunur.
- **Dərslərin qeydə alınması** – Dərslər video və ya audio qeydiyyata alınır. Bu, refleksiya üçün çox faydalı informasiyanı təmin edə bilər. Bəzən müəllim sinifdə baş verənlərdən xəbərdar olmur və ya diqqətindən qaçırır. Video və ya audio yazıları ortaq refleksiya və öyrənmə üçün həmkarlarla paylaşmaq olar.
- **Şagirdlərin rəyi** – şagirdlərdən sinif otağında baş verənlər barədə düşüncələrini soruşmaq lazımdır. Onların fikirləri və nəzər nöqtələri fərqli ola bilər. Şagirdlərin fikrini sadə anketlər və ya öyrənmə gündəlikləri vasitəsilə aşkarlamaq olar. Bu, eyni zamanda şagirdlərə müşahidə aparmaq, refleksiya etmək və müsbət rəy vermək təcrübəsini qazandıracaq.

İnklüziv Təhsildə çoxsaylı təlim üsullarını qeyd etmək olar. Şagirdlər müxtəlif yollarla öyrənirlər. Əksər şagirdlər öyrənmə prosesində öyrənmə üçün olan fərqli yolların hamısından istifadə edir. Müəllimlər bütün uşaqların iştirakını və birlikdə öyrənməni təmin etmək üçün müxtəlif təlim yanaşmalarından istifadə edərək təlimin çoxsaylı üsullarını asanlaşdırılmalıdır. Uşaqyönümlü pedaqogikada müəllimlər düşünən təcrübəçilərə çevrilirlər. Onlar daim düşünməyə sövq edilirlər:

- Onların sinfindəki uşaqlar ilə ən rahat təlim üsulu hansıdır?
- Niyə bəzi uşaqlar təlimdə başqaları kimi eyni sürətlə irəliləmir?
- Bütün uşaqların öyrənmə və nailiyyət qazanmasını təmin etmək üçün istifadə olunan strategiya və üsullar hansıladır?
- Strategiya və üsulların hamı üçün əlyetərliliyini təmin etmək üçün resurslar, fəaliyyətlər və ya yanaşmalar necə təzimlənməlidir?
- Uşaqların motivasiyası necə yüksəldilməli və təlimə cəlb olunmalıdır?

Mədəniyyətlə bağlı amillər (evdən gələn tərbiyə) uşaqlar ilə müəllimlər və valideynlər arasında qarşılıqlı əlaqəni necə formalaşdırır? Dərsin mövzusu, şagirdlərin xüsusi öyrənmə yolları, məzmun və müəllimlərin bacarıqları və s. kimi bir çox amillərdən asılı olaraq müəllimlər

müxtəlif tədris yanaşmalarından istifadə edəcəklər, məsələn: uşaqlara biliklərini kəşf etmək, ifadə etmək, öyrənmək və möhkəmləndirmək üçün imkanlar yaratmaqla.

- Uşaqlara öz tədqiqatlarını aparması və problemi həll etmək üçün bacarıqlarından istifadə etməsində sərbəstlik verilməsi və təbii istedadlarından ən yaxşı şəkildə istifadə etmələri məqsədilə necə istiqamətləndirilməlidir?

Uşaqların müxtəlif yollarla öyrəndiklərinin qəbul edilməsi:

- Bütün uşaqlar müxtəlif yollarla, müxtəlif anlarda öyrənirlər;
- Şifahi: danışılan və ya yazılan sözlər ilə öyrənmə (yaddaş, xatırlama);
- Məntiqi: mülahizələr (rəqəmlər, nümunələr, ölçülər) və hesablamalar vasitəsilə öyrənmə;
- Vizual (əyani/görmə): əyani vəsaitlər ilə öyrənmə (xəritələr, diaqramlar, şəkillər);
- Bədən: hərəkət vasitəsilə öyrənmək (oyun, səhnəcik);
- Musiqi: səslər (qafiyə, ritm, təkrarlama) vasitəsilə öyrənmə;
- Şəxsiyyətlərarası: qrup işi vasitəsilə öyrənmə (sosial əlaqələr);
- Şəxsiyyətdaxili: fərdi təhlil üsulu ilə öyrənmə (fərdi iş, fikri cəmləmək).

Şagirdlərin öyrənmə metodlarını bilmək üçün müşahidə və təhlil zəruridir. Eyni kurikulm məzmununun təlimi üçün müxtəlif üsul və strategiyalardan istifadə edilməli və fəaliyyətlərin hamı üçün mənimsənilən olmasını təmin etmək məqsədilə tənzimləmələr edilməlidir.

İnklüziv Təhsildə təlim prosesində akkomodasiya və modifikasiya strategiyalarını fərqləndirməyi bacarmaq və uyğun olaraq istifadəsi müəllimlər qarşısında duran əsas vəzifələrdən hesab olunur.

Müəllim tədris materialının uyğunluğunu təhlil etdikdən sonra seçdiyi təlim metodunun uyğun olub-olmağıdını müəyyənləşdirməyə çalışmalıdır. İstənilən metodların tətbiqi ilkin şərt kimi şagirdlərə müəyyən bilik və bacarıqların olmasını nəzərdə tutur. Müəllimlər dərsdə istifadə etmək üçün seçdikləri metodların tətbiqi zamanı şagirdlərin hansı potensial çətinliklərlə üzləşə biləcəklərini müəyyən etməlidirlər. İstifadə ediləcək təlim metodlarının təhlili zamanı müəllimlərin bu və ya digər metodunun uğur qazanmasının şərti kimi aşağıdakı bacarıqları nəzərdən keçirmələri zəruridir: əqli, sosial, müstəqil öyrənmə, fiziki.

Təlim metodlarının təhlili müxtəlif ehtiyacları olan uşaqlar üçün təlimin planlaşdırılmasında birinci mərhələdir. Növbəti mərhələ uşaqların müxtəlif ehtiyaclarına uyğun olan metodların istifadə olunmasından ibarətdir. Bu isə təlimdə uyğunlaşdırma (akkomodasiya) və dəyişikliklərin (modifikasiyaların) həyata keçirilməsinin tələb edir. [3]

Akkomodasiya tədris materialının məzmununu və anlama baxımından mürəkkəbliyini dəyişmədən təlimin xarakterini dəyişir. Akkodomasiya termini əlilliyi olan uşağın cəmiyyətdə adaptasiyasına şərait yaradan mühit və ya təchizatın dəyişdirilməsini tərif etmək üçün istifadə olunur. Əlilliyi olan uşaqların nizamlı şəkildə təlim kursuna davam etmələrini təmin edir. Akkomodasiya öyrənməni fərdiləşdirən, materialı dəyişdirmədən öyrətməyə təşviq edən taktika və strategiyadır. Akkomodasiya nümunələri bunlardır:

1. Eşitmə məhdudiyyəti olan uşaqlar üçün işarət dili tərcüməçiləri
2. Görmə məhdudiyyətli uşaqlar üçün elektron mətn danışma sistemləri
3. Kiçik motorika məhdudiyyətləri, görmə məhdudiyyətli və ya öyrənmə çətinliyi olan şagirdlər üçün uzun zamanın verilməsi
4. Görmə məhdudiyyətli uşaqlar üçün böyük hərfli kitablar və s.

Müəllimlər təlim prosesinə tam cəlb olunmaları üçün uşaqlara bərabər imkanlar yaratmaq məqsədilə akkomodasiyaları həyata keçirirlər. Başqa sözlə, akkomodasiyalar uşaqlara təlim prosesində iştirak etmək imkanı verir, onlara hansısa bir üstünlük verir. Təlim prosesində

akkomodasiyaları həyata keçirmək üçün bir çox üsullar var. Sinifdə aşağıdakı sahələr üzrə akkomodasiyaları həyata eçirmək olar:

- **Fiziki mühit:** bu sahə üzrə akkomodasiya sinif mühitində, qruplara bölünmədə, uşaqların yerləşdirilməsində uyöunlaşdırmanı nəzərdə tutur.
- **Təlim metodu:** bu sahə üzrə akkomodasiya müəllimin materialı necə təqdim etməsi, eləcə də uşaqların tapşırıqları yerinə yetirməsinə necə cəlb edilməsi nöqteyi-nəzərdən təlim metodunun uyğunlaşdırılmasını nəzərdə tutur və şagirdlərin təliminə yardım məqsədi daşıyır.
- **Təlimatlar:** bu sahə üzrə akkomodasiyalar müəllimin qayda, metod və gündəlik məşğələləri təqdim etməsi üzrə uyğunlaşdırmanı nəzərdə tutur.
- **Materiallar:** bu sahə üzrə akkomodasiyalar tədris alətləri və materiallarının şagirdlərin fərdi ehtiyaclarına uyğunlaşdırılmasından ibarətdir. Materiallara kitablar, iş vərəqləri, manipulyativ əşyalar və s. daxil ola bilər.

Təlimin modifikasiyası – modifikasiya tədris materialının məzmunu və anlama baxımından mürəkkəbliyini dəyişməklə təlimin xarakterini dəyişir. Modifikasiya termini dəyişikliyi ifadə etmək üçün istifadə olunur. Müəllim öyrətdiyi materialı başa düşməyən əlilliyi olan uşaqlar üçün dəyişiklik edilir. Məsələn, tapşırıqların sayı azaldılır, material hissələrə bölünür və s. Beləliklə, modifikasiya şagirdin öyrənməsi üçün materialları dəyişdirən taktika və strategiyadır. Məsələn, uşaqların yaxınlıqdakı çaya ekskursiyaya getmələri nəzərdə tutulub. Onlar burada müşahidə aparmalı, sinfə geri döndükdən sonra isə hesabat yazmalıdırlar. Ancaq təhlil apardıqdan sonra müəllim müəyyənləşdirir ki, şagirdlərin, demək olar ki, yarısı çox ləng yazır (zəruri şərt – müstəqil öyrənmə bacarıqları) və onların təxminən dörddə biri kifayət dərəcədə müşahidə etmə bacarığı nümayiş etdirmir. Müəllim məşğələni modifikasiya etmək qərarına gəlir. Şagirdlərə seçim verilir: onlar qeydlər apara və ya şəkillər çəkə bilərlər. Müəllim özü müxtəlif elementlərin şəklini çəkə bilər. Uşaqlar sinfə qayıtdıqdan sonra ya qeydlərinə əsaslanmaqla hesabat yaza, ya da müəllimin çəkdiyi şəkillərdə nəyin təsvir olunduğu ilə bağlı öz qeydlərini yaza bilərlər.

Dəyişikliklər önəmlidir, ancaq materialın zənginliyini və şagirdin öyrənməsini təhlükəyə ata bilər. Modifikasiyanın mənfi tərəfləri:

1. Dəyişikliklərin şagirdlər arasında daha böyük boşluqlara səbəb ola bilməsi
2. Bir şagirdin daha az material öyrənməsi
3. Tapşırıq və testlərin azaldılması. Bu zaman şagirdlər sadəcə asan tapşırıqların öhdəsindən gələ bilir.

Modifikasiyannın istənilən növünü uşağın ailəsi ilə müzakirə etmək zərurudir, çünki əksər hallarda modifikasiya uşağın bilməli və bacarmalı olduqlarını dəyişir.

İstənilən fəaliyyət növündə olduğu kimi, göstərilən hər iki strategiya "planlaşdırma", "həyata keçirmə", "dəyərləndirmə" mərhələlərindən keçməli və bütövlüklə təlim prosesinin səmərəliliyini artıran "yardımçı vasitələrdən" istifadə edilməlidir.

Təlimdə ümumi uyğunlaşdırma əlilliyi olan uşaqların fəaliyyətlərdə uğurla iştirak etmələrinə əhəmiyyətli dərəcədə yardım göstərsə də, onlar üçün fərdi akkomodasiya və modifikasiyalar tələb oluna bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası, "2018-2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"
2. Grimes P., Stevens M. və Dela Cruz A. Azərbaycan əlilliyi olan uşaqlarla bağlı biliklər, münasibətlər və tərcübələr, Bakı: UNİCEF, 2018

3. Grimes P., Stevens M. və Dela Cruz A., Mercado T., Ligaya Sol Cruz K. İnklüziv sinifdə təlimin təşkili
4. Fərəcov T., Balayeva A. İnklüziv Təhsilə dair ümumi anlayış, pedaqoji kadrların peşakar hazırlığı və mövcud resurslar haqqında sosial tədqiqat, Bakı, 2018

РЕЗЮМЕ

ОПТИМЕЗАЦИЯ МЕТОДИЧЕСКОЙ СИСТЕМЫ ОБУЧЕНИЯ ИНКЛЮЗИВНОМУ ОБРАЗОВАНИЮ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ ПРЕДМЕТА «МЕТОДИКА ПРЕПОДАВАНИЯ НАЧАЛЬНОГО КУРСА МАТЕМАТИКИ».

Каримова М. Н.

В статье исследуются методы обучения в инклюзивном образовании и подчеркиваются преимущества обучения посредством размышлений. В статье также делается попытка ответить на вопрос, как должен выглядеть рефлексивный учитель. В то же время в статье представлена подробная информация об основных задачах, стоящих перед учителями, чтобы иметь возможность дифференцировать стратегии адаптации и модификации в процессе обучения в инклюзивном образовании, а также использовать их соответствующим образом.

Ключевые слова: инклюзивное образование, саморефлексия, рефлексивный учитель, аккомодация, модификация

SUMMARY

OPTIMIZING OF METHODOLOGICAL SYSTEM OF TEACHING INCLUSIVE EDUCATION IN THE PROCESS OF THE SUBJECT "TEACHING METHODOLOGY OF ELEMENTARY MATHEMATICS"

Karimova M. N.

The article explores learning methods in Inclusive Education and highlights the benefits of learning through reflection. The answer to the question of how a reflexive teacher should be sought. At the same time, the article provides detailed information on the main tasks facing teachers in order to be able to differentiate accommodation and modification strategies in the learning process in Inclusive Education, as well as to use them accordingly.

Key words: inclusive education, self-reflection, reflexive teacher, accommodation, modification

İNKLÜZIV TƏHSİLDƏ MƏNƏVİ DƏYƏRLƏR ƏSASINDA TƏRBİYƏ

Qasımova L.N.

Bakı Dövlət Universiteti

sabka567@gmail.com

Xülasə: İnklüziv təhsil, ümumi (kütləvi) məktəblərdə xüsusi ehtiyacı olan uşaqların tədris prosesini təsvir etmək üçün istifadə olunan bir termindir. İnklüziv təhsil hər kəs üçün bərabər münasibəti təmin edən, lakin xüsusi təhsil ehtiyacı olan uşaqlar üçün xüsusi şərait yaradan hər hansı bir ayrı-seçkiliyi istisna edən bir ideologiyaya əsaslanır. İnklüziv təhsil, bütün uşaqların fərqli

ehtiyaclarına uyğunlaşma baxımından hər kəs üçün təhsilin mövcudluğunu nəzərdə tutan ümumi təhsilin inkişaf prosesidir, bu da xüsusi ehtiyacı olan uşaqların təhsil almasını təmin edir.

Açar sözlər: inklüziv təhsil, adapatasiya, inkişaf

İnklüziv təhsil ümumi təhsilin bir tərkib hissədir. Təhsilin bütün uşaqların müxtəlif ehtiyaclarının ödənilməsi baxımından hamı üçün əlçatan olması inklüziv təhsilə də aiddir. İnklüziv təhsil sağlamlığı məhdud olan, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil almasını, öz yaşıdları ilə birgə ünsiyyətdə olmağı, oynamağı, əylənməyi təmin edir.

İndi bütün dünyada qəbul edilir ki, fərqləndirici xüsusiyyətlərindən asılı olmayaraq bütün cəmiyyət üzvləri bir arada dinc yaşamalı, bir məktəbdə təhsil ala bilər, hətta bir sinifdə, bir partada otura bilərlər.

İnklüziv təhsil anlayışı insan hüquqları prinsipinə əsaslanır. Uşaqlara verilən hüquqlar, onların təhsili qarşında qoyulan vəzifələr eyni dərəcədə inklüziv uşaqlara da aiddir.

"Cəmiyyətdə insanların qarşılıqlı münasibətləri sosial normalara əsaslanlr.İnsanlar bu normaları və onları gözləməyi sosiallaşma prosesində öyrənirlər. Aydın məslədir ki, həmin öyrənmə prosesi uşağın doğulduğu andan başlayır və özünəməzxsus təzadlarla ömür boyu davam edir" [1, s.84]. Bu cəhətdən bütün insanlar, o cümlədən fərqli xüsusiyyətlərə malik uşaqlar cəmiyyətdə bir yerdə yaşamalı bir birinə adaptasiya olmalıdırlar. "Xüsusi qayğıya ehtiyacı olan uşaqların təlim-tərbiyə vəzifələrindən biri məhz cəmiyyətə, kollektivə adapatasiya olunmasıdır" [2, s.10].

İnsan Hüquqları Konvensiyasına görə, dövlətlər elə bir təhsil sistemi qurmalıdır ki, təhsilalma hüququ hər bir uşağa, o cümlədən inklüziv təhsil alan uşaqlara da şamil edilsin.

Azərbaycan Respublikası İnsan Hüquqları Konvensiyasını 1992-ci ildə imzalayıb və respublikamızda yaşayan hər bir uşağın təhsil alma hüququnu qorumağı öz üzərinə götürmüşdür.

Müasir dövrdə beynəlxalq və yerli hüquqi sənədlər əliliyi olan insanlara xəstə kimi deyil, sağlamlıq imkanları məhdud insan kimi baxmağı tələb edir. Bu, əlilliyə sosial yanaşmanı formalaşdırır. Sosial model sağlamlığı məhdud olan uşaqların bilik və bacarıqlarını inkişaf etdirmək üçün onların bütün hüquqlardan lazımınca yararlanmasına şərait yaradır.

Qeyd etmək lazımdır ki, dünyanın bir çox ölkələrində xüsusi qayğıya ehtiyacı olan uşaqlar digər yaşıdları ilə birlikdə ümumtəhsil məktəblərində təhsil alır və uşaq bağçalarına gedirlər. İnklüziv təhsilin inkişafı dünyanın bir çox ölkələrinin təhsil siyasətinin əsas prioritetlərindəndir və ümumiyyətlə, hər hansı bir ölkənin təhsil sisteminin beynəlxalq prinsip və standartlara uyğunlaşdırılması məqsədini daşıyır. Bu gün bizim ölkəmizdə inklüziv təhsil getdikcə genişlənir, inkişaf edir və daha çox belə uşaqları öz ətrafında birləşdirir.

Müasir dövrdə inklüziv təhsil dedikdə uşaqların məktəbəqədər müəssisələrdə, orta təhsil məktəblərində dərs alması prosesi nəzərdə tutulur ki, bunun da xüsusi tələbləri bütün uşaqlar üçün eynidir. Təlim metodikasına müvafiq olaraq inklüziv təhsil uşaqlara qarşı hər hansı formada ayrı-seçkilik edilməsinin qarşısını alır, müxtəlif nevroloji və ya psixi xəstəlikləri olanlara belə mükəmməl şəkildə təhsil almaq, uğur qazanmaq imkanı verir, sağlamlığı məhdud olanlara peşə hazırlığı üçün sərhəd tanımayan mühit yaradır.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların daha keyfiyyətli təhsilə yiyələnməsi, cəmiyyətə daha tez adaptasiyası olmaları üçün digər yaşıdları ilə bir yerdə təhsil alması üçün inklüziv təhsilin genişləndirilməsi daha məqsədəuyğun hesab edilir.

Bu cəhətdən uşaqların təliminə, tərbiyəsinə verilən tələblər inklüziv uşaqlar üçün də eyni dərəcədə əhəmiyyət daşıyır. Ümimi təhsildə təlim prosesinin – öyrədici, tərbiyədici, inkişafetdirici funksiyası inklüziv təhsil üçün də mühüm əhəmiyyət kəsb edir.

İnklüziv təhsildə öyrədən şəxs təlim zamanı daha çox funksiya daşıyır və bir neçə istiqamətdə fəaliyyət göstərir:

1. Bilik, bacarıq və vərdişlərin mənimsənilməsini təşkil edir, bu məqsədlə məsləhət və istiqamətlər verir;
2. Öyrədilən bilik, bacarıq və vərdişlər vasitəsilə inklüziv uşaqlarda şüurun, psixikanın, intellektual səviyyənin, zəkanın inkişafına diqqət yetirir;
3. Zəruri olan mənəvi, əxlaqi, psixoloji keyfiyyətlərin aşılanması qayğısına qalır. Təlim həm təhsilləndirici, həm tərbiyəedici, həm də inkişafetdirici vəzifələri kompleks həyata keçirir.
4. İnkluziv təhsil alan uşaqlarla əməkdaşlıq edir.
5. İnklüziv təhsil alan uşaqlarla fərdi tədris proqramı hazırlayır.
6. İnklüziv təhsil alan uşaqların fəaliyyəti qiymətləndirilir, dəyərləndirilir, rəğbətləndirilir.
7. İnkluziv təhsildə reabilitasiya xidmətini təşkil edir.
8. İnkluziv təhsildə psixoloqların xidmətini təhsilə cəlb edir
9. İnkluziv təhsildə valideynlərlə birgə işi təşkil edir.
10. İnklüziv təhsil alan uşaqların peşə təhsilini, peşələrə meyl və maraqğını təşkil eidr.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların tipik yaşıdları ilə təhsilə birgə hazırlanması üzrə məsuliyyət mahiyyət etibarı ilə daha çox psixoloq və tərbiyəçilərin üzərinə düşür.

Ümumiyyətlə, korreksiyaedici xidmət dedikdə, öncə onların təhsilə daha tez uyğunlaşması, uşaqlarla effektiv ünsiyyət qura bilməsi nəzərdə tutulur. Məsələn, uşaq bağçalarında, yaxud məktəbəqədər hazırlıq müəssisələrində tərbiyəçilərin əsas rolu aşağıdakı funksiyaları həyata keçirməkdən ibarətdir: uşaqlarda kollektivçilik, əmək vərdişləri, davranış, etik və əxlaqi keyfiyyətlərin inkişaf etdirilməsi, dünya haqqında ilkin təsəvvürlərin yaradılması və s. Bir sözlə, məktəbə hazırlıq prosesində pedaqoq uşağı fiziki və mənəvi cəhətdən tərbiyə edir,cəmiyyət tərəfindən müəyyən edilmiş vəzifələrə uyğun şüurlu fəaliyyətə hazırlayır.

İnkluziv təhsilin məktəbəqədər müəssisə və məktəblərdə uğurlu inteqrasiyanın təmin olunması zamanı müəllim və tərbiyəçilər uşaqların sağlamlığını və intelekktual inkişafını təmin etmək üçün bir sıra amiləri də diqqət mərkəzində saxlamalıdır:

1. Uşaqların intellektual, fiziki, estetik və emosional inkişafını təmin etməlidir.
2. Uşaqların stressə qarşı dözümlülüyünü, özünəinamını, özünütərbiyə və özünü inkişafını təmin etməlidir.
3. Uşaqların milli və bəşəri mənəvi dəyərlər əsasında tərbiyə olunmaları üçün ardıcıl, sistemli və planlı işlər aparmalıdır.
4. Peşə təhsili təlimlərinin praktiki olaraq, müvafiq iş yerlərində təşkil etməlidr.
5. Xüsusi qayğıya ehtiyacı olan uşaqların öz tipik yaşıdları ilə birlikdə ünsiyyət və münsibətdə olmalarını, oynamalarını, əməli ilərə və təcrübələr keçmələrini təmin etməlidir.
6. İnklüziv təhsil alan uşaqların həyatı bacarıq və vərdişlərini inkişaf etdirməlidir.

İnklüziv təhsil şəxsiyyətyönümlü, uşaqyönümlü olmalıdır. İnklüziv təhsil uşaqların fənlər üzrə müxtəlif təlim ehtiyaclarının təmin edilməsi üçün daha səmərəli olan yanaşmaları işləyib hazırlamalı və həyata keçirməlidir.

İnklüziv təhsil bütün uşaqlara ayrı seçkilik göstərilmədən eyni münasibət göstərilməsini tələb edir. Xüsusi təlim ehtiyacları olan uşaqlar üçün ümumtəhsil müəssisələrində əlverişli şərait şərait yaradırlmalıdır.

İnklüziv təhsil prosesində aşağıdakı pedaqoji prinsiplərə əməl edilməlidir:

1.Hər bir uşağın dəyəri onun sağlamlığı, imkanları və nailiyyətləri ilə ölçülmür.

2.Hər bir uşaq hiss etmək, duymaq, düşünmək, oxumaq qabiliyyətinə malikdir.

3.Hər bir uşağın ünsiyyət hüququ təmin edilməlidir.

4.Bütün uşaqlar bir-birinə lazımdır.

6.Bütün uşaqlara öz həmyaşıdlarının dəstək və dostluğu lazımdır;

7.Bütün uşaqlara bilik, bacarıq və müsbət vərdişlər aşılanmalıdır.

8.Uşaqların müxtəlifliyi həyatın bütün sahələrini inkişaf etdirir və zənginləşdirir.

9.Uşaqların həqiqi təhsili yalnız real münasibətlərin kontekstində mövcuddur.

"Sağlamlığı məhdud olan xüsusi qayğıya ehtiyacı olan uşaqların öz həm yaşıdları ilə təhsilə birgə hazırlanması üzrə məsuliyyət mahiyyət etibarı ilə daha çox psixoloq, müəllim və tərbiyəçilərin üzərinə düşür. Bu zaman müəllimin səriştəliliyi və peşəkarlığı, mühüm əhəmiyyət kəsb edərərk, belə uşaqlarla təlim və tərbiyə işləri apararkən, həm də korreksiyaedici pedaqoji xidmət göstərməlidir" [3, s.18]. Onlar məktəbəqədər və ümüumtəhsil müəssisələrində uşaqlarda kollektivçilik, əmək vərdişləri, davranış məədənəiyyəti, etik və estetik, mənəvi və əxlaqi keyfiyyətlərin inkişaf etdirilməsi, dünya haqqında ilkin təsəvvürlərin yaradılması istiqamətində ardıcıl işlər aparmalıdır.

Beləliklə deyə bilərik ki, fərqləndirici xüsusiyyətlərindən asılı olmayaraq hamı təhsilə cəlb edilməlidir. Kollektiv şəkildə bir yerdə təhsil almaq insanın hərtərəfli inkişfaı üçün vacib pedaqoji şərt hesab edilir.

ƏDƏBİYYAT

1. Əlizadə H. Ə. , Mahmudova R.M. Sosial pedaqogika. Dərslik. Bakı: BDU, 2013, 368 s.
2. Həsənova İ.M. Sağlamlıq imkanları məhdud olan uşaqların cəmiyyətə adaptasiyası. Bakı: ADPU, 2011, 238 s.
3. Hüseynzadə R.L. Müəllimin peşə səriştəliliyi və peşəkarlıq//Azərbaycan məktəbi. 2016 , № 3, s.16-20.

РЕЗЮМЕ

ОБРАЗОВАНИЕ В ИНКЛЮЗИВНОМ ОБРАЗОВАНИИ НА ОСНОВЕ ДУХОВНЫХ ЦЕННОСТЕЙ

Гасымова Л.Н.

Инклюзивное образование – термин, используемый для описания процесса обучения детей с особыми потребностями в общеобразовательных (массовых) школах. В основу инклюзивного образования положена идеология, которая исключает любую дискриминацию которая обеспечивает равное отношение ко всем людям, но создает особые условия для детей, имеющих особые образовательные потребности. Инклюзивное образование – процесс развития общего образования, который подразумевает доступность образования для всех, в плане приспособления к различным нуждам всех детей, что обеспечивает доступ к образованию для детей с особыми потребностями.

Ключевые слова: инклюзивное образование, адаптация, развитие

SUMMARY
EDUCATION IN INCLUSIVE EDUCATION BASED ON SPIRITUAL VALUES
Gasimova L.N.

Inclusive education is a term used to describe the process of teaching children with special needs in mainstream (mass) schools. Inclusive education is based on an ideology that excludes any discrimination, which ensures equal treatment for all people, but creates special conditions for children with special educational needs. Inclusive education is a process of development of general education, which implies the availability of education for all, in terms of adaptation to the different needs of all children, which ensures access to education for children with special needs.
Key words: inclusive education, adaptation, development

İNKLÜZİV TƏHSİL ANLAYIŞI VƏ ONUN YARANMA KÖKLƏRİ

Quliyeva K. R.
Azərbaycan Dövlət Pedaqoji Universiteti
kamala.328@inbox.ru

Xülasə: Elmi məqalədə inkluziya sözünün etimoloji mənası, mahiyyəti, təhsilin məqsədi kimi məsələlərə toxunulmuş, bu anlayışların məzmununa aydınlıq gətirilmişdir.İnkluziya və inteqrasiya anlayışları arasındakı fərq, məhdud imkanları olan uşaqların təlim və təhsil prosesinin tarixi dövrləri müəyyən edilmiş və daha dərindən öyrənilmişdir. 1960-cı ilin ortalarında nəzəriyyədə və praktikada real dəyişikliklər üzə çıxarılmış, "tibbi modeli"n qanunauyğunluqlarına o dövrün prizmasından yanaşılaraq öyrənilmişdir. İngiltərədə, ABŞ-da və Skandinaviyada ötən əsrin 70-ci illərində tibbi modelin əsasında duran normallaşdırma anlayışının mahiyyəti açıqlanmış, konsepsiyanın mənfi tərəfləri müəyyən olunmuşdur. Hazırki dövrdə məhdud imkanları olan insanlara dəstək xidmətinin inkişafı ideoloji olaraq "sosial model"lin məzmununa aydınlıq gətirilmiş, "qoşulma" anlayışının baş vermə səbəbləri üzə çıxarılmışdır. Müəyyən olunmuşdur ki, "qoşulma" hər bir qrupun qismən muxtariyyətinin saxlanılmasını nəzərdə tutur.Bu ideologiyaya görə ənənəvi dominantlıq edən qrup üçün xoş olan təsəvvürlər və davranış tərzi düşüncələrdə və adətlərdə pluralizmə yol verə bilən obrazda şəklini dəyişməlidir. Burada eyni zamanda müasir dövrdə dünyada və Azərbaycanda qəbul olunmuş bir sıra beynəlxalq konvensiyalar, milli qanunvericilik çərçivələri araşdırılaraq öyrənilmişdir.
Açar sözlər: inklüziv, təhsil, sağlamlıq, uşaqlar, məhdudiyyət

Təhsilin məqsədi təhsilalanların müəyyən ictimai statusa malik olmağından və öz sosial əhəmiyyətini təsdiq etməkdən ibarətdir. Amma biliklər əldə etmək, həmin bilikləri təkmilləşdirmək, öz ictimai əhəmiyyətini təsdiq etmək, cəmiyyətdə müəyyən mövqe tutma arzusu heç də hamı üçün reallığa çevrilmir. Belə insanlar arasında sağlamlıq imkanları məhdud olan uşaqlar da vardır.

İnkluziya ingilis dilindən tərcümədə "daxilolma", "qoşulma" deməkdir.[4] İnkluziya sağlamlıq imkanları məhdud olan təhsil alanların öz güclərinə inamlarını artırmağa, həmçinin onları digər uşaqlarla birgə məktəbdə təhsil almağa stimullaşdıran cəhddir. İnkluziya yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqların cəhdlərini həyata keçirməyə kömək etmir. Belə uşaqlar sırasına həmçinin müxtəlif mədəniyyətlərə malik, həyat tərzlərinə görə bir-birindən fərqlənən, başqa dillərdən olan, təhsilə müxtəlif maraqları və imkanları olan uşaqları da aid etmək olar.Belə uşaqlara

informasiyanın ötürülməsi üsullarında müxtəlif modifikasiya və variantlar lazımdır. İnkluziv yanaşma uşaqların müxtəlif təhsil tələbatlarını başa düşməyi və təhsil prosesində tam iştirakla, ictimaiyyətin cəlb edilməsi vasitəsilə təhsildə seqreqasiyanın və diskriminasiyanın aradan qaldırılması ilə bu tələbatlara müvafiq xidmətlərin verilməsini tələb edir. İnkluziv təhsil bütün təhsil alanlara böyük həcmdə məktəbəqədər və məktəb həyatında uşaq baxçası, maktəb və universitet kollektivində iştirak etməyə imkan verir. Bu təhsil sistemi təhsil alanların bərabər hüquqluluğunu, kollektivin bütün işlərində iştirakını stimullaşdırmağa yönəldilmiş resurslara malik olub, təhsilalanlara ünsiyyət üçün lazım olan qabiliyyətlərin inkişafına yönəldilmişdir. İnkluziya və inteqrasiya anlayışları arasındakı fərqə baxaq. "Bu anlayışlar eynidirlərmi?" sualına cavab kəskin olaraq "yox"dur. İnteqrasiya şagirdlərin məktəbin xüsusiyyətlərinə uyğunlaşdırılması prosesidir.İnkluziyada isə məktəb şagirdlərə, onların təhsil ehtiyaclarına uyğun şəkildə dəstək vermək üçün tədris istiqamətini qurur.

Məhdud imkanları olan uşaqların təlim və təhsil prosesinin tarixi dövrünü üç mərhələyə ayırmaq olar: I.XX əsrin əvvəlləri və 60-cı illərin ortaları-"tibbi model"-seqreqasiya.

II. XX əsrin 60-cı illərinin ortalarından 80-ci illərin ortalarına qədər-"normallaşdırma modeli"- inteqrasiya

III. XX əsrin 80-ci illərinin ortalarından hazırki dövrə qədər -"sosial model"-qoşulma. İctimai həyatın humanistləşməyə meyl cəhdi dünya müharibələrindən sonra vəhşiliyə və dəhşətə cavab kimi başlamışdır.

Nəzəriyyədə və praktikada real dəyişikliklər 1960-cı ilin ortalarında psixiatrik xəstəxanaları himayəyə alan dövlət müəssisələrinin ləğv edilməsi ilə başladı. Bu müəssisələrin sakinlərinin dünyadan təcrid edilmələri, inkişafı stimullaşdıran şərtlərin olmamasında, sevginin, qayğının olmaması, çox vaxt qəddar rəftarın mövcudluğunda, insan hüquqlarının kobud surətdə pozulmasında sübut olunurdu. Aydın oldu ki, bağlı şəraitdə insanın qabiliyyətləri ölgünləşir, ünsiyyət dairəsi daralır, özünü qiymətləndirməsi aşağı düşür, tam dəyərli həyata olan yollar həmişəlik bağlanır. Məhz bu vaxtlarda tibbi modelin qanunauyğunluğunda şübhələr yaranmağa başladı. Bu modelə əsasən məhdud imkanları olan insanlara uzunmüddətli müalicə tələb olunurdu və bunun üçün ən yaxşı yer xüsusi müəssisələr idi. Yaranmış vəziyyətə cavab kimi bir çox ölkələrdə ilk növbədə ABŞ, Böyük Britaniya, İsveç və İtaliyada bütün sistemi dəyişmək və bu sistemi daha da insansevər etmək üçün çağırış səsləri yayıldı.

Nəticədə qərbdə yetim evləri demək olar ki, yoxdur. Belə ki, İngiltərədə inkişafında yayınma ilə doğulan uşağa malik 90%-dən çox ailələr onları evdə tərbiyə edirlər. Digər uşaqları isə ya övladlığa götürür ya da hami ailələrə verirlər. Böyüklər üçün bir çox ölkələrdə artıq ləğv olunub və ya ləğv olunmaq üzrədir. Qeyd etmək lazımdır ki, inkişaf pozuntuları olan uşaqların imkanlarının anlaşılması və onların dəstəklənməsi üçün yeni sistemin təşkilinə XX əsrin ortalarında keçirilən elmi tədqiqatlar böyük təsir etmişdir. Bağlılıq və xüsusi pedoqogika sahəsində olan bu tədqiqatlar intellekt pozuntusu olan uşaqların potensial imkanlarının aşkarlanması və bütün uşaqların potensial imkanlarının aşkarlanması və bütün uşaqların öyrənə bilməyə qadir olmasıdır. Ötən əsrin 70-ci illlərində Skandinaviyada tibbi modelin əsasında duran təsəvvürlərin alternativi kimi "normallaşdırma" anlayışı meydana çıxdı. Bu anlayış ABŞ və Kanadada qəbul edilmiş və inkişaf etmişdir.

Normallaşdırma modeli aşağıdakı hallara gətirib çıxarırdı:

-münasibətini dəyişmək üçün cəmiyyətə təzyiq göstərmək;

-təhsil almaq və öz gücünü səfərbər etmək üçün uşağa təzyiq göstərmək;

Tədricən bu konsepsiya da şübhə doğurmağa başladı. Bu konsepsiya uşağın məktəb və cəmiyyət tərəfindən qəbul edilməyə hazırlığını güman edirdi. Amma cəmiyyət tez bir zamanda dəyişə bilməzdi. Belə bir şəraitdə isə inteqrasiyanın sosial deyil, fiziki tərkibindən söhbət gedə bilərdi.

Hazırki dövrdə məhdud imkanları olan insanlara dəstək xidmətinin inkişafı ideoloji olaraq "sosial model"lə müəyyən olunur. Bu modelə əsasən insan ailənin həyatında iştirak etmək, məktəbdə oxumaq, işləmək üçün hazır olmağa borclu deyil.Diqqət daha çox mühitin onun imkanlarına adaptasiya olunmasına, onun qabiliyyətlərinin inkişafı üçün sosial əlaqələr sisteminin yaranmasına ayrılır. "Qoşulma" anlayışı bu modelə keçidlə bağlıdır. İnteqrasiyadan fərqli olaraq "qoşulma" hər bir qrupun qismən muxtariyyətinin saxlanılmasını nəzərdə tutur.Bu ideologiyaya görə ənənəvi dominantlıq edən qrup üçün xoş olan təsəvvürlər və davranış tərzi düşüncələrdə və adətlərdə pluralizmə yol verə bilən obrazda şəklini dəyişməlidir.Beləliklə, ingilis dilli ölkələrdə "qoşulma" termini inteqrasiya termininini əvəz etməyə başladı. İngilis dilində "include" "daxil etmək", "tərkibində olmaq", "ehtiva etmək" deməkdir. "İnclusion" sözü yalnız təhsilə deyil, həm də insanıncəmiyyətdəki yerinə yeni baxışı ifadə edən termin kimi təqdim olunur. İnkluziv təhsilin təcrübəsinin əsasında hər bir təhsil alanın fəaliyyətinin qəbul edilməsi durur. Bu səbəbdən təhsil hər bir uşağın özünəməxsus tələbatlarını təmin edə bilmək şəklində təşkil edilməlidir.Maraqlıdır ki, inkluziya istiqamətində ən qəti və tez dəyişikliklər dünyanın kasıb ölkələrində müşahidə olunur. Uqanda və ərəb ölkələrində məhdud imkanları olan uşaqların inteqrasiyası ilə bərabər qızların da ümumtəhsil məktəblərinə inteqrasiya halları baş verir. Bu dinamika YUNESKO-nun proqramının adı çəkilən ölkələrdə effektiv fəaliyyəti ilə əlaqədardır. Müasir tədqiqatçılar qeyd edirlər ki, bu istiqamətdə mükəmməl qanunvericiliyə malik ölkələr sırasına Kanadanı, Kipr, İsveç, Norveç, İspaniya, ABŞ və Böyük Britaniya kimi ölkələri aid etmək olar. Amma mükəmməl qanunvericiliyin olması heç də bu təhsilin dəstəklənməsi və işləməsi demək deyil. Cəmiyyətdə mövcud maneələrin ləğv edilməsi üçün hamıya bərabər imkanlar təmin edilməlidir. Diskriminasiyadan qaçmaq üçün bu prosesi ailədən və təhsil sistemindən başlamaq lazımdır.

Qeyd edək ki, bu araşdırma Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının layihəsi əsasında hazırlanıb.

İnklüziv təhsil bütün uşaqların keyfiyyətli təhsil almaq hüququna əsaslanır. Bir sıra beynəlxalq konvensiyalar, milli qanunvericilik çərçivələri müvafiq ölkələrdə inklüziv təhsilin tətbiqini təmin edir. Beynəlxalq və Azərbaycana dair hüquqi sənədlər aşağıdakılardır:

- İnsan Hüquqları haqqında Ümumi Bəyannamə, 1948
-BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası, 1989
-BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası, 2006
-Azərbaycan Respublikasının Konstitusiyası, 1995
- "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, 2009
-"2018–2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"[4]

"İnklüziv təhsil" termini çox zaman səhv başa düşülür. BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının 24-cü maddəsi əlilliyə daha münasib tərif verir. Konvensiya əlilliyi olan şəxslərin təhsil hüquqlarını tanıyır və dövlətlərin üzərinə inklüziv təhsili tətbiq etmək öhdəliyini qoyur. Bu öhdəliyə aşağıdakılar daxildir:

- Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərindən kənarlaşdırılmamasını təmin etmək;

- Yaşadıqları icmada digərləri ilə bərabər əsaslarla inklüziv, keyfiyyətli və pulsuz ibtidai və orta təhsil almaq imkanlarını təmin etmək;

- İnklüzivliyin tam şəkildə təmin olunması üçün akademik və sosial inkişafa şərait yaradan mühitdə fərdi ehtiyaclara uyğunlaşdırılmış zəruri dəstək tədbirlərini təmin etmək.

Hər hansı formada seqreqasiya və ya təhsildən kənarlaşdırılma, məsələn, əlilliyi olan uşaqların xüsusi məktəblərdə və ya adi məktəblərin daxilindəki xüsusi bölmələrdə təhsil alması, yaxud natamam inteqrasiya inklüziv təhsilə daxil deyil. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanı imzalayan tərəflərdən biri kimi, Azərbaycan da inklüziv təhsili həyata keçirmək öhdəliyini üzərinə götürmüşdür. İnklüziv təhsilin tətbiqində boşluqları aradan qaldırmaq üçün önəmli addımlar atılmışdır. 2017-ci ildə əlilliyi olan şəxslərin bərabər təhsil imkanlarını təmin etmək məqsədi ilə "2018–2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" qəbul edilmişdir. Azərbaycanda əlilliyi olan uşaqlar üçün təhsil geniş şəkildə əlçatan deyil. 2015-2016-cı tədris ilində xüsusi məktəblərdə (3148 nəfər), internat məktəblərində (2468 nəfər) və ümumtəhsil məktəblərinin əlilliyi olan uşaqlar üçün xüsusi siniflərində (659 nəfər) təhsil alan əlilliyi olan uşaqların sayı cəmi 6275 nəfər olub. Azərbaycanda məktəbəqədər və icbari orta təhsildə (ibtidai və ümumi orta təhsil) iştirak edən uşaqların sayının 1279135 nəfər olduğu nəzərə alındıqda, ölkədə icbari orta təhsil alan uşaqların cəmi 0.5% hissəsinin əlilliyi olan uşaqlar olduğu məlum olur. Qeydə alınan bu aşağı rəqəmlər əlilliyi olan bir çox uşağın ya məktəbdə təhsil almadığını, ya da onların müəyyən edilmədiyini göstərir.

Ötən il UNİCEF-in sifarişi ilə Azərbaycanda əlilliyi olan uşaqlarla bağlı tədqiqatlar aparıldı. Bu, 2018-ci ilin aprel ayında təqdim olunmuş nəticələri bölüşməyə imkanı verir.

- Azərbaycanda əlilliyi olan uşaqlarla bağlı dəqiq məlumatlar əldə etmək çətindir.

-Azərbaycanda əhalinin 5.6%-ni əlilliyi olan şəxslərin təşkil etdiyi təxmin edilir. Onlardan 2.6%-i uşaqlardır. Bu göstəricilər beynəlxalq səviyyədə qəbul olunan hesablama göstəriciləri ilə müqayisədə aşağıdır. Beynəlxalq səviyyədə qəbul olunan hesablamaya 6 əsasən ümumi əhalinin (orta və ağır dərəcəli əlilliyi olan) 15%-ə, uşaqların isə 5.1%-ə qədəri ola bilər.

- Məlumatların qeyri-dəqiqliyi məsələsi qismən əlilliyi olan şəxslərin müəyyənləşdirilmə sistemi ilə bağlıdır. Belə ki, bu sistem əlilliyin tibbi modelinə əsaslanır.

- Bəzi valideynlər sosial damğalama ilə əlaqədar olaraq diaqnostikadan çəkinirlər.

Məlumatlarla bağlı məsələlər yalnız Azərbaycanda problemli deyil. Əlilliyi olan uşaqlarla bağlı dəqiq statistik məlumatların əldə edilməsi qlobal məsələdir. 2015-ci il üzrə Qlobal Monitorinq Hesabatının əsas nəticələrinə görə, orta gəliri aşağı olan ölkələrdə əlilliyi olan uşaqlara dair əksər məlumatlar təqribi hesablamalara əsaslanır. Bunun səbəbi əlilliyin tibbi modelinə əsaslanan qiymətləndirmədir. Hazırkı beynəlxalq tendensiya Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatından istifadədir. Burada qiymətləndirmə zamanı orqanizmin funksiyaları, quruluşu, fəaliyyətlər, iştirak və ətraf mühit amilləri nəzərə alınır. Bəzi ölkələrdə əlilliyi olan uşaqların 90%-i məktəbə getmir. Əlil olmaq uşağın məktəbə getməmək ehtimalını iki dəfə artırır. Əlilliyi olan uşaqların məktəbi yarımçıq tərk etmək və ya ayrı-seçkiliklə üzləşmək ehtimalları ikiqat yüksəkdir. Son onilliklər ərzində dünyada inklüziv təhsilə yönələn nümunəvi təcrübələr yaranmışdır. BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları" haqqında Konvensiyası tam inklüziv təhsilin dəstəklənməsi üçün müfəssəl istiqamət vermişdir, bir çox ölkələr öz siyasətlərini inklüziv təhsilin təməl prinsiplərinə uyğunlaşdırmışdır və fasiləsiz olaraq uyğunlaşdırmağa davam edir. Lakin bu müsbət proseslərə baxmayaraq hələ də çoxsaylı çətinliklər qalır. Əlilliyi olan uşaqlar üçün bir nömrəli maneə insanların əlilliyə qarşı mənfi münasibətidir. Bu isə əlilliyi olan uşaqların davamlı olaraq

kənarlaşdırılması, ayrı-seçkiliyə məruz qalması və təcrid olunması ilə nəticələnir. İnklüziv təhsil inklüziv dəyərlərə əsaslanır.

Əlilliyi olan uşaqların damğalanmasının mənfi təsirləri:

- Damğalama gözləntilərin aşağı düşməsinə səbəb olur.
- Müəllimlərin onları qorumağa çalışması uşağın darıxmasına və həvəsdən düşməsinə səbəb olur.
- Damğalama müəyyən alt-qrupa daxil olan bütün uşaqların xüsusi resurslarla xüsusi qaydada öyrədilməsi fikrini möhkəmləndirir.
- Əlilliyi olan uşaqlara xüsusi tapşırıqlar verildiyi halda uşaqlar tapşırıqları yerinə yetirmək üçün sinifdən ayrılır, digər uşaqlar isə həmin vaxt fasiləyə çıxır, incəsənət və ya idman dərslərinə gedirlər. Bu hal əlilliyi olan uşaqları təcrid etməklə onları inkişaf üçün zəruri olan fəaliyyətlərdən məhrum edir.
- Bəzən müəllimlər uşağın öyrənmə çətinliklərini aradan qaldırmağın mümkün olmadığını düşünürlər.
- Bəzən isə müəllimlər "əlilliyi olan uşaqlarla məşğul olmaq ekspertlərin işidir" qənaətinə gəlirlər.
- Damğalanma müəllimlərin inamını azaldır. Əlilliyi olan uşaqları öyrətmək üçün onlara xüsusi resursların lazım olduğunu düşünə bilərlər.
- Nəticədə əlilliyi olan uşaqlar digər uşaqlardan ayrılaraq seqreqasiyaya məruz qalır.

İnklüziv olmaq hər kəsə bərabər şəkildə qiymət vermək, müxtəlifliyə hörmət etmək və qəbul etmək deməkdir. Yalnız bu yolla əlilliyi olan uşaqların ehtiyaclarına cavab vermək, onların kənarlaşdırılmamasını təmin etmək və məktəblərin inklüziv olması üçün dəyişiklik etmək mümkündür.

Biliyə çox zaman nəzəriyyə və konsepsiyaların sabit toplusu kimi yanaşılır və fərz edilir ki, müəllimlərə, məsələn, inklüziv təhsilin tətbiqi ilə bağlı biliklər aşılayanda, onlar avtomatik olaraq bunu öz məktəblərində tətbiq edəcəklər. Lakin inklüziv təhsil çox mürəkkəb bir məfhumdur. İnklüziv təhsilin tətbiqinin elə bir modeli yoxdur ki, bütün məktəblərdə uğurlu şəkildə həyata keçirilsin. Çünki hər bir məktəb icması fərqlidir və inklüziv təhsilin tətbiqi üçün müxtəlif kontekstual amilləri, təlimə mane olan müxtəlif əngəlləri aradan qaldırmalıdır. Buna görə də müəllimlərə təqdim olunan nəzəriyyə və biliklərin sabit toplusu yoxdur. Müəllimlər birlikdə tənqidi refleksiya fəaliyyətində iştirak etməyə, həmçinin öz məktəb icmalarında öz vəziyyətlərini təhlil etməyə və yerli çətinlikləri aradan qaldırmaq üçün yerli strategiyalar tapmağa həvəsləndirilməlidirlər. Öyrənmə aktiv fəaliyyətdir. Müəllimlər əldə etdikləri biliyi tətbiq etdikidə yaxşı nəticələr əldə olunur. Ənənəvi müəllim inkişafı prosesində öyrənmə çox zaman passiv xarakter daşıyır. Təlimçi ənənəvi olaraq, müəyyən məzmun təqdim edir. Bəzən təlimçi yeni məzmun təqdim etməzdən əvvəl iştirakçılar bu məzmunu müzakirə etməyə və öz fikirlərini bölüşməyə dəvət olunurlar. Bu yanaşma öyrənmə fəaliyyətinin çox passiv olmasına səbəb olur. Müəllimlər əsasən bilikləri qəbul edir, lakin bu bilikləri təcrübədə tətbiq etməyi öyrənmirlər və bununla bağlı dəstək almırlar. Aktiv təlim isə qrup müzakirələri və ya seminarlarda keçirilən oyunlarla məhdudlaşmır. O, yeni konsepsiya və təcrübələrlə geniş şəkildə işləməyi və əsas anlayışların və prinsiplərin real vəziyyətlərdə tətbiqini ehtiva edir.

ƏDƏBİYYAT

1. Bağırova C. Azərbaycanda davamlı inkişafın təmin edilməsində inkluziv artımın rolu. file: /// C:/Users/Dell/Desktop/Ba-rova-C-mil-.pdf
2. Dostuzadə D, Quliyeva D. “Tiflopedaqogika”, Bakı: ADPU-nun nəşri, 2016, 154 s.
3. Həsənli O. Autizm Bakı, Elm-təhsil, 2016, 203 s.
4. “İnklüziv sinifdə təlimin təşkili” mövzusunda ixtisasartırma proqramının Oxu materialı. file:/// C:/ Users/Dell/Desktop/7406_nkluziv-sinifda-talimin-taskili-oxu-materiali.pdf
5. Korreksiyaedici təlim nədir? https: //xususip sixologiyam. wordpress. com/2019/ 03/17/ korreksiyaedici -t% C9%99lim-n%C9%99dir/
6. Korreksiya pedaqogikasın bəzi məsələləri. milliirs.az
7. Qasımov S., Talıbov Y. Əlahiddə pedaqogikanın əsasları (dərs vəsaiti).Bakı, Çaşıoğlu 2000, 120 s.

РЕЗЮМЕ
КОНЦЕПЦИЯ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ И ЕГО КОРНИ

Гулиева К.Р.

В научной статье затрагиваются такие вопросы, как этимологическое значение, сущность и цель включения слова, а также уточняется содержание этих понятий. Выявлены и более глубоко изучены различия между концепциями инклюзии и интеграции, исторические периоды обучения и воспитательного процесса детей с ограниченными возможностями. В середине 1960-х годов были обнаружены реальные изменения в теории и практике, и закономерности «медицинской модели» стали изучаться через призму того периода. В Англии, США и Скандинавии в 70-х годах прошлого века разъясняли суть концепции нормализации, лежащей в основе медицинской модели, и выявляли недостатки концепции. В настоящее время развитие служб поддержки людей с ограниченными возможностями идеологически прояснено в содержании «социальной модели», а также выявлены причины возникновения понятия «связь». Установлено, что «присоединение» подразумевает сохранение частичной автономии каждой группы. Согласно этой идеологии, восприятие и поведение, которые способствуют традиционно доминирующей группе, должны изменить их образ таким образом, чтобы допускать плюрализм в мыслях и привычках. В то же время здесь был изучен ряд международных конвенций и национальных правовых рамок, принятых в мире и Азербайджане в наше время.

Ключевые слова: инклюзивное, образование, здоровье, дети, ограниченные

SUMMARY
THE CONCEPT OF INCLUSIVE EDUCATION AND ITS ROOTS

Guliyeva K.R.

The article touched upon issues such as the etymological meaning, essence, purpose of education of the word inclusion, and clarified the content of these concepts. The difference between the concepts of inclusion and integration, the historical periods of the learning and educational process of children with disabilities have been identified and studied in more depth. In the mid-1960s, real changes in theory and practice were discovered, and the regularities of the "medical model" were studied through the prism of that period. In England, the United States and Scandinavia in the 70s of the last century, the essence of the concept of normalization, which is the

basis of the medical model, was explained, and the disadvantages of the concept were identified. At present, the development of support services for people with disabilities has been ideologically clarified in the content of the "social model", and the reasons for the emergence of the concept of "connection" have been identified. It has been established that "joining" implies the maintenance of the partial autonomy of each group. According to this ideology, perceptions and behaviors that are conducive to a traditionally dominant group must change their image in a way that allows for pluralism in thought and habit. At the same time, a number of international conventions and national legal frameworks adopted in the world and in Azerbaijan in modern times have been studied here.

***Key words*:** inclusive, education, health, children, limitation

İNKLÜZİV SİNİFLƏRDƏ ŞAGİRD MÜXTƏLİFLİYİNİN NƏZƏRƏ ALINMASI VƏ DƏRSLƏRİN TƏŞKİLİ

Xasiyeva S.A.
ADPU-nun Şamaxı filiali
sekine_117@list.ru

Xülasə: dünyanın qabaqcıl ölkələrinin təhsil sistemləri ilə qarşılıqlı əlaqə, cəmiyyətimizin dəyişən tələbləri çərçivəsində inklüziv təhsilin geniş vüsət alaması və bu istiqamətdə bir sıra düşünülmüş addımların atılması, təhsil islahatlarının həyata keçirilməsi gələcək nəsillərimizin rifahı, hər kəsin təhsil hüququndan istifadəsinin təmini, inklüziv cəmiyyətin yaradılması üçün son dərəcə mühüm vəzifələrdən biridir. Bu sahədə dərslərin düzgün və səmərəli təşkili, şagird müxtəlifliyinin nəzərə alınması müasir düşüncəli, inkişafa təkan verən hər cür yeniliyə açıq olan müəllimlərin üzərinə böyük məsuliyyət qoyur. Sinfin təşkilindən tutmuş bütün dərs prosesinin idarə olunmasında müəllimlər yeni metod və strategiyalardan istifadə etməklə hər kəs üçün əlçatanlığı təmin etməlidir.

Açar sözlər: inklüziv təhsil, şagird müxtəlifliyi, Disqrafiya, Disleksiya, fiziki və psixo-sosial mühit

Təhsil hər bir millərin inkişafını təmin edən ən əsas vasitələrdən biridir. Düzgün təşkil olunmuş və idarə olunan təhsil həmin dövlətin gələcək perispektivlərini müəyyən edən vacib prioritetlərdən-dir. Cəmiyyətin hər bir üzvü məhz təhsil vasitəsin ilə həyatı dərk edərək mövqeyini müəyyənləşdi-rir, müasir həyatın sürətli inkişafı ilə ayaqlaşa bilir.

Həyatımızın müxtəlif sahələrində baş verən dəyişikliklər təhsilimizdən də yan keçmir. Bu dəyişikliklərə uyğunlaşmaq, yeniliklərə açıq olmaq, cəmiyyətin, dövlətin ehtiyac və tələbatlarına cavab vermək üçün təhsil sahəsində də bir çox islahatlar həyata keçirilir ki, bunlardan da biri son dövrlərdə öz aktuallığı ilə təhsil sistemimizdə yeni mövqe qazanan inklüziv təhsildir.

İnkluziv təhsil dedikdə, bəzən yalnış olaraq sadəcə əlilliyi olan uşaqların təhsilə cəlb olunması kimi fikirlər başa düşülür. Lakin inklüziv təhsil böyük bir kütlənin- bütün həssas vəziyyətdə olan (zorakılığa, ailə vəziyyətinin yaxşı olmaması, erkən nigah, əlillik, işləmək zərurəti və s.) uşaqların yaşadıqları mühitdə digərləri ilə bərabər əsasda ümumtəhsil məktəblərində təhsilə cəlb olunması kimi başa düşülməlidir. Təbii ki, əlilliyi olan uşaqlar da bu geniş spektrlı kütlənin alt qruplarından birini təşkil edir. inklüziv təhsillin mahiyyəti ilə bağlı bir çox mənbələrdə müxtəlif izahlara rast glmək olar. Lakin mahiyyət etibarı ılə aşağıdakı tərifi məqbul hesab etmək olar.

“İnklüziv təhsil əlilliyi olan və olmayan, zəngin və yoxsul uşaqların, eləcə də cinsi, etnik, dini və mədəni statusundan asılı olmayaraq bütün uşaqların öz icmaları daxilində onların potensialını aşkara çıxara bilən məktəblərdə təhsil almasıdır”. [5, 5]

Tarixin hər dövründə təhsilin əsas aparıcı qütbünü müəllimlər təşkil edib və əsas yük müəllimlərin ciyinlərinə düşüb. Məhz bu səbəbdən də müasir tələblərə cavab vermək üçün hər bir müəllim inklüziv təhsili daha dəqiq anlamaq üçün onun prinsiplərini, əhatə dairəsini düzgün mənimsəməli və bu sahədə araşdırmalar aparmalı, öz üzərində işləməlidir.

İnklüziv təhsil aşağıdakı prinsiplərə əsaslanır:1) İnsanın dəyəri onun bacarıqları və naliyyətləri ilə ölçülmür; 2) Hər bir insan hiss etmək və düşünmək qabiliyyətinə malikdir; 3) Hər bir insan ünsiyyət hüququna malikdir; 4) Bütün insanların bir-birinə ehtiyacı vardır; 5) Əsl təhsil yalnız real qarşılıqlı münasibətlər zəminində həyata keçirilə bilər; 6) Bütün insanlar öz həmyaşıdlarının köməyinə və dostluğuna ehtiyac duyur; 7) Bütün təhsil alanların nailiyyətlərinin inkişafı onların bacarmadıqları ilə deyil, bacardıqları ilə ölçülür. [6, 533]

Müəllimlər dövrün tələblərinə səmərəli şəkildə cavab vermək üçün öz fəaliyyətlərini də düzgün planlaşdırmalı, şagird müxtəlifliyini nəzərə almalı və hər kəsin, həmçinin dərs dediyi şagirdlərin müxtəlif forma və üsullarla həyatı dərk edib qavradığını qəbul etməlidir. Unutmamalıyıq ki, bu gün bütün ümumtəhsil məktəblərinin tərkibinə daxil olan hər bir sinifdə ən yaxşı göstəriciləri olan şagirdlər belə müxtəlif situasiyalarda müəyyən çətinliklərlə üzləşə bilərlər. Və yaxud da heç bir həssas qrupa daxil olmayan, o cümlədən əlilliyi olmayan şagirdlərin təlim nəticələrinin zəif olması, mənimsənilməsi nəzərdə tutulan bilik və bacarıqlara sahib ola bilməməsi danılmaz faktdır. Bu o demək deyil ki, həmin uşaqları təhsildən kənarlaşdırmaq, diskiriminasiyaya məruz qoymaq lazımdır. Məhz bu səbəbdən də təhsil işçiləri həssas vəziyyətdə olan uşaqların təhsilində maneəyə çevrilməməlidirlər. Bu qruplara daxil olan uşaqların təhsildən yayınması üçün çoxsaylı maneələr mövcuddur. İlk olaraq cəmiyyətin inkişafını təmin edən aparıcı qüvvə olan müəllimlər inklüziv təhsilin mahiyyətini düzgün anlamalı və dəstək tədbirlərinə könüllü olaraq cəlb olunmalı, təşəbbüskarlıq nümayiş etdirməlidirlər.

Qeyd olunan tədris və təlim ilə bağlı dörd əsas dəyər bütün müəllimlərin inklüziv təhsil sahəsində fəaliyyətinin əsasını təşkil edir:

1.Təhsilalanların müxtəlifliyinin dəyərləndirilməsi – təhsilalanların fərqliliyi təhsildə resurs və dəyər kimi qiymətləndirilir;

2.Bütün müəllimlərin dəstəklənməsi – müəllimlər bütün tələblərin uğur qazanması ilə bağlı yüksək gözləntilərə malikdirlər;

3.Başqaları ilə birgə iş – əməkdaşlıq və komanda işi bütün müəllimlər üçün vacib yanaşmalardır;

4.Fərdi peşə inkişafının davam etdirilməsi – tədris bir öyrənmə fəakiyyətidir və müəllimlər ömürboyu öyrənmək üçün məsuliyyət daşıyırlar. [2, 10]

Cəmiyyətin hər bir üzvü, o cümlədən müəllimlər fərqliliyi qəbul etməli, müxtəlifliyə hörmətlə yanaşmalıdır. Bir sinif daxilində əlilliyi olan və olmayan, həssas qrupalara daxil olan uşaqlar əyləşə bilər. Lakin yaddan çıxarmamlıyıq ki, müxtəlif ehtiaycları və maraqları olan uşaqların hər birinin eyni hüquq və öhtəlikləri mövcuddur. Bu hüquq və öhtəliklər öz əksini istər milli , istərsə də beynəlxalq hüquqi sənədlərdə tapmaqdadır. Təhsil almaq hər bir şəxsin fundamental hüququdur.

Sinif daxilində olan və müəllimlərin qarşılaşdığı müxtəlifliyi bu formada qruplaşdırmaq olar: Diskalkuliya, Disqrafiya, Disleksiya, Dislaliya, Dispraksiya, Diqqət çatışmazlığı və hiperaktivlik sindromu, Autizm sindromu, Daun sindromu, görmə əlilliyi olan uşaqlar, eşitmə əlilliyi olan uşaqlar, serebral iflic və s.

Qeyd etdiyimiz kimi hər bir uşaq müəyyən çətinliklərə üzləşə bilər və onun öhtəsindən gələ bilmək üçün ətrafındakıların- müəllimlərinin, valideynlərinin, özündən böyük bacı və qardaşlarının, dostlarının dəstəyinə ehtiyacı ola bilər. Öyrənmə çətinliyi olan uşaqlar isə mənimsəmə prosesində digərlərinə nisbətdə daha tez-tez çətinliklərlə üzləşə bilərlər. Bütün bu çətinliklərin aradan qalxması üçün öyrənmə çətinliyinin səbəbini düzgün təyin etməli, işinin səmərəli təşkili üçün strategiyalar, forma və üsullar müəyyənləşdirməli. Şagirdlərin üzləşdikləri bəzi çətinliklərə nəzər salsaq görərik ki, bunlar zamanla və düzgün müəyyən olunmuş tədbirlər planı ilə aradan qaldırıla bilər.

Diskalkuliya – Diskalkuliyası olan uşaqlar hesab bacarıqlarının əsas aspektlərini öyrənməkdə çətinlik çəkirlər. Çətinlik kəmiyyət və məkan məlumatlarının mənimsənilməsi, başa düşülməsi və emalı ilə bağlıdır.

Disqrafiya – Yazılı və qrafik formada öz fikirlərini ifadə etməkdə çətinlikdən əmələ gələn öyrənmə bacarığının olmamasıdır. Çox pis əlyazısının olması ilə xarakterizə olunur.

Disleksiya – Disleksiyası olan uşaqlar oxuyub-yazma bacarıqlarının, bəzən də hesablama bacarıqlarına təsir göstərən öyrənmə çətinliyi ilə üzləşirlər. [3, 62-63]

Dislaliya- Dislaliya sözü yunancadan tərcümədə “dis”(pozulma),”laliyo” (nitq) – pozulmuş nitq deməkdir. [6, 327]

Onun da qeyd etmək lazımdır ki, hər hesab bacarıqları zəif olan şagirdə diskalkuliyası olan şagird və ya yazı propsesi zamanı səhvə yol verən şagirdə disqarfiyası olan şagird diaqnozunu qoymaq da düzgün deyil. Bunun üçün sistemli, lazım gələrsə uzunmüddətli müşahidələr aparmaq, ən çətin anlarda bu saha üzrə ixtisaslaşmış mütəxəssislərə müraciət etmək daha məqsədə uyğundur.

Müxtəlif qavrama səviyyəsi olan, müxtəlif maraq və ehtiyacları olan və həmçinin çoxuşaqlı siniflərdə fiziki və psixo-sosial mühitin yaxşı təşkil olunması öyrənmə prosesinə bilavasitə təsir edən əsas amillərdəndir.

Fiziki mühitin təşkili - İdela şəraitdə bir sinif otağı parlaq, təmiz, yaxşı təchiz olunmuş, hər bir şagirdin rahatlığına uyğun olmalıdır. Şagirdlərin təklikdə və ya qrup halında otaqda rahatlıqla gəzmələri və işləmələri üçün şərait olmalıdır. Aktiv öyrənmə mühiti yaratmaq və şagirdlərin dərsdə iştirakını artırmaq üçün oturacaqlar şagirdlərin bir-birini və müəllimi görə biləcəkləri formada qurulmalıdır. [1, 5]

Fiziki mühitin təşkili təkcə sinif otağı ilə məhdudlaşmır. Bura məktəbin girişi, dəhlizlər, bir-mərtəbədən digər mərtəbəyə keçid, məktəb kitabxanasında, yeməkxanada, idman zalında, sanitar qovşaqda və s məkanlarda sərbəst və rahat şəkildə istifadə edə bilmək də daxildir. Məktəbə girişin təmin olunması, standartlara uyğun pandusların təşkili, kitabxana və yeməkxanadakı masakarın düzgün yerləşdirilməsi məktəbin hər kəs üçün əlçatanlığını təmin edən amillərdəndir. Demək olar ki, bunların əksəriyyəti əlavə vəsait tələb olunmadan da həyata keçirilə bilər. Bu kimi addımlar təkcə əlilliyi olan uşaqların deyil digər uşaqların da məktəbdə və sinifdə rahat şəkildə hərəkətini təmin etmiş olur.

Psixo-sosial mühitin təşkili – Şagirdlərə marağınızı, əlçatanlığınızı göstərən, eləcə də şagirdləri-nizi sizin haqqınızda öyrənməyə və təlim prosesində iştirak etməyə təşviq edən bir cəmiyyət hissi yaratmaq çox vacibdir. Məqsəd sizin və şagirdlərinizin bir-birinizi daha yaxşı başa düçməyinizə kömək etməkdir. İcma hissini və onun müsbət psixoloji sosial mühitini yaratmaq, şagirdlərinizi öyrətməyə, aktiv olmağa, hətta izdihamlı siniflərdə belə bacarıqlarının ən yaxşısını öyrənmək üçün sərf etməyə şərait yaradır. Üstəlik, şagirdlərə dəyər hissini aşılamaq və müəllimin kömək etməyə həvəsli olduğunu göstərmək onların öyrənmə prosesinə müsbət mənada çox yaxşı mənada təsir edir. [1, 8-9]

İnklüziv siniflərdə dərslərin səmərəli təşkilini son dərəcə vacib edən məsələlərdən biri də sosial səriştənin olmasıdır. əməkdaşlıq və ünsiyyət bir çox problemlərin qarşısını alır və onun aradan qalxmasına bilavasitə kömək etmiş olur. İnklüziv təhsildə əməkdaşlıq müəllim-müəllim, şagird-şagird, müəllim-şagird, müəllim-valideyn və s tərəflər arasında düzgün təşkil olunmaq şərti ilə çox müsbət nəticələr verə bilər. Mövcud problemlərə fəqli baxış nöqtələrinin çoxluğu onun həlli yollarının da çoxluğu deməkdir. Və bu çoxluq içərisindən ən səmərəlisini seçməklə yaranmış çətinlikləri rahatlıqla aradan qaldıra bilər.

Sosial səriştələr şagirdlərdən aşağıdakıları tələb edir:

- başqaları ilə qarşılıqlı əlaqə yaratmaq istəyinin olması;
- müəyyən sosial bacarıqlara malik olmaq, onları müvafiq və səmərəli şəkildə harada , necə istifadə edə bilməyi;
- vəziyyət və əlaqələrdəki dəyişikliklərə cavab olaraq davranışlarda düzəlişlər etməyi [4, 244]

ƏDƏBİYYAT

1. Çoxuşaqlı siniflərdə tədris üçün məsləhətlər. (Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait. Xüsusi kitabça 2) UNESCO, 2020, 66 s.
2. İnklüziv müəllimlərin profili.Xüsusi təhsilin inkişafı üzrə Avropa Agentliyi, 2019, 50 s.
3. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. (Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait. Xüsusi kitabça 3) UNESCO, 2019, 114 s.
4. Tim Loreman, Joanne Deppeler, David Harvey, İnklüziv təhsil, 2020, 324 s.
5. İnklüziv təhsil: Valideynlər üçün bələdçi. RİİB, 2020, 44 s.
6. Axundova Ü., İsmayılova M., Uşaq inkişafı metodikası. 2011, 578 s.

РЕЗЮМЕ

РАЗНИЦА СТУДЕНТОВ В ИНКЛЮЗИВНЫХ СИЛАБАХ И ОРГАНИЗАЦИИ УРОКОВ

Хасиева С.А.

Взаимодействие с системами образования ведущих стран мира, расширение инклюзивного образования в условиях меняющихся потребностей нашего общества и ряд целенаправленных шагов в этом направлении, реализация образовательных реформ чрезвычайно важны для благополучия будущих поколений, права каждого на образование. Правильная и эффективная организация уроков в этой области с учетом разнообразия учащихся возлагает большую ответственность на современных учителей, открытых для всех видов новшеств, способствующих развитию. Управляя всем процессом обучения, начиная с организации класса, *учителя должны обеспечить его доступность для всех, используя новые методы и стратегии.*

Ключевые слова: инклюзивное образование, разнообразие учащихся, дисграфия, дислексия, физическая и психосоциальная среда

SUMMARY
STUDENT DIFFERENCE IN INCLUSIVE SYLLABES AND ORGANIZATION OF CLASSES
Khasiyeva S. A.

Interaction with the education systems of the world's leading countries, the expansion of inclusive education in the changing needs of our society and a number of deliberate steps in this direction, the implementation of educational reforms are extremely important for the welfare of future generations. Proper and effective organization of lessons in this area, taking into account the diversity of students places a great responsibility on modern-minded teachers who are open to all kinds of innovations that promote development. In the management of the entire teaching process, from classroom organization, teachers must ensure that it is accessible to all, using new methods and strategies.

Key words: inclusive education, student diversity, dysgraphia, dyslexia, physical and psychosocial environment

РАЗВИТИЕ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ – АКТУАЛЬНЫЙ ВОПРОС СОВРЕМЕННОСТИ

Кулиева Т. А., Мусаева А.Т.
Сумгаитский государственный университет
tarana_65@inbox.ru

Резюме: Политика инклюзивного образования не может быть оторвана от общих тенденций, наметившихся в рамках мировых образовательных процессов. Инклюзивное образование-это сотрудничество всех заинтересованных сторон. Особое внимание обратим на гуманистическое начало, принципы инклюзивного образования. Лица с ООП встречаются с рядом сложностей при получении образования. Проект по инклюзивному образованию в Азербайджане был разработан в 2011 году. Активное участие в рамках этого проекта принял профессорско-преподавательский состав Сумгаитского государственного университета.

Ключевые слова: инклюзия, гуманистическое начало, стратегия инклюзивного образования, проект, тренинг.

Инклюзия – это принцип «учиться, работать и жить вместе», построенный на гуманистических началах. Инклюзивный подход предполагает принятие философии инклюзии всеми участниками образовательного процесса. Особое внимание обратим внимание на 8 принципов инклюзивного образования:

- ✓ ценность человека не зависит от его способностей и достижений;
- ✓ каждый человек способен чувствовать и думать;
- ✓ каждый человек имеет право на общение и на то, чтобы быть услышанным;
- ✓ все люди нуждаются друг в друге;
- ✓ подлинное образование может осуществляться только в контексте реальных взаимоотношений;
- ✓ все люди нуждаются в поддержке и дружбе ровесников;

- ✓ для всех обучающихся достижение прогресса скорее может быть в том, что они могут делать, чем в том, что не могут;
- ✓ разнообразие усиливает все стороны жизни человека. [1, с.375]

Развитие и совершенствование инклюзивного образования – одна из последних стратегий образования. Инклюзивное образование включает сотрудничество всех заинтересованных сторон друг с другом. Оно требует совместной работы с министерством и государственными структурами, сотрудничества учителей и других компетентных работников школы, родителей и школьной общины в целом.

Многие годы лица с особыми образовательными потребностями (ООП) встречаются с рядом препятствий на пути получения образования. Причиной этому является отсутствие необходимой инфраструктуры, несоответствие куррикулума и системы образования особым потребностям этих лиц. Получение образования данной группой детей в специализированных учебных заведениях приводит к тому, что в последующем лица с ООП не могут полноценно интегрироваться в общество. Не все дети данной группы имеют шанс получить высшее образование, что затрудняет перспективу устройства их на желаемую работу. В результате члены общества лишаются возможности личностного развития, а само общество теряет потенциальный человеческий капитал.

Первый проект по инклюзивному образованию университеты Азербайджана начали разрабатывать с 2011 г., тогда же начался этап привлечения партнеров. В 2013-м году был получен грант на реализацию трёхлетнего международного проекта TEMPUS ESFIDIP «Создание основ для интеграции лиц с инвалидностью в высшие учебные заведения Азербайджана», направленного на интеграцию лиц с ООП, в том числе и с инвалидностью, в высшую школу Азербайджана и применение опыта европейских стран в этой области. Основной целью проекта является создание центров для студентов-инвалидов и усиление их деятельности.

Партнеры проекта с азербайджанской стороны – Университет Хазар (координатор), Гянджинский государственный университет, Нахичеванский государственный университет, Сумгаитский государственный университет, Ленкоранский государственный университет, Азербайджанский государственный экономический университет, Союз инвалидных организаций (СИО), Министерство образования Министерство труда и социальной защиты населения Азербайджанской Республики.

Партнеры проекта со стороны Европы — Human European Consultancy (Нидерланды), Лодзинский университет (Республика Польша), Македонский университет (Греция), Грацский университет (Австрия).

В рамках проекта были проведены тренинги в Грацском, Македонском и Лодзинском университетах. В тренингах участвовали сотрудники проекта из Азербайджана, а также группа преподавателей Сумгаитского государственного университета (далее – СГУ). Следует отметить, что в СГУ были проведены тренинги для его сотрудников под руководством модераторов европейских партнеров. [2]

С Европейской комиссией в области инклюзивного образования СГУ сотрудничает не только по программе TEMPUS, но также при поддержке Министерства образования Азербайджанской Республики расширяет связи сотрудничества с зарубежными организациями. Примером этому может служить сотрудничество СГУ с British Council и UNICEF. [3]

Преподаватели СГУ проводят в школах города Сумгаита встречи, информационные дни, чтобы познакомить население с имеющимся потенциалом университета, а также, чтобы лица с ООП могли воспользоваться в будущем возможностью получения высшего образования. СГУ имеет договоры с двумя инвалидными организациями. Совместное сотрудничество в рамках международного проекта с одной из них – Общественным объединением организации предпринимателей-инвалидов — и получение образования студентами-инвалидами помогает решать вопросы их трудоустройства. [4]

Сотрудники СГУ приняли участие в тренингах по инклюзивному образованию, которые прошли в Институте профессионального развития учителей (Баку) при финансовой поддержке Европейского союза в рамках проекта ЮНИСЕФ и общественного объединения Фонда Гейдара Алиева «Региональное развитие». Цель мероприятия – повысить навыки преподавания учителей в области проекта и поощрять их к внедрению новых методов обучения в области инклюзивного образования.

Значимый опыт приобрели 90 сотрудников университета в результате трехдневных тренингов, проведенных для преподавательского состава СГУ. Этот проект – вторая программа в рамках мероприятий, поддерживающих учителей и студентов начального педагогического образования в применении инклюзивного образования в Азербайджане. Данную государственную программу инклюзивного образования поддержали UNICEF и RIIB. [5]

После принятия в 2006 г. Конвенции ООН «О правах лиц с инвалидностью» страны, подписавшие Конвенцию, вносят изменения в свое законодательство для обеспечения индивидуальных прав лиц с инвалидностью и проводят долгосрочные реформы для усиления системных изменений, поддерживающих права лиц с инвалидностью жить наравне с другими.

Политика суверенного Азербайджана не может быть оторвана от общих тенденций, наметившихся в рамках мировых образовательных процессов. Основная цель инклюзивного образования в Азербайджане – создание образовательных условий во всей их совокупности.

СГУ стремится к развитию в области инклюзивного образования, подготавливая профессиональные кадры для работы со студентами с ООП в том числе и с инвалидностью, а также способствует повышению профессионализма учителей школ.

ЛИТЕРАТУРА

1. Пугачёв А.С. Инклюзивное образование // Молодой ученый. № 10, 2012, 375 с.

2. Universitetimiz “Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasisı” na dəstək verir / https://sdu.edu.az/az/news/235

3. Əməkdaşlarımız inkluziv təcrübə təlimində iştirak etdilər / https://sdu.edu.az/az/news/985

4. SDU ilə “Əlil Sahibkarlar Təşkilatları”İctimai Birliyi arasınada əməkdaşlıq müqaviləsi imzalandı / https://sdu.edu.az/az/news/970

5. Тренинг в рамках проекта «Расширение инклюзивного образования в Азербайджане» / https://sdu.edu.az/az/news/1108

XÜLASƏ
İNKLÜZİV TƏHSİLİN İNKİŞAFI DÖVRÜMÜZÜN AKTUAL MÖVZUSUDUR

Quliyeva T.Ə.
Musayeva Ə.T.

Suveren təhsil siyasəti dünya təhsil prosesləriçərçivəsində ortaya çıxan ümumi tendensiyalardan qoparıla bilməz. İnklüziv təhsil bütün maraqlı tərəflərin əməkdaşlığıdır. Humanist prinsipə, inklüziv təhsil prinsiplərinə xüsusi diqqət yetirək. Xüsusi təhsil ehtiyacları olan şəxslər təhsil almaqda bir sıra çətinliklərlə qarşılaşırlar. Azərbaycanda inklüziv təhsil layihəsi 2011-ci ildə işlənib hazırlanmışdır.Sumqayıt Dövlət Universitetinin professor-müəllim heyəti bu layihədə fəal iştirak etmişdir.

Açar sözlər: daxilolma, humanist prinsipi, əhatəli təhsil strategiyası, layihə, təhsil

SUMMARY
THE DEVELOPMENT OF INCLUSIVE EDUCATION IS
A TOPICAL ISSUE OF OUR TIME
Guliyeva T.A., Musayeva A.T.

The policy of sovereign education cannot be separated from the general trends that have emerged within the framework of world educational processes. Inclusive education is the cooperation of all interested parties. Let's pay special attention to the humanistic principle, the principles of inclusive education. People with special educational needs face a number of difficulties in obtaining education. The inclusive education project in Azerbaijan was developed in 2011. The teaching staff of Sumgayit State University took an active part in this project.

Key words: admission, humanistic principle, comprehensive education strategy, project, education

III BÖLMƏ. CƏMİYYƏTƏ İNTEQRASİYA VƏ SOSİALLAŞMANIN AKTUAL PROBLEMLƏRİ

SOSIALLAŞMA CƏMİYYƏTƏ İNTEQRASİYA FORMULU KİMİ: ŞƏXSIYYƏTİN TƏŞƏKKÜLÜ

Dadaşzadə Ə. İ.
Sumqayıt Dövlət Universiteti
ehlimandadaszade@gmail.com

Xülasə: Məqalədə şəxsiyyətin formalaşmasının sosial aspektləri və sosiallaşmanın şəxsiyyətin təzahüründə aparıcı rolu əsaslandırılır. Bu yöndə pedaqoji, psixoloji, sosioloji və bioloji tədqiqat və nəzəriyyələrin verdiyi materiallardan istifadə etməklə sosialaşmanın fərddən şəxsiyyətə çevrilmə və cəmiyyətə inteqrasiya olunma prosesi araşdırılır.Cəmiyyətə inteqrasiya olunan şəxsiyyət həm sosiallaşmış fərd kimi cəmiyyətdən bəhrələnir, həm də öz kompetensiyaları ilə cəmiyyətdə sosial münasibətlərin istiqamətlənməsinə fəal müsbət təsirini göstərir.

Açar sözlər: *şəxsiyyət, sosiallaşma, mən, fərd, cəmiyyət, inteqrasiya*

Sosiallaşma çox mürəkkəb, rəngarəng və rəngarəng olduğu qədər çətin prosesdir. Bu prosesin ilkin elementləri qarşılıqlı münasibətlər şəraitində ictimai dəyərlərin əldə olunması tendensiyasında üzə çıxır. İnsan amili ictimai dəyərlər qazandıqca cəmiyyətə inteqrasiya olunur və beləliklə də cəmiyyət üzvləri arasında əhəmiyyətli dərəcədə eyniyyətin yaranmasının ilkin elementləri formalaşmağa başlayır. Cəmiyyətin inkişafı isə yalnız onun üzvləri arasında sağlam münasibətlər şəraitində reallaşa bilir. İnsanın qarşılıqlı münasibətlər şəraitində formalaşması prosesi qeyri-şərtsiz olaraq sosiallaşma prosesinin genişhüdudlu əhatə dairəsinin tərkib elementinə çevrilir. Deməli, sosiallaşma prosesi başlıca olaraq mənəvi-psixoloji və sosial-pedaqoji şərtlərlə xarakterizə olunan uzunmüddətli bir tendensiyadır. Məqalənin tədqiqi predmetinə uyğun olaraq deyə bilərik ki, soiallaşma aktının pedaqoji və psixoloji parametrlərinin araşdırılması ilk növbədə uşaqlarla sosialpedaqoji işin aparılmasında yeniliklərin əldə olunmasına potensial töhfələr verəcək. Bu bir həqiqətdir ki, mənəvi-psixoloji resurslar şəxsiyyətin tipalogiyasında yalnız perspektivli yer tutduqdan sonra cəmiyyətdə sosial-iqtisadi və elmi-texniki tərəqqinin geniş sosial-psixoloji və pedaqoji potensialları formalaşır. İnsanın ictimai münasibətlər sistemində iştirakını ilkin mərhələdə onunla ətraf aləm arasında yaranan daxili psixoloji vasitələr şərtləndirir. Bunu elmşünaslıqda sosiallaşma aktının "daxili psixoloji vasitəsi" kimi adlandırmaq olar. Həmin vasitələrin ilkin elementləri duyğu üzvlərinin sosial imkanları səviyyəsində üzə çıxır. Çünki ictimai münasibətlər sferasına daxil olan insan ilkin mərhələdə ətraf aləmdə baş verən hadisələri duyğu üzvləri vasitəsilə hiss etməyə çalışır; faktları seçir, toplayır, təfəkkür süzgəcindən keçirir və müvafiq ictimai dəyərlərin "yenidən istehsalını" reallaşdırmaq üçün həmin faktlar barədə məlumatların çox böyük və tükənməz axınını qəbul edən və onu ictimai keyfiyyətlərin təşəkkülü səviyyəsində təhlil etmə qüdrətinə malik olan beyinə ötürür. Bu tendensiyanın nəticəsində ictimai münasibətlər şəraitində insan psixologiyasının ətrafdakı fakt və hadisələrə adekvat inikası baş verir və bunun əsasında icraedici funksyalara daxil olan, davranışın psixi modelini yaradan sinir implusları formalaşır. Sosiallaşma aktında müxtəlif əməliyyatların icrasından ibarət olan mürəkkəb psixi mexanizm fasiləsiz iş rejimində fəaliyyət göstərir. Hiss üzvləri ictimai mühitin insan şüuruna nüfuz etməsində psixoloji səbəblər törədən sosial kanalların məcmusudur. Bu mənada hiss üzvləri insan amilinə onu

əhatə edən ictimai mühitə bələdləşmək imkanlarını qazandırır. Elmi psixologiyada qeyd olunduğu kimi, əgər insan bütün hiss üzvlərindən məhrum olsaydı, o, özünün ətrafında nələr baş verdiyini bilməzdi, onu əhatə edən adamlarla ünsiyyətə girməyə müvəffəq olmazdı. [1, s. 29-30]

Heç də isbatlamağa ehtiyac yoxdur ki, cəmiyyətin müxtəlif sferalarında sosial çətinliklər, eləcə də sosiumda fərdlərin sosiallaşma problemlərinin kəskinləşməsi həm mövcud ictimai strukturların, həm də ayrıca fərdlərin və şəxsiyyətlərin təkrar istehsalı proseslərini təhlükə altına ala bilər. Etiraf edilməlidir ki, təkcə Azərbaycanda deyil, digər postsovet məkanı ölkələrində şəxsiyyətin sosiallaşması problemi dərindən, yeni metodoloji texnologiyalar baxımından dəyərincə öyrənilməmişdir. Əgər əvvəllər problemin öyrənilməsi empirik baxımdan çətin idisə, hazırda bu vəziyyət konseptual praktikanın dəyərincə olmaması ilə izah edilməlidir. Fəlsəfə elmi, xüsusilə onun şəxsiyyəti öyrənən ayrı-ayrı istiqamətləri hələ də özünə adekvat tarixi inkişaf və müasir dünyanın sosial quruluşunun fəlsəfi konsepsiyalarının axtarışındadır. [2, s. 97]

Şəxsiyyət problemi sosiologiyanın əsas problemlərindən biridir. Şəxsiyyət təbiətin məhsulu olaraq deyil, cəmiyyətin məhsulu olaraq öyrənilir.İnsanı tanımaq cəmiyyəti tanımaq deməkdir. Şəxsin inkişafının istiqamət, şərt, üsul və vasitələrinin öyrənilməsidir. Bir çox sosial sistemlərə bağlı olan insan özlüyündə ayrıca bir sistemdir və mürəkkəb quruluşa malikdir. Cəmiyyət insanı yetişdirdiyi kimi, insan da cəmiyyəti formalaşdırır. Gündəlik həyatda insan, fərd, şəxs anlayışları sinonim kimi başa düşülür.Əslində bu belə deyil. İnsan anlayışı ümumi, köklü anlayışdır. İnsan canlı təbiətin bir parçası olub, ali sinfə aiddir və təbiət zəncirində şüurlu varlıq- Homo sapiens meydana gətirir. İnsan digər bioloji növlər kimi dəyişikliklərə aludədir və onun dəyişməsinə təbii coğrafi və sosial mədəni amillər öz təsirini göstərir. Ona görə də Homo sapiens davamlı dəyişkənliklərə məruz qalır ki, bu da ümumi olaraq irq anlayışı ilə ifadə olunur. İrq (fr. Race - tək vahid) tarixi olaraq formalaşmış məkana bağlı insan qrupudur və bu insanlar ümumi morfoloji və fizioloji nəsil əlamətlərində özünü göstərən vahid yaradılışla bir-birinə bağlıdırlar. İnsanın irqlərə (neqroid, avropoid, monqoloid) bölünməsi onunla müəyyənləşir ki, planetin müxtəlif ərazilərinə yayılmış insanlar konkret təbii şəraitə uyğunlaşır və onlarda xüsusi anatomik, fizioloji, bioloji əlamətlər yaranır. Burada söhbət ikinci dərəcəli xarici görünüşlərdən gedir (dəri rəngi, göz quruluşu, başın forması, boy və s.). Belə ki, insanın fizioloji quruluşunun əsas əlamətləri (skelet, əzələ, beyin quruluşu) bütün irqlərdə eynidir. Hər hansı irqin nümayəndəsi (bu irqə mənsub fərqləndirici xüsusiyyətlərdən asılı olmayaraq) vahid bioloji növün nümayəndəsidir, bu, bioloji növə aid bütün əlamətləri özündə cəmləşdirir, bu da ona insan cəmiyyətinin həyat fəaliyyətinin bütün sahələrində uğurla iştirak etməyə imkan verir. Eyni zamanda digər irq və xalqların həyat tərzi ilə uyğunlaşmağı və onlarla assimilyasiya olmağı mümkün edir. Fərd anlayışı insanlığın vahid nümunəsi olaraq, insan nəslinin xarakterik xüsusiyyətlərini özündə ehtiva edən konkret insanı ifadə edir. Sosiologiyada bu anlayış o zaman istifadə olunur ki, sosial toplumun ayrı-ayrı nümayəndələri, müəyyən qismə aidliyi təsvir olunan seçilmiş qismi (empirik analizdə) diqqətə alınır. Psixologiyada bu – özünəməxsus psixofiziki keyfiyyətlərə, psixi proses və xüsusiyyətlərin sabitliyinə, bu xüsusiyyətlərin konkret vəziyyətə tətbiqi ilə bağlı aktivlik və elastikliyə malik olan insan nəslinin bir nümayəndəsidir. “Fərd” anlayışı ilə yanaşı, “individuallıq” anlayışı da vardır ki, bu anlayış hər bir insanın unikallığı və təkrarolunmazlığını, insanları bir-birindən fərqləndirən genetik və sonradan əldə olunmuş bioloji və sosial xüsusiyyətləri təyin etmək üçün istifadə olunur. Sosial mühitdə bu cür qanunauyğunluq vardır ki, cəmiyyət nə qədər bəsit olarsa, onu təşkil edən fərdlər arasında daha çox oxşarlıq mövcuddur. Əksinə nə qədər çox inkişaf edərsə və demokratik olarsa, onun üzvlərinin öz fərdi keyfiyyətlərini inkişaf etdirməsi üçün daha geniş imkanlar yaranar. İnsanlar fərd olaraq, müxtəlif dövrlərdə, müxtəlif tarixi, siyasi, iqtisadi şərtlər altında formalaşır.İnsan inkişafının

spesifik əlamətləri və fərdi xüsusiyyətlərinin mühit prizmasından əks olunması üçün "şəxsiyyət" anlayışı istifadə olunur. Şəxs adı altında insanın varlığı, onda əks olunan sosial əlamətlər sisteminin reallaşması və ya qısaca desək, insanın sosial özəlliyi nəzərdə tutulur.Bu anlayış insanın və fərdin təbiətüstü sosial varlığının ifadə olunması, yəni sosial başlanğıc üzərində vurğu qoyulması məqsədilə istifadə olunur. Canlı varlıqların xüsusi növü olaraq insanın şəxsiyyəti üç altquruluşunun inteqral birliyi (təbii bölünməzlik) şəklində meydana çıxır: Bioloji- bu alt quruluşu şərti sayıla bilən təbii reflekslər təşkil edir: təbii anatomik əlamətlər; orqanizmdə baş verən fizioloji proseslər.Məhz bunlar fundamental bioloji tələbatları meydana gətirir ki, bunlar da insanın müəyyən hərəkətlərinə təkan verir. Psixoloji- bu alt quruluş yaddaş, xasiyyət, hisslər, iradə, təxəyyül, müşahidə qabiliyyəti, intellekt kimi elementlərdən yaranır. Psixoloji mənada şəxsiyyət özündə temperament, qabiliyyət, meyil və xarakteri cəmləşdirir. Sosial- altquruluş fərdin davamlı keyfiyyətlərinin kompleksi şəklində ifadə olunur ki, bu keyfiyyətlər də uşaqlıqdan aludə olduğu ictimai mühitin: mədəniyyətin və fərdin tərbiyə aldığı, həyat fəaliyyətində bərabərhüquqlu üzv kimi iştirak etdiyi cəmiyyətin təsiri ilə yaranır. Şəxsin formalaşmasında ən mühüm rolu onun sosiallığı oynayır. Bu, o deməkdir ki, ictimai prosesdə iştirak və sosiallaşmaq insan keyfiyyətlərini formalaşdırır.

"Mən" nəzəriyyələrinin yaradıcılarından biri olan amerikan sosial psixoloqu Çarlz Xorton Kuli (1864-1929) hesab edirdi ki, şəxsiyyət ətraflı mühitlə çoxsaylı münasibətlərdən meydana gəlir və bunun nəticəsində insanlar özlərinin üç elementdən ibarət olan "güzgülü Mən" lərini yaradırlar: 1) bizim fikrimizcə, başqaları bizi necə qəbul edir; 2) bizim fikrimizcə, onlar gördüklərinə necə reaksiya verirlər; 3) digər insanların bizə qarşı olan reaksiyalarına biz necə cavab veririk. Bu cür fikirlə (mən – sosial əlamətəm) Corc Herbert Mid (1863-1931) çıxış etmişdir. Özünün "Mən"i uşaq yaşlarından, uşaq özünü başqaları haqqında düşündüyü kimi düşünən zaman formalaşır. Midə görə kamil insan "Mən"i iki hissədən ibarətdir: "Mən - özüm", "Mən –məni". Birinci ("Mən-özüm") insan şəxsiyyətinin şüuraltı qismini təşkil edir. Bu, insanın özündə saxladığı və cəmiyyətə təqdim etmədiyi, hətta özündən belə gizli olan qismidir. İkinci ("Mən-məni") özünü qəbul, refleksiya və fərdin şüurudur, yəni "Mən"in xarici aləmlə əlaqəsidir. Midin elmi irsini davam etdirən müasir tədqiqatçılardan biri də Kanada əsilli amerikan sosioloqu İrvinq Hofmandır (1922-1982). Onu dramaturji sosiologiyanın banisi hesab edirlər. O, "Mən və maskalar" kitabında qeyd edir ki, insan yüksək mənada vəziyyət və hər dəfə bu vəziyyətdə insanlarla oynadığı sosial oyun nəticəsində müəyyənləşir. [3, s.133] İnsanın özünü müşahidə edərkən gördüyü "mən" rolun təqdim olunmuş obrazı, səhnədə meydana gələn dramatik effektdir və hər şey ona etibar olunub olunmasından asılıdır. Şəxsin inkişafının psixoanalitik nəzəriyyəsinin banisi olan avstriyalı psixiatr və psixoloq Ziqmund Freyd (1856-1939) hesab edirdi ki, fərd hər zaman cəmiyyətlə münaqişədədir. Freydə görə bioloji instinktlər mədəni normalara ziddir, sosiallaşma isə bu instinktləri qadağan edən tabu sistemidir. İnstinktiv tələbatlarını təbii yolla ödəyə bilməyən insan daxili istəkləri ilə onun ictimai realizasiyası arasında kompromis axtarmalı olur. Freyd şəxsin strukturunda üç əsas keyfiyyəti ön plana çıxarır: O (İd)-zövqə meyil etdirən enerji mənbəyi, Mən (Eqo)- reallıq prinsipi əsasında şəxsin davranışlarını tənzimləyən element, Üst Mən (Super-Eqo) - şəxsin özəl və qiymətləndirici elementi. Freyd tərəfindən irəli sürülən şəxsiyyət modeli insan davranışlarının mürəkkəb və çoxtərkibli quruluşunu özündə ehtiva edir. O, sərt məntiqi yolla insanın bioloji və sosial başlanğıcını əlaqələndirməyə və şəxsiyyətin energetik, hissipsixoloji mənbəyinə sosial subyekt kimi diqqət çəkməyə çalışmışdır. Amerikalı psixoloq və psixoanalitik Erik Erikson (1902- 1994) sosiallaşmanı səkkiz mərhələdən ibarət qırılmayan proses kimi qeyd edir və bu mərhələlərin hər birində insan müəyyən həyat çətinliklərinin öhdəsindən gəlməli olur. Məsələn, gənc oglan və qızlar həyatda öz yerlərini tapmalı, harda təhsil almalı və iş tapmalı olduqlarını müəyyənləşdirməlidirlər.

Bu işlərdə ilk uğursuzluq sonrakı mərhələlərdə uyğun iş, həyat yoldaşı, dostlar tapmaqda çətinlik törədə bilər. Şəxsiyyətlə bağlı koqnitiv nəzəriyyələrin tərəfdarları sosiallaşmanı koqnitiv inkişafla, yəni düşünməyi öyrənməklə bağlayırlar. İsveçrə filosofu və psixoloqu Jan Piajenin (1896-1980) fikrincə, uşaqların koqnitiv inkişafının hər mərhələsi bu mərhələdə insana nələri öyrətməyin mümkün olduğunu müəyyənləşdirən yeni bacarıqları özündə cəmləşdirir. Bu mərhələlər bir-birini müəyyən qayda üzrə əvəzləyir: sensor-mühərrik (doğuşdan 2 yaşa qədər), əməliyyat (2-7 yaşarası), konkret əməliyyatlar mərhələsi (7-11 yaş arası), formal əməliyyatlar mərhələsi (12-15 yaşarası). Amerikalı psixoloq Lorens Kolbert (1927-1987) özünün şəxsiyyətin inkişafı nəzəriyyəsində altı mərhələdən ibarət mənəvi kamillikdən çıxış edir. İlkin mərhələlərdə uşaqlar ümumi mənəvi qaydalara əməl edirlər ki, mükafat alsınlar və ya cəzadan qaçsınlar. Orta mərhələlərdə insanların özü haqqındakı fikirlərini, cəmiyyətin gözləntilərini və ondakı "oyun qaydalarını" öyrənir. Son mərhələlərdə isə şəxsiyyətin konvensional dəyərlərdən asılı olmayan mənəvi quruluşunun formalaşması baş tutur. Qeyd edilən bütün sosial nəzəriyyələrdən belə nəticəyə gəlmək olar ki, şəxsiyyət insanların bir biri ilə qarşılıqlı əlaqələri prosesində formalaşır. Fərdin ən mühüm keyfiyyətləri sosial institut və cəmiyyətlərdə həyata keçirdiyi funksiya və rollarla şərtlənir. XX əsrin əvvəllərində feral insanlar - cəmiyyətdən təcrid olunmuş və heyvanlar tərəfindən bəslənən varlıqlar haqqında tədqiqatlar aparılmışdır. Amerikalı tədqiqatçı K.Devis canavar yuvasından tapılmış qızları araşdıraraq, müəyyən etmişdir ki, cəmiyyətdən təcrid böyüyən uşaqlar normal bioloji keyfiyyətlərə sahib olsalar da, bir sıra xüsusiyyətləri yoxdur: dayana və gəzə bilmirlər; nitq və abstrakt düşüncəyə malik deyildilər: geyim və insan qidasından imtina edirlər - çiy ət, yabanı bitkilər və həşəratlar yeyirlər; yerdə yatır, oddan qorxurdular və s. Feral insanların mövcudluğu (Mauqli effekti) sübut edir ki, cəmiyyətdən kənarda müəyyən sosial mədəni keyfiyyətləri əldə edə bilməz, yəni şəxsiyyət ola bilməz. Bunu Robinzon effekti də təsdiq edir. Əgər insan özünə bənzəyənlərdən təcrid olunacaqsa, yenidən doğulacaq və yarıheyvan-yarıinsana çevriləcəkdir. Bu zaman insan öz səlahiyyətlərini həyata keçirərək, ətrafdakıların müsbət dəyərləndirməsini əldə edə bilər (özünkülər arasında özünkü olmaq).

İnsan doğulduğu gündən qocalığına kimi bir çox keyfiyyətləri öyrənməli olduğu üçün sosiallaşma prosesi üç mərhələdən ibarət olur:

- Zəhmətəqədərki dövr - həyatın əmək fəaliyyətinə qədər olan hissəsini əhatə edir və özündə uşaqlıq və təhsil dövrünü ehtiva edir. Bu mərhələdə körpənin bioloji varlıqdan cəmiyyətin üzvünə çevrilməsi prosesi gedir.
- Zəhmət dövrü - insanın yetkinlik və əmək fəaliyyətində iştirakı dövrü kimi xarakterizə olunur. İnsan nəinki sosial təcrübəəldə edir, hətta onu digərləri ilə bölüşür.
- Zəhmətdən sonrakı dövr - təqaüd dövrünə təsadüf edir və sosial təcrübənin yeni nəslən ötürülməsi prosesi ilə əlaqəli olur. Amerikalı psixoloq və psixoanalitik Erik Erikson sociallaşması daha geniş şəkildə təsnifat edərək, səkkiz mərhələyə bölür: Körpəlik dövrü: (0-1,5 yaşarası) bu mərhələdə körpənin həyatında əsas rolu ona qulluq edən, onu qidalandıran anası oynayır. Bunun nəticəsində körpədən dünyaya etibar yaranır. Erkən uşaqlıq dövrü: (1,5-4 yaş) bu mərhələ asılılıqdan azad olma və müstəqilliyin formalaşması ilə bağlıdır. Uşaq gəzməyə, müəyyən davranışlarına nəzarət etməyə başlayır. Cəmiyyət və valideynlər uşağa səliqəli olmağıöyrədirlər. Uşaqlıq dövrü (4-6 yaş). Bu mərhələdə uşaq artıq əmindir ki, o şəxsdir.Belə ki, o qaçır, danışa bilir, dünyagörüşünü genişləndirir. İbtidai təhsil dövrü (6-11 yaş). Bu dövrdə uşaq artıq ailə daxilində inkişafını başa vurur, məktəb onu gələcək fəaliyyəti ilə bağlı biliklərə uyğunlaşdırır. Yeniyetməlik dövrü (11-20 yaş). Bu mərhələdə mərkəzləşmiş şəkildə eqoözəllik formalaşır.Qaynar fizioloji artım, cinsi yetkinlik, öz peşəsini əldə etmək istəyi bu dövrün xüsusiyyətləridir. Gənclik dövrü (21-25 yaş). Bu

mərhələdə insan üçün öz həyat yoldaşını tapmaq, digər insanlarla əməkdaşlıq, bütün sosial qruplarla əlaqələrin möhkəmlənməsi aktual olur. Bu dövrdə yaxınlıq, birlik, əməkdaşlıq hissləri formalaşır.Lakin identikliyin tənəzzülü bu yaş dövrünə də keçirsə, insan qapanır, tənhalıq və özünütədric möhkəmlənir. Yetkinlik dövrü (25-55/60 yaş). Özəl keyfiyyətlərin inkişafı davam edir. Digər insanlar, xüsusən uşaqların təsiri hiss olunur: onlar təsdiq edirlər ki, sən onlara lazımsan. Bu mərhələdə şəxs özünü sevimli işinə həsr edir, uşaqlara qayğı göstərir, öz həyatına qane edir. Qocalıq dövrü (55/60 yaşdan yuxarı). Bu dövrdə eqo - özəlliyin tamamlanması prosesi həyata keçir. İnsan bütün həyatını yenidən düşünür, keçdiyi illərlə bağlı "məni"ni dərk edir. İnsan özünü və həyatını qəbul edir, həyatın məntiqi sonlanmasını qəbul edir, müdriklik və ölüm qarşısında həyata maraqsızlıq nümayiş etdirir. Sosiallaşma prosesində ilkin və ikinci sosiallaşma anlayışları ayrılır. İlkin sosiallaşma körpəlikdən başlayır və yetkin şəxsiyyətin formalaşması ilə əlaqəlidir. Sosiallaşmanın nümayəndələri kimi insanın ətrafı çıxış edir (əvvəlcə ailə, sonra yaşıdlar və dostlar, məktəbəqədər uşaq müəssisələri və məktəblər, orta və ali təhsil müəssisələri). İkinci sosiallaşma ictimai əmək bölgüsü ilə əlaqəli spesifik rol və funksiyaların qəbul edilməsindən ibarətdir. O, insanın sosial yetkinlik dövrünü əhatə edir və ömür boyu davam edir. Onunla desosiallaşma və resosiallaşma əlaqəlidir. Desosiallaşma şəxsin əvvəllər qəbul etdiyi norma, dəyər və rollardan imtina etməsidir. Resosiallaşma itirilmiş köhnə qayda və normalar əvəzinə yenilərini əldə etməkdən ibarətdir. İkinci sosiallaşma prosesində həlledici rol oynayan sosiallaşma institutlarına gəldikdə isə, onlar vasitəçi (formal) mühitə aiddir və müəssisə və institutların, o cümlədən əmək kollektivinin, peşəkar assosiasiyaların, klubların, KİV-lərin və s. təsirini özündə ehtiva edir. Sosiallaşma nəticəsində şəxsiyyət ictimai münasibətlərə qoşulmaqla mükəlləf olan və qarşılıqlı fəaliyyət, ünsiyyət nəticəsində formalaşan fərdin sistemli keyfiyyəti olaraq ələ alınır. Bu keyfiyyət aşağıdakılardan meydana gəlir: a) Şəxsiyyət nə istəyir (yəni oyun həyat tərzi, tələbatları, maraqları, dəyərləri, idealları nələrdir); b) Şəxsiyyət nə bacarır (yəni onun qabiliyyəti, istedadı nədən ibarətdir); c) Şəxsiyyət nə etməlidir (yəni o labüdlüyə, cəmiyyətin və ətrafdakıların tələbatlarına necə yanaşır). Amerika antropoloqu və sosioloqu Ralf Lintona (1893- 1953) görə iki şəxsiyyət növü vardır: normativ və və modal. Normativ növ – insanın yaşadığı cəmiyyətin mədəni dəyərlərinə daha yaxşı uyğun gələn və bu mədəniyyətin idealı olan şəxsiyyətdir. Modal növ – cəmiyyətdə statistik olaraq dominantlıq edən və cəmiyyətin əksər üzvləri ilə eyni mədəni nümunəni daşıyan şəxsiyyət növüdür. Bu iki növ arasında fərq çox olduqca cəmiyyətin inkişaf potensialı daha yüksək olur. Bu iki növlə yanaşı, “marjinal şəxsiyyət” növü də vardır. Bu anlayışı 1920-ci illərin ikinci yarısında amerikalı sosioloq Robert Park (1864-1944) elmi dövriyyəyə buraxmışdır. Bu, elə bir şəxsiyyət növüdür ki, hər hansı bir sosial qrup və toplumla münasibətdə sərhədli mövqeyə malikdir. Marjinal şəxsiyyət mədəniyyətlərin qovşağında yerləşir. Müxtəlif mədəni standartları özündə ehtiva edərək, “mədəni hibrid” halını alır, diskomfort hiss edir və əksər hallarda kənar davranışlar sərgiləyir. Bu növ hər şeydən əvvəl miqrasiya proseslərinin və sərt urbanizasiyanın məhsuludur. Alman filosofu Teodor Adorno (1903-1969) avtoritar şəxsiyyət növünü fərqləndirmişdir. Bu şəxsiyyətin fərqləndirici xüsusiyyəti sosial qaydaların həddən artıq sərt sistemidir. Bu cür insanlar hakimiyyətə can atır, sosial stereotiplərə üstünlük verir və şəxsi yaxınlığı qəbuledilməz sayırlar. Sosiallaşma prosesinin və şəxsiyyət növlərinin ictimai həyatın dinamikasından asılı olduğunu qeyd etmək lazımdır. Bir tərəfdən sosiallaşma sakit təkamül və stabil gündəlik həyat tərzi və prinsiplər sistemi əsasında gedir. Digər tərəfdən – onların köklü dəyişkənliyi və yeniləri ilə əvəz olunması şəraitində keçir. İkinci halda sosiallaşma mahiyyət etibarilə resosiallaşma xarakteri alır və müxtəlif sosial demoqrafik qruplar arasında fərqli cərəyan edir. Əgər gənclər arasında məlum sosial-psixoloji keyfiyyətlərdən dolayı həyat ideallarının dəyişməsi çətinlik törətmirsə (gənclər öz güc və

qabiliyyətlərinin tətbiq sahəsini tez genişləndirirlər), yaşlı nəsildə bu proses çox çətin gedir. Bu, "ataların" permanent psixoloji böhran vəziyyətini, anomiyanı yaradır və bu "uşaqların" mənəvi dəyərlərə yad olmaları ilə birlikdə cəmiyyət üçün təhlükə yaradır.

ƏDƏBİYYAT

1. "Azərbaycan məktəbi" 2017/6 İNSANIN SOSİALLAŞMASININ PEDAQOJİ VƏ PSİXOLOJİ PARAMETRLƏRİ
2. İmanova A.M., Şəxsiyyətin sosiallaşmasinin aktual problemləri. Bakı Universitetinin Xəbərləri, №2 / Sosial-siyasi elmlər seriyası, 2011.
3. Mustafayeva H.T. Sosiologiya. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2018, 182 s.
4. Vahidov F.Q., Ağayev T. B. Sosiologiya. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: «Təknur» nəşriyyatı, 2008, 334 s.

РЕЗЮМЕ

СОЦИАЛИЗАЦИЯ КАК ФОРМУЛА ИНТЕГРАЦИИ: ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ

Дадашзаде А. И.

В статье обосновываются социальные аспекты становления личности и ведущая роль социализации в проявлении личности. В связи с этим на материалах педагогических, психологических, социологических и биологических исследований и теорий изучается процесс трансформации социализации от личности к личности и интеграции в общество.

Ключевые слова: личность, социализация, самость, личность, общество, интеграция

SUMMARY

SOCIALIZATION AS A FORMULA FOR INTEGRATION: THE FORMATION OF PERSONALITY

Dadashzade A. I.

The article substantiates the social aspects of personality formation and the leading role of socialization in the manifestation of personality. In this regard, using the materials of pedagogical, psychological, sociological and biological research and theories, the process of transformation of socialization from individual to person and integration into society is studied.

Key words: personality, socialization, self, individual, society, integration

SAĞLAMLIQ İMKANLARI MƏHDUD İNSANLARIN CƏMİYYƏTƏ İNTEQRASİYASININ SOSİAL-PSİXOLOJİ FAKTORLARI

Hacıyeva S. B.

Naxçıvan Dövlət Universiteti

salatinmehri7298@gmail.com.

Xülasə: Məqalə sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyasının sosial—psixoloji faktorlarının araşdırılmasına həsr olunmuşdur. Qeyd edilmişdir ki, Azərbaycanda sosial islahatların keçirildiyi bir şəraitdə əlilliyin və ölüm faizinin durmadan artması, əhalinin

sağlamlığının pisləşməsi kompleks həll tələb edən ümummilli problem kimi nəzərdən keçirilməyə başlanıb.

Azərbaycanda və bütün dünyada sağlamlıq imkanları məhdud insanların sayının sürətlə artması və onların cəmiyyətə inteqrasiyası müxtəlif reablitasiya tədbirlərinin həyata keçirilməsini tələb edən qlobal sosial proses kimi təqdim edilir.

Məqalədə həmçinin müasir şəraitdə sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası prosesinin tədqiqinə elmi marağın artmasının bir sıra obyektiv səbəbləri də əsaslandırılmışdır.

Açar sözlər: sağlamlığı məhdud, cəmiyyət, inklüziv təhsil, inteqrasiya, Azərbaycan, təhsil siyasəti.

İnteqrasiya prosesinin tədqiqi, onun prinsiplərinin, mexanizmlərinin, əsas istiqamətlərinin müəyyən edilməsi, sağlamlıq imkanları, həyat fəaliyyətləri məhdud olan şəxslərin cəmiyyətə inteqrasiyasının praktik həlli yollarının araşdırılması demək olar ki, sosial-psixologiyanın ən aktual problemlərindən biridir. Yaşından, təhsilindən, sağlamlıq vəziyyətindən, etnik və sosial eyniliyindən, sosial statusundan asılı olmayaraq cəmiyyətin bütün üzvləri, bütün sosial birliklər inteqrasiya prosesində iştirak edir. Lakin təcrübə bəzi sosial qrupların davamlı və ya təsadüfi olaraq ictimai həyatdan kənarlaşdırıldıqlarını və hətta təcrid edildiklərini nümayiş etdirir. Bu proseslər ilk növbədə cəmiyyət üçün xarakterik olan fəaliyyət növlərini yerinə yetirə bilməyən, sağlamlıq imkanları məhdud olan fərdlərdə özünü daha çox büruzə verir.

Bəşəriyyət yaranandan mövcud olan əlillik problemi bu gün də cəmiyyətin həlli vacib olan məsələlərindən biridir. Hər bir tarixi dövrdə cəmiyyətdə əlillərə qarşı fərqli rəftar və davranış tərzi, fərqli sosial normalar formalaşdırılmış, əlillərlə bağlı mənfi təsəvvürlər və verilən qərarlar şəkil dəyişdirərək bu günümüzə qədər gəlib çatmışdır. Yoxsullara kömək etmək, kasıb uşaqlarını təhsilə cəlb etmək, xəstələrə, evsizlərə dəstək olmaq, onlara xidmət göstərəcək təşkilatlar qurmaq kimi davranış normaları ta qədimdən mövcud olmuşdur. Ayrı-ayrı dövrlərdə əlillərə göstərilən xidmətlərdə də dəyişikliklər olmuş, müasir dövrdə isə ictimai dövlət anlayışı çərçivəsində onlara göstərilən xidmətlər daha da müxtəliflik qazanmışdır. Bu gün bütün dünyada, eləcə də Azərbaycanda da əlil insanlar üçün hüquqi yollarla daha əlverişli şərtlər yaradılmışdır. Əlil insanların həyata daha sıx sarılmaları, insan hüquqlarından istifadə edə bilmələri, hər şeydən önəmlisi isə xoşbəxt bir fərd olaraq ölkənin dəyərlərinə dəyər qata biləcək hala gəlmələri, təhsil ala bilmələri, işlə təmin olunmaları, onlar üçün əlverişli və maneəsiz mühitin yaradılması üçün irəli sürülən milli və beynəlxalq sosial siyasətlər, qanuni tənzimləmələr müasir dövlətin konstitusiyasında prioritet məsələlər arasındadır.

Bu gün dünya miqyasında sürətli dəyişiklərin baş verdiyi sosial-iqtisadi və mədəni sahələrdəki elmi məlumatları izləmək və dəyərləndirmək, dövlətlərarası siyasətdə istifadə olunan məlumat mənbələrini zənginləşdirmək artıq zəruri bir tələbata çevrilmişdir. Bu baxımdan da ölkəmizdə sağlamlıq imkanları məhdud insanların gündəlik həyatlarında qarşılaşdıqları problemlərin müəyyənləşdirilməsi, onların aradan qaldırılması ilə əlaqədar ictimai quruluşların da göstərdiyi sosial müdafiə və sosial dəstəkləri də özündə əks etdirən bir araşdırma aparılmasına ehtiyac yaranmışdı. Azərbaycanda sosial islahatların keçirildiyi bir şəraitdə əlilliyin və ölüm faizinin durmadan artması, əhalinin sağlamlığının pisləşməsi kompleks həll tələb edən ümummilli problem kimi nəzərdən keçirilməyə başlanıb. Azərbaycanda və bütün dünyada sağlamlıq imkanları məhdud insanların sayının sürətlə artması və onların cəmiyyətə inteqrasiyası müxtəlif reablitasiya tədbirlərinin həyata keçirilməsini tələb edən qlobal sosial proses kimi təqdim edilir.Uşaqların

cəmiyyətə inteqrasiyası çoxcəhətli sosializasiya prosesindən başlayır, bu prosesin axarında da inkişaf edir [1, s.99].

Müasir şəraitdə sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası prosesinin tədqiqinə elmi marağın artmasının bir sıra obyektiv əsasları mövcuddur.

Birincisi, 90-cı illərin ortalarından etibarən əlilliyi olan şəxslərin bazar münasibətlərinə və yeni sosial-iqtisadi şəraitə adaptasiyası probleminin aktuallaşması baş verən proseslərin elmi baxımdan düşünülməsini tələb edirdi.

İkincisi, cəmiyyətdə gedən sürətli əlilləşmə prosesi əlillərin həm fiziki, həm də psixoloji vəziyyətlərinin aradan qaldırılması yollarının tapılmasının zəruriliyi və vacibliyini ön plana çəkirdi. Sağlamlıq imkanları məhdud şəxslərə müasir sosial struktur prizmasından baxdıqda, onların əhalinin sosial cəhətdən az müdafiə olunan insanlar kateqoriyasına aid olduqlarını aydın görmək mümkündür. Onların gəlirləri orta səviyyədən əhəmiyyətli dərəcədə aşağı, tibbi və sosial xidmətə tələbatları isə olduqca yüksəkdir, təhsil almaq və əmək fəaliyyəti ilə məşğul olmaq imkanlarına malik deyillər. Əlillərin böyük əksəriyyətinin ailəsi yoxdur və ictimai həyatda iştirak edə bilmirlər.

Üçüncüsü, sağlamlıq imkanları məhdud insanların özlərinin müasir sosial proseslərdə, ictimai həyatın ayrı-ayrı sahələrində iştirak etməyə tələbatları əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Əlilliyin tarixinin öyrənilməsi sübut edir ki, o əlillərin kənarlaşdırılmasından, "natamam üzv"lərin təcrid edilməsindən başlamış onların cəmiyyətə inteqrasiyası və onlar üçün maneəsiz mühitin yaradılmasına qədər mürəkkəb inkişaf yolu keçmişdir.

Dördüncüsü, Azərbaycanda, o cümlədən Naxçıvan MR-da sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyasına şərait yaradan bir sıra reablitasiya tədbirlərinin həyata keçirilməsinə baxmayaraq məhdud sağlamlıqlı insanların çox hissəsi bu tədbirlərdən yararlana bilmir.

Sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası kompleks reablitasiyanın bir hissəsi kimi, dərin sosial analizlər, kompleks sosial araşdırmalar tələb edən prosesdir. Sosial-iqtisadi və digər proseslərdə sağlamlıq imkanları məhdud insanların yerinin və rolunun müəyyən edilməsi, Azərbaycanda və onun digər regionlarında əlillərin cəmiyyətə inteqrasiyasının xüsusiyyətlərinin, keçirilən reablitasiya tədbirlərinin onların cəmiyyətə inteqrasiyasına təsir dərəcəsini nəzərə alaraq deyə bilərik ki, mövcud problemin araşdırılması dövrün və elmin tələbləri ilə şərtlənən ən mühüm məsələlərdən biridir. Qeyd edək ki, bütün dünyada ictimai münasibətlərdə gedən humanistləşmə prosesi, bütün insanların əhalinin zəif müdafiə olunan təbəqəsinə, xüsusilə bu təbəqədə ön cərgədə dayanan əlillər probleminə marağının daha da artmasına təkan verir. Əlillik fərdlərin həyat fəaliyyətini sərhədləyən və məhdudlaşdıran, eyni zamanda fərdin bacarıq və gücündəki çatışmamazlıq vəziyyətidir. Əlillik yalnız bir sağlamlıq problemi olmayıb, bir insanın bədən xüsusiyyətləri ilə yaşadığı cəmiyyətin xüsusiyyətləri arasındakı qarşılıqlı təsiri əks etdirən mürəkkəb bir hadisədir. Cəmiyyətin dezavantajlı qruplarından hesab olunan əlil insanlar da normal həyat şərtlərinə sahib insanlar kimi cəmiyyətlə iç-içə, bir bütün halında yaşamaq istəyirlər. Müxtəlif səbəblər əhalinin böyük bir hissəsinin sağlamlığının və əmək qabiliyyətinin itirilməsinə gətirib çıxarır ki, bu da onların maddi vəziyyətinə, əhval-ruhiyyəsinə kəskin təsir göstərir, həmçinin onların ətrafındakı insanlarda da bədbəxtlik, talesizlik, yoxsulluq, bədbinlik kimi hallar doğurur. Bir sıra tədbirlərin keçirilməsinə baxmayaraq bu qüsurlar onların sosial fəallıqlarını, müəyyən bir peşədə özlərini gerçəkləşdirmələrini, ailə vəzifələrini məhdudlaşdırır və nəticədə onların cəmiyyətə inteqrasiyası əvvəlki kimi aşağı səviyyədə qalmaqda davam edir. Əlil insanların bir çox xidmətlərdən istifadə edərkən bəzi maneələrlə üzləşdiyi də hamıya məlumdur. Əlil insanların da sağlam insanlarla eyni ehtiyaclara, bərabər hüquqlara malik olduqları, onların da normal insanlar

kimi arzu və istəklərinin, xəyallarının olduğu unudulmamalıdır. Elə bu mövzunu araşdırmaqda da əsas məqsəd əlil insanların həyatdan, cəmiyyətdən, əhalinin sağlam təbəqəsindən gözlədiklərini, yerinə yetirə biləcəkləri fəaliyyətləri, xəyallarını, gələcəklə bağlı düşüncələrini, cəmiyyətlə bütünləşmələrindəki maneələri müəyyənləşdirməkdən ibarətdir. Bu baxımdan əlillərin cəmiyyətdə daha səmərəli iştirakı, fiziki, sosial, maddi və s. maneələrlə qarşılaşmamaları üçün əlillərə və onların ailələrinə dövlət dəstəyinin müəyyənləşdirilməsi, sosial-psixoloji dəstək xidmətlərinin daha da genişləndirilməsinin zərurliyi ön plana çəkilmişdir. Ona görə də öz insanlığını dərk edən və onu gerçəkləşdirməyə cəhd göstərən cəmiyyət qarşısında ehtiyacı olan bu insanlara hərtərəfli kömək etmək kimi mühüm bir problem(vəzifə) dayanır.

Sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyasının nəzəri-metodoloji əsaslarının və mexanizmlərinin işlənməsinin əhəmiyyətliliyi təkcə əlilliyin artması, cəmiyyətdə sağlamlıq imkanları məhdud şəxslərin əmək və şəxsi vəsaitlərə tələbatlarının genişlənməsi ilə deyil, həmçinin fiziki və intellektual vəziyyətindən asılı olmayaraq fərdlərin hüquq bərabərliyi barədə demokratik təsəvvürlərin genişlənməsi, cəmiyyətin öz fəaliyyətini əlillərin ehtiyac və tələbatlarını ödəyə biləcək bir şərait yaratmağa uyğunlaşdırmaq vəzifəsi ilə də şərtlənir.Qeyd edə bilərik ki, əlilliyi olan şəxslərin, sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyasının əsas yolunu onların kompleks reablitasiyası, xüsusilə Azərbaycanda reablitasiyanın yeni növlərinin inkişafı, innovativ texnologiyaların tətbiqi təşkil edir. Hər bir əlilin inteqrativ imkanları bir sıra obyektiv və subyektiv amillərdən asılıdır [2, s.12].

Bu gün ölkəmizdə fiziki qüsurlu uşaqların təhsil məsələsi problem olaraq qalmaqdadır. Hər kəsə məlumdur ki, hər bir fiziki qüsurlu uşaq qüsursuz uşaqlarla eyni hüquqlara, həmçinin təhsil almaq hüququna malikdir. “Təhsil haqqında” qanunda da qeyd olunub ki, cəmiyyətin bütün üzvlərinin - istər sağlam, istərsə də sağlamlıq imkanları məhdud insanların bərabər təhsil alma hüquqları var [3, s.9].

Sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyasının qarşısında duran maneələrdən biri də əlaqə, ictimai mühit və binalarla bağlı problemlərdir. Sağlamlıq imkanları məhdud insanları əhatə edən mühitin, onların fiziki funksiyalarındakı pozğunluqlar və onların törətdiyi məhdudiyyətlərin öyrənilməsi mühüm əhəmiyyətə malikdir.

Qeyd etdiyimiz kimi, təhsil mövzusunda bir cəmiyyət modeli yaradarkən ətraf mühiti və bu mühitdə yaşayan hər bir kəsi düşünərək formalaşdırmaq lazımdır. Yaşanılan binalardan tutmuş, ictimai həyat sahələrinə və əlaqə vasitələrinə qədər bütün ətraf aləm ünsürlərinin qüsurlu insanların xüsusiyyətlərinin və ehtiyaclarının nəzərə alınaraq tərtib edilməlidir. Şəhər, rayon infrastrukturunun və nəqliyyatın sağlamlıq imkanları məhdud şəxslərin maneəsiz hərəkət etməsi üçün onların ehtiyaclarına uyğunlaşdırılması, görüləcək işlər və icrası nəzərdə tutulan tədbirlər ölkəmizdə hər bir məhdud sağlamlıqlı insanın hüquqlarının təmin edilməsinə yönəldilmədir.

ƏDƏBİYYAT

1. Bayramov Ə.Ə., Əlizadə Ə.Ə. Sosial psixologiya
2. ИКТ для инклюзивного образования. Институт ЮНЕСКО по информационным технологиям в образовании, 2010
3. “İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr” V Elmi-praktik konfransın məqalələr toplusu

РЕЗЮМЕ

СОЦИАЛЬНО –ПСИХОЛОГИЧЕСКИЕ ФАКТОРЫ ИНТЕГРАЦИИ В ОБЩЕСТВО ЛЮДЕЙ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ ЗДОРОВЬЯ

Гаджиева С.Б.

Статья посвящена изучению социально-психологических факторов интеграции в общество с ограниченными –возможностями здоровья. Отмечено, что в контексте социальных реформ в Азербайджане неуклонный рост показателей инвалидности и смертности, ухудшение здоровья населения стали рассматриваться как национальная проблема требующая комплексного решения. Быстрый рост числа людей с ограниченными возможностями здоровья в Азербайджане и во всем мире и их интеграция в общество преподносится как глобальный социальный процес, требующий реализации различных реаблитационных мероприятий.

В статье также обоснованы ряд обьективных причин растущего научного интереса к изучению процесса интеграции людей в общество с ограниченными возможностями в современных условиях.

Ключевые слова: ограниченные возможности здоровья, общество, инклюзивное образование, интеграция, Азербайджан

SUMMARY

SOCIAL- PSYCHOLOGICAL FACTORS OF INTEGRATING PEOPLE HAVING LIMITED HEALTH OPPORTUNITIES TO SOCIETY

Haciyeva S.B.

It is stated about searching social-psychological factors of integrating people having limited health opportunities to society in the article. It was noted that, in Azerbaijan in the condition of holding social reforms, continuous increase of disability and death percent, getting worse of people health began to be taken into consideration like national problem requiring complex solution. In Azerbaijan and all over the world quickly increase of number of people having limited health opportunities and their integration to society is introduced like global social process requiring to hold various rehabilitation measures.

In the article a number of objective reasons of scientific interest increase to the research of integration of people having limited health opportunities to society in modern condition were grounded as well.

Key words: limited health, society, inclusive education, integration, Azerbaijan, politic of education

CƏMİYYƏTƏ İNTEQRASİYADA BƏDİİ ƏDƏBİYYATIN ROLU (İ.ƏFƏNDİYEVİN NƏSRİ ƏSASINDA)

Həmzəyeva S. S., Məmmədova T. K.

Sumqayıt Dövlət Universiteti

toramammadova@gmail.com

Xülasə: Məqalədə cəmiyyətə inteqrasiyada bədii ƏDƏBİYYATın rolu araşdırılır, bədii əsərin şəxsiyyətin inkişafına və formalaşmasına təsiri vurğulanır. Həm pedaqoji, həm psixoloji tədrisdə bədii əsər insan və onun davranışlarına yanaşmada həm də əyani vəsitəyə çevrilə bilir. Belə ki, hər bir əsər müəyyən zaman arasında bir və ya bir neçə qəhrəmanın "qəlbinin əhvalatını" təqdim edir. Bu baxımdan İ.Əfəndiyevin romanlarında qəhrəmanlar örnək alınır, onların psixoloji xarakteristikası təhlil olunur. Müəllifin hekayə və romanlarında şəxsiyyətin mənəvi problemləri, qəhrəman və müəllif təhkiyəsinin özünəməxsus məqamları, şəxsiyyətin daxili aləminin açılmasında təhkiyənin rolu araşdırılır. Ayrı-ayrı obrazların təhlili şəxsiyyət psixologiyasını öyrənməyə imkan verir. Həmçinin müəllif üslubundakı qanunauyğunluq təhlil olunur.

Açar sözlər: nəsr, İ.Əfəndiyev, "Sarıköynəklə Valehin nağılı", "Söyüdlü arx", "Dağlar arxasında üç dost", təhkiyə, nağıl üslubu.

Cəmiyyətə inteqrasiya və sosiallaşmada bədii ədəbiyyatın rolu danılmazdır. Bədii əsərdə əsas təsvir obyekti olan qəhrəman və hadisələr, bilavasitə, şəxsiyyətin inkişafına, formalaşmasına təsir edir. Qəhrəmanın obyektiv dərki, təsvir olunan hadisələrinin psixoloji xarakteristikası bir tərəfdən bədii təcrübə qazandırır, mədəni inkişafı şərtləndirirsə, digər tərəfdən həm də həyati təcrübəyə, insani mahiyyətə təkan verir. ədəbiyyatı oxuyur, zövq alıq, yeri gələndə həm də ondan öyrənirik. Psixologiya, pedaqogika dəqiq elmlər olduğu, dəqiq qanunlara əsaslandığı halda, müxtəlif variant və situasiyalarda konkret həll yollarını göstərdiyi halda ədəbiyyat bu missiyada sərbəstliyə, müstəqilliyə malikdir. Bununla belə, istər nitq mədəniyyətində, istər inkişaf və sosiallaşma çərçivəsində, istər psixoloji təsir sferasında ədəbiyyat bu fənlərdən heç də az təsirə malik deyil.

Belə də demək olar ki, ədəbi əsərin sujeti özündə bu və ya digər problemləri ehtiva edir, təsvir olunan şəxsin tədqiqatını təqdim edir. Başqa sözlə desək, həyata müraciət edərkən yazıçı insanı görür, sonra adamları və nəhayət, onların aktiv münasibətlərini. Bununla da, ədəbi əsərin xüsusiliyi ondadır ki, onu insan qəlbinin hadisələri maraqlandırır. Həm pedaqoji, həm psixoloji tədrisdə bədii əsərin təhlili insan və onun davranışlarına yanaşmada həm də əyani vəsaitəyə çevrilə bilir. Hər bir əsər müəyyən zaman arasında bir və ya bir neçə qəhrəmanın "qəlbinin əhvalatını" təqdim edir. Bu baxımdan, İ.Əfəndiyevin romanlarında qəhrəmanları örnək alıb, onların psixoloji xarakteristikasını nəzərdən keçirəcəyik.

"Söyüdlü arx"da Nuriyyənin qəlbinin əhvalatı, "Dağlar arxasında üç dost"da Səliminin həyəcanlarının əhvalatı, "Körpüsalanlar"da Səriyyənin mənəvi - əxlaqi tərəddüdləri, Sarıköynəklə Valehin nağılı"nda Sarıköynəklə Valehin hisslərinin əhvalatı, "Aydınlıq gecələr"də Surxayın mənəvi dəyişməsinin əhvalatı. Bu əhvalatların təqdimində təhkiyənin hər bir növünün özünəməxsus yeri var.

"Dağlar arxasında üç dost", "Körpüsalanlar", "Sarıköynəklə Valehin nağılı" əsərlərində təhkiyəçilərin növbə ilə dəyişməsi psixologizmin güclənməsinə kömək edir, hər bir qəhrəmanın daxili aləminin təhlili daha dərin və dolğun olur.

"Sarıköynəklə Valehin nağılı" romanında müəllif hadisələri lirik-romantik səpgidə təqdim edir. "Bir tərəfdən saf, təmiz qəlbli insanlar, onların, bəzən romantik vasitələrlə işıqlandırılan, ucalıqlara qaldırılan lirik–psixoloji aləmi, sarıköynəklər, valehlər dünyası, digər tərəfdən də həyatımızda hələ də özünü göstərən və saf mənəviyyatlı qəhrəmanların idealları ilə ziddiyyət təşkil edən məcidovlar, yusifovlar mühiti" [Nəbiyev, 1987:93].

Bu təsvir yolu da, məhz müəllif ideyası, müəllif məzmunundan irəli gəlir, nağıl üslubuna müraciətdə də bir bədii qanunauyğunluq var. Təbiidir ki, romanın təhlili də lirik–romantik üslubun ideya–estetik tələbləri çərçivəsində araşdırılmaıdır.

Belə bir fikir doğrudur ki, "bədii düşüncə real həyatda çıxış yolu tapmadıqda romantikaya qapılır və buna müvafiq olaraq, dildə romantik–lirik elementlər güclənir" [Hacıyev, 1980: 174]. Bu zaman real varlığın təhlilindən, təsvirindən daha çox bir "ideal həqiqət axtarıcılığı" başlayır.

XX əsr Azərbaycan nəsrində lirik–romantik üslubun səciyyəvi cəhətlərinə ən çox romantizm ədəbi cərəyanına mənsub olan yazıçıların əsərlərində rast gəlmək olur. Bununla belə, lirik – romantik üslubu yalnız bədii düşüncə ilə bağlamaq, onu yalnız romantizm cərəyanına məxsus keyfiyyət kimi qiymətləndirmək doğru olmazdı. Belə ki, "lirizm, romantika bədii düşüncə və yazıçı təbiəti ilə yanaşı, təsvir obyektindən də asılı ola bilir, təsvir predmetinin estetik mahiyyətindən də irəli gələ bilir" [Nəbiyev, 1984: 114]. Eyni zamanda lirizm sənətkarın gerçəkliyə münasibətinin səmimi ifadə forması kimi ən müxtəlif ədəbi cərəyanların əlaməti ola bilər.

İ.Əfəndiyev realizminin lirik – romantik üslubu "Sarıköynəklə Valehin nağılı" romanını nağıl formasında işləməyə müvəffəq olmuşdur. Nağılvarilik, hər şeydən əvvəl surətlərin tipində, danışığında, təqdimində (məs., aldı Valeh, aldı Sarıköynək) özünü biruzə verir. Kamal Talıbzadə "Yazıçı ideyası və təhkiyə" adlı məqaləsində yazır: "Əsərin, əsasən iki müsbət obrazın dili ilə - "Aldı Sarıköynək", "Aldı Valeh" - deyə nağıl edilməsi, o demək deyil ki, müəllif romanın təhkiyəsində nağılın, yaxud xalq dastanlarının şəkli xüsusiyyətlərindən forma xatirinə istifadə etmişdir. Bu məsələnin zahiri tərəfidir, baxmayaraq ki, bunun özü də təhkiyəyə bir nağılvarilik gətirir" [Talıbzadə, 1980: 6].

Göründüyü kimi, əsərdə bədii düşüncənin romantik xarakteri və buna uyğun seçilmiş real həyat faktı qəhrəmanların inkişaf dinamikasına xidmət edir. Bu inkişaf dinamikasını isə qəhrəmanların bir–birinə ötürülən təhkiyəsində görüb hiss edirik. Bilirik ki, təkplanlı təhkiyəyə nisbətən çoxplanlı təhkiyənin təsvir imkanı daha genişdir. Kamal Talıbzadə çoxplanlı təhkiyədə obyektiv və subyektiv başlanğıcların vəhdəti, qovuşması sayəsində daha geniş və dərin, həm də ikili təsvir üçün şərait yarandığını doğru qeyd edərək, yazır ki, bu təsvirlərdən biri müəllifin, digəri isə qəhrəmanların və surətlərin mövqeyini ifadə edirlər. Daha sonra, müəllif təkplanlı təhkiyənin məhdud cəhətlərini göstərsə də, nədənsə, İ.Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı" romanında təkplanlı təhkiyədən uzaqlaşdığını mənfi hal kimi qiymətləndirir və çoxplanlı təhkiyənin əsərin təbii aləminə xələl gətirdiyini, onun lirik–romantik pafosunu zəiflətdiyini, başqa sözlə, əsərə üslubca yad, hadisə nağıl edən parçaların daxil olması üçün zəmin yarandığını vurğulayır. Müəllifin fikrincə, "Muradzadənin müəllifə dedikləri", "Polkovnik Həsən Bəhmənlinin Muradzadəyə dedikləri" kimi fəsillərə ehtiyac yoxdur. Çünki bu hissələr sadəcə olaraq, bəzi hadisələrin nağıl olunmasına xidmət edir, təsvirin lirik–emosional təsirini zəiflədir.

Nəsrin təcrübəsində hadisələrin bir yox, bir neçə qəhrəmanın dilindən nəql olunması forması kimi İ.Əfəndiyevin yaradıcılığında "Sarıköynəklə Valehin nağılı" əsərini nümunə göstərərək M.İmanov da belə yazır: "Sarıköynəklə Valehin nağılı", əsasən Valehin dilindən söylənsə də, müəllif yeri gəldikcə, sözü Sarıköynəyə və Muradzadəyə verir. Müəllif romanın sərlövhəsinə çıxardığı "nağıl" sözü altında başa düşülən bədii inikas prinsipinə sadiq qalmağa çalışır" [İmanov, 1991: 77].

Əvvəla, Muxtar İmanovun fikrinə ünvanlanaraq qeyd edərdik ki, əhvalatın bir neçə qəhrəmanın dilindən nəql olunmasını əsərin adına bağlamaq, nağılvariliklə əlaqələndirmək, bizcə, düzgün olmazdı. Bu hər şeydən əvvəl müəllifin yazı manerasından, psixoloji stilindən irəli gəlir. Belə ki, bu cür təhkiyə üsuluna "Körpüsalanlar", "Dağlar arxasında üç dost" əsərlərində də rast

gəlirik. Dünya ƏDƏBİYYATına nəzər salsaq, məsələn, Folknerin yaradıcılığında əhvalatın bir neçə təhkiyəçinin dilindən danışmaq üsulu var. ("Küy və qəzəb", "Ölüm ayağında", "Şəhərdə") Təkcə "Ölüm ayağında" romanında hadisəni 15 təhkiyəçi qəhrəman danışır. Hər bir monoloq, həmçinin xarakterin bir keyfiyyətini açır. Onu da qeyd etmək olar ki, bir çox tənqidçilər bu əsəri daxili dağınıqlığına görə, hadisələrin bir neçə şüurdan keçirilərək, danışıldığına görə uğursuz hesab ediblər. Lakin Folknerin bütün yaradıcılığını izlədikdə bu üsulun əhəmiyyəti aydınlaşır. Müəllifi qəhrəmanın özü haqqında düşüncələri və onun haqqında əks düşüncələr maraqlandırır. Məsələn, A.Zveryov bu üsulu Folkner psixologizminin yeniliyi kimi qiymətləndirir. "Qəhrəmanların bir – birinə ötürülən monoloqu, eyni hadisəni müxtəlif dərrakədən keçirmə Folkner psixologizminin yeniliyi haqqında xəbər verərək, bədii məsələnin həllində təsiredici vasitə olur" (Карелский, 1990: 121).

İ.Əfəndiyev də hadisələri bir neçə qəhrəmanın şüurundan ötürərək, ilk öncə, qəhrəmanın düşüncələrini və əks düşüncələri verməklə psixoloji təsviretmənin forması olan psixoloji təhkiyəyə naul olur. Bu vasitə ilə qəhrəmanın daxili aləminin daha ətraflı təqdiminə şərait yaranır.

Doğrudur, müəllif M.İmanov yekunda daha doğru qənaətə gələrək, İstər Valeh, istərsə də Sarıköynəyin hekayətlərini həm də lirik-epik özünüifadə forması kimi qiymətləndirir, Valehin hekayətləri arasında "aldı Sarıköynək" deyə sözün Sarıköynəyə verilməsinin bir səbəbini də, məhz onda görür ki, Valehdə Sarıköynəyin fikirlərini axıracan oxumaq və ifadə etmək imkanı yoxdur. Müəllifin fikrincə, əsərin bir neçə yerində Valeh Sarıköynəyi dərin məhəbbətlə sevdiyini, onu yaxından başa düşdüyünü etiraf etsə də, bu başa düşməklik ona "hər şeydən agah olan", bütün obrazların qəlbinə eyni dərəcədə nüfuz edə bilən təhkiyəçi–müəllif sərbəstliyi vermir və buna görə də Sarıköynəyin daxili aləminin lazımi səviyyədə açılması üçün sözü onun özünə vermək ehtiyacı yaranır.

Tənqidçi K.Talıbzadənin fikirlərinə qayıdaraq demək olar ki, "Sarıköynəklə Valehin nağılı" romanında belə təsviretmə (çoxplanlı təhkiyə - T.M.) əksinə, insanların, hadisələrin daxili ziddiyyətlərinin, mürəkkəbliklərinin, dialektikasının aydınlaşdırılmasına, xarakterlərin dərinləşdirilməsinə kömək göstərir(!), qəhrəmanların daha da dərindən, psixoloji detallarla açılmasına səbəb olur.

B.Nəbiyev "Sarıköynəklə Valehin nağılı" romanına istinadən, doğru olaraq qeyd edir ki, yazıçılar son zamanlar bu qəbildən olan əsərlərində təhkiyənin yükünü öz qəhrəmanları arasında bölüşdürmək yolu ilə gedirlər. Müəllifə görə, bu yol ona görə məqbul hesab edilməlidir ki, əvvəllər yazıçı baş verən hadisələrin meydanına, şərti desək, bircə "pəncərədən" və təkcə öz nəzəri ilə baxa bilirdisə, indi onun sərəncamında iki-üc, bəzən isə daha cox "pəncərə" olur və oxucuda belə bir təsəvvür oyanır ki, əsərdə müəllifin və onun təhkiyəsinə şərik olan qəhrəmanların görmə bucağından kənarda qalan heç bir hadisə, əhvalat, qəlb aləmi və duyğu yoxdur. Tənqidçi "Sarıköynəklə Valehin nağılı"nda müvəffəqiyyətlə istifadə edilən bu yolun əsərin realizminə və psixologizminə də öz müsbət təsirini göstərmiş olduğunu nəzərdən qaçırmır (Nəbiyev, 1979: 150-151).

R.Əliyev də "Bəraət ola bilməz" məqaləsində "Sarıköynəklə Valehin nağılı" əsərinin ideya–mövzu istiqamətini düzgün müəyyənləşdirərək, belə qənaətə gəlir ki, əsəri həm müstəqim mənada, həm də şərti, rəmzi ifadə vasitələri səviyyəsində oxuyub anlamaq və mənalandırmaq olar. "Buradakı bəzi hadisələr, konfliktlər və surətlər çox ustalıqla ümumiləşdirilib, xüsusilə şərti və rəmzi ifadə vasitələrindən romanın bədilıyinə və təsirliliyinə xələl gətirmədən istifadə olunub. Burada real və şərti ünsürlər elə əlaqələndirilib ki, onlar romanın bədii materialında və kompozisiyasında bir–birindən ayrılıb seçilmir, əsərin adında da əksini tapmış nağıl xətti çılpaq

görünmür. Nəinki görünmür, həm də maraqlı hadisə və konfliktlərlə zəngin olan fabulanın müxtəlif düyünləri və ünsürləri arxasında davam edərək, real hadisələrin məna və mahiyyətcə başa düşülməsinə kömək edir"(Əliyev, 1978: 6).

Göründüyü kimi, R.Əliyev müəllifin "nağıl xəttini" hadisələrin, konfliktlərin ümumi inikası ilə əlaqələndirir, "müəllif niyyətinin dərin–sosial mahiyyəti"ndə görür. Təhkiyənin qəhrəmanlar arasında bölünməsi isə bu "nağıl xəttinin" psixoloji təsirini artırmış olur.

Qəhrəman təhkiyəsi ilə müəllif təhkiyəsi birləşən əsərin əhatə dairəsi daha genişdir. Belə ki, müəllif təhkiyəsi başqa obrazların daxili ovqatını verməklə bərabər, zahiri əlamətlərin təfərrüatına da nail olur. "Dağlar arxasında üç dost" əsərində hadisələr, ilk öncə, müəllif-təhkiyəçinin dilindən söylənilir, sonra müəllif sözü Səliməyə verir. Lakin hadisələri, təkcə onun təsvir və nəzər bucağından ötürməyi kifayət hesab etməyən müəllif sözü digər qəhrəmanlarına da, Hayka, Mikolaya, Gülnisə xalaya və başqalarına verməyi lazım bilir, eyni zamanda, özü də yeri gəldikdə, söhbətə müdaxiləsiz keçinmir. Məsələn, təhkiyəçi – müəllif Səlimənin daxili monoloquna müdaxilə edərək belə izah verir: "Səlimənin xəbəri yox idi ki, əgər özünü onun oğlu üçün yeddi dəfə qurban versə, yenə də Gülnisə xalanın ürəyi uf deməz. Yenə də onu öz əzmindən döndərmək olmaz. O, öz oğlunun səadətini Çıraq dayı ilə qohum olmaqda görürdü" (Əfəndiyev, 1971: 275).

İ.Əfəndiyevin yaradıcılığında üçüncü şəxsin – neytral, kənar şəxsin dilindən təhkiyənin də özünəməxsus yeri var. Çoxları bunu inkar etsə də, daxili aləmin təsvirində bu təhkiyə növünün bir sıra üstünlükləri var. Əvvala, o, hər şeydən əvvəl qəhrəmanın hiss və həyəcanları haqqında müəllif təhkiyəsi kimi psixoloji analizə yönəlir. Bu elə bir bədii formadır ki, müəllifə oxucunu asanlıqla obrazın daxili aləminə yükləməyə və onu daha əhatəli və hərtərəfli göstərməyə imkan verir. Müəllif ücün qəhrəmanın qəlbində heç bir sirri gizli qalmır, o hər şeyi bilir, bütün daxili prosesləri izləyir, təəssüratlar, həyəcanlar, düşüncələr arasında səbəb və əlaqəni izah edir. "Gözlənilməyən sevgi" hekayəsində neytral təhkiyəçi qəhrəmanın özünüanalizini təhlil edir, qəhrəmanın özünün görmədiyi, duymadığı, yaxud etiraf etmək istəmədiyi qəlbinin əhvalatlarını, hərəkətini danışır. Eyni zamanda, qəhrəmanın xarici davranışının, onun mimikasının psixoloji aspektlərini ötürür.

Üçüncü şəxsin dilindən təhkiyə əsərə psixoloji təsviretmənin müxtəlif formalarını daxil etməyə kifayət qədər imkan verir. Belə təhkiyə stixiyasına daxili monoloq, gündəlikdən səhifələr, məktublar, yuxugörmə və s. asanlıqla qoşulur.

Bundan əlavə, üçüncü şəxsin dilindən təhkiyədə bədii zaman da müstəqil görünür. Bu zaman təhkiyəçi hər hansı psixoloji vəziyyətin üzərində uzun müddət dayana bilər, uzun hadisələr haqqında qısa məlumat da verə bilər. Bu da təhkiyənin ümumi sistemində marağı hadisələrin əhatəliyindən hisslərin əhatəliyinə yönəldərək, psixoloji təsvirin çəkisini artırmış olur.

Nəhayət, bu təhkiyə başqa təhkiyə üsullarından fərqli olaraq bir çox qəhrəmanın psixoloji təsvirinə imkan verir.

Bununla belə, ədəbi tənqid daxili aləmin təsvirində üçüncü şəxsin dilindən təhkiyəni birbaşa qəbul etməmişdir. Belə ki, başqasının qəlbini oxumaq həqiqətə uyğun olmaya da bilər. Lakin bu şərtilik sonralar qəbul edilmişdir.

ƏDƏBİYYAT

1. Əfəndiyev İ.M. Seçilmiş əsərləri: 4 cilddə, IIc., Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1971, 396 s.
2. Əliyev R. Bəraət ola bilməz. "ƏDƏBİYYAT və incəsənət" qəz., 1978, 4 noyabr.
3. Hacıyev T. Zaman, janr və dil // Azərbaycan, 1980, № 4, s.174
4. İmanov M. Azərbaycan nəsrində psixologizm (60-70-ci illər). Bakı: Elm, 1991, 116 s.
5. Nəbiyev B.Ə. Roman və müasir qəhrəman. Bakı: Yazıçı, 1987, 296 s

6. Nəbiyev B.Ə. Təzə izlər sorağında (məqalələr). Bakı: Yazıçı, 1979, 216 s.
7. Nəbiyev V.N. Zaman və nəsrin üslubları, Bakı: Yazıçı, 1987, 144 s
8. Talıbzadə K. Yazıçı ideyası və təhkiyə. "ƏDƏBİYYAT və incəsənət" qəz., 1980 4 aprel.
9. Карелский А.В. От героя к человеку: Два века западноевропейской литературы, М.: Сов. писатель, 1990, 400 с.

РЕЗЮМЕ
РОЛЬ ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЫ В ИНТЕГРАЦИИ ОБЩЕСТВА (ПО ПРОЗЕ И. ЭФЕНДИЕВА)

Гамзаева С.С., Мамедова Т. К.

В статье исследуется роль художественной литературы в интеграции в общество, подчеркивается влияние художественной литературы на развитие и формирование личности. Как в педагогическом, так и в психологическом обучении художественное произведение может стать наглядным пособием в подходе к человеку и его поведению. Таким образом, каждое произведение представляет собой «историю сердца» одного или нескольких героев в определенное время. С этой точки зрения в качестве примера взяты герои романов И. Эфендиева, проанализированы их психологические характеристики. В рассказах и романах автора исследуются нравственные проблемы личности, особенности героя и авторского рассказа, роль повествования в раскрытии внутреннего мира человека. Анализ индивидуальных образов позволяет изучать психологию личности. Также анализируется закономерность авторского повествования.

Ключевые слова: проза, И.Эфендиев, «Сказка Валеха и Сарыкейнек», «Ивовая арка», «Трое друзей за горами», повествование, сказочный стиль

SUMMARY
THE ROLE OF FICTION IN THE INTEGRATION TO SOCIETY (BASED ON THE PROSE OF I. AFANDIYEV)

Hamzayeva S. S., Mammadova T. K.

The article examines the role of fiction in integration into society, emphasizes the impact of fiction on the development and formation of personality. In both pedagogical and psychological teaching, fiction can become a visual tool in the approach to human and his behaviors. Thus, each work presents the "story of the heart" of one or more heroes within a certain time. From this point of view, the heroes in I.Afendiyev's novels are taken as an example, their psychological characteristics are analyzed. The author's stories and novels explore the moral problems of the personality, the hero's peculiarities and the author's narration, and the narration's role in revealing the person's inner world. The analysis of separate images allows studying the psychology of personality. The regularity of the author's style is also analyzed.

Key words: prose, I.Afendiyev, "Fairy tale of Sarikoynak and Valeh ", "Willow arch", "Three friends behind the mountains", narration, fairy tale style

MÜASİR GƏNCLƏRİN SOSİALLAŞMASININ STRUKTUR MEYARLARI

İsmayılova M. C.
Azərbaycan Dövlət Pedaqoji Universiteti
mehriban_ismayilova_1962@mail.ru

Xülasə: Məqalədə müasir gənclərin sosiallaşmasının struktur meyarları psixoloji aspektdə araşdırıl- mışdır. Müəllif haqlı olaraq qeyd edir ki, müasir dövrdə sosializasiyanın meyarlarından danışarkən inkişafın stabilliyi üçün sosial keyfiyyətlərin: şüurluluğun, sosial məsuliyyətliliyin və tolerantlığın olması zəruridir. Məqalədə üfüqi və şaquli sosializasiya tiplərinin mahiyyəti açıqlanır. Bunlarla yanaşı, şəxsiyyətin proyektiv modelinə görə, sosiallaşmış gəncin yiyələnməli olduğu keyfiyyətlər və tələbə şəxsiyyətinin analitik modelinə uyğun keyfiyyətlər ardıcıllıqla araşdırılmışdır.

Açar sözlər: sosiallaşma, sosializasiya prosesi, özünütəyin, dəyər, yönəlişlik.

Müasir dövrdə respublikamızda sosiallaşmanın meyarları demək olar ki, işlənilməmişdir. Sosiallaşmanın meyarları dedikdə, obyektiv olaraq məqsədəmüvafiq nəticələr nəzərdə tutulur. Bu meyarlar sosializasiyanın hipotetik məqsədini əks etdirməlidir. Odur ki, meyarlar universal, sosial, fərdin konkret tarixi xarakteristikasını müəyyən etməklə yanaşı böyüklərdən də asılı olmamalıdır. Çünki sosilizasiya prosesi sonsuz və çoxsahəlidir.

Sosializasiya prosesinin nəticələrinin bölgüsünə müxtəlif yanaşmalar mövcuddur. Bir çox tədqiqatçılar həmin prosesin məhsulunu "sosializasiyanın effektləri" adlandırırlar. Həmin effektlər kifayət qədər çox obrazlıdır. B.Q.Ananyev sosializasiya hadisələrinin psixoloji-pedaqoji effektləri qismində onu təsdiq edənləri: sosial yönəlişliyi, fəaliyyətin mürəkkəb hadisələrinin motivasiyasını, xarakterin müvafiq sosial-tipik və milli-tipik əlamətlərinin formalaşmasını nəzərdə tuturdu [1].

M.İ.Rojkovanın fikrincə, şəxsiyyətin sistemləşdirilmiş obrazlı keyfiyyətlərinə: şəxsiyyətin fəallığı, adaptasiyası və davamlılığı aiddir ki, onlar şəxsiyyətin sosializasiyasını təsdiq edir [4]. Zənnimizcə, "sosial münasibətlərin kompozisiyası" sosiallaşmanın meyarı kimi özündə nəzəri konstruktları ifadə edir. Lakin tətbiqi tədqiqatlar üçün onlardan istifadə etmək qeyri-mümkündür.

Q.S.Zborovskiy mütəxəssisin həyati özünütəyininin dərəcəsini (istehsalat, sosial, ailə, mənəvi) şəxsiyyətin təşəkkülünün meyarları kimi nəzərdən keçirir. O, fərdi proses kimi buraya şəxsiyyətin seçimini, azadlığını və məsuliyyətini aid edir. Alim tədqiqatçı həmçinin istehsalatda və ondan kənar birgə fəaliyyətdə gündəlik və müntəzəm olaraq münasibətlər sistemini də şəxsiyyətin sosiallaşmasının meyarlarına daxil etmişdir [2].

Sosializasiyanın uğurlu nəticələrinə dair aparılmış tədqiqatlar göstərir ki, sistemin tələb və göstərişlərinin əsas elementləri daxil olmaqla insanın davranış modelləri formalaşır. İnsan qabaqcadan rastlaşdığı müxtəlif tələblərə hələ kifayət qədər hazır deyil. Sosiallaşma müxtəlif rol gözləmələrinin təkcə nəticələrinə deyil, həmin tələblərin mahiyyətinin mənimsənilməsinə əsaslan- dırılmalıdır.

A.İ.Kovaleva şəxsiyyətin sosiallaşmasının meyarları qismində aşağıdakıları fərqləndirmişdir: 1/yönəlişliyin, stereotiplərin, "insan aləminin mənzərəsi"nin, dəyərlərin formalaşmasının məzmunu; 2/ davranış normalarına uyğun şəxsiyyətin adaptasiyası; 3/ sosial identiklik [4].

Müasir gənclərin sosiallaşmasının əsas meyarlarına uyğunlaşma, konformizm deyil, onların müstəqilliyi, özlərinə inamı, təşəbbüskarlığı aid edilir. Sosializasiya prosesinin əsas effektiv meyar- larından biri müasir gənclərin sosial fəallığıdır. Şəxsiyyətin sosial fəallığı dedikdə, sosial əlaqələrə, hərəkətlərə qabil olan şəxsiyyət nəzərdə tutulur. Onu adaptivliyin yüksək səviyyəsi, müxtəlif sosial

rolların icrasına hazırlığı, habelə praktik hərəkətlərin komponentlərinə qabilliyi, o cümlədən birgə fəaliyyətdə və ünsiyyətdə olmaq bacarığı xarakterizə edir.

Sosial fəallıq müxtəlif formaların təzahürünə malikdir. Buraya sosial problemlərin dərkinə və sosial mövqenin davamlılığına meyllilik, hərəkətlərə qabillik aiddir. Sosial fəallıq gənclərin imkanlarının realizə olunması şərtlərini ifadə edir. Belə imkanlar şəxsiyyətə və cəmiyyətə dair psixoloji problemlər haqqında biliklərin zəruriliyini, o cümlədən sosial təcrübənin və bir çox məsələlərin həllinə dair təsəvvürləri ehtiva edir. Müasir gənclərin sosial fəallığının dərəcəsi onların münasibətlər dairəsinin nə qədər geniş olmasından, həyati təsəvvürlərinin təsdiqinə və sosial fəaliyyətə hansı səviyyədə cəhd göstərmələrindən çox asılıdır.

Müasir dövrdə sosializasiyanın meyarlarından danışarkən inkişafın stabilliyi üçün sosial keyfiyyətlərin: şüurluluğun, sosial məsuliyyətliliyin və tolerantlığın olması zəruridir. Gənclərin sosiallaşması dedikdə, onların cəmiyyətdə və yaşadıqları ailədə bütün baş verən hadisələrə şüurlu və məsuliyyətli yanaşması başa düşülür. Müvafiq şəraitdə gənclərin analitik modelinə növbəti keyfiyyətlər daxil edilir:

- eksperimentlərə, innovasiyalara və dəyişikliklərə açıqlıq;
- fikir və rəylərdə ziddiyyətlərə daima hazır olmaq;
- indiki və gələcək vəziyyətə bələdləşmə, vaxta qənaət, dəqiqlik;
- özünəgüvənlilik, gəncin öz həyatını qurmaqda qarşılaşdığı çətinlikləri aradan qaldırmağa qadir olması;
- istər cəmiyyətdə, istərsə də şəxsi həyatında gəncin öz məqsədlərinə çatması üçün gələcək fəaliyyətini planlaşdırması;
- formal təhsil və təlimin yüksək dəyərləndirilməsi;
- aşağı statuslu insanların ləyaqətinə hörmətlə yanaşması [3].

Gənclərin analitik modeli arzu olunan obraz kimi müəyyən sosial konstruktları nəzərdən keçirtməyə yönəldilmişdir. Analitik modelə şəxsiyyətin inkişaf xüsusiyyətləri də aiddir ki, onlar ictimai gözləmələrin səviyyəsini əks etdirir, həmçinin sistemin qarşılıqlı təsir prosesini və şəxsiyyətin sosiallaşmasının gedişində onun təşkili səviyyəsini xarakterizə edir.

A.İ.Kovalevanın konsepsiyasında "sosiallaşmış normalar" adı altında sosializasiya prosesinin mexanizmləri və nəticələri nəzərdən keçirilir. Sosiallaşmış normalar cəmiyyətdə fərdin sosial mexanizmlərə və şəxsiyyətin tam bərabərhüquqlu inkişafa, o cümlədən onun fərdi, sosial-tipik və əhəmiyyətli sosial keyfiyyətlərə yiyələnməsi ilə müəyyən edilə bilər. Sosiallaşmış normalar cəmiyyətdə şəxsiyyətin yaş və fərdi psixoloji xarakteristikaları və fərdin şəxsi inkişafı ilə şərtlənir. Bu normalar müvafiq cəmiyyətin sosial parametrləri ilə səciyyələnir [4].

Onun tənzimedicisi mədəniyyət, sosial normalar və dəyərlərdir. Bu normalar cəmiyyətdə dominant olan şəxsiyyətin sosial tipləri, fərdin yaş xarakteristikası, onun statuslu iddiası ilə korrelyasiya olunur. Sosiallaşmış normalar ictimai dəyişikliklər şəraitində transformasiya olunur:

Birincisi, ictimai ideal köklü dəyişikliklərə məruz qalır ki, o, şəxsiyyətin ideal tipinin yenidən bərpasına yönəlir.

İkincisi, şəxsiyyətin sosial tiplərinin, sosializasiya mexanizmlərinin və yeni şəraitin müəyyən edilməsi, insanların həyat fəaliyyətinin normativləri yenidən nəzərdən keçirilir.

Üçüncüsü, insanların real davranışları dəyişir.

Sosiallaşmış normaların fəaliyyətinin öyrənilməsində cəmiyyətdə sosial konstruktun funksionallaşmış üç səviyyəsini fərqləndirirlər: *birincisi,* fərdin sosializasiya normalarıdır ki, onlar bioloji və sosial amillərlə şərtləndirilir; *ikincisi,* sosial qruplar üçün normalardır ki, onlar fərdin konkret xüsusiyyətlərinin, tipik keyfiyyətlərinin məcmuyu kimi determinləşir; *üçüncüsü,* ümumi

sosial normalardır ki, onlar cəmiyyətin inkişafını əks etdirən sosializasiya mexanizmləri və dəyərləri, o cümlədən ictimai ideal və sosiallığın parametrləridir.

Şəxsiyyətin proyektiv modelinə görə, sosiallaşmış gənc növbəti keyfiyyətlərə yiyələnməlidir:

1. Sosiallaşmış gənc həyat şəraitinin dəyişikliklərinə tez uyğunlaşmalıdır, sosial-psixoloji şəraitlərə bələdləşməyi, sosial mövqeyini, habelə humanist ideal və dəyərlərini qorumağı bacarmalıdır;

2. Gənc yüksək sosial fəallığa, müəyyən məqsədə doğru yönəlməyə, yeni axtarışlara cəhd etməyə nail olmalıdır. Bunlarla yanaşı o qeyri-standart situasiyalarda həyati problemlərin optimal həlli yollarını axtarmağa qadir olmalıdır;

3. Sosiallaşmış gənc həyatda uğurlara nail olmaq, müadstəqil olaraq məsələləri yerinə yetirmək, öz intellektini və peşə keyfiyyətlərini inkişaf etdirmək tələbatlarına malik olmalıdır;

4. Gənc fərdi yönəlişliyə, maraq və tələbatlarını özünə istiqamətləndirməyə ağıllı və şüurlu şəkildə nail olmalıdır. Bunlarla yanaşı o rasional və alternativ təfəkkürə, həyatda proqmatik münasibətlərə yiyələnməlidir. Müasir gənc sosial statusunun və məxsus olduğu sosial birliyin keyfiyyətlərini, habelə özünün yaş və peşə maraqlarını müdafiə etməyə həmişə hazır olmalıdır [5].

Y.P.Xayrulina fərdlərin sosializasiya prosesinin nəticələrini və göstəricilərini üfqi və şaquli olmaqla müəyyənləşdirmişdir. *Üfqi sosializasiyaya* sosial keyfiyyətlərin bütün növlərinin, sosial dəyərlərin, normaların, ictimai həyatın müxtəlif sferalarında davranış yönəlişliyinin hərtərəfli şəkildə mənimsənilməsinə istiqamətlənmə, həyata bələdləşmə kompleksinin balanslaşdırılmasının mərhələli şəkildə formalaşması, həyati sferalarda sosial və şəxsi dəyərlərin, yönəlişliyin uyğunlaşdırılması, habelə fərdin praktik həyatında bələdləşmənin reallaşmasının tam təmin olunması aiddir.

Şaquli sosializasiyanın nəticələri fərdin sosializasiyasının koqnitiv, emosional və davranış səviyyələrinin hər bir mərhələsinin ifadə olunmasında, şəxsiyyətin müvafiq sosial sisteminin bazis tipinin mərhələli şəkildə formalaşmasında öz əksini tapır. Göstəricilərə: sosializasiyanın bütün mərhələlərində şəxsiyyətin bazis tipinə uyğun olan statusunun mövcudluğu və ya olmaması, onların uyğun olan ranqının mövcudluğu və ya olmaması aid edilir [7].

ƏDƏBİYYAT

1. Ананьев Б.Г. О проблемах современного человека осознания.-СПб, 2001, -С.89
2. Зборовский Г.Е. Образование: от XX к XXIвеку. - Екатеринбург, 1999, -С.123
3. Иваненков С.П. Проблемы современной молодежи. –Оренбург, 1999, С.64
4. Ковалева А.И. Социализация личности: норма и отклонения. –М., 1996. –с.108
5. Полутин С.В. Молодежь в системе социального воспроизводства. – Саранск, 2000, С.101
6. Рожков М.И. Подготовка будущих педагогов к реализации социально-педагогических функции в профессиональной деятельности. –Ярославль, 2002. –с.49
7. Хайрулина Ю.Р. Социализация личности. Теоретико-методологические подходы. Дис.д-ра социал.наук.- Казань, 1998, -С.276.

РЕЗЮМЕ
СТРУКТУРНЫЕ КРИТЕРИИ СОЦИАЛИЗИРОВАННОСТИ СОВРЕМЕННОЙ МОЛОДЕЖИ
Исмаилова М. Д.

В тезисе исследуются структурные критерии социализированности современной молодежи в психологическом аспекте. Автор справедливо отмечает, что в современное время говоря о критериях социализации необходимо наличие социальных качеств: сознательности, социальной ответственности и толерантности для устойчивости развития. В тезисе раскрывается сущность горизонтального и вертикального типов социализации. Наряду с этими согласно проективной модели личности, последовательно исследовались качества которыми должна обладать социализированная молодежь и соответствующие аналитической модели личности студента.

Ключевые слова: социализированность, процесс социализации, самоопредение, ценности, ориентация

SUMMARY
STRUCTURAL CRITERIA OF SOCIALIZATION OF MODERN YOUTH
Ismayilova M. J.

The article examines the structural criteria of the socialization of modern youth in the psychological aspect. The author rightly notes that in modern times, speaking about the criteria of socialization, the presence of social qualities is necessary: consciousness, social responsibility and tolerance for sustainable development. The article reveals the essence of horizontal and vertical types of socialization. Along with these, according to the projective model of personality, the qualities that socialized youth *should have and the corresponding analytical model of the student's personality were consistently studied.*

Key words: socialization, socialization process, self-determination, value, orientation

ADAPTATION OF PERSONALITY TO SOCIETY

Karimova D. M.
ASPU Sheki Branch
dilare_kerimova@mail.ru

Summary: The article examines the adaptation of the individual to society, the impact of the social environment on the individual, the impact of the stages of the process of socialization of the individual on human life. The development of social relations and the concept of social environment are clarified, and the importance of factors such as a person's psychological readiness for social environment and interaction with society and the need for all these processes are considered.

Key words : concept of society, social environment, socialization of personality, social relations.

"Society" is an English word meaning society. The field of science that studies the interrelationships of society is called sociology. When we look at the concepts of the social environment and the process of human adaptation to this environment, we see that these concepts are interrelated. The process of socialization means the adaptation of man to society. This process is the process of human development and formation as a person. But who is the personality? Personality is the result of an individual's socialization in the environment around him, as a result of communication and interaction with the environment. Motivation is a very important condition for the formation and development of personality. Properly chosen motives motivate the personality to purposeful activity. A person is an individual who has a reciprocal relationship with society, an object of conscious activity. A person is a member of an individual society and social group.

Personality consists of a set of enduring physical and mental characteristics that allow an individual to identify with society. Personality is the psychological face of a person, a person who has consciousness, self, is responsible for his actions, and is an active participant in social relations. A person is a concrete living person who lives and acts in a certain socio-historical period, who perceives reality and changes it in a certain direction, and who is able to communicate.[1]

Biological, psychological and social factors play a very important role in the formation of human personality. Social factors form an active citizen as a result of the process of human social activity. The process of socialization means, first of all, the psychological readiness of a person for socialization, the social environment, relations with society, and the importance of all these factors. Man is a social being, and this feature is unique to man. this process manifests itself only when people interact with other people.

According to scientists, there are 3 stages of the socialization process:

The first stage is the process of socialization in the family, and the first social environment in which we must live when we are born is our family. It is our social environment that has a very strong influence. According to psychologists, the family upbringing and all the knowledge gained in the family social environment during the first seven years after birth affect all the choices, direction of life and development of all other activities as the main leading way of his lifeshows.The family, which is man's first social environment, teaches him all the basic knowledge that will bring him to society. During this period, the influence of other close people with whom the child is in contact with the family is undeniable. What is right and what is wrong, how to treat other people, formation of human behavior, development of human value system, attitude to other people, relations, choices, formation and development of way of thinking, respect for ourselves and other people and love is gained in the family. In short, our family teaches us to be human.

Education in any society is one of the main tasks of that society.In modern times, the most important and urgent task is to educate and shape the young generation as a person with a scientific outlook, high moral qualities, combining spiritual richness, moral purity and physical perfection. Our school and teachers play a key role in fulfilling this important task. The success of our schools, teachers and educators in fulfilling this task depends on knowledge of the psychology, psychological foundations and regularities of the educational process. It is no coincidence that the study of the psychological mechanism of personality formation is the main task of educational psychology.[2]

---

[1] [Bayramov A.S. , Alizade A.A. Psychology. 2nd edition - p. 156]

[2] [Prof. S.I. Seyidov and prof. M.A. Hamzayev General psychology. The formation of personality as the main problem of educational psychology – p. 277]

It is also important to develop children who are directly integrated into society, away from the family, which is the first social environment. Unfortunately, such children do not have the norms of the social environment, proper interaction with society, forms of behavior. In this case, these children have to learn all these basic norms on their own compared to other children, and therefore many problems arise during the integration of such people into society. the social environment, society does not accept these people and excludes them from the environment. Taking into account the age of these children, I can say that society does not accept such young people, and this has a huge impact on the whole psychology and life of these young people. Deprived of love and family life, these children are also deprived of the rules of public life.

The second stage is carried out at school. Children begin school life at the age of six, which is often heard in the family environment, and at this stage children acquire certain scientific knowledge. They first teach their mother tongue and dshs then they have the world, people and so on. Images about are formed and developed. Man experiences this socialization with the moral norms, information, and cultural rules he has learned in the family and at school, after he has fully socialized, that is, after being integrated into social life. As a result, she applies what she learns in relationships with new acquaintances and gains new experiences, which shows that he continues to socialize. However, everything she learns later is built on the social environment in which she grew up, the information she received from her family and school.

As a result of socialization, an individual acquires the norms of behavior in the social group to which he belongs. Personal examples in the socialization of the personality, a normal lifestyle, a normal life, good family relations, good friends, knowledgeable teachers, the care of the people around her, etc. plays a positive role. The socio-psychological environment includes all types of interactions that affect the formation of the student's desire to learn, both with other people and with their inner world: "student-student", "teacher-student", "teacher-student-parent", "administration-student" -parent ”,“ friends-student ”.[3]

Socialization is also a mechanism of information transmission. That is, the information that the family receives from the past, cultural values, moral norms are passed on to future generations through their children. This is the third stage.

In modern times, the development of science and technology, the rise of public relations, the growing demand for information, the development and expansion of the sphere of communication between people and the field of human activity. First of all, it is noteworthy that the rhythm and harmony of a person's mental activity is strained, as all his activities, lifestyle, and the intensity of his interactions with other people change dramatically. And as a result, there are problems in the process of socialization. In order to overcome these problems, first of all, a person must understand the requirements of the social environment and show appropriate behavioral rituals.

REFERENCES

1. Aliyeva F., Mammadova U. Modern training technologies. Baku, 2014.
2. Bayramov A.S. , Alizade A.A. Psychology. 2nd edition The problem of personality in modern psychology - Baku, 2002, p.156
3. Bayramov A.S. , Alizade A.A. Social psychology. Baku, 2003
4. Bayramov A.S. Actual psychological problems of personality formation. Baku, 1989

[3] [Aliyeva F. Mammadova U. Modern learning technologies]

5. Prof. S.I. Seyidov and prof. M.A. Hamzayev. General psychology under the scientific editorship of Formation of personality as the main problem of educational psychology. Baku, 2014, p. 277
6. http://www.yysq.org
7. http://www.elmler.net

XÜLASƏ
ŞƏXSİYYƏTİN CƏMİYYƏTƏ UYĞUNLAŞMASI
Kərimova D. M.

Məqalədə şəxsiyyətin cəmiyyətə adaptasiyası, sosial mühitin şəxsiyyətə təsiri, şəxsiyyətin sosiallaşma prosesinin mərhələlərinin insan həyatına təsiri araşdırılır. Sosial münasibətlərin inkişafı və sosial mühit anlayışı aydınlaşdırılaraq, insanın sosial mühit və cəmiyyətlə qarşiligli əlaqələrə psixoloji cəhətdən hazırlığı və bütün bu proseslərə nə dərəcədə ehtiyacının olması amillərinin vacibliyinə nəzər yetirilir.

Açar sözlər **:** cəmiyyət anlayışı, sosial mühit, şəxsiyyətin sosiallaşması, sosial münasibətlər

РЕЗЮМЕ
АДАПТАЦИЯ ЛИЧНОСТИ К ОБЩЕСТВУ
Каримова Дилара Маммадали

В статье исследуется адаптация личности к обществу, влияние социальной среды на личность, влияние этапов процесса социализации личности на жизнь человека. Уточняется развитие социальных отношений и концепция социальной среды, а также рассматривается важность таких факторов, как психологическая готовность человека к социальной среде и взаимодействию с обществом, а также необходимость всех этих процессов.

Ключевые слова : понятие общества, социальная среда, социализация личности, социальные отношения

SOSİOLİNQVİSTİKADA İNTEQRASİYAYA YANAŞMA

Mürsəliyeva X. M.
Sumqayıt Dövlət Universiteti
murseliyeva.xeyale@mail.ru

Xülasə: Dilçilik təkcə fərdi psixologiyaya deyil, həm də sosiologiyaya əsaslanmalıdır. Sosiolinqvistika sosial mühitin dilə və insanların danışıq davranışına müxtəlif təsirlərini araşdırır və insanların ümumi mədəniyyət səviyyəsindən, yaşından, cinsindən, sosial vəziyyətindən, təhsil səviyyəsindən və təbiətindən asılı olaraq dil işarəsini necə istifadə etməsinə diqqət yetirir.

Dil inteqrasiyası dedikdə, linqvistik hadisələri birləşdirən faktların artması prosesi nəzərdə tutulur. Dillərin inteqrasiyası prosesi adətən xalqların siyasi, iqtisadi və mədəni inteqrasiyası ilə bağlıdır və etnik qarışıqlığı nəzərdə tutur.

Açar sözlər: dil və cəmiyyət, sosiolinqvistika, cəmiyyətin formasiyaları, inteqrasiya, dil tipi

Ümummilli Lider Heydər Əliyev çıxışlarından birində demişdir: "Qloballaşma və inteqrasiya müasir dünya inkişafının əsas meyilləri kimi çıxış edir. Bu proseslər heç də həmişə

optimizmin təsdiq olunması ilə müşayiət olunmur. Bu mürəkkəb və çoxmənalı proseslərin perspektivləri bizim hamımızı dərindən düşündürməyə vadar edir. Bu proseslər dövlətlərin müstəqilliyinə, davamlı inkişafın təmin olunmasına, idarəetmə sisteminin sabitliyinə, dövlətlərarası münasibətlərdə ayrıseçkiliyin aradan qaldırılmasına, xalqların rifahının artırılmasına imkan yaratmalıdır".[

Dil ünsiyyət vasitəsi olaraq cəmiyyətdə yaranır, inkişaf edir və ölür. Dil və cəmiyyətin inkişafı qarşılıqlı şəkildə baş vermişdir. İnsanların tarixi şəraitlə əlaqədar olaraq baş vermiş köçləri qəbilələr və tayfalar arasında ibtidai əlaqələrin yaranmasına və nəticədə, tayfa və qəbilə dilləri arasında ilkin inteqrasiyanın baş verməsinə gətirib çıxarmışdır. Cəmiyyət və dil bu dövrdə qarşılıqlı olaraq biri digərinin inkişafında katalizator rolunu oynamış, onun inkişafında stimulverici amil olmuşdur. İlkin "inteqrasiya" (integration) anlayışı yalnız fiziki və ya mexaniki bütövləşmə prosesini deyil, hər kəs tərəfindən qəbul edilən, etik və əxlaqi dəyərlərlə izah olunan bir qrup qaydalar və davranış qəlibləri çərçivəsində inkişaf edən prosesi ifadə edir.

Dil inteqrasiyası müəyyən bir sosial-linqvistik topluluğu - sosial-linqvistik və linqvistik hadisələri birləşdirən faktların artması prosesidir. İnteqrasiya ölkənin mədəni və sosial-iqtisadi həyatını birləşdirən vahid bir ünsiyyət vasitəsi olaraq bir dilin və ya bir dilin mövcudluğunun müəyyən bir formasının (ümumiyyətlə ədəbi bir forma) istifadəsində ifadə olunur. Çoxmillətli bir cəmiyyətdə komponentləri (fərqli dillər) funksional tamamlayıcılıq münasibətində olan dillərdən biri cəmiyyətin həm sosial, həm də linqvistik inteqrasiyasının vacib vasitəsi olan millətlərarası və ya etniklərarası ünsiyyət dili rolunu oynayan sosial-kommunikativ sistemin münaqişəsiz fəaliyyətini nəzərdə tutur.

Cəmiyyətin inkişaf tarixində 6 formasiyadan keçdiyini müşahidə edirik:

1. İbtidai icma quruluşu
2. Quldarlıq quruluşu
3. Feodalizm quruluşu
4. Sənayedən əvvəlki dövr
5. Sənaye dövrü
6. Post-sənaye dövrü.

4, 5 və 6-cı mərhələlər kapitalizm dövrü də adlandırılır. İndi isə dünyada 7-ci formasiyaya keçid başlayır. Dünya post-sənaye cəmiyyətindən rəqəmsal cəmiyyətə keçir. Cəmiyyətdə baş vermiş formasiyalar nəticəsində insanların birlik, sabitlik şəraitində yaşamaq arzuları mütəfəkkirlər, siyasətçilər tərəfindən mükəmməl ideya kimi izahını tapmış, nəzəri ifadə olunmuşdur.

Bu formasiyalar inkişaf etdikcə onlarla yanaşı dilin də funksiyası təkmilləşmiş, bir dil tipini digəri əvəz etmişdir. Belə ki, qəbilə dilini fratriya dili, fratriyanı tayfa dili, tayfa dilini xalq dili, onu isə millət dilləri əvəz etmişdir. Baş vermiş bu ictimai təkamül nəticəsində hər bir milli dildən bir və ya neçə millətin istifadə etdiyini görürük. Məsələn, ingilis dili ingilislələ yanaşı, Şimali Amerika, Yeni Zellandiya, Avstraliya millətlərinin də milli dilidir. Və yaxud ispan dili ispanların və Latın Amerikasının iyirmidən artıq millətinin istifadə etdiyi dildir.

Dil ictimai faktorların təsiri altında inkişaf edir. İctimai faktorlar az deyil. Bunlardan sosial həyatın inkişafında xüsusi rol oynayan ən başlıcası orta məktəbin, ali təhsilin, elmin, ƏDƏBİYYATın, mədəniyyətin, texnikanın, iqtisadiyyatın və dövlətin inkişafıdır [1,s.225].

Dil ilə cəmiyyətin nəzəri və tətbiqi cəhətlərinin başlıca əlaqə və münasibətlərinin, əlamət və funksiyalarının tədqiqi ilə məşğul olan elm sahəsi sosiolinqvistikadır. Bu termin XX əsrin 20-ci illərində E.D. Polivanov ("sosioloji dilçilik") tərəfindən təklif edilib. O.S. Axmanova və A.N.

Marçenko qeyd edir ki, “Sosiolinqvistika - dil ilə ictimai mühit arasındakı əlaqələrin yaranmasını araşdıran dilçiliyin bir qoludur.”

Sosiolinqvistika dilçilik, sosiologiya, sosial psixologiya və etnoqrafiyanın qovuşmasından yaranan elm sahəsidir. Sosiolinqvistika “Dil və Cəmiyyət” kimi xülasə oluna bilən dilin sosial təbiəti ilə onun sosial funksiyalarının, başqa sözlə, sosial amillərin dilə təsiri və dilin cəmiyyət həyatındakı rolu ilə əlaqədar geniş problemləri araşdırır. Sosiolinqvistikanın əsas problemi dilin bütün səviyyələrində sosial fərqliliyin: bir dilin mövcudluq formalarının (ədəbi dil, xalq dili, dialekt dili və s.) cəmiyyətin sosial quruluşundan asılı olaraq müxtəlif sosial vəziyyətlərə görə funksional bölgüsünün mövcud olmasıdır.

Dil sosial fenomen kimi yaranır, inkişaf edir və mövcuddur. Əsas məqsədi insan cəmiyyətinin ehtiyaclarına xidmət etmək və hər şeydən əvvəl müəyyən bir insan birliyinin üzvləri arasında ünsiyyəti təmin etməkdir.Cəmiyyət anlayışı çox mürəkkəbdir, belə ki, cəmiyyət təkcə insan fərdlərinin məcmusu deyil, hər bir fərdin özünəməxsus yerini tutduğu və buna görə də müəyyən bir sosial statusun, sosial funksiyaların və rolların daşıyıcısı kimi çıxış etdiyi bu və ya digər sosial, peşə, cins və yaş, etnik, etnoqrafik qrupa mənsub insanlar arasındakı müxtəlif münasibətlər sistemidir. Bir fərd cəmiyyətin üzvü olaraq onu digər fərdlərlə əlaqələndirən çox sayda münasibətlər əsasında müəyyən edilə bilər.

Fərdin linqvistik davranışının və ümumiyyətlə davranışının xüsusiyyətləri, əsasən sosial amillər tərəfindən müəyyənləşdirilir. Dil və cəmiyyət arasındakı əlaqə məsələsi hələ də elmdə mübahisəlidir. Bununla birlikdə, ən geniş yayılmış yanaşma budur ki, dil və cəmiyyət arasındakı əlaqə iki tərəflidir. Dil, sosial bir fenomen olaraq digər ictimai hadisələr arasında özünəməxsus, xüsusi bir yer tutur və özünəməxsus xüsusiyyətlərə malikdir. Dilin digər ictimai fenomenlərlə ortaq cəhəti budur ki, dil bəşər cəmiyyətinin varlığı və inkişafı üçün zəruri şərtdir və mənəvi mədəniyyətin bir elementi olan dil, bütün digər ictimai hadisələr kimi maddilikdən təcrid olunmuş şəkildə təsəvvür edilə bilməz.

Deməli, dil insanlar arasında universal ünsiyyət vasitəsi kimi çıxış edir və sosial maneələrə baxmayaraq xalqın nəsillər və ictimai formasiyaların tarixi dəyişməsində birliyini qoruyur və bununla da xalqı vaxtında coğrafi və sosial məkanda birləşdirir. Dil cəmiyyətin həyatındakı dəyişiklikləri bütün sahələrdə əks etdirməyə qadirdir ki, bu da onu digər ictimai hadisələrdən əhəmiyyətli dərəcədə fərqləndirir.

Dilin sosial fenomen kimi təfərrüatlı təsviri və bu istiqamətdə özünəməxsusluğunun müəyyənləşdirilməsi üçün onu aşağıdakı aspektlərdə nəzərdən keçirmək lazımdır:

1. cəmiyyətin dil xidmətinin spesifikliyi;
2. dil inkişafının cəmiyyətin inkişafından və vəziyyətindən asılılığı;
3. dilin yaranmasında və formalaşmasında cəmiyyətin rolu.

Dil istifadə olunduğu cəmiyyət daxilində yaranan sosial bölgülərə biganə qala bilməz. Cəmiyyətin sosial fərqliliyi nəticəsində yaranan dil hadisələri aşağıdakı üç qrupa bölünür:

1 dillərin sosial və xüsusi istifadəsi;
2. xüsusi “dillərin” yaradılması;
3. ortaq dilin sosial və peşə fərqliliyi.

Dilin inkişafına və fəaliyyətinə ortaq mədəniyyətin təsiri nəzərə alınmamalıdır. Cəmiyyətin, texnologiyanın, elmin və ümumi mədəniyyətin istehsalçı qüvvələrinin inkişafı adətən linqvistik ifadə tələb edən çox sayda yeni anlayışın meydana gəlməsi ilə əlaqələndirilir. Eyni zamanda, dilə yeni terminlərin axını elmlərin müasir inkişaf səviyyəsini əks etdirməyən bəzi terminlərin dildən çıxarılması, yaxud istifadədən qalması ilə müşayiət olunur.

Dil yalnız insan cəmiyyətində mümkün olduğu üçün onun həm psixolji (zehni) tərəfini, həm də sosial tərəfini qeyd etməliyik. Dilçilik təkcə fərdi psixologiyaya deyil, həm də sosiologiyaya əsaslanmalıdır. Deməli, sosiolinqvistikanın obyekti dil və onun cəmiyyətdə işləməsidir. Dil müəyyən bir sosial quruluşa sahib olan cəmiyyətdə fəaliyyət göstərdiyindən sosiolinqistika dedikdə, dili sosial kontekstdə araşdıran bir elm düşünmək mümkündür. Sosiolinqvistika, insanların ümumi mədəniyyət səviyyəsindən, yaşından, cinsindən, sosial vəziyyətindən, təhsil səviyyəsindən və təbiətindən asılı olaraq dil işarəsini necə istifadə etməsinə diqqət yetirir. Məsələn, hər bir dildə həmsöhbətə müxtəlif müraciət formaları vardır. Azərbaycan dilində şəxsə iki əsas müraciət forması var: "sən" və "siz". Tanımadığı və ya qısa müddətdi tanış olduğu bir şəxsə "siz" deyə müraciət edilməlidir (eyni şey yaşlı insanlara, hətta tanışlara aiddir). "Sən" deyə müraciət etmək daha yaxın, səmimi bir münasibətə işarədir. Şəxsi müraciət formalarının seçilməsinə təsir göstərən sosial şərtlərin (salamlama, üzr istəmə, xahiş, vida və s.) öyrənilməsi, dilin (dillərin) inkişafını və fəaliyyətini tamamilə dil həyatının spontan gedişatına etibar etmədən tənzimləmək də sosiolinqistikanın araşdırma sahələrinə daxildir.

Dil həm fərdi, həm də qrup şəklində mədəni xüsusiyyətlərin yaradılması üçün materialdır. Şəxsiyyətin unikallığının əsasını təşkil edən və onu nəzərdə tutan əsas amillər kimi dil də dini inanc və ya geyim tərzi kimi sosial və mədəni fərqlərin yaradılmasında mühüm rol oynayır. Beləliklə, miqrant tərəfindən ona tanış olan, lakin yerli əhali tərəfindən istifadə edilməyən yeni dilin öyrənilməsi və istifadəsi yalnız praktiki əhəmiyyətə malik deyil, həm də şəxsiyyətin özünidentifikasiyasına təsir edən proseslərə təkan verə bilər.

Tədqiqat nəticəsində müşahidə edirik ki, "linqvistik inteqrasiya" termini cəmiyyət tərəfindən birmənalı şəkildə qarşılanmır. İnteqrasiyanın dəyəri ölkə əhalisinin və miqrantların nöqteyi-nəzərindən asılı olaraq dəyişə bilir. Hər hansı ölkə əhalisi üçün ölkələrində istifadə edilən ənənəvi dilin qeyri bir dil (regional və azlıq dillərin) tərəfindən tədricən sıxışdırılması və ya mövcud dili əvəz etməsi anlayışı qəbuledilməzdir. Bu qorxu və narahatlıqlar ideoloji səviyyədə yaranır, baxmayaraq ki, müəyyən bir ərazidə yeni bir dilin ortaya çıxması orada yaşayan, yeni dillər öyrənmək məcburiyyətində olmayan insanlara heç bir şəkildə təsir etməməlidir.

ƏDƏBİYYAT

1. Afad Qurbanov.Ümumi dilçilik. 2 cilddə. II cild. Bakı: Maarif, 1993, 548 s.

РЕЗЮМЕ
ПОДХОД К ИНТЕГРАЦИИ В СОЦИОЛИНГВИСТИКЕ

Мурсалиева Х. М.

Основанием языковедения должна служить не только индивидуальная психология, но и социология. Социолингвистика изучает различные воздействия социальной среды на язык и на речевое поведение людей и фокусируется на том, как люди используют языковые знаки в зависимости от их общей культуры, возраста, пола, социального статуса, уровня образования и характера.

Языковая интеграция - это процесс увеличения количества фактов, объединяющих языковые явления. Процесс интеграции языков обычно связан с политической, экономической и культурной интеграцией народов и предполагает этническое смешение.

Ключевые слова: язык и общество, социолингвистика, формации общества, интеграция, тип языка

SUMMARY
APPROACH TO INTEGRATION IN SOCIOLINGVISTICS
Mursaliyeva K. M.

The basis of linguistics should be not only individual psychology, but also sociology. Sociolinguistics studies the various influences of the social environment on language and on people's speech behavior and focuses on how people use linguistic signs depending on their general culture, age, gender, social status, educational level and character.

Language integration is the process of increasing the number of facts that unite linguistic phenomena.The process of language integration usually involves the political, economic and cultural integration of peoples and involves ethnic mixing.

Key words: language and society, sociolinguistics, society formations, integration, language type

GENDER İDENTİKLİYİNİN YAŞ MODELLƏRİ

Qəhrəmanova Q. N.
Azərbaycan Dövlət Pedaqoji Universiteti
qehremanova.qizxanim@gmail.com

Xülasə: Məqalədə göstərilir ki, gender identikliyi şəxsiyyətin mühüm xarakteristikalarından biri kimi qadın və ya kişi xüsusiyyətlərinin psixoloji identifikasiyası nəticəsində, "Mən"in qarşılıqlı təsiri və sosializasiya prosesində formalaşır. Məqalədə gender identikliyinin yaş modelləri ardıcıllıqla müəllif tərəfindən psixoloji aspektdə araşdırılmışdır. Həmçinin məqalədə müəllif yeniyetməlik və gənclik yaşında gender identikliyinin struktur komponentlərini: gender identikliyinin təşkilində, koqnitivliyin, semantik-simvolik və davranış komponentlərinin təşkili strukturunda ardıcıllıqla araşdırılmışdır.

Açar sözlər: gender identikliyi, yönəlişlik, stereotiplər, özünüdərk, cinsi dimorfizm

Gender psixologiyası cins və gender anlayışlarını fərqləndirən müasir sosial elmdir. Gender anlayışı bioloji cinsindən asılı olaraq insanlara cəmiyyət tərəfindən təlqin edilən sosial və mədəni normaların məcmusunu ifadə edir. Qadın və kişilərin psixoloji xüsusiyyətlərini, sosial davranış modellərini, o cümlədən peşə fəaliyyətinin növlərini müəyyən edən bioloji cins deyil, sosial-mədəni qaydalardır.

Gender identikliyi şəxsiyyətin mühüm xarakteristikalarından biri kimi qadın və ya kişi xüsusiyyətlərinin psixoloji identifikasiyası, "Mən"in qarşılıqlı təsirində və sosializasiya prosesində formalaşır. Gender identikliyi cinsi dimorfizm faktları, habelə özünüdərk nümunəsində təfəkkür və hissiyyatın təsviri haqqında cəmiyyətin ideal təsəvvürlərinin məcmuyudur. Bütün sosial norma və nümunələr sistemi həyati təminat formasının təşkili sisteminin elementi sayılır.

T.V.Bendas belə hesab edirdi ki, gender psixologiyası cinslə bağlı olan psixologiyanın bütün xüsusiyyətlərini öyrənməlidir [3,s.39].

Yeniyetməlik yaşında gender identikliyinin bütün struktur komponentləri formalaşır. Onların psixoloji məzmunu qeyri-bərabər şəkildə baş verir:

1. *Gender identikliyinin təşkilində* affektiv komponent tam şəkildə özünü təzahür etdirir. Gender özünüqiymətləndirmənin adekvatlığı (70%-ə qədər), genderə məxsus dəyərlər (0,84-ə qədər) artır.

2. ***Koqnitivliyin təşkili strukturunda*** gender oriyentasiyası, gender amilləri maksimal səviyyədə formalaşır. Gender komponentinin dərketmə səviyyəsi artır, gender davranış formaları və gender bacarıqları haqqında təsəvvürlər daha da genişlənir: öz gender qruplarına bələdləşmənin ifadəsində gender üstünlüklərinin formalaşması başa çatır. Cinsi yetişkənlik yeniyetmələr üçün çox mühümdür, o gender "Mən obrazı" haqqında təsəvvürlərinin genişlənməsinə səbəb olur.

Bundan əlavə seksual maraq, cinslərarası münasibətlər yaratmağa cəhd, reproduktiv nöqteyi-nəzərdən özünüdərk uşaq yaşlarında seksual ssenari və oriyentasiya haqqında təsəvvürlərin formalaşmasına aparıb çıxarır. Bu yaşda gender strukturunda dəyişikliklərin məzmunu gender üslubları və şəxsiyyətin xassələri haqqında təsəvvürlərlə sıx bağlıdır. Bu komponentlər məznunu əhatə edir ki, onlar əks cinslərin gender şəxsi xüsusiyyətlərini təsvir etməyə imkan verir.

Rolların repertuarlarının genişliyi, normativ və informasiya təzyiqi, gender etalonlarının təsvirindən istifadə etməklə stereotip və yönəlişliklərin, norma və gözləmələrin, gender rolları haqqında təsəvvürlərin dərki və differensiasiya dərəcəsi artır. Əks cinsdən olanların təsəvvürləri şəxsi gender identikliyi haqqındakı təsəvvürlərdən daha stereotipdir. Kişi və qadınlar tərəfindən təyin edilən atributlar dəsti getdikcə rəngarəng olur. Gender "Mən" oriyentasiyasının və gender arxeotipinin təsvirinin müşahidəsində "qadınlıq" və "kişilik" etalonları əsasında şəxsi həyat təcrübəsi artır.

3. ***Semantik-simvolik komponentin təşkili strukturunda*** şəxsi münasibətlər yeniyetmələrin əksəriyyətində kişi və qadınlar üçün xarakterik olan davranış stereotiplərinə olan tələbatlarda təzahür edir. Yeniyetmə qızlar üçün xarakterik olan "gender protesti"nin özünəməxsus fiorması müşahidə edilir.

Qızlar öz sosial davranışlarında, xarakterlərində və xarici görünüşlərində maskulinliyi göstərməyə çalışırlar. Bu xüsusiyyətlər eqalitar xarakteristikaya (özünəinam, müstəqillik, inadkarlıq, qadın seçimində eqoizm) məxsus ənənəvi gender xüsusiyyətləri ilə şərtlənən gender "Mən" təxəyyülündə və gender "Mən" idealının psixoloji məzmununda öz əksini tapır. Kişi cinsinin seçimində, genderin psixoloji məzmununda yeniyetməlik böhranı o qədər də tam şəkildə əks olunmamışdır. Şəxsi keyfiyyətlərin təsvirində stereotiplərin zəif olması hallarını müşahidə etmək olar. Bütünlükdə gender "Mən" təxəyyülü uşaq yaşları ilə müqayisədə daha realist və tam şəkildə arzuolunan şəxsi xüsusiyyətləri təzahür etdirir. Gender stereotiplərinin psixoloji məzmunu "qadınlıq – dostluq - məhəbbət - sadiqlik" və "hakimiyyət - məsuliyyətlilik" ümumi anlayışlar hesabına genişlənir.

4. ***Davranışın təşkili strukturunda*** yeniyetməlik yaşında hər üç komponent vəhdət halında formalaşır ki, bu bağlılıq kişi və qadın fərqlərini müəyyən edən qavrayışın, intellektual istiqamətin, şəxsi yönəlişliyin, emosional sferanın xüsusiyyətlərinin daha da möhləmləndirilməsi ilə ilə izah olunur. Davranışda və fəaliyyətdə nümayiş etdirilən gender xüsusiyyətləri yüksək normativliyi və hər bir cinsin gender normaları üçün xarakterik olan sosial tapşırıqlarla (ciddi kişi normaları, hakimiyyət, münasibətlərin dəyərində qadın normaları, ailə və xarici cazibədarlıq) fərqlənir.

Yaş səviyyəsində həyata keçirilən davranış komponentləri, davranışın gender sxemləri və planları gender ssenarisinin fərdi şəkildə reallaşmasının əhəmiyyətini bir daha göstərir. Bütünlükdə yeniyetməlik yaş dövrü gender identikliyinin təşəkkülündə spesifik dönüş dövrüdür. Formalaşma, differensiallaşma, dərketmə gender identikliyinin komponentlərinin strukturunda yüksək səviyyəyə çatır.

5. ***Gənclik yaş dövründə*** gender identikliyinin affektiv komponenti bütünlükdə tam şəkildə formalaşır.

1. Bu yaşda gender özünüdərkin adekvatlığı (75%), gender dəyərləri və ondan razılıq (0,95) artır.

2. Gender identikliyinin koqnitiv komponentlərinin strukturunda gender amilləri, gender davranış formaları, gender bacarıqları haqqında təsəvvürlər maksimal səviyyədə inkişaf edir. Gender təsəvvürləri şüurlu və sistemlidir, gender streotipləri son dərəcə möhkəmdir. Bu və ya digər mədəniyyətlərdə kişi və qadınlara göstərilən münasibətdə norma və qaydalar sisteminin formalaşması başa çatmışdır. Bədən hərəkətlərinə yiyələnmə, cinslərarası münasibət təcrübəsini mənimsəmə gənclik yaş dövründə daxili şəxsi xarakteristikanın əhəmiyyətini şərtləndirən zahiri görünüşə marağın azalmasına səbəb olur. Bu öz əksini seksual ssenarilərin məzmununda və oriyentasiyasında tapır. Gənclər getdikcə məhəbbətin, ümumi maraqların, bərabərhüquqluğun mühümlüyündən tez-tez danışırlar. Gender (stereotipləri) üslubları və şəxsiyyətin xassələri haqqında təsəvvürlər əks cinsin və özünün gender xüsusiyyətlərinin təsvirində maksimal dərəcədə differensiallaşmaya, özünüdərkə səbəb olur.

3. Semantik-simvolik komponentin məzmunu gənclik yaş dövründə şəxsi gender qiymətləndirilməsində fikri kateqoriyalara keçidlə müəyyən edilir. Gender sosializasiyası haqqında təsəvvürlər daha sistemli və şüurlu şəkildə reallaşır, əks cinslərin gender "Mən" idealının spesifik xüsusiyyətlərini xarakterizə edir. Gender etalonları informasiyaların və normativin təzyiqinin təsiri altında nümunələri mənimsəməklə formalaşır. Onlar fikri gender komponentlərinin ənənəvi formasına keçiddə transformasiyanı şərtləndirir. Maskulinliyə qadın cəhdləri əsasən genderin "Mən" təxəyyülünün məzmununda əks olunur. Əgər yeniyetmə qızlar kişi identikliyini göstərməyə çalışırlarsa, 18-19 yaşında olarkən qızlar kişi və qadınları harmonik olaraq birləşdirməyə cəhd göstərirlər. Onlar şəxsi gender identikliyini rədd etmirlər.

Gənclərdə genderin mahiyyətinin arxetipinin məzmunu "sehirbaz-yaradıcı" və "azadlıq-atalıq" kimi anlayışlarla xarakterizə olunur. Gənclik yaş dövründə interiorizasiya başa çatır. Fəaliyyət prosesində gəncin özü haqqında informasiyalar qadın-kişi davranışında müşahidə edilir. Gender motivləri yaş spesifikliyinin kommunikativ sferalarında, həmçinin ailə münasibətlərinin aktuallaşmasında mühüm əhəmiyyət kəsb edir. Bunlarla yanaşı peşənin mənimsəməsilməsinə, karyeranın qurulmasına, ailənin yaradılmasına edilən cəhdlər bilavasitə reallaşır. Qadın və kişi strategiyalarında differensiallaşmaya nail olmaq daha ifadəli olur ki,o, qızlarda kommunikativ şəxsi yanaşmalarla, oğlanlarda məntiq, güc və risklə müşayiət olunur. Bütünlükdə gənclik yaşında gender identikliyinin psixoloji strukturunun təşkilinə nail olmaq mümkündür. Gender komponenti differensiallaşdırmanın, dərketmənin maksimal dərəcəsi ilə fərqlənir.

Gender identikliyi davranış təzahürlərinin və xüsusiyyətlərinin təsviri hesabına təşəkkül edir. Həmçinin dəyişməyən gender əlamətlərinin kəmiyyətinin artması hesabına daha sabit olur. Gender identikliyi dinamik təhsil olub məktəbəqədər yaşdan gənclik yaş dövrünə qədər yaş diapozonunda tədricən təşəkkül edir. Komponentlərin formalaşması məzmunca daxili koqnitiv, affektiv, davranış və semantik-simvolik komponentlər şəklində gender identikliyinin qeyri-bərabərliyini təşkil edir.

Affektiv komponent hələ məktəbəqədər yaş dövründə gələcəkdə öz strukturunda baş verən dəyişikliklərə məruz qalmadan formalaşır.

Koqnitiv komponent yaşın inkişafının ümumi qanunlarının təsdiq etdiyi kimi bir yaşdan digər yaşın komponentlərinin differensiallaşdırma səviyyəsinin tədricən artması ilə müşayiət olunur.

Davranış və semantik-simvolik komponent digərlərindən fərqli olaraq gec formalaşır və şəxsi təcrübənin mövcud təsiri ilə müəyyən edilir.

Beləliklə, gender identikliyi şəxsiyyətin identikliyi kimi ümumi "Mən" konsepsiyasının hissəsidir. Habelə o şəxsiyyəti və onun şəxsi fikirlərini tənzimləyir. Gender identikliyi şəxsiyyətin özünüdərk refleksinin nəticəsi və prosesidir.

ƏDƏBİYYAT

1. Abasov Ə., Mirzəzadə R., Genderə giriş. "Gender və İnsan Hüququ" Araşdırma Birliyi. Bakı: 2004, 120 səh.
2. Gender problemi və müasir Azərbaycan. Respublika elmi konfransının materialları. Bakı, 25 noyabr 2017.
3. Бендас, Т.В. Гендерная психология [Текст]: учебное пособие /Т.В. Бендас. – Санкт-Петербург: Питер, 2006.431 с.
4. Берн, Ш. Гендерная психология [Текст] /Ш. Берн. – Санкт-Петербург : Прайм-ЕВРОЗНАК, 2004. – 318 с.
5. Сухоруков,А.С. Процесс формирования коммуникативной компетентности будущих педагогов с учетом гендерных особенностей обучающихся [Текст] /А.С.Сухоруков, Л.И.Столярчук. //Фундаментальные исследования.–2013. – № 1. – С. 361-365.

РЕЗЮМЕ
ВОЗРАСТНЫЕ МОДЕЛИ ГЕНДЕРНОЙ ИДЕНТИЧНОСТИ

Гахраманова Г. Н.

В тезисе показано, что гендерная идентичность как одна из важных характеристик личности формируется в результате психологической идентификации женских или мужских особенностей, в процессе социализации и взаимодействия «Я». В тезисе автор последовательно исследует возрастные модели гендерной идентичности в психологическом плане. Также в тезисе исследуются структурные компоненты гендерной идентичности в подростковом и юношеском возрасте: организация гендерной идентичности, структура когнитивной организации, структура семантико-символических и поведенческих компонентов.

Ключевые слова: гендерная идентичность, ориентация, стереотипы, самосознание, половой диморфизм

SUMMARY
AGE MODELS OF GENDER IDENTITY

Gahramanova G. N.

The thesis shows that gender identity is formed as a result of psychological identification of female or male characteristics as one of the important characteristics of personality, in the process of interaction and socialization of "I". In the thesis, age models of gender identity have been sequentially explored by the author in psychological terms. The thesis also examines the structural components of gender identity in adolescence and youth: the organization of gender identity, the structure of cognitive organization, the structure of semantic-symbolic and behavioral components.

Key words: gender identity, orientation, stereotypes, self-awareness, sexual dimorphism

İNKLÜZİV TƏHSİL CƏMİYYƏTƏ İNTEQRASİYANIN MÜHÜM VASİTƏSİ KİMİ

Qənbərova G. A.
Şamaxı rayon A.S.Şirinov adına Meysəri kənd tam orta məktəbi
gunay.qemberova@inbox.ru

Xülasə: məqalədə əlilliyi olan usaqlara dövlətin göstərdiyi qayğıdan, onlar üçün həyata keçirilən tədbirlərdən danışılır. Bu tədbirlərdən biri kimi inklüziv təhsilin qurulması diqqət mərkəzində saxlanılır. Çünki inklüziv təhsil əlilliyi olan uşaqların həyatında yeni dönüş yaradır, onlara pozitiv hisslər aşılayır. Cəmiyyətin bir üzvi kimi formalaşmasına şərait yaradır. Bununla yanaşı, məqalədə cəmiyyətə inteqrasiya zamanı meydana çıxan problemlərin həlli yolları araşdırılmışdır.

Açar sözlər: inklüziv təhsil, cəmiyyətə inteqrasiya, əlliliyi olan və olmayan şagirdlər, sosial münasibətlər, mühit

Müasir dövrdə təhsil sahəsində ən aktual məsələlərdən biri cəmiyyətin bütün üzvlərinin sosial adaptasiya mərhələsini keçməsidir. Təbii ki, bunun həyata keçməsi üçün ən mühüm vasitə təhsil, daha oğrusu inklüziv təhsildir. Odur ki, inklüziv təhsil sahəsində islahatların aparılması və qarşıya çıxan problemlərin həlli yollarının tapılması cəmiyyətə inteqrasiya və adaptasiya problemini də kökündən həll etməkdə mühüm rol oynayacaqdır.

İnklüziv təhsil ümumi təhsilin elə bir inkişaf mərhələsidir ki, burada hamının ilk növbədə sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiya və təhsilə ehtiyacını təmin edir.

İnkuliziya əlliliyi olan uşaqların biliklərinin formalaşmasına kömək edir. (Davern və Schnorr, 1991) Başqa sözlə, inkuliziya müxtəlif əqli və fiziki bacarıqlı uşaqların, digər uşaqların da böyük məmnuniyyətlə iştirak etdikləri məktəb həyatının bütün aspektlərinə tam cəlb edilməsidir. Yəni bütün uşaqların təhsil almaq hüququ vardır. Heç bir şagird cəmiyyətdən təcrid edilməməli, əksinə adaptasiya olunmalıdır. Lakin əlilliyi olan və olmayan şagirdlərin bir yerdə təhsil aldıqları müddətdə, yəni cəmiyyətə inteqrasiya olunan zaman sosiallaşmanın bir sira problemləri ortaya çıxa bilər. İnklüziv istiqamətdə uğurlu addım atmaq üçün, əvvəlcə problemləri həll etməyi öyrənməliyik.

Hazırda sağlamlıq imkanları məhdud uşaqlar əsasən xüsusi məktəblərdə və xüsusi internat məktəblərində və ya evdə təhsilə cəlb olunmuşdurlar. Digər tərəfdən, sağlamlıq imkanları məhdud uşaqlar üçün nəzərdə tutulan mövcud təhsil təminatından istifadə imkanları bütün ölkəni əhatə etmir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli 1386 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı" çərçivəsində aparılmış qiymətləndirmənin nəticələrinə əsasən, dövlət uşaq müəssisələrində yaşayan uşaqların 37,7 faizi xüsusi təhsilə olan ehtiyacları üzündən xüsusi internat məktəblərinə yerləşdirilmişdirlər.

Dövlətimiz inklüziv təhsil sahəsində bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Belə ki, Heydər Əliyev Fondu tərəfindən sağlamlıq imkanları məhdud, kimsəsiz, valideyn himayəsindən məhrum olan, cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü işlər görülmüş, sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəbləri və xüsusi məktəblər əsaslı təmir edilmiş və ya yenidən qurulmuş, həmin müəssisələr müasir tələblərə cavab verən inventar və avadanlıqlarla təchiz edilmişdir. [5]

İnklüziv təhsildən danışarkən ilk olaraq əlilliyi olan uşaqlar üçün məktəbə, sinif məkanına daxil olmağın mümkünlüyü barədə düşünməli oluruq. Bu zaman pilləkən olan zonalarda pandusların quraşdırılması ağlımıza gəlir.

- Çoxmərtəbəli məktəb binasında xüsüsi məktəb binasının quraşdırılması zərurəti meydana çıxa bilər.
- Müəllimlər sinfin məkan təşkilini elə hər tərəfli düşünməlidirlər ki, bütün sinifin tələbatına uyğun olsun.
- Hazırda bir çox siniflər stul, parta, skamya, qutu və tədris materiyalları ilə çox yüklənmişdir ki, bu da hərəkət pozulmaları olan uşaqlar üçün çətinlik yarada bilər. Sinifdə hərəkət etmək üçün adekvat məkan təmin edilməli, təhlükəsiz maneələrdən, əngələrdən uzaq, sərbəst, əlçatan, əlverişli təlim mühiti təşkil edilməlidir.

Görmə pozulmaları olan uşaqların məktəb həyətində təhlükəsizliyini təmin etmək məqsədilə əlavə səylər tələb olunur: belə ki məktəbin həyətində müxtəlif dirəkləri, çəpərləri, pilləkənləri, skamyaları parlaq rəngdə boyamaq lazımdır ki, uşaqlar ilişib zərər çəkməsinlər. [1]

Bizim məktəb və siniflərin təşkilatı quruluşu və strukturu uşaqların əksəriyyətinin effektiv təhsili üçün qeyri-münasibdir. Bu özünü xüsusi ilə yuxarı siniflərdə biruzə verir.

Məktəblər öz şagird və müəlliminin ehtiyac və istəklərini nəzərə alaraq bina və sahələrin inşasının bu elementlərdə çox səmərəli istifadə edə bilər. Əfsuzlar olsun ki, məktəblər adətən ictimaiyətin istək və ehtiyaclarını nəzərə almadan lahiyələndirib inşa edilirlər. A.İan Kaplan (2007)

Buna görə də inklüziv təsilin əsas anlayışlarından biri olan Universal Öyrənmə Dizaynı yalniz rahat giriş keçid deyil, məktəbdə öyrənmək üçün əlverişli inklüziv mühitin yaradılması deməkdir. Beləliklə, universal dizayn prinsipləri əsasında inşa edilən məktəblər daha effektiv olacaq.

Lombokda (İndoneziya) yerləşən yeni məktəb binasında giriş pandusları, divar və qapılarda rəng kodları, məktəblərdə rəng nişanları və toxunma nümunələri inşa edilmişdir. Binanın layihəsi məktəbdəki müəllimlər tərəfindən işlənib hazırlanmışdır. Məktəb binasının inşa olunmasına məktəb direktoru şəxsən özü nəzarət etmişdir. Yaxşı olardı ki, bizdə də belə lahiyələr həyata keçirilsin. [4]

Təhsildə, inkişafda mühit maneələri ilə yanaşı fərdi maneələrdə ola bilər. Təhsil, inkişafda maneələr uşaqdan uşağa fərqlənə bilər. Bütün əlilliyi olan və olmayan uşaqların çətinliklərləüzləşdiyini anlamaq, bir sıra problemləri aradan qaldırmağa vaxtıda kömək edə bilər. Bu problemlər məktəb, ev, icma tərəfindən azadılmalı və mümkün qədər aradan qaldırılmasa, uşağın sosiallaşmasında aktual problemlərə gətirib çıxaracaq.

Bir çox əlilliyi olan uşaqların məktəbdə müəllim və digər şagirdlərlə işarə (jest) dilini bilməməsi, Brayl əlifbası ilə yazılan kitabların çatışmazlığı,əlil arabasında olan şəxslər üçün yararlı ayaq yollarının olmaması kimi çətinlikləri ola bilər. Bu çətinliklərin aradan qaldırılması üçün biz-müəllimlər, valideynlər sosial durumundan və bacarığından aslı olmayaraq uşaqlar üçün,özlərini arzuolunan, qiymətli,hörmətli hiss etmələrinə şərait yaratmalıyıq.

Biz əlilliyi olan uşaqların, digər uşaqlarla müqayisədə yalnız təhsildə müvəffəqiyyət dərəcələrini deyil, akademik, sosial, emosional və fiziki inkişafını da qiymətləndirməliyik. Şagirdlərin düzgün olmayan qiymətləndirilməsi əsasında təsnifləndirilməsinə yol verməmək inklüziv və hamı üçün təhsilin ən vacib istiqamətidir.

Əlilliyi olan və olmayan şagirdlərin özlərini eyni dəyərdə hiss etmələri və özünəinam hissini aslamaq üçün sağlam mühit yaratmaq lazımdır.

Sadalanan problemlərin həlli yollarından bir neçəsi aşağıdakı kimi ola bilər .

- Bacarığından aslı olmayaraq uşağa hörmət etməliyik.
- Məktəb və valideyn arasında ünsiyyəti təkmilləşdirmək və bununla əməkdaşlıq və iştirak mühiti yarada bilərik.
- Ən kiçik uğurlarını belə yüksək qiymətləndirməliyik.
- Pozitiv nizam-intizam yaratmalıyıq.
- Müsbət və dəstəkləyici öyrənmə mühiti yaratmalıyıq.
- Rahat öyrənmə mühiti təşkil edilməlidir.
- Peşakar davranış və müsbət münasibət nümayiş etdirməliyik və s.

Bəzən biz müəllimlər şagirdləri qiymətləndirmək məqsədilə nailliyyət testlərindən istifadə edirik. İntelekt və ya əqli inkişaf testləri, ümumi əqli bacarıqların faydalı göstəriciləri olsa da, təlim nailiyyətlərində müəyyən güclü və zəif tərəfləri bilməyə ehtiyac duyuruq. Bu biz müəllimlərin gözləntilərini aşağı sala bilər. Bu yolla hələ inkişaf etməli tərəflərini xüsusi istedadlarını, qorxu və narahatlıqlarını və digər məqsədə çatmaq üçün hədəfləri müəyyən edə bilərik və bu istiqamətlərdə işlər aparıla bilərik.

Ümumiyyətlə, müxtəlif əqli və fiziki bacarıqlı uşaqların ümumtəhsil müəssisələrinə cəlb edilməsinin bir çox üstünlükləri var. Bu sahədə əldə olunacaq nəticələri belə şərh edə bilərik:

Əlilliyi olan uşaqlar təcrid olunmuş şəraitdə müqayisədə inklüziv quruluşda əlilliyi olmayan həmyaşıdlar ilə də yüksək səviyyəli münasibət yaradılır. Bu böyükyaşlı insanın sosiallaşmanı dəstəkləməsi və müxtəlif əqli və fiziki bacarıqlı uşaqların ümumilikdə cəmiyyətə inteqrasiyası ilə özünü doğruldur.

Əlilliyi olan şagirdlər tədrisdə uğur qazanmaları üçün İnformasiya texnologiyalarından istifadə edirlər. Digər uşaqlar da bu texnologiyalardan istifadə etmək üstünlüyü qazanırlar.

Bundan əlavə valideynlərin sinif işlərinə cəlb olunması olduqca faydalı ola bilər. Bu müəllim və valideyn arasında möhkəm bağ yaradar və uşağın təhsilə marağını artıran mühit ortaya qoya bilər.

Sosiallaşmada aktual problemlərin qismən həllində yardımçı mütəxəssislərin rolu və məsuliyyəti ola bilər.

Onların aşağıdakı öhdəliyi ola bilər.

- Əlliliyi olan uşaqların tənəffüsə çıxmasını və geri dönməsini təmin etmək.
- Məktəb avtobusuna mindirilməsi və düşürülməsinə yardım etmək.
- Bu uşaqların qidalanması və fiziki ehtiyaclarının ödənməsinə yardım etmək.
- Uşaqların dostluq münasibəti qurmasını asanlaşdırmaq, onlara qayğıkeş sinif şəraiti təşviq etmək.

Müəllimlər və yardımçı mütəxəssislər təlimin ortaq məqsəd vizyonu uğrunda birgə səy göstərməlidir. Bu zaman vaxt qazanmış olarıq. Bu eyni zamanda daha effektiv təlimə gətirib çıxaracaq bəzi hallarda yardımçı mütəxəssilərin mənfi təsirləri ola bilər. Belə ki, bütün uşaqlar kimi müxtəlif əqli və fiziki imkanlı uşaqlar öz yaşıdları ilə sosiallaşmaq və dostluq münasibətləri qurmaq, böyüklərdən kənar vaxt keçirmək istəyirlər. Yardımçı mütəxəssislərin uşağı yaxından təqib etməsi bu cür sosial münasibətlərin qurulması imkanların zədələyə bilər. Belə nüanslar da diqqətdən yayınmamalıdır.

Yaşıdları ilə ünsiyyət və dostluq münasibətlərinin qurulması, bütün şagirdlərin şəxsiyyət kimi sosial və mənəvi inkişafında əvəz edilməz rol oynayır.

Şəxsi təcrübə və müşahidələrimizə uyğun qeyd edə bilərik ki, yaranan çətinliklərə baxmayaraq uşaqların ümumtəhsil məktəblərində bütün şagirdlərin birgə təhsili həm onların təhsil nəticələrinə, həm sosiallaşma baxımından vacibdir. Sinfində əlliliyi olan şagirdlər: görmə

məhdudiyyəti və yerimə çətinliyi olan şagirdlər təhsil alan müəllim olaraq dərs və dərsdən kənar vaxtlarda yaranan çətinliklərin həlli yollarını tapmağa çalışıram. Məsələn: 1-ci sinifdə Azərbaycan dili dərsində hərifləri tədris edən zaman daha böyük və daha rəngarəng hərfləri, riyaziyyat fənnində isə rəqəmləri öyrənən zaman daha böyük ölçülü rəqəmləri proyektorda əks etdirirəm. Bu onları daha maraqla öyrənməyə sövq edir.

Beləliklə, İnklüziv cəmiyyətin qurulması üçün inklüziv təhsilin qurulması nə qədər vacib məsələdirsə, ixtisasından asılı olmayaraq bütün müəllimlərin şagirdlər üçün ən yaxşı şeyləri arzulaması, qabiliyyətlərinə inamlarını gücləndirməsi və özünə hörməti artırmağa diqqət yetirməsi bir o qədər vacibdir.

ƏDƏBİYYAT

1. Davıd Harvey, Joanne Deppeler, Tım Loreman: İnklüziv Təhsil Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar
2. İnklüziv və öyrənmə üçün əlverişli sinifdə pozitiv nizam-intizam. Müəllim və təhsil mütəxəssisləri üçün bələdçi. Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti, Xüsusi kitab 1
3. Çoxuşaqlı siniflərdə tədris üçün məsləhətlər. Müəllimlər üçün bələdçi. Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti Xüsusi kitab 2
4. İnklüziv siniflərdə əlilliyi olan usaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti Xüsusi kitab 3
5. http://baku.edu.gov.az/upload/file/inkluziv-tehsil-dovlet-proqrami-2018-2024.pdf

РЕЗЮМЕ
ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ ИНТЕГРИРОВАННОЕ В ОБЩЕСТВО КАК ВАЖНЫЙ ИНСТРУМЕНТ

Ганбарова Г. А.

В этой статье говорится о детях инвалидах и заботе государства о них, а также мерах проводимых государством. Одной из таких мер стоящих в центре внимания является создание инклюзивного образования. Потому что инклюзивное образование создаёт новый поворот в жизни детей инвалидов, прививает позитивные чувства у них. Создает условия для их формирования как члена общества. Вместе с этим в статье исследуются пути решения проблем в процессе интеграции.

Ключевые слова: инклюзивное образование, интеграция в общество, дети инвалиды и не инвалиды, социальные отношения, среда

SUMMARY
INCLUSIVE EDUCATION AS AN IMPORTANT PART OF INTEGRATION INTO SOCIETY

Ganbarova G. A.

This article consists of disabılıty children,the care of state and held measures for them. One of these measures, inclusive education is the centre of attention Because,inclusive education makes positive fellings and the new page of life for disabılity children. And also,help them for

being a member of society. İn addition, in this article, there are many problems of society integration.

Key words: inclusive education, integration to society, children with and without disabilities, social attitude, environment

MƏDƏNİYYƏT ŞƏXSİYYƏTİN CƏMİYYƏTDƏ SOSİALLAŞMASININ AMİLİ KİMİ

Mirzəyeva S.S., Adıgözəlova Ş.Ə.
Sumqayıt Dövlət Universiteti
severmirzayeva@gmail.com, adigozelshalala@gmail.com

Xülasə: Sosiallaşma şəxsiyyətin inkişafı, müəyyən bir cəmiyyətə, sosial birliyə, qrupa xas olan tanrıçılıq, normalar, münasibətlər, davranış nümunələrinin öyrənilməsi və mənimsənilməsidir. Sosial münasibətlər sisteminə daxil olaraq fərd öz cəmiyyətinin mədəni təcrübəsini, dəyərlərini və normalarını öyrənir. Fərdi səviyyədə mədəniyyətin nəsildən nəsilə ötürülməsi ailə, həyat tərzi ilə, kütlə səviyyəsində isə insanların yaşayış səviyyəsindən, insanların həyat tərzindən asılı olaraq sosial birliklər, təhsil prosesi (orta məktəblər, liseylər), kütləvi informasiya vasitələri, həmyaşıd qrupları yolu ilə həyata keçirilir .

Açar sözlər: mədəniyyət, şəxsiyyət, cəmiyyət, sosiallaşma, xalq

Sosiallaşma fərdin sosial sistemə inteqrasiyası, onun sosial normalarına, qaydalarına və dəyərlərinə, cəmiyyətdə uğurlu fəaliyyət göstərməsinə imkan verən biliklərə, bacarıqlara yiyələnərək sosial mühitə daxil olmasıdır. Sosiallaşma insanın cəmiyyətdə tam həyat üçün zəruri olan bacarıqların əldə etməsidir [5, s. 54].

Bir xalqı digərlərindən fərqləndirən cəhətlərdən biri onun, tarixin süzgəcindən keçmiş, özünəməxsus, rəngarəng mədəniyyətə malik olmasıdır. Xalqın mədəniyyəti onun həyat tərzində əks olunur.

Fəlsəfi ədəbiyyatda mədəniyyət-cəmiyyətin mənəvi mühitinin sistemli keyfiyyəti kimi qiymətləndirilir. Tarixən qazanılmış sosial norma və sərvətlər isə həmin ictimai sistemin mədəniyyətini təşkil edir.

Mədəniyyət çox geniş və mürəkkəb hadisədir. O, praktik olaraq, insanların yaratdıqları, cəmiyyətin qəbul etdiyi və mənimsədiyi hər bir zənginliyi özündə birləşdirir.Təsadüfi deyil ki, mədəniyyətin geniş və dar mənaları ayırd edilir. Dar mənada mədəniyyət dedikdə ədəbiyyat, incəsənət, təhsil və s. nəzərdə tutulur. Geniş mənada mədəniyyət dedikdə isə, müəyyən həyat fərqi ilə əlaqəli olan insanlar üçün mövcud təcrübənin qorunmasına və adamların davranışını tənzimləməyə xidmət edən sərvətlər sistemi, dünya və davranış qaydaları haqqında təsəvvürlər nəzərdə tutulur [1, s. 97].

Dar və geniş mənada mədəniyyət anlayışının təhlilindən aydın olur ki, hər bir insanın həyat fəaliyyəti, onun yaşadığı cəmiyyət tərəfindən qəbul edilmiş, mənimsənilmiş mədəniyyətin daxilində cərəyan edir.İnsanla, onun yaşadığı cəmiyyət tərəfindən qəbul edilmiş mədəniyyət arasında çilğalanma məhz belə həyata keçir. İnsan bir tərəfdən öz həyat tərzində həmin mədəniyyəti realizə edir.

Beləliklə, deyilənlərdən aydın olur ki, hər bir xalq özünün tarixi inkişafı prosesində müəyyən sosial norma və sərvətləri əxz etmişdir ki,onları da iki qrupda təsnif etmək olar: ümuminsani sosial norma və sərvətlər və hər bir xalqa mənsub olan sosial norma və sərvətlər.

Hər bir xalqın əxz etdiyi sosial norma və sərvətlər bir-birindən bu və ya digər dərəcədə fərqlənir. Başqa sözlə desək, hər bir xalq öz inkişafı prosesində hansı sosial norma və sərvətin özü üçün faydalı və ya faydasız olduğunu müəyyənləşdirmiş, öz həyat tərzlərində faydalı saydıqları sosial norma və sərvətlərin tətbiqinə "icazə", faydalı saymadıqları sosial norma və sərvətlərin icrasına isə "qadağa" qoymuşdur. Hər bir xalqın adət-ənənələri məhz faydalı hesab edilən sosial norma və sərvətlərin illər ərzində həmin xalq tərəfindən qorunması və yeni nəslə ötürülməsi nəticəsində formalaşmışdır. Bir misala müraciət edək: ailə - nigah münasibətləri, nigaha girmə, ailə qurma bütün xalqlar tərəfindən qəbul edilmiş, həyat tərzlərində əsas yer tutan, ümuminsani sosial norma və sərvətdir. Bütün xalqlarda gənc oğlan və qızlar müəyyən yaş həddinə çatdıqda (bu hədd həmin xalq tərəfindən müəyyənləşdirilir),onlara ailə qurmağa, nigaha girməyə icazə verilir. Lakin onu da qeyd lazımdır ki, ailə qurmağa, nigaha girməyə münasibət etibarı ilə hər bir xalq özünəməxsus rituallara malikdir. Hər bir xalqın ailə-nigah münasibətlərində mövcud olan fərqlər məhz həmin ritualların müxtəlifliyindən irəli gəlir. Belə misalların sayını çoxaltmaq olar. Müsiqi mədəniyyəti, təhsil mədəniyyəti və s. bu qəbildən olan misallardandır. Onların hər birini ayrı-ayrılıqda təhlil etmək olar. Nəticə fərqlənməyəcək.Belə ki, həm musiqi, həm mətbəx, həm geyim, həm təhsil və s. digər mədəniyyətlər məhz hər bir xalqın həyat tərzində özünəməxsus rituallara malik olub, bir xalqı digər xalqdan fərqləndirir.

Deyilənlərdən belə məlum olur ki, hər bir xalq öz həyat fəaliyyətinin bütün sahələrində özünəməxsus mədəniyyətə malik olur. Ortaya istər nəzəri, istərsə də praktik baxımdan maraqlı və əhəmiyyətli bir sual çıxır. Bəs görəsən mədəniyyətin dinamikası necə həyata keçirilir? Burada söhbət mədəniyyətin bir nəsildən digər nəslə ötürülməsindən, mədəniyyətin yeni nəsil tərəfindən həyata keçirilməsindən gedir. Məsələnin belə qoyuluşu, hər bir insanın "sosiomədəni həyat fəaliyyətinin istiqamət hərəkətini və strukturunu müəyyən edən obyektiv və subyektiv amillərin ayırd edilməsini" tələb edir.

Obyektiv amillərə, bir tərəfdən cəmiyyətin iqtisadi və sosial-siyasi inkişaf səviyyəsi ilə bağlı olan obyektiv mədəni potensialı, digər tərəfdən müxtəlif sosial birliklərin konkret obyektiv şəraitdə hökm sürən fərqlər aiddir. Subyektiv amillər isə insanın motivasiya sferası ilə bağlıdır. Bura insanın niyyəti, düşüncələri, sərvət meylləri və s. daxildir. Məhz bunlardan asılı olaraq, o özünün fərdi həyat tərzini müəyyənləşdirir.

Deməli, insan özünün gündəlik sosiomədəni fəaliyyətində müxtəlif rituallarla rastlaşır, onların bir qismini qəbul edir, bir qismini inkar edir, bir qismində yeniliklər edir, dəyişdirir. Hələ onu da qeyd etmək lazımdır ki, insanların gündəlik sosiomədəni fəaliyyəti daxilən differensial xarakter daşıyır. Məsələn, müəllimin sosiomədəni fəaliyyəti ilə tələbənin sosiomədəni fəaliyyətini müqayisə etsək, məlum olur ki, gün ərzində onların hər biri özünün gündəlik sosiomədəni fəaliyyətində spesifik həyat tərzinə malikdirlər və təbii ki, bundan asılı olaraq müəyyən sərvət meyllərinə, mənəvi norma və davranışa riayət edir və mənimsəyirlər. Bu digər sosial biliklərin də fəaliyyətinə aiddir. Əkinçi, maldar, balıqçı, satıcı, bənna, mühəndis və s. gündəlik həyatlarında spesifik sosiomədəni fəaliyyətə malik olurlar.

Cəmiyyətdə onun bütün üzvlərinə deyil, hansısa bir sosial birliyə mənsub olması, ədəbiyyatda submədəniyyət 25 a (sub-latın sözü olub,alt ifadəsində işlənir) anlayışı ilə ifadə olur. A.V.Mudrik bu anlayışı belə təhlil edir: Submədəniyyət dedikdə müəyyən nominal və real bir qrup insanın həyat tərzinə və təfəkkürünə təsir edən və özlərini onlardan (sosiumun digər nümayəndələrindən) fərqli olaraq, "biz" keyfiyyətində başa düşməyə və təsdiq etməyə imkan verən spesifik sosial-psixoloji xüsusiyyətlərin (norma, sərvət, stereotiplər, zövqlər və s.) məcmusu nəzərdə tutulur [2, s. 84].

Mədəniyyət özünü maddi və qeyri-maddi (və ya mənəvi) formada əks etdirə bilir. Maddi mədəniyyət-yaşayış və istehsal binaları, idarənin təchizatı, əmək alətləri, dini məbədgah, mədəniyyət predmetləri, kitablar, incəsənət nümunələri, məişət və bəzək əşyaları və s. hamısı insanların bilik, bacarıq və inamlarında maddiləşir. Qeyri-maddi və mənəvi mədəniyyət bu bilik və ideya, qanun və normalar, davranış qayda və modeli, sərvət və nümunələr, simvol və rituallar, adət-ənənələr, dil və s. Məsələn, kitab-maddi mədəniyyət, bilik isə onda maddiləşən mənəvi mədəniyyətdir.

Mədəniyyətin istər maddi, istərsə də qeyri-maddi (mənəvi) forması da nəinki hər bir ölkədə, hətta hər bir şəhərdə belə fərqlənir. Məsələn, Rusiyanın Moskva, Ukraynanın Kiyev, respublikamızın Baki şəhəri öz görkəmi, arxitekturası və s.ilə köklü surətdə fərqlənir. Bu ilk növbədə həmin şəhərlərin yerləşmə ərazisində və orada yaşayan (şəhərin salınmasından bu günə qədər) əhalinin şəhərsalma mədəniyyəti ilə sıx əlaqədardır. Respublikamızın daxilində də bir neçə şəhəri (Məsələn, Bakı, Gəncə, Mingəçevir və s.) müqayisə etsək, onların da bir-birindən köklü sürətdə fərqləndiyinin şahidi olarıq. Bu fərqlərin də səbəbi yuxarıda qeyd edilən səbəblərdir. İstər bina və evlərin quruluşu, istər mədəni maarif ocaqlarının tikilişi, istərsə də park və bağların quruluşu bir-birindən fərqlənir. Sovet hökuməti dövründə eyni bina proyektlərinin müxtəlif şəhərlərində tikilməsinə cəhd göstərildi. Buna etiraz edənlər də tapıldı. Məşhur rejissor E.Ryazanovun "Həyat zarafatı və ya həmişə təmizlikdə" filmi buna canlı misaldır. Eyni proyektli binaları sovet ölkəsinin müxtəlif şəhərlərində inşa etsələr də yenə şəhərlərin görünüşü eyni olmadı [3, s. 123].

Lakin son illərdə insanların istifadə etdiyi əşya və şeylər ümumiləşməyə başladı. Məsələn, Avropanın hər hansı məşhur firmasının tikdiyi paltarlardan, paltodan, ayaqqabıdan, istehsal etdiyi məişət cihazlarından, texnikasından, mebelindən və s. bəzək əşyalarından insanların əksəriyyəti istifadə etməyə başladı. İnsanlar eyni bir musiqini dinləməyə, filmə baxmağa, rəsm əsərlərinə tamaşa etməyə, bədii əsərləri oxumağa başladılar. Bu müxtəlif xalqların mədəniyyətinin inteqrasiyasının başlanğıcı idi. Hal-hazırda bu inteqrasiya daha da güclənməkdədir. Bu insanların şüurunda və hadisələrə münasibətində əks olunmaqdadır [4, s. 99].

Mədəniyyətlərin inteqrasiyası getdikcə güclənsə də, hər bir xalq öz mədəniyyətinin saxlanmasına, inkişaf etməsinə cəhd edir. Əslində hər bir xalq "Mən"ini saxlamaq üçün milli mədəniyyətini daha da inkişaf etdirməlidir. Bu, mədəniyyətin bir nəsildən digər nəslə ötürülməsi prosesində həyata keçir. Hansı xalq bunu daha yaxşı həyata keçirə bilirsə, o da öz mədəniyyəti çərçivəsində daha da möhkəmlənir, xaql kimi daha sürətlə inkişaf edir.

ƏDƏBİYYAT

1. Bayramov, Ə., Əlizadə, Ə. Sosial psixologiya. Bakı: Qapp-Poligraf, 2003.
2. Emel Riza. Sosyal psikolojiye giriş. İzmir: Anadolu Matbaacılık, 1996.
3. Андреева Г.М. Социальная психология. Москва: Пресс, 2006.
4. Freedman Jonathan L. Social psychology (5th Edition)
5. Mayers David G . Social psychology (6th Edition)

РЕЗЮМЕ
КУЛЬТУРА КАК ФАКТОР СОЦИАЛИЗАЦИИ ЛИЧНОСТИ В ОБЩЕСТВЕ
Мирзоева С.С., Адыгозелова Ш.А.

Социализация - это развитие личности, процесс изучения и усвоения богатства, норм, взглядов, моделей поведения, присущих данному обществу, социальному союзу, группе. Вступая в систему социальных отношений, индивид усваивает культурный опыт своего общества, его ценности и нормы.

Передача культуры от поколения к поколению на индивидуальном уровне происходит через семью, через ее образ жизни, а на массовом уровне осуществляется через (социальные ассоциации), образовательный процесс (средние школы), средства массовой информации, группы сверстников, в зависимости от типа проживания образ жизни людей и т. д.
Ключевые слова: культура, личность, общество, социализация, народ

SUMMARY
CULTURE AS A FACTOR IN THE SOCIALIZATION OF THE INDIVIDUAL IN SOCIETY
Mirzoeva S.S., Adigozelova S.A.

Socialization is the development of personality, the process of learning and mastering the wealth, norms, attitudes, patterns of behavior that are inherent in this society, social union, group. Entering the system of social relations, the individual assimilates the cultural experience of his society, its values and norms.

The transmission of culture from one generation to another at the individual level is through the family, its way of life, and at the mass (social associations) level, the educational process (secondary schools), the media, peer groups, people's lifestyles, etc., depending on the type of residence is carried out through.
Key words: culture, personality society socialization nation

TƏK VALİDEYNLİ AİLƏLƏRİN CƏMİYYƏTƏ İNTEQRASİYA OLMASINA MANE OLAN SƏBƏBLƏR

Səfərova Ş. M.
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
seferovasukrane@gmail.com

Xülasə: Tək valideynli ailələr valideyn və uşaqlardan ibarətdir. Boşanma, ölüm və . amillər tək valideynli ailələri yaradır. Tək valideynli ailələrdə bir çox problemlər var. Məsələn, iqtisadi, sosial, psixoloji, uşaq tərbiyəsi ilə bağlı problemlər, ev işləri və s. Bu problemlər tək valideynli ailələrin cəmiyyətə uyğunlaşmasına mane olur. Bu problemlər uşaqlara da təsir edir. Uşaqlar əsəbi və özünə qapalı olurlar. Onlar insanlarla ünsiyyət qura bilmirlər. Uşaqlar tək valideynli olduqlarına görə utanırlar. Hər iki valideyni olan uşaqlar valideynlərindən biri olan uşaqlardan daha xoşbəxtdirlər.
Açar sözlər: sosial həyat, problemlər, adaptasiya, valideyn, məsuliyyət

Ailə sosial qrupdur. İnsan ailədə dünyaya gəlir, onun vasitəsilə uşaqların ilkin sosiallaşması və tərbiyə edilməsi başlayır [1].Ailə insanın formalaşmasında və şəxsiyyət kimi yetişməsində böyük rola malikdir.Lakin müasir dövrdə müxtəlif problemlər tək valideynli ailə anlayışının yaranmasına səbəb olur.Bu səbəblərə boşanma, valideynlərdən birinin vəfat etməsi, qadının qeyri-qanuni uşaq dünyaya gətirməsi, atanın işlə əlaqəli ailədən uzaq qalması və s. misal göstərmək olar. Tək valideynli ailələrdə tək valideyn evin və uşaqların məsuliyyətini öz üzərinə götürür. Belə vəziyyətdə tək valideyn bu zaman həm ana, həm də ata rolunu oynayır.Tək valideynli ailələr adətən, ana və uşaqlardan ibarət olur. Azərbaycanda tək valideynli ailələr bir mənalı qarşılanmır. Eyni zamanda, tək valideynli ailələrin cəmiyyətə adaptasiya olmasına mane olan bir çox səbəblər vardır. Hansı ki, bu səbəblər tək valideynli ailələrdə həm valideynin, həm də uşaqların sosial həyatına birbaşa mənfi təsir edir. Bu səbəblərə iqtisadi, sosial, psixoloji və s. səbəbləri misal göstərmək olar.Tənha qadınlarla müqayisədə boşanmış və ya həyat yoldaşı vəfat etmiş kişilərin maddi vəziyyəti daha yaxşıdır. Tək valideynli ailələrdə narahtlığa səbəb olan məqamlardan biri uşaqların tərbiyəsi ilə bağlıdır. Ailə tərbiyəsi uşağın həyatının birinci illərində xüsusilə mühümdür, çünki uşağın inkişafının bir sıra mühüm sensitiv pikləri həmin illərə düşür[2]. Tək valideynli ailələrdə qadınlar ailənin bütün yükünü üzərinə götürdüyü üçün uşaqlara ayırmağa kifayət qədər vaxtları olmur.

Tək valideyn kimi qadınların ən böyük narahatlığı uşaqlarını tək böyütməklə bağlıdır. Tənha qadınların bu narahatlığına maddi sıxıntılar, sosial həyatda özlərini tənha və yarımçıq hiss etmələri, uşaqların tək bir valideyni olduğu üçün utanaraq sosiuma qapalı olması və s. səbəbləri misal göstərmək olar. Tək valideynli ailələrdə ən çox rast gəlinən problemlərdən biri ailə üzvlərinin sosiallaşma problemidir. Xüsusilə də, boşanan analar tək valideyn olduqdan sonra daha az sosiallaşmaq məcburiyyətində qalırlar. Bəzən boşanmış qadınlar ətraf mühitin ön mühakimələrindən uzaq olmaq üçün özlərini cəmiyyətdən təcrid edirlər. Hətta, onlar düşünürlər ki, uşaqları hər iki valideynli ailələri görəndə kədərlənə bilərlər. Bu səbəbdən də sosial mühitlərini buna uyğun şəkildə formalaşdırırlar. Xüsusilə də, qadınların tənha valideyn olduqdan sonra daha az sosiallaşma ehtimalı vardır. Həyat yoldaşının vəfat etməsi nəticəsində tək qalan qadınların sosial həyatının boşanan qadınlara nisbətən daha az təsirə məruz qaldığı müşahidə olunur. Yaxınlarından daha çox dəstək alan həyat yoldaşını itirmiş qadınlar sosial həyatda özlərini daha az hiss edirlər. Eyni zamanda, boşanmış qadınların boşanmış kişilərlə müqayisədə daha az ailə qurmağa meyillidirlər. Bunun da əsas səbəbi odur ki, analar uşağın ögey atadan təsirlənəcəyini düşünürlər. Uşaqların cinsiyyəti və yaşı da evliliyə əngəl ola bilər. Xüsusilə də, qız övladı olan tənha analar ögey ataya güvənmədikləri üçün yenidən evlənməyi məqbul hesab etmirlər. Həmçinin, bir öncəki evliliyində şiddət görmüş qadınlar da yenidən evlənməyə ehtiyat edirlər. Tənha atalar isə ev və uşaqların baxımı üçün yenidən evlənməyə daha müsbət yanaşırlar.

Qadınlardan fərqli olaraq kişilər uşaqlarını tək başına böyüdərkən onlar maddi sıxıntılar deyil, daha çox uşağın tərbiyəsi barədə düşünürlər və bunun öhdəsindən tək başına gələ bilməyəcəklərini düşünürlər. Bəzən uşaqlarda ana və atalarının boşanmasına görə günahkarlıq hiss yaranır. Valideynlərin boşanması müxtəlif yaş dövrlərində olan uşaqlara fərqli təsir göstərir. Məsələn, məktəbdə oxuyan uşaqlarda deviant davranışlar müşahidə olunur və onlar dərslərinə adaptasiya oluna bilmirlər.Yeniyetmələrdə isə qəzəb, stres özünü büruzə edir.

Valideynlərdən birinin olmaması uşaqların da sosial həyatına bilavasitə təsir edir. Tək valideynli ailələrdə böyüyən uşaqlar zamanında psixoloji dəstək görmədikdə özünlərini yaşıdlarından fərqli hiss etməyə başlayırlar. Bu problem uşağın özünə qapanmasına, insanlarla ünsiyyət qurmasına mane olur. Hətta, uşaqlar tək valideynli olmağı utanılacaq bir hal kimi qəbul etməyə başlayırlar. Lakin uşaqların çevrələrində özləri kimi tək valideynli uşaqların olması onların

özlərini daha rahat ifadə etməsinə şərait yaradır. Bütün dünyada və Azərbaycanda da əksər tək valideynli ailələrdə ailə başçısı qadınlar olduğu üçün uşaqlar daha çox ataları ilə davamlı görüşə bilmirlər. Bu da uşağın emosional inkişafına mənfi təsir göstərir. Araşdırmalar da göstərir ki, hər iki valideyni ilə bərabər yaşayan uşaqlar tək valideynli uşaqlarla müqayisədə daha xoşbəxtdirlər. Valideynlərdən birinin olmaması uşaqların məktəb həyatına da təsir edir. Bu proses uşaqların həm məktəbdə uğur qazanmasına, həm də sinif yoldaşları ilə münasibətlərinə bilavasitə təsir göstərir. Bu baxımdan müəllimlərin də tək valideynli uşaqların cəmiyyətə adaptasiya olunmasında fəal iştirak etməsi böyük əhəmiyyət daşıyır. Uşaqların sosial mühitdən mənəvi dəstək alması, dostları ilə zaman keçirməsi onların cəmiyyətə uyğunlaşmasına şərait yaradır. Tək valideynli ailələrin cəmiyyətə adaptasiya olması üçün bir sıra şərtlər əməl etmək vacibdir. Bunlara aiddir:

1. Boşanmış və ya həyat yoldaşı vəfat etmiş qadınlara ailəsi və ətraf mühit tərəfindən mənəvi dəstəyin verilməsi
2. İqtisadi problemləri olan qadınların işlə təmin olunmasına yardım etmək
3. Psixoloji problemlər yaşayan tənha qadınların qrup terapiyalarına cəlb olunması və digər sosial xidmətlərdən yararlanmasına şəraitin yaradılması

ƏDƏBİYYAT

1. Mehtiyev E. Azərbaycanda ailə dəyərləri.Bakı, 2018,71 s.
2. Rüstəmov İ. Sosiologiya.

РЕЗЮМЕ
ПРИЧИНЫ, МЕШАЮЩИЕ НЕПОЛНЫМ СЕМЬЯМ АДАПТИРОВАТЬСЯ К ОБЩЕСТВУ.

Сафарова Ш. М.

Неполные семьи состоят из родителей и детей. Развод, смерть и др. факторы создают неполные семьи. В неполных семьях много проблем. Например, экономические, социальные, психологические проблемы, проблемы с воспитанием детей, работа по дому и т. Д. Эти проблемы мешают неполным семьям адаптироваться к обществу. Эти проблемы также затрагиваю детей. Дети злятся и замкнуты. Они не могут общаться с людьми. Дети стыдятся быть одинокими родителями. Дети с обоими родителями счастливее, чем дети с одним родителем.

Ключевые слова: социальная жизнь, проблемы, приспособление, родитель, обязанность

SUMMARY
REASONS THAT PREVENT SINGLE- PARENT FAMILIES FROM ADAPTING TO SOCIETY

Safarova S. M.

Single- parent families consist of parent and children. Divorce, death, etc. factors create single-parent families. There are many problems in single-parent families. For example, economic, social, psychological, child rearing problems, housework, etc. These problems prevent single-parent families from adapting to society. These problems also affect children. Children become angry and

withdrawn. They cannot communicate with people. Children are ashamed of being single parents. Children with both parents are happier than children with one parent.

Key words: social life, problems, adaptation, parent, responsibility

UŞAQLARIN SOSİALLAŞMASI VƏ CƏMİYYƏTƏ İNTEQRASİYASINDA KÜTLƏVI İNFORMASİYA VASİTƏLƏRİNİN ROLU.

Həbibullayeva V. M.
Sumqayıt Dövlət Universiteti
vefa.hebibullayeva@mail.ru

Xülasə: Məqalədə uşaqların sosiallaşması və cəmiyyətə inteqrasiyasında kütləvi informasiya vasitələrinin rolu araşdırılmışdı. Müəllif sosiallaşma prosesini təhlil edərkən qloballaşan cəmiyyətdə internet və medianın aparıcı mövqeyini qeyd etmişdi. Məqalədə həmçinin innovasiyalı cəmiyyətdə uşaqların sosiallaşma prosesinin məqsədyönlü şəkildə formalaşması və inkişafı üçün medianın bütün xüsusiyyətlərinin və imkanlarının nəzərə alınması təklif edilmişdi.

Açar sözlər: uşaqlar, sosiallaşma, kütləvi informasiya vasitələri, internet.

XX əsrin sonları və XXI əsrdə formalaşan qloballaşma prosesləri bütün sahələrə olduğu kimi, kütləvi informasiya vasitələrinin inkişafına da güclü təsir göstərdi. Belə ki, yeni ənənəvi forma-məzmuna malik kütləvi informasiya vasitələrində yeni texnoloji proseslər və medianın interaktivliyi artırmışdı. İnternetdən istifadənin genişlənməsi informasiya əldə olunması prosesində zaman və məsafə problemlərini həll etməklə KİV-in yeni növlərinin formalaşmasına səbəb oldu. İnformasiyanın toplanmasının, işlənib hazırlanmasının, saxlanmasının və yayılması prosesinin veni formaları,yeni texnologiyaların tətbiqi, redaksiya kollektivlərinin idarə edilməsi sxemlərinin dəyişdirilməsi və s. KİV-nin yeni keyfiyyət kəsb etməsi, cəmiyyətdə onların rolunun güclənməsi ilə nəticələndi [6, s 3-4].

Kütləvi informasiya vasitələrinə dövri mətbu nəşrlər, teleradio proqramları, informasiya agentlikləri, internet, kinoxronika proqramları və digər yayım formaları aiddir [1]. KİV-lər müasir dövrdə əhəmiyyətinə və təsir gücünə görə "dördüncü hakimiyyət" adlandırılır. Sosiallaşma amili kimi kütləvi informasiya vasitələri bütovlükdə kiçikdən-böyüyə əhalinin bütün yaş qruplarının şüur və davranışına təsir göstərir.

Ümumilikdə uşaqların sosiallaşması onların müəyyən rollara yiyəllənməsini təmin edir, davranış normalarını formalaşdırır. Bu rolların formalaşmasında ailə və təhsil müəssisəsi qədər KİV vasitələrinin rolu danılmazdır. KİV sosial institutlardan biri olmaqla, bu və ya digər dərəcədə dövlətin və ayrı-ayrı sosial qrupların sifarişi ilə bütövlükdə əhaliyə, ayrı-ayrı sosial təbəqələrə müəyyən təsiri yerinə yetirir.

Tərbiyədə sosiallaşma amili kimi KİV-dən zamanın tələbindən asılı olaraq geniş istifadə olunmağa başlayıb. Artıq XX əsrin ortalarından kino, televiziya imkanlarından istifadə edilməyə başlanılmışdı. Zaman keçdikdə KİV –in inkişafı və geniş tətbiqi sosial tərbiyədə xüsusi istiqamət olan media təhsil anlayışını da formalaşdırdı.

Mediatəhsil (latın sözündən media-vasitə)-tərbiyə olunanlar tərəfindən kütləvi kommunikasiyanın qanunauyğunluqlarının öyrənilməsidir. Onun əsas vəzifəsi böyüməkdə olan nəsilləri müasir informasiya şəraitlərinə, informasiyanın qəbuluna, onun psixikaya təsiri fəsadlarını dərk etmək, texniki vasitələrin köməyi ilə imzasız kommunikasiya formaları əsasında ünsiyyət

üsullarına yiyələnməyə hazırlamaqdır. Mediatəhsil siteminin yaradılması uzunmüddətli və baha başa gələn prosesdir [3, s 96-102].

Kütləvi informasiya vasitələrinın uşaqların maariflənməsi və dünyagörüşünün artırılmasındakı müsbət təsirləri ilə yanaşı, düzgün istifadə olunmadıqda zərərli təsirləri də mövcuddur. Belə ki, böyüməkdə olan nəsillərin kortəbii sosiallaşmasında kompüter şəbəkəsi xüsusi rol oynayır. Kompüterlə iş bir tərəfdən əlaqələrin genişlənməsinə, sosial- mədəni dəyərlərin mübadiləsinə imkan verir, simvolik təcrübənin yeni formalarının yaranması və realizə edilməsinə, təxəyyül proseslərinin inkişafına, xarici dilllərin öyrənilməsinin tezləşdirilməsinə və digər başqa müsbət səmərələrin əldə olunmasına gətirb çıxarır. Digər tərəfdən uşaqlarda "asılılıq sindromu"na, maraq sahələrinin azalmasına, real mühitdən uzaqlaşmasına, kompüter oyunlarına vərdiş etməsinə, emosional reaksiyaların zəifləməsinə, dostlarla, ailə ilə ünsiyyətin zəifləməsinə və digər zərərli təsirlərə gətirib çıxara bilər.

Uşaqların saatlarla kompüter və ya televizora bağlı qalmaları onların sosial mühitlə əlaqələrini zəiflədir və asıllılıq yaradır. Bu asılılıq yetkinlik yaşındakı uşaqlarda özünə qapılma, məktəb yoldaşları və ətrafına qarşı aqressiv davranışlara və digər xoşagəlməz hallara gətirib çıxara bilər. Eyni zamanda bu vasitələr uşaqların səhhətinə ciddi ziyan yarada bilər, görmə qabiliyyətini aşağı salır, onurğa sütununun düzgün inkişafına mane olur. Uşaqların aqressiv oyun oynaması, sürətli maşın sürmə səhnələri, döyüş və hərbi oyunlara üstünlük verməsi onlarda artıq həyəcan, stress və əsəbilik yaradır. Uşağın inkişafının ilk üç ilində həddindən artıq televizor izləməsi nitq ləngimələrinə və qüsurlarına, ətraf mühitlə problem yaşamasına, praktiki zəkanın zəif inkişafına səbəb ola bilər [5, s. 272].

Tədqiqatlar göstərir ki, insanın istifadə etdiyi KİV-nin yığımı uşaqlar üçün xüsusi informasiya dünyası yaradır. Kompüterlərin mümkün reallığında olan uşaqda belə təəssürat yaranır ki, o, onun özü tərəfindən yaradılan hadisələrdə bilavasitə və əsas iştirakçıdır. Beləliklə, uşaqlarda özünü realizə və özünü təsdiq üçün yeni imkanlar yaranır və gənclərdə, yeniyetmələrdə özünüdəyişmə müşahidə olunur.

Diaqram 1. İnternet istifadəçilərinin təhsil dərəcəsinə görə bölgüsü [2]



KİV-lər həm də əyləncə və istirahət ilə sıx bağlıldır. Belə ki, böyük əksəriyyət uşaqlar üçün telebaxış, musiqi dinlənməsi, kompüterlə iş, bəzi yeniyetmələr üçün isə tənhalıqdan uzaqlaşma vasitəsi ola bilir. Odur ki, KİV-nin uşaqlara təsirini tədqiqatçılar hər zaman birmənalı yanaşmayıb.

Amerika alimləri, Şram Layl və Parker 1961-ci ildə belə bir nəticəyə gəlmişlər ki, telebaxış uşağın inkişafını təqribi bir il sürətləndirir, xüsusilə uşaq məktəbə gedən yaxın dövrdə ona düşünməyi öyrədir, biliklər verir, dünyagörüşünü genişləndirir. Müasir dövrdə distant təhsil sistemi, müxtəlif fənnlərə aid verilən tapşırıqları internetdən əldə olunan məlumatlar vasitəsilə daha səmərəli və keyfiyyətli yerinə yetirmək uşaqların dünyagörüşünün, savadının artmasına səbəb olur.

Diaqram 2. İnternet şəbəkəsindən istifadənin məqsədləri və xarakteri, faizlə 2018 [2]



Kütləvi informasiya vasitələrindən təkcə internet üzətindən təhlillər göstərir ki, bu vasitələr daha çox əhalinin ümumi orta təhsilli təbəqəsi tərəfindən daha geniş istifadə olunur. İllər üzrə statistik təhlillərə baxdıqda 2005-ci ildə ali təhsili şəxslərin ümumi orta təhsilli şəxslərlə müqayisədə internetdən istifadə göstəricisi 45.4% yüksək idi. 2019-cu ildə isə əksinə olaraq ümumi təhsilli insanların internetdən istifadə dərəcəsi 37,4 % artıb (bax diaqram 1). Eyni zamanda internet şəbəkəsindən istifadənin məqsədlərinə nəzər saldıqda məlum olur ki, əhalinin 17, 4% internetdən məhz oyun oynamaq, şəkil və musiqi yükləmək üçün istifadə edib. Həmçinin, ölkə üzrə internet resurslarından istifadənin yaş üzrə bölgüsündə ən çox istifadə edən yaş qrupu 24 yaşadək olan şəxslərdir (40,4%). Təhlil onu göstərir ki, bu gün internet vasitələri uşaqların, gənclərin sosiallaşmasında, onların davaranış və düşüncəsinin formalaşmasında əhəmiyyətli rol oynayır. KİV vasitələrinin zərərli təsirlərindən qorumaq vəzifəsi isə əsasən valideynlərin üzərinə düşür. Məktəb və ya baxçadan sonrakı asudə vaxtı evdə keçirən uşağın, yeniyetmənin, gəncin KİV –dən hansı formada istifadəsinə yalnız valideynlər nəzarət edə bilir. Uşaqlara bu vasitələrdən düzgün istifadə qaydaları, lazımsız vaxt itkiləri haqqında ətraflı məlumat verilməli, səmərəli vaxt bölgüsünə nəzarət edilməlidir. Tədqiqatçılar qeyd edir ki, gün ərzində komputer və televizordan istifadə 6 yaşa qədər uşaqlarda 20-25 dəqiqə, 7-8 yaşlarda 40-60 dəqiqə, 12 yaşadək 60 dəqiqə, 12 yaşdan yuxarı uşaqlarda isə saatdan artıq olmamalıdır. Odur ki, valideynlər böyüməkdə olan nəslin inkişafı üçün optimal şərait yaratmalı, tərbiyə, sosiallaşma, cəmiyyətə adaptasiya üçün daha səmərəli yolu tapmalıdır.

Tədqiqatçı- sosioloqlar qeyd edirlər ki, müasir dövrdə KİV vasitələri, təkcə uşaqların deyil, bütövlükdə cəmiyyətin tərbiyəçisinə çevrilib. Bu vasitələr insanin dünyagörüşünə, düşüncəsinə, hiss və emosialarına, zövqlərinə güclü təsir imkanına malikdir Kütləvi informasiya vasitələrinin uşaqlar və bütövlükdə cəmiyyət üzərindəki təsirini 2020-ci il ərzində daha aydın görə bildik. Pandemiya şəraitinin geniş yayılması KİV-də Covid-19 virusu və ondan qorunma yolları haqqında çoxlu sayda zəruri məlumatların, informasiyaların verilməsinə, müxtəlif video çarxların çəkilməsinə, tele-dərslərin yayımına gətirib çıxartdı. Bu da qısa müddətdə kiçikdən-böyüyə hər kəsin zəruri məlumatları əldə etməsinə səbəb oldu. Eyni zamanda 2020-ci il şanlı zəfər xəbərlərinin KİV-də daha geniş şəkildə təqdim olunması milli birliyimizin, vətənpərvərlik hissinin güclənməsinə, xüsusi

ilə uşaqlarda vətənə sevgi, xalq birliyi, tarixi keçmişimizi və müasir tariximizi öyrənməyə maraq formalaşdırdı və ümid edirik ki, bundan sonrakı illərdə bu formatlı və maarifləndirici informasiyaları KİV-dan daha çox almaq mümkün olacaq. Unutmaq lazım deyil ki, bu günün uşaqları Azərbaycanın işıqlı sabahının ədalətli, vətənpərvər və savadlı mütəxəssisləri olmalıdır.

ƏDƏBİYYAT

1. Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanda informasiya cəmiyyəti. Statistik məcmuə. Bakı 2019
3. Ağayev Ə.Ə.., Rzayeva Y.T., Hüseynova T.M., Vahabova T.Ə.. Sosial pedaqogika., Bakı 2008
4. Vahidov F.Q.., Ağayev T.B.. Sosiologiya. Bakı 2008
5. Hüseynzadə R., Allahverdiyeva L. Ailə pedaqogikası. Bakı 2016
6. Zifəroğlu V.// Qloballaşma və qlobal informasiya məkanı// ənənəvi mediadan internet mediaya doğru : problemlər, çağırışlar. Bakı Dövlət Universiteti. Bakı 2016

РЕЗЮМЕ
РОЛЬ СМИ В СОЦИАЛИЗАЦИИ ДЕТЕЙ И ИНТЕГРАЦИИ ОБЩЕСТВА

Хабибуллаева В. М.

Данная статья посвящена роли средств массовой информации в формировании социализации детей. В статье отражено влияние целого ряда социальных институтов на процесс социализации дети, при этом одна из ведущих позиций в институциональном каркасе общества отводится институту средств массовой информации и интернет. Автор предлагает структуру целенаправленного формирования и развития процесса социализации дети в условиях инновационного общества, где отражены особенности участия средств массовой информации в данном процессе

Ключевые слова: дети, социализация, средства массовой информации, интернет

SUMMARY
ROLE OF MASS MEDIA IN CHILDHOOD SOCIALIZATION AND INTEGRATION PROCESS

Habibullayeva V. M.

The article focuses on the role of media in socialization of children. The author analyzes the role of different social institutions in the process of socialization of children, noting that media and internet are the main factors of the institutional framework of society. The author proposes his view on a structure of the purposeful formation and development of the process of socialization of the youth in the innovative society.

Key words: children, socialization, media, internet

YARDIMLAŞMADAN YADLAŞMAYA

Yaqubova N.Ş.
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
yaqubovanargiz@mail.ru

Xülasə: Məqalədə insanların yardımlaşma və əməkdaşlıq xüsusiyyətlərindən bəhs edilir. Qeyd olunur ki, məhz əməkdaşlıq sayəsində insanlar birlikdə yaşaya bilmiş, müxtəlif birliklər, cəmiyyətlər qura bilmişlər. Tədricən formalaşan cəmiyyətin müxtəlif normaları və qaydaları onlara təhlükəsizlik hissi bəxş etsə də, zamanla azadlığını məhdudlaşdırdığı kimi fikirlər də yaranmışdır. Cəmiyyətin strukturu mürəkkəbləşdikcə ümumi normalar insan təbiətinə yadlaşdırıcı təsir göstərmişdir. Amma müxtəlif zamanlarda sosial inqilablar vasitəsilə bu normaları dəyişdirmək də mümkün olmuşdur.

Açar sözlər: əməkdaşlıq, cəmiyyət, normalar, yadlaşma, sosial inqilab.

Birgəyaşayışı, təhlükəsizliyini təmin etmək məqsədilə öz növündən olanlar ilə qrup halında fəaliyyət göstərmək əksər canlılara məxsus xüsusiyyətdir. Amma insanlarda fərqli olan bir şey var ki, bu onlara qrupların ən mürəkkəb formasını - cəmiyyətləri qurmağı mümkün etdi. Ən kiçik və ən sadə görünən insan cəmiyyətləri belə, digər primatların birliklərində rast gəlinməyən kooperativ bir şəkildə qurulmuş və təşkil edilmişdir. [10, s.237] Heyvanlar cəmi onluqlarla hesablana biləcək sayda üzvlərlə birləşə biləcəyi halda necə oldu ki, homo sapiens minlərlə insanların yaşadığı şəhərlər, milyonlarla insanların yaşadığı imperiyalarda birgə yaşaya bildilər? [5, s.20-25] Bu o deməkdir ki, müəyyən bir mərhələdə insan psixologiyası müasir insanları xarakterizə edən daha böyük, daha kooperativ cəmiyyətləri dəstəkləyəcək şəkildə dəyişdi. [8] İnsan təkamülünə aid bir çox yazılar bu müvəffəqiyyətimizi üstün idrak qabiliyyətlərinin nəticəsi kimi izah edir. Ehtimal etmək olar ki, insanlar heyvanlardan daha ağıllıdırlar, amma bu əsas səbəb deyil. İnsanlar ən çətin təbii şəraitə və iqlimə uyğunlaşmalı, sonra cəmiyyətlərini necə təşkil edəcəklərinə qərar verməlidirlər: ehtiyat mənbələrinin mübadiləsini necə tənzimləmək, evliliyi necə təşkil etmək, münaqişələri həll etmək və s. Əgər zəka ən vacib faktor olsaydı, insanlar bunları təkbaşına yarada bilərdilər. Ona görə yarada bildilər ki, digər insanlarda mövcud olan geniş məlumat bazasından istifadə edə bildilər. Öyrənmə qabiliyyəti və sosial ötürülmə insanlara dəyişən mühitə uyğunlaşmağı mümkün etdi.[8]

Digər xüsusiyyət isə insanların digər növlərdən daha çox əməkdaşlıq, yardımlaşma qabiliyyətinə malik olmalarıdır. M.Tomasello və A.Vaiş sosial qrupların müxtəlif istiqamətlərində araşdırma apararaq bu nəticəyə gəliblər. Məsələn, primatlar qida axtarışını fərdi şəkildə həyata keçirirlərsə, insanlar qidalarını birgə səylərlə əldə edirlər, onlar digərlərinin də izləməsi üçün yol açaraq kömək edilər, digərlərinin keçməsi üçün çaya körpü salırlar, başqalarının meyvəni yığması üçün ağaca çıxıb silkələyirlər, başqasının uşağını qucağında daşıyırlar və s. Digər növlərdə qrup daxilində üstünlük hakimiyyətə və fiziki gücə əsaslanırsa, insanlarda hakimiyyət daha az rola malikdir. Çünki insanlar elə bir əməkdaşlıq gücü tətbiq edirlər ki, heç bir fərd çox güclü olmasın. [7] Kiçik miqyaslı insan cəmiyyətlərində liderlər öz güclərini birbaşa mənbələrə hakim olmaqla deyil, əksinə həm mənbələri idarə etmək qabiliyyətlərini, həm də bu resursları səxavətlə digərləri ilə paylayaraq həmkarlıq meyllərini nümayiş etdirərək əldə edirlər və qoruyub saxlayırlar. [9]

Bütün hallarda görünən odur ki, insanlar başqa növlərdə rast gəlinməyən şəkildə - qan verməkdən, xeyriyyəçilikdən tutmuş öz birliyinə görə müharibəyə getməyə qədər - digərlərinə görə özlərini qurban verirlər. “İnsan məna axtarışında” kitabının müəllifi psixoloq Viktor Frankl bunu

insan həyatının mahiyyəti kimi şərh edir. Çünki insan öz fəaliyyəti ilə ətrafını dəyişdirən zaman özünü yararlı, həyatını isə mənalı hiss edir. "Axı insanın mahiyyəti onun dünyaya açıqolması ilə xarakterizə olunur. İnsan olmaq özündən kənara çıxmaqdır. Mən deyərdim ki, insanın mövcudluğunun mahiyyəti onun öz sərhədlərini aşmasındandır. İnsan olmaq - hər zaman kiməsə və ya nəyəsə istiqamətlənmək, özünü sevdiyi insana, işə və ya xidmət etdiyi tanrıya həsr etməkdir. Əgər o bu xüsusiyyəti yaşamırsa insanın mövcudluğu öz dayanıqlılığını itirir və o yıxılır." [4, s.26-41]

İnsan birliklərini fərqli edən ən önəmli xüsusiyyət onların normativ strukturudur. İnsanlar başqalarının nə edəcəyinə dair statistik gözləntilərlə yanaşı, başqaların nə etməli olduqları ilə bağlı normativ gözləntilərə də sahibdirlər. Müxtəlif cəmiyyətlərdə müəyyən şəraitdə fərdin necə hərəkət etməyinə dair sosial normalar formalaşır. Sosial normaların son nəticəsi mövcudluğu bütün qrup üzvlərinin işlərin müəyyən bir şəkildə edilməli olduğuna dair kollektiv razılaşması ilə qurulan sosial institutların yaradılmasıdır. Bu institutlat həm ortaq hədəflər, həm də sosial rollar yaradır. Sosial rolları və normaları özünün və digərlərinin təhlükəsizliyi üçün yaradılmış əməkdaşlığın ən yüksək pilləsi hesab etmək olar.

Bütün bu proseslər nəticəsində, təxəyyülün gücü vasitəsilə insanların bir-birini anlamasını təmin edən ortaq norma və dəyərlərin yaranması nəticəsində cəmiyyətlər və müxtəlif birliklər formalaşır. İnsanın cəmiyyətdə, müəyyən birlikdə yaşayaraq, həmin normaları qəbul edərək fəaliyyəti onun həyatını daha mənalı və stabil edir. Cəmiyyət – özünün gərəkli bir forma olduğunu sübuta yetirmiş və bu sübutu ilə insanlığı şəksiz-şübhəsiz özünə tabe edən bir qurumdur. Eyni zamanda bu qurumun mahiyyəti amansız, hətta fərd üçün bədbəxtlik gətirəcək qanunlardan ibarət olsa da, ən çox zərər çəkmişlər belə onu dağıtmağa, yaxud müəyyən bir dəyişiklik etməyə qadir deyildirlər.

Cəmiyyətin dayanıqlılığını təmin edən mühüm səbəblər var. Bunlardan biri odur ki, insan öz həyatının müvəqqətiliyini anlayandan sonra bununla barışmaq istəmir, bu həqiqəti unutmaq üçün müxtəlif yollara əl atır. "İnsanın öz simvolik dünyasında etdiyi hər şey onun qəribə taleyini inkar etmək və ona üstün gəlmək cəhdləridir. O sanki özünü sosial oyunlarla, psixoloji fəndlərlə və şəxsi maraqları ilə özünüunutqanlıq həddinə çatdırır [6, s.26-27] Cəmiyyət ona görə elə bir qüvvədir ki, təbiət kimi o da bizim hər birimizə qədər mövcud olub və bizim hər birimiz bu dünyanı tərk edəndən sonra da mövcud olacaq. "Cəmiyyətdə yaşamaq" – qəbul edilən dəyərləri bölüşməyə və hörmət etməyə razılıq verməkdir – bu xoşbəxt yaşamağın yeganə reseptidir (əbədi olmasa da). Adətlər, vərdişlər, rutin həyatın sonluluğundan yaranan əzablardan absurdluq zəhərini aradan qaldırır. Bekker deyir ki, cəmiyyət insan həyatının əhəmiyyəti barədə canlı mifdir, cəsarətlə məna yaradılmasıdır. [45, s.34] İnsan da öz ölərliyini unutmaq üçün hətta sorğu-sual etmədən dəyərlərə tabe olmağa hazırdır. Çünki ölümlü həyat çərçivəsində də ölümsüzlük yaşamaq olar. Bu insanın öz həyatını ümumi qəbul edilmiş fikrə əsasən, əbədi dəyərlərlə zəngin olan formalara uyğun təşkil edərək və ya ümumi fikrə əsasən sonsuzluq verilmiş şeylərlə təmas quraraq və ya ünsiyyətdə olaraq mümkündür. Bütün cəmiyyətlər mənalar fabriki rolunu oynayırlar. Bundan əlavə onlar mənalı bir həyat üçün himayədar kimi də xidmət edirlər. Bu cür himayədarların rolu əvəzedilməzdir. "Aristotelin qeyd etdiyi kimi, polisdən (şəhərdən) kənarda hər hansı canlı, yalnız bir mələk və ya bir heyvan ola bilər. Təəccüblü deyil ki, birincisi ölümsüzdür, ikincisi isə öz ölümlülüyündən xəbərsizdir".[2, s.34]

Bu mənada cəmiyyət insanlara mənəvi və psixoloji təhlükəsizlik bəxş edir, amma eyni zamanda onu yadlaşdırır. İctimai müqavilə nəzəriyyəsinin müəllifləri (T.Hobbs, J.J.Russo, C.Lokk, K.Helvetsi) yadlaşma prosesini şəxsin mütləq azadlığını və hüquqlarını dövlətə təhvil vermə kimi izah edirdilər. Yadlaşmanın səbəbi odur ki, cəmiyyətdə yaranan sosial institutlar (əxlaq, din, hüquq,

incəsənət) müxtəlif şəxslərin maraqlarına xidmət edir və buna görə də insanın individuallığının sıxışdırılması üçün bir vasitədir. Amma bunun sayəsində o həyatı üçün qorxulardan xilas olmuş olur.

Neofreydistlər də məhz cəmiyyəti yadlaşmanın əsas mənbəyi kimi görürlər. Hesab edirlər ki, insanda nevroz hələ uşaq vaxtı ona düşmən olan dünya ilə qarşılaşma zamanı yaranır və sevgi, diqqət çatışmazlığı nəticəsində daha da güclənir. Daha sonra belə bir səbəb kimi müasir cəmiyyətin fərdlərdə təklik, digərlərindən təcrid olunma, yadlaşma formalaşdıran sosial strukturu ilə harmoniya təşkil edə bilməmələrini göstərirlər. O, şəxsiyyətin inkişafının əsas tendensiyalarına və onun dəyərlərinin, praktiki ideallarının dəyişilməsinə əks qüvvə kimi qəbul edilir. Bəşəriyyətin bildiyi sosial quruluşlardan heç biri şəxsi potensialın inkişafına yönəlməmişdir. Əksinə, müxtəlif dövrlərin cəmiyyətləri insana təzyiq göstərir, onu dəyişdirir, ən yaxşı əlamətlərinin inkişafına imkan vermirdi.

Z.Freyd insan azadlığına aid buna oxşar fikirləri "Mədəniyyətdən narazılıq" əsərində belə ifadə edərək yazırdı ki: "Sivil insan xoşbəxt olma şansının bir hissəsini təhlükəsizliyin müəyyən elementlərinə dəyişdi". [2, s.57] Freyd qeyd edirdi ki, xoşbəxtlik daha çox basdırılan, əzilən ehtiyacların ödənilməsindən yaranır. Beləliklə, xoşbəxtlik azadlıq deməkdir: bir impuls əsasında hərəkət etmək azadlığı, öz instiklərinin və istəklərinin ardınca getmək azadlığı. "Təhlükəsizlik elementləri" axtarışında insan bu növ azadlığını qurban verir və ya ən azı məhdudlaşdırır. Təhlükəsizlik o zaman təmin olunur ki, nəzarət olunmayan, səliqəsiz arzular yığını nizam-intizam ilə - " müəyyən şəraitdə qeyri-müəyyənliyin qarşısını almaq üçün harada, nə zaman , nəyin edilməli olduğu müəyyən edən məcburiyyət növü ilə" əvəz olunur. Qeyri-müəyyənlik elə də xoş olan ruhi vəziyyət deyil, buna görə də nizam-intizamın qurulması müəyyən faydalar da gətirir. İnsan üçün isə hər iki dəyər arzuolunandır, buna görə də hər mübadilə prosesində faydalar itkilərlə müşayiət olunur. Təhlükələrlə birlikdə olan azadlıq, azadlığı olmayan təhlükəsizlik qədər uğursuzluq yarada bilər. Onların arasında uzlaşma da müəyyən qaçılmaz qurbanlara səbəb olduğu üçün xoşbəxtliyə zəmanət vermir. İnsanlar həm azadlığa, həm də təhlükəsizliyə ehtiyac duyurlar, buna görə də onlardan hər hansının qurban verilməsi onlara əzab verir. Amma qurbanlar qaçılmazdır və nəticə olaraq xoşbəxtlik uğursuzluğa məhkumdur.

Cəmiyyətin normayaradıcı xüsusiyyətinin də insanın indivduallığını, təbiiliyini məhdudlaşdırdığı haqda fikirlər də mövcuddur. Məlumdur ki, müxtəlif birliklər mənəviyyat və əxlaq məsələsində müxtəlif özünəməxsus qaydalar qoyurlar. Bu cəhətdən hər hansı birliyin çox rastlaşdığımız humanist qaydalar, məsələn xeyirxah olmaq, darda olana yardım etmək kimi qaydalar qoyması, əlbəttə ki, təqdirəlayiqdir. Amma bu müəyyənlik, qaydalar əsasında nəyin xeyirxah olub olmamasını öyrənmək bunu daxilən özümüzün müəyyənləşdirməyimizi və təbiiliyimizi əlmizdən alır, bir növ məsuliyyətsizlik yaradır, çünki "Əgər hər dəfə necə davranmalı olduğumuz bizə dəqiq çatdırılsaydı, o zaman "müdriklik, həssaslıq və sevgi ilə etməli olduğumuz hərəkətlər bizim özümüzünki olmazdı". [2, s.130] J.J.Russo yazırdı ki, romalılar əvvəl sadəcə xeyirxah rəftar etməklə kifayətlənirdilər, hər şey o vaxt dağıldı ki, onlar xeyirxah olmağı öyrənməyə başladılar. [3, s.34] İncəsənət bizim davranışlarımızı cilalayana və bizim ehtiraslarımıza hazır dillə danışmağı öyrədənə qədər bizim hərəkətlərimiz sadə və kobud olsa da, təbii idi və ilk baxışda davranışlardakı fərqlər xarakterdəki fərqlərdən xəbər verirdi. İnsan təbiəti öz mahiyyəti etbarilə ən yaxşısı deyildi, amma insanlar təhlükəsizliklərini biri-birini anladıqları sadəlikdə görürdülər və bizim dəyərlərini artıq hiss etmədiyimiz bu üstünlük onları bir çox xətalardan qoruyurdu. Günümüzdə hiyləgərlik və incə zövq müəyyən prinsiplər əsasında xoşagəlmək incəsənətini üzə çıxartdığı bir vaxda bizim davranışlarımızda aldadıcı eynilik hökm sürür: nəzakətlilik durmadan nəyisə tələb edir, xeyirxahlıq əmr edir, biz sonsuz olaraq ağlımızın deyil,

adətlərin ardınca gedirik. İnsanlar artıq olduqları kimi görünməyə cəsarət etmirlər, davamlı məcburiyyət qarşısında bu cəmiyyət adlanan insanlar daha böyük səbəblər onları bundan çəkindirməyənə qədər eyni şeyi edəcəklər. Heç vaxt bilmirsən kim necədir, öz dostunu tanımaq üçün hansısa böyük hadisələri gözləmək lazım gəlir, halbuki elə bu hadisələr üçün bilməliydin ki, sənin dostun kimdir. Artıq nə səmimi dostluq, nə həqiqi hörmət, nə də əsaslı inam yoxdur. Nəzakətliliyin və xeyirxahlığın pərdəsi altında daima şübhələr, inamsızlıq, qorxular, soyuqluq, nifrət gizlənir.[3, s.28-29]

Asif ata yazırdı ki, insan təklikdən xilas olmaq, öz gücünü artırmaq üçün kiminsə əlindən tutmalı, kiməsə həmdəm olmalı və başqaları ilə yaşamağa can atmalı idi. O hesab edirdi ki, cəmiyyətdə birlikdə olandan onlar daha qüdrətli olacaqlar. Doğrudur, insanlar birləşib hamılıqla təbiət üzərində qələbə çaldılar, dünyaya sahib oldular. Amma cəmiyyət insan təbiətinə dağıdıcı münasibət göstərdi və Asif atanın da yazdığı kimi "insan özünü cəmiyyətdə tapmadı, itirdi və indi də itirmiş sayır".[1, s.37] Cəmiyyətin fəaliyyət göstərməsi üçün qurulmuş olan qaydalar, normalar artıq insanın özünə qarşı çevrilmişdi və insan artıq bu qaydaların xidmətçisinə çevrilmişdi. İnsan cəmiyyətdə insan kimi görünmürdü, öz fəaliyyətinin kölgəsinə döndü, o əkinçi oldu, ovçu oldu, ancaq insan olmadı. Əsl, bütöv insan cəmiyyətdən xaric edildiyi üçün artıq insana insan deyə müraciət etmirdilər. Beləliklə də, cəmiyyət yaradan insan cəmiyyətdə məhv olmuşdu. Çünki cəmiyyətdə insan yox, alət lazım idi, onun daxili aləmindən cəmiyyətin xəbəri yox idi. Çünki o, cəmiyyətə gərəkli deyildi, cəmiyyətə insanın arzuları, niyyətləri gərəksiz idi. Çünki cəmiyyətdə insan özü istədiyi kimi yaşamalı deyildi, ondan tələb olunduğu kimi yaşamalı idi.

İnsanın insana yadlaşmasının nəticəsi idi ki, cəmiyyət də onları biri-birindən ayıran siniflərə, silklərə bölünmüşdü. Bu, insanlar arasında doğmalığı öldürmüşdü, varlı – yoxsulu, səlahiyyətli - əməkçini, hökmdar – rəiyyəti insan saymırdı. İnsan insan axtararakən, cəmiyyət ona rəis-icraçı, varlı-yoxsul təqdim etdi. Vəziyyətin qəribəliyi bunda idi ki, insan yalqızlığından, yadlığından xilas olmaq üçün qurduğu cəmiyyətdə misilsiz yalqızlıq, yadlıq əldə etdi. İnsanın öz insaniliyini təsdiq etmək üçün yaratdığı cəmiyyətdə o öz insaniliyini itirirdi. İnsan cəmiyyətdə heç vaxt özü ola bilmədi, daxili dünyasını qıfıllamalı oldu. Cəmiyyətdə insanın yalnız cəmiyyət tərəfindən qəbul olunan, təqdir edilən fəaliyyəti gərək idi. İnsanın özünəməxsusluğu, fərdiyyəti heç kəsə və heç nəyə lazım olmurdu. İnsana bəzən elə gəlirdi ki, o daxili dünyasının haradasa itirib. Daxili böyüklük, əsillik, ləyaqət nəzərə alınmırdı. Ona görə də cəmiyyətə daxil olmaq özünü tərk etmək idi. Özünü tərk edərək insan məcmuya – sürüyə çevrilirdi. Onun özünəməxsusluğu itirdi, o, çox asanlıqla hamılaşırdı.

"Beləliklə də, insan sonsuz yanlışlıqlar içərisində itib-batdı, cəmiyyətə pərçimləndi, cəmiyyət adamına döndü. Ancaq daxilində yaşayan ruh onu özü haqqında gərgin düşünməyə vadar etdi. Necə olur ki, sən özünlə, dostunla, sevgilinlə olanda bir adam olursan, cəmiyyətdə isə başqa adam? Niyə sən öz kiçik aləmində düşünən, daşınan, canlı, fəal şəxs, cəmiyyətdə isə məzlum, cansız əşya olursan? Niyə sən burada həqiqətə, orada isə yalana pənah gətirirsən? Niyə sən öz ruhani aləmində şairanə xilqət, cəmiyyətdə isə itaətkar alət olursan? Dünyanın, təbiətin hissəsi olduğunu niyə unutmusan, öz yaşayışını niyə cəmiyyətlə məhdudlaşdırırsan?" [1, s.38-40]

Belə görünür ki, cəmiyyətin qayda-qanunları, vahidlik insanı özündən uzaqlaşdıra bilər, hərçənd bu tamam əksinə olan məqsədlər üçün yaradılmışdı. Zaman-zaman insanlar birləşib sosial inqilablar edərək köhnəlmiş, onu sıxan normaları və qaydaları dəyişdirməyə, cəmiyyəti daha şəffaf, hər kəs üçün yaşanıla biləcək bir yer etməyə müvəffəq olmuşlar. Bu günün tələbi isə daha çox iqtisadi sahədə dəyişiklik edilməli olduğu görünür. Daha dəqiq desək, sənaye cəmiyyətinin, pul

fetişizminin insana yadlaşdırıcı təsir göstərməsi bir çox elmi ƏDƏBİYYATların mövzusu olmağı bunu deməyə əsas verir.

ƏDƏBİYYAT

1. Asif ata. On qutsal bitik. Mütləqə inam. Bakı: Qanun, 2010, 325 s.
2. Бауман З. Индивидуализированное общество. М.: Логос, 2005, 390 с.
3. Руссо Ж.Ж. Об общественном договоре. Трактаты. - Москва: Канон-пресс-ц кучково поле, - 1998, 413 с.
4. Франкл.В. Человек в поисках смысла. - Москва: Прогресс, - 1990 , 372 с.
5. Харари Ю.Н. Sapiens. Краткая история человечества. - Москва: Синдбад, - 2016, 517 с.
6. Becker E. The Denial of Death, - New York: The Free Press, - 1997, 336 p.
7. Boehm C. 1999. Hierarchy in the Forest: The Evolution of Egalitarian Behavior. Cambridge, MA: Harvard Univ. Press
8. Boyd R. & Richerson P. Culture and the evolution of human cooperation. // Philosophical Transactions of the Royal Society. 2009.
9. Mauss M. Forms and Functions of Exchange in Archaic Societies. New York: Routledge&Keegan Paul. 1954.
10. Tomasello M. & Vaish A. Origins of human cooperation and morality // Annual Review of Psychology. 2013. 64: 231-55

РЕЗЮМЕ
ОТ СОТРУДНИЧЕСТВА К ОТЧУЖДЕНИЮ

Якубова Н. Ш.

В статье рассматриваются особенности сотрудничества людей. Отмечается, что благодаря сотрудничеству люди смогли жить вместе, создать различные группы и общества. Хотя постепенно сформировавшиеся различные нормы и правила общества дали им чувство безопасности, со временем возникли идеи, что эти нормы ограничивают их свободу. По мере усложнения структуры общества общие нормы оказывали отчуждающее воздействие на человеческую природу. Но в разное время эти нормы можно было изменить с помощью социальных революций.

Ключевые слова: сотрудничество, общество, нормы, отчуждение, социальная революция

SUMMARY
FROM COOPERATONI TO ALIENATION

Yagubova N. S.

The article discusses the characteristics of people's cooperation. It is noted that thanks to cooperation, people were able to live together, build different groups and societies. Although the various norms and rules of society that gradually evolved gave them a sense of security, over time, ideas arose that these norms limited their freedom. As the structure of society became more complex, general norms had an alienating effect on human nature. But at different times it has been possible to change these norms through social revolutions.

Key words: cooperation, society, norms, alienation, social revolution

METAMODERNİZM: POSTMODERN FƏRDİN SOSİAL ADAPTASİYASI

Əliyev A.Y.
Bakı Dövlət Universiteti
Arazaliyev1606@gmail.com

Xülasə: Mədəniyyət tarixinin müxtəlif mərhələlərində fərdlə cəmiyyət arasındakı əlaqə, fərdin cəmiyyətdəki yerinin müəyyənləşdirilməsi aktual bir məsələdir. Premodernizm, Modernizm və Postmodernizm kimi mədəni mərhələlərdə bu məsələlər aktual olaraq qalmış və bu günə qədər inkişaf etmişdir. Akademik səviyyədə bu mədəniyyət mərhələlərini əvəzləyəcəyi təxmin edilən yeni bir mədəni dövr - Metamodernizm meydana gəldi. Metamodernizm Postmodernizm adlanan əvvəlki mədəniyyət mərhələsini tamamlayır. Digər mədəni dövrlərin yaratdığı problemlərdən qurtulmaq üçün arxa qapı rolunu oynayır.

Açar sözlər: metamodernizm, fərd, cəmiyyət, adaptasiya, sosiallaşma.

Mədəni tarixin müxtəlif mərhələlərində fərd və cəmiyyət arasındakı münasibətlər, fərdin cəmiyyətdəki yerinin müəyyən olunması aktual müzakirə predmetini təşkil edirdi. Premodernizm, modernizm və postmodernizm kimi mədəni dövləşmələrdə bu məsələlər öz aktuallığını qorumuş və bu günə qədər daha da inkişaf etmişdir. Müasir nəzəri istiqamətlərdə fərdin cəmiyyətə inteqrasiyası və sosiallaşmasının aktual problemləri içərisində fərd və cəmiyyət arasındakı mədəni dövrləşmələrdən qaynaqlanan fərqlilikləri nəzərdən keçirməyin önəmli olduğunu düşünürəm. Bu məsələni daha yaxşı izahını vermək üçün ilk öncə mədəni dövrləşmələrin fərd və cəmiyyət obrazlarına nəzər salmağımız vacibdir.

Premodern dövrün düşüncə tərzində fərdin hər hansı özünəməxsusluğu yoxdur və o, taleyi əvvəlcədən müəyyən olunmuş şəkildə cəmiyyətin bir parçasıdır. Cəmiyyətsiz fərd nəzərdən keçirilə bilməz. Modernizmdə fərd və cəmiyyət arasındakı münasibətlərin xarakterik cəhətləri kimi *elmə, inkişafa, obyektiv həqiqətin mövcudluğuna inanan, özünə inamlı* fərd obrazı nəzərdən keçirə bilərik. Bu mədəni dövr fərdin tədricən güclənməsi və cəmiyyət içərisində önəm qazanması, öz yerini müəyyən etməsi ilə səciyyələnir. Postmodernizmin xarakterik cəhətləri kimi *inkişafa inanmayan*, zəmanəmizdə aktual olan büyük ideyalara qarşı *şübhəli yanaşan, istisnalara, xırdalıqlara* və *periferiyalara yönələn*, elmin cəmiyyətdəki güc və etibarına qarşı *tənqidi yanaşan* fərd obrazını misal göstərmək olar. Artıq postmodern dövrdə fərdə nəzərən cəmiyyətin rolu olduqca kiçilməkdədir. Akademik miqyasda isə artıq postmodernizmi əvəzləyəcək olan, daha doğrusu əvəzləyəcəyi proqozlaşdırılan yeni mədəni dövrləşmə - *Metamodernizm* ortaya çıxmışdır.

Ortaq gəlinmiş nəticə ondan ibarətdir ki, Metamodernizm, özündən daha əvvəlki Postmodernizm adlanan mədəni mərhəlini tamamlayacaq. 2010-cu ildə öz məqalələrində holland əsilli filosof və kulturoloqlar **Timotheus Vermeulen** və **Robin van der Akker** incəsənət və memarlıqda müşahidə etdikləri yenilikləri əsaslandıraraq metamodernizm anlayışının izahını verdilər. Onlara görə, Metamodernizm ontoloji olaraq modern və postmodern arasında dalğalanmaqdadır. Təklik və çoxluq, empatiya və apatiya, saflıq və müdriklik, ümid və melanxoliya, modern həvəs, coşğu və postmodern ironiya, tamlıq və parçalanma, təmizlik və bulanıqlıq olmaqla modern və postmodern arasında dalğalanır.[7] Yaşadığımız dünyadan örnək verəcək olsaq, modernizm dönəminin insanı xəstəlikləri şər qüvvə, insanları xəstəlikdən xilas edən dərmanları, pereparatları isə elmi inkişafın nəticəsi, insanlığın xilaskarı kimi yanaşırdı. Modernist münasibətlər çərçivəsində hər şey müəyyən idi, vahid pis və vahid yaxşı obrazları, onların arasında seçim edən fərd mövcud idi. Lakin daha sonra postmodern düşüncə insanlığa saf səmimiyyətlə

inanmış olduğu elmi, tibbi kəşflərin, dərmanların əslində hansısa bir firmanın və ya qurumun istehsal və istehlak münasibətlərini təmin etmək məqsədi daşıdığını, baş verən epidemiyaların, yeni dərmanların sınağının bazarda tələbat yaradılmasının əsasında durduğunu izah etdi. Ağlımızdakı modernist gerçəkləri sorğuladı və məhv etdi, bütün əvvəlki mifləri dağıtdığı kimi, insanı yeni dövrün gerçəkləri ilə baş başa buraxdı, hər şeyi sorğulamağa və tənqidi yanaşmağa, şübhələnməyə vadar etdi. Mənasızlıq və görüntü arasında qalan fərdi çıxış yolundan məhrum etdi. Metamodernizm isə situasiyaya daha da postmodern mövqedən yanaşmağa çalışaraq insanlığa göstərdi ki, onsuzda yaşadığımız yer insan cəmiyyətidir, burdan kənarda yaşamaq kimi bir şansımız yoxdur. Lakin bu o demək deyil ki, baş verənləri olduğu kimi qəbullanmalıyıq, əksinə əslində nələrin baş verdiyini sorğulamalı, şübhə etməli, gözümüzdə yüksəklərə qalxan sabit normaları hissə-hissə analiz etməliyik, ironiya ilə yanaşmağı bacarmalıyıq. Bütün bunlarla yanaşı həm də eyni cəmiyyətdə yaşadığımızı unutmamalı, lazım olduğu anda səmimiyyət və ümid, gələcəyə inam, yaratmağa, inkişafa duyulan həvəs kimi amillərdən də faydalanmalıyıq. Bu postmodern və modern mədəni mühitə aid olan keyfiyyətlər arasında gedib-gəlmək metamodernizmin "***dalğalanma***" adı altında izah etmək istədiyi bir şeydir.

İnsan olaraq bizlər hər zaman məhdud çərçivəyə malik olmuş zaman və məkanla sərhədlənmiş canlılarıq. Düşüncələrimiz və ətraf aləm haqqındakı təəsüratlarımız da bu baxımdan nisbi xarakterə malikdir. Biz insan olaraq ümumi gerçəkliyi tam formada qavraya bilmərik. Ona görə ki, biz hər dəfə müəyyən məkan və zaman daxilində gerçəkliklə, obyektiv dünya ilə qarşılıqlı əlaqədə oluruq, hər dəfə onun ancaq müəyyən bir hissəsini anlamağa çalışırıq. Bu baxımdan metamodernistlərə görə, nisbi olan heç də postmodernistlərin dediyi kimi gerçəklik yox, bizim gerçəkliyə olan mövqeyimizdir. Elm adamları və fəlsəfəçilərin də bu məsələdə əsas vəzifəsi obyektiv dünya haqqındakı təməl həqiqət yox, həqiqəti ortaya çıxarmaq üçün gərəkli olan modelləri inkişaf etdirməkdir. [1]

Əgər Postmodernist düşüncəyə malik olan insan hər kəsdən fərqlənmək adına daha qəribə geyim və moda tərzindən istifadə edirdisə və bu hərəkəti özlüyündə cəmiyyətin ümumi düşüncəsinə ironiya ehtiva edirdisə, metamodernizmdə bu xarakterik deyil. Metamodernist fərd mümkün olduğu qədər neytral görünməyə çalışan fərddir. O, modanın yeniliklərini və trendləri *anlayır* və bunlardan yetəri qədər məlumatlıdır. Lakin yenə də cəmiyyət içərisində çox gözə batmamaq üçün mümkün olduğu qədər neytral xarakterə malik modanı izləyir. Bu baxımdan "normcore", "fərqliliyə hakim olmaq və eynilikdə ustalıq əldə etmək fəaliyyəti" kimi də nəzərdən keçirilə bilər. Məşhur şəxslərin adi paltarlarda cəmiyyət içərisinə çıxmasından, çoxluğun içərisində onların moda anlayışına uyğunlaşaraq neytrallaşmaq kimi amilləri burada misal kimi göstərə bilərik.[4] Ən başa düşülən formada sosial şəbəkə vasitəsilə bir insanın özünü ifadə formasını nəzərdən keçirə bilərik. Belə ki, insanın digər insanlar və onların fikirlərini heçə sayaraq cəsur pozlardan istifadə etməsi və intim görüntülərini paylaşması kimi elementlər daha çox postmodernizmin qeyd etdiyimiz utanmaz özünü ifadə forması ilə əlaqəlidir. Bunu həyata keçirən insan cəmiyyətə və digərlərinə meydan oxumuş olur. Lakin metamodernist koseptdə özün ifadə bir qədər fərqlidir. Metamodernizm də fərdin özü şəxsi hesab olunan həyatını təsvirə imkan verir(postmodernizmdə olduğu kimi), lakin bunun postmodernə xas anarxik və meydan oxuma formasında olmasını qəbul etmir.

Cəmiyyət olaraq yaratdığımız sistemlər, əgər güvənilir insanlardan təşkil olunmuşdursa, bu bizim üçün yeni baxış bucaqları mənasına gəlir. Çünki, düşüncəsinə və biliyinə güvənə biləcəyimiz insanlar fərqli məkanlarda və fərqli zamanlarda olsalar belə, bizim seyr edə bilmədiyimiz, yanaşmadığımız formalarda obyektiv dünyaya yanaşmağa qadirdir. Bu özlüyündə bizim daha çox müşahidə mövqeyi əldə etməyimizə və təbii olaraq da gerçəklik haqqında daha çox bilik əldə

etməyimizə imkan yaradır. Müşahidə mövqelərinin əksliyi yaxud da fərqliliyi, mürəkkəbliyi metamodernist düşüncə üçün ziddiyyət obrazı yaratmır, əksinə metamodernizm insanların qarşılıqlı əməkdaşlığını və birgə fəaliyyətini gerçək biliyin əsası hesab edir. Təbii ki, burada "müşahidə olunan" gerçəklik, sadəcə obyektiv dünya deyil, insanın özündən, obyektiv aləmə qədər biliyin əsası olan hər şeydir.[1] Cəmiyyət daxilində var olan fərdlər kimi səhər evdən çıxdığımızda qarşımızdan keçən sürücülərə, o maşınları istehsal edən firmalara, evimizə dönməyimizə köməklik göstərən metro maşinistinə güvənməyəcəyimiz təqdirdə nələr ola biləcəyini təsəvvür etmək çətindir. Bu baxımdan biz sadəcə olaraq özümüz olan "fərd" deyilik. Bizlər "fərd"- dən daha artıq olan varlıqlarıq. Çünki, fərd cəmiyyət daxilində istər bir-birinə, istərsə də cəmiyyətin sferalarına hərtərəfli formada bağlıdır. Ona görə də, əgər cəmiyyətimizdə bir insan deviant davranış formasına malikdirsə, bu onun fərdi problemi deyil, onunla istəsək də, istəməsək də eyni cəmiyyətdə yaşadığmız üçün, aramızda qarşılıqlı təsirlə şərtlənən sosial bağlar olduğu üçün hamımızın, bütün cəmiyyətin problemidir. Bu cür fərddən kənar baxış forması, daha doğrusu cəmiyyətin "fərd" və "kollektiv" olaraq ikiyə ayrılaraq ziddiyyətdə götürülməsinə qarşı münasibət özlüyündə metamodernist cəmiyyət formasının əsas elementlərindən hesab edilə bilər.[2] Ümumi olaraq Metamodernizm haqqında danışmalı olsaq, qeyd etməliyik ki, modernist ehkamların və sabitlərin postmodernist sorğulanması və tənqidi cəmiyyətin istər mədəni, istərsə də sosial sferalarında dərin izlər buraxmışdı. Hər şeyin ironiyaya məruz qaldığı, dəyərlərin parçalandığı, saf ümidlərin və səmimiyyətin itirildiyi bir mədəni dönəm formalaşmış oldu. Bütün bunların fonunda isə yeni çıxış yollarının göstərilməməsi, mənaya duyulan ehtiyac(*a yearning for meaning*)[6] Metamodernizmi problemlərdən xilas olmaq üçün arxa qapı rolunda da olsa ortaya çıxardı.[3] Mən isə Metamodernizmin mövcudluğunu və xüsusilə də onun formalaşmasının gətirdiyi dəyişiklikliyi sadə fərdlərin timsalımızda insanlığın ikinci şansı adlandırıram. Bu fikirlərin əsaslılığını Metamodernizmin manifestinin son hissəsində daha aydın görmək mümkündür: "*Biz ideoloji zəncirlərdən azad praqmatik romantizm təklif edirik. Beləliklə, metamodernizm ironiya və səmimilik, nikbinlik və şübhə arasında və onlardan üstün olan, plüralist parçalara ayrılmış və əlçatmaz üfüqlərə doğru gedən narahat civə damcısıdır. Biz irəli gedib, dalğalanma (fizikadakı rəqsi hərəkət) etməliyik!*".[5]

ƏDƏBİYYAT

1. Fisher D. Metamodernizm postmodernizmin karşılığı mı? Conatus News, (tr. Müleyke Barutçu), 22 noyabr 2017.
2. Freinacht H. *Birey fikrinin ötesine geçmek/ Metamoderna, (tr. Beste Naz Yıldız), 7 sentyabr 2017.* https://dusunbil.com/birey-fikrinin-otesine-gecmek/ https://dusunbil.com/metamodernizm-postmodernizmin-karsiligi-mi/
3. *Levin, Kim. "Postmodernizm öldü mü?", Artnews, 12 dekabr 2012.* http://www.sanatatak.com/view/postmodernizm-oldu-mu
4. "Normcore", 31 july 2014. http://whatismetamodern.com/design-style-products/normcore-metamodernism/
5. Səmədov B. Metamodernizm nədir? Şübhə və nikbinlik arasında qalmış insanlıq, 04 may 2015.
6. Turner, Luke. "Metamodernism: A Brief introduction", 12 January 2015. http://www.metamodernism.com/2015/01/12/metamodernism-a-brief-introduction/
7. Vermeulen, T. van der Akker, R., 2010. "Notes on Metamodernism", Journal of Aesthetics and Culture, Volume II.

РЕЗЮМЕ
МЕТАМОДЕРНИЗМ: СОЦИАЛЬНАЯ АДАПТАЦИЯ ПОСТМОДЕРНИСТСКОЙ ИНДИВИДА
Алиев А. Ю.

На разных этапах истории культуры вопрос взаимоотношений индивида и общества, определение места индивида в обществе является актуальным. На культурных этапах, таких как премодернизм, модернизм и постмодернизм, эти вопросы остаются актуальными и развиваются по сей день. На академическом уровне возникла новая культурная эпоха - метамодернизм, который, как уже предсказано, заменит эти культурные этапы. Метамодернизм завершает более ранний культурный этап, называемый постмодернизмом. Он действует как черный ход, позволяющий избавиться от проблем, созданных другими культурными периодами.
Ключевые слова: метамодернизм, индивид, общество, адаптация, социализация

SUMMARY
METAMODERNISM: THE SOCIAL ADAPTATION OF THE POSTMODERN INDIVID
Aliyev A. Y.

At different stages of cultural history, the relationship between the individual and society, the determination of the individual place in society is a topical issue. In cultural stages such as Premodernism, Modernism and Postmodernism, these issues have remained relevant and have developed to this day. At the academic level, a new cultural epoch - Metamodernism has emerged which is already predicted to replace these cultural stages. Metamodernism completes earlier cultural stage, called Postmodernism. It acts as a back door to. get rid of the problems created by other cultural periods.
Key words*:* metamodernism, individ, society, adaptation, socialization

ŞAGİRD FƏALİYYƏTİNİN SOSİALLAŞMASINDA STİMULLAŞDIRMANIN ROLU

Əliyeva S.Q.
Bakı, K.A.Kərimov adına tam orta məktəb
alievasevinc_1976@hotmail.com

Xülasə: Pedaqoji prosesdə şəxsiyyətin hərtərəfli inkişafı və sosaillaşması üçün aşağıdakı stimullaşdırıcı məqamları nəzərə almaq lazımdır:təhsildə idrak prosesləri ilə bərabər, şagirdlərin emosional sferasının inkişaf etdirilməsi; çətin, mürəkkəb situasiyalarda şagirdlərdə dözümlülük, rüh yüksəkliyi, özlərində inam hissləri yaratmalı; şagirdlərdə özünəhörmət, özünəmünasibət, özünə nəzarət, özünmütəkmilləşdirmə keyfiyyətləri formalaşdırmalı; şagirdlərdə həyata nikbin baxışlar, insanlara pozitiv münasibət formalaşdırmalı; şagirdlrdə müstəqillik hissinin inkişaf etdirilməsi, özünə inam yaradılmalı; özünügerçəkləşdirmə, özünütəsdiq motivinin yaradılması.
***Açar sözlər*:** məqsədyönlü inkişaf, maddi və psixoloji vəziyyət, ailədə tərbiyə, sosiallaşma, stimullaşdırma.

Pedaqoji proses şəsxiyyətin formalaşmasına hərtərəfli təsir göstərdiyi kimi onun sosiallaşmasına da qüvvətli təsir göstərir. Bu prosesdə şəxsiyyətin inkişafının ayrı- ayrı aspektləri – pedaqoji, psixoloji, fizioloji, intellektual və sosial inkişafı kompleks şəkildə, bir sistem halında formalaşır və inkişaf edir. Bu prosesin özünə də kompleks yanaılmalı və bir sistem şəklində təsir göstərilməlidir. Görkəmli pedaqoq A.S. Makarenko göstərirdi ki, insan hissə- hissə böyümür. Onun bir gün əlı, ikinci gün ayağı, sonra başı böyümür. O bir sistem halında böyüdüyündən ona verilən tərbiyə və təhsil də sistemli və kompleks olmalıdır.

Bu cəhətdən pedaqogikada təhsilin mühüm prinsipi kimi təsbit olunan şəxsiyyətyönümlü təhsil və onun məqsədi şəxsiyyətin hərtərəfli inkişafına nail olmaqdır. Belə şəxs mənəvi cəhətdn zəngin, əxlaqca saf, fiziki cəhətdən kamil olmaqla, bütün sosial keyfiyyətləri özündə birləşdirir. Bu prosesdə şəxsiyyətin məqsədyönlü inkişafı, sosial mədəni normaları özündə ehtiva edən, sosial əhəmiyyətli davranış normalarına yiyələnməsi üçün düzgün pedaqoji, psixoloji zəruri şərait yaradımalıdır. Buna görə də pedaqoji prosesdə təlim və tərbiyənin məqsədini xarakterizə edən amillərdən biri şagird fəaliyyətinin stimullaşdırılması və təlimə müsbət motivasiya yaradılmasıdır. Şagirdlərə daim diqqət və həssaslıqla yanaşmaq, hər an onların fəaliyyətini həvəsləndirmək, gücünə qüvvəsinə inam göstərmək, hər bir işdə fəal mövqe tutmalarına stimul yaratmaq, təlimə düzgün və müsbət motivasiya yarartmaq şagirdin hərtərəfli inkişafına sosaillaşamasına müsbət təsir göstərdiyi kimi, məktəbdə də təhsilin keyfiyyətinin yüksəlməsinə səbəb olacaqdır.

Pedaqoji prosesdə şəxsiyyətin hərtərəfli inkişafı və sosaillaşması üçün aşağıdakı stimullaşdırıcı məqamları nəzərə almaq lazımdır:təhsildə idrak prosesləri ilə bərabər, şagirdlərin emosional sferasının inkişaf etdirilməsi; çətin, mürəkkəb situasiyalarda şagirdlərdə dözümlülük, rüh yüksəkliyi, özlərində inam hissləri yaratmalı; şagirdlərdə özünəhörmət, özünəmünasibət, özünə nəzarət, özünmütəkmilləşdirmə keyfiyyətləri formalaşdırmalı; şagirdlərdə həyata nikbin baxışlar, insanlara pozitiv münasibət formalaşdırmalı; şagirdlrdə müstəqillik hissinin inkişaf etdirilməsi, özünə inam yaradılmalı; özünügerçəkləşdirmə, özünütəsdiq motivinin yaradılması.

Bu göstərilən fikirlər şagirdlərın fəaliyyətini stimullaşdıran, təlimə düzgün motivasiya formalaşdıran mühüm pedaqoji, psixoloji amillərdir.

Bunu da qeyd edək ki, ətrafda, həyatda, ailədə baş verən neqativ hadisələr şagirdin psixoloji vəziyyətinə qüvvətli təsir edir və bu da pedaqoji prosesə öz təsirini göstərir. Ailə vəziyyəti, ailə problemləri, ailənin maddi durumu, sinifdə şagirdlərin davranış və ünsiyyəti, xoş olmayan vəziyyət və hadısələr şagiridin psixoloji vəziyyətinə, təlim fəaliyyətinə təsir göstərir. Məktəblinin vaxtında və lazımınca qidalanmaması, mövsümə uyğun geyimlərlə, lazım olan məktəb ləvazimatı ilə, təlim üçün yararlı müasir texniki avadanlıqla təmin olunmaması da onun təlim nailiyyətlərinə, idrak fəaliyyətinə öz mənfi təsirini göstərəcəkdir. Bütün bunlar və buna bənzər hallarla pedaqoji prosesdə, uşaq fəaliyyətinin müxtəlif sahələrində rastlaşmaq olar. Əlbəttə, səriştəli, peşəkar müəllim və pedaqoqlar bunları anında hiss etməli, duymalı və öz yetişdirmələrinə bir valideyn kimi qayğı və həssaslıqla yanaşmalı, onlarda ruh yüksəlkliyi yaratmalı, müvafiq stimullaşdırıcı tədbirlər görməli, lazım olan maddi və mənəvi dəstəyi göstərərək onların məqbul sosial fəaliyyətini təmin etməlidirlər. Bu insani davranışlar, göstərilən qayğı və humanist tədbirlər şagirdlərin özlərinin də qayğıkeş, humanist, mənəvi keyfiyyətlərə sahib, sosial şəxsiyyət kimi formalaşmalarına təsir edəcəkdir. Sosiallaşma nəticəsində fərd özünün daxil olduğu sosial qrupda olan davranış normalarını, ünsiyyət mədəniyətini, insanlarla düzgün münasibət və rəftarı mənimsəyir. Şəxsiyyətin sosiallaşmasında şəxsi nümunələr, normal həyat tərzi, normal məişət, xoş ailə münasibətləri, yaxşı yoldaşlar, bilikli, qayğıkeş və həssas müəllimlər, onu əhatə edən insanların ona qayğısı və s. müsbət stimullaşdırıcı rol oynayır.

Şagirdlərin ümumi maraq və meyllərinin nəzərə alınması və buna müvafiq stumullaşdırıcı təsirin görülməsi onların təlimə müsbət motivasiyasında vacib və əhəmiyyətli amillərdəndir. Buna görə də müəllim hər bir şagirdi tədqiqat obyektinə çevirməli və onların maraqlarını, dərsdən sonrakı fəaliyyətini, asudə vaxtının təşklini öyrənməlidir. Bunu nəzərə alan müəllim onları təlim prosesində bir qrup ətrafında birləşdirməli və maraqların inkişafına yol açmağı bacarmalıdır.Şagirdlərin maraqlarının düzgün təşkili onların təliminə daha çox stimul verir və yeni axtarışlara, idrak fəallığına sövq edir. Sosial- psixoloji mühitin yaradılması elə bir yanaşmaya əsaslanmalıdır ki, bu zaman pedaqoji prosesə əsas olan idaretmə elementləri şagirdin maraqlarının və şəxsiyyətinin xüsusiyyətlərinin nəzərə alınması ilə uyğunlaşdırılsın.

Pedaqoji proses, məktəblilərin təlim fəaliyyəti bilavasitə ünsiyyət vasitəsilə həyata keçirilir. Ünsiyyətdə pedaqoji- psixoloji yanaşmanın səciyyəvi cəhəti ondan ibarətdir ki, burada diqqət başlıca olaraq ünsiyyətin strukturunun təhlilinə, şəxsiyyətlərarası və qruplararası münasibətdə, eləcə də idrak və ünsiyyət prosesində özünüdərkin formalaşma dinamikasına, stimullaşdırıcı münasibətlərə, xoş münasibətlərə yönəlsin. "Pedaqoji ünsiyyət- müəllimlərin şagirdlərlə dərsdə və dərsdənkənar müəyyən pedaqoji funksiyaların yerinə yetirilməsinə, əlverişli psixoloji iqlimin yaradılmasına, təlim fəaliyyətinin, müəllim - şagird münasibətlərin optimallaşmasına, bütövlükdə təhsil alanların sosiallaşmasına yönələn peşəkar ünsiyyətdir"[1.96]. Çünki pedaqoji prosesin məzmunlu, maraqlı, məqsədyönlü, səmərəli, konstruktiv, stimullaşdırıcı və müsbət motivasiyaedici olması pedaqoji ünsiyyətin düzgün qurulmasından çox asılıdır. Səriştəli və peşəkar pedaqoji ünsiyyət müəllim və şagirdlərin sosial- psixoloji qarşılıqlı əlaqəsidir ki, onun da məzmununu informasiya mübadiləsi, tərbiyəvi təsirin göstərilməsi, kommunikativ vasitələrin köməyi ilə qarşılıqlı münasibətin və stumullaşdırıcı münasibətin təşkilidir.

Bəzən uşaqlar müəyyən yaş dövrlərində valideynləri ilə öz problemlərini paylaşa bilmir, qarşı tərəfdən etinasızlıq, ya da aqressivlik gördükləri üçün əməkdaşlıq etmirlər, bu da bəzi hallarda sinifdə də digər uşaqlarla münaqişələrə gətirib çıxara bilir. Belə hallarda müəllim şagirdlərə qarşı daha diqqətli və həssas davranmağı bacarmalıdır, onların problemlərini həll etmək üçün çıxış yolu axtarmalı və şagirdlərin diqqətini təlim- tərbiyə prosesinə, həvəsləndirici, maraqlı işlərə cəlb etməlidir. Ünsiyyəti düzgün təşkil etmək üçün müəllim həmin prosesin səmərəli təşkili ilə bağlı məlumatları yadda saxlayıb, yada salmağı bacarmalı, başqa sözlə özünün "kommunikativ hafizəsini inkişaf etdirməlidir". Eyni zamanda şagirdlərlə ünsiyyətdə öz müşahidəçiliyini də inkişaf etdirməlidir. "Səmərəli pedaqoji ünsiyyət qaydalarına yiyələnməyən, onun sosial- psixoloji mexanizmləri ilə tanış olmayan müəllim öz fəaliyyətini müvəffəqiyyətlə yerinə yetirə bilməz və ciddi çətinliklərlə rastlaşacaqdır" [2, 190].

Pedaqoji prosesin şagirdlrə hərtərəfli təsiri üçün onun hər tərəfli məqamları nəzərə alınmalıdır.

ƏDƏBİYYAT

1. Əliyev B., Əliyeva K., Cabbarov R. Pedaqoji psixologiya. Bakı: Elm və təhsil, 2011
2. Həmzəyev M. Yaş və pedoqoji psixologiyanın əsasları. Bakı: Maarif, 2003

РЕЗЮМЕ

РОЛЬ СТИМУЛИРОВАНИЕ В СОЦИАЛИЗАЦИИ ДЕЯТЕЛЬНОСТИ УЧЕНИКА

Алиева С. Г.

Роль стимулирование в социализации деятельности ученика имеет большое значение в познавательной деятельности ученика.

Современному обществу нужен выпускник, самостоятельно и критически мыслящий, умеющий видеть и творчески решать возникающие проблемы. На первый план выдвигается задача развития личности учащегося на основе его внутреннего потенциала, стимулирование и мотивация к обучения. В этом направлении большое значение имеет социализация и социальное воспитание ученика.

Ключевые слова: целенаправленное развитие, материальное и психологическое положение, семейное воспитание, социализация, стимулирования.

SUMMARY

THE ROLE OF STIMULATION IN THE SOCIALIZATION OF STUDENT ACTIVITY

Aliyeva S. G.

The role of stimulation in the socialization of the student's activity is of great importance in thestudent'scognitive activity.
Modern society needs a graduate who is independent and critical, able to see and creatively solve emerging problems. The task of developing the student's personality on the basis of his internal potential, stimulation and motivation for learning is put forward. In this direction, socialization and social education of the student is of great importance.

Key words: purposeful development, material and psychological situation, upbringing in the family, socialization, stimulating

V BÖLMƏ. İNKLÜZİV TƏHSİLDƏ KOMPÜTER TEXNOLOGİYALARININ ROLU

ÖYRƏNMƏ ÇƏTİNLİYİ OLAN KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TƏLİM FƏALİYYƏTİNƏ KOMPÜTER TEXNOLOGİYALARININ TƏSİRİ.

Seyidova Ş.İ.
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
seyidova.s.h.h.4@mail.ru

Xülasə: İndiki postindustrial cəmiyyətdə informasiya texnologiyalarının rolu son dərəcə vacibdir və texnologiya bu gün cəmiyyətin intellektuallaşması, müxtəlif təhsil ehtiyacları olan şagirdlərin təlim fəaliyyətinin təşkili, təhsil və mədəniyyət sistemlərinin inkişafı prosesində mərkəzi yer tutur. Kompüter texnologiyalarının insan fəaliyyətinin müxtəlif sahələrində geniş yayılması, təlim və idrak proseslərinin ilkin mərhələlərindən başlayaraq, onların istifadəsinin qısa müddətdə mənimsənilməsini tələb edir.

Açar sözlər: təlimdə informasiya texnologiyası, multimediya resursları, təlim fəaliyyətinin nəticələrinin yüksəldilməsi texnologiyası, təlim prosesi, akademik intizam, texnoloji vasitələr

Biz biliyin ən vacib və təməl qaynaq olduğu tarixi bir dövrdə yaşayırıq. Biliklərin sürətli irəliləyişi və məlumatların asan əldə olunması iqtisadi və sosial inkişafın əsasını təşkil edir. Bu sahədə böyük rolu olan informasiya texnologiyalarının dəyərini isə BMT Baş katibliyi belə müəyyən etmişdir:

1. İnformasiya və kommunikasiya texnologiyaları qloballaşmanın hərəkətverici qüvvələrindən biridir. İKT insanları bir araya gətirir və inkişaf üçün yeni resurslar təqdim edir. Təhsil sahəsində yeni rəqəmsal texnologiyaların geniş tətbiqi böyük imkanlar yaradır və müasir cəmiyyətin artan tələblərinə uyğun yeni pedaqoji yanaşmalar formalaşdırır.

2. İnformasiya cəmiyyətinin inkişafına dair bu baxış, yeni pedaqoji texnologiyalar və əlaqəli tədris metodlarının istifadəsini əhatə edir.

Beləliklə də informasiya və kommunikasiya texnologiyaları (İKT) fərqli təhsil ehtiyacları olan insanlara təhsil hüquqlarını həyata keçirmək, təlim fəaliyyəti, sosial həyat və istirahət, həmçinin informasiya əlçatanlılığı üçün kömək edə biləcək uyğun bir vasitəyə çevrilir. Yeni texnologiyalardan təhsildə istifadə olunması müstəqilliyi, inteqrasiyanı və bütün insanlar üçün bərabər imkanları artırır.[3].

Bildiyimiz kimi, təhsil prosesi təlim fəaliyyəti ilə öz məqsədlərini həyata keçirir. Şagird təlim fəaliyyətində baş verən özünüinkişafın gedişində elmi anlayışlar üzərində qurulan elmi bilikləri hərtərəfli mənimsəməyə nail olur. Məktəb mühitində bu proses müxtəlif əyaniliklərin köməyi ilə, hazırda isə kompüter texnologiyalarından istifadə yolu ilə həyata keçirilir. Texniki əyaniliklə təşkil olunmuş təlim fəaliyyətində əqli proseslərdə özünütənzimləmə gedir, şüurda yeni koqnitiv strukturlar formalaşır. Nəticədə koqnitiv strukturların inkişaf dərəcəsi şagirdin əqli potensialını şərtləndirir. Koqnitiv strukturların daha effektli formalaşması isə məktəblilərin məqsədyönlü, sistematik və hərtərəfli psixoloji inkişafı yolu ilə mümkündür.

Digər tərədən, unutmamalıyıq ki, mənimsəmənin keyfiyyəti şagirdin dərketmə motivasiyasından da asılıdır. Şagirdlərdə mənimsəmənin fərqləndirici xüsusiyyəti də məhz onların dərketmə maraqları ilə izah olunur. Əgər kiçikyaşlı məktəblidə dərketmə maraqları yoxdursa və ya zəifdirsə, buna adekvat olaraq diqqət yayınacaq, mənimsəmədə keyfiyyət aşağı olacaq. Koqnitiv

qabiliyyətlər uşağın təlim fəaliyyətində formalaşır. Təlim uşağın inkişafının mənbəyi kimi cıxış edərək onda elə funksiyalar formalaşdırır ki, bunlarsız, ümumiyyətlə, inkişaf gedə bilməz. Təlim prosesində uşaq hansısa əməliyyatı yerinə yetirməyi öyrənir. Bu zaman o, mənimsəmənin müxtəlif struktur prinsiplərinə yiyələnir. Bu müxtəlif tipli əməliyyatlarda hansı prinsip uşağa asan mənimsəmə imkanı verirsə, həmin prinsiplə də hərəkət edir. Kompüter texnologiyaları isə həmin prinsiplərin həyata keçirilməsini asanlaşdırır.

İKT-nin şagirdlərin, xüsusən öyrənmə çətinliyi olan şagirdlərin dərketmə motivasiyasını artıran, təhsilinə müsbət təsir göstərdiyini sübut edən çoxsaylı tədqiqatlar var. İstər fiziki yaxud əqli əlilliyi olan, istərsə də müxtəlif səbəblərdən təlimdə (öyrənmədə) çətinliyi olan uşaqların təlim nailiyyətlərini yüksəltmək üçün İKT geniş imkanlar verir. [4]

Harlou Qils Yunger (Harlow Giles Unger) öyrənmə çətinliyini iki növə ayırır: kritik öyrənmə çətinliyi və qeyri-kritik öyrənmə çətinliyi. Qeyri-kritik öyrənmə çətinliyi olan uşaqlarda ciddi əlillik və bacarıqsızlıq müşahidə olunmur və onları müəyyən təlim metodları ilə öyrətmək mümkündür. Kritik öyrənmə çətinliyi olan uşaqlar isə disleksiyası, HDÇS olan uşaqlar hesab olunur ki, bu da onların effektiv öyrənməsində müəyyən çətinliklər yaradır. Kritik və qeyri-kritik öyrənmə çətinliyi mövzusuna isə digər tədqiqatçılar (Tas Adam və Arthur Tatnal) belə münasibət bildirirlər ki, öyrənmə çətinliyi öyrənmə əlilliyinə görə daha geniş yayılıb. Yəni öyrənmə çətinliyi uşaqlar arasında daha geniş müşahidə olunur. [5]

Ümumiyyətlə isə müxtəlif ƏDƏBİYYATlarda öyrənmə çətinliyi "dərs vərdişlərinin (oxuma, hərifləmə, hesablama) əqli geriliyin nəticəsi və s. ilə izah edilə bilməyən çatmazlığı" kimi təsnif olunur. Folkesson və Svalanderin 8-9 yaşlı uşaqlar arasında apardığı tədqiqata görə ənənəvi metodla təlim keçənlərə nisbətən İKT-nin vasitəsilə təlim keçən uşaqlar oxu bacarıqlarına daha tez yiyələnirlər. [1]

Məktəb təcrübəsi göstərir ki, kiçikyaşlı məktəblilər arasında öyrənmə çətinliyi özünü bu şəkildə biruzə verir: hər hansı bir sözü yanlış və ya yavaş sürətlə oxumaq; oxunulan hər hansı sözü, cümləni anlamaqda çətinlik (yəni uşaq mətni düzgün oxuya bilər, lakin aradakı məlumatları anlaya bilməz, anlamadan oxuyub üstündən keçər) çəkmək; hərf-hərf oxuma və yazma çətinlikləri, hərfləri yaddan çıxararaq oxuma və yazma problemi yaşamaq; imla yazmaqda və dil qaydalarını istifadə etməkdə çətinlik çəkmək; riyazi biliklərdə məlumat azlığı, rəqəmləri tanıma, onları doğru yazmaq çətinliyi.

Uşaqların bir çoxu çox erkən yaşda hər hansı bir məlumatı tez qəbul edərək öyrənir, bəziləri isə çox gec qəbul edir. Bu çətinliyin qarşısı nə qədər tez alınarsa, uşağın problemi o qədər tez həll olunar. Bütün bunları nəzərə alaraq, bu gün təhsildə, tədris vəsaitlərinin təkmilləşdirilməsi meylləri ortaya çıxmışdır. Bu zaman müxtəlif təhsil ehtiyacları olan uşaqların təlim prosesinə daxil edilməsi, müxtəlif interaktiv və multimedia texnologiyalarından istifadə zərurəti ortaya çıxır. Bu vəziyyətdə yüksək texnologiyaların inteqrasiyası, əlilliyi olan uşaqlar, o cümlədən öyrənmə çətinliyi olan bütün uşaqlar tərəfindən əlçatan təhsil almaq üçün konstitusiya hüququnun həyata keçirilməsinə kömək edir. Həmçinin ən son informasiya texnologiyaları şagirdin öyrənmə imkanlarını artırmağa və təlim fəaliyyətini uğurla həyata keçirməyə kömək edir. Bütün uşaqların bərabər imkanlarla təhsil aldığı inklüziv təhsildə də kompüter əsaslı tədris vasitələri şagirdlərin kompensasiya mexanizmlərini aktivləşdirir. Beləliklə, inkişaf ləngimələri aradan qaldırılır və bütün şagirdlərdə nəzərə çarpan nailiyyətlər hiss olunur. İnformasiya təqdim etməyin multimedia üsulları tapşırıqları yerinə yetirmək üçün marağı və istəyi də oyadır. Bu vəziyyətdə aşağıdakı didaktik vəzifələr həll olunur:

- Bütün uşaqlarda özünü idarəetmə bacarıqlarının formalaşmasına kömək etmək;
- Lazımi baza materialını öyrənmək;

- Alınan məlumatları sistemləşdirmək;
- Tədris prosesini stimullaşdırmaq;
- Uşaqların tədris materialı ilə müstəqil işləməsinə kömək etmək.

Aydındır ki, İT-nin tədris prosesinə daxil edilməsi yuxarıda göstərilən didaktik tapşırıqları həll etməklə yanaşı, bir sıra digər müsbət təsirlərə də malikdir. Belə ki, ibtidai siniflərdə öyrənmə çətinliyi yaşayan uşaqlar özləri üçün əhəmiyyətli olan kommunikativ vəziyyətin yaranması səbəbindən çətin olan fəaliyyətlərdə belə motivasiya olunurlar. Belə olduqda şagirdlər üçün effektivlik və məlumat tutumu artır, siniflərdə psixoloji mühit daha əlverişli olur

Müxtəlif təhsil ehtiyacları və öyrənmə çətinlikləri olan şagirdlərin təhsil aldığı inklüziv məktəblərdə tədris mühitinin düzgün təşkili üçün istifadə olunan vasitələrə diqqət yetirilməlidir: tədris prosesi eyni zamanda metodistlər, psixoloqlar və müəllimlər nöqteyi-nəzərindən tənzimlənməli, həmçinin proqram-metodiki və texniki dəstək göstərilməlidir. [2] Bundan sonra kompüter texnologiyalarının köməyi ilə aşağıdakılar mümkün olur:

- uşaqları onlar üçün çətin olan öyrənmə fəaliyyətlərinə həvəsləndirmək;
- eyni mövzu məzmununu əyani şəkildə və nitqin köməyi ilə sərbəst şəkildə simulyasiya edərək bir formadan digərinə keçmək;
- uşaqların birgə və fərdi fəaliyyətlərinin məhsuldar növlərini tətbiq etmək;
- öyrənmə, təcrübə, proqnozlaşdırma, təhlil, müqayisə, təsnif etmək və s. fəaliyyətləri aşılamaq;
- inkişafetdirici tapşırıqları tətbiq etmək;
- akademik intizam (məsuliyyət) formalaşdırmaq
- uşağın özünün analiz etməsi üçün əlavə vizual resurslar yaratmaq;
- real vaxtda təxirə salınmaz fəaliyyətləri icra edə bilmək;
- qrup fəaliyyətlərində belə fərdi inkişafı təmin etmək
- oxu bacarıqlarını formalaşdırmaq;

Bu imkanlar tədris prosesində texniki vasitələrdən istifadə etməklə həyata keçirilir. İnklüziv təhsil çərçivəsində maddi və texniki avadanlıqların seçimi pedaqoji prosesin digər komponentlərinə də təsir edir .

Müxtəlif səbəblərdən öyrənmə çətinliyi olan şagirdlərin təlim prosesini təşkil etmək üçün istifadə olunan İKT vasitələrinin əsas növləri aşağıdakılardır.

Standart texnologiyalar - məsələn, əlilliyi olan uşaqlar üçün quraşdırılmış parametrləri olan kompüterlər;

Alternativ texnologiyalar, məsələn, əlçatan HTML, DAISY sisteminin danışıq kitabları (Rəqəmsal Əlçatanlıq İnformasiya Sistemi - elektron əlçatan informasiya sistemi); Brayl sistemi kimi “aşağı texnoloji” formatlar;

Köməkçi texnologiyalar: eşitmə cihazları, ekran oxuyucuları, xüsusi xüsusiyyətlərə malik klaviaturalar və s. Köməkçi texnologiya "əlilliyi olan şagirdlərin fəaliyyətini artırmaq, dəstəkləmək və ya yaxşılaşdırmağa yönəlmiş cihaz, məhsul, avadanlıq, proqram və ya xidmətdir"

Kompüter texnologiyaları arasında ən əlverişlisi bu gün bir çox məktəblərdə istifadə olunan demək interaktiv lövhələrdir. Bu, öyrənmə çətinliyi olan uşaqların birgə təhsil alması üçün ən yaxşı həllərdən biri hesab edilə bilər. Çoxfunksiyalı lövhələr filmlər və təqdimatlar nümayiş etdirmək, barmaqlarınızla, bir stylus ilə rəsm çəkmək və yazmaq, məşqlər aparmaq imkanı verir.

İnkluziv siniflərdə kompüter oyunlarından istifadənin də müsbət təsirləri barədə daha ətraflı danışa bilərik. Bəzi müəllimlər qeyd edirlər ki, bu cür oyunlar zamanı müxtəlif sosial-mədəni fəaliyyət növlərinin simulyasiyası olur. Şagird bir yetkinin davranışını təqlid edir, nəticədə nitqi və

zəkası inkişaf edir. Məsələn, autizm sindromlu uşaqlarda emosional və davranış pozğunluqları tədricən aradan qaldırılır ki, bu da öyrənməyə müsbət təsir edir. Riyaziyyat fənni ilə əlaqəli yaradılmış kompüter oyunlarından da istifadə etmək faydalıdır, çünki bunlar nəinki psixoloji baxımdan müsbət təsir göstərir, həm də öyrənilən materialın möhkəmlənməsinə öz töhfələrini verirlər.

Bununla birlikdə, inklüziv təhsildə İT-nin istifadəsinin müsbət tendensiyasını nəzərə alaraq, bu sahədə hələ də bir sıra problemlər müşahidə olunduğunu deyə bilərik. Öyrənmə çətinliyi və həmçinin fiziki əlilliyi olan uşaqların iştirakçı olduğu təlim prosesi bir sıra çətinliklərə malikdir, bunların arasında hərəkətsizlik və ya hərəkətin məhdudlaşdırılması ilə əlaqədar təlim məşğələlərində iştirak etməyin mümkünsüzlüyü də var. Burada artıq distant təhsil köməyə çata bilər ki, bu hal yenə də kompüter texnologiyalarından istifadəni zəruri edəcəkdir.

Yuxarıda göstərilənlərə əsasən, inklüziv təhsildə innovativ texnologiyaların tətbiqinin əsas funksiyalarını ayırd edə bilərik:

- kompensasiya: oxumağı və yazmağı asanlaşdırmaq üçün texniki dəstək;
- didaktik: təlim və təhsilin səmərəli qurulması məqsədilə innovativ texnologiyaların tətbiqi ilə öyrənməyə dəstək;
- kommunikasiya: qarşılıqlı ünsiyyətdə iştirak üçün dəstək.

İT həmçinin özünütəhsilin formalaşması üçün ilkin şərtləri də meydana çıxarır. İnnovativ texnologiyaların tətbiqi şagirdlərin şəxsi fəaliyyətinin səmərəliliyinin artmasına səbəb olur ki, bu da kompüterin tədris prosesinin bütövlüyünü qoruyarkən maksimum fərdiləşmə kimi bir qabiliyyəti də inkişaf etdirir.

Bütün bunları nəzərə alaraq, inklüziv təhsil ideyalarını həyata keçirərkən müəllim yenilikçi olmalıdır, çünki tədris prosesi yeni təhsilin təcəssümü olan orijinal pedaqoji fikirlərə və innovativ texnologiyalara əsaslanır. Təlim prosesində kompüter texnologiyalarından istifadə də məhz təhsilin müasir mərhələsidir və kompüter yalnız öyrənmə vasitəsi deyil, ilk dərsdən son dərsədək sistematikliyin təmin olunma vasitəsidir. Burada əsas problem təhsilalan tərəfindən kompüterləşdirmə texnikasının mənimsənilməsidir. Əgər təlim prosesi üçün bir növ kompüter dəstəyindən danışırıqsa, mövcud təcrübə kompüter texnologiyalarının təhsildə istifadəsinin iki meylini ortaya qoyur:

1. Bir sıra praktik və elmi problemləri həll etmək üçün hazırlanmış kompüter proqramlarının geniş tətbiqi

2. Fərqli mövzu və fənn sahələrini uyğunlaşdırmaq, inteqrasiyadan maksimum istifadə olunan təhsil proqramlarının, həmçinin müxtəlif təlim məqsədləri üçün hazırlanmış müvafiq metodologiyaların tətbiqi

Qeyd olunmalıdır ki, kompüterin təhsildə mühüm rolu olduğuna baxmayaraq, o heç vaxt şagirdlərə rəhbərlik etməyəcəkdir, bunu ancaq müəllim edə bilər. Müəllim əsl fasilitator olaraq öyrədir, tərbiyə edir, ən çətin vəziyyətlərdən belə çıxış yolu taparaq şagirdlərin idrak fəaliyyətini istiqamətləndirir. Kompüter texnologiyaları isə yalnız əlaqələr qurmağa kömək edə bilər. Müəllim və şagird fəaliyyətini tənzimləmək, təhsil nəticələrini yüksəltmək, öyrənmə çətinliklərini aradan qaldırmaq üçün isə müəllim həm müxtəlif təlim strategiyalarına, həm də informasiya texnologiyalarına yiyələnməli və inkişafını izləməli, məlumatlarını daim yeniləməli, özünütəhsilə və yaradıcılığa meylli olmalıdır.

ƏDƏBİYYAT

1. Folkesson and L. Swalander, “Self-regulated learning through writing on computers: Consequences for reading comprehension”, Computers in Human Behavior, vol. 23, pp. 2488–2508, 2007
2. İnklüziv siniflərdə əlilliyi olan usaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. (Xüsusi kitab 3) Bakı-2020
3. Михальченко К.А. Инклюзивное образование — проблемы и пути решения // Теория и практика образования в современном мире: материалы межд. науч. конф. СПб., 2012. С. 77–79.
4. Motivation for Using ICT and Pupils with Learning Difficulties Jurka Lepicnik Vodopivec, Spela Bagon, Vol 11, No 10 (2016)
5. Unger, Harlow Giles. The Learning Disabilities Trap: How to Save Your Child from the Perils of Special Education. Lincolnwood, IL: Contemporary Books. (1998).

РЕЗЮМЕ

ВЛИЯНИЕ КОМПЬЮТЕРНЫХ ТЕХНОЛОГИЙ НА ДЕЯТЕЛЬНОСТЬ МЛАДШИХ ШКОЛЬНИКОВ С ТРУДНОСТЯМИ В ОБУЧЕНИИ

Сеидова Ш. И.

В настоящем постиндустриальном обществе роль информационных технологий чрезвычайно важна, они занимают сегодня центральное место в процессе интеллектуализации общества, организация учебной деятельности для с разными образовательными потребностями, развития его системы образования и культуры. Их широкое использование в самых различных сферах деятельности человека диктует целесообразность наискорейшего ознакомления с ними, начиная с ранних этапов обучения и познания.

Ключевые слова: информационные технологии в образовании, мультимедийные ресурсы, технология повышения качества процесса обучения, учебный процесс, учебная дисциплина, технологические средства.

SUMMARY

THE IMPACT OF COMPUTER TECHNOLOGY ON THE ACTIVITIES OF YOUNG SCHOOLCHILDREN WITH LEARNING DIFFICULTIES

Seyidova Sh. I.

In this post-industrial society, the role of information technology is extremely important, they now occupy a central place in the process of intellectualization of society, organization of educational activities for students with different educational needs, the development of its education system and culture. They are widely used in various fields of human activity expediency dictates steepest acquaintance with them, from the early stages of learning and knowledge.

Keywords: information technology in education, multimedia resources, technology to improve the quality of the learning process, the learning process, academic discipline, technological means

İNKLÜZİV TƏHSİLDƏ İNFORMASİYA- KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ

Yunusova Ş. Ə.
Sumqayıt Dövlət Universiteti
yunusovashole@gmail.com

Xülasə: Məqalə inklüziv təhsildə informasiya və kommunikasiya texnologiyalarının (İKT) tətbiqinə həsr edilmişdir. Zehni və fiziki qüsurlu uşaqların münasibətləri araşdırılmış, əlilliyi olan şəxslərin hüquqları ilə bağlı qəbul edilmiş beynəlxalq hüquqi sənədlər təhlil edilmiş, müxtəlif kateqoriyalı əlillərin təhsilində İKT-dən istifadə imkanları müəyyən edilmişdir. Habelə inklüziv təhsildə İKT-nin tətbiqi metodları təhlil edilmiş, problemlər müəyyənləşdirilmiş və bu problemlərin həlli üçün tövsiyələr hazırlanmışdır.

Açar sözlər: inklüziv təhsil, informasiya-kommunikasiya texnologiyaları, əqli və fiziki qüsurlu uşaqlar, informasiya cəmiyyəti

İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqinin səviyyəsi hər bir ölkənin intellektual, elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın və demokratiyanın inkişafının əsas göstəricilərindəndir.

Məlumdur ki, insan cəmiyyəti formalaşarkən informasiyanın ötürülməsi prosesləri müxtəlif vasitələrlə həyata keçirilmiş, insan zəkası inkişaf etdikcə mütərəqqi üsullara olan ehtiyac daha da artmış, informasiya texnologiyalarının yaranması üçün labüd şərait yaranmış, sosial və iqtisadi həyatın bütün sahələrinə tətbiq olunmuşdur.

Milli strategiya Azərbaycan Respublikasında informasiya və kommunikasiya texnologiyalarının tətbiqi və inkişaf etdirilməsinin səmərəliliyini təmin etmək və bu prosesdə bütün maraqlı tərəflərin (dövlət strukturtarı, elm və tədris müəssisələri, özəl qurumlar, qeyri-hökumət təşkilatları, ictimai təşkilatlar və vətəndaşlar) iştirakı üçün bərabər şərait yaratmaq məqsədilə maarifləndirmə, şəffaflıq, bərabərlik, innovasiya, mərhələlilik, beynəlxalq əməkdaşlıq millilik kimi əsas prinsipləri müəyyən etmişdir [1].

Respublikamızda təhsilin bütün pillələrində İKT-nin tətbiq edilməsi, müstəqil şəkildə informasiya toplamaq, analiz etmək qabiliyyətinin formalaşdırılması gələcəkdə gənclərimizə texnologiyanın nailiyyətlərindən düzgün istifadə etmək, qazandıqları bilik və təcrübə ilə ölkəmizin ümümi inkişafına öz töhfələrini vermək imkanı verir.

Dövlət Proqramının əsas məqsədi təhsilin bütün pillələrində müasir informasiya və kommunikasiya texnologiyalarının səmərəli tətbiqi və istifadəsi ilə vahid ümummilli təhsil mühitinin formalaşdırılması və bu zəmində əhalinin bütün təbəqələri üçün keyfiyyətli təhsil almaq imkanlarının təmin edilməsi, habelə ölkənin təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya olunması üçün şərait yaradılmasıdır [2].

Kompyuter texnologiyasından ictimai həyatın bütün sahələrində istifadə edildiyi kimi, təhsil sahəsində də geniş tətbiq edilməkdədir. Ümumi təhsilin inkişafı prosesi kimi inklüziv təhsildə də İKT, əsasən, bu məqsədlə istifadə olunur.

Minilliklər boyu sağlamlıq imkanları məhdud olan insanlar cəmiyyət tərəfindən keyfiyyətsiz azlıq kimi qəbul edilir, fiziki və ya psixi çatışmazlığı olan insana mənfi münasibət bəslənirdi. Bu yalnız onların sosial həyatda iştirak edə bilməməsi ilə bağlı deyildi, həm də ondan irəli gəlirdi ki, əlil insan sağlam insanlarda mistik qorxuya səbəb olurdu [3].

Hazırda inklüziv təhsil bütün uşaqların təhsil ehtiyaclarının ödənilməsi baxımından hamı üçün əlçatan olmasını nəzərdə tutur və xüsusi qayğıya ehtiyacı olan uşaqların da təhsil almasını təmin edir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların daha keyfiyyətli təhsilə yiyələnməsi, cəmiyyətə daha tez adaptasiyası üçün digər yaşıdları ilə bir yerdə olması məqsədəuyğun hesab olunur.

Bildiyimiz kimi, Azərbaycanda "İnklüziv təhsil layihəsi"nin icrasına 2005-ci ildən start verilmiş və Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli, 20 nömrəli qərarına əsasən "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsili"nin təşkili üzrə inkişaf proqramı təsdiq edilmişdir.

İnklüziv təhsil sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan uşaqların kollektivə uyğunlaşmasına, cəmiyyətə inteqrasiya etməsinə, sosial bərabərliyin qorunmasına, onlarda özünə inam hissi yaranmasına, cəmiyyətin digər üzvləri kimi bərabər hüquqlu şəxsiyyət kimi formalaşmasına imkan yaradır.

Təlim metodikasına müvafiq olaraq inklüziv təhsil uşaqlara qarşı hər hansı formada ayrı-seçkilik edilməsinin qarşısını alır, müxtəlif xəstəlikləri olanlara mükəmməl şəkildə təhsil almaq, uğur qazanmaq imkanı verir.

Təhsilin hamı üçün sərbəst, maneəsiz və bərabər şərtlərlə əlçatan olması cəmiyyətin qarşısında duran və mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Sağlamlıq vəziyyətindən, maddi təminatından, irqindən, dinindən, dilindən, yaşından asılı olmayaraq cəmiyyətin hər bir üzvünün təhsil alması üçün bərabər imkanların yaradılması sosial bərabərliyin əsasını təşkil edir. Hamı üçün bərabər təhsilin reallaşdırılması ideyası İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə (1948), Uşaq hüquqları haqqında Konvensiya (1989), Xüsusi tələbatlı insanların təhsili haqqında Salamanka Bəyannaməsi (1994), Əlillərin hüquqları haqqında BMT Konvensiyası (2006) kimi beynəlxalq sənədlərdə öz əksini tapmışdır.

Sağlamlıq imkanları məhdud olan insanların hüquq və azadlıqlarının təmin olunması üçün mövcud maneələrin aradan qaldırılmasına yalnız inklüziv cəmiyyətin qurulması və inklüziv mədəniyyətin formalaşması nəticəsində nail olmaq olar [4]. İnklüziv cəmiyyətin formalaşmasının mühüm şərtlərindən biri hər bir insanın məxsusi potensialının formalaşmasında və inkişafında mühüm rol oynayan təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində effektiv strategiyanın hazırlanması və həyata keçirilməsidir.

Hazırda əlillərin cəmiyyətə adaptasiyasına şərait yaradılması, onların təhsil və iş imkanlarının artırılması, sosial müdafiəsinin gücləndirilməsi üçün məqsədyönlü işlər görülür. 2017-ci ildə, sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etmək və onların təhsil alması üçün maneəsiz mühit yaratmaq məqsədi ilə, “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” qəbul edilmişdir [5]. Proqramın həyata keçirilməsi üzrə tədbirlər planında tədris prosesinin sağlamlıq imkanları məhdud olan şəxslərin tələbatına uyğunlaşdırılması, informasiyanın vizual formada əldə edilməsini təmin edən vasitələrlə, yardımçı vəsait və texnologiyalarla təchiz edilməsi, beynəlxalq təcrübədə istifadə edilən öyrədici elektron proqramların tətbiq edilməsi və digər informasiya texnologiyalarının tətbiqi ilə bağlı tədbirlər nəzərdə tutulmuşdur. Dövlət Proqramında qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi işində informasiya texnologiyalarının rolu əvəzsizdir və informasiya texnologiyalarının tətbiqi ilə sağlamlıq imkanları məhdud şəxslərin informasiya əldə etmək imkanları daim genişləndirilir. Distant tədris texnologiyaları sağlamlıq imkanları məhdud olan uşaqlara dərsdə fiziki iştirakı mümkün olmadığı hallarda İKT-dən istifadə etməklə fasiləsiz tədris prosesini təmin etmək imkanı verir və informasiya ilə məlumatlandırılması üçün əlverişli

təhsil mühiti yaradır. İnklüziv təhsildə İKT kompensasiya məqsədi ilə texniki kömək, dəstək, olmayan təbii funksiyaların əvəz edilməsi üçün, kommunikasiya məqsədi ilə hər növ kommunikasiyanı daha rahat edən köməkçi qurğular və proqram təminatları, alternativ əlaqə vasitələri üçün, didaktik məqsədlə mobillik məhdudiyyəti olan, yaxud sensor pozuntuları olan təhsil alanlara lazım olan informasiyanı uyğun formatda əldə etməyə imkan verən informasiya resursları, müxtəlif növ elektron tədris resursları və elektron kitabxanalar, distant məsləhət xidmətləri məqsədi ilə istifadə oluna bilər [6].

İnklüziv təhsilin həyata keçirilməsi üçün İKT-dən istifadə real vasitədir və sağlamlıq imkanları məhdud olan uşaqların fərdi tələbatlarının ödənilməsinə, inkişafına, təhsil mühitinə, ictimai mühitə daxil olmasına imkan yaradır. İnklüziv prinsiplərin reallaşdırılması üçün pedaqoqların İKT vərdişləri yetərli səviyyədə olmalıdır və İKT bacarıqlarının təkmilləşdirilməsi ənənəvi təhsilin bir sıra məhdudiyyətlərini aradan qaldırmağa kömək edə bilər. Bu məqsədlə inklüziv təhsildə rəqəmsal texnologiyalar, informasiya texnologiyaları, assistiv texnologiyalar, köməkçi texnologiyalar və s. istifadə olunur. Kompyuter, interaktiv lövhə və multimedia imkanlarına malik digər vasitələr bu kateqoriyadan olan təhsil alanların ətraf aləmi daha yaxşı dərk etməsi və intellektual inkişafı üçün unikal vasitələrdir. Hazırda eşitmə əngəli olan və səsli dillə fikrini ifadə etməyi bacarmayan insanların ünsiyyətini asanlaşdırmaq üçün işlənib hazırlanmış bir sıra kompyuter sistemləri mövcuddur.

Əsas məsələlərdən biri isə müxtəlif kateqoriyalardan olan təhsil alanların təhsil tələbatlarını nəzərə alaraq İKT məhsulları bazarının daim analiz olunması, bu vasitələrin imkanlarının öyrənilməsi, müəllimlərin və köməkçi heyətin bu vasitələrdən istifadə bacarıqlarına yiyələnməsidir.

Lakin inklüziv təhsildə İKT-nin tətbiqi məsələlərinə dair tədqiqatların analizi göstərir ki, burada bir sıra problemlər də mövcuddur və həmin problemlərin aradan qaldırılması inklüziv təhsildə İKT-nin imkanlarından səmərəli istifadə sayəsində mümkün ola bilər.

İnklüziv təhsil sisteminə İKT vasitələrinin inteqrasiyasının təmin edilməsi kompleks proqramın həyata keçirilməsi nəticəsində mümkündür. Bu təhsil alanların tələbatına cavab verən İKT infrastrukturunun yaradılması, uyğun kompyuter proqramlarının seçilməsi, İKT-nin tədris proqramlarına inteqrasiyası, inklüziv təhsildə İKT-nin tətbiqi üzrə kadrların, standartların, ixtisasartırma proqramlarının, innovativ tədris metodlarının işlənməsi, istifadəçilərin psixofizioloji xüsusiyyətlərinə uyğun rəqəmsal tədris resurslarının hazırlanması kimi istiqamətləri əhatə etməlidir.

Beləliklə, inklüziv təhsildə İKT-nin səmərəli tətbiqi sağlamlıq problemləri olan uşaqların təhsil mühitinə və biliklərə yiyələnmək imkanlarının artırılması, ümumi təhsil prosesinə cəlb edilməsi, sağlamlıqla bağlı müəyyən problemlərin korreksiya edilməsi və cəmiyyətə adaptasiyası nəticəsində mümkün ola bilər. Odur ki, sağlamlığı ilə əlaqədar xüsusi təhsil tələbatları olan uşaqların dəstəklənməsi istiqamətində görülən işlər getdikcə artır, informasiya texnologiyaları sahəsində dünyanın aparıcı şirkətləri tərəfindən sağlamlıq imkanları məhdud uşaqlar üçün yeni-yeni proqram vasitələri, qurğular yaradılır və istifadəyə verilir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" Bakı, 17 fevral 2003-cü il, №1146.
http://www.e-qanun.az/framework/1969.
2. 2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı.
http://www.e-qanun.az/framework/1969

3. Лазаревна Р.Ф., Германовна С.Н. История становления и развития идей инклюзивного образования: международный опыт // Грамота, 2012, №12, с.162–167.
4. Пенин Г.Н. Инклюзивное образование как новая парадигма государственной политики // Образование для всех, 2010, №9(83), с.41–47.
5. “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”. http://www.azertag.az.
6. Аналитическая записка, ИКТ для инклюзивного образования. https://iite.unesco.org/pics/publications/ru/files/3214675.pdf

РЕЗЮМЕ
ПРИМЕНЕНИЯ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙВ ИНКЛЮЗИВНОМ ОБРАЗОВАНИИ

Юнусова Ш.А.

Данная статья посвящена применению информационно-коммуникационных технологий (ИКТ) в инклюзивном образовании. В данной статье проанализированы отношение к детям с психическими и физическими недостатками, а также международно-правовые документы по защите прав инвалидов. Определены возможности использования ИКТ в образовании различных категорий людей с ограниченными возможностями. В статье проанализированы способы применения ИКТ в инклюзивном образовании, выявлены проблемы и разработаны рекомендации по их решению.

Ключевые слова: инклюзивное образование, информационные-коммуникационные технологии, дети с психическими и физическими недостатками, инклюзивное общество

SUMMARY
THE APPLICATION OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIESIN INCLUSIVE EDUCATION

Yunusova Sh.A.

The article is dedicated to the application of information and communication technologies (ICT) in inclusive education. The attitudes of children with mental and physical disabilities have been investigated, the international legal documents adopted on the rights of individuals with disabilities have been analyzed, the possibilities of using ICT in education of different categories of people with disabilities have been identified. Methods for ICT application in inclusive education have been analyzed, the problems have been identified and the recommendations for solving these problems have been developed.

***Key words*:** inclusive education, information and communication technologies, children with mental and physical disabilities, information society

İNKLÜZİV TƏHSİLDƏ İNFORMASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN FAYDASI

Şabanova S. Ə.
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Sevinc65@mail.ru

Xülasə: Məqalədə inklüziv təhsildən və bu təhsildə informasiya kommunikasiya texnologiyalarının istifadəsindən bəhs edilir. İnklüziv təhsildə İKT-dən istifadənin metodları açıqlanır, təlim zamanı istifadə olunması məsləhət görülən proqramların adları, funksiyaları və iş prinsipi göstərilir. Sağlamlığında məhdudiyyət olan şagirdlərə İKT-dən istifadənin müsbət təsiri qeyd olunur.

Açar sözlər: inklüziv təhsil, İKT, Brayl əlifbası, audiotrenajor, distant təhsil

Təhsilin inkişafında prioritet istiqamətlərdən biri yüksək nəticələr almaqdan ötrü onun məzmununun və təlim üsullarının yenilənməsidir. Müasir təhsil sistemi dini, milli mənsubiyyətindən və fiziki xüsusiyyətlərindən asılı olmayaraq hər bir təhsil alan şəxsin tələblərinə uyğun olmalıdır.

İnklyüziv təhsil (latın sözü olan include – daxil edirəm, bağlayıram) təhsilin hamı üçün, o cümlədən xüsusi ehtiyacları olan uşaqlar üçün əlçatan olmasını nəzərdə tutur [1]. Əlbəttə ki, bütün uşaqların öz həmyaşıdlarının, dostlarının əhatəsində oxumağa, inkişaf etməyə haqqı vardır. İnformasiya kommunikasiya texnologiyalarının inklyuziv tədrisin müvəffəqiyyətlə həyata keçirilməsində önəmli rolu vardır. Çünki İKT burada öyrənmə sahəsi olmaqdan əlavə korreksiyaedici vasitə rolunu oynayır. Məhz bu səbəbdən sağlamlığında məhdudiyyətlər olan uşaqların təhsil almaları İKT-siz artıq təsəvvür etmək belə çətindir.

Hazırda bu cür uşaqlara kömək edən çoxlu sayda proqramlar, texniki cihaz və mənbələr mövcuddur.

Xüsusi texniki vasitələrə taktil displeylər (görmə qabiliyyəti zəif olan uşaqlar üçün), müxtəlif modifikasiyalı klaviatura və manipulyatorlar (hərəkət qabiliyyəti məhdud uşaqlar üçün), manipulyator-əlcəklər (eşitmə və danışma imkanları məhdud olan uşaqlar üçün) və s. misal göstərmək olar. Bütün bu vasitələrin əsas vəzifəsi sağlamlığında məhdudiyyət olan uşaqların kompüter arxasında təhlükəsiz və maksimum işləmələrini təmin etməkdir.

İnklüziv təhsildə İKT-dən istifadənin üç əsas funksiyası mövcuddur:

1. Kompensator – yazı və oxu fəaliyyətini yüngülləşdirmək üçün texniki kömək
2. Didaktik – Uyğun təhsil mühiti yaratmaq üçün İKT-dən didaktik alət kimi istifadənin bir çox imkanları mövcuddur.
3. Kommunikasiya – alternativ kommunikasiya vasitəsi kimi

Sağlamlığı məhdud şagirdlər üçün istifadə edilən və yuxarıda qeyd etdiyimiz funksiyaları yerinə yetirə bilən İKT vasitələrinin əsas növləri aşağıdakılardır:

- **Standart texnologiyalar** — məsələn, əlavə funksiyaları olan kompüterlər;
- **Verilənlərin münasib formatları -** həmçinin alternativ formatlar, məsələn münasib HTML, danışan kitablar sistemi DAISY (Digital Accessibility Information System — elektron münasib informasiya sistemi), həmçinin Brayl sistemi kimi "aşağı texnologiyalı" formatlar;
- **Köməkçi texnologiyalar:** eşitmə aparatları, ekrandan oxuyan qurğu, xüsusi imkanlı klaviatura və s. Köməkçi texnologiyalar

Təhsil müəssisələrində geniş istifadə olunan trenajorlardan bəzilərini qeyd edək. **Go Talk nitq trenajoru** [2] . Bu qurğu həm pedaqoqun köməyi ilə, həm də müstəqil olaraq nitq bacarıqlarını qavramaq, inkişaf və bərpa etdirmək üçün nəzərdə tutulmuşdur. Qurğunun əsas funksiyası diktofonun köməyi ilə müxtəlif səsləri, hecaları, sözləri, cümlələri yazmaq, yaxud əvvəlcədən yazılmışları səsləndirmək, təkrar etmək, qavradıqdan sonra silib yenilərini əlavə etməkdən ibarətdir.

Duxbury BrailleTranslator (DBT) – bu proqram ikiistiqamətli tərcümə edir. Adi şrifti Brayl əlifbasına və əksinə çevirir. Həmçinin proqramın köməyi ilə istənilən sənədi brayl üzrə bir neçə dilə çevirmək mümkündür.

Duxbury BrailleTranslator proqramının imkanları ilə yaxından tanış olaq:

- Faylları MS Word, WordPerfect, HTML formatlarında qəbul etmək imkanı;
- DBT özü redaktor kimi fayl yarada bilir;
- Mətni həm adi qaydada, həm də Brayl əlifbası ilə yazmaq imkanı;
- Sənədləri formatlaşdırma imkanı verən əlavə funksiyalar mövcuddur. Bu funksiyaların köməyi ilə sənədin formatını şablon kimi saxlayıb hər dəfə istifadə etmək olur;
- 300000 sözdən ibarət lüğətə malikdir;
- «Quick Find Misspelling» funksiyası orfoqrafik səhvləri taoıb düzəltmə imkanı verir;
- Brayl printerlərin demək olar ki bütün modellərini dəstəkləyir;

Görmə qabiliyyəti zəif olan uşaqlar üçün audiomaterialların xüsusi rolu vardır. Konkret tədris məqsədlərindən asılı olaraq bu materiallar audiomühazirə, audiotest (audiotrenajor) və ya audiovəsait formasında ola bilər.

Audiomühazirə – tədris materialının audio yazısı olub qrup və ya fərdi təlim zamanı müəllimin iştirakı ilə və yaxud iştirakı olmadan istifadə edilə bilər. Burada əsas tələb audio materialı səsləndirənin intonasiyasının materiala uyğun olmasıdır.

Aaudiotrenajor – özündə müəyyən zaman fasilələləri ilə yazılmış və cavab tələb edən müxtəlif sual və məsələləri cəmləyir. Qrup və ya fərdi şəkildə istifadə oluna bilər. Müəllimin iştirakı olduqda, şagirdlər kömək üçün müraciət etmək imkanı əldə edirlər ki, bu da öz növbəsində müsbət nəticəyə gətirib çıxarır.

Audiotestin audiotrenajordan fərqi ondadır ki, audiotest zamanı cavabın düzgünlüyünü yoxlamaq mümkün olur.

Audiovəsait – istənilən tədris materialının səs yazısıdır. Bu hər hansı bir xarici dildə dialoq, bədii əsərin bir parçası və s. ola bilər. Audiomühazirədən fərqli olaraq səs yazıları daha parlaq, daha intonasiyalı, rollu oyunlar şəklində ola bilər. Uşaq üçün yeni olan sözlər daha aydın ifadə olunmalıdır.

Sağlamlığında məhdudiyyət olan şagirdlərin təlim prosesinə cəlb olunmasında əlbəttə ki, bir çox çətinliklər vardır. Məsələn, dərslərə davamlı olaraq qatılma imkanlarının olmaması, və yaxud tamamilə iştirakdan məhrum olmaları. Bu halda köməyə distant təhsil çatır.

Distant təhsilin reallaşdırılması üçün kompüter və internetbağlantı vacibdir. Distant təhsilin əsas fərqi və üstünlüyü ondadır ki, şagirdlə müəllimin qarşılıqlı əlaqəsi bütün proses vaxtı baş verir. Demək olar ki, sağlamlığında məhdudiyyət olan uşaqların o birilərindən geridə qalmaları yox dərəcəsinə endirilir. Çünki, onlar başa düşmədikləri mövzuları təkrar dinləmək imkanı əldə edirlər. Həmçinin məktəbə gedərkən qarşılaşdıqları gündəlik problemlərdən də azad olub, onlar üçün daha uyğun və rahat mühitdə çalışma imkanlarına nail olurlar.

Bütün bunlarla yanaşı İKT-nin tədris prosesinə tətbiqi sağlamlığında məhdudiyyət olan uşaqların həyatını daha maraqlı və canlı edir.

ƏDƏBİYYAT

1. Əliyev M. İnklüziv təhsil. 2018, 41 s.
2. Mirkərimova Ç. Информационные технологии в инклюзивном образовании, Научная электронная библиотека «КиберЛенинка»

РЕЗЮМЕ
ПРЕИМУЩЕСТВА ИСПОЛЬЗОВАНИЯ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ИНКЛЮЗИВНОМ ОБРАЗОВАНИИ

Шабанова С. А.

В статье рассматривается инклюзивное образование и использование информационнох-коммуникационных технологий в этом образовании. Описаны методы использования ИКТ в инклюзивном образовании, указаны названия, функции и принципы работы программ, рекомендуемых для использования во время обучения. Положительные эффекты от использования ИКТ отмечаются у учащихся с ограниченными возможностями.

Ключевые слова: инклюзивное обучение, ИКТ, азбука Брайля, аудиотренажер, дистанционное образование

SUMMARY
BENEFITS OF USING INFORMATION TECHNOLOGIES IN INCLUSIVE EDUCATION

Shabanova S. A.

The article examines inclusive education and the use of information and communication technologies in this education. Methods of using ICT in inclusive education are described, names, functions and principles of work of programs recommended for use during education are indicated. The positive effects of the use of ICTs have been noted among students with disabilities.

Key words: inclusive learning, ICT, The Braille Alphabet, audio trainer, distance education

INFORMATION AND COMMUNICATION TECHNOLOGY IMPLEMENTATION IN INCLUSIVE EDUCATION: DESIGNING ICT-SUPPORTED CLASSES VIA MODERN PEDAGOGY

Shirinzada L. A.

ADA University

Lshirinzada8085@ada.edu.az

Summary: Information and Communication Technology (ICT) and Inclusive Education (IE) have recently received growing interest from the research community and educators. Nevertheless, little research has been carried out exploring these trends in Azerbaijan. This thesis illustrates the significance and mutual implementation strategies of ICT and IE, reviews these concepts in Azerbaijani educational institutions, and sheds light on the issue that IE can be fostered through ICT only if, in parallel, educational approaches, methods and strategies are sufficiently improved and implemented.

Key words: information and communication technologies, inclusive education, educational strategies, curriculum, children with disabilities, modern pedagogy, Azerbaijani education

In modern educational market, using information technologies has become more than just an option. Educators and stakeholders believe that for effective learning, the educational environment should be integrated with communication and information technologies. Consequently, every aspect of education was influenced by this trend, especially inclusive education which is defined as a class entailing students of all abilities learning side-by-side in the same classroom. Generally, inclusive education proposes all students with the provision of equitable access to education within the context of a mainstream educational system and not in segregated settings [1]. By applying information and communication technologies to inclusive education, instructional process may reach to the effective level for the participants; teachers, students and other stakeholders who are directly or indirectly involved in the educational process. In different countries, there are significant international and national legislations and policies for inclusive education support; however for some countries achieving to ideal outcomes is a challenging reality since ICT's position has not been explored; these positions encompass role of communication aid, pedagogical tool and resource of access to previously inaccessible learning materials. Strictly speaking, accessible ICTs have a major role to play in enabling educational authorities, educators, students, and parents to move towards a more successful and prosperous inclusive education system.

First phenomena which is communication and information technology causes remarkably positive changes in the traditional educational process. Some years ago, information and communication technologies were often used as an "add-on" in many courses and in many lesson plans [5, p. 92]. However, in today's education, educators find ICT useful in thought-provoking and well-planned tasks, projects, and resources as they provide a path for connecting the educational potential of digital resources, internet communications to engage in the awareness, interaction, and knowledge construction of students with disabilities. Furthermore, the use of ICT leads to the destruction of age, time and place barriers and gives everyone lifelong learning opportunities. Currently, under various circumstances, people of all ages and backgrounds are constantly learning, creating a learning society of the XXI century. Given this fact, there are numerous studies indicating that computer-assisted education provides easy access to knowledge [3], and hypothetically extends worldview of all learners including children with disabilities. Since the utilization of communication and information technologies may expand skills in a particular field of activity among children with disabilities the main purpose of school teachers should be to address all children, including children with disabilities, and to give them proper knowledge with the help of ICT since the use of ICTs in terms of inclusive educational process will provide possibilities to increase the speed of information delivery, reducing the distance between students and teachers [7], as well as audience outreach. Moreover, ICTs create possible chances for reducing a number of time-consuming procedures; for instance, checking the completed assignments. While American educators apply ICT to inclusive education as they think it significantly reduces the number of problems and difficulties that come up during written work with children having musculoskeletal, speech and hearing disorders, European educators use ICT as it provides accomplices with opportunities to communicate with each other and to transfer their learning experiences [4].

Second phenomena which is inclusive education is significant for building knowledge and skills for children and necessary for their self-realization in the future. According to investigations, number of children with disabilities involved in inclusive education is several times higher than numbers of children involved in other types of education [1]. The major values of inclusive education are close collaboration with parents, provision of an individualized growth and education scheme. The central objective of inclusive education is to integrate students into social life by

learning altogether and utilizing programs of personal growth and education for everyone and with the adapted version to the needs of children.

Modern pedagogy members argue that working with disabled students in an inclusive classroom may be regarded as a challenge for teachers accustomed to teaching in the traditional classrooms [8]. Thus, teachers should be fully ready, aware of the basics and innovative methods for effective inclusive teaching. Modern pedagogy suggests several strategies for designing ICT-supported inclusive education. In the context of primary and secondary schools, students may be asked to write a simple letter about themselves, about their families or hobbies in Microsoft Word program and design it which may help them to spend time on the basic computer program and learn simple steps while preparing documents. Additionally, they may be taught to take notes and improve their study skills with the help of different note pad programs. In this scenario, they will not only be able to work on computer but also, they will develop their quick-thinking skills [6, p. 32] as they should listen carefully to the story, podcast, movie, cartoon, or teacher. Students can also create presentations and use internet for preparing projects, writing assignments, and engage in simple practical investigations. In some cases, students, teachers may also contact with each other via Zoom, Microsoft Teams or any other online platform that is supported by a particular educational setting. By means of online meetings, students will be able to communicate and interact on equal level and in an entertaining way. Additionally, teachers may divide students into smaller groups on virtual platforms for discussions related to course materials, finding answers to teachers' question, and preparing reports with their peers in a more interactive way which will boost their motivation and increase commitment to studies [5, p. 143]. However, developing a successful inclusive classroom with ICT may not be enough in some cases, consequently, it is crucial to uphold the same rigor and base Azerbaijani curriculum's methodological and pedagogic facets based on the document of UN Convention's rights of persons with disabilities [12], the law of the Republic of Azerbaijan on special education of people with disabilities [11], and the first report of the Republic of Azerbaijan on implementation of the UN Convention on the rights of persons with disabilities [9], and keep in mind that educational approaches, methods and strategies should be effectively built, improved and implemented on balance as it is a critical step for developing ICT-supported and well-designed inclusive classroom.

In Azerbaijan, inclusive education is in the center of rising attention and is based on the concept of multiple intelligence and individual differences [2]. President of the country, Mr. Ilham Aliyev and First Vice President, Mrs. Mehriban Aliyeva who are highly qualified figures of our country know the worth of education and development of society and is therefore working on numerous projects regarding enhancement of education system, promotion of ICT devices in school systems, and other development projects, including inclusive education. Their tremendous potential, strong leadership skills and incredible management abilities make the inclusive education a symbol of development, peace within the Azerbaijani educational system. Azerbaijani educators initiate new educational curricula, projects and endorse ICT use for a renewing Azerbaijan with the aim of supporting modern pedagogy, enhancement of powerful educational strategies, and development of inclusive and other types of education. Additionally, the global "Education for All movement", led by Azerbaijan UNESCO, aims to meet the learning needs of all children, youth and adults. Likewise, Ministry of Education of Azerbaijan Republic and Heydar Aliyev Foundation promote the ultimate goal of supporting all types of education, including inclusive education which they perceive as a mean of ensuring a quality education for all Azerbaijani community and to achieving wider social inclusion goals within Azerbaijani educational establishments. The law of the Republic

of Azerbaijan on children's rights [10] highlights the critical elements of education right for each children no matter of any condition and supports the inclusive education and promotes advantageous possibilities for assembling it in a high-level.

In conclusion, inclusive education is a globally widespread educational practice which creates conditions for right to education, for integration of children with disabilities into society. All over the world, children with disabilities face endless problems for equal participation in the educational society together with the rest. In Azerbaijan, rapid development of educational market and ICT provide innovative perspectives for students with special educational needs. Above all, the spread of ICT enhances student's participation in academic life, the high-level of adoption of technologies contributes to the creation of new prospects, leading to even greater achievements and triumphs of disabled children. Fortuitously, modernization of the education system for children with disabilities is very favorable and for continuing these attainments, educators should make full use of the innovative technologies, develop their computer literacy, and use their knowledge for the benefit of children.

REFERENCES

1. Forlin, C., & Loreman, T. (2014). Measuring inclusive education (First, Ser. International perspectives on inclusive education, vol. 3). Emerald Group Publishing Limited
2. Hajiyev E. (2006). *Children with disabilities: Inclusive Education Project*. Second Year Evaluation Report. Centre for Innovation in Education
3. Heemskerk, I., Volman, M., Admiraal, W., & ten Dam, G. (2012). Inclusiveness of ICT in education: Students' appreciation of ICT tools. *International Journal of Inclusive Education*
4. Mac Ruairc, G., Ottesen, E., & Precey, R. (2013). *Leadership for inclusive education: Values, Vision and Voices*. Sense Publishers. https://doi.org/10.1007/978-94-6209-134-4
5. Maddux, C., & Johnson, D. L. M. (2010). Global trends and issues in information technology in education. *Computers in the Schools*
6. Meskhi, B., Ponomareva, S., & Ugnich, E. (2019). E-learning in higher inclusive education: needs, opportunities and limitations. *International Journal of Educational Management*, *33*(3), 424–437. https://doi.org/10.1108/IJEM-09-2018-0282
7. Pijl, S. J., Meijer, C. J. W., & Hegarty, S. (1997). *Inclusive education: A global agenda*. Routledge
8. Sellman, E. (2011). *Creative learning for inclusion: Creative approaches to meet special needs in the classroom*. Taylor & Francis Publication
9. The first report of the Republic of Azerbaijan on implementation of the UN Convention on the Rights of Persons with Disabilities (2011) Retrieved from https://www.ecoi.net/en/file/local/1256145/1930_1380272478_uniondisabled-peopleorganizations-azerbaijan-crpd10.pdf
10. The Law of the Republic of Azerbaijan on Children's Rights (2012). Retrieved from https://cislegislation.com/document.fwx?rgn=5800#:~:text=All%20children%20have%20the%20equal,cannot%20be%20exposed%20to%20discrimination.
11. The Law of the Republic of Azerbaijan on Education (special education) of Persons
12. with Disabilities (2001). Retrieved from
13. http://www.undp.org/content/dam/azerbaijan/docs/sustain_development/AZ_Disability_Report_Eng.pdf

14. The UN Convention on the Rights of Persons with Disabilities "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya (UN, 2006)

XÜLASƏ
İNKLÜZİV TƏHSİLDƏ İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ: MÜASİR PEDAQOGİKA VASİTƏSİ İLƏ İKT DƏSTƏKLİ SİNFLƏRİN DİZAYNI

Şirinzadə L.A.

İnformasiya və kommunikasiya texnologiyaları (İKT) və inklüziv təhsil (İT) son zamanlar tədqiqat ictimaiyyəti və müəllimlər tərəfindən artan maraq görür. Buna baxmayaraq, bu konseptlər üzərində Azərbaycanda yetərincə araşdırmalar aparılmamışdır. Bu məqalə İKT və İT-in qarşılıqlı tətbiqinin əhəmiyyətini və tətbiqetmə strategiyalarını göstərəcək, Azərbaycan təhsil müəssisələri kontekstində bu konsepsiyalara nəzər yetirəcək. İT-in uğurlu təşkili və inkişafı İKT tətbiqi ilə yanaşı, paralel olaraq, təhsil yanaşmalarının, metodların və strategiyaların düzgün inkişafı və tətbiqinə əsaslanır.

Açar sözlər: informasiya və kommunikasiya texnologiyaları, inklüziv təhsil, təhsil strategiyaları, kurrikulum, əlilliyi olan uşaqlar, müasir pedaqogika, Azərbaycan təhsili

РЕЗЮМЕ
ПРИМЕНЕНИЕ ИНФОРМАЦИОННЫЕ И КОММУНИКАЦИОННЫЕ ТЕХНОЛОГИИ В ИНКЛЮЗИВНОМ ОБРАЗОВАНИИ: ПРОЕКТИРОВАНИЕ ИКТ КЛАССОВ С ПОМОЩЬЮ СОВРЕМЕННОЙ ПЕДАГОГИКИ

Ширинзада Л. А.

Информационные и коммуникационные технологии (ИКТ) и инклюзивное образование (ИО) в последнее время вызывают возрастающий интерес со стороны общества и преподавателей. Тем не менее, в Азербайджане для изучения этих тенденций было проведено мало исследований. Этот тезис иллюстрирует важность и взаимное выполнение стратегий ИКТ и ИО, рассматривает эти концепции в Азербайджанских образовательных учреждениях и подчёркивает что ИО можно развивать с помощью ИКТ, только если параллельно используются образовательные приемы, методы и стратегии.

Ключевые слова: информационные и коммуникационные технологии, инклюзивное образование, образовательные стратегии, kуррикулум, *дети-инвалиды*, современная педагогика, Азербайджанское образование

MÜNDƏRİCAT

PLENAR İCLAS

1. Əliyev R. Dağlıq Qarabağ müharibəsi və onun sosial psixoloji təhlili (ADPU) 3
2. Rüstəmov F. Şagirdlərdə öyrənmə fəaliyyətinin stimullaşdırılması(ADPU) 8
3. Məmmədova A.T. Azərbaycanda ibtidai təhsil sahəsində elmi-pedaqoji tədqiqatların əsas istiqamətləri (SDU) 10
4. Məmmədov C.H. Müəllim-tələbə münasibətlərinin formalaşmasında temperamentin rolu (SDU) 17
5. Мамедов Р.С. Фонетические позиции как воспитатели учащихся (СГУ).....21

I BÖLMƏ.
KORREKSİON PEDAQOGİKA VƏ PSİXOLOGİYANIN AKTUAL PROBLEMLƏRİ

1. Məmmədova M.İ. Kiçik yaşlı məktəblilərin əqli fəaliyyətinin inkişaf xüsusiyyətləri.(ADPU) 26
2. Məmmədova N.M. Tələbələrin adaptasiyasına təlim və imtahan stressının psixoloji təsiri.(ADPU).....30
3. Məmmədova S.Ə. Yeniyetmələrin emosional-iradi sferasının inkişaf xüsusiyyətləri. (BDU).....34
4. Məmmədrzayeva N.Q. Psixologiyada stress anlayışı və onun mahiyyəti. (SDU).....39
5. Qafarova S.M. Təlim prosesində yeniyetmələrin hafizəsinin inkişaf xüsusiyyətləri. (ADPU).....44
6. Quliyeva S.M. Valideyn və müəllim əməkdaşlığının müasir modellərinin valideynlərdə kompetensiyaların formalaşmasında rolu. (BSU) 48
7. Rzayeva N.T. Əqli fəaliyyət anlayışı və onun psixoloji səciyyəsi.(ADPU).....52
8. Rzayeva S.B. Kompüterdən istifadənin idrak prosesinə təsiri.(SDU) 56
9. Salamova K.B., Məmmədova S.İ. Psixologiyada özünüdərk problemi.(SDU).....59
10. Verdiyeva Ç.Q. Kiçik yaşlı məktəblilərin idrak tələbatlarının formalaşmasının psixoloji əsasları (ADPU).....63
11. Эфендиева Ф.Э. Формирование педагогической компетентности у будущих учителе начальных классов: историчность и современность. (БСУ).....68
12. Əhmədova F.E. Uşaqların məktəb təliminə hazırlanmasında ailə və məktəbəqədər müəssisənin qarşılıqlı əlaqəsi. (SDU).....72
13. Əliyeva L.M. İdrak maraqları təlim fəaliyyətinin aparıcı amili kimi. (SDU).....74
14. Аскерзаде Г.А. Влияние радио и телевизионных передач в повышении эстетической культуры школьников. (АТУ).....79
15. Orucəliyeva Ş.Ş. Məktəbəqədər yaş dövründə uşaqların psixi inkişafında oyunun rolu. (ADPU) 84
16. Azadəliyeva Ş.M. Azərbaycanda ali pedaqoji təhsilin inkişaf istiqamətləri (1920-1991-ci illər). (ADPU) 87
17. Bayramova Y.A. Pəltəklik, onun mahiyyəti və aradan qaldırılması yolları. (Bakı ş., 35 saylı məktəb) 91
18. Cəbrayılova R.N. Kiçik yaşlı məktəblilərin idrak maraqlarının inkişaf dinamikası. (ADPU).....94

19. Hacıyev Z.C. Fiziki tərbiyə dərslərində şagirdlərə voleybol oyunu ilə bağlı zəruri vərdişlərin aşılanmasının psixoloji əsasları. (ADBTİA) 98
20. Hacıyeva A.Ş. İnklüziv təhsili həyata keçirən mütəxəssislərin hazırlığına pedaqoji-psixoloji tələblər: emosional intellekt. (SDU) 103
21. Hüseynov Ş.Ə. İbtidai siniflərdə metodik işin təşkilinə nəzarət. (SDU) 107
22. Hüseynova İ.A. Ekstremal vəziyyətdə yaranan post-travmatik stress pozuntularının psixokorreksiyası. (SDU) 109
23. Həsənova N.N. Müasir ailələrin qarşılaşdığı psixoloji problemlər. (MDU) 114
24. İbrahimli N.N. Pozitiv düşüncənin şəxsiyyətin həyatında rolu. (SDU) 117
25. İsayeva Z.M. Tələbə şəxsiyyətinin özünəməxsus tipologiyası. (SDU) 120
26. İsazadə E.Ə. İdrak tələbatlarının psixoloji səciyyəsi.(ADPU) 124
27. İsmayılova R.H. Azərbaycanda yeni pedaqoji nəzəriyyələrin inkişafında professor B.B.Komarovskinin rolu. (SDU) 128
28. Kərimova S.A. Müasir təlim şəraitində idrakın fəallaşdırılması məsələləri. (SDU) 132
29. Muradlı A.H. Talassemiyalı uşaqların həyatında depressiv hallar (AU) 138
30. Avtandil Ağbaba Aşıq Sümmani poeziyasının əxlaqi-didaktik mahiyyətinə dair. (SDU) 142
31. Ağayev E.R. Orta məktəblərdə təsviri incəsənət fənninin tədrisi: problem və perspektivlər. (APDU) 145
32. Babayeva A.N. Mustafa Çəmənlinin “Yaddaş” povestində Səlimovun mənəvi deqredasiyası. (SDU) 147
33. Bayramov A.Ə., Babayeva A.N. Etnik kodumuz: Şuşa şəhərini yaşadan adlarımız. (SDU) 151
34. Cümənov D.A. Rəsul Rza poeziyasında insan fəlsəfəsi. (SDU) 155
35. Hüseynova G.T. Seyid Əzim Şirvaninin “Rəbiül-ətfal” dərsliyində öyüd və nəsihətlər. (SDU) 158
36. İskəndərov B.Ə. Məmməd Aslanın uşaq şeirlərində mənəvi- əxlaqi dəyərlərin inikası. (SDU) 160
37. İsmayılova Ə.Ş. Mirzə Ələsgər Növrəsin “Pəndi-ətfal” əsərinin didaktik və mənəvi-əxlaqi aspektləri. (AMEA) 162
38. Nağızadə S.E. Mənəvi tərbiyədə təbiət şeirlərinin rolu (Əşrəf Veysəllinin poeziyası əsasında). (SDU) 167
39. Yusifova K.Y.“Koroğlu” dastanının “Alı kişi” qolunda tərbiyə məsələləri. (BMU) 170
40. Mürsəlova A.A. Ümumtəhsil məktəbinin I sinif şagirdlərində oxu pozulmalarının müasir diaqnostikası. (ADPU) 173
41. Bayramova A.A. Nəsiminin şeirlərində işlənən sual cümlələri və ifadə vasitələri. (SDU) 177
42. Bunyatova A.B. Dillərarası ünsiyyətdə “konsept” (“ruh”) və “dil” (“hərf”) problemi. (SDU) 181
43. Bəşirova G.İ. EXCEL&VBA–da macrosların öyrədilməsi texnologiyası. (ADPU) 186
44. Hacıyeva G.K. İngilis dilində idiomların tədrisinə dair. (ADU) 191
45. İbrahimov R.M. Rəng terminlərinin leksik-semantik sahəsi tədqiqat obyekti kimi. (SDU) 194

46. Rahtari M.F. Azərbaycan dili dərslərində şagirdlərin müstəqill işləri. (SDU) 197
47. Vəliyeva S.V. Müasir ingilis dilində rəng bildirən sifətlərin leksik-semantik xüsusiyyətləri.(SDU) 200
48. Şükürova S.F. Yazili və şifahi nitq bacarıqlarının inkişafında sinifdənxaric oxu dərslərinin rolu. (ADPU) 203
49. Ahmadova G.B. Significance of new technological implementations in online education. (ASOIU) 206

II BÖLMƏ. İNKLÜZİV TƏHSİLDƏ FƏNLƏRİN TƏDRİSİ METODİKASININ XÜSUSYYƏTLƏRİ

1. Abbasova K.M. Xüsusi qayğıya ehtiyacı olan uşaqların həyatında inklüziv təhsilin əhəmiyyəti. (AU) 212
2. Abdullayeva G.M. Təlim prosesində (xarici dil dərslərinin nümunəsi əsasında) inklüzivliyin təmin olunması məsələləri. (ADU) 216
3. Baxşiyeva S.S. Əqli çatışmazlığı olan uşaqlarda nitqin formalaşdırılması yolları. (ADPU) 219
4. Eminli B.İ. İnklüziv təhsil dilin tədrisi çərçivəsində. (SDU) 223
5. Kərimova G.H. İnklüziv təhsildə innovativ metodlardan istifadə. (BDU) 225
6. Kərimova M.N. "Riyaziyyatın ibtidai kursunun tədrisi metodikasi" fənninin tədrisi prosesində inklüziv təhsilin öyrədilməsinin metodik sisteminin optimallaşdırılması. (ADPU) 228
7. Qasımova L.N. İnklüziv təhsildə mənəvi dəyərlər əsasında tərbiyə. (BDU) 233
8. Quliyeva K.R. İnklüziv təhsil anlayışı və onun yaranma kökləri. (ADPU) 237
9. Xasiyeva S.A. İnklüziv siniflərdə şagird müxtəlifliyinin nəzərə alınması və dərslərin təşkili. (ADPU) 243
10. Кулиева Т.А., Мусаева А.Т. Развитие инклюзивного образования – актуальный вопрос современности. (SDU) 247

III BÖLMƏ. CƏMİYYƏTƏ İNTEQRASİYA VƏ SOSİALLAŞMANIN AKTUAL PROBLEMLƏRİ

1. Dadaşzadə Ə.İ. Sosiallaşma cəmiyyətə inteqrasiya formulu kimi: şəxsiyyətin təşəkkülü. (SDU) 251
2. Hacıyeva S.B. Sağlamliq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyasının sosial-psixoloji faktorları. (NDU) 256
3. Həmzəyeva S.S., Məmmədova T.K. Cəmiyyətə inteqrasiyada bədii ədəbiyyatın rolu (İ.Əfəndiyevin nəsri əsasında). (SDU) 262
4. İsmayılova M.C. Müasir gənclərin sosiallaşmasının struktur meyarları. (ADPU) 266
5. Mammadali D.K. Adaptation of personality to society. (ADPU) 269
6. Mürsəliyeva X.M. Sosiolinqvistikada inteqrasiyaya yanaşma. (SDU) 272
7. Qəhrəmanova Q.N. Gender identikliyinin yaş modelləri. (ADPU) 276
8. Qənbərova G.A. İnklüziv təhsil cəmiyyətə inteqrasiyanın mühüm vasitəsi kimi (Şamaxı, A.S.Şirinov ad. tam orta məktəb) 280

9. Mirzəyeva S.S., Adıgözəlova Ş.Ə. Mədəniyyət şəxsiyyətin cəmiyyətdə sosiallaşmasının amili kimi. (SDU) 284
10. Səfərova Ş.M. Tək valideynli ailələrin cəmiyyətə inteqrasiya olmasına mane olan səbəblər. (ADMİU) 287
11. Həbibullayeva V.M. Uşaqların sosiallaşması və cəmiyyətə inteqrasiyasında kütləvi informasiya vasitələrinin rolu. (SDU) 290
12. Yaqubova N.Ş. Yardımlaşmadan yadlaşmaya. (ADMİU) 294
13. Əliyev A.Y. Metamodernizm: postmodern fərdin sosial adaptasiyası. (BDU) 300
14. Əliyeva S.Q. Şagird fəaliyyətinin sosiallaşmasında stimullaşdirmanın rolu.(ARTİ) 302

IV BÖLMƏ.
İNKLÜZİV TƏHSİLDƏ KOMPÜTER TEXNOLOGİYALARININ ROLU

1. Seyidova Ş.Ə. Öyrənmə çətinliyi olan kiçikyaşlı məktəblilərin təlim fəaliyyətinə kompüter texnologiyalarının təsiri.(ADPU) 306
2. Yunusova Ş.Ə. İnklüziv təhsildə informasiya-kommu-H nikasiya texnologiyalarının tətbiqi (SDU) 311
3. Şabanova S.Ə. İnklüziv təhsildə informasiya texnologiyalarından istifadənin faydası (ADPU) 315
4. Şirinzadə L.A. İnformation and communication technology implementation in inclusive education: designing ictsupported classes via modern pedagogy. (ADA University) 317

İXTİSARLAR

ADPU	Azərbaycan Dövlət Pedaqoji Universiteti
ADU	Azərbacyan Dillər Universiteti
ADA	ADA Universiteti
AMEA	Azərbaycan Milli Elmlər Akademiyası
AMİU	Azərbaycan Memarlıq və İnşaat Universiteti
ADİU	Azərbaycan Dövlət İqtisad Universiteti
ADMİU	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
ADNSU	Azərbacyan Dövlət Neft və Səanye Universiteti
ARTİ	Azərbacyan Respublikasının Təhsil İnstitutu
ATU	Azərbaycan Texniki Universiteti
AU	Azərbaycan Universiteti
ADBTİA	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
BDU	Bakı Dövlət Universiteti
BMU	Bakı Mühəndislik Universiteti
BSU	Bakı Slavyan Universiteti
MAA	Milli Aviasiya Akademiyası
MDU	Mingəçevir Dövlət Universiteti
NDU	Naxçıvan Dövlət Universiteti
SDU	Sumqayıt Dövlət Universiteti

MATERİALLARI

KONFRANS

2020 № 8

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

SDU

Redaksiya və nəşr işləri şöbəsi